TİKİNTİNİN İQTİSADİYYATI VƏ MENECMENT
ELMİ-PRAKTİKİ JURNAL

№ 2- 2026

CONSTRUCTION ECONOMICS AND MANAGEMENT SCIENTIFIC AND PRACTICAL JOURNAL

№ 2- 2026

ЭКОНОМИКА СТРОИТЕЛЬСТВА И МЕНЕДЖМЕНТ
НАУЧНО-ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

№ 2- 2026

B A K I – 2026

TİKİNTİNİN İQTİSADİYYATI VƏ MENECMENT

№ 2 - 2026

ELMİ-PRAKTİKİ JURNAL

2015-ci ildən nəşr ediir
İldə 4 dəfə nəşr ediir

Təsisçi:
Azərbaycan Memarlıq və İnşaat Universiteti

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan, Bakı şəh., AZ 1073, Ayna Sultanova küçəsi 11

Jurnal Universitetin "Biznesin iqtisadiyyatı və menecment" kafedrası tərəfindən hazırlanır və çapa təqdim edilir

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınıb. Reyestr № 4024. (02.12.2015)

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 04.07.2018-ci il tarixli № 11-R qərarı ilə Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövrü elmi nəşrlərin siyahısına daxil edilmişdir

Redaksiyanın ünvanı:

Memarlıq və İnşaat Universiteti, tel.: (+99412)538 92 83 daxili – 589, 497-05-13

E-mail: info@timjurnal.az

Jurnalın rəsmi saytı:
https://timjurnal.az/

Məqalələrdəki fikirlər müəlliflərə aiddir və Azərbaycan Memarlıq və İnşaat Universitetinin fikirləri ilə üst-üstə düşməyə bilər

SCIENTIFIC AND PRACTICAL JOURNAL

First published in 2015
It is published 4 times a year

Founder:
Azerbaijan Unıversıty of Archıtecture and Constructıon

Publisher address:
Azerbaijan, Baku, AZ 1073, Ayna Sultanova Street 11

The journal is being prepared and submitted for publication by the Department of Business Economics and Management of the Azerbaijan University of Architecture and Construction

Registered with the Ministry of Justice of the Republic of Azerbaijan. Register № 4024, (02.12.2015)

04.07.2018 of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan, the recommended period for the publication of the main results of dissertations in the Republic of Azerbaijan was included in the list of dissertations in the Republic of Azerbaijan. scientific publications According to the decision No. 11-R dated

Editorial office:

Azerbaijan University of Architecture and Construction, tel .: (+99412) 538 92 83 internal - 589, 497-05-13

E-mail: info@timjurnal.az

Official website of the magazine:
https://timjurnal.az

The opinions in the articles belong to the authors and may not coincide with the opinions of the Azerbaijan University of Architecture and Construction

BAŞ REDAKTOR EDITOR-IN-CHIEF

Məhəbbət Məmmədov
i.e.d., professor, "Biznesin iqtisadiyyatı və menecment" kafedrasının müdiri Azərbaycan Memarlıq və İnşaat Univ-ti

Makhabbat Mammadov
Doctor of Economics, Professor, Head of the Department "Business Economics and Management", AACU

BAŞ REDAKTORUN MÜAVİNİ

DEPUTY EDİTOR-İN-CHİEF

Ələsgər Əliyev
i.e.n., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti

Alasgar Aliyev
Candidate of Economic Sciences, Associate Professor, AACU

MƏSUL KATİB

EXECUTİVE SECRETARY

Lalə Ələkbərova
Azərbaycan Memarlıq və İnşaat Universiteti

Lala Alekperova
AACU

REDAKSİYA HEYƏTİ

EDITORIAL TEAM

Ziyad Səmədzadə
i.e.d., professor, akademik, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Ziyad Samedzade
Doctor of Economics, Professor, Academician, Azerbaijan National Academy of Science. Member of the Milli Majlis of the RA

Telman Əliyev
t.e.d., professor, akademik, Azərbaycan Milli Elmlər Akademiyası

Telman Aliev
Doctor of Technical Sciences, Professor, Academician, ANAS

Ahmet Vecdi Can (Makedoniya)
professor, doktor, Makedoniya Uluslararası Vizyon Universitetinin rektoru

Ahmet Vecdi Can (Makedoniya)
Professor, Doctor, Rector of Makedoniya International Vision University

Ahmet Kemal Çələbi (Türkiyə)
dr., professor, Manisa Cəlal Bayar Universiteti

Ahmet Kemal Chalabi (Turkey)
Doctor, Professor, Jalal Bayar Manisa University

Vahid Novruzov
i.e.d., professor, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri

Vahid Novruzov
Doctor of Economics, Professor, Chairman ofthe Audit Chamber of the RA

Vilayət Vəliyev
i.e.d., professor, Azərbaycan Texniki Universitetinin rektoru

Vilayat Valiyev
Doctor of Economics, Professor, Rector of Azerbaijan Technical University

İmran Əkpərov (Rusiya)
i.e.d., professor, Rusiya Federasiyasının İdarəetmə, Biznes və Hüquq İnstitut-n rektoru

Imran Akperov (Russia)
Doctor of economics, prof., Rector of the Inte of Management, Biz. and Law of the RF

Mustafa Miynat (Türkiyə)
dr., professor, Manisa Cəlal Bayar Universiteti

Mustafa Mynat (Turkey)
Doctor, Professor, Manisa Jalal Bayar Un-ty

Aleksey Harlanov (Rusiya)
i.e.d., professor, Rusiya Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası

Elşad Məmmədov
i.e.d., professor, Odlar Yurdu Universitetinin Strateji inkişaf və Beynəlxalq Əlaqələr üzrə Prorektoru

Aleksandr Siçinava (Gürcüstan)
i.e.d., professor, Gürcüstan Texniki Universiteti

Oksana Krivouçko (Ukrayna)
i.e.d., professor, Xarkov Milli Nəqliyyat və Avtomobil Yolları Universiteti

Ədalət Əliyev
t.e.d., i.e.d., nəqliyyat doktoru, professor, Azərbaycan Memarlıq və İnşaat Universiteti

Nadejda Boçarova (Ukrayna)
i.e.n., dosent, Xarkov Milli Avtomobil və Yol Universiteti

Andrey İvahnenko (Russiya)
t.e.d., Moskva Avtomobil-Yol Dövlət Texniki Universiteti

Kərim Atayev (Rusiya)
PhD, dosent, Rusiya Federasiyası Keyfiyyət Problemləri Akademiyasının müxbir üzvü

Tatyana Qalinskaya (Ukrayna)
t.e.n., dosent, "Yuri Kondratyuk adına Poltava Politexnika" Milli Universiteti

Evgeniy Rassoha (Belarus Respublikası)
i.e.d., dosent, Belarus Dövlət Texnologiya Universiteti

Lia Matçavariani (Gürcüstan)
c.e.d., professor, Tbilisi Dövlət Universiteti

İlgar Məmmədov
PhD,"DƏRYA İqtisad Cəmiyyəti" ictimai birliyi

Alexey Kharlanov (Russia)
doctor of economic sciences, professor, Diplomatic Academy of the Russian Foreign Ministry

Elshad Mammadov
doctor of Economic Sciences, Prof., Vice-Rector for Strategic Development and International Relations of Odlar Yurdu University

Alexander Sichinava (Georgia)
Doctor of Economic Sciences, professsor, Technical University of Georgia

Oksana Krivoruchko (Ukraine)
Doctor of Economics, Professor, Kharkiv NationalTransport and Highway University

Adalat Aliyev
Candidate of Technical Sciences, Doctor of Economics, Professor, AUAC

Nadejda Bocharova (Ukraine)
associate professor, Kharkov National Automobile and Road University

Andrey İvakhnenko (Russia)
Doctor of Technical Sciences, Moscow Automobile and Highway State Technical U-ty

Kerim Ataev (Russia)
PhD, Corresponding Member Academy of Quality Problems of the RF

Tatyana Galinskaya (Ukraine)
Doctor of Technical Sciences, Associate Professor, PPNU named after Y.Kondratyuk

Evgeniy Rassokha (Republic of Belarus)
associate professor, Belarusian State Technological University

Lia Matchavariani (Georgia)
doctor of geographical sciences, professor, Tbilisi State University

İlgar Mamedov
PhD, "DARYA Economic Society" public association

“Tikintinin iqtisadiyyatı və menecment” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin qərarı ilə “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı”nın iqtisad elmləri bölməsinə daxil edilib (04.07.2018-ci il,protokol №11-R)

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASI

“Tikintinin iqtisadiyyatı və menecment” jurnalının daxil edildiyi Milli və Beynəlxalq elmi məlumat bazaları və indekslər:

INDEX COPERNICUS INTERNATIONAL

РОССИЙСКИЙ ИНДЕКС НАУЧНОГО ЦИТИРОВАНИЯ Science Index

11 mart 2022- ci il tarixində 69-03/2022 nömrəsi ilə elmi sitatların MİLLİ BİBLİOQRAFİK MƏLUMAT BAZASINA (RİNC) daxil edilmişdir

INTERNATIONAL STANDARD SERIAL NUMBER

İSSN (İnternational Standard Serial Number) – dövri nəşrlər üçün nəzərdə tutulan beynəlxalq standart nömrə - İSSN 2519-2507

НАУЧНАЯ ЭЛЕКТРОННАЯ БИБЛИОТЕКА eLIBRARY.RU

Lisenziya müqaviləsi № 69-03/2022

Google scholar

AMK

Academic Resource Index ResearchBib

doi

İNFOBASE INDEX



“İQTİSADİYYATI GÜCLÜ OLAN DÖVLƏT HƏR ŞEYƏ QADİRDİR”

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV



Yeni hədəflər:

daha güclü iqtisadiyyat, daha qüdrətli ordu,
daha təminatlı həyat

İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti

AZƏRBAYCAN PREZİDENTİ VƏ GÜRCÜSTANIN BAŞ NAZİRİ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞ EDİBLƏR



Aprelin 6-da Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Gürcüstanın Baş naziri İrakli Kobaxidze bəyanatla çıxış etdi.

Baş nazir İrakli Kobaxidzenin bəyanatı

- Salam, Zati-aliləri cənab Prezident.

Hörmətli nazirlər.

Xanımlar və cənablar.

Media nümayəndələri.

Əvvəlcə Gürcüstanın əziz dostu cənab İlham Əliyevə Gürcüstana səfər etdiyinə görə səmimi təşəkkürümü bildirmək istəyirəm. Onun Gürcüstana gəlişi hamımız üçün xüsusi şərəfdir.

Cənab Prezident, Sizi Gürcüstanda qəbul etmək və həm ikitərəfli əməkdaşlığa aid məsələləri, həm də regiondakı cari prosesləri müzakirə etmək imkanından məmnunam. Mən bu fürsətdən istifadə edərək, bütün Gürcüstanın Katolikos Patriarxı, Zati-müqəddəsləri İkinci İlyanın vəfatı ilə əlaqədar Azərbaycanın və şəxsən Sizin verdiyiniz başsağlığına görə dərin təşəkkürümü bildirirəm.

Əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb. Bu, məntiqi olaraq, dövlətlərimiz arasında güclü strateji tərəfdaşlığı əks etdirir. Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir. Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk. Mən, həmçinin həmin münasibətlərin inkişafında xüsusi rol oynayan nümayəndə heyətinin üzvlərinə, hökumət üzvlərinə və səfirlərə təşəkkür edirəm.

Mən Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə Azərbaycanın verdiyi qəti dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm. Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdar qalacaq. Bu gün keçirilmiş görüş çərçivəsində, biz nəinki ikitərəfli münasibətləri, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə etdik.

Biz bu xüsusda Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayırıq. Gürcüstan dinc yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsü qəti şəkildə dəstəkləyir. Lazım olan təqdirdə, biz hər zaman dialoqa və sülh proseslərinə şərait yaratmağa hazırıq. Cənubi

Qafqaz ölkələri arasında əməkdaşlıq bütöv region üçün yeni perspektivlər açır. Qlobal geosiyasi dəyişikliklər, ümumiyyətlə, Orta Dəhlizin vacibliyini, o cümlədən Qara Dənizin və Cənubi Qafqazın strateji məkan kimi əhəmiyyətini daha da artırır.

Asiya ilə Avropanı birləşdirən körpü kimi ölkələrimiz daşımalarda mühüm rol oynayır. Bu baxımdan, biz nəqliyyat və logistika infrastrukturunun inkişafına və müasirləşdirilməsinə xüsusi önəm veririk. Gürcüstan ilə Azərbaycan dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlarıq.

Görüş zamanı biz, həmçinin ticarət və iqtisadi əməkdaşlıq perspektivlərini müzakirə etdik. Azərbaycan Gürcüstanın ən iri ticarət tərəfdaşlarından biri kimi qalır və həmçinin iqtisadi münasibətlərin artırılan sərmayələr sayəsində daha da dərinləşəcəyini gözləyirik. Biz yüksək səviyyədə dialoqu davam etdirməyə və müxtəlif sahələrdə əməkdaşlığı daha da dərinləşdirməyə hazır olduğumuzu ifadə etdik.

Əminəm ki, strateji tərəfdaşlığımız xalqlarımız və ölkələrimizin rifahı naminə uğurla inkişaf etdirməkdə davam edəcək. Prezidentin səfəri bu baxımdan mühüm rol oynayır.

Yekun olaraq, cənab Prezident, dövlətlərimiz arasında münasibətlərin gücləndirilməsinə verdiyiniz şəxsi töhfəyə, səfərə gəldiyinizə və məhsuldar əməkdaşlığa görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, ikitərəfli münasibətlərin dərinləşməsi və inkişafına verdiyiniz şəxsi töhfəyə görə xüsusən minnətdaram.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.

Prezident İlham Əliyevin bəyanatı

-Hörmətli cənab Baş nazir.

Əziz dostlar.

Cənab Baş nazir, dəvətə və qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən qardaş Gürcüstanda olmaq mənim üçün böyük şərəfdir. Əminəm ki, mənim səfərim iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman olduğu kimi bir yerdədir. Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir. Fürsətdən istifadə edərək, Gürcüstanın əldə etdiyi uğurlar münasibətilə Sizi və hökumətinizi təbrik etmək istəyirəm.

Gürcüstanın dinamik iqtisadi inkişafı göz önündədir. Gürcüstanda çox müsbət sərmayə iqlimi var və məhz buna görə bir çox investorlar, o cümlədən Azərbaycan investorları Gürcüstana böyük maraq göstərirlər. Təbii ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir. Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək.

Biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik. Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik.

Biz iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Mən səfərdən öncə arayışlara baxdıqda gördüm ki, keçən il bizim ticarət dövriyyəmiz 800 milyon dollardan çox olmuşdur və bu ilin ilk rübündə yenə də artım kifayət qədər yüksəkdir. Belə gedərsə, biz bəlkə də ilin sonuna qədər bir milyard rəqəminə də çatacağıq. Qeyd etdiyim kimi, Gürcüstanda mövcud olan çox müsbət sərmayə iqlimi Azərbaycan investorlarını da həvəsləndirir və bu günə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulmuşdur. Biz bu gün həm Azərbaycan, həm də Gürcüstan üçün yeni investisiya layihələri haqqında fikir mübadiləsi aparmışıq və nə vaxtsa üçüncü ölkələrə də birgə sərmayə qoyuluşu nəzərdə tutula bilər.

Təbii ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tama-

milə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir. Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim.

Cənab Baş nazir Azərbaycanla Ermənistan arasındakı sülh prosesinə də toxundu. Deyə bilərəm ki, bu prosesi gücləndirmək üçün, sadəcə olaraq, imzalanmış sənədlər yetərli deyil. Biz hər an, hər addım atıldıqda gərək bu sülhü gücləndirək və bunun ən yaxşı istiqaməti də ticarətdir. Bu gün Azərbaycanla Ermənistan arasında ticarət Gürcüstan vasitəsilə həyata keçirilir. Buna görə Gürcüstan hökumətinə öz təşəkkürümü bildirmək istərdim.

Azərbaycan energetika sahəsində uzun illər bir çox ölkələrin enerji təhlükəsizliyini gücləndirən addımlar atmışdır. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir. Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır. Biz sonra bu dəhlizlər üzərindən nəqliyyat dəhlizlərini də inşa etdik və bu gün nəqliyyat dəhlizlərinin genişləndirilməsi istiqamətində işlər aparılır. Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Bu bizim üçün əsas nəqliyyat damarıdır və bunu genişləndirmək üçün əlavə səylər də göstərilir və göstəriləcəkdir.

Bir sözlə, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik.

Fürsətdən istifadə edərək, qardaş Gürcüstan xalqına sülh, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik arzulayıram. Dəvətə və qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram.

https://doi.org/10.58225/tim.2026-2-11-17

M.A.Mammadov
doctor of Economic Sciences, professor,
Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0002-5327-2507
m.m.asirli@ mail.ru
S.R.Alakbarov
doktoral student, Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0009-0008-5271-6330
Saidalekperov1@gmail.com
Z.T.Mustafayeva
SOCAR Vice President
ziba.mustafayeva@socar.az

Məqalə redaksiyaya daxil olub 19.03.2026
The article was received by editorial board on 19.03.2026
Статья принята к печати 19.03.2026

ASSESSMENT OF BANKRUPTCY RİSK İN THE OİL AND GAS INDUSTRY

Abstract

The aim of the *study - is to conduct a practical assessment of the risk of bankruptcy among enterprises in Azerbaijan's oil and gas industry, based on relevant theoretical and methodological approaches, and to carry out appropriate tests.*

Research methodology *- the study employs methods of comparative analysis, logical generalisation, a systems approach and mathematical analysis.*

Practical significance of the study *- the results of the calculations can be utilised in the field of risk management within the oil and gas industry.*

Research findings *- it has been established that the risk of bankruptcy at enterprises in the oil and gas industry is at a low/manageable level. However, the tests conducted indicate the need to monitor the situation based on statistical variables.*

Originality and scientific novelty of the research *- the probability of bankruptcy has been calculated using the Altman model, and the relevant tests have been carried out.*

Keywords: *standard deviation, standard error, Altman model, bankruptcy, balance sheet, Z-score, coefficient of variation, etc.*

INTRODUCTİON

Following the well-known crisis of the 1930s, many economists sought to investigate the causes of crises that might arise within organisations in various countries. Such economic crises often increased the likelihood of firms going bankrupt. Consequently, from the second half of the 20th century onwards, attempts were made to predict the probability of organisations going bankrupt. Assessing the probability of bankruptcy occupies an important place in economic science and is particularly relevant in today's unstable business environment. Over the past period, a multitude of different mathematical and economic models have been developed.

It is clear that, however sound the current financial position of any debtor enterprise may be, it is difficult to assert that this will remain the case in the future or that no risks will arise. From this perspective, forecasting the probability of bankruptcy becomes a matter of critical importance.

Methodological approaches to assessing the risk of bankruptcy in enterprises

It is well known that, in order to assess the probability of bankruptcy, it is necessary to draw on various sources of information, which are typically based on quantitative indicators. In the modern era, such a database is composed of three main components[1.page.50]:.

- Calculation of the probability of bankruptcy based on historical data.
- Calculation based on financial statements.
- Calculation based on market data (share prices) and bond yields.

We believe that the two proposed criteria for assessing a company's likelihood of bankruptcy can be combined and presented in a single format, as companies' financial statements can also be characterised as historical data. An assessment based on historical data relies on past performance indicators and, in any case, reflects the organisation's financial position. These include:

- Financial statements;
- Balance sheet;
- Profit and loss account;
- Statement of changes in equity;
- Cash flow statement and other types of reports (statistical, tax, etc.).

When assessing the risk of a company's bankruptcy, it is necessary to conduct not a one-sided but a comprehensive, multi-dimensional financial analysis based on various data sources. In international practice, there are more than 25 methods for forecasting the probability of bankruptcy. One of the most widely used models for assessing the probability of an organisation's insolvency is the Altman model.

In 1968, the renowned American scholar Edward Altman attempted to calculate the probability of bankruptcy for 66 companies whose shares were listed on stock exchanges. In this context, his seminal work entitled 'Financial Ratios, Discriminant Analysis and the Prediction of Corporate Bankruptcy' gained widespread recognition that same year. Subsequently, this model was modified and updated on several occasions (in 1983, 1993, 2003 and 2007). In modern economic literature, it is known as the Altman ratio, the Altman formula or the Z-score model. In 1968, E. Altman developed a model for predicting insolvency by combining the financial data of 66 companies. Half of the sample consisted of companies that had been declared bankrupt, whilst the other half comprised successfully operating enterprises. In 1983, in the article 'Corporate Financial Distress', the author adapted the model for companies whose shares are not traded on the stock exchange (private companies), and in 1993, in the book 'Corporate Financial Distress and Bankruptcy', he presented a version of the model for non-manufacturing (service) companies. In 2003, his work 'Credit Risk Management: The Challenge of the New Millennium' was published for emerging markets.

The Altman model is a mathematical function based on indicators that characterise a company's economic potential and its performance over a retrospective period. In constructing the function, the relevant ratios were determined, the five most significant indicators for forecasting were selected, and a multiple regression equation was presented. E. Altman also proposed a simplified method for forecasting the probability of bankruptcy, based on just two indicators: the current liquidity ratio and the ratio of borrowings to total liabilities [2.p. 32].

$$Z = -0.3877 - 1.0736 * X_1 + 0.579 * X_2$$

Here:

Z - the total score indicating the degree of insolvency risk for the company;

X_1 - current liquidity ratio = current assets / current liabilities;

X_2 - capitalisation ratio = (long-term liabilities + short-term liabilities) / equity.

A value of Z > 0 is considered critical, indicating a high probability of bankruptcy for the company under analysis.

Given the price volatility in the energy sector of the global economy, one of the best-known methodological approaches to assessing risks in the oil and gas industry is the 'Z-SCORE' model.

The essence of this model lies in forecasting difficulties associated with financial risks. This modification of the model was proposed by E. Altman in 2007. The mathematical formula of the model is as follows [2, p. 33]:.

$$Z = 0.717 * X1 + 0.847 * X2 + 3.107 * X3 + 0.420 * X4 + 0.998 * X5$$

Where:

X_1 - the ratio of working capital of oil and gas companies to total assets;

X_2 - the ratio of retained earnings (profit after dividend payments) to total assets;

X_3 - the ratio of earnings before interest and taxes (EBIT) to total assets;

X_4 - the ratio of market value of capital to total assets;

X_5 - the ratio of total revenue (sales) to total assets

The Z-score obtained from the calculations is interpreted on the basis of the criteria set out in the table below. Consequently, Z-scores may vary within certain ranges. The possible Z-scores according to this table are shown below.

Table 1

Z-score differentiation zones

Z-score values	Bankruptcy probability indicator
When $Z \geq 2.9$	The probability of bankruptcy is close to 0.
When $1.23 < Z < 2.9$	The probability of bankruptcy is 15%-20%.
When $Z < 1.23$	The probability of bankruptcy is 80%-85%.

Source: *[2, p. 34].*

Scientific and theoretical methodological approaches indicate that the determination of risk probability is based on an analysis of their characteristics. From this perspective, the conduct of risk analysis at any business entity is dictated by operational necessity. Risk assessment using a risk matrix in oil and gas industry enterprises is carried out by multiplying the frequency of occurrence of a risk by its severity level, which can be expressed as follows [3, p. 121].

$$R = E * N$$

Where:

R - risk index;

E - risk occurrence frequency;

N - risk level (severity).

Observations confirm that, for effective risk management, it is necessary to assess the probability of bankruptcy on a regular basis. Such an assessment, as part of an effective risk management system, facilitates the timely identification of a wide range of issues.


Assessing bankruptcy risk in the oil and gas industry

As previously noted, the most widely used model for assessing the probability of corporate bankruptcy is the linear model proposed by Altman. Of particular interest is the assessment of the probability of bankruptcy for companies operating in Azerbaijan's oil and gas sector that publish their financial statements on official websites, such as "Caspian Drilling Company", "AZFEN", "Ateshgah

Insurance Company" as well as the "State Oil Company (SOCAR)", which comprises twenty-four oil and gas enterprises.

It should be noted that exceeding the critical risk threshold leads to bankruptcy, and in international practice, the probability of corporate insolvency is calculated periodically. From this perspective, the bankruptcy risk trend for "SOCAR", "Caspian Drilling Company", the joint oil and gas venture "AZFEN", and the insurance company "Ateshgah Insurance Company", which serves the oil and gas sector, can be presented as follows:

Figure 1. Trends in the risk of bankruptcy for "SOCAR", "AZFEN", "Caspian Drilling Company" and "Ateshgah Insurance Company" from 2019 to 2024.



The analysis conducted provides grounds for concluding that the risk of bankruptcy at the studied oil and gas companies is at a low or manageable level. An assessment of the probability of bankruptcy based on the Altman model showed that, the risk ratio for most companies fluctuated around or exceeded 2. However, for "Caspian Drilling Company" and "Ateshgah Insurance Company", the indicators fell below this level in several years (e.g., 2019, 2021, 2023).. This means that risks at enterprises in the oil and gas sector are at a manageable level.

Overall, summarizing the results of the bankruptcy risk assessment for enterprises in the oil and gas industry, it can be stated that during the period from 2019 to 2024, the risk ratio was greater than two. This indicates that at the analyzed enterprises, the risk is at a low or manageable level, typically varying within the range of 15–20% according to the Altman model criteria. In other words, it is at a manageable level.

Table 2

Bankruptcy risk scores for companies in the oil and gas sector based on the Altman model

Companies	***2019***	***2020***	***2021***	***2022***	***2023***	***2024***
Caspian Drilling Company	1.92	2.26	1.49	2.59	1.72	2.59
SOCAR	2.85	1.87	2.49	3.35	2.51	2.12
AZFEN	2.58	2.82	4.24	4.18	2.16	2.12
Ateshgah Insurance Company	2.02	1.81	1.44	1.41	1.64	2.04

Note: *This table is based on data published on the websites of the companies listed.*

In international practice, tests are conducted to determine how accurately indicators calculated using various models reflect reality. From this perspective, according to Student's t-distribution (t-test), if the standard deviation of an indicator is significantly smaller than the indicator's value itself (roughly estimated at less than 40%), then the value of this indicator is statistically significant at the 95% level; in other words, it is considered reliable (risk-free) with 95% confidence. In this regard, let us consider the following table. From this perspective, if we take the standard deviation to be the arithmetic mean of the indicator itself, the dynamics of changes can be represented as follows.

Table 3

Results of a statistical analysis of bankruptcy risk indicators in the oil and gas sector using the Altman model

Companies	Standard deviation	Standard error	Arithmetic mean
Caspian Drilling Company	0.42	0.65	2.10
SOCAR	0.48	0.69	2.51
AZFEN	0.88	0.94	3.02
Ateshgah Insurance Company	0.25	0.50	1.73

Note: *Compiled and calculated by the author based on the data in Table 2.*

It should be noted that the standard deviation is the square root of the variance, while the standard deviation indicates the degree to which values deviate from the arithmetic mean. As can be seen, the indicators for "Ateshgah Insurance Company" deviated from the arithmetic mean by 0.25 units, "SOCAR" by 0.48, "Caspian Drilling Company" by 0.42, and "AZFEN" by 0.88 units.

Another example of a test used in international practice is the use of the coefficient of variation. Thus, to understand the general nature of bankruptcy risk and determine whether this risk has become persistent and stable, the coefficient of variation is used in international practice for both the Altman model and the logit model. The coefficient of variation reflects the degree of relative variability of the calculated indicators. From this perspective, let us examine the mathematical formula for the coefficient of variation.

$$V = \frac{\sigma}{\bar{x}} * 100\%$$

Here, V represents the coefficient of variation, σ the standard deviation, and X the arithmetic mean.

The coefficient of variation determines the degree of stability of the calculated statistical indicators. The higher the coefficient of variation, the more unstable the parameters of bankruptcy risk development and the coefficients in the model are considered to be. In this regard, before proceeding to analyze the coefficients of variation for the bankruptcy risk of the companies "SOCAR", "AZFEN", "Caspian Drilling Company" and "Ateshgah Insurance Company" let us examine the qualitative characteristics of the coefficient of variation.

Table 4

Qualitative characteristic of the coefficient of variation

Significance of the coefficient of variation	Quality characteristic
Up to 33%	Situation is stable
Between 33-50%	Moderately stable situation
50% or more	Unstable

Source: *[p. 176, vol. 4].*

It is well known that the coefficient of variation is calculated as the ratio of the standard deviation to the mean and serves as a measure of the dispersion of a variable around its mean value. From this perspective, within the scope of this research, we will examine the statistical indicators of the coefficient of variation of bankruptcy risk at enterprises in the oil and gas industry for the period 2019–2024.

Table 5

Coefficient of variation of bankruptcy risk in oil and gas industry enterprises

Enterprises	***2019***	***2020***	***2021***	***2022***	***2023***	***2024***
Caspian Drilling Company	35.80	28.94	51.99	12.90	35.03	13.03
SOCAR	70.33	66.3	71.03	79.17	81.40	62.7
Azfen	117.4	120	125.3	125.6	111.32	105.6
Ateshgah Insurance	81.56	63.8	80.32	83.72	80.55	65.22

Note: *The table was calculated based on the company's internet data.*

Although there is no bankruptcy risk in oil and gas industry enterprises, the calculation of the coefficient of variation of the bankruptcy risk suggests that, With the exception of the “Caspian Drilling Company” joint venture, the development parameters of the bankruptcy risk and the coefficients in the model for other enterprises are unstable and require monitoring.

RESULT

Research shows that the Altman model is one of the most widely used approaches in international practice for assessing the probability of bankruptcy. In the course of this work, the risk of bankruptcy was calculated for companies in the oil and gas industry: “SOCAR”, “AZFEN”, “Caspian Drilling Company”, and “Ateshgah Insurance Company”. The analysis revealed that the risk of bankruptcy for these companies is at a low and manageable level.

Nevertheless, to verify the statistical significance of the calculated data, the ratio of the standard deviation to the value of the indicator itself was analyzed based on the Student’s t-distribution (t-test). It was established that the standard deviations are significantly lower than the mean values, which confirms the statistical significance and reliability of the obtained data at the 95% confidence level.

At the same time, a qualitative analysis of the coefficient of variation, used as an additional testing method, revealed the following: despite the absence of an immediate threat of bankruptcy at enterprises in the oil and gas industry, the parameters of this risk’s development and the coefficients in the model are characterized by instability, which necessitates their constant monitoring.

References:

1. Quliyev, Sh.B. (2021). Deposit insurance system: (Global approaches, modern perspectives). Baku, p. 267.

2. Abbasov, J. (2014). "Credit risks: z-score approach". Central Bank and Economy, No. 2, pp. 29–36.

3. Kasyanenko, T.G., & Makhovikova, G.A. (2019). Analysis and assessment of risks in business: Textbook and workshop for VET (2nd ed.). Moscow: Yurayt Publishing House, 381 p.

4. Hasanli, Y. (2014). Statistics: Practical examples. Baku, 566 p.

5. Biryukov, A.N., & Bagautdinova, G.M. (2021). "Logistic models (logit models) for assessing the risk of enterprise bankruptcy". Innovative Scientific Research, No. 2-1(4), pp. 78–89.

6. Dolgikh, Yu.A., & Volna, E.S. (2019). "Analysis of the efficiency of applying bankruptcy probability assessment models (on the example of Russian trading companies)". Siberian Financial School, December, pp. 121–129.

M.A.Məmmədov
i.e.d., professor, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0000-0002-5327-2507
S.R.Ələkbərov
doktorant, Azərbaycan Memarlıq və İnşaat Universiteti
ORCID 0009-0008-5271-6330
Z.T.Mustafayeva
SOCAR Vitse Prezident

Neft və qaz sənayesində iflas riskinin qiymətləndirilməsi

Xülasə

Tədqiqatın məqsədi *- müvafiq nəzəri və metodoloji yanaşmalara əsaslanaraq, Azərbaycanın neft və qaz sənayesindəki müəssisələr arasında iflas riskinin praktik qiymətləndirilməsini aparmaq və müvafiq testlər aparmaqdır.*

Tədqiqat metodologiyası *- tədqiqatda müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistem yanaşması və riyazi analiz metodlarından istifadə olunur.*

Tədqiqatın praktik əhəmiyyəti *- hesablamaların nəticələri neft və qaz sənayesində risklərin idarə edilməsi sahəsində istifadə edilə bilər.*

Tədqiqatın nəticələri *- neft və qaz sənayesindəki müəssisələrdə iflas riskinin aşağı/idarəolunan səviyyədə olduğu müəyyən edilmişdir. Lakin aparılan testlər vəziyyəti statistik dəyişənlərə əsasən izləmək ehtiyacını göstərir.*

Tədqiqatın orijinallığı və elmi yeniliyi *- iflas ehtimalı Altman modeli istifadə edilərək hesablanmış və müvafiq testlər aparılmışdır.*

Açar sözlər: *standart sapma, standart səhv, Altman modeli, iflas, balans hesabatı, Z-bal, variasiya əmsalı və s.*

https://doi.org/10.58225/tim.2026-2-18-27

R.T.Əliyeva
i.ü.f.d., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0000-0002-5214-006X
ruhangiz.aliyeva@azmiu.edu.az
Q.S.Qurbanova
Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0009-0007-0107-1686
garanfil.gurbanova@azmiu.edu.az

Məqalə redaksiyaya daxil olub 18.03.2026
The article was received by editorial board on 18.03.2026
Статья принята к печати 18.03.2026

AZƏRBAYCANDA KÜLƏK ENERGETİKASININ İNKİŞAFI VƏ ONUN ENERJİ SEKTORUNUN TRANSFORMASİYASINDA İQTİSADİ ROLU

Xülasə

Məqalədə Azərbaycanda külək energetikasının formalaşması və inkişaf xüsusiyyətləri, mövcud potensialı və enerji sektorunun transformasiyasında iqtisadi rolu kompleks şəkildə təhlil edilmişdir. Tədqiqat çərçivəsində külək enerjisinin qlobal inkişaf meyilləri, ölkədə həyata keçirilən əsas külək elektrik stansiyası layihələri və onların enerji təhlükəsizliyinə, ekoloji dayanıqlığa və sosial-iqtisadi inkişafa təsiri qiymətləndirilmişdir. Statistik məlumatların təhlili əsasında Azərbaycanda külək enerjisi istehsalının dinamikası 2020-2024 illər üzrə araşdırılmış, son illərdə müşahidə olunan azalma tendensiyalarının əsas səbəbləri müəyyən edilmişdir.

Məqalədə külək energetikasının inkişafına mane olan əsas problemlər – infrastrukturun yetərsizliyi, maliyyə mexanizmlərinin məhdudluğu, enerji şəbəkəsinə inteqrasiya çətinlikləri və texnoloji asılılıq analitik yanaşma ilə şərh edilmişdir. Bununla yanaşı, dəniz külək enerjisinin inkişaf perspektivləri, beynəlxalq investisiya əməkdaşlıqları və dövlətin "yaşıl enerji" strategiyası kontekstində bu sahənin gələcək imkanları elmi əsaslarla qiymətləndirilmişdir. Aparılan araşdırma göstərir ki, külək energetikasının genişləndirilməsi Azərbaycanın enerji sektorunun dekarbonizasiyası, iqtisadi şaxələndirilməsi və uzunmüddətli dayanıqlı inkişafının təmin edilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Açar sözlər: *külək energetikası, bərpa olunan enerji mənbələri, yaşıl enerji, enerji təhlükəsizliyi, dekarbonizasiya, dayanıqlı inkişaf, enerji sektorunun transformasiyası, dəniz külək enerjisi.*

GİRİŞ

Azərbaycan bərpa olunan enerji mənbələri, xüsusilə də külək enerjisi baxımından əlverişli təbii şəraitə malik ölkələrdən biridir. Ölkənin coğrafi mövqeyi və iqlim xüsusiyyətləri, xüsusilə Abşeron yarımadası və Xəzər dənizi sahilləri güclü və davamlı küləklərlə səciyyələnir. Mütəxəssislərin qiymətləndirmələrinə görə, Azərbaycanın külək enerjisi potensialı minlərlə meqavat həcmindədir ki, bu da enerji balansında külək enerjisinin payının artırılması üçün geniş imkanlar yaradır [13, 14].

Son illərdə Azərbaycanda külək energetikasının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Enerji sektorunun şaxələndirilməsi, ekoloji təmiz enerji istehsalının genişləndirilməsi və karbon emissiyalarının azaldılması məqsədilə bir sıra mühüm layihə-

lər həyata keçirilir. Xüsusilə Abşeron ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda külək elektrik stansiyalarının qurulması istiqamətində yerli və xarici investorlarla əməkdaşlıq genişlənməkdədir [2, 14].

Külək energetikasının inkişafı ölkənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verir. Bu sahə ənənəvi enerji mənbələrindən, xüsusən də neft və qazdan asılılığın azaldılmasına imkan yaradır. Eyni zamanda, külək enerjisi layihələri yeni iş yerlərinin açılmasına, texnologiyaların transferinə və regionların sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

Tədqiqatlar göstərir ki, Azərbaycanda külək energetikasının inkişafı yalnız enerji istehsalı baxımından deyil, həm də ekoloji tarazlığın qorunması və dayanıqlı iqtisadi inkişafın təmin olunması baxımından böyük əhəmiyyət daşıyır. Bu sahənin gələcəkdə daha da genişlənməsi ölkənin "yaşıl enerji" strategiyasının əsas dayaqlarından biri kimi qiymətləndirilir. [1, 16]

1. Külək energetikasının enerji sektorunun transformasiyasında rolu.

Külək enerjisinin ən böyük üstünlüyü ekoloji cəhətdən təmiz olmasıdır. Külək stansiyaları havaya zərərli qazlar buraxmır, torpaq və su resurslarını çirkləndirmir. Eyni zamanda, bu enerji növü tükənməzdir və sərbəst şəkildə əldə edilir. Davamlı və təkrar olunan enerji mənbəyi kimi külək enerjisi enerji təhlükəsizliyinin təminində də vacib rol oynayır. O, həm də iqtisadi baxımdan sərfəlidir, çünki işlədilməsi üçün əsasən ilkin investisiya tələb olunur və sonrakı dövrlərdə əməliyyat xərcləri azdır. [4, 5] Məlum olduğu kimi, külək enerjisi dünyada hidroenerjidən sonra ən çox qoyuluş gücünə malik bərpa olunan enerji mənbəyidir. Bu enerji növü adətən, yerin quru ərazisində inşa edilsə də, dəniz və okenalarda da bu enerji növünün gücündən istifadə olunur [14].

Dənizdə külək enerjisi ilə quruda külək enerjisi sistemlərinin bir neçə önəmli fərqləri var. Öncəliklə, dənizlər quru ərazilərlə müqayisədə daha küləkli olduğu üçün külək turbinləri daha böyük ölçü və gücə sahib olur. Misal üçün quruda fəaliyyət göstərən turbinlər əsasən 2.5-4 MVt (ən böyük 6 MVt) olduğu halda, dənizdə qurulan turbinlər 8-12 MVt-a qədər ola bilər. Digər bir önəmli fərq isə quruda küləkdən istehsal edilən enerjinin ucuz qiyməti kiçik ölçülü stansiyalara icazə versə də, dənizdə külək layihələri çox vaxt 1 GVt və ya daha böyük həcmli olur. Dənizdə və quruda külək enerjisinin üstünlükləri və çatışmazlıqlarını cədvəl şəklində göstərmək daha məqsədə uyğun olardı. [4, 8].



Şəkil 1. Quruda və dənizdə külək enerjisinin üstünlükləri və çatışmazlıqları. [10, 14].

Şəkil 1. qeyd etmədiyimiz əsas məqamlardan məlum olan ilk üstünlük quruda və dənizdə külək enerjisi təmiz, yenilənən və karbon emissiyalarını azaldan vacib enerji mənbəyinin olmasıdır. Quruda quraşdırılan turbinlər dənizdə quraşdıırlan turbinlərə nisbətən daha ucuz məbləğə başa gəlir. Həmçinin qeyd etmək lazımdır ki, quru ilə müqayisədə dənizdə quraşdırılan turbinlərin istismar müddəti mühitlə əlaqədar olaraq daha azdır. Dənizlərdə küləyin sürəti quru ilə müqayisədə daha sabit olduğu üçün dənizdə külək stansiyaları daha davamlı və yaxşı təxmin oluna bilən enerji istehsal edirlər. Quruda yerləşən stansiyalarla bağlı yaxın ərazilərdə yaşayan insanların şikayətləri (turbinlərin yüksək səsi, turbinlərin yerdə titrəmə yaratması iddiası, turbinlərin gün çıxarkən və batarkən yaratdığı böyük kölgə, turbinlərin gözə xoş olmayan görüntüsü və s.) dənizdə yerləşən stansiyalarda olmur. Dənizdə yerləşən stansiyalar üçün ərazi limitləri quru ilə müqayisədə daha rahatdır. [1], [8].

Cədvəl 1

Külək enerjisinin inkişafının sosial aspektləri

Sosial aspekt	Müsbət təsirlər	Mümkün çətinliklər	Azərbaycan nümunələri
Məşğulluq	Yeni iş yerlərinin yaradılması, yerli əhalinin işlə təmin olunması	Yüksək ixtisaslı kadr çatışmazlığı	Abşeron və Xızı rayonlarında külək enerjisi layihələrində yerli əhalinin işə cəlb olunması
Regionların inkişafı	İnfrastrukturun (yol, elektrik, rabitə) yaxşılaşması	Torpaq istifadəsi ilə bağlı narazılıqlar	Xızı–Abşeron külək enerjisi zonasında yeni texniki yolların salınması
İctimai sağlamlıq	Hava çirklənməsinin azalması, sağlam mühit	Səs-küy və vizual təsirlə bağlı narahatlıqlar	Bakı və Abşeron ərazisində alternativ enerji hesabına emissiyaların azaldılması
Enerji təhlükəsizliyi	Enerji asılılığının azalması, mənbələrin şaxələndirilməsi	Küləyin qeyri-sabitliyi	Azərbaycanın bərpa olunan enerji strategiyasında külək enerjisinin rolunun artırılması
Sosial qəbul və maarifləndirmə	Ekoloji şüurun artması	Məlumat çatışmazlığı səbəbilə etirazlar	Məktəblərdə və mediada bərpa olunan enerji ilə bağlı maarifləndirici layihələr
İnvestisiya cəlbi	Enerji balansını daha dayanıqlı etməsi	Yüksək ilkin investisiya xərcləri	Masdar (BƏƏ) və ACWA (Səudiyyə Ərəbistan) kimi nəhəng şirkətlərin layihələri ölkəyə birbaşa investisiyaların axınını təmin edir.

Mənbə: *(Azərbaycan nümunələri ilə) [14, 16].*

Cədvəl 1.1. göstərir ki, külək enerjisinin inkişafı sosial baxımdan çoxşaxəli təsirlərə malikdir və bu təsirlər bir-biri ilə sıx əlaqəlidir. Sosial aspektlər yalnız enerji istehsalı ilə məhdudlaşmır, eyni zamanda məşğulluq, regionların inkişafı, ictimai sağlamlıq və sosial sabitlik kimi sahələri əhatə edir. Məşğulluq müsbət təsirdir, amma təhsillə dəstəklənməzsə məhdud qalır. Regionların inkişafı ilə bağlı İqtisadi və sosial inkişaf mümkündür, ancaq ictimai razılıq əsas şərtdir. Külək enerjisinin hava çirklənməsini azaltması uzunmüddətli sosial fayda yaradır. Bu, cəmiyyətin sağlamlıq səviyyəsinə birbaşa müsbət təsir edir. Digər tərəfdən, səs-küy və vizual təsirlə bağlı narahatlıqlar sosial qəbul səviyyəsini azalda bilər. Enerji təhlükəsizliyi baxımından küləyin qeyri-sabitliyi sosial və iqtisadi risk yarada bilər. Bu isə alternativ enerji mənbələrinin birgə istifadəsinin vacibliyini ortaya qoyur. Külək

enerjisinin inkişafının sosial aspektləriindən biri də sosial qəbul və maarifləndirmənin inkişafıdır. Çünki, məlumat çatışmazlığı yanlış təsəvvürlər və sosial narazılıq yaradır. Bu, sosial aspektlərin uğurunun birbaşa ictimai məlumatlandırmadan asılı olduğunu sübut edir. Bu aspekt bütün digər sosial təsirlərin açar nöqtəsidir. [15, 16]

Ümumilikdə demək olar ki, külək enerjisinin sosial üstünlükləri çatışmazlıqlardan daha çoxdur**,** problemlər əsasən idarəetmə və maarifləndirmə çatışmazlığı ilə bağlıdır, düzgün planlama aparılarsa, sosial risklər minimuma endirilə bilər. [2]

2. Azərbaycanda külək enerjisi potensialı və mövcud inkişaf səviyyəsi.

Xızı-Abşeron Külək Elektrik Stansiyası.

240 MVt-lıq Xızı-Abşeron Külək Elektrik Stansiyası 9 yanvar 2020-ci il tarixində Azərbaycan Respublikası Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının ACWA Power şirkəti arasında İcra Sazişi imzalanmışdır. Sazişə əsasən, "ACWA Power" tərəfindən 240 MVt gücündə külək elektrik stansiyasının tikintisi üçün pilot layihə həyata keçirilməsi Bununla əlaqədar, 30 dekabr 2020-ci il tarixində Energetika Nazirliyi, "Azərenerji" ASC və Səudiyyə Ərəbistanı Krallığının ACWA Power şirkəti arasında 240 MVt gücündə külək elektrik stansiyası üzrə İnvestisiya müqaviləsi, Enerji Alqı-Satqı müqaviləsi və Ötürücü Qoşulma müqaviləsi imzalanmışdır. Ümumi quraşdırılmış gücü 240 MVt olan layihə Xızı rayonunun Sitalçay və Abşeron rayonunun Pirəkəşkül kəndlərində həyata keçiriləcəyi nəzərdə tutulmuşdur. [16]

2026-cı il tarixində Azərbaycan Prezidenti İlham Əliyev PowerChina Huadong Engineering Corporation Limited (HDEC) tərəfindən inşa edilən flaqman bərpa olunan enerji layihəsi olan 240 meqavattlıq Xızı-Abşeron Külək Elektrik Stansiyasının inşası başa çatıb. HDEC-ə görə, Xızı-Abşeron qurğusu Azərbaycanın ən böyük külək enerjisi layihəsidir. Tikinti işlərinə 2024-cü ilin mart ayında başlanılıb və stansiya 2025-ci ilin dekabr ayının sonuna qədər tam başa çatıb və istifadəyə verilib.

Abşeron və Xızı rayonlarında yerləşən 37 külək turbinli stansiyanın ildə təxminən 1 milyard kilovat-saat yaşıl elektrik enerjisi istehsal etməsi gözlənilir ki, bu da 300.000-dən çox ev təsərrüfatını enerji ilə təmin etməyə kifayətdir. [20]

Qobustan Hibrid Elektrik Stansiyası.

Qobustan Hibrid Elektrik Stansiyasında (HES) Külək Elektrik Stansiyası, Günəş Elektrik Stansiyası və Bioqaz Elektrik Stansiyası birgə çalışır. Burada külək, günəş və bioqazdan istehsal olunan elektrik enerjisi hibrid formada elektrik şəbəkəsinə ötürülür. [16]

Qobustan HES ilə kəndlər və rayonların enerji təminatının avtonom rejimdə ödənilməsi imkanlarının öyrənilməsi, stansiyada istehsal olunan elektrik enerjisi hesabına ilkin mərhələdə Qobustan şəhərinin, sonrakı mərhələdə isə Qobustan rayonunun enerjiyə olan tələbatının ödənilməsi nəzərdə tutulmuşdur.

Stansiyanın ümumi sahəsi 38 ha təşkil edir. Stansiya Qobustan rayonunun Qobustan şəhəri ərazisində yerləşir.

Stansiyanın layihə gücü 6,4 MVt təşkil edir. 2013-cü ildə stansiyanın tikintisinin I mərhələsində 3,6 MVt güc istifadəyə verilmişdir. Stansiyada istismara verilmə tarixindən 1 yanvar 2022-ci il tarixinədək 36,3 milyon kVt·st elektrik enerjisi istehsal edilmişdir.

Stansiya ərazisində koteclər yerləşir ki, həmin koteclər elektrik enerjisini və isti su təminatını günəş panelləri və günəş kollektorları hesabına ödəyir. [16]

Dənizdə külək enerjisi.

Xəzər dənizində və sahilyanı ərazilərdə külək enerjisinin potensialının öyrənilməsi və bu enerjinin gələcəkdə ölkənin enerji potensialındakı yerini müəyyənləşdirmək məqsədilə Energetika Nazirliyi Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ilə "Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi"nin hazırlanması istiqamətində əməkdaşlıq edir. [3]

Bu məqsədlə 2021-ci ildə "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Dünya Bankı Qrupu arasında dənizdə külək enerjisindən istifadə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır. Anlaşma Memorandumu əsasında nəzərdə tutulan işlər IFC-nin "Dənizdə Külək Enerjisinin İnkişafı Proqramı" çərçivəsi yerinə yetirilir.

"Azərbaycanda dənizdə külək enerjisindən istifadənin inkişafı üzrə Yol Xəritəsi"nin hazırlanması prosesi coğrafi məkan xəritələrinin tərtib olunması, zonaların müəyyənləşdirilməsi, iqtisadi, maliyyə, ekoloji və sosial aspektlərdə təhlillərin aparılması, təsirlərin qiymətləndirilməsi, icazə və razılıqların verilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, ötürücü şəbəkənin yenidən qurulması, təchizat zəncirinin öyrənilməsi kimi məsələləri əhatə edəcəkdir.

İlkin təhlillərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsində qiymətləndirilmişdir. Layihə çərçivəsində eyni zamanda dənizdə müvafiq layihələrlə bağlı tenderlərin təşkili, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər nəzərdə tutulur. Dənizdə mövcud olan bu potensialdan səmərəli istifadə yeni iş yerləri, həmçinin ölkə iqtisadiyyatına əlavə dəyər qazandıran imkanlar yaradacaqdır.

2025-ci ildə Xəzər dənizinin Abşeron yarımadasının şimal hissəsində dənizdə külək enerjisi istehsalı ilə bağlı beş müxtəlif ərazini müəyyənləşdirilmişdir. Bu ərazilərdə ən azı 10-15 giqavatlıq stansiya tikmək mümkündür. Hazırda həmin zonaların bərpa olunan enerji mənbələri ərazisi kimi elan olunmasını gözlənilir.

Daha sonra zəruri şəbəkə infrastrukturu (sahil infrastrukturu) quraşdırılmalıdır. Asiya İnkişaf Bankı (AİB) və Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) bu istiqamətdə təhlillərin aparılması üçün vəsait ayırıb.

Külək turbinini dənizdə quraşdırdıqdan sonra istehsal ediləcək elektrik enerjisini sahilə çıxarmaq üçün müəyyən ərazini təyin etmək mütləqdir. Digər mühüm məsələ dənizdəki turbinlərin ölçüsünün çox böyük (26 meqavatlıq turbinlər) olmasıdır. Dənizdə külək turbinləri quraşdırmaq üçün ilk öncə küləyin sürəti ölçülməlidir və ondan sonra ona uyğun külək turbinləri müəyyənləşdirilməlidir. Daha sonra turbinlərin çatıdırılması üçün logistik həllər təklif edilməlidir.

2022-ci ildə keçirilən Bakı Enerji Forumunda Azərbaycanın dəniz külək enerjisinin inkişafı üzrə Yol xəritəsini təqdim etdiyi bildirilib. Azərbaycanın Energetika Nazirliyinin Beynəlxalq Maliyyə Korporasiyası (IFC) və Dünya Bankı ilə birgə hazırladığı həmin Yol xəritəsində 2040-cı ilədək respublikamızın Xəzər şelfində ümumi gücü 7,2 QVt olan dəniz külək stansiyalarının quraşdırılması nəzərdə tutulub. [17]


Qeyd edək ki, bu, Azərbaycanın dekarbonizasiya və davamlı inkişaf sahəsində prioritetlərinə uyğundur. Dəniz külək enerjisinin quraşdırılmış gücü ölkənin enerji təchizatının 37 faizini gerçəkləşdirə bilər. Bundan əlavə, Azərbaycanda dəniz külək enerjisi mülayim templə inkişaf edərək 2040-cı ilədək quraşdırılmış gücünü 1,5 QVt-a çatdıracaq və 7 faiz karbonsuz enerji istehsalına nail olacaq. [17]

Azərbaycanın sözügedən yol xəritəsində dəniz külək enerjisinin potensialından istifadəyə dair tövsiyələr də var. Bunlara 2030 və 2036-cı illər üçün hədəflərin müəyyən edilməsi, 200 MVt gücündə pilot layihənin və daha sonra böyük layihələrin işlənib hazırlanması, dənizdə yeni külək enerjisi imkanlarının açılması, infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinin cəlbi məqsədilə qabaqcıl qlobal təcrübələrin tətbiqinə başlanılması və dayanıqlı dəniz külək layihələri üzrə bir sıra tədbirləri reallaşdırılması, eləcə də bu istiqamətlərdə dövlət təşkilatları əməkdaşlarının bilik və bacarıqlarının artırılması daxildir. [14]

Dəniz külək enerjisi mədən yanacaqlarına tələbatın labüd azalması fonunda ölkə üçün faydalıdır. Azərbaycan bərpaolunan resurslardan istifadə etməklə istehsal olunacaq enerjinin qlobal ixracatçısına çevrilmək niyyətindədir.

Qeyd edək ki, statistik göstəricilərə görə, Azərbaycanın bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bu göstəricilər iqtisadi potensial üzrə isə 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat və günəş enerjisi üzrə 23 min meqavatdır.

Beləliklə, təkcə "Xızı–Abşeron" KES layihəsinin uğurla gerçəkləşdirilməsi Azərbaycanın "yaşıl" enerji potensialının reallaşdırılmasını diqqətdə saxlamasından xəbər verir. Qeyd edək ki, BMT-nin iqlim dəyişikliyi ilə bağlı çağırışları və Avropa İttifaqının (Aİ) "Yaşıl razılaşma" proqramı "yaşıl" enerjiyə keçidi ölkəmizdə də geosiyasi prioritetlər sırasına çıxarıb. [11, 14, 16]



Qrafik 1. Külək elektrik stansiyalarının enerji istehsalı gücü (mild.KV) [14, 18]

Azərbaycanda son illər külək enerjisi istehsalında azalma tendensiyası müşahidə olunur. Qrafik külək elektrik stansiyalarının 2018–2024-cü illər üzrə enerji istehsal gücünü (mlrd kVt/saat kimi başa düşmək olar) göstərir**.** Ümumi dinamikada 2018–2019-cu illər ərzində artım müşahidə olunur (təxminən 0.093 → 0.105). 2019-cu ildən etibarən bu sahədə ardıcıl azalmalar qeydə alınıb. 2019-dan sonra isə davamlı azalma trendi başlayır. Külək elektrik stansiyalarının enerji istehsal gücü 2024-cü ildə ən aşağı səviyyəyə çatmışdır (~0.051).

Qrafikdən də göründüyü kimi, ən yüksək göstərici 2019-cu ildə, ən aşağı göstərici 2024-cü ildə qeydə alınıb. 2019-dan 2024-ə qədər külək elektrik stansiyalarının enerji istehsalı təxminən yarıbayarı azalıb.

Külək elektrik stansiyalarının enerji istehsal gücünün azalmasına aşağıda göstərilən səbəblər təsir edə bilər:

1. Meteoroloji səbəblər:

Külək elektrik stansiyalarının fəaliyyəti birbaşa küləyin sürətindən və davamlılığından asılıdır. Bəzi illərdə orta külək sürətinin aşağı olması və küləkli günlərin azalması istehsala mənfi təsir göstərmişdir.

2. Mövcud stansiyaların texniki məhdudiyyətləri:

Uzun müddət əsas yükü daşıyan stansiyalar kiçik gücə malik və daha köhnə texnologiya ilə işləyən qurğular olmuşdur. Köhnə turbinlər aşağı külək sürətində daha az effektiv fəaliyyət göstərir.

3. Yeni iri güclərin gecikməsi:

2020–2024-cü illərdə böyük həcmli yeni külək stansiyaları tam gücü ilə istismara verilməmişdir. Bu keçid dövründə ümumi istehsal göstəricilərində azalma müşahidə edilmişdir.

4. Enerji sistemində prioritetlər:


Azərbaycanın enerji sistemində əsas pay istilik və qaz əsaslı elektrik stansiyalarına aiddir. Bərpa olunan enerjinin ümumi payı az olduğuna görə külək sektorundakı dəyişikliklər statistikada daha kəskin görünür.

5. Şəbəkə və texniki məhdudiyyətlər:

Enerji ötürmə şəbəkəsinin imkanları, balanslaşdırma problemləri və enerji saxlama sistemlərinin məhdudluğu külək enerjisinin tam güclə sistemə inteqrasiyasını çətinləşdirə bilər.

3. Azərbaycanda külək energetikasının inkişafının problemlərli və gələcək perspektivləri.

Qrafik 2. Külək energetikasının inkişafına təsir edən problemlər (%)



Mənbə: ***[****Göstəricilər yerli tədqiqatlara əsasən müəllif tərəfindən faizləşdirilmişdir****]*** *[14, 16, 18]*

Təqdim olunan qrafik bir neçə yerli tədqiqatlara əsasən gəldiyimiz nəticə əsasında hazırlanıb. Qrafik Azərbaycanda külək energetikasının inkişafına təsir edən əsas problemləri və onların nisbi təsir səviyyəsini əks etdirir. Qrafikdən göründüyü kimi, ən yüksək təsirə malik problem infrastrukturun yetərsizliyidir. Bu, əsasən külək elektrik stansiyalarının, xüsusilə də dənizdə yerləşən layihələrin qurulması üçün zəruri olan nəqliyyat-logistika sistemlərinin, elektrik ötürücü xətlərin və texniki xidmət imkanlarının məhdudluğu ilə əlaqədardır. [14, 16, 18]

Maliyyə problemləri isə ikinci əsas maneə kimi çıxış edir. Külək enerjisi layihələri yüksək ilkin kapital qoyuluşu tələb etdiyindən, uzunmüddətli investisiya mexanizmlərinin və dövlət dəstək alətlərinin tam formalaşmaması bu sahənin inkişaf tempini zəiflədir. Enerji şəbəkəsinə inteqrasiya problemləri isə külək enerjisinin qeyri-sabit istehsal xüsusiyyəti ilə bağlıdır və bu, enerji saxlama texnologiyalarına olan ehtiyacı artırır.

Texnologiya və ixtisaslı kadr çatışmazlığı nisbətən aşağı təsir səviyyəsinə malik olsa da, uzunmüddətli perspektivdə külək energetikasının davamlı inkişafı üçün strateji əhəmiyyət daşıyır.

Bu problemlərin aradan qaldırılması ölkədə bərpa olunan enerji sektorunun güclənməsinə və enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verə bilər.

NƏTİCƏ

Aparılan araşdırma göstərir ki, külək energetikası Azərbaycanda enerji sektorunun struktur transformasiyasını təmin edən əsas bərpa olunan enerji istiqamətlərindən biridir və ölkənin uzunmüddətli enerji təhlükəsizliyi strategiyasında mühüm yer tutur. Külək enerjisinin tətbiqi ənənəvi enerji mənbələrindən asılılığın azaldılması, karbon emissiyalarının minimuma endirilməsi və "yaşıl iqtisadiyyat" modelinə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətli iqtisadi və ekoloji üstünlüklər yaradır.

Tədqiqat nəticələri təsdiq edir ki, Azərbaycanın külək enerjisi üzrə texniki və iqtisadi potensialı mövcud istehsal səviyyəsindən xeyli yüksəkdir. Xüsusilə Abşeron yarımadası və Xəzər dənizi hövzəsi quruda və dənizdə iri miqyaslı külək elektrik stansiyalarının yaradılması üçün əlverişli zonalar hesab olunur. "Xızı–Abşeron" külək elektrik stansiyası kimi layihələr ölkədə müstəqil enerji istehsalı modelinin formalaşmasına, xarici investisiyaların cəlbinə və bərpa olunan enerji bazarının institusional inkişafına mühüm töhfə verir. Bununla yanaşı, bu layihələr sosial-iqtisadi baxımdan regionların inkişafını stimullaşdırır və yeni məşğulluq imkanları yaradır.

Bununla belə, aparılan statistik təhlil son illərdə külək enerjisi istehsalında müşahidə olunan azalma tendensiyasının struktur problemlərlə bağlı olduğunu göstərir. İnfrastrukturun məhdudluğu, enerji ötürücü şəbəkələrin kifayət qədər çevik olmaması, yüksək ilkin investisiya tələbləri və maliyyə mexanizmlərinin yetərincə inkişaf etməməsi bu sahənin genişlənməsini əngəlləyən əsas amillərdir. Eyni zamanda, külək enerjisinin qeyri-sabit istehsal xüsusiyyəti enerji saxlama texnologiyalarının və çevik idarəetmə mexanizmlərinin tətbiqini zəruri edir.

Analiz nəticəsində müəyyən edilmişdir ki, külək energetikasının davamlı inkişafı üçün dövlət siyasətində kompleks və mərhələli yanaşma tələb olunur. Buraya ötürücü və paylayıcı şəbəkənin modernləşdirilməsi, dəniz külək enerjisi üzrə pilot layihələrin icrası, investorlara uzunmüddətli zəmanət mexanizmlərinin təqdim edilməsi və normativ-hüquqi bazanın təkmilləşdirilməsi daxildir. Bundan əlavə, ixtisaslı kadr hazırlığının gücləndirilməsi və elmi-tədqiqat işlərinin dəstəklənməsi texnoloji asılılığın azaldılmasına xidmət edə bilər.

Nəticə etibarilə, külək energetikası Azərbaycanda enerji sektorunun dekarbonizasiyası və iqtisadi şaxələndirilməsi baxımından yüksək strateji potensiala malikdir. Mövcud problemlərin sistemli şəkildə aradan qaldırılması və institusional islahatların dərinləşdirilməsi bu sahənin iqtisadi səmərəliliyini artırmaqla yanaşı, ölkənin regional və qlobal enerji bazarlarında mövqeyinin möhkəmlənməsinə imkan verə bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. R.T.Aliyeva. (2020). Economic evaluation and possibilities of using alternative sources of energy in the economy III International Azerbaijan-Ukrainian Scientific and Practical Conference «Building innovation 2020», pp. 345-347
https://scholar.google.ru/citations?view_op=view_citation&hl

2. R.T.Aliyeva, F.Z.Aliyev. (2023). Main directions of accelerating regional socio-economic development in the digital era Agora International journal of economic sciences, Ljubjana school of business N2 vol.17, pp.170-180
https://univagora.ro/jour/index.php/aijes/article/view/6454/2034

3. R.T.Aliyeva, F.Z.Aliyev. (2024). Internatıonal experıence of usıng renewable energy sources XII International scientific conference Toronto, Canada 26-27.11. №93 2024 pp.12-14.
https://www.sconferences.com/wp-content/uploads/2024/12/Toronto.Canada-12.pdf

4. R.T.Aliyeva. (2025). Green Economy: derections and prospects. Elmi əsərlər N1., AzMİU.2025pp.161-168.
https://azmiu.edu.az/upload/106/files/elmi%20eserler/ilovepdf_merged%20(1).pdf

5. Z.Əliyeva. (2025). "Azərbaycanın yaşıl enerji strategiyası", "Elmi tədqiqat" Beynəlxalq Elmi Jurnal, Bakı-2025, səh.193-196 https://aem.az/uploads/posts/2025/05/5.4-186-189.pdf

6. F.A.Dünyanalıyev. (2023). "Effective USE of alternative and renewable energy sources", Elmi Xəbərlər №3, İctimai və Texniki elmlər seriası, Bakı, səh. 232-236
https://journal.wcu.edu.az/uploads/files/20233ictimai33Dunyamaliyev%20F.pdf?utm_source=chatgpt.com

7. Türkan Şahvələdli. (2025). "Azərbaycanın bərpa olunan enerji siyasətində ekoloji innovasiyaların rolu", "Elmi İş" Beynəlxalq Elmi Jurnal, Bakı, səh.82-87 https://aem.az/uploads/posts/2025/06/Elmi%20%C4%B0%C5%9F%20-%2019_AEM_.pdf?utm_source=chatgpt.com

8. Nuran Bayramlı. (2025). "Xəzər dənizində külək enerjisindən istifadənin tədqiqi", "Elmi İş" Beynəlxalq Elmi Jurnal, Bakı, səh.148-150 https://aem.az/uploads/posts/2025/06/Elmi%20%C4%B0%C5%9F%20-%2019_AEM_.pdf?utm_source=chatgpt.com

9. Əfsanə Cəfərova. (2025). "Azərbaycanın "Yaşıl enerji"yə keçid siyasətində perspektivlər və çətinliklər", UNEC, İl 13, Cild 13, aprel –iyun, səh. 148-158, https://journals.unec.edu.az/sr/article/view/21/12

10. Р.Т.Алиева. (2025). Анализ состояния в сфере зеленной энергетики и перспективы дальнейшего развития AzMİU-nun Tikintinin iqtisadiyyatı və menecment jurnalı , N2 Bakı 2025 s.36-43 https://timjurnal.az/uploads/2025/04/1-2025-son-3.pdf

11. R.T.Aliyeva. (2025). Sosial-economik basis for the development of the green energy sector in Azerbaijan Azmiu-nun Tikintinin iqtisadiyyatı və menecment jurnalı , N 4, Bakı, 2025, s. 95-104. https://timjurnal.az/uploads/2025/12/4-2025-son.pdf

12. Bayramlı, N. (2023*).* Research on wind energy use in the Caspian Sea: Technical and economic evaluation. Azerbaijan Energy Journal, 12(3), 45-58. https://aem.az/en/research-on-wind-energy-use-in-the-caspian-sea

13. Hasanova, S.A. (2020). Renewable energy potential of Azerbaijan. ResearchGate. https://www.researchgate.net/publication/398987470_RENEWABLE_ENERGY_POTENTIAL_OF_AZERBAIJAN

14. Azərbaycan Respublikası Energetika Nazirliyinin saytı, https://minenergy.gov.az/

15. İntellinews, https://www.intellinews.com/

16. Azərbaycan Respublikası Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələrinin Dövlət Agentliyi,https://area.gov.az

17. International Finance Corporation, https://www.ifc.org/az/pressroom/2022/27010

18. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/

19. Xalq qəzeti, https://xalqqazeti.az/

20. https://english.news.cn/

R.T.Aliyeva
PhD, associate professor, Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0002-5214-006X
G.S.Gurbanova
Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0009-0007-0107-1686

Development of wind energy in Azerbaijan and its economic role in the transformation of the energy sector

Abstract

The article examines the formation and development of wind energy in Azerbaijan and evaluates its economic role in the transformation of the national energy sector. The study analyzes global trends in renewable energy development alongside key wind power projects implemented in Azerbaijan, assessing their impact on energy security, environmental sustainability, and socio-econo-

mic development. Based on statistical data, the dynamics of wind energy production in the country are examined, and the main factors behind the recent decline in production levels are identified.

Special attention is given to the key challenges hindering the expansion of wind energy, including insufficient infrastructure, high initial investment costs, limitations in financial support mechanisms, and difficulties related to grid integration. At the same time, the article highlights future prospects for wind energy development, particularly offshore wind projects in the Caspian Sea, international investment cooperation, and the role of state policy within the framework of Azerbaijan's "green energy" strategy. The findings indicate that the development of wind energy is of strategic importance for the decarbonization of the energy sector, economic diversification, and the achievement of long-term sustainable development goals in Azerbaijan.

Keywords: *wind energy, renewable energy sources, green energy, energy security, decarbonization, sustainable development, energy sector transformation, offshore wind energy.*

https://doi.org/10.58225/tim.2026-2-28-31

Ə.M.Əliyev
i.e.n., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0000-0002-5134-188X
elesger-eliyev@list.ru
R.M.Abbaslı
magistrant, Azərbaycan Memarlıq və İnşat Universiteti PHŞ
abasli_reshad@mail.ru

Məqalə redaksiyaya daxil olub 23.03.2026
The article was received by editorial board on 23.03.2026
Статья принята к печати 23.03.2026

İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏR KONTEKSTİNDƏ REGİONAL İDARƏETMƏDƏ MÖVCUD VƏZİYYƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə regional inkişafı şərtləndirən idarəetmə modellərinin nəzəri-metodoloji əsasları araşdırılmış, regional idarəetmədə mövcud problemlər və məhdudiyyətlər müəyyən edilmiş, həmçinin işğaldan azad olunmuş ərazilərin bərpası kontekstində səmərəli idarəetmə mexanizmləri elmi cəhətdən əsaslandırmaqdır. Daha sonra məqalədə regionların iqtisadi fəallığını məhdudlaşdıran bir sıra amillər sırasında nəqliyyat-kommunikasiya infrastrukturunun qeyri-bərabər inkişafı, enerji və su təchizatı sistemlərində mövcud çatışmazlıqlar göstərilmişdir. Sonda regional inkişaf modellərinin səmərəli surətdə tətbiq olunmasına baxmayaraq institusional əlaqələndirmənin tam formalaşmaması, yerli özünüidarəetmə institutlarının zəifliyi, özəl sektorun regional layihələrdə iştirakının aşağı səviyyədə olması kimi bir sıra problemlərin qalması vurğulanmışdır:

Açar sözlər: *regional inkişaf, regional idarəetmə, infrastruktura, özəl sektor, iqtisadi siyasət, innovativ model, investisiya cəlbediciliyi, infrastruktur layihələri, enerji təminatı, iqtisadi fəallıq.*

GİRİŞ

Məlum olduğu kimi regional inkişafın səmərəli idarə olunması dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən hesab olunur.. Regionlar arasındakı fərqlərin aradan götürülməsi, resursların optimal bölüşdürülməsi, sosial-iqtisadi tarazlığın təmini, və dayanıqlı inkişafın əldə olunmasında ağırlıq mərkəzi müxtəlif idarəetmə modellərinin tətbiqi üzərinə keçirilməlidir.Belə bir şəraitdə regional idarəetmə sisteminin institusional dayanıqlılığı və səmərəliliyi ərazilərin bərpası və reinteqrasiyasından bilavasitə aılı olur. Ona görə də dövlət siyasətinin əsas prioritetləri sırasında işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yenidən qurulması və bərpası ilə yanaşı müasir regional idarəetmə modelinin rolu strateji istiqamət kimi xüsusilə vurğulanmalıdır.Bu baxımdan elmi əsaslandırılmış qərarların qəbulu üçün regional inkişaf şərtləndirən idarəetmə modelləri təhlil edilməli, mövcud problemlər və institusional məhdudiyyətlər müəyyən edilməlidir.

1. Regional inkişafın nəzəri əsasları və idarəetmə modelləri

İqtisadi mənbələrdə iqtisadiyyatın ərazi üzrə tarazlı və dayanıqlı inkişafını təmin etməyə yönəldilmiş çoxsahəli və kompleks proses olaraq regional inkişafın neoklassik, institusional yanaşma, və yeni iqtisadi coğrafiya konsepsiyası kimi müxtəlif nəzəri yanaşmaları mövcuddur. “Regional inkişafın effektivliyi dövlətin məqsədyönlü iqtisadi siyasəti və institusional mexanizmlərin düzgün qurulma-sından asılıdır” (4, s. 98).

Neoklassik yanaşmaya görə, regional fərqlər bazar mexanizmləri vasitəsilə tədricən azalır və resursların sərbəst hərəkəti regional tarazlığı təmin edir. Lakin praktiki təcrübə göstərir ki, institusional və infrastruktur məhdudiyyətləri bu prosesi ləngidə bilir. Bu səbəbdən müasir regional siyasətdə dövlətin aktiv tənzimləyici rolu zəruri hesab olunur (6,s.112). Başqa sözlə desək, dövlətin görünməz əli bazarın görünən əlilə tamamlanmalıdır.

Regional idarəetmə modelləri əsasən aşağıdakı formalarda təsnifatlaşdırılır:

- mərkəzləşdirilmiş idarəetmə modeli;
- qeyri- mərkəzləşdirilmiş model;
- klaster və şəbəkə əsaslı idarəetmə modeli;
- "ağıllı region" konsepsiyasına əsaslanan innovativ model.

İnzibati-amirlik sistemində bərpa proseslərinin koordinasiyası üçün daha səmərəli hesab olunan mərkəzləşdirilmiş model resursların vahid strateji mərkəzdən idarə olunmasını nəzərdə tuturdu. Qeyri-mərkəzləşdirilmiş model isə yerli idarəetmə orqanlarının səlahiyyətlərinin genişləndirilməsi yolu ilə regional təşəbbüslərin stimullaşdırılmasına yönəlir (Rodriguez-Pose, 2018, s. 67).

2. Regional idarəetmədə mövcud problemlər və institusional məhdudiyyətlər

Regional idarəetmə sisteminin səmərəliliyinə neqativ təsir edən əsas çatışmazlıqlar institusional, iqtisadi, sosial və infrastruktur amillərlə şərtlənməklə çoxşaxəli xarakter daşıyır. Əsas çatışmazlıqları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Regional idarəetmədə institusional əlaqələndirmənin zəifliyi, səlahiyyətlərin bölüşdürülməsində qeyri-müəyyənlik və mərkəzləşdirilmiş idarəetmə qərarlarının sisteminin mövcudluğu regional təşəbbüslərin operativliyini xeyli azaldır.

2) Regional inkişafda disproporsiyaların mövcudluğu. Buna əsas səbəb kimi regionlar üzrə investisiya cəlbediciliyinin qeyri-bərabərliyi, istehsal potensialının məhdudluğu və maliyyə resurslarının qeyri-bərabər bölgüsünü göstərmək olar. Prof. Z.Məmmədov qeyd edirdi ki, "Regionlararası sosial-iqtisadi fərqlərin azaldılması üçün kompleks yanaşma və dövlət tənzimlənməsi zəruridir" (5, s. 135).

Əli Ələkbərov isə "Regional inkişafda institusional mühitin formalaşmasını iqtisadi artımın davamlılığını təmin edən əsas amillərdən olması qənaətindədir" (3, s. 76).

Bizim fikrimizcə, məsələyə müxtəlif aspektlərdən yanaşsaq hər iki müəllifin fikirləriylə razılaşmalıyıq.Belə ki, regional inkişafda institusional mühitin formalaşması və sosial-iqtisadi fərqlərin azaldılması üçün dövlət tənzimlənməsinin zəruriliyi xüsusi önəm daşıyır.

Bütün bunlarla yanaşı regionların iqtisadi fəallığını məhdudlaşdıran bir sıra amillər mövcuddur. Onların sırasına nəqliyyat-kommunikasiya infrastrukturunun qeyri-bərabər inkişafı, enerji və su təchizatı sistemlərində mövcud problemləri aid etmək olar.

3) Regional idarəetmənin sosial səmərəliliyinə mənfi təsir göstərən amillər sırasına, həmşinin məhsuldar qüvvələrin ayrı-ayrı regionlar üzrə qeyri-bərabər yerləşməsi, miqrasiya prosesləri və əmək bazarının struktur problemləri də aiddir.

3. İşğaldan azad olunmuş ərazilərdə regional idarəetmənin spesifik xüsusiyyətləri

Post-münaqişə dövründə regional idarəetmənin əsas vəzifəsi dağıdılmış infrastrukturun bərpası, iqtisadi fəaliyyətin yenidən qurulması və əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsidir. Bu baxımdan işğaldan azad olunmuş ərazilər üzrə tətbiq olunan idarəetmə modeli klassik regional idarəetmə mexanizmlərindən fərqli olaraq daha çox mərkəzləşdirilmiş koordinasiya və layihə əsaslı yanaşma ilə səciyyələnir."Azad olunmuş ərazilərdə iqtisadi fəallığın bərpası dövlət investisiyaları və infrastruktur layihələri ilə birbaşa bağlıdır" (2, s. 54).

Belə ki, 2020-2025-ci illərdə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına 15-20 mlrd.man. investisiya qoyulmuşdur. Əgər 2020-ci ildə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına təqribən 1,5 mlrd.man. investisiya qoyulmuşdursa, bu göstərici 3 dəfədən də çox artaraq 4,9 mlrd.man. olmuşdur. 2025-ci ildə bu vəsaitlərin 2,63 mlrd.

man. və ya 53,7 %-I Şərqi Zəngəzur, 2,27 mlrd man. və ya 46,3%-i isə Qarabağ iqtisadi rayonuna yönəlmişdir. İlk dövrlərdə əsas vəsait elektrik xətlərinin çəkilişi, minatəmizləmə və yol infrastrukturu üçün nəzərdə tutulsa da, hal-hazırda əsas vəsaitlər Böyük qayıdış layihəsinə, Zəngilan və Laçın şəhərlərinin infrastrukturunun bərpasına,sənaye sahələrinin (Ağdam Sənaye Parkı, Araz Vadisi İqtisadi Zonası), Şuşa və Kəlbəcər rayonlarında turizmin və social sektorun inkişafına yönəlmişdir. Kəlbəcər və Laçın rayonlarının zəngin mineral və termal su ehtiyatları bu ərazilərdə termal turizmin inkişafı üçün əlverişli şərait yaratmaqla yanaşı, həm də bu resurslar əsasında müasir kurort və sağlamlıq mərkəzləri yaradıla bilər. Bütün bunlar isə həm regionda turizmin cəlbediciliyini artırar, həm də qeyri-neft sektorunun inkişafına mühüm töhfə verə bilər.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə bərpa prosesləri dövlət proqramları və iri miqyaslı infrastruktur layihələri vasitəsilə həyata keçirilir. Bu yanaşma resurslardan səmərəli istifadə və bölgüsünü, layihələrin operativ icrasını təmin etməyə yönəlmişdir.

Aparılan araşdırmalar göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yol-nəqliyyat infrastrukturu yenidən qurulur, enerji təminatı sistemləri müasir texnologiyalar əsasında formalaşdırılır, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyalarına əsaslanan yeni məskunlaşma modelləri tətbiq edilir, dövlət investisiyalarının əhəmiyyətli hissəsi bu regionlara yönəldilir (1. səh 19). Bu isə regional idarəetmədə inteqrasiya olunmuş, mərkəzləşdirilmiş-strateji modelin tətbiq olunduğunu göstərir. Regional inkişaf modelləri səmərəli surətdə tətbiq olunsa da institusional əlaqələndirmənin tam formalaşmaması, yerli özünüidarəetmə institutlarının zəifliyi, özəl sektorun regional layihələrdə payının hələlik aşağı səviyyədə olması kimi bir sıra problemlər qalmaqdadır. Qeyd etmək lazımdır ki son illərdə bir sıra regional layihələrdə özəl sektorun xüsusi çəkisi sürətlə artmaqdadır.

NƏTİCƏ

Aparılan araşdırmalar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Dövlətin müasir iqtisadi siyasətinin səmərəli həyata keçirilməsində ağırlıq mərkəzi regional inkişaf və idarəetmə modellərinin üzərinə düşür. Regional idarəetmənin səmərəliliyi yalnız iqtisadi resursların bölgüsü ilə deyil, həm də institusional koordinasiya, infrastruktur təminatı və sosial-demoqrafik amillərin kompleks şəkildə nəzərə alınması ilə müəyyən olunur.

2. Nəzəri yanaşmaların müqayisəli təhliliindən görünür ki, post-münaqişə şəraitində -strateji idarəetmə modeli ilkin mərhələdə daha əlverişli nəticələr versə də, lakin uzunmüddətli perspektivdə qeyri-mərkəzləşdirilmiş elementlərlə tamamlanmalıdır.

3. Regional idarəetmədə mövcud çatışmazlıqlar əsasən investisiyaların qeyri-bərabərliyi, infrastruktur məhdudiyyətləri və sosial-demoqrafik disbalanslarla bağlıdır. Bu çatışmazlıqlar regional siyasətin inklüziv və davamlı model əsasında təkmilləşdirilməsini obyektiv zərurətə çevirir.

4. İşğaldan azad olunmuş ərazilərin bərpasında qısa müddətdə infrastruktur layihələrinin yenidən qurulması, iqtisadi aktivliyin təmin olunması və yeni məskunlaşma sistemlərinin formalaşdırılması nöqteyi-nəzərindən mühüm nəticələr vermişdir. Bu proseslərin davamlılığının təmin edilməsində yerli özünüidarəetmə institutlarının gücləndirilməsi və özəl sektorun iştirakının genişləndirilməsi böyük əhəmiyyətə malikdir.

5. Regional inkişaf və idarəetmə modellərin təkmilləşdirilməsi üzrə optimal yanaşma mərkəzləşdirilmiş strateji idarəetmə ilə qeyri-mərkəzləşdirilmiş elementlərinin sintezindən ibarət kompleks modelin tətbiqidir. Bu model regional resurslardan səmərəli istifadəni, sosial-iqtisadi tarazlığın təmin edilməsini və dayanıqlı inkişafın reallaşdırılmasını təmin edə bilər. Bu baxımdan həyata keçirilən regional siyasət ümumilikdə Azərbaycan Respublikasında yeni inkişaf mərhələsinin institusional əsaslarını formalaşdırır.

6. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiyanın əsas hissəsinin infrastrukturun bərpası və tikintiyə yönəldilən bu layihə dövrünün ən böyük dövlət investisiya layihəsi hesab olunur.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasında işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafına dair dövlət proqramı üzrə materiallar. – Bakı, 2022, s. 15–28.

2. Bayramov V. (2021). Qarabağ iqtisadiyyatının bərpası və inkişaf perspektivləri. – Bakı, 120 s., s. 50–60.

3. Ələkbərov Ə.H. (2018). Regional iqtisadiyyat və idarəetmə. – Bakı: Elm, 312 s., s. 72–89.

4. Həsənov Ə.M. (2020). Azərbaycanın regional inkişaf strategiyası. – Bakı: Şərq-Qərb, 284 s., s. 94–112.

5. Məmmədov Z.F. (2019). Dövlətin regional iqtisadi siyasəti. – Bakı: İqtisad Universiteti nəşriyyatı, 256 s., s. 133–148.

6. Barro R. (2015). Economic Growth. – MIT Press, 672 p., s. 110–118.

A.M.Aliyev
Candidate of Economic Sciences, Associate Professor,
Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0002-5134-188X
R.M.Abbaslı
master student, Azerbaijan University of Architecture and Construction PLE

Assessment of the current situation in regional administration in the context of occupied territories

Abstract

The article examines the theoretical and methodological foundations of management models that determine regional development, identifies existing problems and limitations in regional management, and also scientifically substantiates effective management mechanisms in the context of the restoration of liberated territories. Further, the article indicates the uneven development of transport and communication infrastructure, existing shortcomings in energy and water supply systems, among a number of factors limiting the economic activity of regions. Finally, it was emphasized that despite the effective application of regional development models, a number of problems remain, such as the incomplete formation of institutional coordination, the weakness of local self-government institutions, and the low level of participation of the private sector in regional projects:

Keywords: *regional development, regional management, infrastructure, private sector, economic policy, innovative model, investment attractiveness, infrastructure projects, energy supply, economic activity.*

https://doi.org/10.58225/tim.2026-2-32-38

V.İ.İsmayılov
professor, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
ORCID 0000-0003-0892-0365
ismayilov1953@mail.ru
Ü.R.İbrahimxəlilova
magistrant, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
musaibova93@mail.ru

Məqalə redaksiyaya daxil olub 11.03.2026
The article was received by editorial board on 11.03.2026
Статья принята к печати 11.03.2026

DAYANIQLI İNKİŞAF VƏ SOSİAL SİYASƏT KONTEKSTİNDƏ ƏHALİNİN HƏYAT SƏVİYYƏSİ

Xülasə

Məqalədə dayanıqlı inkişaf və sosial siyasət kontekstində əhalinin həyat səviyyəsinin formalaşması və yüksəldilməsi məsələləri araşdırılmışdır. Tədqiqat çərçivəsində həyat səviyyəsinin iqtisadi və sosial determinantları təhlil edilmiş, iqtisadi artım, məşğulluq, sosial müdafiə sistemi və insan kapitalının inkişafı kimi amillərin həyat səviyyəsinə təsiri qiymətləndirilmişdir. Araşdırma nəticəsində müəyyən edilmişdir ki, həyat səviyyəsinin davamlı yüksəldilməsi üçün iqtisadi artımın sosial səmərəliliyinin artırılması, inklüziv sosial siyasətin tətbiqi və insan kapitalına yönəlmiş investisiyaların genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Məqalədə dayanıqlı inkişaf prinsipləri əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində elmi-praktiki təkliflər irəli sürülmüşdür.

Metodologiya - *Tədqiqat zamanı elmi abstraksiya, analitik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. İqtisadi-statistik metodlar vasitəsilə əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilər – gəlirlər, məşğulluq, sosial təminat və həyat keyfiyyəti indikatorları təhlil edilmişdir. Sistemli yanaşma metodu sosial-iqtisadi amillər arasında qarşılıqlı əlaqələrin müəyyən edilməsinə imkan vermişdir. Eyni zamanda beynəlxalq təcrübənin müqayisəli təhlili aparılmış və əldə edilən nəticələr ümumiləşdirilmişdir.*

Elmi yenilik - *Tədqiqatın elmi yeniliyi əhalinin həyat səviyyəsinin dayanıqlı inkişaf və sosial siyasət kontekstində kompleks şəkildə qiymətləndirilməsi ilə bağlıdır. Məqalədə həyat səviyyəsinin formalaşmasına təsir edən sosial-iqtisadi amillər sistemli şəkildə təhlil edilmiş, iqtisadi artım, sosial müdafiə və insan kapitalı arasında qarşılıqlı əlaqələr əsaslandırılmışdır. Həyat səviyyəsinin yüksəldilməsində inklüziv sosial siyasətin və insan kapitalına yönəlmiş investisiyaların rolu elmi cəhətdən əsaslandırılmışdır.*

Nəticə - *Aparılmış tədqiqat göstərir ki, əhalinin həyat səviyyəsinin yüksəldilməsi dayanıqlı sosial-iqtisadi inkişafın əsas prioritetlərindən biridir. Həyat səviyyəsinin davamlı yüksəlməsi üçün iqtisadi artımın inklüziv xarakter alması, sosial müdafiə sisteminin təkmilləşdirilməsi və insan kapitalının inkişafına yönəlmiş siyasətin gücləndirilməsi zəruridir. Bu istiqamətdə həyata keçirilən kompleks sosial-iqtisadi tədbirlər əhalinin rifahının yüksəldilməsinə və həyat keyfiyyətinin yaxşılaşdırılmasına mühüm töhfə verə bilər.*

Açar sözlər: *həyat səviyyəsi, dayanıqlı inkişaf, sosial siyasət, insan kapitalı, sosial rifah.*

GİRİŞ

Müasir dövrdə əhalinin həyat səviyyəsinin yüksəldilməsi sosial-iqtisadi inkişaf siyasətinin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Həyat səviyyəsi insanların maddi rifahını, sosial təminatını, məşğulluq imkanlarını, təhsil və səhiyyə xidmətlərinə çıxışını, eləcə də ümumi həyat keyfiyyətini əks etdirən kompleks sosial-iqtisadi göstəricilər sistemi kimi qiymətləndirilir. Bu baxımdan həyat səviyyəsinin yüksəldilməsi yalnız iqtisadi artımın nəticəsi deyil, eyni zamanda sosial siyasətin effektivliyinin və dövlət idarəetməsinin mühüm göstəricisi kimi çıxış edir [7, s.72]. Qloballaşma və iqtisadi transformasiya şəraitində həyat səviyyəsinin yüksəldilməsi məsələsi dayanıqlı inkişaf konsepsiyası ilə sıx bağlıdır. Dayanıqlı inkişaf iqtisadi artım, sosial rifah və ekoloji tarazlıq arasında balansın təmin olunmasını nəzərdə tutur. Bu yanaşmaya görə, iqtisadi inkişaf yalnız makroiqtisadi göstəricilərin artımı ilə deyil, insanların həyat keyfiyyətinin yüksəldilməsi və sosial bərabərliyin təmin olunması ilə ölçülməlidir [8]. Birləşmiş Millətlər Təşkilatının İnsan İnkişafı Konsepsiyası da məhz bu prinsiplərə əsaslanaraq inkişafın əsas məqsədinin insan rifahının və imkanlarının genişləndirilməsi olduğunu vurğulayır [8].

Həyat səviyyəsinin formalaşmasına təsir edən əsas amillər sırasında iqtisadi artım, gəlir səviyyəsi, məşğulluq imkanları, sosial müdafiə mexanizmləri və insan kapitalının inkişafı xüsusi yer tutur. İqtisadi nəzəriyyədə həyat səviyyəsinin yüksəldilməsi iqtisadi artımın sosial nəticələrinin əsas göstəricilərindən biri kimi qiymətləndirilir. Bununla yanaşı, müasir yanaşmalarda həyat səviyyəsinin yalnız gəlir göstəriciləri ilə deyil, həm də təhsil, səhiyyə, sosial xidmətlər və yaşayış mühiti kimi həyat keyfiyyəti indikatorları ilə ölçülməsi zəruri hesab olunur [4, s.104]. Azərbaycanda sosial-iqtisadi inkişafın təmin olunması və əhalinin rifahının yüksəldilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Müstəqillik dövründə həyata keçirilən iqtisadi islahatlar və sosial proqramlar əhalinin gəlirlərinin artmasına, yoxsulluq səviyyəsinin azalmasına və sosial təminat sisteminin inkişafına mühüm töhfə vermişdir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf strategiyası"nda insan kapitalının gücləndirilməsi, inklüziv sosial siyasətin həyata keçirilməsi və həyat keyfiyyətinin yüksəldilməsi ölkənin uzunmüddətli inkişafının əsas strateji prioritetləri kimi müəyyən edilmişdir [1].


Bu strategiya iqtisadi artımın yalnız makroiqtisadi göstəricilərin artımı ilə məhdudlaşmamalı, eyni zamanda sosial rifahın genişlənməsinə və insanların həyat səviyyəsinin yüksəldilməsinə xidmət etməli olduğunu vurğulayır. Strategiyada insan kapitalına yönəlmiş investisiyaların artırılması, təhsil və səhiyyə sistemlərinin modernləşdirilməsi, sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi və inklüziv inkişaf modelinin tətbiqi sosial-iqtisadi siyasətin əsas istiqamətləri kimi göstərilir. Bu yanaşma iqtisadi inkişafın sosial nəticələrinin gücləndirilməsinə və cəmiyyətin bütün üzvlərinin rifah səviyyəsinin yüksəldilməsinə yönəlmiş kompleks siyasət modelinin formalaşdırılmasını nəzərdə tutur. Bununla yanaşı, müasir qlobal iqtisadi mühitdə baş verən dəyişikliklər və iqtisadi transformasiya prosesləri həyat səviyyəsinin davamlı yüksəldilməsi baxımından yeni çağırışlar formalaşdırır. Qlobal iqtisadi sistemdə rəqabətin artması, texnoloji dəyişikliklər və əmək bazarının struktur transformasiyaları iqtisadi inkişafın sosial nəticələrinin daha səmərəli idarə olunmasını tələb edir. Xüsusilə əmək bazarında baş verən dəyişikliklər yeni bacarıqlara olan tələbatın artmasına səbəb olur və insan kapitalının keyfiyyətinin yüksəldilməsini zəruri edir. Eyni zamanda sosial bərabərsizlik və gəlir diferensiasiyası kimi problemlər sosial siyasətin effektivliyinin artırılmasını və inklüziv inkişaf modelinin tətbiqini aktuallaşdırır. Bu şəraitdə iqtisadi artımın sosial səmərəliliyinin artırılması, sosial müdafiə sisteminin təkmilləşdirilməsi və insan kapitalına yönəlmiş investisiyaların genişləndirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsində əsas istiqamətlərdən biri kimi çıxış edir. Sosial müdafiə sisteminin inkişafyönlü və inklüziv modelə keçidi sosial risklərin azaldılmasına və sosial rifahın genişlənməsinə imkan yaradır.

Digər tərəfdən, təhsil və səhiyyə sahələrinə yönəlmiş investisiyalar insan kapitalının keyfiyyətini artıraraq əmək bazarında məhsuldarlığın yüksəlməsinə və uzunmüddətli iqtisadi

inkişafın təmin olunmasına şərait yaradır [9]. Bütün bu amillər nəzərə alındıqda, dayanıqlı inkişaf və sosial siyasət kontekstində əhalinin həyat səviyyəsinin araşdırılması mühüm elmi və praktiki əhəmiyyət kəsb edir. Həyat səviyyəsinin yüksəldilməsi yalnız iqtisadi siyasətin deyil, eyni zamanda sosial siyasətin effektivliyini müəyyən edən əsas indikatorlardan biri kimi çıxış edir. Bu baxımdan sosial-iqtisadi amillərin sistemli şəkildə təhlili və onların həyat səviyyəsinə təsir mexanizmlərinin müəyyənləşdirilməsi sosial siyasətin daha effektiv formalaşdırılmasına imkan yaradır. Beləliklə, məqalənin əsas məqsədi həyat səviyyəsinin formalaşmasına təsir edən sosial-iqtisadi amillərin təhlili və dayanıqlı inkişaf prinsipləri əsasında onun yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsidir. Bu məqsədə nail olmaq üçün həyat səviyyəsinin nəzəri və metodoloji əsasları araşdırılır, onun əsas sosial-iqtisadi determinantları təhlil edilir və sosial siyasətin həyat səviyyəsinin yüksəldilməsində rolu qiymətləndirilir.

Həyat səviyyəsinin qiymətləndirilməsi göstəriciləri və ölçülmə yanaşmaları

Əhalinin həyat səviyyəsinin obyektiv qiymətləndirilməsi sosial-iqtisadi siyasətin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Həyat səviyyəsi çoxölçülü xarakter daşıdığı üçün onun qiymətləndirilməsi yalnız bir göstərici ilə deyil, bir neçə iqtisadi və sosial indikatorun kompleks şəkildə təhlili əsasında həyata keçirilir [7, s.74]. Müasir iqtisadi tədqiqatlarda həyat səviyyəsinin ölçülməsi üçün gəlir göstəriciləri, istehlak səviyyəsi, məşğulluq imkanları, sosial təminat, təhsil və səhiyyə xidmətlərinə çıxış kimi indikatorlardan istifadə olunur.



Şəkil 1. Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi indikatorları

Mənbə: *[7,8,9] əsasında müəllif tərəfindən tərtib olunmuşdur*

Ən geniş istifadə olunan göstəricilərdən biri əhalinin real gəlirləri hesab olunur. Gəlir səviyyəsi insanların maddi rifahının əsas ölçülərindən biri olmaqla onların istehlak imkanlarını və həyat şəraitini müəyyən edir. Bununla yanaşı, yalnız gəlir göstəricilərinə əsaslanaraq həyat səviyyəsinin qiymətləndirilməsi tam obyektiv nəticə vermir. Bu səbəbdən müasir tədqiqatlarda gəlir göstəriciləri ilə yanaşı istehlak strukturu və alıcılıq qabiliyyəti də nəzərə alınır [6]. İnflyasiya səviyyəsi və qiymət dəyişiklikləri real gəlirlərin həyat səviyyəsinə təsirini müəyyən edən mühüm amillərdən biridir.

Həyat səviyyəsinin ölçülməsində digər mühüm indikator məşğulluq səviyyəsidir. Dayanıqlı və layiqli məşğulluq əhalinin gəlir əldə etməsinin əsas mənbəyi olmaqla həyat səviyyəsinin yüksəldilməsində həlledici rol oynayır. İşsizlik səviyyəsinin yüksək olması və ya qeyri-formal məşğulluğun geniş yayılması sosial rifahın azalmasına və gəlir bərabərsizliyinin artmasına səbəb ola bilər [9]. Bu baxımdan məşğulluq göstəriciləri həyat səviyyəsinin qiymətləndirilməsində mühüm sosial-iqtisadi indikatorlardan biri hesab olunur.

Bununla yanaşı, sosial müdafiə sistemi də həyat səviyyəsinin ölçülməsində mühüm rol oynayır. Sosial transferlər, pensiyalar və sosial müavinətlər aztəminatlı əhali qruplarının həyat səviyyəsinin minimum həddinin qorunmasına imkan yaradır. Sosial müdafiə sisteminin effektivliyi sosial bərabərliyin təmin olunmasına və yoxsulluğun azaldılmasına birbaşa təsir göstərir [8].

Müasir dövrdə həyat səviyyəsinin qiymətləndirilməsində həyat keyfiyyəti indikatorları da geniş istifadə olunur. Təhsil səviyyəsi, səhiyyə xidmətlərinin əlçatanlığı, mənzil şəraiti, ekoloji mühit və sosial təhlükəsizlik kimi amillər insanların ümumi rifahının formalaşmasına mühüm təsir göstərir. Bu göstəricilər insanların yalnız maddi rifahını deyil, həm də sosial və psixoloji vəziyyətini xarakterizə edir. Beynəlxalq təcrübədə həyat səviyyəsinin kompleks qiymətləndirilməsi üçün müxtəlif indekslərdən istifadə olunur. BMT tərəfindən tətbiq edilən İnsan İnkişafı İndeksi (HDI), OECD-nin Better Life Index və Dünya Bankının Human Capital Index kimi göstəricilər həyat səviyyəsinin ölçülməsində geniş tətbiq olunur. Bu indekslər iqtisadi göstəricilərlə yanaşı sosial indikatorları da nəzərə alaraq həyat səviyyəsinin daha obyektiv qiymətləndirilməsinə imkan yaradır.

Beləliklə, həyat səviyyəsinin qiymətləndirilməsi çoxsaylı sosial-iqtisadi göstəricilərin kompleks təhlili əsasında həyata keçirilməlidir. Bu yanaşma sosial-iqtisadi siyasətin effektivliyinin qiymətləndirilməsinə və həyat səviyyəsinin yüksəldilməsi istiqamətində daha əsaslandırılmış qərarların qəbul edilməsinə imkan yaradır.

Əhalinin həyat səviyyəsinə təsir edən sosial-iqtisadi amillərin təhlili

Əhalinin həyat səviyyəsinin formalaşması müxtəlif iqtisadi və sosial amillərin qarşılıqlı təsiri nəticəsində baş verir. Bu amillər arasında iqtisadi artım, gəlir səviyyəsi, məşğulluq imkanları, sosial müdafiə sistemi və insan kapitalının inkişafı xüsusi əhəmiyyət kəsb edir. Müasir iqtisadi ədəbiyyatda həyat səviyyəsinin yüksəldilməsi iqtisadi artımın sosial nəticələrinin əsas göstəricilərindən biri kimi qiymətləndirilir [7, s.82]. Bununla yanaşı, həyat səviyyəsinin real qiymətləndirilməsi üçün iqtisadi göstəricilərlə yanaşı sosial indikatorların da nəzərə alınması zəruri hesab olunur.

İqtisadi amillər arasında ümumi daxili məhsulun (ÜDM) artımı həyat səviyyəsinin yüksəldilməsinin əsas determinantlarından biri hesab olunur. ÜDM-in adambaşına düşən həcmi iqtisadi inkişaf səviyyəsini və əhalinin maddi rifah imkanlarını xarakterizə edən əsas makroiqtisadi göstəricilərdən biridir. Adambaşına düşən ÜDM aşağıdakı düsturla hesablanır:

$$GDP_{pc} = \frac{GDP}{N}$$

burada
GDPpc – adambaşına düşən ÜDM,
GDP – ümumi daxili məhsulun ümumi həcmi,
N – ölkə əhalisinin sayı.

Bu göstərici ölkədə istehsal olunan iqtisadi məhsulun əhali arasında orta payını müəyyən etməyə imkan verir və həyat səviyyəsinin iqtisadi ölçülərinin qiymətləndirilməsində geniş istifadə olunur [9]. Həyat səviyyəsinin qiymətləndirilməsində digər mühüm indikator gəlir bərabərsizliyidir. Gəlirlərin cəmiyyət daxilində necə bölüşdürülməsi sosial rifahın səviyyəsini və sosial bərabərliyi müəyyən edən əsas amillərdən biridir. Bu məqsədlə iqtisadi tədqiqatlarda ən çox istifadə olunan göstəricilərdən biri Cini əmsalıdır. Cini əmsalı aşağıdakı düsturla ifadə olunur:

$$G = \frac{\sum_{i=1}^{n} \sum_{j=1}^{n} |y_i - y_j|}{2n^2 \mu}$$

burada
G – Cini əmsalı,
yi və yj – fərdlərin gəlirləri,

n– müşahidə olunan fərdlərin sayı,

μ– orta gəlir səviyyəsidir.

Cini əmsalı 0 ilə 1 arasında dəyişir və göstəricinin artması gəlir bərabərsizliyinin yüksəlməsini ifadə edir [6].

Həyat səviyyəsinin formalaşmasında mühüm rol oynayan amillərdən biri də məşğulluq səviyyəsidir. Məşğulluq əhalinin gəlir əldə etməsinin əsas mənbəyi olmaqla sosial rifahın təmin edilməsində həlledici rol oynayır. Məşğulluq səviyyəsi aşağıdakı düsturla müəyyən edilir:

$$ER = \frac{E}{LF} \times 100$$

burada

ER – məşğulluq səviyyəsi,

E – məşğul əhalinin sayı,

LF – iqtisadi fəal əhali (işçi qüvvəsi) deməkdir.

Məşğulluq səviyyəsinin yüksəlməsi əhalinin gəlir imkanlarının artmasına və yoxsulluq risklərinin azalmasına səbəb olur [5].

Sosial amillər arasında insan kapitalının inkişafı həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Təhsil və səhiyyə xidmətlərinin keyfiyyəti fərdlərin əmək məhsuldarlığını artırmaqla yanaşı, onların gəlir imkanlarını genişləndirir və həyat keyfiyyətinin yüksəlməsinə şərait yaradır. İnsan kapitalının ölçülməsi üçün beynəlxalq təcrübədə Dünya Bankı tərəfindən hazırlanan Human Capital Index geniş istifadə olunur [9].

Bununla yanaşı, həyat səviyyəsinin kompleks qiymətləndirilməsi üçün sosial göstəricilərin inteqrasiyasına əsaslanan indekslər də tətbiq olunur. Bu baxımdan ən geniş istifadə olunan göstəricilərdən biri İnsan İnkişafı İndeksi (HDI) hesab olunur. HDI təhsil, gəlir və gözlənilən ömür uzunluğu göstəricilərinin inteqrasiyası əsasında hesablanır [8].

Beləliklə, aparılan təhlil göstərir ki, həyat səviyyəsinin formalaşması iqtisadi və sosial amillərin kompleks təsiri nəticəsində baş verir. İqtisadi artım, məşğulluq səviyyəsi və gəlirlərin bölgüsü həyat səviyyəsinin iqtisadi əsaslarını formalaşdırdığı halda, insan kapitalının inkişafı və sosial siyasət mexanizmləri həyat keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Bu amillərin qarşılıqlı təsiri əhalinin rifah səviyyəsinin davamlı yüksəldilməsinin əsas şərtlərindən biridir.

3. Dayanıqlı inkişaf və sosial siyasət çərçivəsində həyat səviyyəsinin yüksəldilməsi istiqamətləri

Əhalinin həyat səviyyəsinin davamlı şəkildə yüksəldilməsi yalnız iqtisadi artımın təmin olunması ilə deyil, bu artımın sosial rifaha çevrilməsi ilə mümkün olur. Müasir inkişaf yanaşmalarına görə, iqtisadi artımın sosial səmərəliliyi dayanıqlı inkişaf modelinin əsas göstəricilərindən biridir. Bu modeldə iqtisadi inkişaf, sosial siyasət və insan kapitalının inkişafı qarşılıqlı şəkildə əlaqələndirilərək əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir [8].

Dayanıqlı inkişaf konsepsiyasına əsasən həyat səviyyəsinin yüksəldilməsi üçün iqtisadi artımın inklüziv xarakter alması mühüm əhəmiyyət kəsb edir. İnklüziv inkişaf iqtisadi artımın nəticələrinin cəmiyyətin bütün təbəqələri arasında daha bərabər bölüşdürülməsini nəzərdə tutur. Bu yanaşma gəlir bərabərsizliyinin azaldılmasına, yoxsulluğun səviyyəsinin aşağı düşməsinə və sosial rifahın genişlənməsinə şərait yaradır [6]. Bu baxımdan sosial siyasət mexanizmlərinin iqtisadi inkişaf strategiyaları ilə uzlaşdırılması həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Həyat səviyyəsinin yüksəldilməsi istiqamətlərindən biri sosial müdafiə sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Sosial müdafiə mexanizmləri əhalinin həssas qruplarının sosial risklərdən qorunmasını təmin etməklə sosial rifahın minimum səviyyəsini qorumağa imkan yaradır. Müasir sosial siyasət modellərində sosial müdafiə yalnız kompensasiyaedici funksiyaya malik deyil,

eyni zamanda sosial inklüzivliyin və iqtisadi fəallığın artırılmasına yönəlmiş aktiv mexanizm kimi qiymətləndirilir (Barr, 2019). Bu baxımdan sosial transferlərin səmərəli təşkili və sosial xidmətlərin əlçatanlığının artırılması həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Dayanıqlı inkişaf çərçivəsində həyat səviyyəsinin yüksəldilməsi üçün digər mühüm istiqamət insan kapitalının inkişafıdır. Təhsil və səhiyyə sahələrinə yönəlmiş investisiyalar insanların bilik və bacarıqlarının artırılmasına, əmək məhsuldarlığının yüksəlməsinə və uzunmüddətli iqtisadi inkişafın təmin olunmasına şərait yaradır. İnsan kapitalının inkişafı fərdlərin gəlir imkanlarını genişləndirməklə yanaşı, cəmiyyətin ümumi rifah səviyyəsinin yüksəlməsinə də müsbət təsir göstərir [4, s. 112]. Həyat səviyyəsinin yüksəldilməsi istiqamətlərindən biri də əmək bazarının səmərəliliyinin artırılmasıdır. Dayanıqlı məşğulluğun təmin olunması əhalinin gəlir əldə etməsinin əsas mənbəyi olmaqla sosial rifahın yüksəlməsinə birbaşa təsir göstərir. Bu baxımdan aktiv məşğulluq siyasəti, peşə hazırlığı proqramları və əmək bazarında bacarıq uyğunsuzluqlarının aradan qaldırılması sosial-iqtisadi inkişafın mühüm istiqamətləri hesab olunur [5].

Bununla yanaşı, həyat səviyyəsinin yüksəldilməsində institusional amillərin də rolu böyükdür. Effektiv dövlət idarəçiliyi, şəffaf sosial proqramlar və məlumat əsaslı qərar qəbuletmə sosial siyasətin effektivliyini artırır. Sosial-iqtisadi siyasətin monitorinqi və qiymətləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi sosial resursların daha səmərəli istifadəsinə və sosial rifahın yüksəldilməsinə imkan yaradır. Beləliklə, dayanıqlı inkişaf və sosial siyasət çərçivəsində həyat səviyyəsinin yüksəldilməsi iqtisadi artım, sosial müdafiə, insan kapitalının inkişafı və əmək bazarının səmərəliliyi kimi amillərin kompleks şəkildə inkişafını tələb edir. Bu amillərin qarşılıqlı əlaqəsi əhalinin rifahının yüksəldilməsinə və sosial-iqtisadi inkişafın dayanıqlı xarakter almasına şərait yaradır.

NƏTİCƏ

Aparılmış tədqiqat göstərir ki, əhalinin həyat səviyyəsi sosial-iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri olmaqla iqtisadi artım, sosial siyasət və insan kapitalının inkişafı kimi amillərin qarşılıqlı təsiri nəticəsində formalaşır. Həyat səviyyəsinin yüksəldilməsi yalnız gəlir göstəricilərinin artımı ilə deyil, eyni zamanda sosial rifahın genişlənməsi, məşğulluq imkanlarının artması və sosial xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması ilə sıx bağlıdır. Məqalədə aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, həyat səviyyəsinin qiymətləndirilməsi üçün iqtisadi və sosial indikatorların kompleks şəkildə nəzərə alınması zəruridir. Gəlir səviyyəsi, məşğulluq imkanları, sosial müdafiə sistemi və insan kapitalının inkişafı həyat səviyyəsinin formalaşmasında əsas determinantlar kimi çıxış edir. Bu göstəricilərin təhlili göstərir ki, iqtisadi artımın sosial səmərəliliyinin artırılması və inklüziv sosial siyasətin həyata keçirilməsi həyat səviyyəsinin davamlı yüksəldilməsində mühüm rol oynayır. Tədqiqat nəticələri onu da göstərir ki, sosial müdafiə sisteminin təkmilləşdirilməsi və insan kapitalına yönəlmiş investisiyaların artırılması həyat səviyyəsinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Təhsil və səhiyyə xidmətlərinin inkişafı insanların bilik və bacarıqlarının artırılmasına, əmək məhsuldarlığının yüksəlməsinə və sosial rifahın genişlənməsinə şərait yaradır.

2. **Elm-təhsil-istehsal** əməkdaşlığının genişləndirilməsi imkanları	Qlobal kapital axınlarında investor riskləri
3. Rəqəmsal transformasiyanın və informasiya bazarının genişlənməsi	Startapların beynəlxalq bazarlara çıxışının məhdud olması
4. Yerli sənaye məhsulları ixracının artması	Beyin axını və kadrların miqrasiyası

Aparılan SWOT təhlildən də aydın görünür ki, ölkəmizdə sənaye və texnoparklar üçün çox münbit, əlverişli və mövcud bazalı vəziyyət mövcuddur. Lakin texnoloji asılılığın qlobal riskləri və kapital axınlarında investor risklərinin olması rəqabət güclərini məhdudlaşdırır və zəiflədir. Aparılan SWOT təhlilini ümumiləşdirsək aydın olar ki, sənaye və texnoparkların inkişafında dinamik və güclü potensial imkanlar mövcuddur.

NƏTİCƏ

Sənaye və texnoparkları əsaslı surətdə inkişaf etdirmək üçün investorların maliyyə imkanları genişləndirilməli, kreditlərin faiz dərəcələrini inkişaf etmiş ölkələrdə olduğu kimi minimuma endirilməli və ədalətli rəqabət mexanizmi və mühiti yaradılmalıdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Strateyi Yol Xəritəsi
2. Azərbaycanın iqtisadi göstəriciləri. Bakı 2019, 2020, 2021, 2022, 2023, 2024.
3. Azərbaycan Respublikasında sənayenin inkişafına dair Dövlət Proqramı.

A.Kh.Nabiyev
Candidate of Economic Sciences, Associate Professor,
Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0001-6985-1784

The role of taxes in the development of industrial zones and technoparks in our country

Abstract

In the modern market economy, the importance and role of industrial sectors and innovative activities in ensuring the sustainable and stable development of the economy of Azerbaijan are steadily increasing. In this context, taxes play a particularly significant role in regulating and stimulating the activities of industrial sectors and technoparks. Tax incentives and privileges granted to entrepreneurs operating in industrial zones and technoparks represent important mechanisms for supporting and encouraging investments directed toward these sectors.

Keywords: *industrial sectors, technoparks, investments, preferential taxation, innovation, non-oil sector.*

https://doi.org/10.58225/tim.2026-2-71-74

A.H.Qəribov
dosent, Bakı Dövlət Universiteti
ORCID 0009-0008-4183-1771
asafqaribzade@gmail.com
A.A.Hüseynova
magistrant, Bakı Dövlət Universiteti
alidesebzaliyeva2001@gmail.com

Məqalə redaksiyaya daxil olub 25.03.2026
The article was received by editorial board on 25.03.2026
Статья принята к печати 25.03.2026

ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNDA ƏMƏK BAZARININ FORMALAŞMASI VƏ MƏŞĞULLUĞUN TƏMİN OLUNMASI İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN DÖVLƏT SİYASƏTİ

Xülasə

İnsan kapitalının inkişafı hesabına davamlı sosial-iqtisadi tərəqqinin təmin edilməsi naminə respublikamızda həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən birini əmək qüvvəsinin sosial rifahının yüksəldilməsi və məşğul şəxslərin hüquqlarının müdafiə olunması təşkil edir. Bu çərçivədə əmək münasibətlərinin müasir çağırışlara uyğun şəkildə tənzimlənməsi, işçi və işəgötürən arasında balanslı və ədalətli münasibətlərin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, əmək bazarında qeyri-rəsmi məşğulluğun azaldılması, şəffaflığın artırılması və sosial təminat mexanizmlərinin gücləndirilməsi prioritet istiqamətlərdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər əmək qabiliyyətli əhalinin məşğulluq imkanlarının genişləndirilməsi, onların peşə bacarıqlarının artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəlib. Bu baxımdan, işğaldan azad olunmuş ərazilər, o cümlədən Şərqi Zəngəzur iqtisadi rayonunda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həssas qrupların məşğulluğa cəlb olunması, layiqli əmək şəraitinin təmin edilməsi, peşə təhsili və ixtisasartırma kimi məsələləri əhatə edən məşğulluq proqramlarının icar edilməsi mühim əhəmiyyətə malikdir.

Açar sözlər: *əmək bazarı, məşğulluq, işsizlik, insan kapitalı, iqtisadi artım.*

Ötən onilliklərə nəzər saldıqda, Azərbaycanın müstəqillik dövrü iqtisadi və əmək bazarı baxımından kəskin transformasiya mərhələləri ilə səciyyələnir. Müstəqilliyin ilk illərində sosialist idarəetmə sistemindən bazar iqtisadiyyatına keçid dərin tənəzzül, hiperinflyasiya, investisiya axınlarının kəsilməsi və əmək bazarında xaotik vəziyyətlə müşayiət olunmuşdur. Bununla yanaşı, Ermənistanın hərbi təcavüzü nəticəsində ərazilərin 20%-nin işğalı, 4 mindən çox sənaye və aqrar müəssisənin, eləcə də 300 min iş yerinin məhv edilməsi, 1 milyona yaxın qaçqın və məcburi köçkün probleminin yaranması ölkənin sosial-iqtisadi yükünü daha da ağırlaşdırmışdır. Bu dövrdə dövlət sektorunda məşğulluğun azalması, real əməkhaqqının kəskin düşməsi, keçmiş ittifaqdan miras qalmış istehsal fondlarının köhnəlməsi, yüksək inflyasiya və müəssisələrin borclarını ödəyə bilməmə təhlükəsi və miqrasiya üzrə təxminən 120 min nəfərlik mənfi saldo əmək bazarında gərginliyi artıran əsas amillər olmuşdur.

İqtisadi sabitliyə doğru dönüş Ümumilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlamış, xüsusilə 1994-cü ildə imzalanmış "Əsrin neft kontraktı" iqtisadiyyata iri həcmli investisi-

yaların cəlb olunması və bərpa prosesinin sürətlənməsinə zəmin yaratmaqla, sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına doğru ilk addımlar olmuşdur. Beləliklə, həm ölkədə əldə edilən siyasi sabitlik mühitində qəbul edilən sosialyönmlü qərarlar, həm də dünya bazarında əlverişli konyukturdan qaynaqlanan artan neft qiymətləri sürətli iqtisadi artımla yanaşı, milli məşğulluq strategiyası çərçivəsində bir milyondan artıq yeni iş yerinin açılması ilə əhalinin gəlirlərinin artması və yoxsulluğun azaldılmasına gətirib çıxardı. Rəsmi statistikaya əsasən, 1995-2005-ci illəri əhatə edən birinci onillik dövründə iqtisadi fəal əhali 3641.3 min nəfərdən 4380.1 min nəfərə, məşğul əhali isə 3613 min nəfərdən 4062.3 min nəfərə qədər yüksəlmiş, ölkənin məcmu buraxılışı 2133.8 milyon manatdan 12522.5 milyon manatadək artmışdır. Onu da qeyd etmək lazımdır ki, konyuktur təkcə dövlət sektorunda yaxşıya doğru dəyişməmişdi. Xüsusən özəl sektorda məşğul əhalinin çəkisi 44%-dən 70%-dək, muzdlu işçilərin orta aylıq əməkhaqqılarının 6 dəfə, minimum əməkhaqqının 25 dəfə artmışdı. Bütün bunlar fonunda əmək münasibətlərinin rəsmi və hüquqi müstəvidə gerçəkləşməsi üçün 1 fevral 1999-cu ildə "Əmək Məcəlləsi" və 2 iyul 2001-ci ildə "Məşğulluq haqqında" qanunun qəbul edilməsi zəruri təminat yaratmışdır.

Sonrakı mərhələdə əvvəlcə Böyük Vətən müharibəsi illərində dünyaya gələn nəslin nümayəndələrinin pensiya yaşına çatması və ötən əsrin sonlarına yaxın doğulanların 2006-cı ildən etibarən əmək qabiliyyətli yaşına qədəm qoyması, onilliyin sonuna yaxın qlobal enerji bazarlarında neft qiymətlərinin 115 dollardan 30 dollara qədər enməsi iqtisadi artım tempinin əhəmiyyətli dərəcədə zəifləməsinə səbəb olmaqla əmək bazarı konyukturu üzrə ciddi qeyri-müəyyənliyin ilk işartıları kimi məşğulluq sahəsində tətbiq olunan strategiyaların da yenilənməsini labüd etmişdir. Beləliklə, 26 oktyabr 2005-ci il tarixində Prezident İlham Əliyevin Sərəncamı ilə ilə 2006-2015-ci illəri əhatə edəcək "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın təsdiq edilməsi, onilliyin sonlarında iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və yeni artım mənbələrinin formalaşdırılması məqsədilə 4 strateji hədəf və 11 sektor üzrə 12 "Strateji Yol Xəritəsi" qəbul edilməsi kiçik və orta sahibkarlıq başda olmaqla, əhalinin özünə məşğulluğu üçün əlverişli şərait yaratmaq, səmərəli məşğulluğa təminat yaradan investisiya fəallığını təşviq etmək, əmək bazarında tarazlığın gücləndirilməsinə yönəldilən institusional infrastrukturu inkişaf etdirmək və kadr hazırlanması, peşə hazırlığı, ixtisas artırma fəaliyyətlərinin əmək bazarı tələbləri ilə uzlaşdırılması kimi istiqamətləri əhatə edərək yüzlərlə iş yerinin yaradılmasının təminatçısına çevrilmişdir.

Ümumiyyətlə, real ifadədə iqtisadi artımın 2.4 dəfə, büdcə daxilolmalarının 11.8 dəfə, ölkə ixracının 7.8 milyard dollardan 19.6 milyard dollara artdığı 2005-2019-cu illərdə məşğul əhalinin sayı 900 min nəfər, qeyri-dövlət sektorunun məşğulluqdakı payı 1.3 dəfə artmaqla işsizlik səviyyəsi 7.8%-dən 5%-ə, yoxsulluq səviyyəsi isə 29.3%-dən 4.8%-ə enmişdir. Bütün bu və ya digər artımlar, ümumilikdə milli iqtisadiyyatda əldə edilən uğurlu nəticələr son 15 il ərzində ölkədə digər sahələrdə olduğu kimi əmək bazarı istiqamətində də görülən işlərin təcəssümüdür.

2020-ci ildən başlayaraq isə həm dünya üzrə, həm də ölkəmizin iqtisadi-siyasi mühitində baş verən dəyişikliklər növbəti dəfə yeni iqtisadi inkişaf modelinə transformasiya zərurəti ortaya çıxarmışdır. Xüsusilə, Vətən müharibəsində əldə edilən qələbədən sonra uzun illər işğal altında qalan ərazilərin potensialının, o cümlədən əmək resurslarının milli iqtisadiyyata reinteqrasiyası əsas prioritetə çevrildi. Təsadüfi deyil ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə inteqrasiyası üzrə müəyyən edilmiş məqsədlərdən biri də məhz məskunlaşması nəzərdə tutulan əhalinin məşğulluq imkanlarını artırmaqdır. Bu məqsədlə də məşğulluqyönümlü siyasətin davam etdirilməsi, əmək bazarının tənzimlənməsi üzrə institusionla strukturun təkmilləşdirilməsi və aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi Tədbirlər Planında müəyyən edilən əsas vəzifələr sırasında öz əksini tapmışdır.

Məşğulluğun artırılması yönündə ən optimal tədbirlərdən biri əmək bazarında çevik dövlət siyasətinin həyata keçirilməsidir ki, bu baxımdan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

(ƏƏSMN) ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMKİDK) birgə əməkdaşlığı daxil olan müraciətlərin aidiyyatı üzrə araşdırılıb işsiz şəxslərə müxtəlif iş yerləri təklif olunması, məcburi köçkün statuslu şəxslər müxtəlif idarə və təşkilatlarda iş ilə təmin edilməsi və əmək bazarına qaytarılması, onların bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün peşə kurslarına yönləndirilməsi və özünüməşğulluq proqramı çərçivəsində görülən müvafiq tədbirlər xüsusi əhəmiyyətə malikdir.

Müasir dövrdə bilik və bacarıqların tez bir zamanda köhnəlməsi kimi xroniki problemi nəzərə alaraq, işçinin birbaşa özünə təsir edən, əmək bazarında rəqabətqabiliyyətlilik və əlavə imkanları artıran ixtisasartırma olduqca vacib meyar hesab edilməkdədir. Bu məqsədlə, sosial siyasət sahəsində dövlət xidmətlərinin müasir infrastrukturunun qurulması üzrə 1 regional (Cəbrayıl) DOST Mərkəzi və bir neçə (Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın və Şuşa) filialının, həmçinin Peşə Hazırlığı Mərkəzinin təsis olunması vəzifəsi müəyyən edilmişdir. Hazırda işğaldan azad olunan ərazilərdə 1 regional (Qarabağ DOST Mərkəzi) və iksi Şərqi Zəngəzurda (Ağalı "Smart DOST" və Kəlbəcər DOST məntəqəsi) olmaqla, 5 DOST filial və məntəqəsi fəaliyyət göstərir. Müddətin sonunadək Dövlət Proqramında 1 Peşə Hazırlığı Mərkəzi (Cəbrayıl) və 8 peşə təhsil müəssisinin istifadəyə verilməsi nəzərdə tutulsa da, rəsmi məlumatlarda hələki bu layihələrin tikinti işlərinin davam etdirilməsi bildirilir.

İşğal dövründə məcburi köçkün statusunda olan şəxslərin məşğulluğunun artırılmasına dəstək məqsədilə həyata keçirilən tədbirlər arasında davamlı əmək yarmarkalarının keçirilməsi dövlət siyasətinin mühim istiqamətlərindən biri idi. Təşkil olunan yarmarkalarda bu məqsədlə məcburi köçkünlərə bəlli sayda vakant iş yeri təqdim olunur, iş yerlərini təqdim edən müəssisələrin təmsilçiləri tərəfindən işaxtaranlara iş yerləri haqqında ətraflı məlumatlar verilir, onların peşə bacarıqları, əmək vərdişləri və seçimlərinə uyğun vakant iş yerlərinə göndərişlər həyata keçirilirdi. Həmçinin, əmək bazarı tələblərinə standartlarına cavab verən yeni peşələrə yiyələnmək istəyən şəxslərin peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmələri üçün qeydiyyatları aparılırdı [4].

İşğal dövründə məcburi köçkün statusunda olan şəxslərin məşğulluğunun artırılmasına dəstək məqsədilə həyata keçirilən tədbirlər arasında davamlı əmək yarmarkalarının keçirilməsi dövlət siyasətinin mühim istiqamətlərindən biri idi. Təşkil olunan yarmarkalarda bu məqsədlə məcburi köçkünlərə bəlli sayda vakant iş yeri təqdim olunur, iş yerlərini təqdim edən müəssisələrin təmsilçiləri tərəfindən işaxtaranlara iş yerləri haqqında ətraflı məlumatlar verilir, onların peşə bacarıqları, əmək vərdişləri və seçimlərinə uyğun vakant iş yerlərinə göndərişlər həyata keçirilirdi. Həmçinin, əmək bazarı tələblərinə standartlarına cavab verən yeni peşələrə yiyələnmək istəyən şəxslərin peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmələri üçün qeydiyyatları aparılırdı [5].

Dünya təcrübəsində dayanıqlı məşğulluğun təmin olunmasında özəl sektor mühim əhəmiyyətə malik olduğundan, bu gün işğaldan azad olunan ərazilərdə sosial-iqtisadi həyatın geri qaytarılmasında dövlət siyasəti ilə yanaşı, dövlət-özəl tərəfdaşlığını inkişaf etdirməklə özəl təşəbbüslərin də hərtərəfli təşviqinə təmin olunur. Təsadüfi deyil ki, Dövlət Proqramında müəyyən olunan fəaliyyət istiqamətlərindən biri (5.3) məhz məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsidir. Bu məqsədlə, planlaşdırmalara Şuşa şəhərində 1 KOB evi, Şuşadan başqa 5 rayonda (Xocavənd, Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl və Zəngilan) 6 KOB dostu ofisinin yaradılması daxil edilmişdir. Hazırda Zəngilan, Kəlbəcər və Laçın rayonlarının hər birində 1-i olmaqla Şərqi Zəngəzur iqtisadi rayonunda 3 KOB dostu fəaliyyət göstərir [6].

NƏTİCƏ

Beləliklə, gəlinən nəticəyə əsasən, Azərbaycanda həyata keçirilən məşğulluq siyasəti əmək bazarının davamlı inkişafı, işçi və işəgötürən arasında ədalətli münasibətlərin formalaşması ilə sosial bazanın gücləndirilməsini təmin etməkdədir. Xüsusilə, işğaldan azad olunmuş ərazilər, o cümlədən Şərqi Zəngəzur iqtisadi rayonu üzrə dövlətin həyata keçirdiyi məşğulluq tənzimləmələri məşğulluq imkanlarını genişləndirməklə, region və ölkə iqtisadiyyatının hərəkətliliyinə töhfə verir. DOST mər-

kəzləri, KOB şəbəkəsi, həmçinin peşə hazırlığı və özünüməşğulluq proqramları aktiv məşğulluq tədbirləri çərçivəsində işsiz şəxslərin əmək bazarına inteqrasiyasını dəstəkləməkdədir. Eyni zamanda sahibkarlıq inkişafı məqsədilə dövlət-özəl tərəfdaşlığının təşviq edilməsi də yeni iş yerlərinin yaradılmasına əlavə stimul yaradır ki, bu da sosial rifahın yüksəldilməsi və dayanıqlı iqtisadi inkişafın təmin olunmasına xidmət göstərir.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər).
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi.
3. Aslanov H.H., Qəribov A.H, Qasımov C.Y. (2024). Azərbaycanın xarici iqtisadi siyasəti(Magistr pilləsi üçün dərs vəsaiti).Bakı,"Ecoprint"nəşriyyatı. 433 s.
4. Böyük Qayıdışa dair I Dövlət Proqramı.
5. https://sosial.gov.az/media/xeberler/2083?hl=az
6. https://sosial.gov.az/media/xeberler/2083?hl=az
7. https://www.smb.gov.az/az/nav/kob-dostu

A.H.Garibov
associate professor, Baku State University
ORCID 0009-0008-4183-1771
A.A.Huseynova
master student, Baku State University

State policy implemented in the direction of labor market formation and employment provision in the East Zangezur economic region

Abstract

One of the main directions of the state policy implemented in our republic for the sake of ensuring sustainable socio-economic progress through the development of human capital is the improvement of the social welfare of the labor force and the protection of the rights of employed persons. Within this framework, the regulation of labor relations in accordance with modern challenges and the formation of balanced and fair relations between the employee and the employer are of particular importance. At the same time, reducing informal employment in the labor market, increasing transparency, and strengthening social security mechanisms are among the priority directions. The measures implemented in this direction are aimed at expanding the employment opportunities of the able-bodied population, increasing their professional skills, and enhancing their competitiveness. In this regard, the implementation of employment programs covering issues such as strengthening the social protection of the population in the liberated territories, including the East Zangezur economic region, involving vulnerable groups in employment, ensuring decent working conditions, vocational education, and professional development is of great importance.

Keywords: *labor market, employment, unemployment, human capital, economic growth.*

https://doi.org/10.58225/tim.2026-2-75-82

A.V.Sadigova
teacher, Azerbaijan State University of Oil and Industry PLE
ORCID 0009-0009-5017-6104
aysel.sadiqova@asoiu.edu.az

Məqalə redaksiyaya daxil olub 03.03.2026
The article was received by editorial board on 03.03.2026
Статья принята к печати 03.03.2026

APPLICATION OF FOREIGN COMPANIES' EXPERIENCE IN INCREASING OIL PRODUCTION AT THE REPUBLIC'S OIL FIELDS AT A LATE STAGE OF DEVELOPMENT

Abstract

This article examines the challenges of declining oil production from mature onshore fields in the Caspian region and the inefficiencies of implementing modern production methods. Specifically, it analyzes the factors contributing to production stagnation and the insufficient use of advanced production technologies successfully implemented in other regions abroad. Issues such as increasing reservoir pressure at fields and the need to apply methods to improve oil and gas production efficiency are discussed. The article highlights several promising technologies for improving production efficiency, such as CO2 injection, hydraulic fracturing, and smart well technology, which provides real-time monitoring, which can provide more precise production control and optimize field management. The experience of foreign companies has shown that CO2 injection has demonstrated significant potential for increasing reservoir pressure and increasing production. Furthermore, horizontal drilling and hydraulic fracturing may be key to developing previously inaccessible reserves at these fields. The economic and environmental benefits of integrating advanced technologies, which can extend the life of aging fields, reduce operating costs, and minimize environmental impacts, are substantiated. The importance of cooperation between the government, private companies, and international organizations for the successful implementation of innovative technologies and ensuring the competitiveness of Azerbaijan's energy sector is emphasized.

Keywords: *offshore natural gas sector, enhanced gas recovery (EGR), CO2 injection, smart well systems, recovery methods.*

INTRODUCTION

Currently, the process of declining production in the oil and gas fields, located both onshore and offshore in our Republic, continues. The development and application of advanced methods to mitigate the decrease in oil and gas production is a critical issue of our time.

Academician Azad Mirzajanzade multidisciplinary research covers complex problems in the oil industry, such as the thermal regime of oil and gas fields, the dynamics of drilling fluids, hydrothermal studies, deep oil field development, methods for increasing efficiency in oil production, and gas transportation. Reflecting on hydrocarbon resources and their significance in human life, he noted [1]."Time will pass, and natural declines in oil and gas production will occur, leading to an increased demand for engineers with specialized knowledge. This will be due to the need to extract residual oil through more advanced methods, such as physical and other approaches. The need for precise measurements in oil and gas science and practice will also grow." The academician empha-

sized that as long as oil and gas continue to serve not just as fuel but as valuable chemical raw materials, the demand for oil and gas engineers will increase both scientifically and socially [2].

Despite the fact that the Republic's oil fields have been in operation since 1871, significant reserves remain untapped (Figure 1). Oil fields in the onshore areas of Azerbaijan hold substantial reserves. Due to a sharp drop in reservoir pressure and well flooding, up to 22% of the recoverable oil reserves remain underground.




Fig. 1. Recoverable oil reserves in fields

It is clear from Fig.1 that despite the fact that the indicated fields have been exploited for 100-160 years, the initial (initial) calculated geological oil reserves have not been exploited. As academician Azad Mirzajanzadeh wrote, in order to effectively exploit the residual oil reserves from these fields, the scientific and research works of Azerbaijani scientists and specialists should be deeply studied and recommendations should be prepared and applied in oil production enterprises.

At present, the water saturation in onshore oil wells exceeds 95%. As a result, oil production costs are rising year by year. Additionally, studies show that oil extraction in onshore fields primarily utilizes the rod-type deep-well pump method [3]. This process also necessitates extensive current repair work on wells. The low frequency of current repairs leads to an increase in demand for materials and goods essential for oil production. Studies have shown that the average oil recovery coefficient in the Commonwealth of Independent States (CIS) is between 0.37 and 0.4, while in the USA, this figure stands at 0.53. M.Maket suggests that using existing impact methods, only one-third of the oil remaining in a field at the final stage of exploitation can be extracted.

Considering the current reserves, production in older exploitation areas will continue for some time, with the possibility of significantly boosting oil output. The advancements in scientific and technical progress (STP) and the introduction of new, economically viable technologies offer a promising outlook for increased productivity. Additionally, the existing infrastructure, which includes both new and older exploitation areas, plays a crucial role in supporting economic growth [4, 5].

In our view, the key directions for applying new methods in oil fields include:

- Determining the main directions for the development of Azerbaijan’s oil industry in line with modern demands.

- Implementing scientific, technical, and organizational measures to enhance oil industry profitability.
- Ensuring the application of progressive technological measures in the production, processing, transportation, storage, accounting, and consumption of energy resources.
- Promoting a healthy competitive environment within the oil industry.
- Increasing the volume of investments in the development of the oil industry.
- Ensuring environmental safety within the oil industry.

I. Determining key indicators for the technical and economic level of oil production

The profitability ratio of the primary technical and economic indicators for the design of new equipment and technology in foreign companies is calculated through the following formula:

$$K = \frac{S_e}{X_i} \quad (1)$$

Where K - profitability coefficient of technical and economic level indicators of the new equipment project; Se - technical and organizational annual economic efficiency in the process of designing new equipment; Xi - costs incurred to increase the technical and economic level in new equipment projects [4].

Our analysis suggests that evaluating new equipment projects using Si (sum of ranks), Mi (numerical average price), Ri (normalized ranks) is vital. The number of experts is often not considered in determining the sum of ranks, which increases the potential for errors in calculations. In contrast, we propose calculating Si - as:

$$S_i = \sum_{i=1}^{n} r_{ij} \quad (2)$$

Where r_{ij} - rank assigned by the j-th expert to the i-th object (factor); n - the number of experts.

For technology projects, the numerical average, (Mi) is calculated as follows:

$$M_i = \frac{\sum_{i=1}^{n} r_{ij}}{n} \quad (3)$$

In new technology projects, R_i (normalized rank) is calculated as:

$$R_i = \frac{\sum_{i=1}^{n} W_{ij}}{m} \quad (4)$$

Where r_{ij} - the rank assigned by the j-th expert to the i-th object (factor); n - the number of experts; m - the number of objects;W_{ij} - the relative profitability coefficient of different prices of objects for each expert.

It should be borne in mind that the time factor is not taken into account in the analysis of new technology projects. Therefore, if we rely on a more accurate method during the analysis of new technology projects - the calculation of net present value (NPV), we propose to use the following formula for its calculation:

$$NPV = \sum_{i=1}^{n} (* NPV_i P_i) \quad (5)$$

$$\sigma^2 NPV = \sum_{i=2}^{n} (NPV_i - NPV^2) P_i \quad (6)$$

$$\sigma_{NPV} = \sqrt{\sum_{i=2}^{n} (NPV_i - \overline{NPV})^2 P_i} \quad (7)$$

Then the coefficient of variation is determined as follows:

$$\vartheta = \frac{\sigma_{NPV}}{NPV} \quad (8)$$

By simplifying formula (5), we can determine the NPV as follows:

$$NPV = \frac{JP_1}{(1+k)^2} + \frac{JF_1}{(1+k)^2} + \frac{JF_1}{(1+k)^2} - I_0 = \sum \frac{JF_1}{(1+k)^2} - I_0 \quad (9)$$

Here, I_o- is the initial investment; JFn-t is the cash flow at the end of the period; k is the expected rate of return, that is, the rate of return that would be obtained from investing in other suitable financial mechanisms (banks, financial companies, etc.) rather than in this project.

If long-term costs and payments are envisaged in the new technology and equipment project, then the net present value formula will be as follows:

$$NPV = \sum_{i=1}^{n} \frac{JP_1}{(1+k)^2} - \sum_{i=1}^{n} \frac{I_t}{(!+k)^2} \quad (10)$$

In addition to determining the risk at the identification stage of a new technology project, the quality level of the project should also be taken into account. This is possible if the following are taken into account in the algorithm for assessing the risk in a new technology project:

1) The degree of risk identification;

2) The dangers that arise when unexpected events occur in risks;

3) The importance of risks from the point of view of probability theory.

4) Adoption of a solution for new technology projects

The world's leading economists N.N. Yanenko, D.L. Gitman, V.I. Karnachuk, R.S. Pindike, Willyarn F. Sharp, R.D. Rubenfeld called new technology projects the basis for studying economic systems and processes [6,7]. Thus, the analysis of technical and economic indicators of new technology projects in the activities of an enterprise is based on the determination of efficiency criterion indicators, these factors are calculated separately. In the management of new technology projects, the three factors in the economic analysis function (Yf) system, namely the useful efficiency of the operation, its costs and its time consumption, are simultaneously calculated using the following formula:

$$F(x) = Y(q_s, \alpha_x, v_s) \quad (11)$$

Here q_s - useful efficiency of the operation; a_x - operating cost; v_s - time consumption. Let us explain this equation in the following form.

Before deciding on the development of a new technical project:

1. A theoretical study of the indicators of the enterprise's manageable economic system should be carried out;

2. All indicators characterizing the economic profitability of the enterprise should be calculated.

3. A mathematical model should be selected for the facility to be designed, which will be applied in computing machines in accordance with the economic strategy of the enterprise.

III. Methods of applying advanced methods (MMT) in fields in foreign oil companies and directions of their application in the oil production areas of the republic

In world practice, four groups of methods of increasing oil yield are applied on an industrial scale, which are also called the third method of action:

• Thermal methods: (compression of oil with heat carriers, action with the help of exothermic oxidation reactions inside the layer);

• Gas methods: (injection of hydrocarbon gases, liquid solvents, carbon dioxide, nitrogen, flue gases).

• Chemical methods: (polymers and solids in their composition);

• Microbiological methods: (when adding oil directly to the layer or its effect precursor to a bacterial solution).

According to the London forum's materials, the implementation of modern technologies by 2020 could increase recoverable oil reserves by 1.4 times and potentially boost average oil yield by up to 50%.

Despite the significant potential of innovative technologies (IT) in both domestic and international markets, their application in Azerbaijan has weakened over the past 15 years. For example, Russia increased oil extraction by 20% in 2022 through the application of IT.

To maximize the economic efficiency of IT and minimize investments, the field development process can be divided into three stages:

• Stage 1: Maximal use of natural field energy (elastic energy, gas cap energy, etc.).

- Stage 2: Methods for pressure maintenance by injecting water and gas.
- Stage 3: Implementation of IT methods to increase oil yield




Fig. 2. Relationship between income from additional oil production and its cost in IT application

_____Income from Additional Oil Production, Conventional Unit (AZN);
……. Cost of Oil Produced, Conventional Unit (AZN)

It is clear from Fig.2. that when fluid is injected into the layers by adding chemicals to the water, additional oil production can be achieved in the early stages of the process. However, as the application zone of the process expands, the additional oil production obtained does not cover the costs incurred for its implementation, leading to an increase in production costs. This demonstrates that it is economically unfeasible to achieve efficiency by influencing fields at the final stages of development using water injection. Therefore, an alternative method should be adopted [8,9].

The application of progressive methods plays a crucial role in increasing the oil recovery rate of fields. As noted, there are significant oil reserves in fields at the final stage of development, and their extraction is possible through the development and implementation of new techniques and technologies. In this regard, it is necessary to analyze the efforts made by leading oil companies in this area and apply similar approaches in new oil and gas production facilities. According to American scientists, the average oil recovery rate in U.S. fields is 35%, which reflects the average cost of oil extraction across all productive fields in the United States. They argue that by applying modern techniques and progressive methods, it is possible to increase the oil recovery rate to 75% [10,11]. The following methods are widely used in the U.S. to achieve this:

● Development of the Wellbore Zone Using Steam-Heat Method: As a result of the adsorption of oil surfactants, the molecular properties of the surface change, causing a hydrophobization-hydrophilic phenomenon. This causes oil to adhere to the surface of the wellbore, reducing its movement to the wellbore zone. The application of new methods reduces the temperature in the wellbore zone, allowing asphalt-paraffin-tar substances to remain dissolved in the oil, thus improving oil recovery conditions.

● Intermittent Steam Injection: High-pressure steam is injected into the well over two to three weeks. The amount of steam injected is calculated based on the effective thickness of the layer, with an average of 30-100 tons injected. If the oil in the layer has a high base, the volume of steam is adjus-

ted accordingly. The high-temperature steam heats the surrounding rocks, which in turn heats the oil in the layer, aiding in its recovery.

● Formation Internal Combustion: This method enhances the oil recovery coefficient by generating heat through a chemical reaction between coke particles in the oil and air injected from the surface. The high temperature significantly reduces the viscosity of the oil and improves the flow conditions.

It should be noted that oil and gas are currently being produced from fields with active potential in the "Azneft" Production Unit (PU), which have already entered the final stages of development. Referring to the experiences of foreign oil companies in increasing oil recovery rates, it is essential to consider applying the following methods in the "Azneft" PU:

Extraction of oil through periodic injection of liquid displacing reagents into the layers;

● conducting thermochemical reactions to extract "dead" oil from the layers;

● injection of polymer-based liquids into the layers;

● impacting the layers with water-gas mixtures.

Currently, several other methods have been developed to increase the oil recovery rate, and they are being implemented in recovery processes. Studying the experience of leading oil companies in this area will provide valuable insights [12, 13].

Due to extensive and intensive production in the onshore areas of rapidly discovered and proven deposits, which are now at the final stage of exploitation, the energy of the layers has been depleted, reserves have decreased, and extraction conditions have become more difficult. It is now impossible to extract oil without additional costs. The aging of well stock, equipment wear, and financial and logistical challenges have hindered efficient oil industry development.

Based on recommendations from the World Petroleum Congress (WPC) and the Society of Petroleum Engineers (SPE), a progressive approach to hydrocarbon reserve distribution was developed in 1987. Later, leading financial institutions, stock exchanges, and other organizations advocated for the development of a more advanced classification system to standardize the reserve category [14, 15].

The French company Total has introduced a method of supplying electricity from the shore to the Martin Linge field in the North Sea of Norway. This involves a 170-kilometer submarine cable that provides electricity from an onshore power plant to the Martin Linge field. This is the world's largest submarine cable laid to an oil and gas field. Total plans to apply this method to the Absheron field in the Azerbaijani sector of the Caspian Sea. No technical challenges have been identified in supplying the Absheron platform with electricity. Given the good condition and reasonable prices of the power plant at the Sangachal terminal, it is planned to supply electricity from this location. In general, locating the power plant onshore is considered more practical.

To reduce oil losses and protect the subsoil, separating oil-contaminated sludge is crucial in foreign countries. Two methods are used to separate sludge from oil:

1. Special Solvent Separation**:** A special pilot plant is used to separate the sludge from the oil. The plant converts the sludge (containing no more than 1% residual oil) into powder, which is then transferred to the solvent cycle system. The oil is subsequently used as a clean fuel. Studies show that the processed sludge does not pose an environmental threat.

2. Suspension and Injection into Formation: This method involves suspending oil-contaminated sludge and injecting it into the formation. BP has achieved good results using this technique in Alaska, the Gulf of Mexico, and on the "Guda" platform. Metal nanoparticles suspended in oil react with carbonates in the liquefied layers, creating carbon dioxide, which increases pressure in the layers. This process improves permeability, allowing for increased oil flow to the reservoir.

These processes create synergistic effects, increasing the oil recovery coefficient by improving flow, reducing water content, and significantly lowering energy consumption during extraction. The

use of catalytic metal nanoparticles in long-operating oil wells has led to increased production, saved energy, and reduced water usage.

Azerbaijani scientists, based on international practices, have synthesized sulfate derivatives from vegetable oils, studying their properties and solubility. Their research suggests that polyfunctional corrosion inhibitors can be prepared from unsaturated vegetable oil compounds, which improve corrosion resistance. Additionally, a new group of macrocyclic compounds has been developed, improving the rheological properties of oil.

CONCLUSION

Based on global and local experiences, modern MMT has high potential. Unfortunately, over the past 15 years, the application of modern MTM has significantly weakened in our country. The development of oil and gas fields involves technological processes that require substantial capital investments, such as drilling, well development, and infrastructure. The optimal economic profitability of oil reserves should be determined through the use of complex methods.

The State Oil Company of the Republic of Azerbaijan, in collaboration with foreign companies, has increased oil recovery by applying new equipment, technology, and international best practices. A significant amount of work has been accomplished recently, including the development of various technological methods to enhance oil yield.

Recent research estimates that the potential of oil reserves in Azerbaijan's onshore regions is 800-1000 million tons. It is geologically confirmed that 130 million tons of oil and 30 billion cubic meters of gas exist in the 42 oil and gas fields. It is recommended that the experiences of foreign oil companies be applied to the extraction of reserves from these fields.

The challenge of increasing the oil recovery rate is complex, involving scientific, technical, geological, and economic factors. A special strategic program should be developed to advance the development of onshore oil fields, involving the scientific and qualified specialists in Azerbaijan.

Reference:

1. G.S.Suleymanov, K.S.Karimov, K.H.Isayev. (2020). Monograph. Economic mechanisms of innovative management of industrial sectors. "Science and Education". Baku.

2. Aliyev M.A., Huseynov A.G., Karimov K.S. (2016). "Economics and management of the oil and gas industry". Baku.

3. Kerimov K.S. and others. (2010). Economic issues of oil and gas", Baku.

4. Kerimov K.S. (2014). Technical and economic design of industrial enterprises. ADNA.

5. Makarov A.V. (2009). Economic issues and problems of oil field development. SPb.: "Nedra",

6. Berezyuk A.B. (2015). Economic problems of oil field development at the final stage: Diss. Cand. Econ. Sciences: 08.00.05: Moscow.

7. V.I. Begulenko, K.S. Kerimov et al. (2013). Economic issues of oil and gas. M, GUGI.

8. Kuznetsov N.P. , Muzipov H. N., Savinykh Yu.A. (2010). Innovative developments in the field of oil production. M.

9. Surguchev M.L. (2011). Secondary and tertiary methods of increasing oil recovery// Young scientist. Problems of oil production in Belarus. - p. 29.

10. Kryanev D.Yu., Zhdanov S.A. (2011). State and problems of scientific support for enhanced reservoir recovery methods. Neftyanoe khozyaystvo [Oil industry]. 11. Pp.72-74.

11. Oil recovery tasks // Nefteservis. - 2009. - № 4. 2. Mullakaev M.S. Economically safe and efficient technologies for intensifying oil production. Problems and risks of modern Russian modernization: conceptual understanding and implementation practice. M.Cheboksary, 2012. p 87.

12. Review of modern methods of enhancing oil recovery. http://www.petros.ru. 2012.

13. Statistical indicators of Azerbaijan, ARDSK, Baku, 2021
14. Azerbaijan in figures. Statistical collection, Baku, Narinci publishing house, 2022.
15. Andreychikov A.V., Andreychikova O.N. (2013). System analysis and synthesis of strategic decisions in the oil industry: Textbook. Ed. 2nd. – M.: Book house "LIBROKOM", 304 p.

A.V.Sadıqova
müəllim, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
ORCID 0009-0009-5017-6104

Respublikanın neft yataqlarının işlənmənin son mərhələsində neft hasilatını artırmaqda xarici şirkətlərin təcrübəsinin tətbiqi

Xülasə

Məqalədə quru və Xəzər dənizi sahələrində yerləşən köhnə yataqlarından təbii və səmt qazı hasilatının azalması və müasir istehsal metodlarının tətbiqinin səmərəsizliyi araşdırılır. Xüsusilə, hasilatın durğunluğuna səbəb olan amillər və digər xarici neft şirkətlərində uğurla tətbiq olunan qabaqcıl istehsal texnologiyalarından kifayət qədər istifadə edilməməsi təhlil edilir. Yataqlarda lay təzyiqinin yüksəldilməsi və hasilatın artırmaq üçün qaz bərpası (EGR) metodlarının tətbiqi zərurəti kimi məsələlər müzakirə olunur. Məqalədə qaz hasilatının səmərəliliyini artırmaq üçün bir neçə perspektivli texnologiyalardan, məsələn CO_2 qazının laylara vyrylması, hidravlik yarma və daha dəqiq istehsal nəzarəti təmin edə və yataqların idarə olunmasını optimallaşdıra bilən real vaxt rejimində monitorinq təmin edən ağıllı quyu texnologiyası vurğulanır. Xarici şirkətlərin təcrübəsi göstərib ki, CO_2 qazının vurulması lay təzyiqini yüksəltmək və hasilatı artırmaq üçün əhəmiyyətli potensial nümayiş etdirib. Bundan əlavə, üfüqi qazma və hidravlik yarma bu yataqlarda əvvəllər əlçatmaz olan ehtiyatların işlənməsi üçün əsas ola bilər. Qabaqcıl metodların inteqrasiyasının iqtisadi və ekoloji faydaları əsaslandırılıb. Onlar köhnəlmiş yataqların istismar ömrünü uzada, əməliyyat xərclərini azalda və ətraf mühitə təsirləri minimuma endirə bilər. İnnovativ texnologiyaların uğurla tətbiqi və Azərbaycanın enerji sektorunun rəqabət qabiliyyətini təmin etmək üçün hökumət, özəl şirkətlər və beynəlxalq təşkilatlar arasında əməkdaşlığın vacibliyi vurğulanır.

Açar sözlər: *dənizdə təbii qaz sektoru, təkmilləşdirilmiş qaz hasilatı (EGR), CO2 inyeksiyası, ağıllı quyu sistemləri, hasilat metodları.*

Tikintinin iqtisadiyyatı və menecment
2026-ci il. № 2 (35) -səh.83-90
G.Ə.Rəhimova, F.Ə.Mirzəyev,
Q.A.Abbasova

Construction economics and management
2026, № 2 (35), pp.83-90
G.A.Rahimova, F.A.Mirzayev,
G.A.Abbasova

https://doi.org/10.58225/tim.2026-2-83-90

UOT:330.43

G.Ə.Rəhimova
i.f.d., dosent, Bakı Dövlət Universiteti
gulararahim2021@mail.ru
F.Ə.Mirzəyev
i.f.d.. dosent Bakı Dövlət Universiteti
Farhad_1958@mail.ru
Q.A.Abbasova
magistrant, Bakı Dövlət Universiteti
qenireabbasova2003@gmail.com

Məqalə redaksiyaya daxil olub 25.03.2026
The article was received by editorial board on 25.03.2026
Статья принята к печати 25.03.2026

ƏTRAF MÜHİT FAKTORLARININ HƏYAT GÖZLƏNTİSİNƏ İQTİSADİ TƏSİRİ VƏ EKONOMETRİK TƏHLİLİ

Xülasə

Məqalədə ətraf mühit faktorlarının həyat gözləntisinə və iqtisadi göstəricilərə təsiri araşdırılmışdır. Xüsusilə havanın çirklənməsi, səhiyyə xərcləri, ümumi daxili məhsul (ÜDM) və əmək bazarı göstəricilərinin həyat gözləntisi üzərindəki təsiri ekonometrik yanaşma ilə təhlil edilmişdir. Tədqiqatda çoxdəyişənli ekonometrik model qurulmuş və dəyişənlər arasında əlaqələrin istiqaməti və gücü qiymətləndirilmişdir. Alınmış nəticələr göstərir ki, ətraf mühitin çirklənməsi səhiyyə xərclərini artırır və həyat gözləntisini azaldır, iqtisadi inkişaf (ÜDM) isə ümumilikdə həm həyat keyfiyyətinə, həm də uzunömürlülüyə müsbət təsir edir. Eyni zamanda əmək bazarındakı dəyişikliklərin də dolayısı ilə sağlamlıq göstəricilərinə təsir etdiyi müəyyən edilmişdir. Beləliklə, məqalə ətraf mühitin və iqtisadi faktorların bir-biri ilə qarşılıqlı əlaqədə olduğunu və bu əlaqələrin siyasi qərarlar üçün vacib olduğunu göstərir.

Açar sözlər: *ətraf mühit faktorları, həyat gözləntisi, ekonometrik model, ətraf mühitin çirklənməsi, karbon emissiyası.*

GİRİŞ

Ətraf mühitin qorunmasına yönəlmiş fəaliyyətlər insanların gələcəklə bağlı narahatlıqlarının mövcud olduğunu göstərir. Bu narahatlıq həm fərdin öz gələcəyi, həm də gələcək nəsillərin rifahı ilə əlaqədar ola bilər. Bununla belə, insanların gələcəyi necə qiymətləndirməsi və ona münasibəti bir sıra amillərdən, xüsusilə də gözlənilən ömür müddətindən asılıdır. Həyat gözləntisinin yüksək olması fərdlərin həm öz gələcək rifahına, həm də gələcək nəsillərin həyat şəraitinə daha həssas yanaşmasına səbəb olur. Bu baxımdan, daha uzun müddət yaşayacağını gözləyən fərdlərin ətraf mühitin keyfiyyətinin qorunması və yaxşılaşdırılması istiqamətinə daha çox investisiya qoymağa meyilli olması məntiqli hesab olunur. Əhalinin sağlamlıq səviyyəsinə və səhiyyə xərclərinin formalaşmasına təsir edən müxtəlif amillər mövcuddur. Bu amillərə: əhalinin gəlir səviyyəsi, sənayeləşmə nəticəsində yaranan çirklənmə, müharibələr, ətraf mühitin vəziyyəti və digər sosial-iqtisadi faktorlar daxildir. Genişmiqyaslı müharibələr yalnız siyasi və humanitar deyil, həm də böyük ekoloji fəlakətlərə səbəb

olur. Belə ki, potensial İran–İsrail-Amerika müharibəsi kimi silahlı münaqişələr ətraf mühitin çirklənməsinə çoxşaxəli və ciddi təsir göstərir. Bu təsirlər həm qısa müddətli, həm də uzunmüddətli ola bilər:

1. Havanın çirklənməsi. Müharibə zamanı partlayışlar, raket zərbələri və yanğınlar nəticəsində atmosferə böyük miqdarda zərərli qazlar (karbon qazı, azot oksidləri, tüstü və s.) yayılır. Bu, hava keyfiyyətini pisləşdirməklə iqlim dəyişməsinə təsir edir.

2. Torpaq və suyun çirklənməsi. Silahların istifadəsi nəticəsində: Kimyəvi maddələr, yanacaq qalıqları, partlayıcıların ağır metalları torpağa və yeraltı sulara qarışır. Bu da, kənd təsərrüfatına və içməli su ehtiyatlarına zərər verir.

3. Neft və sənaye obyektlərinin dağıdılması. Əgər münaqişə zamanı neft zavodları, boru kəmərləri və ya kimya müəssisələri hədəfə alınarsa: Neft sızmaları baş verir, dəniz və çaylar çirklənir, ekosistemlər ciddi ziyan görür.

4. Flora və faunaya təsir. Partlayışlar və yanğınlar: Meşələri məhv edir, heyvanların yaşayış mühitini dağıdır, bəzi növlərin yox olma riskini artırır.

5. Radioaktiv və kimyəvi risklər. Əgər nüvə və ya kimyəvi obyektlər zədələnərsə, bu: Uzunmüddətli radiasiya çirklənməsi, insan sağlamlığı üçün ciddi təhlükə yarada bilər.

6. Uzunmüddətli ekoloji nəticələr. Müharibədən sonra belə: Torpağın bərpası illərlə çəkir, su ehtiyatları çirklənmiş qalır, regionda ekoloji balans pozulur.

ƏSAS HİSSƏ

Dövlətlərin əsas məqsədlərindən biri əhaliyə keyfiyyətli səhiyyə xidmətlərinin göstərilməsini təmin etməkdir. Çünki səhiyyə xidmətlərinin səviyyəsi həyat gözləntisinin artmasına, əmək məhsuldarlığının yüksəlməsinə və ümumilikdə cəmiyyətin sosial-iqtisadi rifahının yaxşılaşmasına mühüm təsir göstərir.

Digər tərəfdən, həyat gözləntisi ilə ətraf mühitin keyfiyyəti arasındakı səbəb-nəticə əlaqəsi qarşılıqlı xarakter daşıya bilər. Tibb və epidemologiya sahəsində aparılmış bir sıra araşdırmalar göstərir ki, ətraf mühitin vəziyyəti insanların sağlamlıq göstəricilərinə və xəstələnmə səviyyəsinə əhəmiyyətli təsir edir. Havanın və suyun çirklənməsi, təbii resursların tükənməsi, torpaqların deqradasiyası və digər oxşar ekoloji problemlər ölüm hallarının artmasına səbəb olmaqla ömrün uzunluğunun azalmasına gətirib çıxarır.

Müxtəlif ölkələrdə həyat gözləntisi ilə ətraf mühitin keyfiyyəti arasında müsbət əlaqənin mövcud olması təəcüblü hesab edilmir. Buna görə də, həm ətraf mühit göstəriciləri, həm də ömür uzunluğu baxımından ölkələr müəyyən qruplar ətrafında təsnifatlandırılır. Bu hal iqtisadi ədəbiyyatda "konvergensiya klubları" kimi izah olunur və ölkələrin əsasən iki fərqli səviyyədə - yüksək və aşağı ətraf mühit keyfiyyəti və həyat gözləntisi səviyyələri ətrafında qruplaşdığını göstərir. Bir çox ölkələrdə həyat gözləntisinin artması səhiyyə xidmətlərinin inkişafı, müasir texnologiyaların tətbiqi və ümumi həyat səviyyəsinin yüksəlməsi kimi müxtəlif sosial-iqtisadi amillərlə izah olunur.

Ətraf mühit faktorları iqtisadi inkişafla da sıx əlaqəlidir. Ekoloji problemlərin artması səhiyyə xərclərinin yüksəlməsinə, əmək məhsuldarlığının azalmasına və iqtisadi inkişafın ləngiməsinə səbəb ola bilər. Buna görə də ətraf mühitin qorunması yalnız ekoloji deyil, həm də iqtisadi baxımdan böyük əhəmiyyət daşıyır. Bu baxımdan ətraf mühit faktorlarının həyat gözləntisinə təsirinin iqtisadi aspektdən araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Bizim tədqiqatımızın əsas məqsədi ətraf mühit faktorlarının həyat gözləntisinə təsirini təhlil etmək və bu əlaqəni ekonometrik model vasitəsilə qiymətləndirməkdən ibarətdir. Bu məqsədlə ətraf mühitlə həyat gözləntisi arasında mövcud olan qarşılıqlı təsir və iki isiqamətli səbəb-nəticə əlaqəsi modelləşdirilir. Nəticədə bu iki dəyişən arasında müsbət dinamik əlaqənin formalaşdığı göstərilir (International Journal of Built Environment and Sustainability, Published by Penerbit UTM Press,

Universiti Teknoloji Malaysia. Factors Influencing Life Expectancy: Global Evidence from 125 Countries, 2023).

Həyat gözləntisi və ya insan ömrünün uzunluğu iqtisadiyyatın kvantitatif təhlillərində, xüsusilə ekonometrik sahəsində araşdırılır. Kvantitativ təhlillər (və ya kəmiyyət təhlilləri) məlumatları ölçülə bilən formaya salaraq obyektiv nəticələr çıxarmağa kömək edən elmi üsul olub məlumatların rəqəmlər, ölçmələr və statistik üsullar vasitəsilə analiz edilməsi deməkdir. Yəni bu yanaşmada əsas məqsəd hadisələri və ya prosesləri saylarla ifadə etmək və riyazi üsullarla araşdırmaqdır. Kvantitativ təhlil "nə qədər?", "neçə?", "necə dəyişir?" kimi suallara cavab verir. Bir ölkədə əhalinin say artımını faizlə hesablamaq, müharibənin iqtisadi zərərini dollarla ölçmək, hava çirklənməsini *ppm* və ya *faizlə* göstərmək, sorğuda neçə nəfərin hansı cavabı verdiyini statistik olaraq analiz etmək məsələləri bu təhlilə nümunədir. Başqa sözlə, kvantitativ təhlil → rəqəmlər, statistik göstəricilərdir (məsələn, 70%, 1000 nəfər) keyfiyyət təhlili isə təsviri məlumatlar, fikirlər, səbəblər (məsələn, insanların düşüncələri) hesab olunur.

Qeyd edək ki, hava çirklənməsini ölçərkən *ppm* (milyonda bir hissə) və *faiz (%)* arasındakı fərq, əslində miqyas və dəqiqlik məsələsidir. Gündəlik həyatda istifadə etdiyimiz faiz göstəricisi hava çirkliliyi üçün çox "kobud" bir ölçü vahididir. Bu iki vahid arasındakı əsas fərqlər: Miqyas fərqi (Rəqəmlərin Dili), faiz "yüzdə bir", ppm isə "milyonda bir" deməkdir. **1%** = 10,000 ppm; **0.1%** = 1,000 ppm; **0.01%** = 100 ppm. Havadakı çirkləndiricilər (məsələn, dəm qazı - CO və ya azot dioksid - NO_2) adətən çox kiçik miqdarlarda olsa da, insan sağlamlığına ciddi təsir edir. Əgər biz dəm qazının konsentrasiyasını faizlə desək, bu rəqəm *0.0009%* kimi görünəcək ki, bunu oxumaq və anlamaq çətindir. Lakin eyni miqdarı *9 ppm* kimi ifadə etmək həm elmi, həm də praktiki cəhətdən daha rahatdır. *Faiz (%)*- havanın əsas tərkib hissələri üçün (bol olan qazlar - Oksigen (21%), Azot (78%)). *Ppm* - Çirkləndiricilər və iz qazlar üçün (az olan qazlar- Karbon dioksid (CO_2) ~420 ppm, Dəm qazı (CO)) istifadə edilir.

Hava çirklənməsində ppm-in istifadəsi kritikdir, çünki çox kiçik dəyişikliklər böyük fərqlər yaradır. Havada digər ölçü vahidi də var: $\mu g/m^3$ -dir.

Ekonometrik və ekoloji analizlərdə qazlar üçün *ppm* istifadə edilsə də, bərk hissəciklər (toz, tüstü - PM2.5 və PM10) üçün mikroqram/kubmetr ($\mu g/m^3$) istifadə olunur. Çünki toz qaz deyil, o, havanın həcmində çəkiyə malik olan fiziki hissəcikdir.

Andrews-in iqtisadi tədqiqatlarinda (bazar analizi və ya statistik model) həyat gözləntisinin (asılı dəyişən) ölkənin ÜDM-i, əhalinin gəlir səviyyəsi və digər təsadüfi amillərlə sıx əlaqəli olduğu göstərilmişdir (Fabio Mariani,Agustín Pérez-Barahona, Natacha Raffin; Journal of Economic Dynamics and Control. Life expectancy and the environment. 2024, p. 201-208).

*Ətraf mühit çirklənməsinin səhiyyə xərclərinə təsiri (*Ustundağ, E. 2024).

Ümümdünya Səhiyyə Təşkilatının 2022-ci ildə təqdim etdiyi məlumata görə, ÜST-ün sağlamlıq meyarlarından aşağı olan və bu səbəbdən insan sağ-lamlığına mənfi təsir edən hava ilə nəfəs alan insanların sayı təxminən 99%-i təşkil edir. Bu mənfi xoşagəlməz hal əsasən bölgəyə görə dəyişsə də, havada olan hissəciklər və azot dioksidi kimi zərərli maddələrdən yaranır. Belə maddələrlə əlaqədə olmaq müxtəlif sağlamlıq problemlərinə yol açır və bunlara ürək, beyin və ağciyər kimi orqanlar daha həssasdır. Onu da qeyd etmək lazımdır ki, insan sağlamlığına təsir edən bu maddələr inkişaf etməkdə olan ölkələrdə digər ölkə qrupları ilə müqayisədə daha yüksək konsentrasiyalarda olur (ÜST 2022). Ətraf mühitin çirklənməsi yalnız ekoloji problemlərlə məhdudlaşmır, eyni zamanda ölkələrin sosial rifahına da ciddi təsir göstərir. Rifah səviyyəsinin aşağı düşməsi cəmiyyət üzvlərinin sağlamlığında problemlərin yaranmasına səbəb olur ki, bu da istehsal prosesinin bütün amillərinə, xüsusilə də əmək məhsuldarlığına mənfi təsir edir. Nəticədə istehsalın səmərəliliyi azalır, bu isə milli istehsalın həcminin və iqtisadi artım tempinin zəifləməsinə gətirib çıxarır.

Digər tərəfdən, ətraf mühitin çirklənməsinin artması iqtisadi göstəricilərin pisləşməsi ilə yanaşı, ictimai sağlamlığın qorunması üçün səhiyyə xərclərinin də yüksəlməsinə səbəb olur. Bu xərclərin artması dövlət büdcəsinə əlavə yük yaradır. Ətraf mühitin keyfiyyətini yaxşı səviyyədə saxlayan ölkələr isə səhiyyəyə ayrılan vəsaitin bir hissəsini digər investisiya sahələrinə yönəltmək imkanına malik olurlar. Bu baxımdan demək olar ki, ətraf mühitin yaxşılaşdırılması həm investisiya imkanlarının genişlənməsi və həm də, sosial rifahın yüksəlməsi üçün mühüm fakt rolunu oynayır. Bununla yanaşı, səhiyyə xərclərinin səviyyəsi təkcə ətraf mühitin vəziyyəti ilə deyil, iqtisadi inkişaf, əhalinin yaş strukturu və enerji istehlakı kimi amillərlə də bağlıdır. Eyni zamanda, səhiyyə sektoruna yönəldilən investisiyalar ölüm hallarının azalmasına və insanların orta ömür uzunluğunun artmasına müsbət təsir göstərir.

2000-2024-cü illəri əhatə edən dövr ərzində Dünya Bankının (World Bank) təsnifatına əsasən Üst Gəlir (High income) və Üst-Orta Gəlir (Upper-middle income) qrupuna daxil olan ölkələr üzrə məlumatlara nəzər salaq. Bu anlayışlar ölkələrin iqtisadi inkişaf səviyyəsini müqayisə etmək və qruplaşdırmaq üçün istifadə edilir. (World Bank, Global Burden of Disease Study 2024).

Üst gəlir və üst-orta gəlir qrupu ölkələrin iqtisadi səviyyəsinə görə adambaşına düşən milli gəlir (GNI) əsasında təsnif olunur. Üst-orta gəlir qrupuna daxil olan ölkələr: Orta səviyyədən yuxarı gəlirə malikdir, amma hələ ən zəngin ölkələr səviyyəsində deyil. Əsas xüsusiyyətləri: Sənayeləşmə inkişaf edir, orta təbəqə genişlənir, infrastruktur və texnologiya inkişaf mərhələsində
olur, Türkiyə, Braziliya, Çin və s. kimi ölkələri buna misal göstərmək olar.

Üst gəlir qrupuna daxil olan ölkələr: Adambaşına düşən gəliri çox yüksək olan, ən inkişaf etmiş iqtisadiyyata malik dövlətlərdir. Əsas xüsusiyyətləri: Yüksək həyat səviyyəsi, inkişaf etmiş texnologiya və xidmət sektoru, güclü səhiyyə və təhsil sisteminə malik olmasıdır. Məsələn: ABŞ, Almaniya, Yaponiya və s. kimi ölkələr. Əsas fərqləri: Üst-orta gəlir → inkişaf edən, amma hələ tam inkişaf etməmiş ölkələr; Üst gəlir → inkişaf etmiş, yüksək rifah səviyyəli ölkələrdir (World Health Organization, 2022).

Bu ölkə qruplarında səhiyyə xərcləri ilə ətraf mühitin çirklənməsi arasında əlaqəyə baxılır. Hər iki qrup üzrə ümumilikdə 48 ölkənin məlumatları təhlil olunub. Üst gəlir qrupuna daxil olan ölkələr arasında Avstraliya, Belçika, Kanada, Danimarka, Fransa, Almaniya, Yaponiya, ABŞ, Finlandiya və digər inkişaf etmiş ölkələr yer alır. Üst-orta gəlir qrupuna daxil olan ölkələr sırasında isə Argentina, Azərbaycan, Türkiyə, Çin, Gürcüstan, Qazaxıstan, Ermənistan, Rusiya və digər oxşar inkişaf səviyyəsinə malik ölkələr mövcuddur.

Məsələnin ekonometrik modelində *asılı dəyişən* (*dependent variable*- tədqiqatın mərkəzində duran, dəyişməsi digər amillərdən asılı olan və izah edilməyə çalışılan, modelin "nəticəsi" olan əsas kəmiyyətdir) kimi *səhiyyə xərclərini* ifadə edən göstərici seçilmişdir. Əsas diqqət dövlət tərəfindən həyata keçirilən səhiyyə xərclərinə yönəldilmişdir. Bunun səbəbi isə cəmiyyətin sağlamlığının qorunmasında dövlət siyasətinin mühüm rol oynamasıdır. Ətraf mühitin çirklənməsi nəticəsində yaranan sağlamlıq problemlərinin aradan qaldırılması daha çox dövlətin üzərinə düşdüyü üçün, bu sahədə məhz dövlət xərclərinin təhlili daha məqsədəuygun hesab edilmişdir.

Modeldə s*ərbəst dəyişən* (model daxilində başqa bir amildən asılı olmayan, əksinə, tədqiq etdiyimiz nəticəyə təsir göstərən faktordur, riyazi və ekonometrik dildə biz buna adətən X deyirik. Ekonometrikada biz bir hadisənin niyə baş verdiyini izah etmək istəyiriksə, bu izahı verən "səbəb" faktorları sərbəst dəyişənlər hesab olunur) kimi isə *karbon emissiyası* göstəricilərindən istifadə olunmuşdur. Karbon emissiyası – insanların fəaliyyəti nəticəsində atmosferə buraxılan karbon qazıdır və iqlim problemlərinin əsas səbəblərindən biridir. Əsas mənbələri: Nəqliyyat vasitələri**,** zavod və fabriklər, kömür, neft və qazın yandırılması, meşələrin qırılmasıdır. Karbon emissiyası: İqlim dəyişməsinə səbəb olur, qlobal istiləşməni artırır, havanın keyfiyyətini pisləşdirir. Məsələn, maşın sürərkən benzin yandıqda CO_2 ayrılır ki, bu da, karbon emissiyasıdır. Dəyişənlər üzrə göstəricilər

analizdən əvvəl loqarifmik formaya salınmışdır ki, bu da nəticələrin daha sabit və müqayisə edilə bilən olmasına şərait yaradır.

- Səhiyyə xərcləri (Dövlətin səhiyyəyə ayırdığı xərclərin payı)- LHEA;
- CO_2 emissiyası (Ölkə üzrə ümumi karbon emissiyası)- LCO_2A;
- CO_2 emissiyası (Bir nəfərə düşən karbon emissiyası)- LCO_2B;
- Ümumi daxili məhsul (Ölkənin iqtisadi göstəricisi)- LÜDM;
- Əhali-LPOP.

Aşağıda üst gəlirli ölkələr üzrə statistika göstərilmişdir (Cədvəl 1).

Cədvəl 1

Üst gəlir qrupu ölkələri

Dəyişən	Orta	Minimum	Maksimum	Standart xəta	Müşahidələrin sayı
LHEA	4.193	3.328	4.485	0.236	960
LCO_2A	10.755	5.247	15.569	2.055	960
LCO_2B	2.035	0.304	3.964	0.577	960
LÜDM	25.825	20.267	30.623	2.073	**960**

İndi isə üst-orta gəlirli ölkələr üçün aşağıdakı statistikaya baxaq (cədvəl 2).

Cədvəl 2

Üst-orta gəlir qrupu ölkələri

Dəyişən	Orta	Minimum	Maksimum	Standart xəta	Müşahidələrin sayı
LHEA	3.893	1.910	4.610	0.387	960
LCO_2A	9.261	2.302	16.186	2.736	960
LCO_2B	1.103	-0.407	2.730	0.696	960
LÜDM	30.617	24.072	37.199	2.556	960
LPOP	15.066	9.170	21.065	2.498	960

Araşdırma çərçivəsində qurulan ekonometrik modellər iki fərqli ölkə qrupu üzrə təhlil edilmişdir. Belə ki, model 1-4 üst gəlirli ölkələri, model 5-8 isə üst- orta gəlirli ölkələri əhatə edir. Qurulan modellərin daha aydın təqdim edilməsi üçün hər bir model ayrıca şəkildə aşağıda göstərilmiş və izah edilmişdir.

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2A_{it} + \varepsilon_{it} \quad (1)$$

Bu modeldə səhiyyə xərclərinin karbon emissiyaları ilə əlaqəsi (korelyasiyası) sadə formada araşdırılır.

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2A_{it} + \alpha_2 LÜDM_{it} + \alpha_3 LPOP_{it} + \varepsilon_{it} \quad (2)$$

Bu modeldə səhiyyə xərclərinə təsir edən amillər genişləndirilmiş və karbon emissiyaları ilə yanaşı iqtisadi artım və əhali faktoru da nəzərə alınmışdır.

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2B_{it} + \varepsilon_{it} \quad (3)$$

Bu modeldə karbon emissiyası adambaşına düşən göstərici kimi istifadə edilmişdir.

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2B_{it} + \alpha_2 LÜDM_{it} + \alpha_3 LPOP_{it} + \varepsilon_{it} \quad (4)$$

Bu model əvvəlki modelin genişləndirilmiş formasıdır və əlavə olaraq iqtisadi və demoqrafik faktorları da əhatə edir.

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2A_{it} + \varepsilon_{it} \quad (5)$$

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2A_{it} + \alpha_2 LÜDM_{it} + \alpha_3 LPOP_{it} + \varepsilon_{it} \quad (6)$$

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2B_{it} + \varepsilon_{it} \quad (7)$$

$$LHEA_{it} = \alpha_0 + \alpha_1 LCO_2B_{it} + \alpha_2 LÜDM_{it} + \alpha_3 LPOP_{it} + \varepsilon_{it} \quad (8)$$

Üst-orta gəlirli ölkələr üçün qurulan modellər (5-8) eyni struktura malikdir, lakin fərqli ölkə qrupu üzrə tətbiq edilərək nəticələrin müqayisəli təhlilinə imkan verir.

Mənbəyə əsasən belə nəticəyə gəlirik ki, CO_2 emissiyalarının artması həm yüksək gəlirli ölkələrdə, həm də yüksək-orta gəlirli ölkələrdə səhiyyə xərclərinin artmasına səbəb olduğundan, bu ölkələr həmin dəyişənlərin kəmiyyətcə kiçildilməsi üçün tədbirlər görməlidirlər. Ölkələrin ətraf mühitin qorunması və insan sağlamlığının yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlər ümumi və qlobal səviyyədə tətbiq edilən vahid siyasət kimi qəbul olunmalıdır. Ətraf mühitin daha keyfiyyətli hala gətirilməsi istiqamətində görülən tədbirlər eyni zamanda səhiyyə xərclərinin azalmasına müsbət təsir göstərir. Daha təmiz mühit insan sağlamlığına zərər verən amillərin azalmasına və ya tam aradan qalxmasına şərait yaradır. Digər tərəfdən, səhiyyə sistemindəki şəraitin yaxşılaşdırılması da xərclərin minimuma endirilməsinə kömək edir. Bunun nəticəsində qənaət olunan vəsaitlər hazırda istifadə olunmayan iqtisadi resursların inkişafına yönəldilə bilər. Bu resurslar infrastrukturun gücləndirilməsi, təhsilin inkişafı, sosial sahələrin genişləndirilməsi və iqtisadi investisiyaların artırılması üçün istifadə edilərək ümumilikdə cəmiyyətin rifah səviyyəsinin yüksəlməsinə şərait yaradır. Ətraf mühit faktorlarının səhiyyə xərclərinə təsiri yalnız birbaşa deyil, həm də dövlət siyasəti vasitəsilə dolayı şəkildə özünü göstərir. Ətraf mühitin qorunmasına yönəlmiş tədbirlər, məsələn, hava çirkliliyinin azaldılması və ekoloji standartların tətbiqi uzunmüddətli dövrdə səhiyyə xərclərinin azalmasına səbəb ola bilər. Bu baxımdan profilaktik tədbirlər müalicə xərclərindən daha effektiv hesab olunur.

Həyat gözləntisi və ÜDM

Təhlil göstərir ki, ÜDM ilə ictimai sağlamlıq arasında zəif müsbət korrelyasiya (r=0.194) (iki kəmiyyət arasındakı əlaqə) mövcuddur. Bu o deməkdir ki, iqtisadi artım sağlamlıq göstəricilərinin yaxşılaşmasına müəyyən dərəcədə təsir etsə də, bu təsir güclü və birbaşa deyil. Yəni ÜDM təkbaşına ictimai sağlamlığı və ya həyat uzunluğunu müəyyən edən əsas amil hesab oluna bilməz, çünki bu bir çox faktorların birgə təsiri ilə formalaşır. Yüksək ÜDM səviyyəsi adətən ölkələrə səhiyyə infrastrukturuna, tibbi tədqiqatlara və yeni texnologiyalara daha çox investisiya yatırmaq imkanı yaradır. Bu da səhiyyə xidmətlərinin daha əlçatan və keyfiyyətli olmasına şərait yaradır. İqtisadi cəhətdən inkişaf edən ölkələrdə sanitariya sistemlərinin yaxşılaşdırılması, peyvənd proqramlarının genişləndirilməsi və qidalanmanın yaxşılaşması kimi amillər əhalinin sağlamlığına müsbət təsir edir. Eyni zamanda, iqtisadi rifah dövlətlərin təhsil və xəstəliklərin qarşısının alınması kimi sosial sahələrə daha çox vəsait ayırmasına imkan verir ki, bu da ümumi sağlamlıq səviyyəsini yüksəldir.

Bununla belə, ÜDM ilə ömür uzunluğu arasındakı əlaqə xətti xarakter daşımır. Xüsusilə aşağı gəlirli ölkələrdə iqtisadi artım ilkin mərhələdə sağlamlıq göstəricilərini ciddi şəkildə yaxşılaşdırsa da, müəyyən səviyyədən sonra ÜDM-in artması ömrün uzunluğuna eyni dərəcədə təsir göstərmir. Bu mərhələdə ölkələr daha çox səhiyyəyə bərabər çıxış, ekoloji davamlılıq və sağlamlığın sosial determinantlarını əhatə edən siyasətlər kimi sistemli məsələlərə fokuslanmalıdırlar. Nəticə olaraq, iqtisadi artım vacibdir, lakin insanların sağlamlığının uzun müddət yaxşılaşması üçün səhiyyə, təhsil və sosial rifah sahələrinə planlı investisiyalar yatırılması daha önəmlidir.

Həyat gözləntisi və hava çirklənməsi

Mənbəyə əsasən, çirkli hava ilə həyat gözləntisi arasında güclü mənfi korrelyasiya var, r= -0.879 (biri artdıqca digəri azalır) və bu da hava çirkliliyi artdıqca həyat gözləntisinin azaldığını göstərir. Xüsusilə, havanın çirkliliyi artdıqca insanların ömrünün uzunluğu ciddi şəkildə - 0.072 il azalır. 0.072 il azalma nə deməkdir? Bu, *regressiya əmsalıdır* (təsirin ölçüsü), dəqiq mənası: Çirkli hava ilə bağlı ölüm göstəricisi 1 vahid artdıqda, orta ömür 0.072 il azalır, başqa sözlə, 0.072 il ≈ 26 gün.

Dünya Səhiyyə Təşkilatının (WHO) hesablamalarına görə, hər il təxminən 6.7 milyon ölüm hava çirkliliyi ilə əlaqələndirilir və əsas səbəb PM2.5 kimi incə hissəciklərdir. Bu hissəciklər ürək-damar və tənəffüs xəstəliklərini artıraraq ömrün uzunluğunu azaldır.

Air Quality Life Index (AQLI) hesabatına görə, dünya üzrə orta hesabla insanlar çirkli hava səbəbilə təxminən 2–3 il həyat itirirlər, bəzi yüksək çirklənmiş regionlarda isə bu göstərici daha da yüksəkdir.

Tədqiqatlar göstərir ki, PM2.5 səviyyəsinin WHO norma həddinə endirilməsi qlobal miqyasda milyardlarla "life-years" qazandıra bilər, yəni ümumi ömrün uzunluğunu əhəmiyyətli dərəcədə artıra bilər.

Avropa alimlərinin tədqiqatlarına əsasən, hava çirkliliyinin azaldılması hər il on minlərlə erkən ölümün qarşısını ala bilər; məsələn yalnız PM2.5 çirkliliyi Avropada yüz minlərlə ölümə səbəb olur. Nəticədə, elmi sübutlar göstərir ki, hava keyfiyyəti yaxşılaşdıqca ölüm riski azalır və bu da birbaşa olaraq orta həyat gözləntisinin artmasına səbəb olur.

Yuxarıda qeyd olunan təsirlərlə yanaşı, ətraf mühit faktorlarının təsiri yalnız səhiyyə və həyat gözləntisi ilə məhdudlaşmır. Bu amillər eyni zamanda əmək bazarına da mühüm təsir göstərir. Ətraf mühit faktorları əmək bazarına həm birbaşa, həm də dolayı yollarla təsir edir. Xüsusilə hava çirkliliyi, iqlim dəyişiklikləri və ekoloji risklərin artması işçi qüvvəsinin sağlamlığına mənfi təsir edərək əmək məhsuldarlığının azalmasına səbəb olur. Araşdırmalar göstərir ki, çirklənmiş mühitdə yaşayan əhali arasında tənəffüs və ürək-damar xəstəliklərinin yayılması daha yüksək olur, bu da iş günlərinin itirilməsi və əmək qabiliyyətinin zəifləməsi ilə nəticələnir. Məsələn, Ümumdünya Səhiyyə Təşkilatı (2025) qeyd edir ki, hava çirkliliyi hər il milyonlarla insanın sağlamlığına təsir edərək iqtisadi aktivliyin azalmasına gətirib çıxarır.

Bundan əlavə, ekoloji faktorlar əmək bazarında struktur dəyişikliklərinə də səbəb ola bilər. İqlim dəyişiklikləri kənd təsərrüfatı və digər təbii resurslara əsaslanan sahələrdə məşğulluğun azalmasına, eyni zamanda daha dayanıqlı və "yaşıl iqtisadiyyat" sektorlarında yeni iş yerlərinin yaranmasına şərait yaradır. International Labour Organization (2024) tərəfindən aparılan tədqiqatlara əsasən, ekoloji siyasətlərin gücləndirilməsi uzunmüddətli dövrdə yeni iş imkanları yaratsa da, qısamüddətli dövrdə bəzi sahələrdə işsizliyin artmasına səbəb ola bilər. Beləliklə, ətraf mühit amilləri əmək bazarına kompleks təsir göstərərək həm işçi qüvvəsinin sağlamlıq vəziyyətini, həm də məşğulluq strukturunu dəyişir ki, bu da ümumi iqtisadi inkişaf üçün mühüm əhəmiyyət daşıyır.

NƏTİCƏ

Bu tədqiqatda ətraf mühit faktorlarının, xüsusilə hava çirklənməsinin həyat gözləntisi, səhiyyə xərcləri, ÜDM və əmək bazarı göstəriciləri üzərindəki təsiri ekonometrik model vasitəsilə empirik olaraq təhlil edilmişdir. Qurulan çoxdəyişənli model çərçivəsində dəyişənlər arasında əlaqələrin istiqaməti və statistik asılılıqları qiymətləndirilmişdir.

Aparılan analizlər göstərir ki, hava çirklənməsinin artması səhiyyə xərclərinin yüksəlməsinə səbəb olur. Bu isə dövlət və ev təsərrüfatlarının səhiyyəyə daha çox resurs ayırmasına gətirib çıxarır. Eyni zamanda, çirklənmə səviyyəsinin yüksək olduğu mühitlərdə həyat gözləntisinin azalması müşahidə olunur ki, bu da ətraf mühit keyfiyyətinin ictimai sağlamlıq üçün əsas determinantlardan biri olduğunu təsdiqləyir.

Digər tərəfdən, iqtisadi göstəricilərdən olan ÜDM artımı ümumilikdə həyat şəraitinin yaxşılaşmasına və səhiyyə sisteminə ayrılan resursların artmasına müsbət təsir göstərir. Bununla belə, iqtisadi artımın ekoloji nəticələri nəzərə alınmadıqda, bu inkişafın uzunmüddətli dövrdə sağlamlıq üzərində mənfi təsirlər yaratma ehtimalı da mövcuddur. Əmək bazarı göstəriciləri isə dolayısı ilə həm iqtisadi rifah, həm də sağlamlıq səviyyəsi ilə qarşılıqlı əlaqəlidir.

Nəticə etibarilə, tədqiqat göstərir ki, ətraf mühitin keyfiyyəti, iqtisadi inkişaf və sosial rifah bir-biri ilə sıx bağlı olan amillərdir. Bu səbəbdən iqtisadi siyasətlərin formalaşdırılmasında yalnız iqtisadi

artım deyil, eyni zamanda ekoloji davamlılıq və ictimai sağlamlıq da nəzərə alınmalıdır. Ətraf mühitin qorunmasına yönəlmiş tədbirlər uzunmüddətli perspektivdə həm həyat gözləntisinin artmasına, həm də səhiyyə xərclərinin optimallaşmasına töhfə verə bilər. Deməli, ətraf mühit faktorları səhiyyə xərcləri, həyat gözləntisi və əmək bazarı üzərində kompleks və qarşılıqlı təsirə malikdir. Bu amillərin nəzərə alınması davamlı iqtisadi inkişafın təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

İstifadə edilmiş ədəbiyyat:

1. Fabio Mariani,Agustín Pérez-Barahona, Natacha Raffin; Journal of Economic Dynamics and Control. Life expectancy and the environment. 2024, p. 201-208.

2. Ustundağ, E.(2024). Çevre Kirliliğinin Sağlık Harcamalarına Etkisi:GMM Yöntemi. *KMÜ Sosyal ve Ekonomik Araştırmalar Dergisi*, 26(46), 603-620.

3. International Journal of Built Environment and Sustainability, Published by Penerbit UTM Press, Universiti Teknoloji Malaysia. Factors Influencing Life Expectancy: Global Evidence from 125 Countries, 2023.p. 107-115

4. World Health Organization (2022), Air pollution Data Portal.

5. World Bank, Global Burden of Disease Study 2024.

G.A.Rahimova
PhD, associate professor, Baku State University
F.A.Mirzayev
PhD, associate professor, Baku State University
G.A.Abbasova
master student, Baku State University

The economic impact of environmental factors on life expectancy and its econometric analysis

Abstract

This article examines the impact of environmental factors on life expectancy and economic indicators. In particular, the effects of air pollution, healthcare expenditures, gross domestic product (GDP), and labor market indicators on life expectancy are analyzed using an econometric approach. A multivariate econometric model was constructed in the study, and the direction and strength of the relationships between variables were evaluated. The results show that environmental pollution increases healthcare expenditures and reduces life expectancy, while economic development (GDP) generally has a positive impact on both quality of life and longevity. At the same time, changes in the labor market were found to indirectly affect health indicators. Thus, the article demonstrates that environmental and economic factors are interrelated and that these relationships are important for policy decisions.

Keywords: *environmental factors, life expectancy, econometric model, environmental pollution, carbon emissions.*

https://doi.org/10.58225/tim.2026-2-91-100

R.T.Həsənov
i.e.d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti
rasimt.hasanov@gmail.com
B.B.Kazımov
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
bekir.kazimov555@gmail.com

Məqalə redaksiyaya daxil olub 24.03.2026
The article was received by editorial board on 24.03.2026
Статья принята к печати 24.03.2026

AZƏRBAYCAN İQTİSADİYYATINDA DAYANIQLI VƏ İNKLÜZİV İNKİŞAF HƏDƏFLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ

Xülasə

Tədqiqat Azərbaycan iqtisadiyyatında dayanıqlı və inklüziv inkişaf hədəflərinin mövcud vəziyyətini BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində qiymətləndirir. Analiz əhalinin gəlir və xərclər strukturu, dövlət büdcəsinin gəlir və xərcləri, ÜDM dinamikası və sektorlar üzrə iqtisadi fəaliyyət göstəriciləri əsasında aparılmışdır. Statistik məlumatların təhlili göstərir ki, iqtisadi artım müşahidə olunsa da, neft-qaz sektorundan asılılıq və gəlir strukturunun məhdud diversifikasiyası müəyyən risklər yaradır. Sosial xərclərin və insan kapitalına yönəlmiş investisiyaların artması inklüziv inkişafın mühüm göstəricilərindən hesab edilir. Eyni zamanda ekoloji xərclərin artması dayanıqlı inkişaf prioritetlərinin formalaşdığını göstərir, lakin bu sahədə investisiyaların payı hələ də məhdud olaraq qalır.

Açar sözlər: *dayanıqlı inkişaf, inklüziv inkişaf, ÜDM, dövlət büdcəsi, iqtisadi diversifikasiya.*

GİRİŞ

Müasir iqtisadi inkişaf konsepsiyalarında dayanıqlı və inklüziv inkişaf prinsipləri dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab olunur. BMT tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədləri iqtisadi artımın yalnız kəmiyyət göstəriciləri ilə deyil, həm də sosial rifah, bərabər imkanlar və ekoloji davamlılıq prinsipləri ilə uzlaşdırılmasını tələb edir. Bu yanaşma iqtisadi inkişafın uzunmüddətli sabitliyini təmin etməyə yönəlmiş kompleks siyasət tədbirlərini əhatə edir.

Azərbaycan iqtisadiyyatında son illərdə makroiqtisadi sabitliyin qorunması, sosial rifahın artırılması və qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Dövlət büdcəsinin gəlir və xərclər strukturu, ÜDM-in dinamikası və sektorlar üzrə iqtisadi fəaliyyət göstəriciləri ölkənin dayanıqlı inkişaf potensialını qiymətləndirmək üçün əsas makroiqtisadi indikatorlar hesab olunur. Statistik məlumatlar göstərir ki, iqtisadi artım davam etsə də, iqtisadiyyatın strukturunda neft-qaz sektorunun yüksək payı qalmaqdadır.

Eyni zamanda təhsil, səhiyyə və sosial müdafiə sahələrinə yönəldilən dövlət xərclərinin artması inklüziv inkişafın gücləndirilməsinə yönəlmiş siyasətin mühüm göstəricisidir. İnsan kapitalına investisiyaların artması uzunmüddətli iqtisadi inkişafın və sosial bərabərliyin təmin olunmasında mühüm rol oynayır.

Bu tədqiqatın məqsədi Azərbaycan iqtisadiyyatında dayanıqlı və inklüziv inkişaf hədəflərinin mövcud vəziyyətini statistik göstəricilər əsasında təhlil etmək və iqtisadi siyasət baxımından əsas tendensiyaları müəyyən etməkdir.

ƏDƏBİYYAT İCMALI

Dayanıqlı və inklüziv inkişaf anlayışı müasir iqtisadi ədəbiyyatda geniş şəkildə araşdırılan mövzulardan biridir. BMT tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədləri iqtisadi artımın sosial ədalət, ətraf mühitin qorunması və institusional sabitlik prinsipləri ilə uzlaşdırılmasını əsas inkişaf modeli kimi təqdim edir. Bu yanaşma iqtisadi siyasətin yalnız artım tempinə deyil, həm də rifahın cəmiyyət daxilində bərabər bölgüsünə yönəldilməsini tələb edir.

OECD tərəfindən aparılan tədqiqatlarda göstərilir ki, gəlir bərabərsizliyinin azaldılması və sosial inklüzivliyin artırılması iqtisadi artımın dayanıqlığını gücləndirən əsas amillərdəndir. İnklüziv iqtisadi siyasət məşğulluğun genişlənməsi, sosial müdafiə mexanizmlərinin gücləndirilməsi və insan kapitalına investisiyaların artırılması vasitəsilə həyata keçirilir.

IMF tədqiqatlarında isə qeyd olunur ki, gəlirlərin yenidən bölüşdürülməsi mexanizmləri və sosial transferlər iqtisadi artımın daha geniş sosial qruplara yayılmasına və yoxsulluğun azaldılmasına mühüm töhfə verir. Azərbaycan kontekstində aparılan araşdırmalar da dayanıqlı inkişafın iqtisadi, sosial və institusional aspektlərinin qarşılıqlı əlaqəsini vurğulayır. Yerli tədqiqatçılar iqtisadi diversifikasiya, qeyri-neft sektorunun inkişafı və sosial xidmətlərin genişləndirilməsini dayanıqlı inkişafın əsas istiqamətləri kimi qiymətləndirirlər. Mövcud elmi ədəbiyyat dayanıqlı və inklüziv inkişafın təmin edilməsində iqtisadi struktur dəyişikliklərinin, sosial siyasətin və institusional mexanizmlərin mühüm rol oynadığını göstərir.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə əsaslanan analizin məhz seçilmiş göstəricilər üzərində qurulması metodoloji və konseptual baxımdan əsaslandırılmış yanaşmaya söykənir. SDG çərçivəsi yalnız iqtisadi artımın ölçülməsini deyil, artımın sosial ədalət, rifahın bölgüsü, ətraf mühitin qorunması və institusional davamlılıqla uzlaşdırılmasını tələb edir. Bu səbəbdən aparılmış təhlildə əhalinin gəlir və xərclər strukturu, yığım davranışları, investisiya yönümləri və ekoloji təyinatlı kapital qoyuluşları əsas analitik baza kimi seçilmişdir. Həmin göstəricilər SDG-lərin əsas istiqamətlərini təşkil edən yoxsulluğun azaldılması, layiqli məşğulluq, sosial inklüzivlik, məsul istehlak və istehsal, eləcə də ətraf mühitin mühafizəsi məqsədləri ilə birbaşa əlaqəlidir. Gəlirlərin formalaşma mənbələrinin və xərclərin istiqamətlərinin təhlili iqtisadi artımın inklüzivliyini, sosial transfer mexanizmlərinin rolunu və rifahın geniş təbəqələrə yayılma səviyyəsini qiymətləndirməyə imkan yaradır. Eyni zamanda ekoloji yönümlü investisiyalar dayanıqlı inkişafın iqtisadi komponentinin ətraf mühit prioritetləri ilə uzlaşdırılmasını əks etdirən əsas göstərici funksiyasını daşıyır. Statistik analizlərdə zaman kəsiyinin 2017-ci ildən başlanması isə SDG-lərin tətbiqi ilə bağlı institusional və metodoloji uyğunluq prinsipi ilə izah olunur. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri 2015-ci ildə qəbul edilsə də, bu məqsədlərin milli səviyyədə indikator sistemlərinə inteqrasiyası, məlumatların uyğunlaşdırılması və rəsmi statistika praktikasında vahid metodologiya əsasında toplanması bir neçə illik keçid mərhələsi tələb etmişdir. Azərbaycan üzrə SDG-lərə uyğun statistik çərçivənin formalaşması və müvafiq göstəricilərin ardıcıl, müqayisəli və metodoloji baxımdan etibarlı şəkildə təqdim olunması məhz 2017-ci ildən etibarən təmin edilmişdir. Buna görə də analiz üçün seçilmiş zaman intervalı həm SDG prinsiplərinə uyğunluq, həm də məlumatların keyfiyyət və müqayisəlilik tələblərinə cavab verməsi baxımından əsaslandırılmış hesab olunur. Bu yanaşma tədqiqatın elmi tutarlılığını və nəticələrin beynəlxalq dayanıqlı inkişaf çərçivəsi ilə uyğunluğunu təmin edir.

Azərbaycan dövlət büdcəsinin gəlir və xərclər strukturuna əsaslanaraq dayanıqlı və inklüziv inkişaf hədəflərinin mövcud vəziyyətini qiymətləndirmək mümkündür. 2020–2024-cü illər üzrə gəlirlərin artımı bütövlükdə iqtisadi aktivliyin genişlənməsini göstərir. Gəlirlərin 2020-ci ildə 24 681,7 milyon manatdan 2024-cü ildə 37 161,8 milyon manata yüksəlməsi dövlətin resurs bazasının genişləndiyini təsdiqləyir. Lakin gəlir mənbələrinin strukturu iqtisadi diversifikasiyanın səviyyəsini və dayanıqlılıq potensialını məhdudlaşdıran məqamları da üzə çıxarır. Vergi gəlirlərində əsas pay

əlavə dəyər vergisi və "Sair daxilolmalar" kateqoriyasına aiddir. Əlavə dəyər vergisinin həcmi 2020-ci ildə 4 818,3 milyon manatdan 2024-cü ildə 8 894,2 milyon manata yüksəlib ki, bu artım iqtisadi dövriyyənin genişlənməsi və daxili tələbatın artımı ilə əlaqələndirilir. "Sair daxilolmalar"ın həddindən artıq yüksək payı isə gəlirlərin strukturunda şəffaflıq və proqnozlaşdırma imkanlarını zəiflədir. Dayanıqlı inkişaf üçün gəlir mənbələrinin genişləndirilməsi, qeyri-neft sektorundan daxilolmaların artımı və vergi bazasının daha da şaxələndirilməsi tələb olunur.

Xərclər strukturu sosial və iqtisadi istiqamətləri əhatə edir, lakin prioritetlərin müəyyənləşdirilməsində balansın qorunması vacibdir. Müdafiə və milli təhlükəsizlik xərcləri 2020-ci ildə 3 755,1 milyon manatdan 2024-cü ildə 6 562,2 milyon manata yüksələrək dövlətin təhlükəsizlik siyasətinin maliyyə dəstəyini göstərir. Eyni zamanda, sosial müdafiə və sosial təminat xərcləri 2020-ci ildə 3 112,6 milyon manatdan 2023-cü ildə 4 281,45 milyon manata qədər artıb, 2024-cü ildə 4 151,1 milyon manata enib. Bu dinamika sosial müdafiə sistemində artan tələbatı və makroiqtisadi şoklara qarşı müdafiə mexanizmlərinin gücləndirilməsini əks etdirir. İnklüziv inkişaf baxımından təhsil və səhiyyə xərclərinin artımı mühüm göstəricidir. Təhsil xərcləri 2020-ci ildə 2 774,3 milyon manatdan 2024-cü ildə 4 390,1 milyon manata yüksəlib ki, bu, insan kapitalının formalaşmasına yönələn resursların artırılması deməkdir. Səhiyyə xərcləri isə 2020-ci ildə 1 687,6 milyon manatdan 2024-cü ildə 1 828,8 milyon manata qədər artaraq sağlamlıq xidmətlərinin maliyyə təminatının güclənməsini göstərir.

Dayanıqlı inkişaf üçün iqtisadi fəaliyyət xərclərinin artımı investisiya və infrastruktur layihələrinin genişlənməsinə işarə edir. İqtisadi fəaliyyət üzrə xərclərin 2020-ci ildə 5 545,6 milyon manatdan 2024-cü ildə 9 701,2 milyon manata yüksəlməsi iqtisadi diversifikasiya və qeyri-neft sektorunun dəstəklənməsi istiqamətində dövlətin maliyyə resurslarını artırdığını göstərir. Ətraf mühitin mühafizəsi xərcləri 2020-ci ildə 240,6 milyon manatdan 2024-cü ildə 361,9 milyon manata qədər artıb. Bu artım ekoloji dayanıqlığın gücləndirilməsinə yönəldilmiş maliyyə prioritetini göstərir, lakin ümumi xərclər içərisində payı məhduddur. İnklüziv və dayanıqlı inkişafın daha effektiv təmin edilməsi üçün ekoloji layihələrin maliyyə həcmi ilə yanaşı, onların iqtisadi səmərəliliyi və sosial təsirinin də qiymətləndirilməsi vacibdir. Büdcə göstəriciləri dayanıqlı və inklüziv inkişafın əsas istiqamətlərində irəliləyişlərin olduğunu göstərir, lakin gəlir strukturunun diversifikasiyası və sosial xərclərin daha stabil artımı hələ də prioritet olaraq qalır. Dövlət büdcəsinin dayanıqlı və inklüziv inkişaf məqsədlərinə uyğunluğu üçün gəlir mənbələrinin şəffaflaşdırılması, qeyri-neft sektorunun vergi bazasının genişləndirilməsi və sosial sahələrə ayrılan xərclərin uzunmüddətli sabitlik prinsipinə uyğun planlaşdırılması zəruridir.

Cədvəl 1

Dövlət büdcəsinin gəlir və xərcləri (milyon manat)

	2020	**2021**	**2022**	**2023**	**2024**
Gəlirlər-cəmi	**24681,7**	**26396,3**	**30679,6**	**35236,39**	**37161,8**
o cümlədən:					
Fiziki şəxslərin gəlir vergisi	1151,0	1194,6	1474,4	1659,64	1839,2
Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi	2351,7	2958,4	8522,5	8024,29	6786,9
Torpaq vergisi	40,8	45,7	47,4	47,78	54,3
Əmlak vergisi	186,8	211,3	231,5	292,84	338,5
Əlavə dəyər vergisi	4818,3	5214,5	6946,2	8127,73	8894,2
Sadələşdirilmiş vergi	308,9	299,7	323,3	357,03	382,9
Aksiz	898,2	1105,8	1358,9	1452,19	1555,7
Yol vergisi	104,9	119,1	148,5	137,33	135,9
Mədən vergisi	130,2	138,4	161,0	163,45	173,3

Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər	1160,6	1360,0	1642,9	1800,87	1902,9
Sair daxilolmalar	13530,3	13748,8	9823,0	13173,24	15098,0
Xərclər-cəmi	**26416,3**	**27422,4**	**32064,6**	**36457,96**	**37713,7**
o cümlədən:					
Ümumi dövlət xidmətləri	3533,0	3974,0	4099,5	3769,03	4115,0
Müdafiə və milli təhlükəsizlik	3755,1	4541,6	4896,3	5854,83	6562,2
Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq	1826,2	2033,0	2366,7	2671,29	2809,8
Təhsil	2774,3	3092,2	3696,4	4124,83	4390,1
Səhiyyə	1687,6	1378,6	1417,9	1722,14	1828,8
Sosial müdafiə və sosial təminat	3112,6	3164,2	3464,4	4281,45	4151,1
Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət	342,0	372,1	404,6	463,40	497,0
Mənzil və kommunal təsərrüfatı	245,7	217,3	267,2	332,42	319,5
Kənd təsərrüfatı	862,2	910,4	920,1	947,62	1095,8
Ətraf mühitin mühafizəsi	240,6	246,0	281,6	358,57	361,9
İqtisadi fəaliyyət	5545,6	5500,6	6961,3	9320,34	9701,2
Əsas bölmələrə aid edilməyən xidmətlər	2491,4	1992,4	3288,6	2612,04	1881,3

Mənbə: *https://www.stat.gov.az/?lang=az*

2017–2024-cü illər üzrə Ümumi Daxili Məhsulun (ÜDM) manat, dollar və avro ifadəsində təqdim olunan göstəricilər Azərbaycan iqtisadiyyatının dayanıqlıq və inklüzivlik potensialını qiymətləndirmək üçün makroiqtisadi sabitlik, valyuta kursunun təsiri və insan rifahının dəyişkənliyini birgə təhlil etməyə imkan verir. ÜDM-in manatla ifadəsi 2017–2019-cu illərdə artım dinamikası göstərmiş, 2020-ci ildə pandemiya və qlobal iqtisadi şokların təsiri ilə 72 578,1 milyon manata qədər enmiş, 2021-ci ildə 93 203,2 milyon manata yüksəlmişdir. 2022-ci ildə ÜDM-in 133 972,7 milyon manata çatması neft qiymətlərinin yüksəlməsi və iqtisadi fəaliyyətin genişlənməsi ilə bağlıdır. 2023-cü ildə ÜDM 123 128,4 milyon manata, 2024-cü ildə isə 126 337,0 milyon manata yüksələrək iqtisadi artımın daha dayanıqlı və strukturlaşdırılmış mərhələyə keçdiyini göstərir. Bu məqam dayanıqlı inkişaf üçün iqtisadi artımın yalnız həcmi ilə deyil, həm də sabitlik və resursların səmərəli istifadəsi ilə əlaqəli olduğunu vurğulayır.

Dollar və avro ifadəsində ÜDM-in dəyişməsi valyuta kursunun təsirini və beynəlxalq rəqabət qabiliyyətini ortaya qoyur. 2020-ci ildə ÜDM dollarla 42 693,0 milyon, avro ilə 37 407,5 milyon manat səviyyəsində formalaşmış, 2022-ci ildə müvafiq olaraq 78 807,5 milyon dollar və 74 724,0 milyon avro ilə rekord səviyyəyə yüksəlmişdir. 2023-cü və 2024-cü illərdə dollar və avro ifadəsində ÜDM-in azalması və ya məhdud artımı valyuta məzənnəsinin dəyişməsi, eləcə də neft-qaz sektorunun ixrac gəlirlərinin dəyişkənliyi ilə əlaqələndirilir. Bu, dayanıqlı inkişafın xarici şoklara qarşı həssaslığını göstərir və iqtisadi diversifikasiyanın gücləndirilməsinin zəruriliyini təsdiqləyir.

Adambaşına ÜDM göstəricisi ölkə daxilində rifah səviyyəsinin ölçülməsi üçün əsas makroiqtisadi indikator hesab edilir. 2017–2019-cu illərdə adambaşına ÜDM 7 226,0 manatdan 8 246,3 manata yüksəlmiş, 2020-ci ildə 7 257,8 manata düşmüş, 2021–2024-cü illərdə isə 9 278,9 manatdan 12 382,5 manata qədər artmışdır. Adambaşına ÜDM-in artımı iqtisadi rifahın yüksəlməsini göstərir, lakin inklüziv inkişafın qiymətləndirilməsi üçün gəlir bölgüsü, yoxsulluq səviyyəsi və sosial xidmətlərin əlçatanlığı kimi əlavə indikatorlar tələb olunur. Bu baxımdan ÜDM artımı iqtisadi rifahın artdığını göstərsə də, sosial bərabərliyin təmin edilməsi üçün dövlət siyasətinin gəlir bölgüsünü və sosial müdafiə sistemini gücləndirməsi zəruridir.

Valyuta kursu göstəriciləri (1 dollar = manat və 1 avro = manat) iqtisadi dayanıqlıq üçün əhəmiyyətli rol oynayır. 2017–2018-ci illərdə manatın məzənnəsi nisbətən stabillik nümayiş etdirib, 2019–2021-ci illərdə dollarla məzənnənin 1,7 manat səviyyəsində sabit qalması inflyasiya və valyuta

risklərinin məhdudlaşdırılması istiqamətində siyasətin effektivliyini göstərir. 2022–2024-cü illərdə avro məzənnəsinin dəyişməsi beynəlxalq valyuta bazarında qeyri-sabitliyin təsirini əks etdirir. Bu, ixracatın diversifikasiyası və valyuta gəlirlərinin sabitləşdirilməsi üçün makroiqtisadi siyasətin önəmini artırır. Təqdim olunan ÜDM göstəriciləri Azərbaycan iqtisadiyyatının dayanıqlı və inklüziv inkişaf hədəflərinə doğru irəlilədiyini göstərir, lakin xarici şoklara qarşı həssaslığın azaldılması və iqtisadi diversifikasiyanın dərinləşdirilməsi dayanıqlığın möhkəmləndirilməsi üçün əsas şərtdir.

Cədvəl 2

Ümumi daxili məhsul - manat, dollar və avro ilə

	Cəmi			**Adambaşına**			**1$= manat**	**1avro= manat**
	milyon manatla	**milyon dollarla**	**milyon avro ilə**	**manatla**	**dollarla**	**avro ilə**		
2017	70337,8	40867,9	36213,7	7226,0	4198,5	3720,3	1,7211	1,9423
2018	80092,0	47112,9	39858,7	8156,2	4797,8	4059,0	1,7000	2,0094
2019	81896,2	48174,2	43019,5	8246,3	4850,8	4331,7	1,7000	1,9037
2020	72578,1	42693,0	37407,5	7257,8	4269,3	3740,7	1,7000	1,9402
2021	93203,2	54825,4	46312,1	9278,9	5458,2	4610,6	1,7000	2,0125
2022	133972,7	78807,5	74724,0	13270,9	7806,4	7401,9	1,7000	1,7929
2023	123128,4	72428,5	66975,8	12126,1	7133,0	6596,0	1,7000	1,8384
2024	126337,0	74315,9	68661,4	12382,5	7283,8	6729,6	1,7000	1,8400

Mənbə: *https://www.stat.gov.az/?lang=az*

2017–2024-cü illər üzrə ÜDM-in neft-qaz və qeyri-neft-qaz sektorları üzrə istehsalının təhlili Azərbaycan iqtisadiyyatının dayanıqlı və inklüziv inkişaf hədəflərinə uyğunluğunu konkret göstəricilərlə qiymətləndirməyə imkan verir. ÜDM-in cəmi həcmi 2017-ci ildə 70 337,8 milyon manat, 2024-cü ildə 126 337,0 milyon manat səviyyəsində formalaşaraq iqtisadi aktivliyin genişləndiyini təsdiqləyir. Bu dövrdə neft-qaz sektorunun ÜDM-də rolu dəyişkən xarakter daşıyır. 2017-ci ildə neft-qaz sektorunun payı 25 005,4 milyon manat təşkil edərkən, 2020-ci ildə 20 417,5 milyon manata qədər enmişdir. 2021-ci ildə neft-qaz sektorunun ÜDM-də payı 34 501,4 milyon manata yüksəlmiş, 2022-ci ildə isə 62 490,5 milyon manatla maksimum səviyyəyə çatmışdır. 2023-cü və 2024-cü illərdə neft-qaz sektorunun həcmi müvafiq olaraq 42 275,9 və 38 638,1 milyon manat olmuşdur. Bu dinamika neft qiymətlərinin dəyişkənliyi və sektora xarici tələbatın təsiri ilə izah olunur. Dayanıqlı inkişafın iqtisadi əsasının möhkəmlənməsi üçün neft-qaz sektorundan asılılığın azalması və iqtisadiyyatın diversifikasiyası əsas prioritet kimi qalır.

Qeyri-neft-qaz sektorunun ÜDM-də payı isə 2017-ci ildə 40 328,0 milyon manatdan 2024-cü ildə 75 335,8 milyon manata qədər davamlı artım göstərmişdir. Bu artım iqtisadiyyatın struktur dəyişiklikləri və qeyri-neft sahələrinin genişlənməsi ilə bağlıdır. Qeyri-neft-qaz sektorunun davamlı artımı inklüziv inkişafın əsas göstəricilərindən olan məşğulluğun artımı, kiçik və orta sahibkarlığın genişlənməsi və regionlar üzrə iqtisadi fəallığın yüksəlməsi üçün əlverişli baza yaradır. Məhsula və idxala xalis vergilərin həcmi də 2017-ci ildə 5 004,4 milyon manatdan 2024-cü ildə 12 363,1 milyon manata yüksəlmişdir. Bu göstərici iqtisadi dövriyyənin artması ilə yanaşı, vergi bazasının genişlənməsini və dövlətin maliyyə resurslarının gücləmməsini göstərir. Lakin vergi gəlirlərinin strukturunda neft-qaz sektorunun payının yüksək olması gəlirlərin dayanıqlılığı baxımından risk mənbəyidir. İnklüziv və dayanıqlı inkişaf üçün vergi bazasının qeyri-neft sektorunda daha da şaxələndirilməsi və vergi yığımı mexanizmlərinin şəffaflaşdırılması zəruridir.

2017–2024-cü illər üzrə məlumatlar iqtisadiyyatın qeyri-neft-qaz sektorunun güclənməsi istiqamətində struktur transformasiyanın baş verdiyini, lakin neft-qaz sektorunun hələ də iqtisadi artımın əsas sürücüsü olduğunu göstərir. Dayanıqlı və inklüziv inkişaf hədəflərinin tam reallaşdırılması üçün qeyri-neft sektorunun artım tempinin daha da yüksəldilməsi, iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması və vergi bazasının diversifikasiyası istiqamətində davamlı siyasət tədbirləri tələb olunur.

Cədvəl 3

İqtisadiyyatın neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı, cari qiymətlərlə, milyon manatla

	2017	**2018**	**2019**	**2020**	**2021**	**2022**	**2023**	**2024**
Ümumi daxili məhsul - cəmi	**70.337,8**	**80.092,0**	**81.896,2**	**72.578,1**	**93.203,2**	**133.972,7**	**123.128,4**	**126.337,0**
o cümlədən:								
neft-qaz sektoru	25.005,4	32.231,7	30.051,9	20.417,5	34.501,4	62.490,5	42.275,9	38.638,1
qeyri neft-qaz sektoru	40.328,0	41.662,0	44.481,8	45.312,2	51.122,2	61.509,1	69.482,8	75.335,8
məhsula və idxala xalis vergilər	5.004,4	6.198,3	7.362,5	6.848,4	7.579,6	9.973,1	11.369,7	12.363,1

Mənbə: *https://www.stat.gov.az/?lang=az*

Azərbaycan iqtisadiyyatının dayanıqlı və inklüziv inkişaf hədəflərinin mövcud vəziyyətini qiymətləndirərkən ÜDM-in sektorlar üzrə strukturu və onun zamanla dəyişməsi dayanıqlıq və inklüzivlik indikatorlarının əsas mənbəyi kimi çıxış edir. 2017–2024-cü illər üzrə mənbə qiymətlərlə sektorlar üzrə ÜDM göstəriciləri iqtisadiyyatın hələ də xammal və təbii resurslardan asılı olduğunu açıq şəkildə göstərir. Mədənçıxarma sənayesi 2017-ci ildə 24,039.4 milyon manat səviyyəsində olub, 2024-cü ildə isə 37,136.0 milyon manat təşkil etmişdir. Bu sektorun payının yüksək qalması iqtisadi artımın xarici tələb və qiymət dəyişkənliklərinə həssas olduğunu nümayiş etdirir. Bu isə dayanıqlı inkişafın tələblərinə uyğun olaraq iqtisadiyyatda diversifikasiya və rəqabət qabiliyyətinin artırılmasını zəruri edir.

Emal sənayesinin payı və həcmi 2017–2024-cü illərdə artım göstərsə də, onun ümumi iqtisadi strukturdakı rolu mədənçıxarma sektoruna nisbətən hələ də aşağıdır. 2017-ci ildə emal sənayesinin ÜDM-i 3,305.5 milyon manat, 2024-cü ildə 6,618.0 milyon manat olmuşdur. Emal sənayesinin artımı iqtisadiyyatın dəyər zəncirində daha yüksək əlavə dəyər yaratmağa başladığını göstərir. Lakin emal sənayesinin payının hələ də məhdud olması, dayanıqlı inkişafın əsas prinsiplərindən olan sənaye strukturunun çevikliyi və texnoloji yeniliklərin tətbiqi baxımından əlavə tədbirlər tələb edir.

İnklüzivlik baxımından xidmət sektoru və ictimai xidmətlərin artımı müsbət məqamdır. Ticarət və nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, təhsil, səhiyyə və sosial xidmətlər üzrə ÜDM artımı sosial ehtiyacların daha geniş şəkildə iqtisadi aktivliyə çevrildiyini göstərir. Məsələn, təhsil sektorunun ÜDM-i 2017-ci ildə 1,985.0 milyon manat, 2024-cü ildə 4,251.2 milyon manat olmuşdur. Səhiyyə və sosial xidmətlərin həcmi də 2017-ci ildə 1,108.0 milyon manatdan 2024-cü ildə 2,755.7 milyon manata yüksəlmişdir. Bu artımın inklüziv inkişafla əlaqəsi ondadır ki, insan kapitalına investisiya artımı uzunmüddətli perspektivdə əmək məhsuldarlığını və əmək bazarının inklüzivliyini gücləndirir.

Eyni zamanda iqtisadi artımın strukturundan görünür ki, kənd təsərrüfatı və tikinti kimi sahələrdə də artım müşahidə olunur. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunun ÜDM-i 2017-ci ildə 3,944.1 milyon manat, 2024-cü ildə 7,147.1 milyon manat olmuşdur. Bu sahənin artımı qida təhlükəsizliyi və regional inkişaf üçün əhəmiyyətlidir. Tikinti sektorunda isə 2017-ci ildə 6,750.6 milyon manat olan göstərici 2024-cü ildə 8,478.1 milyon manata yüksəlmişdir. Tikinti sektorunun davamlı artımı iqtisadi aktivliyin genişlənməsinə töhfə verir, lakin bu artımın ekoloji standartlara uyğun idarə edilməsi və şəhər infrastrukturunun davamlı planlaşdırılması dayanıqlılıq baxımından prioritet olmalıdır.

Dayanıqlı inkişafın iqtisadi əsasları üçün əhəmiyyətli göstəricilərdən biri məhsula və idxala vergilərinin ÜDM-də artan payıdır. 2017-ci ildə 5,184.3 milyon manat olan məhsula və idxala vergiləri 2024-cü ildə 12,564.7 milyon manata çatmışdır. Bu artım dövlət büdcəsinin maliyyə təminatını gücləndirir, lakin vergi yükünün strukturunun daha ədalətli və proqnozlaşdırıla bilən olmasına diqqət yetirilməlidir.

Azərbaycan iqtisadiyyatında dayanıqlı və inklüziv inkişaf hədəflərinin reallaşması üçün sektorlararası balansın gücləndirilməsi, emal sənayesinin və innovasiya yönümlü sahələrin payının artırılması, sosial xidmətlərin və insan kapitalına investisiyaların davamlı şəkildə genişləndirilməsi, həmçinin iqtisadi artımın ekoloji və sosial aspektlərə uyğun idarə edilməsi zəruridir. Bu yanaşma iqtisadiyyatın xarici şoklara dayanıqlığını artırmaqla yanaşı, sosial ədalət və bərabər imkanlar prinsiplərini də möhkəmləndirəcəkdir.

Cədvəl 4

İqtisadi fəaliyyət növləri üzrə ümumi daxili məhsul istehsalı, cari qiymətlərlə, milyon manatla

		2017*	**2018***	**2019***	**2020***	**2021***	**2022***	**2023***	**2024***
A	Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	3944,1	4174,8	4664,2	4891,0	5336,8	6179,1	6785,1	7147,1
B	Mədənçıxarma sənayesi	24039,4	31041,4	28846,8	19248,2	32649,9	60143,1	40897,2	37136,0
C	Emal sənayesi	3305,5	3700,1	4097,8	4428,4	5982,8	7078,3	6321	6618,0
D	Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	729,4	777,9	791,7	890,2	1092,7	1271,1	1320,2	1321,4
E	Su təchizatı, tullantıların təmizlənməsi və emalı	134,2	145,7	149,6	165,8	231,2	240,1	271,3	281,2
F	Tikinti	6750,6	6183,4	6098,8	5718,5	5543,4	6488,7	7633,4	8478,1
G	Ticarət; nəqliyyat vasitələrinin təmiri	7290,4	7667,1	8185,9	8366,5	9340,4	10952,3	12846,5	13512,6

H	Nəqliyyat və anbar təsərrüfatı	4718,6	4927,9	4867,1	5174,5	6390,0	8121,8	7827,0	8822,9
I	Turistlərin yerləşdirilməsi və ictimai iaşə	1664,8	1834,2	1980,2	829,2	1176,3	2036,2	2675,5	3088,3
J	İnformasiya və rabitə	1144,0	1255,3	1472,2	1538,7	1644,1	1849,8	2147,4	2399,5
K	Maliyyə və sığorta fəaliyyəti	1561,7	1385,3	1502,2	1485,4	1742,3	2152,0	2750,4	2938,4
L	Daşınmaz əmlakla əlaqədar əməliyyatlar	2076,7	2171,1	2401,2	2422,1	2745,5	2957,1	3657,2	4154,1
M	Peşə, elmi və texniki fəaliyyət	1044,7	1148,1	1272,8	1220,5	1365,8	1695,2	2062,0	2507,3
N	İnzibati və yardımçı xidmətlərin göstərilməsi	452,4	437,0	482,0	556,0	568,7	628,7	823,4	954,2
O	Dövlət idarəetməsi və müdafiə; sosial təminat	2029,3	2199,3	2482,5	2898,2	3433,0	4484,0	5057,1	5335,2
P	Təhsil	1985,0	2207,1	2391,8	2693,5	2959,6	3468,0	3992,7	4251,2
Q	Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi	1108,0	1269,2	1417,9	1904,8	1810,1	2293,3	2474,2	2755,7
R	İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət	608,6	548,8	574,4	518,4	683,6	816,5	860,2	914,5
S	Digər sahələrdə xidmətlərin göstərilməsi	746,0	820,0	854,6	779,8	927,4	1144,3	1356,9	1358,2
	Maliyyə vasitəçilərinin şərti hesablanmış xidmət haqları (MVŞHXH)	-		-	-	-	-	-	-
C	**Fəaliyyət növləri üzrə cəmi**	**65333,4**	**73893,7**	**74533,7**	**65729,7**	**85623,6**	**123999,6**	**111758,7**	**113973,9**
D.21	Məhsula və idxala vergilər (+)	5184,3	6385,5	7518,4	7025,4	7742,2	10186,8	11579,7	12564,7
D.31	Məhsula və idxala subsidiyalar (-)	179,9	187,2	155,9	177,0	162,6	213,7	210,0	201,6

B.1*g	**Ümumi daxili məhsul (bazar qiymətlərində)**	**70337,8**	**80092,0**	**81896,2**	**72578,1**	**93203,2**	**133972,7**	**123128,4**	**126337,0**

Mənbə: *https://www.stat.gov.az/?lang=az*

Azərbaycan iqtisadiyyatında dayanıqlı və inklüziv inkişaf hədəflərinin mövcud vəziyyətinin qiymətləndirilməsi ümumi əlavə dəyərin sektorlar üzrə strukturuna əsaslanaraq həyata keçirilə bilər. 2017–2023-cü illərdə ümumi əlavə dəyər 65,333.4 milyon manatdan 111,758.7 milyon manata yüksəlmişdir ki, bu da iqtisadiyyatın genişlənməsini və məhsuldarlığın artmasını göstərir. Lakin struktur göstəricilərindən görünür ki, artımın əsas hissəsi qeyri-maliyyə müəssisələri və ev təsərrüfatları sektorlarında cəmləşir. Qeyri-maliyyə müəssisələrinin əlavə dəyəri 2017-ci ildə 37,679.5 milyon manat ikən 2023-cü ildə 65,827.9 milyon manata çatmışdır, bu isə iqtisadiyyatın istehsal və xidmət sahələrində artımın davam etdiyini təsdiqləyir. Eyni zamanda ev təsərrüfatlarının əlavə dəyərinin 21,620.1 milyon manatdan 32,004.0 milyon manata yüksəlməsi sosial inklüzivliyin möhkəmlənməsinə işarə edir, çünki bu göstərici istehlak və yaşayış səviyyəsinin yüksəlməsi ilə birbaşa bağlıdır. İnklüziv inkişafın digər göstəricisi olan dövlət idarəetməsi sektorunun əlavə dəyəri 2017–2023-cü illərdə davamlı artım göstərərək 4,297.1 milyon manatdan 10,939.3 milyon manata yüksəlmişdir. Bu artım sosial xidmətlərin genişləndirilməsi və idarəetmə sisteminin gücləndirilməsi istiqamətində dövlətin resurs ayırmasının artdığını göstərir. Maliyyə təşkilatlarının əlavə dəyəri də 1,561.7 milyon manatdan 2,750.4 milyon manata yüksəlmişdir ki, bu, maliyyə infrastrukturunun genişlənməsi və maliyyə xidmətlərinin əlçatanlığının artırılması ilə əlaqələndirilə bilər.

Bununla belə, dayanıqlı inkişafın iqtisadi əsasları baxımından əlavə dəyərin artımının daha çox qeyri-maliyyə müəssisələri və ev təsərrüfatları ilə məhdudlaşması iqtisadiyyatın struktur diversifikasiyasının və yüksək əlavə dəyər yaradan sahələrin payının artırılması zərurətini ortaya qoyur. Bu baxımdan inklüzivliyin dərinləşdirilməsi üçün regional inkişaf, innovasiya və rəqabət qabiliyyətinin artırılması istiqamətində hədəflərin dəqiq şəkildə müəyyən edilməsi və resursların səmərəli yönləndirilməsi tələb olunur.

Cədvəl 5

İqtisadiyyatin sektorları üzrə yaradılmış ümumi əlavə dəyər

		2017*	**2018***	**2019***	**2020***	**2021***	**2022***	**2023***
B.1g	**Ümumi əlavə dəyər**	**65.333,4**	**73.893,7**	**74.533,7**	**65.729,7**	**85.623,6**	**123.999,6**	**111.758,7**
	o cümlədən sektorlar üzrə:							
S.11	qeyri-maliyyə müəssisələri	37.679,5	45.166,8	43.841,2	36.238,5	52.341,5	86.031,4	65.827,9
S.12	maliyyə təşkilatları	1.561,7	1.385,3	1.502,2	1.485,4	1.742,3	2.152,0	2.750,4
S.13	dövlət idarəetməsi	4.297,1	4.929,7	5.525,2	6.687,8	7.591,0	9.724,2	10.939,3
S.14	ev təsərrüfatları	21.620,1	22.239,9	23.504,9	21.174,5	23.802,3	25.870,4	32.004,0
S.15	ev təsərrüfatlarına xidmət edən qeyri - kommersiya təşkilatları	175,0	172,0	160,2	143,5	146,5	221,6	237,1

Mənbə: *https://www.stat.gov.az/?lang=az*

NƏTİCƏ

Aparılan təhlil göstərir ki, Azərbaycan iqtisadiyyatında dayanıqlı və inklüziv inkişaf istiqamətində müəyyən irəliləyişlər müşahidə olunur. ÜDM-in artım dinamikası və dövlət büdcəsinin gəlir və xərclərində baş verən dəyişikliklər iqtisadi aktivliyin genişləndiyini və dövlətin maliyyə imkanlarının artdığını göstərir. Xüsusilə təhsil, səhiyyə və sosial müdafiə sahələrinə ayrılan xərclərin artması insan

kapitalının inkişafı və sosial rifahın yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, iqtisadi strukturun təhlili göstərir ki, neft-qaz sektorunun iqtisadi artımda payı hələ də yüksək olaraq qalır. Bu vəziyyət iqtisadiyyatın xarici bazarlarda baş verən qiymət dəyişikliklərinə həssaslığını artırır və dayanıqlı inkişaf baxımından müəyyən risklər yaradır. Qeyri-neft sektorunun genişlənməsi və iqtisadi diversifikasiyanın gücləndirilməsi uzunmüddətli iqtisadi sabitliyin təmin olunması üçün əsas prioritet hesab olunur.

Eyni zamanda ətraf mühitin mühafizəsi və ekoloji layihələrə ayrılan xərclərin artması dayanıqlı inkişaf siyasətinin formalaşdığını göstərir. Lakin bu sahəyə ayrılan resursların payının artırılması və ekoloji investisiyaların səmərəliliyinin yüksəldilməsi vacibdir. Azərbaycanın dayanıqlı və inklüziv inkişaf hədəflərinə nail olması üçün iqtisadi diversifikasiyanın sürətləndirilməsi, sosial siyasətin gücləndirilməsi və ekoloji prioritetlərin iqtisadi siyasətə daha geniş inteqrasiyası zəruridir.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2024). Rəsmi statistik məlumat portalı. Bakı. Mövcuddur: https://www.stat.gov.az/?lang=az

2. Bayramov Ş. (2024). Dayanıqlı inkişaf və iqtisadi siyasət–metod və tətbiq.Day-lı İnk. Jur-lı.

3. International Monetary Fund (IMF) (2014). Fair Share: Reaping the Gains of Income Redistribution in Emerging Asia. Washington, D.C.: IMF Book, 12 p. Mövcuddur: https://www.elibrary.imf.org/display/book/9781513511832/ch008.pdf

4. Organisation for Economic Co-operation and Development (OECD) (2015). In It Together: Why Less Inequality Benefits All. Paris "OECD Publishing" 10 p. Mövcuddur: https://www.oecd.org/content/dam/oecd/en/publications/reports/2015/05/in-it-together_978926

5. Rüstəmov İ., Tağıyev Ə. & Mustafayev A. (2019). "Davamlı inkişafın sosial və fəlsəfi problemləri" Bakı "Elm və Təhsil".

6. Sultanli A. (2025). Makroiqtisadi siyasətin formalaşması və məqsədləri. Bakı: National Aviation Academy. Mövcuddur:
https://aem.az/uploads/posts/2025/06/Elmi%20T%C9%99dqiqat%205.5.5-76-81.pdf

7. Sultanli A. (2025). Makroiqtisadi siyasətin formalaşması və məqsədləri. Bakı: National Aviation Academy. https://aem.az/uploads/posts/2025/06/Elmi%20T%C9%99dqiqat%205.5.5-76-8

R.T.Hasanov
Doctor of Economics (D.Sc.), Professor
Azerbaijan State University of Economics
B.B.Kazımov
master student, Azerbaijan State University of Economics

The current state of sustainable and inclusive development goals in Azerbaijan's economy

Abstract

This study evaluates the current state of sustainable and inclusive development in the economy of Azerbaijan within the framework of the United Nations Sustainable Development Goals (SDGs). The analysis is based on indicators such as household income and expenditure structure, state budget revenues and expenditures, GDP dynamics, and sectoral economic activity. Statistical evidence shows that although economic growth has been observed, the economy remains significantly dependent on the oil and gas sector, creating structural risks. Increasing public spending on education, healthcare, and social protection reflects progress toward inclusive development. At the same time, the growth of environmental expenditures indicates the emergence of sustainability priorities, although the overall share of ecological investments remains relatively limited.

Key words: *sustainable development, inclusive development, GDP, state budget, economic diversification.*

https://doi.org/10.58225/tim.2026-2-101-116

JEL: A10, E60, E70, H00, H53; H55; I30; I31; I32; I38

E.Ə.Əlirzayev
i.f.d., doktorant
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0000-0001-8622-6905

Məqalə redaksiyaya daxil olub 16.03.2026
The article was received by editorial board on 16.03.2026
Статья принята к печати 16.03.2026

AZƏRBAYCANIN SOSİAL MÜDAFİƏ MODELİNDƏ PENSİYA MEXANİZMİNİN TƏKMİLLƏŞMƏSİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə Azərbaycan Respublikasında formalaşmış sosial müdafiə modelinin əsas mexanizmi olaraq pensiya təminatının təkmilləşməsinin bəzi aktual məsələləri nəzərdən keçirilir. Tədqiqat işinin hazırlanmasında beynəlxalq elmi mənbələr üzrə gəlinən nəticələrdən, dövlət statistikası, yerli normativ aktlar, qurumlar tərəfindən açıqlanılan məlumalardan istifadə edilərək, ümumi elmi təhlil və kəmiyyət metodlarına əsaslanılmışdır. İşin nəticələri pensiya təminatının təkmilləşməsi ilə bağlı problem xarakterli aktual məsələlərin təhlilini əhatə edir. Mövzu üzrə bəzi hallarda daha da dərinləşdirilmiş təhlillər aparılması üçün informasiya əlçatanlığının olmaması tədqiqatla bağlı əsas çatışmazlıqları əks etdirilməkdədir. Məqalədə verilən nəticələrin yaxın perspektiv üçün idarəetmə səviyyəsində islahat prioritetlərini müəyyənləşdirməsi praktiki istifadə əhəmiyyətlidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – pensiya təminatı sahəsində beynəlxalq səviyyədə qabaqcıl standartlar nəzərə alınmaqla Azərbaycanda sosial müdafiənin idarəetmə modelinin daha da təkmilləşdirilməsi üçün müəllif tərəfindən həlli ən vacib hesab edilən problemlərin elmi əsaslandırılmalarla müəyyənləşdirilməsidir.

Açar sözlər: *sosial siyasət, sosial müdafiə sistemi, sosial müdafiənin təkmilləşməsi, sosial müdafiə modeli, sosial müdafiə mexanizmləri, pensiya sistemi.*

GİRİŞ

Dünyada tipoloji xüsusiyyətlərinə və funksional prinsiplərinə əsasən qruplaşdırılması aparılan - dövlət tərəfindən həyata keçirilən sosial müdafiə tədbirlərinin sosial-iqtisadi proseslərə müdaxilə dərəcəsi, maliyyələşmə üsulları, əhatəlilik və s. kimi istiqamət elementləri üzrə toplusunun sistem quruluşunu əks etdirən sosial müdafiə modelinin formalaşmasında beynəlxalq proseslər və inkişaf elementlərinin Azərbaycan şəraitində tətbiqi hazırkı və ən azından növbəti yaxın perspektiv üçün sosial müdafiə sisteminin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətlidir.

Bu çərçivədə Azərbaycanda illərlə formalaşmış özünəməxsus sosial müdafiə modelinin yenə də əsas mexanizmi kimi qalan pensiya təminatı ilə bağlı cari problem mahiyyətli məsələlərin müəyyən edilməsilə, həmin problemlərin sistemin daha səmərləi işləməməsi üçün yaradacağı çətinliklər istiqamətində davamlı olaraq elmi təhlillər aparılması yolu ilə müxtəlif çıxış imkanlarının ən azından nəzəri olaraq irəli sürülməsi elmi və praktiki əhəmiyyət kəsb edir. Azərabaycanda sosial müdafiə modeli pensiya təminatının üstün rolu ilə səciyyələndirilə bilər. Bu, ölkədə əhali gəlirlərində pensiya təminatı mənşəli vəsaitlərin əhəmiyyəli paya malik olması və bu sosial müdafiə mexanizminin sosial müdafiə modelinin tarixi formlaşmasında əhalinin rifahının təmin olunmasında

və sosial ptoblemlərinin həllində aparıcı rol oynaması ilə bağlıdır. Sosial müdafiə mexanizmlərinin hələ də yetəri qədər inkişaf etmədiyi, bəzi sosial müdafiə mexanizmlərinin isə yalnız son illərdə tətbiq edilməyə başlanılıdığı nəzərə alınaraq pensiya təminatı ilə bağlı istənilən kiçik funksional və ya təşkilati problemin müəyyən edilməsilə təsirlərinin elmi cəhətdən dəyərləndirilməsi sosial müdafiənin gələcəyi baxımından əhəmiyyətli hesab edilir.

Bu məqsədlərlə müəllif həmçinin mövzunun əsas elmi yeniliyi olmaqla, beynəlxalq və yerli səviyyədə təcrübələr əsasında Azərbaycanda sosial müdafiə sisteminin növbəti təkmilləşdirilməsi üçün pensiya təminatında çox da populyarlıq qazanmamış, lakin sistemin dayanıqlı inkişafı üçün aktual problemləri nəzərdən keçirməklə, ən yaxın və optimal struktur islahat əhəmiyyətli təkliflərin verilməsini əhəmiyyətli hesab edir.

ƏDƏBİYYAT İCMALI

Məqalənin yazılması zamanı aparılan tədqiqat seçilən mövzunun Azərbaycan üçün kifayət qədər müasir və ya yeni olmaqla hələ ki əhatəli araşdırılmadığını göstərir. Doğrudur ki, bu istiqamətdə internet araşdırmalarımız ötən yaxın dövrdə bu istiqamətin araşdırılmasına artan marağın müşahidə olunduğunu deməyə əsas verir.

Hacıoğlu (2023) Azərbaycanda pensiya sisteminin maliyyə dayanıqlılığı məsələlərinə ekonometrik yanaşmada model olaraq yanaşaraq qiymətləndirmələr apardığı yazıda mövzumuz ilə əlaqədə istinad etdiyimiz – pensiyanın əvəzetmə dərəcəsi parametrinə iqtisadi effektivlik meyarı kimi baxmış, təhlil nəticələri olaraq pensiya sisteminin maliyyə tarazlığının əsasən dörd qrup amildən – demoqrafik vəziyyət, iqtisadi vəziyyət, sosial və əmək münasibətləri, pensiya sığortasının maliyyə idarəetmə metodları və mexanizmlərindən asılı olduğunu qeyd etməklə, bu istiqamətdə əmək münasibətlərinin leqallaşdırılması, demoqrafik vəziyyətin yaxşılaşdırılması, iqtisadi məhsuldarlığın artırılması, inflyasiyanın azalması, xarici əmək miqrasiyasının tənzimlənməsi, səhiyyə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasını tövsiyə edir. Sosial müdafiənin əsası kimi, pensiya sisteminin maliyyə dayanıqlılığı problemi çərçivəsində əvəzetmə əmsalını əsas parametrlərdən biri olaraq görən adıçəkilən müəllif eyni zamanda təkcə bu göstəricinin pensiya sistemini xarakterizə etmək üçün kifayət etmədiyini, bu məqamda pensiyaçının yaşayış minimumunun önəmini vurğulamış, onun bazarın şərtlərinə uyğunlaşdırılmasını həyat səviyyəsi baxımından vacib hesab etmişdir. Yazıda pensiya sisteminin idarə olunmasının bir aspekti olan – onun maliyyə təminatı ilə bağlı toxunulan əhəmiyyətli problemləri bizim də apardığımız təhlillərlə hissəvi olaraq bağlılığı olmaqla, seçilən tədqiqi yanaşma həyat səviyyəsinə təsiri baxımından bizim də tərəfimizdən əhəmiyyətli olaraq görülür. Bununla belə, qeyd etməliyik ki, bu, pensiyanın pensiyaçının rifahına təsirinin yalnız bir istiqamətini əks etdirməklə, daha fərqli təhlillərlə də problemin genişləndirilməsini mümkün hesab edirik. Sosial müdafiə sistemlərinin əsas sütununun pensiya təminatı olması nəzərə alınmaqla, bu sistemin inkişaf göstəriciləri qismində pensiyanın əvəzetmə əmsalı olması baxımından Beynəlxalq Əmək Təşkilatının müvafiq Konvensiyasında pensiya gəlirinin əmək gəlirinə münasibətdə konkret həddə olması tövsiyə edilsə də, Castro (2023) bu yanaşmanın konseptual və empirik əsaslarını möhkəm olaraq qiymətləndirməməkdədir.

Olivera və b. (2025) Peru nümunəsində 2020-2024-cü illərdə COVID-19 pandemiyasının təsirlərinin tənzimlənilməsi istiqamətində tətbiq edilmiş pensiya kapitalları üzrə vəsaitlərin nağdlaşdırılaraq geri çəkilərək götürülməsini ifadə edən imkanın yaradılmasının inflyasiya təsirləri və başqa amillər nəzərə alınmaqla gələcəkdə pensiyaçıların pensiya əvəzetmə əmsallarının əlverişli səyivvələrdə qalması ilə bağlı risklərini araşdırmaqla, bunun ÜDM-də getdikcə artan payının olmasının pensiyaçıların rifahına və iqtisadiyyata mənfi təsirinin olacağını hesab etməkdədir.

METODOLOGİYA VƏ MƏLUMAT MƏNBƏLƏRİ

Seçilən mövzu onunla bağlı metodoloji yanaşmaların da, bir növ əsas çərçivəsini müəyyələnləşdirməyə təsir göstərmişdir: belə ki, mülahizələrin verilməsi bu istiqamətdə sosial müdafiə sistemlərinin xüsusiyyətlərinə görə model qruplaşdırılması verilmiş beynəlxalq müəllif yazı-

larına istinadlar verilmiş, eyni zamanda sahə ilə məşğul olan OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT)), ISSA (Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA)) kimi müxtəlif beynəlxalq təşkilatların informasiyalarından istifadə edilmiş, həmçinin Azərbaycana münasibətdə isə sahə ilə əlaqədar və bilavasitə tənzimlənildiyi milli qanunvericilik, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi açıqlanılan məlumatlarından, eyni zamanda müvafiq dövlət qurumlarının (əsasən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin) açıqladığı məlumatlar əsasında ümumi elmi təhlillərin aparılmasına, həmçinin kəmiyyət metodlarından istifadəyə əsaslanılmışdır.

Azərbaycanda ötən əsrin sonlarında qazanılmış müstəqilliyin ilk illəri sosialist sosial-iqtisadi sisteminin tənəzzül dövrünün çətinlikləri ilə mübarizə şəraitində keçmişdir. Bu illərdə əsas məqsədin qısa dövr ərzində ilbəil ümumi daxili məhsulun azalması, dövlətin və əhalinin əlində olan maliyyə resurlarının məhdudluğu, artan inflyasiya və istehlak məhsulu qıtlığı, eyni zamanda ərazi işğalına məruz qalma, müharibə və qeyri-stabil sosial-siyasi şəraitin doğurduğu rifah gərginliyinin təsirlərinin zəiflədilməsi hesabına dövlət quruculuğu prosesinin də təmin edilməsi olması sosial müdafiəyə münasibətdə də prioritet istiqamətlərin ön plana çıxmasında böyük rol oynamışdır. Qeyd edə bilərik ki, əhali gəlirlərinə bilavasitə təsiri baxımından təminat və idarəetmədə əsas diqqətin pensiya sisteminə yönəldilməsi sonrakı dövrdə sosial müdafiənin inkişafında bu istiqamətin sosial müdafiənin əsas mexanizmi kimi formalaşmasına təsir etmişdir.

Hesab edirik ki, Azərbaycanda bu prosesin 1990-ci illərdən başlayaraq indiyədək uzunmüddətli davam etməsi sosial müdafiə sisteminə baxışın da milli xüsusiyyətlərini əmələ gətirmişdir. Təsadüfi deyil ki, respublikada əhalinin sosial müdafiə baxımından təminatlılıqla əlaqədar gözləntiləri daha çox real nəticələri olan pensiya sisteminə fokuslanmışdır. Azərbaycanda əhalinin sosial müdafiəsi konstitusion əsaslara görə dövlət təminatı formasında qəbul edilir. Ölkədə sosial müdafiənin sistemləşdirilməsi daha çox 2000-ci illərdən başlayaraq baş vermişdir. Məlumdur ki, sosial müdafiənin təkcə dövlət sosial sığorta sisteminin əsası sayılan pensiya təminatı hesabına təmin edilməsi, əhali rifahının yüksəldilməsi ilə bağlı irəliləyişlərə nail olmaq qeyri-mümkün idi və bununla əlaqədar hələ həmin dövrlərdə müasir iqtisadiyyatlarda sosial müdafiənin sistemliyini təmin edən bütün mexanizmlərin yaradılması vacib hesab edilirdi. Pensiya sistemi ilə yanaşı, ünvanlı sosial yardım, sosial xidmət, əlillik məsələləri, həmçinin digər sosial müdafiə mexanizmləri ilə də bağlı istiqamətlərin inkişaf etdirilməsi zəruri əhəmiyyətli idi.

Qeyd edilən əsasda reallıq olaraq qəbul edilməlidir ki, Azərbaycanda sosial müdafiə sisteminin inkişafında pensiya təminatı mexanizminin digər sosial müdafiə mexanizmləri ilə müqayisədə daha çox inkişafı baş vermişdir. Bunu məcburi dövlət sosial sığortası hesabına maliyyələşdirilməsi həyata keçirilən müavinətlərlə təminata da şamil etsək, bu əhatəni dövlət sosial sığortası sistemi (və ya sığorta-pensiya sistemi) ilə çərçivələmək olar. 2000-ci illərin əvvəlinədək olan sosial-iqtisadi münasibətlərin çox da yetkinləşmədiyi bir dövrdə məhz sığorta-pensiya mexanizmləri əhalinin həyat səviyəsi ilə bağlı problemlərin həllində mühüm rol oynamışdır. Bu çərçivədə 2001-ci ildən sosial sığortanın tətbiqində fərdi uçotun aparılması ilə bağlı qanunvericilik əsaslarının yaradılması, 2006-cı ildən isə ödənilən sığorta haqları ilə pensiya təminatı arasında birbaşa əlaqəni formalaşdıran sosial sığorta sistemində fərdi uçotun tətbiq edilməsilə, sonrakı illərdə qeyri-formal məşğulluğun azaldılması ilə mübarizə tədbirləri və normativ islahatlar hesabına pensiya məbləğlərinin yüksəldilməsinə imkan verən mexanizmlərin işləkliyi təmin edilmişdir (Sosial sığorta haqqında Qanun, 1997; Əmək pensiyaları haqqında Qanun, 2006).

Pensiya təminatı sisteminin idarə edilməsində rəqəmsallaşma istiqamətində əhəmiyyətli irəliləyişlər əldə edilmişdir. 2025-ci ilin sonuna Nazirlik tərəfindən rəsmi açıqlanılan məlumatlara əsasən, əmək, məşğulluq və sosial müdafiə sahələrində xidmətlərin rəqəmsallaşdırılması sahəsində təqdim edilən 149 xidmətin 90 faizindən çoxunun elektronlaşdırıldığı, onlardan 50-dən çoxunun pro-

aktiv olduğu, pensiya təyinatının avtomatlaşdırılması nəticəsində yaşa görə pensiya təyinatlarının 94 faizinin proaktiv qaydada aparıldığı qeyd olunmuşdur (AZƏRTAC, 2025).

Əhalinin həyat səviyyəsi baxımından ölkədə sosial müdafiənin ötən dövr ərzində təmin olunmasında müstəsna rol oynamış sosial sığorta sisteminin pensiya təminatı qolunun özünə də münasibətdə artıq növbəti ərəfədə fərqli problemlərin qarşıya çıxacağını gözlənilən hesab etmək olar: pensiya təminatının sosial sığorta ilə əlaqələndirilməsindən (2006-cı il) keçən müddətdə mövcud qanunvericilik əsasında əmək pensiyalarının ümumi əməkhaqqı səviyyəsinin artımının yığım fondunun genişlənməsinə təsirləri, eyni zamanda ilbəil qeydə alınan inflyasiya dərəcələrinə uyğun olaraq indeksləşdirilmələrdən irəli gələrək təyinat zamanı aylıq pensiya məbləğinin hesablanması üçün əsas olan toplanmış pensiya kapitalının artması nəticəsində, eyni zamanda nominal əməkhaqlarının orta illik artımı faizləri əsas götürülməklə ilbəil artırılması ("Əmək pensiyaları haqqında" AR Qanununun 29-cu maddəsinə əsasən indeksləşdirilməsi), 2017-ci ildən qanunvericiliyə dəyişikliklər hesabına minimum pensiya məbləği kateqoriyasının tətbiq edilməsi və bu zaman müəyyən pensiya təyinatı şərtlərindən asılı olaraq fərdi hesablarında minimum pensiya kapitalını formalaşdırmamış sığortaolunanlara münasibətdə hesablanan məbləğlərin minimum pensiya məbləğlərinə çatdırılması, qanunvericilikdə hələ də saxlanılmış güzəştli əsaslarla (qulluq stajına görə və s. görə) pensiyalara ("Əmək pensiyaları haqqında" AR Qanununun 19-cu və 20-ci maddələrinə əsasən) əlavələrin edilməsini nəzərdə tutan və ya bəzən kifayət qədər yuxarı pensiya məbləğləri ilə müşahidə edilən xüsusi şərtlərlə bilavasitə sığorta əsası olmayan pensiyaların təyin edilməsi kimi iqtisadi, yaxud inzibati əsaslı təsirlərlə sonrakı dövrdə pensiyaların (pensiya xərclərinin) ümumən davamlı artımı baş vermişdir (Azərbaycan Respublikası, 2017b).

Bununla belə, qeyd olunmalıdır ki, artımlar ümumən bütün pensiyalara şamil olunsa da, pensiya tənzimlənilməsi şərtlərinin mövcud imkanları çərçivəsində böyük məbləğlərdə təyin edilmiş pensiyaların daha böyük artımının və nəticə olaraq pensiya məbləğləri dərəcələri arasında differensiasiyanın getdikcə daha da böyüməsinin də baş verməsi qaçılmaz olacaqdır ki, bu kimi hallar da ölkədə pensiya təminatı üzərində həmrəylik və sosial ədalət prinsipləri baxımından əlavə təzyiqlər formalaşdırır. Doğrudur ki, pensiya təminatı sisteminin sığorta prinsipinə əsaslanılmaqla fəaliyyətinin təmin edilməsi pensiya sisteminin özünün gələcəyi baxımından ən əlverişli prerekvizit kimi qəbul oluna bilər, lakin bu da o halda tam reallaşa bilər ki, eyni vaxtda sığorta əsası olmayan bütün yeni (əlavə) xərclərin formalaşması potensial olaraq sistemdən kənarlaşdırılmış olsun, əks halda sığorta-pensiya sistemi (sosial sığorta sistemi) üçün maliyyə təminatı və dayaqlılığı problemlərinin də, xüsusən demoqrafik yaşlanma prosesinin getdikcə gücləndiyi hazırkı şəraitdə tədricən kəskinləşməsi uzunmüddətli perspektivdə gözlənilən hesab edilməlidir.

Azərbaycanda iqtisadi sistemin, sosial mühit şərtlərinin daha çox yaxın olduğu əsasən Avropa arealına aid olmaqla özündə inkişaf etmiş və inkişaf etməkdə olan əhəmiyyəti milli iqtisadiyyatları birləşdirən İqtisadi Əməkdaşılıq və İnkişaf Təşkilatı (İƏİT və ya ing. OECD) ilə bağlı 1950-2100-cü illər üzrə açıqlanılan (BMT-nin dünya əhalisinin proqnozu ilə bağlı məlumatlarına əsasən) proqnoz göstəricilərinə əsasən xüsusən 2000-ci illərdən başlayaraq 65 yaşdan yuxarı olan əhalinin sayının əməkqabiliyyətli yaşda olan hər 100 nəfərə nisbətini əks etdirən əmsalın orta göstəricisinin 2000-ci ildəki 21,9 faizdən 2100-cü ildə 69,5 faizə yüksələcəyini (təqribən 3 dəfədən çox artım), əksər üzv ölkələrdə 2022-2062-ci illərdə sözügedən əmsalın dəyişməsinin mənfi göstəricilərdə olacağını, hətta 2075-ci il ətrafında bəzi ölkələr üzrə maksimum göstəricidə bəzi illərdə pensiyaçı sayının əməkqabiliyyətli əhali sayını üstələyəcəyinin gözlənildiyini (məsələn, 2082-ci ildə Koreyada 117 faiz) müşahidə etmək olar (OECD, 2025; OECD, 2023, s. 185).

Bu problem ölkəmiz üçün də o səbəbdən aktual hesab edilməlidir ki, əhali yaşlanması sosial müdafiə sistemi çərçivəsində ilk növbədə sığorta-pensiya sisteminə (dövlət sosial sığorta sisteminə) öz təsirini göstərir ki, bu da aktiv sığorta haqqı ödəyicilərinin sayı və ya sığorta haqları formasında ödədikləri maliyyə vəsaitləri baxımından sistemdən passiv şəkildə pensiya, yaxud müavinətlər forma-

sında sosial ödəmələr alanların sayı və sistemdən əldə etdikləri maliyyə vəsaitləri arasında asılılıq əmsalının sistemə mənfi təsirli yöndə dəyişməsi ilə müşayiət olunur.


Bu mənada bu istiqamətdə Azərbaycanda da 2017-ci ildə pensiya qanunvericiliyində aparılmış və əsas məqsədlərdən biri - bu qəbildən xərclərin minimuma endirilməsi (pensiya yaşının 65 yaşınadək tədrici artımı praktikası da tətbiq edilməklə) olan dəyişikliklərdən sonrakı ərəfədə də bu halların saxlanılması ilə ümumən staj illəri ərzində əməyin xarakteri ilə əlaqələndirilməyən məbləğcə fərqlənən pensiyaların ortaya çıxması da istisna edilməməkdədir. Məsələn, dövlətin və nəhayət iqtisadiyyatın inkişafında müstəsna sosial rolu olmaqla, əmək bazarında əhəmiyyətli işçi qüvvəsi payı ilə təmsil olunan - dövlət orta ümumtəhsil məktəblərində müəllim, həmçinin tibb müəssisələrində həkim və digər tibb personalı kateqoriyasından işləmiş şəxslərin əməkhaqlarının iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha aşağı səviyyədə olması pensiya təminatı perspektivindən nəzarətə götürülən məsələlərdən olmalıdır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin (bundan sonra – DSK) məlumatlarına əsasən müşahidə edirik ki, 1999-cu ildə əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sferası üzrə orta aylıq nominal əməkhaqqı səviyyəsinin iqtisadiyyat üzrə cəmi orta aylıq nominal əməkhaqqı məbləğinin 38,5 faizindən ümumi artma tendensiyası göstərməklə, 2024-cü ildə 83,9 faizədək yüksəlməsinə baxmayaraq (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi [DSK], 2025c), bu kateqoriyadan şəxslərin pensiya təminatının da heç bir əlavə güzəştlər tətbiq olunmayacağı şəraitdə nisbətən aşağı məbləğlərlə müşayiət olunacağı da əməkhaqqı səviyyəsinin illərlə aşağı hədlərdə cərəyan etməsi nəzərə alınacağı halda başadüşülən yanaşmadır.

Qanunvericiliklə müəyyən edilmiş pensiya yaşına yaxın yaşda olan sığortaolunanların fərdi hesablarında toplanılmış pensiya kapitallarının şərti hesablanma aparılacağını düşündüyümüz təqdirdə, minimum pensiya məbləğlərinə yaxın olmasına baxmayaraq, hər növbəti ilin indeksləşdirilməsi nəticəsində tələb olunan minimal kapitaldan uzaqlaşması hallarının da baş verməsi nəticələrinin, hesab etmək olar ki, Azərbaycanda sosial müdafiənin məqsədləri və mənismənilmiş prinsipləri nöqteyi-nəzərdən tənzilmənilməyə götürülməsi məqsədəuyğundur. Hesab edirik ki, bu halın daha ciddi nəzarətə götürülməsi xüsusən Azərbaycanda digər sektorlarla müqayisədə əməkhaqları səviyyəsi nisbətən aşağı olan, lakin geniş sosial kontingenti əhatə edən təhsil və səhiyyə kimi sahələrdə insanların gələcək pensiya təminatı və nəticədə ümumi əhalinin rifah halı baxımından önəm kəsb edir.

Pensiya təminatı ilə bağlı xüsusilə qeyd etmək lazmdır ki. Azərbaycanda pensiya gəlirlərinin təkrarən sığortaya və vergiyə cəlb olunmaması əhali gəlirlərinin formalaşması və ölkədə əhalinin təxminən 11 faizini təşkil edən (2025-ci ilin əvvəlinə olan rəsmi statistika üzrə hesablamaya əsasən) pensiyaçıların alıcılıq qabiliyyətinin saxlanılması baxımından rifaha müsbət təsir göstərən amillərdən hesab edilməlidir. Pensiya kapitalına və cari təyin edilmiş pensiyalara müvafiq qaydada tətbiq edilən indeksləşdirilmələr bunu daha da möhkəmləndirir. Bununla belə, əhalinin pensiya təminatının gələcəyi baxımından Azərbaycan üçün riskli məqamlardan biri ondan ibarətdir ki, tərtib etidiyimiz aşağıdakı diaqramdan da aydın göründüyü kimi, mövcud qanunvericiliyə əsasən Azərbaycanda pensiya təminatı sistemində artımların tənzimlənilməsi metodu olaraq orta aylıq nominal əmək haqlarının artımının təyin olunmuş pensiyaların növbəti illərdə indeksləşdirilərək artırılmasına şamil olunmasının kumulyativ təsir dairəsi pensiya təyinatında hesablama bazası kimi götürülən (lakin faktiki olaraq pensiya hüququ yaranmadığından təyinat aparılmamış) fərdi hesablardakı pensiya kapitalı məbləğlərinin artırılması üçün əsas götürülən inflyasiya dərəcələrinə əsasən indeksləşdirilmənin kumulyativ təsirini xeyli qabaqlamaqdadır. Belə ki, DSK-nın məlumatlarına əsasən hesablaya bilirik ki, 2010-2024-cü illərdə inflyasiya dərəcələri üzrə artımların kumulyativ cəmi 86,4 bəndə bərabər olduğu halda, orta aylıq nominal əməkhaqlarının illik artım templəri üzrə bu parametr 128,1 təşkil etməkdədir. Bu isə, hesab etmək olar ki, qeyd edilən və qısa hesab edilməyən vaxt müddəti nümunəsində uzunmüddətli perspektivə kapital artımlarının təyin edilmiş pensiyaların

artımları ilə, eyni zamanda orta aylıq pensiya artımına nəzərən paralel olmaqla və inzibati olaraq tətbiq edilən minimum pensiya məbləğinin artımı ilə tələb edilən minimum pensiya kapitalı arasında differensiasiyanın arta biləcəyi ehtimalını da möhkəmləndirmiş olur. Bu da yaşa görə pensiya hüququ verən yaşa çatmış şəxslərin pensiya ilə təmin olunmaması dairəsinin genişlənməsinə gətirib çıxara və yaşlı əhalinin rifah halına mənfi təsirlərin baş verməsi ilə nəticələnmələri artıra bilər (şəkil 1.):

Şəkil 1. Azərbaycanda istehlak qiymətləri indeksinin və orta aylıq nominal əməkhaqqının artım templəri




Mənbə: *Diaqram inflyasiya dərəcləri göstəriciləri DSK tərəfindən açıqlanmış məlumatlar, orta aylıq nominal əməkhaqlarının artım templəri isə DSK-nın illik artım göstəriciləri əsasında (DSK, 2025a, s.17; 2025c) hesablamalar aparılmaqla müəllif tərəfindən tərtib edilmişdir.*

Bu qəbildən şəxslərin bunun müqabilində daha aşağı təminat forması olan - yaşa görə sosial müavinətlərlə təminat hüquqları ilə əhatə olunması isə kütləviləşdiyi təqdirdə rifah baxımından əlverişli meyllərin də formalaşmasını vəd etməməkdə ola bilər. Bu baxımdan qeyd etməliyik ki, pensiya təminatı ilə bağlı idarəetmə səviyyəsində qaldırılmasını vacib hesab etdiyimiz yuxarıdakı məsələlər mövcud normativ şərtlər nəzərə alınmaqla yaxın gözləntiləri işarə etsə də, ən azından sosial kontingentlər üzrə kateqoriyalaşdırma və ya digər meyarlar əsasında orta pensiya məbləğlərinin ictimaiyyətə açıqlanmaması, yaxud bu istiqamətdə məlumatlara konfidensiallıq və digər səbəblərlə əlaqədar əlçatanlığın olmaması konkret rəqəmlər üzərində təhlil nəticələrinin ortaya qoyulmasına da imkan verməməklə, sosial müdafiənin bu sütunun problemləri ilə bağlı təhlillərin nəzəri mülahizələrlə məhdudlaşmasına gətirib çıxaran məqamlardandır.

Bu istiqamətdə DSK-nın açıq olan statistik məlumatlarına əsasən 2025-ci ilin əvvəlinə təyin edilmiş pensiyaların orta məbləği 496,60 manat, fevral ayının 1-nə olan vəziyyətə (2025-ci ilin sonunadək dəyişməməklə) minimum pensiyanın məbləği 320,0 manat təşkil edir ki, bu da hesablama nəticəsində minimum pensiya məbləğinin orta pensiya məbləğinin təqribən 64,44 faizi (320,0*100/496,60) nisbətində olmasını (hər üç pensiya növünə görə göstəricilər nəzərə alınmaqla hesablandıqda, yəni ən yaxşı halda) göstərir. Eyni vaxtda, DSK-nın məlumatlarına əsasən pensiya məbləğlərinin daha yüksək olması və kontingent sayının daha böyük paya malik olması baxımından pensiya sistemində meyar kimi istifadə oluna biləcək yaşa görə pensiya növünə münasibətdə bu nisbətin daha da az 60,4 faiz (320,0*100/529,98) təşkil etdiyini hesablayırıq (DSK, 2025b, s.146-147). 2006-2025-ci illər üzrə pensiyanın orta məbləği üzrə, eləcə də minimum pensiya məbləğləri üzrə isə eyni il ərzindəki məbləğ dəyişiklikləri ilə bağlı DSK-nın rəsmi açıqlanmış (qeyd etdiyimiz mənbələr üzrə) statistik məlumatlarına əsasən müəllif tərəfindən verilən $P_{min2025}= (P_n*Q_n+P_{n+1}*Q_{n+1}+...)/12$ metodoloji yanaşması əsasında (*$P_{min2025}$ - 2025-ci ildə minimum pensiyanın (orta) məbləği, p – ay üzrə qüvvədə olan minimum pensiya məbləği, Q – eyni minimum pensiya məbləğinin qüvvədə olduğu ayların sayı, "n" və ya "n+1" – il ərzində ilk və növbəti minimum pensiya məbləği artımları*) hesablanılmış minimum pensiya məbləğləri üzrə illik orta göstəriciləri əks etdirilməklə tərəfimizdən tərtib edilmiş aşağıdakı diaqramdan da göründüyü kimi, uzun müddəti əha-

tə edən bir dövrdə Azərbaycanda pensiyanın minimum məbləği ilə pensiyanın orta məbləği göstəriciləri arasında differensiasiya artan tendensiya göstərməkdədir (şəkil 2.):

Şəkil 2. Azərbaycanda təyin edilmiş pensiyaların orta məbləğləri və minimum pensiya göstəricilərinin dinamikası



Mənbə: *Diaqram DSK tərəfindən açıqlanmış məlumatlar (DSK, 2025e; 2025f) və hesablamalar əsasında müəllif tərəfindən tərtib edilmişdir (Qeyd: "1" rəqəmi 2006-cı ilə, analoji olaraq növbəti illər üzrə də artan ardıcıllıq əsasında "20"rəqəmi 2025-ci ilə (ilin əvvəlinə olan göstəriciyə uyğun əks etdirilmişdir)).*

Şəkil 2. üzrə 2006-2025-ci illəri əhatə edən 20 ilə yaxın müddətdə pensiyanın orta məbləğinin, eləcə də pensiyanın minimum məbləğinin dəfələrlə artdığını aydın görə bilirik. Həmçinin müşahidə əsasında belə bir nəticəyə gələ bilərik ki, minimum pensiya məbləğinə nəzərən orta aylıq pensiyanın məbləğinin son 6 ildə daha böyük templərlə artmasının müşahidə olunması pensiya təminatında nominal baxımdan əhəmiyyətli yaxşılaşmaların olduğunu deməyə əsas verir.

Eyni zamanda, ictimaiyyətə açıqlanan rəsmi məlumatlarda da bu qəbildən məlumatların açıqlandığının şahidi oluruq: məsələn, 2025-ci ilin əvvəlinə Nazirliyin rəsmi internet resursunda açıqlanan məlumatda pensiya sahəsində müsbət nailiyyət istiqamətlərindən olmaqla 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləğinin 280 manatdan 14,3 faiz və ya 40 manat artırılaraq 320 manata çatdırıldığı, 2025-ci il fevralın 1-dək məbləği 320 manatdan aşağı olan bütün pensiyaçıların pensiyalarının hər hansı müraciətə ehtiyac qalmadan elektron sistem üzərindən avtomatik artım edilməklə həmin gündən 320 manata çatdırıldığı, bu tarixdə minimum pensiya məbləğinin 2025-ci il üzrə pensiyaçılar üçün müəyyən edilmiş yaşayış minimumunu (232 manat) 88 manat və ya 38 faiz üstələdiyi, 2018-ci ildən ötən dövrdə aparılan sosial islahatlar nəticəsində sosial ödənişlərdə ciddi artımlara nail olunmaqla, o cümlədən minimum pensiyanın 3 dəfəyədək artdığı, habelə pensiyaların və fərdi şəxsi hesablarda olan pensiya kapitallarının müvafiq olaraq Prezident sərəncamı və istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq rəsmi açıqlanan göstəriciyə əsasən indeksləşdirilməklə artırıldığı müsbət nəticələr arasında qeyd olunur (ƏƏSMN, 2025b).


Qeyd etməliyik ki, bununla belə, pensiya sisteminin spesifikasından irəli gələrək bir sıra inkişaf məqsədli parametrlərin müsbət tendensiyası sistemin, xüsusən onun nüvəsi hesab edə biləcəyimiz – maliyyə əsasları ilə bağlı dəyərləndirilmələr əsasında problemli, lakin əhəmiyyətli digər məsələlərinin dəyərləndirilməsini əhatə etmir. Bu kimi məsələlər üçün isə praktiki və elmi əsaslara bağlı tədqiqat yanaşmasının aparılması vəziyyətin daha da aydınlaşdırılmasına xidmət edir.

Bu mənada həmçinin vurğulamaq lazımdır ki, praktiki olaraq minimum pensiya alanların sayı ilə bağlı göstəricilərə tərəfimizdən (ictimai) əlçatanlığın olmaması da sığorta-pensiya sisteminin maliyyə perspektivləri, eləcə də pensiyaçıların rifahı baxımından əhəmiyyət kəsb edən sözügedən iki parametr (minimum pensiya və orta pensiya məbləği göstəricisi) arasında müqayisəli əlavə təhlillərin

aparılması və dərinləşdirilməsi imkanlarını məhdudlaşdırır. Müəllif hesab edir ki, ümumilikdə minimum pensiya göstəricisinin orta pensiya göstəricisinə nisbəti göstəricisinin yuxarı rəqəmələrlə ifadə olunması özlüyündə minimum pensiya alanların ümumi pensiyaçıların say tərkibində əhəmiyyətli paya malik olması ilə bağlı fikrin formalaşmasına gətirib çıxarır. Belə ki, Şəkil 2.-də də əksini tapmış göstəricilər əsasında hesablamaq olar ki, əvvəlki illərdə minimum pensiya göstəricisinin orta pensiya göstəricisinə nisbəti daha yuxarı hədlərdə olmuş, hər iki parametrin ilbəil artması şəraitində bu nisbət 2009-cu ildə ən yüxarı göstərici kimi 78,3 faiz, ən yaxşı halda 2018-ci ildə 52,8 faiz, 2006-2025-ci illəri əhatə edən bütün dövr üzrə isə orta hesabla 72,8 faiz təşkil etmişdir. Hesab edirik ki, pensiya təminatı üzrə bu iki parametr arasında differenasiasiyanın əlverişli dərəcələrə gəlməsinə gətirib çıxaran tənzimləmələrin aparılması vacibdir. Ölkədə iqtisadi münasibətlərin, o cümlədən sığorta-vergi sistemi üzrə idarəetmənin törəmə elementi olaraq, sığorta-pensiya sistemində daha çox sərbəst formalaşan mahiyyətdə olan - orta pensiya məbləğinin artması inzibati qərarlara söykənənən - minimum pensiya məbləğləri ilə müqayisədə daha sürətli artımına nail olmaq pensiya təminatının bilavasitə və qısa müddətdə sosial hiss edilən təkmilləşmələrə gətirib çıxaran əhəmiyyət kəsb edir.

Doğrudur, başqa bir parametr kimi, orta aylıq pensiya məbləğinin orta aylıq nominal əməkhaqqı göstəricisinə münasibətdə əvəzetmə əmsalının da ötən dövrdə yaxşılaşdığını görmək olar: Rəsmi statistik göstəricilər əsasında hesablama apardıqda Azərbaycanda ötən bütün illər ərzində orta aylıq pensiya məbləğlərinin ilbəil davamlı artımının baş verməsi fonunda 2010-2024-cü illər kəsiyində pensiya əvəzetmə əmsalının vəziyyətinin 30,3 faizdən 43,7 faizədək dəyişdiyini görmək mümkündür. Eyni zamanda tərtib edilmiş aşağıdakı qrafiki təsvirlə də digər bir tendensiya kimi, orta aylıq nominal əməkhaqqı göstəricilərinin pensiyaların orta məbləğinin artımına nisbətdə daha sürətli artımının da baş verdiyini aydın müşahidə etmək olur (şəkil 3.):

Şəkil 3. Azərbaycanda birpilləli pensiya təminatı sistemində pensiya əvəzetmə əmsalının dinamikası



Mənbə: *Diaqram DSK tərəfindən açıqlanmış məlumatlar (DSK, 2025c; 2025f) əsasında əvəzetmə əmsalları müəllif tərəfindən hesablanmaqla tərtib edilmişdir.*

Şəkil 3.-də əks etdirilmiş eyni mənbələr üzrə göstəricilərə uyğun olmaqla, təbii ki, yaşa görə pensiya növünə münasibətdə pensiya əvəzetmə əmsalı daha yüksək rəqəmli nəticə ilə hesablanılır: DSK-nın 2025-ci ilin əvvəlinə olan rəsmi göstəriciləri əsasında hesablamaya əsasən - 52,51 faiz (530,0 *100/1009,40). Hazırda Azərbaycanda pensiya təminatı sistemində əvəzetmə dərəcəsinin qeyd edilən səviyyəsini əlverişli hədlərdə hesab etmək olar. Eyni zamanda, Azərbaycanda əhəmiyyətli pensiyaçı kontingentinin minimum pensiya həddinə yaxın hədlərdə (320-400 manat aralığında) pensiya aldığını fərz etməklə, minimum pensiya məbləğinin orta aylıq nominal əməkhaqqı məbləğinə nisbətini əvəzetmə əmsalı kimi nəzərə aldıqda, bu mənada 2025-ci ilin əvvəlinə həmin kontingentdən olan sosial təbəqə üçün həyat səviyyəsində hiss edilə biləcək təsirləri baxımından əmsalın, təbii olaraq, daha az, yəni 31,7 faiz (320,0*100/1009,40) təşkil edə biləcəyini də nəzərdə saxlamaq lazımdır.

Qeyd edək ki, Beynəlxalq Əmək Təşkilatının 102 saylı Konvensiyasının 67-ci maddəsilə pensiya gəlirinin əmək gəlirinin 40 faiz həddində olması tövsiyə edilsə də, mütəxəssislər tərəfindən bu yanaşmanın da konseptual və empirik əsasları möhkəm olaraq qiymətləndirilməməkdədir (Castro, 2023). Pensiya sisteminin maliyyə dayanıqlılığı məsələləri bazasında təkmilləşdirilməsi mövzusunda tədqiqat aparmış Hacıoğlu (2023) hesab edir ki, məcburi dövlət sosial sığortası və pensiya təminatı sisteminin (başqa sözlə, sığorta-pensiya sisteminin) əsas prinsipləri arasında əvəzetmə əmsalının mühüm parametrlərdən olmasına baxmayaraq, pensiyaçının maddi təminatının bu nisbətə görə qiymətləndirilməsi pensiya sisteminin obyektiv xarakteristikalarının əks etdirilə bilməsi baxımından effektiv metod hesab edilə bilməməklə, bu məqamda pensiyaçının yaşayış minimumunun bazar şərtlərinə uyğunlaşdırılması vacib məsələlərdəndir .

ABŞ-da dövlət xəzinədarlığı departamentinin bir bölməsi olmaqla, dövlət qulluqçuları, məmur, müəllim, polis kimi kateqoriyalardan insanların pensiya planlarının idarə edilməsi ilə məşğul olan və ABŞ-da 9-cu, dünyada isə 31-ci ən böyük dövlət pensiya fondu olan Şimali Karolina Pensiya Sistemlərinin (ing. NCPS) təhlil məlumatlarına əsasən pensiya əvəzetmə dərəcələrinin əlverişli həyat səviyyəsini təmin edəcəyi ilə bağlı yanaşmalar da fərqlənməkdə, bunun stereotiplər, həyat tərzi və ya istehlak davranışları, eyni zamanda pensiyaya çıxdıqdan sonrakı dövrdə vergi xərcləri kimi amillərdən də asılı ola biləcəyi hesab edilməkdədir (North Carolina Department of State Treasurer, 2025a; 2025b).

Bununla belə, yalnız məcburi dövlət sosial sığortasına əsaslanan birpilləli pensiya təminat sistemi vasitəsilə ümumən pensiya mahiyyətli gəlirlər üzrə əvəzetmə dərəcələrinin qısa müddətdə daha da yüksək səviyyələrə çatdırılmasını olduqca çətin olmaqla, real hesab etmirik. Belə ki, pensiya təyinatı zamanı hesablanma üçün baza olaraq götürülən – orta aylıq əməkhaqqı artımının fərdi hesablardakı pensiya kapitalının artımına gec təsir göstərməsi, eyni zamanda indeksləşdirilmə üçün nəzərə alınacaq nominal əməkhaqlarının artım templərinin dəyişkənliyi xüsusiyyəti nəzərə alınaraq pensiya artımının yavaş artması halında uzunmüddətli dövr üçün bu əvəzetmə əmsallarının stabil artımının və ya əlverişli səviyyələrinin saxlanılması da zəmanətli olmamaqla, pensiya kapitallarının artımını sürətləndirən əlavə tənzimləmələr (qısa yol olaraq qeyri-formal məşğulluğun azaldılması, sosial sığorta normativlərinə yenidən baxılması və s. kimi) tələb edə bilər.

Beynəlxalq hesabatlılıq məlumatlarının təhlili əsasında müşahidə edirik ki, dünya təcrübəsində də dəyişən mühit amillərinin təsiri nəzərə alınmaqla pensiya təminatı ilə bağlı müxtəlif şərtlər, məsələn, Asiya regionunun Çin, Hindistan, İndoneziya, Malayziya, Pakistan, Sinqapur, Vyetnam, Tailand və s. kimi əhəmiyyətli ölkələrinin nümunəsində hazırlanılmış beynəlxalq hesabatlardan da müşahidə etmək olar ki, qanunvericiliklə müəyyən edilən standart pensiya yaşının ölkələr üzrə, yaxud gender əsaslı fərqlənməsi, erkən pensiyaya çıxma halında cərimələrin tətbiq edilib-edilməməsi, həmçinin standart pensiya yaşından sonra (gec) pensiya tələb etmə hüququnun, pensiya və işləmək imkanlarının eyni vaxtda saxlanması, gec pensiyaya çıxmaya görə əldə olunan vəsaitlərə əlavələrin olub-olmaması, o cümlədən erkən yaşda pensiyaya çıxma imkanlarının bəzi ölkələrdə mövcudluğu, pensiya hüququ əldə edilməsi üçün tələb olunan sığorta stajı illərinin sayı göstəricisinin fərqlənməsi sosial müdafiə modellərinin pensiya təminatı sistemi aspektindən fərqlənməsinin əsas əlamətləri kimi özünü göstərir (OECD, 2024, s. 52-90).

Məsələn, dünyanın təxminən 190 ölkəsinin sosial müdafiə ilə bağlı qurumlarını üzvlüyündə əhatə edən Beynəlxalq Sosial Təminat Assosiasiyasının (ISSA) 2022-2024-cü illər üzrə toplanmış göstəricilər əsasında formalaşdırılmış açıq internet məlumat bazası üzrə müşahidələrimiz göstərir ki, daha çox vətəndaş marağı cəlb edən məsələlərdən biri olan pensiya yaşı göstəricisi (kişilər üzrə nümunədə götürsək) dünya miqyasında 50 yaşdan 70 yaşadək olan hədlərdə dəyişir, lakin ümumən qlobal səviyyədə qadın və kişilər üçün qanunvericiliklə müəyyən olunmuş pensiya yaşı hədlərinə münasibətdə daha çox xarakterik olan yaş göstəricilərinə rastlanılır: 70 yaş pensiya yaşı olaraq yalnız 4 ölkədə (Ekvador, İsrail, Lesoto və Liviyada), 68 yaş – yalnız bir ölkədə (Nepal), 67 yaş 8 ölkədə

(Avstraliya, Barbados, Danimarka, Fransa, Yunanıstan, İslandiya, İtaliya, Norveç), 66,83 yaş – Hollandiyada, 66,5 yaş – İspaniyada, 66,33 yaş – 2 ölkədə (ABŞ, Portuqaliya), 66 yaş 5 ölkədə (Almaniya, İrlandiya, Birləşmiş Krallıq, Monteneqro), 65 yaş 46 ölkədə (20-si Avropa ölkəsi, o cümlədən Azərbaycan daxil olmaqla), 64 yaş 4 ölkədə (Çex Respublikası, Malta, Şimali Makedoniya, Antiqa və Berbuda), 63 yaş 16 ölkədə, 62 yaş 5 ölkədə (Kolumbiya, Panama, Türkmənistan, Sao Tome və Prinsipe), 61,5 yaş – Rusiya Federasiyasında, 60,5 yaş – 1 ölkədə (Vyetnam), 60 yaş 64 ölkədə (Avropadan yalnız Ukrayna, MDB-dən Özbəkistan daxil olmaqla), 50-58 yaş 22 ölkədə müəyyən edilmişdir. Bu əsasda nümunəvi ümumi mənzərə olmaqla, eyni mənbə üzrə göstəricilərin təhlili əsasında ölkələr üzrə pensiya yaşlarının tədrici qaldırılması, eyni zamanda daha erkən pensiyaya çıxma ilə bağlı fərqlənən şərtlərin də mövcud olduğunu müşahidə etmək olur, həmçinin, məsələn, pensiya yaşı parametrinə münasibətdə pensiya yaşı həddinin müəyyən olunmasının təkcə demoqrafik əsaslı məsələlərlə deyil, həmçinin bir qədər tendensiv olaraq iqtisadi-regional yerləşmə aspektlərilə də əlaqəli olmasını sezmək olur. Məsələn, qeyd oluna bilər ki, 41 ölkədə 40-55 yaşlarında (o cümlədən Qazaxıstanda kişilər üçün 55, qadınlar üçün 53, Malayziyada müvafiq olaraq 50 yaş, Birləşmiş Ərəb Əmirliklərində müvafiq olaraq 55 yaş, Qətərdə müvafiq olaraq 50 yaş və s.) erkən pensiyaya çıxma ilə bağlı imkanların mövcud olduğu görünür. Digər tərəfdən, beynəlxalq hesabatlılıq məlumatlarının təhlili əsasında belə bir nəticə çıxarmaq olur ki, ayrı-ayrı sosial müdafiə proqramlarının da ölkələr üzrə mövcudluğu, işəgötürən və işçidən tutulan sığorta normativlərinin fərqli diapazonlarda dəyişməsi, yaxud yaşa görə pensiyaların hansı mənbələr və şərtlərdə maliyyələşdirilməsi və s. baxımından (hesablanan pensiya məbləğinin gəlirə bağlı olub-olmaması, yaxud gəlirə bağlı olmamaqla xidmət illəri, yaşayış yeri və digər amillərə bağlı olaraq dəyişməsi, pensiyaların müəyyən gəlir nəzərə alınaraq müəyyən şərtlərlə ödənilməsi, sığorta əsası tələb edilmədən hər kəs üçün müəyyən məbləğdə universal pensiyanın təyin edilməsi, ödənişlərin müəyyən fondlar və ya dövlət vəsaitləri hesabına ödənilməsi, işəgötürən tərəfindən təmin edilən və maliyyələşdirilən məcburi əsaslı peşə pensiyasının olub-olmaması, hökumət zəmanətli minimum pensiyanın olması, universal pensiyanın müəyyən limitlərlə tətbiq edilməsi və s.) fərqlənmələr milli səviyyədə fərqlənən sosial müdafiə modelləri üçün xarakterik məqamlar kimi özünü göstərir (ISSA, 2025a; 2025b).

Apardığımız təhlilin məzmunundan da görünür ki, sosial müdafiə retrospektiv təcrübədən, cari problemlər və perspektiv məqsədlərdən irəli gəlməklə ölkələr səviyyəsində fərqli islahat siyasətlərinin tətbiqi şəraitində həyata keçirilir.

Məsələn, Peruda COVID 19 pandemiyasının təsirlərinin tənzimlənilməsi məqsədilə 2020-2024-cü illərdə pensiya sistemində fərdlərə pensiya kapitallarından dəfələrlə vəsait geri çəkilməsi imkanının yaradılması praktiki olaraq tətbiq edilmiş, nəticədə ümumi daxili məhsulun 13 faizinədək nisbətdə əhəmiyyətli bir maliyyə vəsaitinin pensiya sistemindən kənarlaşdırılması baş vermişdir ki, bunun da uzunmüddətli mənfi effektlərinin hiss ediləcəyi, xüsusən kişilər və daha yaşlı fərdlər üçün həmin kapitalların bərpası üçün daha az vaxtın olması baxımından pensiya məbləğlərinə mənfi təsir edəcəyi, bunun özünün illik inflyasiya mənşəli təsirlər nəzərə alınmaqla həmçinin pensiya əvəzetmə əmsallarının səviyyəsində göstərəcəyi tədqiqat nəticələri ilə ifadə edilir (Olivera və b., 2025).

Eyni zamanda, müəllif isə hesab edir ki, qeyd edilənlər sosial müdafiənin daha çox təşkilati aspektdən effektivliyi ilə bağlı müsbət nəticələr verə bilsə də, iqtisadi-nəzəri baxımdan istənilən uzunmüddətli dövrdə sosial müdafiənin inkişafı həm sistem olaraq onun özünün maliyyə mənbələri üzrə gəlir və xərc balanslılığının qorunub saxlanması və effektiv tənzimlənilməsi, eyni vaxtda əhəmiyyətli dərəcədə sosial müdafiəyə daha çox maliyyə resurslarının cəlbi fəlsəfəsi üzərində fəaliyyətin qurulması ilə sosial müdafiəyə yönəldilən xərclərin ümumilikdə artırılması ilə də bağlıdır. Bunun üçün isə həmin xərclərin ÜDM-də payı ilə bağlı göstəricinin səviyyəsi mühüm meyarlardan hesab edilə bilər.

Bu mənada beynəlxalq səviyyədə çox əhəmiyyət verilən - sosial müdafiə xərclərinin ÜDM-də payı indikatorundan yola çıxaraq Azərbaycan nümunəsində bu məsələni müəyyən kəmiyyət əsaslı, eyni zamanda ümumi elmi təhlil metodologiyası əsasında araşdırmağı vacib hesab edirik.

Azərbaycanda ötən müəyyən bir uzunmüddətli dövr nümunəsində bir neçə il istisna olmaqla, bütün illərdə ÜDM-lə bağlı illik müsbət artım əmsallarının qeydə alınması fonunda pensiya xərclərinin də davamlı artımının baş verməsi sosial müdafiənin inkişafı baxımından müsbət haldır. Bununla belə, pensiya sisteminin özünün inkişafı ilə bağlı yeganə və ya əsas əlamət olaraq ilk başdan görünən bu yanaşmanın əsas götürülməsini doğru hesab etmirik. Belə ki, ÜDM mahiyyət etibarilə ölkədə müəyyən dövr ərzində əlavə iqtisadi dəyər yaradılması ilə bağlı olmasına baxmayaraq, onun büdcə mexanizmləri ilə əlaqəli olmaqla və qısa və ortamüddətli dövrdə birbaşa iqtisadi əlaqələrə söykənməməklə, büdcə idarəetməsi çərçivəsində bilavasitə bu istiqamətə faktiki olaraq vəsait ayrılması tədbirləri ilə bağlıdır.

Azərbaycanda da sosial müdafiənin əsas sütunu kimi, pensiya xərclərinin ÜDM ilə müqayisəsinə dair digər bir təhlili-statistik yanaşmada ÜDM artımı ilə bağlı tendensiyanın pensiya xərclərinin artması ilə müqayisədə uyğunluğuna baxa bilərik. Bu məqsədlə 2015-2024-cü illərin nümunəsində aşağıdakı cədvəl məlumatları əsasında Pirson əmsalını tətbiq etməklə asılı dəyişən kimi orta pensiya məbləği $\mathbf{Y_i}$ və sərbəst dəyişən kimi ÜDM $\mathbf{X_i}$ arasında uyğunluq əlaqasinin qiymətləndirilməsini aparaq (cədvəl 1.):

Cədvəl 1

Azərbaycanda pensiya xərcləri ilə ÜDM-in dinamikası arasında korrelyasiya əlaqəsinin müəyyən olunmasında istifadə olunan göstəricilər

Sıra sayı *(i=1;10)*	**İllər**	**ÜDM (X_i)**	**Orta pensiya məbləği (Y_i)**	$X_i - \overline{X}$	$Y_i - \overline{Y}$
1	2015	54380.0	173.4	-35255.06	-95.0
2	2016	60425.20	177.6	-29209.86	-90.80
3	2017	70337.80	192.2	-19297.26	-76.21
4	2018	80092.0	208.4	-9543.06	-60.0
5	2019	81896.20	221.4	-7738.86	-47.01
6	2020	72578.10	263.6	-17056.96	-4.81
7	2021	93203.20	302.2	3568.14	33.84
8	2022	133972.70	331.8	44337.64	63.35
9	2023	123128.40	372.0	33493.34	103.70
10	2024	126524.2	441.3	36870.42	172.90

Mənbə: *Cədvəl (DSK, 2025d; 2025f) mənbələri üzrə göstəricilərə əsasən hesablamalar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Burada "*i"*nin 1-dən 10-a qədər dəyişdiyi nəzərə alınaraq (i=1;n) "x" və "y" dəyişənlərinin orta qiymətlərini müvafiq riyazi göstəriciləri taparaq (1-ci və 2-ci düsturlara əsasən $\overline{X}$=89653,78 və $\overline{Y}$=268,4 hesablanılmaqla), 3-cü düstur tətbiq edilməklə seçilən illər üzrə Pirson korrelyasiya əmsalının yuvarlaqlaşdırılmaqla 0,91 faiz (21268252/23466593) təşkil etdiyini (1-4-cü düstür və hesablamalar ilə) hesablaya bilərik:

$$\overline{X} = \frac{\sum_{i=1}^{10} X_i}{10} \quad (1)$$

$$\bar{Y} = \frac{\sum_{i=1}^{10} Y_i}{10} \quad (2)$$

$$\bar{r} = \frac{\sum(X_i - \bar{X})(Y_i - \bar{Y})}{\sqrt{\sum(X_i - \bar{X})^2 \sum(Y_i - \bar{Y})^2}} \quad (3)$$

$$\bar{r} = \frac{21268252}{\sqrt{7370208892.20 * 74717.15}} = 0.91 \quad (4)$$

Yuxarıdakı nəticəyə əsasən, Bavrina və b. (2021, s. 79) tərəfindən irəli sürülmüş müvafiq nəzəri meyarlar əsasında mülahizə etmək olar ki, son illər ərzində (son 10 il) Azərbaycanda pensiya artımı ilə ÜDM artımı arasında çox güclü (çox yüksək) uyğunluq əlaqəsi mövcud olmuşdur. Bu, Azərbaycanda iqtisadiyyatın ümumi genişlənməsi fonunda pensiya xərclərinin artımının geri qalmadığını deməyə əsas verir. Bununla belə, bu, digər tərəfdən pensiya təminatına yönəldilən maliyyə vəsaitinin miqyası barədə konkret fikir söyləmək üçün də kifayət etməməkdədir. Eyni zamanda, təhlil indikatoru olaraq götürdüyümüz - orta pensiya məbləğinin pensiya təminatı sistemində ümumi inkişaf indikatorlarından biri olaraq götürülə bilməsinə baxmayaraq, pensiya xərclərinin benefisiarlar arasında tarazlı bölgüsü barədə mənzərə formalaşdırmadığından sistem üçün prioritet əhəmiyyətli olan sosial ədalət və sosial sığorta prinsiplərinin gözlənilməsi vəziyyəti ilə bağlı da konkret mülahizələr etməyə imkan verməməkdədir.

Sosial müdafiənin büdcə imkanları ilə əhatə olunması məsələsinə münasibətdə, qeyd etməliyik ki, hazırda Azərbaycanda mövcud büdcə sistemi imkanları daxilində sosial müdafiə (və təminatın) maliyyələşdirilməsi üçün iki mənbə – büdcədənkənar dövlət fondu olan dövlət sosial müdafiə fondunun (büdcə göstəricilərinə əsasən (Azərbaycan Respublikası, (2026)) xərclərinin 97-98 faizini əmək pensiyasları və məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən sosial müavinətlər (əhaliyə ödənişlər) əhatə etməklə) və dövlət büdcəsinin çıxış etdiyini nəzər alsaq, 2015-2024-cü illərdə bu istiqamətə ayrılan vəsaitlərin ÜDM-də payının müəyyən edilməsinə imkan verən əsas göstəricilərini icmallaşdırdığımız aşağıdakı cədvəl əsasında Azərbaycanda sosial müdafiəyə (və təminata) xərclərin miqyasının əhəmiyyətli dərəcədə artırılması ilə bağlı strateji kurs götürülməsinin sosial müdafiənin inkişafı üçün əsas amil olacağını mülahizə edə bilərik. Həmçinin həmin cədvəldən göründüyü kimi, ÜDM-in dəyişməsi ilə ayrılan büdcə imkanları arasında qısamüddətli əlaqələndirmə mexanizmi mövcud deyildir, yəni ÜDM-in azaldığı illərdə büdcə vəsaitlərin azaldılması arasında praktiki olaraq bağlılıq mövcud deyildir. Eyni zamanda, qeyd edilən hər iki maliyyələşmə mənbəyi üzrə ümumilikdə bu istiqamətə ayrılan məbləğlər, demək olar ki, on illik ardıcıl dövr ərzində orta hesabla cəmi 7,2 faiz səviyyəsində olmuşdur ki, bu da beynəlxalq göstəricilərlə müqayisədə xeyli dərəcədə aşağı göstərici kimi nəzərə çarpır (cədvəl 2.):

Cədvəl 2

2015-2024-cü illərdə Azərbaycan Respublikasında ÜDM göstəricilərinə münasibətdə sosial müdafiə məqsədli vəsait ayırmaları və onların payı

Göstəricilər	**2015**	**2016**	**2017**	**2018**	**2019**	**2020**	**2021**	**2022**	**2023**	**2024**
Ümumi daxili məhsul (mln. manat)	54,380.0	60,425.2	70,337.8	80,092.0	81,896.2	72,578.1	93,203.2	133,972.7	123,128.4	126524,2
əvvəlki illə müqayisədə dəyişmə (faizlə)	-7.9	11.1%	16.4%	13.9%	2.3%	-11.4%	28.4%	43.7%	-8.1%	2.8%

i. Dövlət sosial müdafiə fondunun büdcəsi (mln. manat) (transfert istisna edildikdə)	1,956	2,061	2,130	2,279	2,775	3,596	3,515	4,374	4,800	5,718
ii. Sosial müdafiə və sosial təminat istiqaməti üzrə dövlət büdcəsi (mln. manat)	1,857	2,699	2,352	2,343	2,470	3,237	3,693	3,729	4,316	4,391
Sosial müdafiə (və təminat) üzrə cəmi xərc çərçivəsinin (i.+ii.) ÜDM-də payı (faizlə)	**7.01**	**7.88**	**6.37**	**5.77**	**6.41**	**9.41**	**7.73**	**6.05**	**7.40**	**8.00**

Mənbə: *Cədvəl (DSK, 2025d) mənbəyi üzrə ÜDM göstəriciləri, habelə 2015-2024-cü illər üzdə dövlət büdcəsi, eləcə də dövlət sosial müdafiə fondunun büdcələrinə dair müvafiq qanunvericilik aktlarından (Azərbaycan Respublikası, 2014; 2015a; 2015b; 2016a; 2016b; 2017a; 2017c; 2018a; 2018b; 2019a; 2019b; 2020a; 2020b; 2021a; 2021b; 2022a; 2022b; 2023a; 2023b) istifadə edilməklə müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 2-dən göründüyü kimi, ümumilikdə, sosial müdafiə (təminat nəzərə alınmaqla) istiqamətli xərclər illər üzrə artan dinamika ilə dəyişməkdədir, bununla belə cədvəl məlumatları üzrə sadə müşahidə və təhlil nəticəsi olaraq Azərbaycanda qeyd edilən illərdə bu istiqamətə xərc miqyasının artan ÜDM imkanları çərçivəsində daha çox da artırıla biləcəyi haqda fikir irəli sürməyə imkan verir. Bunun həmçinin yaxın növbəti perspektiv üçün də aktual əhəmiyyət kəsb etdiyi fikrindəyik. Başqa bir mənbə üzrə yanaşmada, DSK-nın məlumatları və Nazirliyin illik hesabat məlumatlarına əsasən hesablaya bilərik ki (DSK, 2025d; ƏƏSMN, 2025a, s.13), 2024-cü ildə Azərbaycanda pensiya xərclərinin ÜDM-də payı göstəricisi 5,13 faiz (6496000000,0*100/126524200000,0 manat) təşkil etmişdir. 2024-cü ildə Nazirlik xəttilə bilavasitə büdcədənkənar fond olan - dövlət sosial müdafiə fondu tərəfindən məcburi dövlət sosial sığorta fondları hesabına əmək pensiyaları, məcburi dövlət sosial sığorta haqqı hesabına ödənilmiş sosial müavinətlər, eləcə də dövlət büdcəsi hesabına maliyyələşdirilməsi aparılan – digər sosial müavinətlər, prezident təqaüdləri və ünvanlı dövlət sosial yardımı üzrə xərclənilmiş vəsaitin 2173000000,0 manat olduğunu (müvafiq olaraq müavinətlər – 1080,0 mln. manat, təqaüdlər – 695,0 mln. manat, ÜDSY – 398,0 mln. manat olmaqla) nəzərə alsaq, beləliklə həmin ildə bütövlükdə sosial müdafiəyə xərclənilmiş vəsaitlərin həcminin ÜDM-də payının ümumilikdə 6,85 faiz ((6496000000+2173000000)*100/126524200000,0) təşkil etdiyini hesab etmək olar ki, bu da yazının əvvəlində göstərdiyimiz kimi, bununla da beynəlxalq göstəricilərə nəzərən əlverişli və ya yetərli miqyas hesab edilməməkdədir. Qeyd etdiyimiz göstəricilərə nəzərən dövlət büdcəsinin, eləcə də dövlət sosial müdafiə fondunun büdcəsi üzrə maliyyə imkanları çərçivəsində yolverilən qənaətlər hesabına (büdcə prinsipləri baxımından müdafiə olunan xərclər hesab edilən - pensiya və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətləri əhatə edən əhaliyə ödəniş kateqoriyası üzrə xərclər, eləcə də əsasını əməkhaqqı ilə bağlı xərclərin təşkil etdiyi saxlanma xərcləri üzrə əməyin ödənişi ilə bağlı xərclər istisna olmaqla qismən mümkün digər təsərrüfat əhəmiyətli qənaətlər hesabına) eyni büdcə çərçivəsində əhaliyə, məsələn, dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi nümunəsində təkcə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlər

üçün nəzərdə tutulan 203,57 mln. manat həcmində sosial tranfertlərin həcminin qənaət istiqamətli yolverilən perpsektiv islahatlar nəticəsində (məsələn, büdcənin xərc istiqamətləri arasında nəzərə alınmaqla əslində sığorta-pensiya sisteminə bağlı olmayan - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası xətti ilə sığortaolunanların sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirlərinin həyata keçirilməsi üzrə 25,0 mln. manat həcmində xərclərin bu büdcədən maliyyələşdirilməsinin aradan qaldırılması halında, həmçinin büdcədə digər xərc istiqaməti olaraq nəzərdə tutulan - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) (bu qurum DOST Agentliyi olaraq müəyyən edilməklə) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri, eləcə də pensiya və müavinətlər üzrə bank əməliyyatlarının aparılması və sair xidmət haqları xərcləri istiqamətinə ayrılan 90,98 mln. manat vəsait üzrə qismən qənaət hesabına (pensiya və müavinətlərin çatdırılması şərtsiz saxlanılmaqla) potensial olaraq təxminən 70 mln. manat ətrafında vəsait qədər əhəmiyyətli dərəcədə genişləndirilməsinə (təqribən 30 faizdən çox) nail oluna bilməsini də ehtimal edə bilərik. Bu isə, hesab edirik ki, Azərbaycanda maliyyə miqyası baxımından ən azından müavinətlərlə təminat səviyyəsinin daha da yüksəldilməsi üçün əlavə imkanlar yaratmış olar.

YEKUN VƏ SİYASƏT TÖVSİYƏLƏRİ

Bu tədqiqat göstərir ki, Azərbaycanda sosial müdafiə sisteminin idarəetmə modeli olaraq mexanizmlərinin təkmilləşdirilməsi qismində aşağıdakı məsələlərin nəzərə alınması müsbət nəticələr verə bilər:

- Nəticə etibarilə sosial müdafiə sisteminə model yanaşması özünü təşkilati tərəfləri ilə yanaşı, gəlirlərin yenidən bölüşdürülüməsində rolu baxımından da göstərir. Hesab edirik ki, beynəlxalq göstəricilər nəzərə alınaraq Azərbaycanda sosial müdafiənin gücləndirilməsi üçün büdcə mexanizmləri vasitəsilə sosial müdafiəyə, xüsusən pensiya təminatına yönəldilən vəsaitlərin həcminin əhəmiyyətli dərəcədə artırılması zəruridir;

- Azərbaycan Respublikasında aparıcı sosial müdafiənin aparıcı qolu olaraq çıxış edən – sosial sığorta sistemində qeyri-dövlət pensiya fondlarının fəaliyyətə başlaması üçün zəruri tədbirlər görülməsini, xüsusən bu məqsədlə ilk növbədə Maliyyə Nazirliyi, Azərbaycan Mərkəzi Bankı və digər aidiyyəti qurumlar tərəfindən görüləcək addımlar çərçivəsində maliyyə bazarının infrastrukturunun təkmilləşdirilməsini, o cümlədən bank sisteminin pensiya sisteminin sərbəst maliyyə resurslarının idarə olunmasına əlçatanlığının yaradılmasını, maliyyə bazarının özünün, xüsusən qiymətli kağızlar bazarının inkişafı ilə bağlı fəaliyyətə xüsusi önəm verilməsini prerekvizit əhəmiyyətli hesab edirik;

- Ölkələr üzrə sosial müdafiənin inkişafının müəyyən elementləri üzrə müsbət qabaqcıl nümunələrinin müşahidə olunmasının digər bir ölkədə eynilə və uyğunlaşdırılma aparılmadan tətbiqi şəraitində hər zaman müsbət nəticələrin əldə olunmasına zəmanət verməyəcəyinin, bu baxımdan konkret sosial müdafiə modelinin, o cümlədən Azərbaycan şəraitində pensiya təminatının təkmilləşdirilməsi məqsədilə tətbiqinin yerli sosial və iqtisadi xüsusiyyətlər, sosial-iqtisadi göstəricilər, eyni zamanda strateji hədəflər, xüsusən də mövcud olan və sistemin hazırda inkişafına mane olan (mövzu çərçivəsində toxunduğumuz) problemlər nəzərə alınaraq real mühit şərtlərinə uyğunlaşdırılmaqla müsbət nəticələr verə biləcəyinin idarəetmə yanaşması olaraq diqqətdə saxlanılması vacibdir;

- Strateji idarəetmə yanaşması olaraq qəbul edilməlidir ki, Azərbaycanda sosial müdafiənin tarixi struktur inkişafında daha yaxın dövrlərdə təsis edilmiş daha "gənc" hesab edilən pensiya təminatından kənar digər qeyd etdiyimiz – ünvanlı dövlət sosial yardımı, icbari dövlət tibbi sığortası, sosial xidmətlər kimi sosial müdafiə qollarının (mexanizmlərinin) da inkişafının və tətbiqinin genişləndirilməsinin yaxın müddətdə dərinləşdirilməsi əhalinin artan maddi tələbatı, mənəvi tələbləri və ehtiyaclarının qarşılanması, əhalinin sosial müdafiə hüquqlarının layiqli təminat istiqamətində

əhatəli və keyfiyyətli sosial müdafiə ilə əhatə olunmaları baxımından pensiya sistemi qədər prioritet əhəmiyyət kəsb edir;

- Hesab edirik ki, pensiya təminatının yaxşılaşmasının dəyərləndirilməsi meyarı kimi idarəetmə səviyyəsində həmçinin pensiya təminatı ilə bağlı əsas parametrlərin tarixi dinamikasının əsas götürülməsi yetəri olmamaqla, yaxşılaşma xüsusiyyətləri qismində əhali rifahı ilə bağlı digər makroiqtisadi parametrlərə münasibətdə genişləndirilmiş müqayisəli təhlil metodlarının da istifadə edilməsi tövsiyə edilir;

- Azərbaycanda ümumi sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq dövlət idarəetməsində rəqəmsal tətbiqlərin genişləndirilməsinə verilən əhəmiyyətə uyğun olaraq ümumən sosial müdafiənin, xüsusən də pensiya sisteminin idarə olunmasında elektronlaşmanın olduqca faydalı nəticələrinin əldə olunması reallıq təşkil etməsinə baxmayaraq, fundamental əsasda sistemin inkişaf onun maliyyə resurslarının səmərəli idarə edilməsindən asılı olacaqdır ki, səylərin bu istiqamətə də daha çox yönəldilməsi və səmərəlilik yanaşmalarının gücləndirilməsi vacibdir.

İstifadə edilmiş ədəbiyyat:

1. AZƏRTAC. (2025, 27 fevral). Azərbaycanda sosial xidmətlərin əlçatanlığının təmin olunması məqsədilə "Elektron sosial xidmət xəritəsi" hazırlanır. https://azertag.az/xeber/azerbaycanda_sosial_xidmetlerin_elchatanliginin_temin_olunmasi_meqsedile_elektron_sosial_xidmet_xeritesi_hazirlanir-3899091

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2025a). Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2024-cü il üzrə hesabatı. https://sosial.gov.az/storage/articles/1845328010357923.pdf

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi. (2025b, 1 fevral). Fevralın 1-dən minimum pensiya 320 manatdır. https://sosial.gov.az/media/xeberler/fevralin-1-den-minimum-pensiya-320-manatdir

4. Bavrina, A.P., & Borisov, I.B. (2021). Modern rules for the application of correlation analysis. Medical Almanac, 3(68), 70–79. https://www.researchgate.net/publication/356555304

5. Castro, R. (2023). Country-level, mandatory, self-financeable pension replacement rates in OECD countries. Journal of Pensions Economics and Finance, 23(2), 321–334. https://doi.org/10.1017/s1474747223000161

6. Hacioğlu, R. (2023). Pensiya sisteminin təkmilləşməsi və maliyyə dayanıqlığının bəzi məsələləri. TURAN-SAM, 15(Sp. Issue), 517–532. https://www.ceeol.com/search/article-detail?id=1136347

7. International Social Security Association. (2025a). Country profiles: Existence of programme, by branch. https://www.issa.int/databases/country-profiles/programmes-by-branch

8. International Social Security Association. (2025b). Country profiles: Pensionable ages. https://www.issa.int/databases/country-profiles/pensionable-ages

9. North Carolina Department of State Treasurer, Retirement Systems Division. (2025a). Adequacy executive summary. www.myncretirement.gov

10. North Carolina Department of State Treasurer, Retirement Systems Division. (2025b). Governance. https://www.myncretirement.gov/governance

11. OECD. (2023). Pensions at a glance 2023: OECD and G20 indicators. OECD Publishing. https://doi.org/10.1787/678055dd-en

12. OECD. (2024). Pensions at a glance Asia/Pacific 2024. OECD Publishing. https://doi.org/10.1787/d4146d12-en

13. OECD. (2025). Public pensions. https://www.oecd.org/en/topics/sub-issues/public-pensions.html

14. Olivera, J., & Valderrama, J. A. (2025). Early pension withdrawals and their uneven long-term effects in Peru. International Social Security Review, 78(4), 31–52. https://doi.org/10.1111/issr.70012

E.A.Alirzayev
PhD in Economics, PhD Student
Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0001-8622-6905

Features of the improvement of the pension mechanism in the social protection model of Azerbaijan

Abstract

The article considers some of the current issues of improving pension provision as the main mechanism of the social protection model formed in the Republic of Azerbaijan. The research work was prepared using the results of international scientific sources, state statistics, local regulatory acts, information disclosed by institutions, and was based on general scientific analysis and quantitative methods. The results of the work cover the analysis of problematic current issues related to the improvement of pension provision. In some cases, the lack of information availability for conducting more in-depth analyses on the topic reflects the main shortcomings of the research. The fact that the results given in the article determine the reform priorities at the management level for the near future is of practical importance. The originality and scientific novelty of the research is the identification of the problems considered most important by the author for further improvement of the social protection management model in Azerbaijan, taking into account advanced international standards in the field of pension provision.

***Keywords**: social policy, social protection system, improvement of social protection, social protection model, social protection mechanisms, pension system.*

https://doi.org/10.58225/tim.2026-2-117-122

UOT: 656.7

C.N.Məmmədov
doktorant, Azərbaycan Turizm və Menecment Universiteti
ORCID 0009-0006-3599-0042
memmedov.cavid@atmu.edu.az

Məqalə redaksiyaya daxil olub 17.03.2026
The article was received by editorial board on 17.03.2026
Статья принята к печати 17.03.2026

AZƏRBAYCANIN NƏQLİYYAT STRUKTURUNUN TURİZMİN DAYANAQLI İNKİŞAFINA TƏSİRİNİN EMPİRİK MODELİ

Xülasə

Məqalədə Azərbaycanın nəqliyyat strukturunun turizmin dayanıqlı inkişafına təsiri empirik əsasda araşdırılır. Tədqiqatın əsas məqsədi regional əlçatanlıq səviyyəsinin, nəqliyyat infrastrukturunun multimodal quruluşunun və nəqliyyatın ekoloji komponentlərinin turizmin iqtisadi, sosial və ekoloji göstəricilərinə gücünü müəyyən etməkdir. Azərbaycan iqtisadi rayonları üzrə 2010-2024-cü illəri əhatə edən panel məlumatlar əsasında sabit təsirlər modeli yaradılmışdır. Nəqliyyat strukturunun təkmilləşməsi həm turizm gəlirlərinin, gecələmə sayının və məşğulluğun artımına müsbət təsir göstərir, həm də regional balanslı inkişafı gücləndirir. Qeyri-xətti analiz optimal infrastruktur səviyyəsinin mövcudluğunu sübut edir.

Açar sözlər: *dayanıqlı turizm, regional inkişaf, multimodal nəqliyyat, panel model.*

GİRİŞ

Hazırki Beynəlxalq iqtisadi mühitdə turizm sahəsi milli gəlirin artması regional inkişafın və məşğulluğun əsas hərəkətverici qüvvələri qismində çıxış edir. Qlobal miqyasında turizm tək xidmət sektoru kimi deyil, eyni zamanda nəqliyyat, tikinti, ticarət, kənd təsərrüfatı və mədəni sənayelərlə sıx inteqrasiya olunmuş çoxşaxəli iqtisadi sistemdir. Turizm fəaliyyətinin genişlənməsi daxili və xarici investisiyaların artmasına, yerli icmaların gəlir imkanlarının genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına şərait yaradır. Bu mənada turizm sektoru xüsusən qeyri-neft iqtisadiyyatının diversifikasiyası baxımdan mühüm əhəmiyyət daşıyır [5].

Turizmin inkişafı bir qrup struktur determinantlardan asılıdır ki, bunların içərisində nəqliyyat infrastrukturu strateji rol oynayır. Turistlərin regionlara əlçatanlığı, nəqliyyat xərcləri, səyahət müddəti, marşrutların rahatlığı və təhlükəsizliyi birbaşa nəqliyyat sisteminin səviyyəsi ilə müəyyənləşdirilir. Əlçatanlıq nə qədər yüksəkdirsə, potensial turist axınının reallaşma ehtimalı da bir o qədər də artır. Xüsusilə daxili turizmin inkişafı üçün regionlararası yol şəbəkəsinin keyfiyyəti, davamlılığı həlledici amil kimi çıxış edir. Beynəlxalq turizm baxımından hava nəqliyyatının imkanları, uçuş coğrafiyası və tranzit potensialı əsas determinantlar sırasındadır.

ƏSAS HİSSƏ

Azərbaycan son illərdə logistika regional tranzit mərkəzi kimi mövqeyini gücləndirmək hədəfi ilə nəqliyyat sektorunda genişmiqyaslı infrastruktur layihələri yerinə yetirmişdir. Bu kontekstdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər hövzəsində əsas logistika strateji mərkəzlərdən birinə çevrilmiş, yük və sərnişin daşımalarının artırılmasını təmin etmişdir. Heydər Əliyev Beynəlxalq Hava Limanı beynəlxalq aviasiya əlaqələrinin genişlənməsinə, ölkənin qlobal turizm şəbəkəsinə inteqrasiyasına əlverişli imkan yaratmışdır. Digər tərəfdən Bakı-Tbilisi- Qars dəmir yolu lahiyəsi re-

gionlararası nəqliyyat əlaqələrini möhkəmləndirərək Azərbaycan Avrasiya nəqliyyat dəhlizlərində təsirini artırmışdır [5].

Bu infrastrukturlar lahiyələri yalnız tranzit və logistika baxımından deyil, həmçinin turizm maşurutlarının şaxələndirilməsi, yeni turizm məkanlarının dövriyyəyə daxil edilməsi nöqteyi nəzərindən əhəmiyyət daşıyır. Nəqliyyat şəbəkəsinin genişlənməsi turizm axınının paytaxtdan regionlara istiqamətlənməsinə şərait yaradır, bu da yerli icmaların iqtisadi imkanlarının genişlənməsinə və regional bərabərsizliyin azalmasına zəmin yaradır.

Lakin nəqliyyat infrastrukturunun turizmin yalnız kəmiyyət göstəricilərinə deyil, onun dayanıqlı inkişafına təsiri məsələsi daha sistemli yanaşmanı zəruri edir. Dayanaqlı turizm məfhumu iqtisadi artımla bərabər sosial inklüzlik, mədəni irsin qorunması və ekiloji tarazlığın təmin olunmasını ehtiva edir. Nəqliyyat sektorunun genişlənməsi əlçatanlığı artırsa da, karbon emissiyası , torpaq istifadəsi və ekosistemlərə təzyiq kimi riskləri gücləndirə bilər. Bunun üçün də nəqliyyat strukturunun qiymətləndirilməsi təkcə fiziki infrastruktur göstəriciləri ilə kifayətlənməməli, həm də inun sosial və ekoloji təsirləri nəzərə alınmalıdır.

Bu baxımdan Azərbaycanın nəqliyyat strukturunun turizmə təsirinin empirik təhlili aktualdır. Belə bir təhlil nəqliyyat investisiyalarının turizm sektorunda yaratdığı birbaşa təsiri müəyyənləşdirməyə, optimal infrastruktur səviyyəsini qiymətləndirməyə, dayanaqlı inkişaf strategiyalarının formalaşdırılmasına dəstək ola bilər. Empirik model əsasında aparılan analiz həm dövlət siyasətinin, həm də regional planlaşdırmanın daha əsaslandırılmış şəkildə həyata keçirilməsinə kömək edir [1].

İqtisadi ədəbiyyatda nəqliyyat infrastrukturu regional inkişafın aparıcı dayaqlarından biri kimi dəyərləndirilir. Klassik və müasir nəzəri yanaşmalar sübut ki, nəqliyyat şəbəkəsinin genişlənməsi və keyfiyyətinin yüksəlməsi istehsal və xidmət sektorlarının məkan üzrə paylanmasına bilavasitə təsir edir. Yeni İqtisadi Coğrafiya nəzəriyyəsinə əsasən, əlçatanlıq səviyyəsinin yüksəlməsi bazar ölçüsünü artırır, daşınma xərclərini azaldır və iqtisadi fəaliyyətin müəyyən mərkəzlər ətrafında cəmləşməsinə yol açır. Bu proses klasterləşmə və aqlomerasiyanın formalaşmasını tezləşdirir və bununla məhsuldarlıq və innovasiya potensialı artır. Ancaq bu yanaşma regional qeyri-bərabərlik riskini ortaya qoyur, çünki güclü nəqliyyat qovşaqları olan ərazilər daha sürətlə inkişaf etdiyi zaman periferik regionlar geridə qala bilər.

Turizm iqtisadiyyatı çərçivəsində nəqliyyat infrastrukturunun təsiri daha dəqiq şəkildə özünü göstərir. Turizm xidmətinin istehsalı ilə istehlakı məkan baxımından fərqli olduğu üçün, turistin hərəkəti bu sektora nəzərən əsas amildir. Hava nəqliyyatının inkişafı beynəlxalq turist axınının artmasında aparıcı rol oynayır. Səyahət vaxtının azalması, birbaşa reyslərin sayının artması və uçuş marşrutlarının genişlənməsi ölkənin qlobal turizm bazarına inteqrasiyasını möhkəmələndirir. Dəmir yolu və avtomobil infrastrukturu daxili turizmin canlanmasını sürətləndirir. Rahat və təhlükəsiz avtomobil yolları, sürətli və əlverişli dəmir yolu əlaqələri regionlara səyahəti asanlaşdırır, turizm marşrutlarının şaxələndirilməsinə və mövsümsellik probleminin azaldılmasına imkan yaradır.

Müasir turizm siyasəti daha yalnız turist sayının artırılmasına deyil, dayanıqlı inkişaf prinsiplərinə söykənir. Dayanıqlı turizm anlayışı iqtisadi səmərəliliklə birgə sosial inklüzivliyi və ekoloji tarazlığı əsas götürür. Mədəni irsin qorunması, məşğulluq imkanlarının genişləndirilməsi və turizm gəlirlərinin yerli icmalara paylanması sosial komponentin inkişaf istiqamətləridir. Ekoloji baxımdan nəqliyyat sektorunun karbon emissiyası, enerji istehlakı və torpaq istifadəsinə təsir etməsi turizmin ümumi ekoloji izinin formalaşmasında əsas amil hesab olunur. Hava nəqliyyatı yüksək karbon intensivliyinə malikdir. Bu isə iqlim dəyişiklikləri kontekstində əlavə risklərə gətirib çıxarır.

Nəticə etibari ilə nəqliyyat strukturunun turizmə təsirinin qiymətləndirilməsi tək infrastrukturun fiziki həcmi ilə kifayətlənməməlidir. Kompleks indeks yanaşması iqtisadi, sosial və ekoloji göstəriciləri əlaqələndirirərək daha obyektiv nəticəyə nail olmağa şərait yaradır. Bu yanaşma nəqliyyat investisiyalarının yalnız qısamüddətli iqtisadi faydası kimi deyil, eyni zamanda uzunmüd-

dətli dayanıqlılıq perspektivlərini qiymətləndirməyə əlverişli şərait yaradır. Bu dövlət siyasətinin daha balanslı və elmi əsaslandırılmış şəkildə formalaşdırılmasına təkan verir.

Tədqiqat Azərbaycan iqtisadi rayonları üzrə 2010-2024-cü illəri əhatə edən panel məlumatlar üzərində aparılır. Panel metodunun seçilməsi zaman üzrə dinamik dəyişiklikləri, regionlara xas sabit xüsusiyyətləri eyni model çərçivəsində nəzərə almağa imkan verir. Azərbaycan regionları infrastruktur səviyyəsi, turizm cəlbediciliyi, coğrafi mövqe və təbii resurs potensialı baxımından fərqləndiyinə görə, bu fərqlərin təsirinin nəzarət altına alınması labüddür. Panel yanaşma sabit təsirlər mexanizmi ilə regionlara məxsus dəyişməyən amilləri ayırmağa və nəqliyyat strukturunun turizmə təsirini daha dəqiq qiymətləndirməsini mümkün edir. Asılı dəyişən kimi Dayanıqlı Turizm İndeksi (STD_it) formalaşdırılmışdır. Bu indeks turizmin iqtisadi genişlənməsi, sosial davamlılığını əhatə edir. Turizmdə məşğulluq, gecələmə sayı və indeks turizm gəliri mövsümsellik göstəricisi görə hesablanmışdır. Turizm gəliri sektorun iqtisadi effektivliyi, gecələmə sayı və regionun cəlbediciliyini, məşğulluq isə sosial təsirini özündə əks etdirir. Mövsümsellik göstəricisi isə turizm axınının il ərzində balanslı paylanmasını qiymətləndirmək üçün inteqraqsiya olunmuşdur. Göstəricilər standartlaşdırılaraq kompozit indeks şəklində bir araya gətirilmişdir[6].

Əsas izah edən dəyişən kimi Nəqliyyat Strukturu İndeksi (TSI_it) tətbiq olunmuşdur. Bu indeks dəmir yolu mövcudluğu, yol sıxlığı, hava sərnişin axını və ictimai nəqliyyatın payı kimi göstəricilərə əsaslanaraq yaradılmışdır. Yol sıxlığı region daxilində fiziki əlçatanlığı, dəmir yolu, hava nəqliyyatı regionlararası və beynəlxalq bağlantını, ictimai nəqliyyatın payı isə sistemin ekoloji və sosial inklüzivliyini təmsil edir.

Digər tərəfdən modeldə regional ÜDM, yerləşdirmə obyektlərinin sayı, mədəni-təbii resurs göstəriciləri və təhlükəsizlik səviyyəsi nəzarət dəyişənləri kimi əlavə olunmuşdur. Bu dəyişənlər turizmin inkişafını şərtləndirən başqa iqtisadi və sosial amillərin təsirini ayırmağa və əsas dəyişənin təsirini daha obyektiv qiymətləndirməyə şərait yaradır.

Tədqiqat miqyasında nəqliyyat strukturunun turizmin dayanıqlı inkişafına təsirini qiymətləndirmək üçün sabit təsirlər (Fixed Effects) modeli istifadə olunmuşdur. Model aşağıdakı kimi ifadə olunur:

$$STD_{it} = \alpha + \beta TSI_{it} + \gamma Controls_{it} + \mu_i + \tau_t + \varepsilon_{it}$$

Burada STD_{it} – i regionunda t zamanında dayanıqlı turizm indeksini, TSI_{it} – nəqliyyat strukturu indeksini, $Controls_{it}$ – nəzarət dəyişənləri vektorunu ifadə edir. μ_i regiona aid sabit effektləri, τ_t zaman üzrə ümumi əks etdirir. ε_{it} isə təsadüfi səhv terminidir.

Bu model nəqliyyat strukturunun turizmin dayanıqlı inkişafına birbaşa olaraq təsir gücünü qiymətləndirməyə və regionlara məxsus dəyişməyən xüsusiyyətlərin təsirini aradan qaldırmağa imkan verir. Əsas parametr olan β nəqliyyat strukturunun turizmə marjinal təsirini göstərir və onun müsbət olması gözlənilir.

Nəqliyyat infrastrukturunun təsirinin xətti olmaya biləcəyini nəzərə alaraq, qeyri-xətti təsiri yoxlamaq üçün modelə kvadratik termin əlavə edilmişdir:

$$STD_{it} = \alpha + \beta_1 TSIit + \beta_2 TSIit^2 + \gamma Controls_{it} + \mu_i + \tau_t + \varepsilon_{it}$$

Bu spesifikasiya isə nəqliyyat strukturunun artımının müəyyən həddə kimi müsbət təsir göstərdiyini, amma optimal səviyyədən sonra ekoloji və sosial yük səbəbindən təsirin zəifləyə biləcəyini yoxlamağa imkan verir. Əgər $\beta_1 > 0$ *və* $\beta_2 < 0$ olarsa, bu, infrastrukturun optimal səviyyəsinin mövcudluğunu və təsirin konkav xarakter daşıdığını bildirir[1].

Empirik model xətti və qeyri-xətti təsirləri qiymətləndirməyə imkan verərək nəqliyyat strukturunun turizmin dayanıqlı inkişafına kompleks təsirini aşkar etməyə kömək edir.

Aparılmış panel asılılıq analizinin nəticələrindən məlum olur ki, nəqliyyat strukturu indeksi turizmin dayanıqlı inkişafına müsbət və statistik cəhətdən şərtləndirir. Əldə edilən β əmsalının müsbət işarəsi onu göstərir ki, regionlarda nəqliyyat əlçatanlığının və multimodal əlaqələrin təkmilləşməsi turizm gəlirlərinin artmasına, gecələmə sayının yüksəlməsinə və məşğulluğun genişlənməsinə əhə-

miyyətli təsir göstərir. Bu nəticə nəzəri gözləntilərlə uyğunluq yaradır və infrastrukturun turizm üçün əsas struktur determinant olduğunu empirik şəkildə sübüt edir.

Nəqliyyat strukturunun komponentlər üzrə təhlil nəticəsində məlum olur ki, hava və dəmir yolu göstəriciləri daha yüksək təsir əmsalına malikdir. Xüsusilə hava sərnişin axınının artması beynəlxalq turist sayının yüksəlməsi ilə bağlıdır. Dəmir yolu infrastrukturu daxili turizmin genişlənməsi regionlararası əlaqələrin güclənməsinə müsbət təsir göstərir. Avtomobil yollarının sıxlığı konstruktiv təsir göstərsə belə, onun təsiri başqa komponentlərlə müqayisədə aşağı olmuşdur. Bu, multimodal nəqliyyat formalarının turizmə daha effektiv təsir etdiyini göstərir.

Qeyri-xətti model üzrə əldə olunan nəticələr kvadratik terminin mənfi işarəli və statistik əhəmiyyətli olduğunu sübut etmişdir. Bu fakt nəqliyyat infrastrukturunun turizmə təsirinin konkav xarakter daşıdığını və optimal səviyyənin mövcudluğunu təsdiqləyir. Yəni infrastrukturun müəyyən səviyyəyə qədər genişləndirilməsi turizmin dayanıqlı inkişafına töhvə versə də, həddən artıq intensivləşmə ekoloji və sosial yük səbəbindən effektivliyin azalmasına gətirib çıxara bilər. Bu nəticə dayanıqlı inkişaf prinsipləri ilə uyğunluq təşkil edir.

Modelin nəticələri göstərir ki, ictimai nəqliyyatın payının artması mövsümsellik göstəricisinin azalması ilə nəticələnir. Bu, turizm axınının il ərzində balanslı paylanmasına və regional turizmin davamlılığının güclənməsinə gətirib çıxarır. İctimai nəqliyyatın inkişafı səyahət xərclərini nisbətən sabit saxlayır və turizm fəaliyyətini yalnız pik mövsümlərlə kifayyətlənmir[3].

Modelin izah etmə bacarığı yüksək olmuşdur (R^2 əhəmiyyətli səviyyədədir), bu isə seçilmiş dəyişənlərin turizmin dayanıqlı inkişafını adekvat şəkildə izah etdiyini təsdiq edir. Bundan başqa, alternativ spesifikasiyalar, gecikmiş dəyişənlərin daxil edilməsi və heteroskedastiklik üçün robust standart səhvlər tətbiq edilməklə aparılmış yoxlamalar nəticələrin sabit və etibarlı olduğunu göstərmişdir. Bu da əldə olunan nəticələrin empirik baxımdan dayanıqlı və statistik cəhətdən əsaslandırılmış olduğunu ortaya qoyur.

Nəqliyyat strukturu turizm sektorunun iqtisadi genişlənməsinə, regional balanslı inkişafına əhəmiyyətli güclənməsinə şərait yaradır. Əlçatanlığın artması turist axınının genişlənməsinə, yerləşdirmə obyektlərinin doluluq səviyyəsinin yüksəlməsinə və turizm gəlirlərinin artması ilə nəticələnir[3]. Eyni zamanda, nəqliyyat infrastrukturunun inkişafı turizm fəaliyətinin yalnız paytaxt və iri şəhərlərdə cəmləşməsinin məhdudlaşdıraraq regionlarda iqtisadi aktivliyin artmasına səbəb olur. Bu isə yerli məşğulluğun genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına və regional gəlir fərqlərinin azalmasına göclü təsir edir.

Empirik nəticələr göstərir ki, infrastrukturun həddindən artıq intensivləşdirilməsi təbii və mədəni irs baxımından həssas turizm zonalarında ekoloji risklər yarada bilər. Antropogen təzyiqin artmasına, yol şəbəkəsinin genişlənməsi, ekosistemlərin parçalanmasına və torpaq istifadəsinin dəyişməsinə səbəb ola bilər. Xüsusilə yüksək turist axını olan ərazilərdə nəqliyyatın yaratdığı karbon emissiyası və sıxlıq problemi dayanıqlı turizm prinsipləri ilə ziddiyyət təşkil edir. Buna görə infrastruktur siyasətinin yalnız iqtisadi səmərəlilik meyarları ilə deyil, həm də ekoloji daşıma qabiliyyəti və sosial təsirlər nəzərə alınmaqla strukturlaşması əsasdır. Optimal səviyyə prinsipi məhz bu balansın qorunmasını nəzərdə tutur. Belə ki, nəqliyyat infrastrukturu turizmin inkişafını stimullaşdırmalı, lakin təbii və sosial mühitə həddindən artıq yük yaratmamalıdır.

Azərbaycanın nəqliyyat şəbəkəsinin regionlararası inteqrasiyanı gücləndirməsi turizmin coğrafi şaxələndirilməsini mümkün edir. Yeni turizm məkanlarının dövriyyəyə daxil edilməsinə və mövcud turizm mərkəzlərində sıxlığın azalmasına və multimodal əlaqələrin inkişafı turizm marşrutlarının müxtəlif istiqamətlər üzrə formalaşmasına, zəmin yaradır. Bu mərhələ turizmin mərkəzləşmə səviyyəsini azaltmaqla regionlar arasında daha balanslı paylanmanı təmin edir. O uzunmüddətli perspektivdə dayanaqlı inkişaf strategiyasının başlıca elementinə çevrilir.

Azərbaycanın nəqliyyat strukturu turizmin dayanaqlı inkişafına statistik və iqtisadi baxımdan əhəmiyyətli təsir göstərir. Nəqliyyat əlçatanlığının artması turizm gəlirlərinin, regional məşğulluğun

genişlənməsinə və turizm fəaliyyətinin coğrafi baxımdan daha balanslı paylanması ilə nəticələnir. Yəni avtomobil, dəmir yolları və hava nəqliyyatının qarşılıqlı inteqrasiyasına əsaslanan sistem daha yüksək effektivlik nümayiş etdirir. Ekoloji baxımdan balanslı və ictimai nəqliyyatın payının yüksək olduğu struktur turizmin uzunmüddətli dayanıqlılığını təmin edir, əsas amillər kimi qiymətləndirir. Bu yanaşma iqtisadi səmərəliliyi artırır, ətraf mühitə təsirin minimuma endirilməsinə şərait yaradır [5].

Aparılan tədqiqatlar aşağıdakı siyasət tövsiyələri irəli sürür:

1. Regionlarda dəmir yolu və ictimai nəqliyyat şəbəkəsinin genişləndirilməsi məqsədəuyğundur. Dəmir yolu daha az karbon intensivliyinə xas nəqliyyat növü kimi daxili turizmin inkişafına, ekoloji dayanıqlılığın qorunmasına təkan verə bilər. İctimai nəqliyyatın gücləndirilməsi isə regionlara səyahətin əlçatanlığını artırmaqla yanaşı, mövsümsellik səviyyəsinin azalmasına, turizm axınının daha balanslı payanmasına kömək edir.

2. Turizm zonalarında ekoloji yükün sistemli monitorinqi həyata keçirilməlidir. Xüsusilə həssas təbii və mədəni irs ərazilərində nəqliyyat intensivliyinin daşıma qabiliyyəti ilə uyğunluğu qiymətləndirilməli, zərurət yaranarsa məhdudlaşdırıcı və tənzimləyici mexanizmlər istifadə edilməlidir. Bu infrastrukturun həddindən artıq intensivləşdirilməsinin qarşısını almağa kömək edəcəkdir.

3. Multimodal logistikanın inkişafı nəqliyyat sisteminin effektivliyini artıracaq və turizm marşrutlarının şaxələndirilməsini mümkün edəcəkdir. Müxtəlif nəqliyyat növlərinin inteqrasiyası səyahət vaxtını və xərclərini optimallaşdıraraq turizm sektorunun rəqabət qabiliyyətini artıra bilər.

İŞİN AKTUALLIĞI

Müasir dövrdə turizm sektoru qeyri-neft iqtisadiyyatının inkişafında və regional balansın təmin edilməsində vacib hesab edilir. Turizmin səmərəli və dayanıqlı inkişafı birbaşa əlçatanlıq imkanlarından və nəqliyyat infrastrukturunun səviyyəsindən asılıdır. Azərbaycan son illərdə nəqliyyat sektoruna böyük investisiyalar yatırsa da, bu infrastrukturun turizmin dayanıqlı inkişafına real təsirinin empirik qiymətləndirilməsi aktual elmi məsələ kimi qalır.

Dayanıqlı inkişaf prinsipləri iqtisadi artımla yanaşı sosial və ekoloji tarazlığın qorunmasını tələb edir. Bu baxımdan nəqliyyat strukturunun turizmə təsirinin kompleks şəkildə araşdırılması həm elmi, həm də praktiki baxımdan vacibdir.

NƏTİCƏ

Nəhayət, rəqəmsal nəqliyyat planlaşdırma sistemlərinin istifadəsi müasir turizm idarəçiliyinin mühüm komponentidir. Rəqəmsal platformaların köməyi ilə nəqliyyat axınlarının real vaxt rejimində təqibi, marşrutların optimallaşdırılmasını və turist hərəkətliliyini mümkün edir. Bu isə həm strateji planlaşdırma prosesini təkmilləşdirir, həm də dayanıqlı turizm siyasətinin formalaşdırılmasını elmi cəhətdən əsaslandırır.

İstifadə edilmiş ədəbiyyat:

1. Banister, D., & Berechman, Y. (2001). Transport investment and the promotion of economic growth. Journal of Transport Geography, 9(3), 209-218. https://doi.org/10.1016/S0966-6923(01)00013-8

2. Lohmann, G., & Duval, D.T. (2011). Critical aspects of the tourism-transport relationship. Journal of Transport Geography, 19(4), 679-688. https://doi.org/10.1016/j.jtrangeo.2010.10.001

3. Rodrigue, J.-P. (2020). The Geography of Transport Systems (5th ed.). Routledge.

4. BMT-nin Dünya Turizm Təşkilatı (UNWTO). (2023). International Tourism Highlights.

5. World Bank. (2020). Transport Infrastructure and Economic Development. World Bank Publications.

6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2010-2024). Turizm və nəqliyyat üzrə statistik göstəricilər. Bakı.

7. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2023). Nəqliyyat sektorunun inkişafı üzrə illik hesabat. Bakı.

J.N.Mammadov
PhD student, Azerbaijan University of Tourism and Management
ORCID 0009-0006-3599-0042

Empirical model of the impact of Azerbaijan's transport structure on the sustainable development of tourism

Abstract

The article examines the impact of Azerbaijan's transport structure on the sustainable development of tourism on an empirical basis. The main objective of the study is to determine the impact of the level of regional accessibility, the multimodal structure of transport infrastructure and the ecological components of transport on the economic, social and ecological indicators of tourism. A fixed effects model was created based on panel data covering the years 2010-2024 for the economic regions of Azerbaijan. The improvement of the transport structure has a positive impact on the growth of tourism revenues, the number of overnight stays and employment, and also strengthens balanced regional development. Non-linear analysis proves the existence of an optimal infrastructure level.

Keywords: *sustainable tourism, regional development, multimodal transport, panel model, transport infrastructure.*

https://doi.org/10.58225/tim.2026-2-123-137

Ü.Q.Əliyev
i.e.d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti
C.Ü.Zeynallı
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
cavidanzeynalli0@gmail.com

Məqalə redaksiyaya daxil olub 10.03.2026
The article was received by editorial board on 10.03.2026
Статья принята к печати 10.03.2026

AZƏRBAYCAN QEYRİ-NEFT SEKTORUNUN MÖVCUD VƏZİYYƏTİ VƏ AZAD OLUNMUŞ ƏRAZİLƏRİN İQTİSADİ POTENSİALI

Xülasə

Məqalədə Azərbaycanın qeyri-neft sektorunun mövcud vəziyyəti, inkişaf dinamikası və struktur xüsusiyyətləri təhlil edilir, eyni zamanda azad olunmuş ərazilərin iqtisadi potensialı kompleks şəkildə qiymətləndirilir. Tədqiqatın əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişaf perspektivlərini müəyyənləşdirmək və azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyası imkanlarını elmi əsaslarla araşdırmaqdır. Məqalədə statistik təhlil, müqayisəli analiz və sistem yanaşması metodlarından istifadə edilmişdir. Qeyri-neft sənayesi, kənd təsərrüfatı, xidmət sektoru, turizm və logistika sahələrinin inkişaf göstəriciləri qiymətləndirilmiş, investisiya mühiti və dövlət dəstəyi mexanizmləri araşdırılmışdır. Azad olunmuş ərazilərin təbii resursları, kənd təsərrüfatı potensialı, bərpa olunan enerji imkanları, nəqliyyat-logistika üstünlükləri və turizm ehtiyatları iqtisadi baxımdan təhlil edilmişdir. Tədqiqat nəticələri göstərir ki, qeyri-neft sektorunun şaxələndirilməsi və regionların iqtisadi fəallığının artırılması uzunmüddətli dayanıqlı inkişaf üçün əsas amillərdir. Azad olunmuş ərazilərdə həyata keçirilən infrastruktur layihələri, sənaye parkları, "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyaları bu ərazilərin gələcəkdə yüksək əlavə dəyər yaradan iqtisadi məkana çevrilməsi üçün mühüm zəmin yaradır. Nəticə etibarilə, qeyri-neft sektorunun gücləndirilməsi və azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsi Azərbaycanın iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsinə, ixrac imkanlarının genişlənməsinə və regional inkişafın balanslaşdırılmasına mühüm töhfə verə bilər. Məqalədə əldə olunan nəticələr iqtisadi siyasətin formalaşdırılması və regional inkişaf strategiyalarının hazırlanması baxımından elmi-praktiki əhəmiyyət daşıyır.

Açar sözlər: *qeyri-neft sektoru, regional inkişaf, işğaldan azad olunmuş ərazilər, iqtisadi inteqrasiya, innovativ inkişaf modeli.*

GİRİŞ

Müasir qlobal iqtisadi şəraitdə təbii resurslardan asılılığın azaldılması və iqtisadiyyatın şaxələndirilməsi milli inkişaf strategiyalarının əsas prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu baxımdan Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı uzunmüddətli dayanıqlı artımın, makroiqtisadi sabitliyin və iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır. Neft gəlirlərinin iqtisadiyyatda dominant mövqeyə malik olması müəyyən dövrlərdə sürətli artımı təmin etsə də, qlobal enerji bazarlarında qiymət dəyişkənliyi iqtisadiyyatın struktur baxımından daha balanslı formalaşdırılmasını zəruri etmişdir.

Son illərdə qeyri-neft sənayesi, kənd təsərrüfatı, nəqliyyat-logistika, turizm və xidmət sahələrinin inkişafı istiqamətində sistemli islahatlar həyata keçirilmiş, sənaye parkları və məhəlləri yaradılmış, ixracın təşviqi mexanizmləri tətbiq edilmişdir. Dövlət proqramları və strateji yol xəritələri çərçivəsində qeyri-neft sektorunun ÜDM-də payının artırılması, məşğulluğun genişləndirilməsi və regional iqtisadi fəallığın gücləndirilməsi prioritet vəzifə kimi müəyyən edilmişdir.

Eyni zamanda, Azərbaycanın azad olunmuş əraziləri ölkənin yeni iqtisadi inkişaf mərhələsində strateji əhəmiyyət kəsb edir. Bu ərazilər zəngin təbii resurslara, kənd təsərrüfatı üçün əlverişli torpaq fonduna, su ehtiyatlarına, turizm potensialına və bərpa olunan enerji imkanlarına malikdir. İnfrastrukturun yenidən qurulması, "ağıllı kənd" və "yaşıl enerji zonası" konsepsiyalarının tətbiqi, sənaye və logistika mərkəzlərinin yaradılması həmin ərazilərin iqtisadi sistemə inteqrasiyasını sürətləndirir.

Beləliklə, qeyri-neft sektorunun inkişafı ilə azad olunmuş ərazilərin iqtisadi potensialının səmərəli reallaşdırılması bir-biri ilə qarşılıqlı əlaqədə olan strateji istiqamətlərdir. Bu məqalədə Azərbaycanın qeyri-neft sektorunun mövcud vəziyyəti təhlil edilir, inkişaf tendensiyaları müəyyənləşdirilir və azad olunmuş ərazilərin iqtisadi imkanları kompleks şəkildə qiymətləndirilir. Tədqiqatın nəticələri iqtisadi siyasətin təkmilləşdirilməsi və regional inkişaf strategiyalarının formalaşdırılması baxımından mühüm elmi-praktiki əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT İCMALI

Azərbaycanın qeyri-neft sektorunun inkişafı və azad olunmuş ərazilərin iqtisadi potensialı ilə bağlı tədqiqatlar son illərdə mühüm elmi maraq doğurmuşdur. Qeyri-neft sektoru iqtisadiyyatın şaxələndirilməsi, dayanıqlı inkişafın təmin edilməsi və regional iqtisadi fərqliliklərin aradan qaldırılması baxımından strateji əhəmiyyət kəsb edir. Yerli tədqiqatlar əsasən kənd təsərrüfatı, sənaye, xidmət və turizm sahələrinin inkişafı, regional infrastrukturun gücləndirilməsi və dövlət dəstək mexanizmlərinin səmərəliliyi məsələlərinə yönəlmişdir.

Məmmədov (2021) qeyri-neft sektorunun inkişafı və iqtisadi şaxələndirmə sahəsində geniş analitik tədqiqat aparmışdır. O, qeyri-neft sektorunun ÜDM-də payının artırılmasının və regionların iqtisadi fəallığının yüksəldilməsinin uzunmüddətli dayanıqlı inkişaf üçün əsas amil olduğunu vurğulamışdır. Məmmədovun tədqiqatında həmçinin investisiya mühitinin təkmilləşdirilməsi, dövlət proqramlarının rolu və iqtisadi siyasətin strateji planlaşdırılması məsələləri detallı şəkildə təhlil edilmişdir.

Abbasov (2022) azad olunmuş ərazilərin iqtisadi potensialını elmi əsaslarla qiymətləndirmiş, kənd təsərrüfatı, enerji və turizm imkanlarını, həmçinin regionun logistika və infrastruktur üstünlüklərini araşdırmışdır. Onun işində dövlət tərəfindən həyata keçirilən infrastruktur layihələrinin ərazilərin iqtisadi sistemə inteqrasiyasına verdiyi töhfələr göstərilmiş və azad olunmuş ərazilərin iqtisadi inkişafı üçün strateji prioritetlər müəyyən edilmişdir.

Şükürov və Məmmədova (2023) Azərbaycanın düzənlik zonalarında iqtisadi fəaliyyət və torpaq ehtiyatlarının istifadəsi məsələlərini təhlil etmiş, qeyri-neft sektorunda məhsuldarlıq və resurslardan səmərəli istifadə aspektlərini qiymətləndirmişlər. Bu tədqiqatlar göstərir ki, torpaq və ərazi resurslarının optimallaşdırılması regionlarda iqtisadi inkişafın əsas şərtidir.

Əliyeva (2021) meliorasiya və torpaq münbitliyinin qorunması sahəsində tədqiqat aparmış, kənd təsərrüfatı potensialının artırılması üçün praktiki metodlar təqdim etmişdir. Onun araşdırmaları regional kənd təsərrüfatının inkişafını dəstəkləyən dövlət proqramları və elmi əsaslı metodologiyaların əhəmiyyətini vurğulayır. Hüseynov (2024) azad olunmuş ərazilərin iqtisadi potensialını geniş şəkildə araşdırmış, xüsusilə enerji, turizm, logistika və sənaye parkları sahəsində imkanları qiymətləndirmişdir. Tədqiqat nəticələri göstərir ki, bu ərazilərin iqtisadi inteqrasiyası ölkənin ümumi iqtisadi inkişafına mühüm töhfə verə bilər.

Beynəlxalq ədəbiyyat isə regionların inkişafında innovativ metodologiyalar, rəqəmsal texnologiyalar və GIS əsaslı resurs idarəetmə sistemlərinin tətbiqinə diqqət yetirir. Məsələn, Ganga

və həmkarları (2023) GIS və uzaqdan zondlama texnologiyalarının torpaq resurslarının monitorinqi və səmərəli istifadəsi üçün əhəmiyyətini göstərmişdir. Bu yanaşmalar Azərbaycanın azad olunmuş ərazilərində və qeyri-neft sektorunda innovativ idarəetmə və iqtisadi səmərəlilik məsələlərinin dərin elmi əsaslarla öyrənilməsinə imkan yaradır.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏLƏR

Azərbaycan iqtisadiyyatının inkişaf trayektoriyası uzun müddət neft sektorunun dominantlığı ilə xarakterizə olunmuşdur. Xüsusilə 2005–2014-cü illər ərzində neft hasilatının və ixracının kəskin artımı ümumi daxili məhsulun (ÜDM) strukturunda ciddi asimmetriya yaratmışdır. Bu vəziyyət iqtisadi artımın mənbələrinin məhdudlaşmasına, makroiqtisadi dəyişkənliyin artmasına və xarici şoklara həssaslığın güclənməsinə səbəb olmuşdur (Məmmədov, 2016, s. 84–86).

Bu baxımdan qeyri-neft sektorunun ÜDM-də payının uzunmüddətli dinamikasının statistik təhlili iqtisadi diversifikasiya siyasətinin nəticələrinin qiymətləndirilməsi baxımından mühüm elmi əhəmiyyət kəsb edir (Quliyev, 2019, s. 112).

Cədvəl 1

Azərbaycan üzrə nominal ÜDM-in sektorial strukturu (2000–2024-cü illər, mln manat)

İl	ÜDM (cəmi)	Neft sektoru	Qeyri-neft sektoru	Qeyri-neftin payı (%)
2000	4 718	1 650	3 068	65.0
2005	12 522	6 981	5 541	44.2
2010	42 465	22 876	19 589	46.1
2014	59 014	34 982	24 032	40.7
2015	54 380	29 410	24 970	45.9
2016	60 425	28 360	32 065	53.1
2020	72 432	25 910	46 522	64.2
2022	133 825	53 418	80 407	60.1
2024	141 200	51 600	89 600	63.5

Mənbə: *https://stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az*

Cədvəl 1-də təqdim olunan statistik göstəricilər Azərbaycanın iqtisadi strukturunda neft və qeyri-neft sektorları arasında formalaşmış uzunmüddətli tarazlıq dəyişikliklərini aydın şəkildə əks etdirir. Nominal ÜDM göstəriciləri üzrə aparılan təhlil göstərir ki, 2000–2024-cü illər ərzində iqtisadi artım templəri sektorlar üzrə qeyri-bərabər xarakter daşımışdır.

2000-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 65 faiz təşkil etmişdir ki, bu da həmin dövrdə neft hasilatının hələ geniş miqyas almaması ilə izah olunur. Lakin 2005-ci ildən etibarən neft layihələrinin istismara verilməsi nəticəsində neft sektorunun ÜDM-də çəkisi kəskin şəkildə artmış, qeyri-neft sektorunun payı 44,2 faizə qədər azalmışdır. Bu mərhələ iqtisadiyyatın sürətlə neftləşdiyi və struktur asimmetriyasının dərinləşdiyi dövr kimi xarakterizə olunur.

2010–2014-cü illər dövründə nominal ÜDM-in artımı əsasən neft sektorunun hesabına təmin edilmişdir. 2014-cü ildə neft sektorunun nominal ÜDM-də payı 59,3 faizə yüksəlmiş, qeyri-neft sektorunun çəkisi isə 40,7 faizə qədər geriləmişdir. Bu göstərici neft bumunun pik mərhələsini əks etdirir və iqtisadi artımın mənbə baxımından yüksək konsentrasiyasını nümayiş etdirir.

2015–2016-cı illər neft qiymətlərinin kəskin enməsi və milli valyutanın devalvasiyası ilə səciyyələnmişdir. Cədvəldə bu dövrdə qeyri-neft sektorunun payının artması aydın müşahidə olunur. 2016-cı ildə qeyri-neft sektorunun ÜDM-də payı 53,1 faizə yüksəlmişdir. Bu artımın əsas səbəbi real

istehsal genişlənməsindən daha çox neft sektorunun nominal həcminin azalması olmuşdur. Bu fakt struktur dəyişikliklərin böyük ölçüdə "nisbi effekt" nəticəsində baş verdiyini göstərir.

2020-ci ildə qeyri-neft sektorunun payının 64,2 faizə çatması iqtisadiyyatın strukturunda mühüm dönüş mərhələsi kimi qiymətləndirilə bilər. COVID-19 pandemiyası dövründə neft sektorunda istehsal və gəlirlərin azalması fonunda kənd təsərrüfatı, ticarət və xidmət sahələrinin iqtisadiyyatda rolu artmışdır. Bu dövrdə qeyri-neft sektoru iqtisadi sabitləşdirici funksiya yerinə yetirmişdir.

2022–2024-cü illərdə nominal ÜDM-in ümumi həcmi sürətlə artsa da, qeyri-neft sektorunun payı 60–63 faiz intervalında sabitləşmişdir. Bu hal onu göstərir ki, son illərdə struktur tarazlıq müəyyən səviyyədə formalaşmış, lakin neft sektorunun iqtisadiyyatda hələ də mühüm rol saxladığı müşahidə olunur.

Nominal göstəricilər inflyasiya və qiymət dəyişmələrinin təsiri altında olduğundan, struktur transformasiyanın real miqyasını qiymətləndirmək üçün real ÜDM göstəricilərindən istifadə zəruridir.

Cədvəl 2

Real ÜDM indeksləri (2005=100)

İl	Real ÜDM	Neft sektoru	Qeyri-neft sektoru
2005	100	100	100
2010	185	230	138
2014	246	312	162
2016	225	260	184
2020	258	242	215
2022	278	255	242
2024	301	262	281

Mənbə: *https://stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az*

Cədvəl 2-də təqdim olunan real ÜDM indeksləri Azərbaycanın iqtisadi inkişafının uzunmüddətli dinamikasını qiymət amillərindən təmizlənmiş formada əks etdirir. Bu baxımdan cədvəl qeyri-neft sektorunun faktiki istehsal artımını və struktur transformasiyanın real mahiyyətini müəyyənləşdirmək üçün xüsusi elmi əhəmiyyət daşıyır.

2005-ci il baza ili (2005 = 100) götürüldükdə, 2010-cu ilə qədər olan dövrdə neft sektorunun real artım tempi qeyri-neft sektorunu xeyli üstələmişdir. 2010-cu ildə neft sektorunun real indeksi 230-a yüksəldiyi halda, qeyri-neft sektorunda bu göstərici 138 səviyyəsində formalaşmışdır. Bu fərq neft bumunun ilkin mərhələsində iqtisadi artımın əsas mənbəyinin məhz neft hasilatı olduğunu göstərir.

2014-cü ildə neft sektorunun real indeksi 312-yə çatmış, qeyri-neft sektorunda isə bu göstərici 162 olmuşdur. Bu mərhələ neft sektorunun real istehsal baxımından pik nöqtəsi hesab olunur. Lakin diqqətçəkən məqam ondan ibarətdir ki, bu dövrdə qeyri-neft sektorunda da artım davam etmiş, lakin onun tempi neft sektoru ilə müqayisədə xeyli zəif olmuşdur. Bu isə iqtisadi artımın mənbə baxımından qeyri-tarazlı xarakter daşıdığını təsdiqləyir.

2016-cı ildən etibarən real göstəricilərdə mühüm dönüş müşahidə olunur. Neft sektorunun real indeksi 260-a enmiş, qeyri-neft sektorunun real indeksi isə 184-ə yüksəlmişdir. Bu dinamika struktur dəyişikliklərin nominal deyil, real istehsal səviyyəsində də baş verməyə başladığını göstərir. Qeyri-neft sektorunun artım tempi bu mərhələdə neft sektorunu üstələməyə başlamışdır.

2020-ci il pandemiya dövründə real ÜDM-də ümumi azalma müşahidə olunsa da, qeyri-neft sektorunun indeksi 215 səviyyəsində qalaraq nisbi dayanıqlıq nümayiş etdirmişdir. Bu, qeyri-neft sektorunun iqtisadiyyatda amortizator rolunu yerinə yetirdiyini və iqtisadi şokların təsirini qismən yumşaltdığını göstərir.

2022–2024-cü illərdə real göstəricilər üzrə ən mühüm tendensiya qeyri-neft sektorunun neft sektoruna yaxınlaşmasıdır. 2024-cü ildə qeyri-neft sektorunun real indeksi 281, neft sektorunun indeksi isə 262 olmuşdur. Bu fakt ilk dəfə olaraq qeyri-neft sektorunun real artım tempinin neft sektorunu üstələdiyini göstərir və struktur transformasiya baxımından keyfiyyətcə yeni mərhələ kimi qiymətləndirilə bilər.

Cədvəl 3

Neft–qeyri-neft tarazlığı və struktur dönüş nöqtələri

İl	Şokun növü	İqtisadi təsir	Qeyri-neft sektorunun reaksiyası
2008	Qlobal maliyyə böhranı	Neft qiymətinin enməsi	Daxili tələbin hesabına nisbi sabitlik
2014	Neft qiymətlərinin kollapsı	ÜDM artımının zəifləməsi	Qeyri-neftin payının artması
2015–2016	Devalvasiya	Neft gəlirlərinin azalması	İdxalı əvəzləmə effekti
2020	COVID-19	İqtisadi tənəzzül	Kənd təsərrüfatı və xidmətlərin rolu
2022	Enerji qiymət şoku	Neft gəlirlərinin artımı	Qeyri-neftin stabil payı

Mənbə: *(Əliyev, 2024, s. 76; Qasımov, 2024, s. 151)*

Cədvəl 3-də təqdim olunan məlumatlar Azərbaycanda iqtisadi strukturun formalaşmasında şok illərinin həlledici rol oynadığını açıq şəkildə nümayiş etdirir. Təhlil göstərir ki, qeyri-neft sektorunun ÜDM-də payında baş verən dəyişikliklər əsasən daxili istehsal siyasətinin nəticəsi deyil, daha çox xarici iqtisadi şoklara adaptasiya mexanizmi kimi formalaşmışdır.

2008-ci il qlobal maliyyə böhranı Azərbaycanın neft gəlirlərinə ilk ciddi mənfi təsiri göstərmişdir. Neft qiymətlərinin azalması fonunda iqtisadi artım templəri zəifləsə də, qeyri-neft sektoru daxili tələbin və dövlət xərclərinin hesabına nisbi sabitliyini qoruyub saxlamışdır. Bu mərhələ qeyri-neft sektorunun iqtisadiyyatda amortizator funksiyasını ilkin şəkildə nümayiş etdirdiyi dövr kimi qiymətləndirilir.

2014-cü ildə dünya neft bazarında baş vermiş kəskin qiymət kollapsı iqtisadi strukturda dönüş nöqtəsi yaratmışdır. Bu dövrdə neft sektorunda gəlirlərin azalması ÜDM-in ümumi artımını zəiflətmiş, eyni zamanda qeyri-neft sektorunun nisbi payının yüksəlməsinə səbəb olmuşdur. Lakin bu artım əsasən neft sektorunun daralması ilə bağlı nisbi effekt xarakteri daşımışdır. Bu fakt struktur dəyişikliklərin hələ tam real istehsal artımına söykənmədiyini göstərir.

2015–2016-cı illərdə baş vermiş ikiqat devalvasiya iqtisadiyyatda dərin makroiqtisadi şok yaratmışdır. Bu mərhələdə idxalın bahalaşması daxili istehsal üçün müəyyən imkanlar formalaşdırmış və qeyri-neft sektorunda idxalı əvəzləmə effekti güclənmişdir. Cədvəldə bu dövr qeyri-neft sektorunun struktur əhəmiyyətinin artmağa başladığı mərhələ kimi əks olunur. Bu dövr iqtisadi diversifikasiya siyasətinin praktiki zərurətə çevrildiyi mərhələ kimi qiymətləndirilə bilər.

2020-ci ildə COVID-19 pandemiyası həm neft, həm də qeyri-neft sektorlarına mənfi təsir göstərsə də, qeyri-neft sektoru nisbətən çevik reaksiya nümayiş etdirmişdir. Xüsusilə kənd təsərrüfatı, ərzaq istehsalı və bəzi xidmət sahələri iqtisadi aktivliyin tam dayanmasının qarşısını almışdır. Bu

vəziyyət qeyri-neft sektorunun sosial-iqtisadi sabitliyin qorunmasında strateji rolunu bir daha təsdiqləmişdir.

2022-ci ildə qlobal enerji bazarlarında yaranmış yeni qiymət şoku neft gəlirlərinin yenidən artmasına səbəb olmuşdur. Lakin əvvəlki dövrlərdən fərqli olaraq, bu mərhələdə qeyri-neft sektorunun ÜDM-də payı kəskin şəkildə azalmamış və nisbətən sabit səviyyədə qorunmuşdur. Bu fakt struktur tarazlığın müəyyən dərəcədə möhkəmləndiyini və iqtisadiyyatın əvvəlki qədər birtərəfli neft asılılığında olmadığını göstərir.

Cədvəl 2.3-ün təhlili onu göstərir ki, Azərbaycanda iqtisadi struktur dəyişiklikləri əsasən reaktiv xarakter daşıyır. Yəni qeyri-neft sektorunun rolu əsasən böhran və şok dövrlərində güclənmiş, neft bum mərhələlərində isə zəifləməyə meyilli olmuşdur. Bu isə struktur transformasiyanın uzun müddət spontan və xarici faktorlarla şərtlənən proses kimi inkişaf etdiyini göstərir.

Cədvəl 4

Qeyri-neft sektorunun ÜDM-də payının trendi (%)

İl	Pay (%)
2000	65.0
2005	44.2
2010	46.1
2014	40.7
2016	53.1
2020	64.2
2024	63.5

Mənbə: *https://stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az*

Trend analizi göstərir ki, qeyri-neft sektorunun payı U-şəkilli dinamika nümayiş etdirmişdir:

- neft bum dövründə azalma,
- neft şoklarından sonra isə artım mərhələsi.

Bu dinamika struktur transformasiyanın əsasən məcburi xarakter daşıdığını göstərir (Quliyev, 2019, s. 125).

Statistik təhlil sübut edir ki, Azərbaycanda qeyri-neft sektorunun ÜDM-də payının artımı əsasən neft gəlirlərinin azalması fonunda intensivləşmişdir. Nominal göstəricilər struktur dəyişiklikləri qismən gizlətsə də, real ÜDM üzrə trend təhlili qeyri-neft sektorunun uzunmüddətli perspektivdə daha dayanıqlı inkişaf trayektoriyasına malik olduğunu göstərir.

Neft–qeyri-neft tarazlığı üzrə aparılan struktur analiz göstərir ki, iqtisadi diversifikasiya prosesi daha çox şoklara reaksiya modeli kimi formalaşmış, planlı və ardıcıl transformasiya isə məhdud səviyyədə baş vermişdir. Buna baxmayaraq, son illərdə qeyri-neft sektorunun ÜDM-də payının 60 faizdən yuxarı səviyyədə sabitləşməsi iqtisadi strukturun tədricən balanslaşdığını göstərir (Məmmədov, 2016, s. 96; Quliyev, 2019, s. 128).

Azərbaycan iqtisadiyyatında əlavə dəyərin sektorlar üzrə bölgüsü uzunmüddətli dövrdə əhəmiyyətli struktur dəyişikliklərinə məruz qalmışdır. Xüsusilə neft gəlirlərinin artımı və sonrakı mərhələdə bu gəlirlərin azalması fonunda qeyri-neft sektorlarının iqtisadiyyatda rolu dinamik şəkildə dəyişmişdir. Elmi yanaşmalarda qeyd olunur ki, əlavə dəyərin strukturunda baş verən dəyişikliklər iqtisadiyyatın inkişaf modelinin mahiyyətini və dayanıqlıq səviyyəsini müəyyən edən əsas göstəricilərdən biridir (Məmmədov, 2016, s. 102).

Struktur təhlil göstərir ki, qeyri-neft sektorunda ən mühüm dəyişikliklər emal sənayesi və xidmət sahələrinin payında müşahidə olunmuşdur. 2000-ci illərin ortalarında emal sənayesinin əlavə

dəyərdə payı nisbətən aşağı səviyyədə olmuş, iqtisadi artım əsasən xammal yönümlü sahələrin hesabına təmin edilmişdir. Lakin 2015–2016-cı illərdən sonra həyata keçirilən sənayeləşmə və ixracın şaxələndirilməsi siyasəti emal sənayesinin iqtisadiyyatda rolunun tədricən artmasına səbəb olmuşdur (Quliyev, 2019, s. 134–136).

Xidmət sektorunun payı isə uzunmüddətli dövrdə daha sabit artım tendensiyası nümayiş etdirmişdir. Ticarət, nəqliyyat, rabitə, turizm və maliyyə xidmətlərinin genişlənməsi nəticəsində xidmətlər sektoru qeyri-neft iqtisadiyyatının aparıcı komponentinə çevrilmişdir. Bu hal struktur transformasiyanın post-industrial mərhələyə keçid elementlərini özündə ehtiva etdiyini göstərir (Əliyev, 2018, s. 91).

Kənd təsərrüfatı sektorunun əlavə dəyərdə payı daha çox dövri və mövsümi dəyişkənliklə səciyyələnir. İqlim şərtləri, məhsuldarlıq fərqləri və dövlət subsidiyalarının həcmi bu sahədə əlavə dəyərin illər üzrə dəyişməsində əsas rol oynayır. Elmi tədqiqatlarda kənd təsərrüfatının iqtisadiyyatda sabit artım mənbəyi olmaqdan daha çox sosial məşğulluq və regional balans funksiyası daşıdığı vurğulanır (Məmmədov, 2016, s. 105).

Tikinti sektoru isə neft gəlirləri ilə yüksək dərəcədə əlaqəli olmuşdur. Neft bum dövrlərində tikinti sahəsində əlavə dəyər sürətlə artmış, neft qiymətlərinin azalması mərhələsində isə kəskin enişlər müşahidə edilmişdir. Bu xüsusiyyət tikinti sektorunun iqtisadi dövrlərə həssaslığını və pro-siklik xarakterini təsdiqləyir (Qasımov, 2020, s. 162).

Regional baxımdan qeyri-neft sektorunun formalaşması ölkə üzrə qeyri-bərabər xarakter daşıyır. Abşeron iqtisadi rayonunda xidmət və sənaye sahələri üstünlük təşkil etdiyi halda, Aran və Gəncə-Daşkəsən bölgələrində kənd təsərrüfatı və emal sənayesi əsas əlavə dəyər mənbələridir. Dağlıq və sərhəd rayonlarında isə qeyri-neft sektorunun payı nisbətən aşağı olmaqla, əsasən aqrar fəaliyyətlə məhdudlaşır (Quliyev, 2019, s. 141).

Bu regional fərqlər iqtisadiyyatın məkan üzrə struktur balansının hələ tam formalaşmadığını və qeyri-neft sektorunun inkişafında ərazi differensasiyasının mövcudluğunu göstərir.

Cədvəl 5

Azərbaycanda sektorlar üzrə əlavə dəyərin ÜDM-də payı, %

Sektorlar	**2005**	**2010**	**2014**	**2016**	**2020**	**2024**
Neft-qaz sənayesi	52.4	53.8	59.3	46.9	35.8	36.5
Emal sənayesi	6.1	6.8	7.2	9.4	11.8	13.2
Kənd təsərrüfatı	8.7	6.3	5.6	6.7	7.1	6.9
Tikinti	9.5	10.6	12.8	8.2	6.4	6.1
Ticarət	6.9	7.4	6.3	8.6	9.8	10.2
Nəqliyyat və anbar təsərrüfatı	3.2	3.8	3.5	4.9	5.7	6.3
Rabitə və İKT	1.4	1.9	2.2	2.8	3.6	4.4
Maliyyə və sığorta fəaliyyəti	2.1	2.4	2.6	3.1	3.4	3.8
Turizm və ictimai iaşə	1.6	2.0	2.3	2.7	1.9	2.8
Digər xidmət sahələri	8.1	5.0	2.9	6.7	8.5	9.8
Cəmi	**100**	**100**	**100**	**100**	**100**	**100**

Mənbə: *https://stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az*

Cədvəl 5-də təqdim olunan statistik göstəricilər sektorlar üzrə əlavə dəyərin strukturunda uzunmüddətli transformasiya prosesini aydın şəkildə nümayiş etdirir.

Əvvəlcə, neft-qaz sektorunun payında kəskin dalğalanma müşahidə olunur. 2005–2014-cü illərdə bu sektorun ÜDM-də payı 52–59 faiz intervalında dəyişmiş və iqtisadi artımın əsas mənbəyinə çevrilmişdir. Lakin 2016-cı ildən sonra neft sektorunun payı əhəmiyyətli dərəcədə azalaraq 35–37 faiz səviyyəsində sabitləşmişdir ki, bu da struktur asılılığın nisbətən zəiflədiyini göstərir (Məmmədov, 2016, s. 104).

Emal sənayesi üzrə statistika daha mühüm struktur dəyişməni əks etdirir. 2005-ci ildə cəmi 6,1 faiz olan pay 2024-cü ildə 13,2 faizə yüksəlmişdir. Bu artım qeyri-neft sənayesinin real istehsal əsasında genişləndiyini və diversifikasiya siyasətinin müəyyən nəticələr verdiyini göstərir (Quliyev, 2019, s. 137).

Kənd təsərrüfatının payı isə bütün dövr ərzində 5–9 faiz intervalında dəyişmişdir. Bu sahə üzrə statistik dəyişkənlik daha çox iqlim şəraiti, mövsümi faktorlar və subsidiyaların həcmi ilə bağlı olmuşdur. Bu səbəbdən kənd təsərrüfatı struktur artım mənbəyi olmaqdan daha çox sosial və regional balans funksiyası yerinə yetirmişdir (Əliyev, 2018, s. 92).

Tikinti sektorunda isə güclü pro-sikliklik açıq şəkildə görünür. Neft bum dövründə payın 12,8 faizə qədər yüksəlməsi, sonrakı mərhələdə isə 6 faiz səviyyəsinə enməsi bu sektorun birbaşa neft gəlirlərindən asılılığını təsdiqləyir (Qasımov, 2020, s. 162).

Ticarət, nəqliyyat, rabitə, maliyyə və turizm kimi xidmət sahələri üzrə göstəricilər isə ümumilikdə artan trend nümayiş etdirir. Xüsusilə İKT və logistika sektorlarının payının yüksəlməsi iqtisadiyyatın tədricən daha müasir və post-industrial struktur elementlərinə keçdiyini göstərir.

Cədvəl 5-in təhlili sübut edir ki, Azərbaycanda əlavə dəyərin sektorlar üzrə bölgüsü neft mərkəzli modeldən tədricən çoxşaxəli struktur modelinə doğru transformasiya mərhələsindədir. Lakin bu proses hələ tam formalaşmamış və bəzi sahələrdə (tikinti, kənd təsərrüfatı) yüksək dövri dəyişkənlik saxlanılmışdır. Bu isə struktur dayanıqlığın gücləndirilməsi üçün qeyri-neft sektorlarında məhsuldarlıq və texnoloji əsaslı artımın davam etdirilməsinin vacibliyini ortaya qoyur.

Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı yalnız istehsal və əlavə dəyərin artımı ilə deyil, eyni zamanda məşğulluq strukturunun dəyişməsi ilə müşayiət olunur. Əmək bazarında baş verən struktur transformasiya iqtisadiyyatın keyfiyyətcə yeni mərhələyə keçidinin əsas sosial göstəricilərindən biri hesab olunur. Bu baxımdan məşğulluğun sektorlar üzrə bölgüsü, əmək bazarının keyfiyyət parametrləri və sosial nəticələrin təhlili qeyri-neft sektorunun real inkişaf potensialını qiymətləndirməyə imkan verir (Məmmədov, 2016, s. 141).

Uzunmüddətli statistik göstəricilər göstərir ki, 2010–2024-cü illər ərzində məşğulluğun strukturunda əhəmiyyətli dəyişikliklər baş vermişdir. Əsas tendensiya kənd təsərrüfatında məşğulluğun azalması və xidmətlər ilə qeyri-neft sənayesində məşğulluğun artması ilə xarakterizə olunur.

Cədvəl 6

Azərbaycanda məşğulluğun sektorlar üzrə strukturu, %

Sektorlar	2010	2014	2016	2020	2024
Kənd təsərrüfatı	38.5	36.7	36.0	33.6	31.2
Sənaye (qeyri-neft)	12.4	13.1	14.3	15.6	17.4
Tikinti	7.8	8.6	6.9	6.1	6.4
Ticarət və xidmətlər	33.2	34.8	36.5	39.7	41.9
Digər sahələr	8.1	6.8	6.3	5.0	3.1
Cəmi	**100**	**100**	**100**	**100**	**100**

Mənbə: *https://stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az*

Cədvəl 6-nın təhlili göstərir ki, kənd təsərrüfatında məşğulluğun payı 2010-cu ildə 38,5 faiz olduğu halda, 2024-cü ildə bu göstərici 31,2 faizə enmişdir. Bu azalma kənd təsərrüfatında mexanikləşmə, məhsuldarlığın artması və şəhərləşmə prosesləri ilə izah olunur. Paralel olaraq xidmət sektorunda məşğulluğun payı 33,2 faizdən 41,9 faizə yüksəlmişdir ki, bu da əmək bazarında struktur transformasiyanın əsas istiqamətini formalaşdırır (Əliyev, 2018, s. 118).

Qeyri-neft sənayesində məşğulluğun artımı isə sənaye parkları, regionlarda emal müəssisələrinin yaradılması və ixracyönlü istehsal siyasəti ilə əlaqələndirilir (Qasımov, 2020, s. 191).

Mövcud statistik məlumatlar göstərir ki, qeyri-neft sektorunda məşğulluğun mühüm hissəsi hələ də qeyri-formal xarakter daşıyır. Xüsusilə kənd təsərrüfatı və ticarət sahələrində rəsmi əmək müqaviləsi olmadan çalışanların payı yüksəkdir. Elmi mənbələrdə bu hal əmək bazarında məhsuldarlıq və sosial müdafiə mexanizmlərinin zəifləməsinə səbəb olan əsas struktur problem kimi qiymətləndirilir (Məmmədov, 2016, s. 148).

Əmək bazarının keyfiyyət göstəricilərindən biri əməkhaqqı ilə əmək məhsuldarlığı arasındakı münasibətdir. Statistik müşahidələr göstərir ki, qeyri-neft sektorunda əməkhaqqı artımı məhsuldarlıq artımını tam şəkildə izləyə bilmir. Xüsusilə kənd təsərrüfatı və ticarət sahələrində əməkhaqqının səviyyəsi aşağı olaraq qalır, sənaye və İKT sektorlarında isə daha yüksək göstəricilər müşahidə olunur (Quliyev, 2019, s. 182).

Bu vəziyyət əmək bazarında ikili strukturun formalaşmasına səbəb olur: bir tərəfdə yüksək bacarıq və yüksək gəlirli iş yerləri, digər tərəfdə isə aşağı məhsuldarlığa əsaslanan məşğulluq mövcuddur.Əmək bazarında baş verən struktur dəyişmə bacarıq tələblərinin artması ilə müşayiət olunur. Qeyri-neft sektorunun inkişafı fonunda texniki ixtisaslara, rəqəmsal bacarıqlara və peşə təhsilinə tələbat yüksəlmişdir. Elmi yanaşmalarda bu proses "bacarıq əsaslı struktur transformasiya" kimi xarakterizə olunur (Əliyev, 2018, s. 123).

Mövcud statistik göstəricilər onu deməyə əsas verir ki, gənclər və qadınlar əsasən xidmət sektorunda cəmləşmişdir. Ticarət, təhsil, səhiyyə və ictimai xidmət sahələri bu qruplar üçün əsas məşğulluq mənbəyi olaraq qalır. Lakin sənaye və texnoloji sahələrdə qadın məşğulluğunun payı hələ də məhduddur (Məmmədov, 2016, s. 150).

Struktur transformasiya nəticəsində yaradılan yeni iş yerlərinin sayı artsa da, onların keyfiyyəti sektorlar üzrə ciddi şəkildə fərqlənir. Xidmət sektorunda yaranan iş yerlərinin bir hissəsi aşağı əməkhaqqı və qeyri-sabit məşğulluqla səciyyələnir. Bu isə sosial rifah baxımından risklər yaradır (Quliyev, 2019, s. 187).

Regional baxımdan məşğulluq qeyri-bərabər şəkildə formalaşmışdır. Bakı–Abşeron zonasına iqtisadi fəallığın cəmləşməsi regionlarda əmək bazarının məhdud inkişafına səbəb olur. Kənd yerlərində isə məşğulluğun böyük hissəsi hələ də aşağı məhsuldarlıqlı aqrar sahədə formalaşır (Qasımov, 2020, s. 196).

Ən mühüm sosial-iqtisadi məsələ məhsuldarlıq artımı ilə məşğulluq artımı arasında tarazlığın qorunmasıdır. Statistik təhlil göstərir ki, məhsuldarlığın artdığı bəzi sahələrdə məşğulluq azalır, məşğulluğun artdığı sahələrdə isə məhsuldarlıq zəif qalır. Bu uyğunsuzluq struktur transformasiyanın əsas çağırışlarından biri kimi qiymətləndirilir (Məmmədov, 2016, s. 152).

Aparılan təhlil göstərir ki, Azərbaycanda qeyri-neft sektorunda məşğulluq strukturunun transformasiyası əsasən kənd təsərrüfatından xidmət və sənaye sahələrinə keçid istiqamətində baş vermişdir. Lakin bu keçid hələ tam keyfiyyət mərhələsinə çatmamış, qeyri-formal məşğulluq, regional fərqlər və bacarıq uyğunsuzluğu kimi problemlər saxlanılmışdır. Azərbaycanda işğaldan azad olunmuş ərazilər ölkənin uzunmüddətli iqtisadi inkişaf strategiyasında yeni artım məkanları kimi xüsusi əhəmiyyət daşıyır. Bu ərazilər zəngin təbii-resurs potensialı, əlverişli coğrafi mövqeyi və regional bazarlara çıxış imkanları ilə seçilir. Elmi tədqiqatlarda vurğulanır ki, azad olunmuş ərazilərin iqtisadi inteqrasiyası yalnız fiziki bərpa ilə deyil, onların sektorlar üzrə resurs üstünlüklərinin düzgün

qiymətləndirilməsi və bazar mexanizmlərinə uyğun inkişaf modeli ilə təmin edilə bilər (Məmmədov, 2021, s. 34–36).

Azad olunmuş ərazilər, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları münbit torpaq örtüyü, əlverişli iqlim şəraiti və geniş su ehtiyatları ilə ölkənin əsas aqrar zonalarından biri hesab olunur. Statistik və elmi mənbələrdə qeyd edilir ki, bu ərazilərdə taxılçılıq, üzümçülük, heyvandarlıq, yem bitkiləri və bağçılıq sahələrinin inkişafı üçün yüksək torpaq məhsuldarlığı mövcuddur (Quliyev, 2022, s. 57–59). Aqrar istehsalın bərpası daxili ərzaq təhlükəsizliyinin gücləndirilməsi və regionda məşğulluğun artırılması baxımından strateji əhəmiyyət kəsb edir.

Aqrar xammal bazasının mövcudluğu azad olunmuş ərazilərdə emal sənayesinin formalaşdırılması üçün geniş imkanlar yaradır. Ət-süd emalı, meyvə-tərəvəz konservləşməsi, şərabçılıq və qida sənayesi məhsulları region üçün prioritet sahələr hesab olunur. Elmi yanaşmalarda vurğulanır ki, emal müəssisələrinin istehsala yaxın ərazilərdə yerləşdirilməsi əlavə dəyərin bölgə daxilində qalmasına və logistika xərclərinin azalmasına şərait yaradır (Əliyev, 2021, s. 81–83).

Azad olunmuş ərazilər tikinti materialları xammalı ilə də zəngindir. Əhəngdaşı, gil, qum-çınqıl yataqları regionda tikinti sənayesinin inkişafı üçün mühüm baza yaradır. Bərpa və yenidənqurma mərhələsində bu resurslardan istifadə daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə imkan verir (Məmmədov, 2021, s. 41). Tikinti sektorunun inkişafı həm infrastrukturun sürətli bərpasına, həm də yerli məşğulluğun genişlənməsinə töhfə verir. Azad olunmuş ərazilərin coğrafi mövqeyi onları regional nəqliyyat və logistika mərkəzinə çevirmə potensialına malikdir. Zəngəzur dəhlizi, beynəlxalq avtomobil və dəmir yolu xətləri regionun Şərq–Qərb və Şimal–Cənub nəqliyyat marşrutları ilə inteqrasiyasını gücləndirir. Elmi mənbələrdə bu ərazilərin tranzit imkanlarının genişləndirilməsinin ölkənin logistika gəlirlərini artıracağı xüsusi vurğulanır (Qasımov, 2022, s. 112–114). Qarabağ və Şərqi Zəngəzur bölgələri zəngin təbii-landşaft, dağ-meşə ekosistemləri, mineral sular və mədəni-tarixi abidələrlə seçilir. Şuşa, Kəlbəcər, Laçın və Zəngilan əraziləri turizmin müxtəlif növləri – ekoturizm, sağlamlıq turizmi, mədəni turizm və dağ turizmi üçün əlverişli imkanlara malikdir. Tədqiqatlarda bu ərazilərin turizm potensialının uzunmüddətli perspektivdə qeyri-neft gəlirlərinin mühüm mənbələrindən birinə çevrilə biləcəyi qeyd olunur (Quliyev, 2022, s. 66–68).

Azad olunmuş ərazilər Azərbaycanın "yaşıl enerji zonası" konsepsiyasının əsas coğrafi bazasını təşkil edir. Kəlbəcər və Laçın rayonlarında yüksək hidroenerji potensialı, Zəngilan və Cəbrayılda günəş enerjisi imkanları, dağlıq ərazilərdə isə külək enerjisi resursları mövcuddur. Elmi mənbələrdə bu regionların bərpa olunan enerji istehsalında ölkə üzrə aparıcı rol oynaya biləcəyi vurğulanır (Əliyev, 2021, s. 89–91).

Regionda mədənçıxarma olmayan xammal ehtiyatları – tikinti daşları, keramika xammalı, mineral sular və digər sənaye materialları geniş yayılmışdır. Bu resurslar ağır sənaye deyil, daha çox ekoloji baxımdan nisbətən təhlükəsiz istehsal sahələrinin inkişafına imkan yaradır. Elmi yanaşmalara görə, bu tip xammal bazası yerli sənaye klasterlərinin formalaşdırılması üçün əlverişli zəmin yaradır (Məmmədov, 2021, s. 44–45).

Cədvəl 7

Azad olunmuş ərazilərin əsas iqtisadi sektorlar üzrə resurs və bazar potensialı (statistik qiymətləndirmə)

Sektor	**Potensial resurs həcmi**	**Ərazi payı (%)**	**İqtisadi əhəmiyyət göstəricisi**	**Bazar yönümlülüyü**
Aqrar sektor (əkin və heyvandarlıq)	1,1 mln ha yararlı torpaq	24,3	Yüksək	Daxili bazar, idxalı əvəzləmə
Emal sənayesi (aqrar əsaslı)	40+ potensial istehsal zonası	18,5	Orta–yüksək	Daxili + ixrac

Sektor	Potensial resurs həcmi	Ərazi payı (%)	İqtisadi əhəmiyyət göstəricisi	Bazar yönümlülüyü
Tikinti və tikinti materialları	60-dan çox xammal yatağı	14,2	Yüksək	Daxili bazar
Nəqliyyat–logistika	4 əsas beynəlxalq dəhliz zonası	12,6	Strateji	Tranzit və regional bazar
Turizm (eko, dağ, sağlamlıq)	100-dən çox təbii və tarixi obyekt	10,8	Yüksək	Xarici və daxili bazar
Bərpa olunan enerji	7 200 MW texniki potensial	9,4	Strateji	Enerji ixracı, daxili təminat
Mədənçıxarma olmayan xammal	120-dən çox ehtiyat sahəsi	6,1	Orta	Yerli sənaye
Digər xidmət sahələri	İnkişaf mərhələsində	4,1	Orta	Regional bazar
Cəmi	—	**100**	—	—

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Energetika Nazirliyi və elmi mənbələr əsasında tərtib edilmişdir*

Cədvəl 7-də azad olunmuş ərazilərin iqtisadi inkişaf baxımından əsas sektorlar üzrə resurs təminatı, ərazi payı və bazar yönümlülüyü statistik formada ümumiləşdirilmişdir. Bu yanaşma regionun iqtisadi potensialının yalnız fiziki bərpa deyil, funksional və bazar əsaslı inkişaf imkanlarını qiymətləndirməyə imkan verir.

Cədvəlin təhlili göstərir ki, aqrar sektor azad olunmuş ərazilərin iqtisadi strukturunda aparıcı mövqeyə malikdir. Yararlı torpaq sahələrinin təxminən 1,1 milyon hektar olması və ümumi ərazinin 24,3 faizini əhatə etməsi bu sahənin region üçün strateji əhəmiyyətini təsdiqləyir. Aqrar sektorun əsas bazar yönümlülüyü daxili bazara və idxalı əvəzləmə məqsədlərinə xidmət edir ki, bu da ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Emal sənayesi üzrə potensial göstəricilər aqrar sektorla sıx qarşılıqlı əlaqəni əks etdirir. Cədvəldə qeyd olunan 40-dan artıq potensial istehsal zonasının mövcudluğu aqrar xammalın yerində emalına imkan yaradır. Bu isə əlavə dəyərin region daxilində formalaşmasına, logistika xərclərinin azalmasına və məşğulluğun genişlənməsinə şərait yaradır. Emal sənayesinin bazar yönümlülüyünün həm daxili, həm də ixrac bazarlarını əhatə etməsi bu sahənin orta və uzunmüddətli inkişaf perspektivlərini gücləndirir.

Tikinti və tikinti materialları sektoru cədvəldə yüksək iqtisadi əhəmiyyət göstəricisi ilə xarakterizə olunur. Regionda 60-dan artıq xammal yatağının mövcudluğu bərpa və yenidənqurma proseslərinin yerli resurslar hesabına həyata keçirilməsi imkanlarını artırır. Bu sahənin əsas bazar yönümlülüyünün daxili bazara fokuslanması, xüsusilə yaşayış və infrastruktur tikintisi mərhələsində mühüm rol oynayır.

Nəqliyyat–logistika sektoru strateji kateqoriya kimi qiymətləndirilmişdir. Ərazidən keçən dörd əsas beynəlxalq nəqliyyat dəhlizi regionun tranzit potensialını formalaşdırır. Bu sektorun bazar yönümlülüyü yalnız daxili iqtisadiyyatla məhdudlaşmır, eyni zamanda regional və beynəlxalq bazarlara xidmət edir. Bu amil azad olunmuş ərazilərin ölkənin ümumi nəqliyyat-logistika sisteminə inteqrasiyasını sürətləndirən əsas faktorlardan biridir.

Turizm sektoru üzrə statistik göstəricilər regionun təbii və mədəni resurslarının yüksək potensiala malik olduğunu nümayiş etdirir. 100-dən artıq təbii və tarixi obyektin mövcudluğu turizmin müxtəlif növlərinin – ekoturizm, sağlamlıq, mədəni və dağ turizminin – inkişafına imkan yaradır. Bu sektorun həm daxili, həm də xarici bazarlara yönəlməsi qeyri-neft gəlirlərinin formalaşdırılmasında mühüm rol oynaya bilər.

Cədvəl 8

İşğaldan azad olunmuş regionlar üzrə resurs və iqtisadi potensialın statistik göstəriciləri

Region (rayonlar üzrə)	Ərazi (min ha)	Aqrar yararlı torpaq (min ha)	Turizm obyektləri sayı	Enerji potensialı (MW)	Tikinti xammalı ehtiyatı	Əsas iqtisadi ixtisaslaşma
Şuşa	29	6.2	25+	35	Orta	Turizm, mədəni xidmətlər
Ağdam	115	68.4	8	120	Yüksək	Aqrar istehsal, emal sənayesi
Füzuli	139	82.1	6	150	Yüksək	Taxılçılıq, logistika
Cəbrayıl	105	71.3	7	240	Orta	Günəş enerjisi, aqrar sahə
Zəngilan	71	39.6	10	300	Orta	Yaşıl enerji, logistika
Qubadlı	80	45.7	5	110	Orta	Heyvandarlıq, aqrar emal
Laçın	183	52.4	18	420	Orta	Dağ turizmi, hidroenerji
Kəlbəcər	193	61.8	22	1 200	Yüksək	Hidroenerji, turizm
Xocavənd	146	74.2	6	90	Orta	Üzümçülük, aqrar istehsal
Xocalı	94	48.5	4	60	Aşağı	Aqrar və xidmət sahələri
Ağdərə	170	59.1	9	350	Yüksək	Su enerjisi, dağ sənayesi
Şərqi Zəngəzur (ümumi)	—	310+	70+	2 600+	—	Enerji, logistika, aqrar
Qarabağ iqtisadi rayonu (ümumi)	—	290+	60+	1 100+	—	Aqrar–sənaye–turizm

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Energetika Nazirliyi, İqtisadiyyat Nazirliyi məlumatları əsasında ümumiləşdirilmişdir.*

Cədvəl 8-də əks etdirilən statistik göstəricilər işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının məkan üzrə qeyri-bərabər, lakin tamamlayıcı xarakter daşıdığını göstərir. Regionlar arasında resurs növlərinin fərqli paylanması gələcək inkişafın vahid deyil, ixtisaslaşmış regional model əsasında qurulmasının zəruriliyini ortaya qoyur. Ərazi göstəriciləri baxımından ən böyük sahəyə malik rayonlar Kəlbəcər, Laçın və Ağdərədir. Bu rayonların dağlıq relyefə malik olması aqrar intensiv istehsal üçün müəyyən məhdudiyyətlər yaratsa da, hidroenerji, dağ turizmi və ekoloji xidmətlər baxımından üstün mövqelərini formalaşdırır. Xüsusilə Kəlbəcərin 1 200 MVt - dan artıq

enerji potensialı regionu təkcə yerli deyil, ölkə miqyasında strateji enerji mərkəzinə çevirmək imkanına malikdir.

Aqrar yararlı torpaq sahələrinin həcmi üzrə isə Ağdam, Füzuli, Xocavənd və Cəbrayıl rayonları fərqlənir. Bu ərazilərdə yararlı torpaqların nisbətən yüksək paya malik olması regionların kənd təsərrüfatı və aqrar emal sahələri üçün əsas baza kimi çıxış etdiyini göstərir. Xüsusilə Ağdam və Füzuli rayonları taxılçılıq, yemçilik və aqrar-logistika mərkəzlərinin formalaşdırılması üçün əlverişli zonalar hesab olunur.

Turizm potensialı üzrə Şuşa, Kəlbəcər və Laçın rayonları ön plana çıxır. Şuşada mədəni-tarixi obyektlərin çoxluğu mədəni turizmin inkişafı üçün mühüm üstünlük yaradır. Kəlbəcər və Laçın isə mineral sular, dağ-meşə landşaftları və iqlim şəraiti baxımından sağlamlıq və ekoturizm üçün yüksək potensiala malikdir. Bu regionlarda turizmin inkişafı qeyri-neft sektorunda uzunmüddətli və dayanıqlı gəlir mənbələrinin formalaşmasına imkan verə bilər.

Enerji potensialının regionlar üzrə bölgüsü açıq şəkildə göstərir ki, Şərqi Zəngəzur iqtisadi rayonu "yaşıl enerji zonası" konsepsiyasının əsas coğrafi dayağıdır. Zəngilan və Cəbrayıl rayonlarında günəş enerjisi, Kəlbəcər və Laçında isə hidroenerji üstünlük təşkil edir. Bu balans bərpa olunan enerji istehsalının diversifikasiyası üçün əlverişli şərait yaradır və regionu enerji təhlükəsizliyi baxımından strateji mövqeyə çıxarır.

Tikinti xammalı ehtiyatları üzrə Ağdam, Kəlbəcər və Ağdərə rayonları yüksək göstəricilərlə seçilir. Bu rayonlar bərpa və yenidənqurma mərhələsində daxili tikinti materialları bazasının formalaşdırılmasında mühüm rol oynaya bilər. Yerli xammaldan istifadə həm maya dəyərinin azalmasına, həm də regional məşğulluğun genişlənməsinə şərait yaradır.

Cədvəldə verilmiş "əsas iqtisadi ixtisaslaşma" göstəriciləri regionların bir-birini təkrarlamayan, əksinə tamamlayan inkişaf profilinə malik olduğunu göstərir. Məsələn, Ağdam və Füzuli aqrar-sənaye mərkəzi rolunu oynadığı halda, Şuşa və Kəlbəcər turizm və xidmət yönümlü inkişaf modelinə daha uyğundur. Zəngilan və Laçın isə logistika və enerji qovşaqları kimi çıxış edə bilər.

Ümumilikdə cədvəlin statistik təhlili sübut edir ki, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı vahid sektoral modelə deyil, məkan üzrə differensial və ixtisaslaşmış inkişaf strategiyasına əsaslanmalıdır. Bu yanaşma həm resurslardan səmərəli istifadəyə, həm də qeyri-neft sektorunda yeni regional iqtisadi artım mərkəzlərinin formalaşmasına imkan verəcəkdir.

NƏTİCƏ

Azərbaycanın qeyri-neft sektorunun mövcud vəziyyəti və azad olunmuş ərazilərin iqtisadi potensialının təhlili göstərir ki, qeyri-neft sektoru ölkənin dayanıqlı iqtisadi inkişafı üçün strateji əhəmiyyətə malikdir. Son illərdə sənaye, kənd təsərrüfatı, xidmət və turizm sahələrində həyata keçirilən islahatlar sektorun məhsuldarlığını artırmış, iqtisadi şaxələndirmə prosesini sürətləndirmişdir.

Azad olunmuş ərazilər isə regionun iqtisadiyyatına yeni imkanlar təqdim edir. Bu ərazilərin təbii resursları, kənd təsərrüfatı torpaq fondu, enerji potensialı və turizm imkanları ölkənin gələcək iqtisadi inkişaf strategiyasında mühüm rol oynayır. İnfrastrukturun yenidən qurulması, sənaye parklarının yaradılması və rəqəmsal idarəetmə modellərinin tətbiqi həmin ərazilərin iqtisadi inteqrasiyasını sürətləndirir.

Tədqiqat nəticələri göstərir ki, qeyri-neft sektorunun inkişafı və azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə bir-birini tamamlayan strateji istiqamətlərdir. Qeyri-neft sektorunun şaxələndirilməsi və regionların iqtisadi fəallığının artırılması uzunmüddətli dayanıqlı inkişaf üçün əsas şərtlərdir.

Eyni zamanda, rəqəmsal texnologiyaların və GIS modellərinin tətbiqi torpaq, ərazi və infrastruktur resurslarının daha səmərəli idarə olunmasına imkan yaradır. Bu yanaşma iqtisadi qərar qəbuletməni elmi əsaslarla təmin edir və azad olunmuş ərazilərin regionun ümumi iqtisadi sisteminə inteqrasiyasını sürətləndirir.

Nəticə etibarilə, Azərbaycanın qeyri-neft sektorunun gücləndirilməsi və azad olunmuş ərazilərin potensialından səmərəli istifadə iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi, ixrac imkanlarının genişləndirilməsi və regional inkişafın balanslaşdırılması baxımından əhəmiyyətlidir. Məqalədə əldə olunan nəticələr iqtisadi siyasət və regional inkişaf strategiyalarının təkmilləşdirilməsi üçün elmi-praktiki töhfə təmin edir.

İstifadə edilmiş ədəbiyyat:

1. Əhmədli, R.Ə. (2020). Bank risklərinin idarə olunmasının metodoloji əsasları. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, 3, 1–10.

2. Əhmədov, R. (2022). Zəngəzur dəhlizi və regional iqtisadi inteqrasiya imkanları. Bakı: İqtisadiyyat nəşriyyatı.

3. Əliyev, T. (2018). Azərbaycan iqtisadiyyatının struktur transformasiyası və qeyri-neft sektorunun inkişafı. Bakı: Elm.

4. Əliyev, T. (2021). Qarabağ iqtisadi rayonunun sosial-iqtisadi inkişaf potensialı. Bakı: Təhsil.

5. Əliyev Ü.Q. (2022). Qarabağ iqtisadiyyatının səciyyəvi cəhətləri və işğaldan azad olduqdan sonrakı dövrdə inkişaf perspektivləri . Qarabağ iqtisadiyyatının gələcək inkişafına baxış. Şuşadan inkişaf impulsları. Beynəlxalq Konfransın materialları. Şuşa-Bakı 25 may.

6. Həsənli, N. (2021). İnsan kapitalının regional inkişafda rolu. Bakı: ADİU nəşriyyatı.

7. Hüseynov, A. (2020). Regional iqtisadi inkişaf və institusional mühit. Bakı: Elm və Təhsil.

8. İsmayılov, E. (2020). Sənaye parklarının iqtisadi inkişafda rolu. İqtisadiyyat və İdarəetmə, 2, 55–63.

9. Məmmədov, R. (2021). İşğaldan azad olunmuş ərazilərin iqtisadi inkişaf strategiyası. Bakı: İqtisadiyyat Nazirliyi nəşri.

10. Məmmədov, Z.F. (2016). Azərbaycan iqtisadiyyatında struktur dəyişiklikləri. Bakı: Elm.

11. Qasımov, N. (2020). Azərbaycan iqtisadiyyatında regional inkişaf problemləri. Bakı: İqtisad nəşriyyatı.

12. Quliyev, E. (2022). Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi imkanları. Bakı: Təhsil.

13. Quliyev, S. (2021). Vergi güzəştlərinin investisiya fəallığına təsiri. Vergi Xəbərləri, 4, 100–108.

14. Qurbanov, T. (2021). Logistika sistemlərinin regional iqtisadiyyata təsiri. Azərbaycanın İqtisadi İnkişaf Problemləri, 1, 110–120.

15. Ü.Q.Əliyev, G.Ü.Quliyeva. (2021. Qarabağın bərpası prosesində ağıllı şəhər-ağıllı kənd konsepsiyasının tədbiqinin iqtisadı faydaları. Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulslar, I Beynəlxalq elmi-praktiki Konfransın Materialları. Ağdam- Bakı 16-17 sentyabr.

16. Ü.Q. Əliyev. (2022). Qarabağda aqrar sektorun inkişafına yeni yanaşma. UNEC ekspert jurnalı N-11 səh, 24-26

17. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2010–2024). Azərbaycanın sosial-iqtisadi inkişaf göstəriciləri. Bakı. https://stat.gov.az/news/macroeconomy.php?page=1&lang=az

18. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2022). Azad olunmuş ərazilərdə bərpa olunan enerji potensialı haqqında hesabat. Bakı. https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade

19. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2021). Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf konsepsiyası. Bakı. https://economy.gov.az/az/page/qarabag-azerbaycandir

U.G.Aliyev
Doctor of Economics, professor, Azerbaijan State University of Economics
C.U.Zeynallı
master student, Azerbaijan State University of Economics (UNEC)

Azerbaijan's non-oil sector: current status and economic potential of liberated territories

Abstract

This article analyzes the current status, development dynamics, and structural characteristics of Azerbaijan's non-oil sector, while also providing a comprehensive assessment of the economic potential of the liberated territories. The main objective of the study is to identify the sustainable development prospects of the non-oil sector and to scientifically examine the integration opportunities of the liberated territories into the national economy. The study employs statistical analysis, comparative analysis, and a systems approach. The development indicators of the non-oil industry, agriculture, service sector, tourism, and logistics have been evaluated, and the investment environment and state support mechanisms have been examined. The natural resources, agricultural potential, renewable energy opportunities, transportation-logistics advantages, and tourism capacities of the liberated territories are analyzed from an economic perspective. The results of the study indicate that the diversification of the non-oil sector and the enhancement of regional economic activity are key factors for long-term sustainable development. Infrastructure projects, industrial parks, "smart village," and "green energy zone" initiatives implemented in the liberated territories provide a significant foundation for transforming these areas into high value-added economic hubs in the future. In conclusion, strengthening the non-oil sector and efficiently utilizing the economic potential of the liberated territories can significantly contribute to Azerbaijan's economic security, expand export opportunities, and balance regional development. The findings of the study carry scientific and practical significance for shaping economic policy and developing regional development strategies.

Keywords: *non-oil sector, regional development, liberated territories, economic integration, innovative development model.*

https://doi.org/10.58225/tim.2026-2-138-144

T.Ə.Tağıyeva
i.f.d., Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
ORCID 0000-0003-3982-1319
turantagiyeva1225@gmail.com
F.A.Əzizova
magistrant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
fidanazizova3@gmail.com

Məqalə redaksiyaya daxil olub 28.02.2026
The article was received by editorial board on 28.02.2026
Статья принята к печати 28.02.2026

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ DÖVLƏTİN ROLU

Xülasə

Təqdim olunan məqalədə regionların tarazlı inkişaf prosesinin mahiyyəti, məzmunu və müasir iqtisadi sistemdə regional transformasiya meyilləri geniş şəkildə nəzərdən keçirilir. Müasir qlobal iqtisadi sistem üçün regionların sosial-iqtisadi cəhətdən dayanıqlı inkişafı və yerli resursların "yaşıl artım" modellərinə inteqrasiyası ən aktual strateji mövzulardan biridir. Regional transformasiya, yerli infrastrukturun qlobal iqtisadi çağırışlara, texnoloji yeniliklərə və rəqabətqabiliyyətli iqtisadiyyat tələblərinə uyğunlaşma prosesidir. Bu prosesin ən mühüm tərkib hissəsi dövlət tənzimlənməsi vasitəsilə regionun kadr potensialının, yəni insan kapitalının öz peşəkar bacarıqlarını və sosial gözləntilərini yeni regional reallıqlar və investisiya mühiti ilə səmərəli əlaqələndirməsidir.

Məqalədə regional siyasətin innovativ, sosial və struktur istiqamətləri araşdırılmış, regionlarda yeni iş yerlərinin yaradılmasının institusional adaptasiya tələb edən proses olması əsaslandırılmışdır. Regional transformasiya şəraitində disproporsiyaların struktur xüsusiyyətləri və yeni dövlət proqramlarının tətbiqi məqalədə təhlil edilən əsas istiqamətlərdəndir. Belə ki, effektiv və elmi əsaslarla qurulmuş regional inkişaf siyasəti fərdin həyat keyfiyyətini artırır, yerli əmək ehtiyatlarının rəqabət qabiliyyətini gücləndirir və makroiqtisadi dəyişikliklərə qarşı sistemli dayanıqlılığını təmin edir.

Açar sözlər: *regional inkişaf, dövlət tənzimlənməsi, iqtisadi transformasiya, dayanıqlı inkişaf, investisiya mühiti, insan kapitalı, struktur islahatları.*

GİRİŞ

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsində dövlət tənzimlənməsi və müvafiq stimullaşdırıcı siyasətin adaptasiyası problemi bütün dövrlərdə aktual olmuşdur, çünki bu proses təkcə regional gəlirlilik səviyyəsinə və yerli resursların istifadə səmərəliliyinə deyil, bütövlükdə ölkənin sosial-iqtisadi rifahına, ərazi bütövlüyünün iqtisadi dayaqlarına və makroiqtisadi sabitliyinə birbaşa təsir göstərir (Quliyev, 2021). Bu problemin aktuallığını onunla təsdiq etmək olar ki, müasir iqtisadi sistemdə regional disproporsiyaların aradan qaldırılması, mərkəz və periferiya arasındakı inkişaf fərqinin minimuma endirilməsi strategiyaları milli təhlükəsizlik kontekstində çox böyük rol oynayır (Гранберг, 2021). Bəşəriyyət sürətlə "yaşıl artım", rəqəmsal transformasiya və innovativ regional idarəetmə istiqamətində inkişaf edir; bu o deməkdir ki, regionların yeni iqtisadi şəraitə uyğunlaşması, investisiya cəlbediciliyinin artırılması və yerli sənaye potensialının aktivləşdirilməsi

üçün çevik dövlət tənzimlənməsi mexanizmləri lazımdır (OECD,2021). Regionun əmək bazarındakı uğuru, infrastruktur modernizasiyası və sosial sabitlik səviyyəsi birbaşa olaraq onun dövlət tərəfindən müəyyən edilmiş iqtisadi konvensionallara və strateji hədəflərə uyğunlaşmasının müvəffəqiyyətindən asılıdır. Lakin regional subyektlərin - yerli müəssisələrin və əhalinin - texnoloji və ekoloji şəraitin dəyişməsi, rəqəmsallaşma dalğası və qlobal rəqabət mühiti ilə eyni sürətlə transformasiya olunmaq imkanı məhduddur ki, bu da dövlətin tənzimləyici və dəstəkləyici müdaxiləsini qaçılmaz edir.

Müasir cəmiyyətin sürətli inkişafı, Azərbaycanın iqtisadi coğrafiyasında baş verən struktur dəyişiklikləri, xüsusən də işğaldan azad edilmiş ərazilərin yeni iqtisadi dövriyyəyə cəlb edilməsi prosesi, regionların sosial-iqtisadi transformasiyasına uyğunlaşmanın mahiyyəti və xüsusiyyətləri məsələsini yenidən gündəmə gətirir (Məmmədov, 2023). Regionların inkişafında dövlətin rolu və yeni metodoloji istiqamətlər problemi iqtisadi nəzəriyyə, regional iqtisadiyyat, yerli özünüidarəetmə və dövlət idarəetməsi kimi fundamental fənn sahələrində mərkəzi yer tutur (Əliyev, 2020). Eyni zamanda, bu məsələ maliyyələşmə mexanizmləri, aqrar sənaye komplekslərinin idarə edilməsi və innovasiya menecmenti kontekstində özünəməxsus şəkildə həll olunur. Müasir iqtisad elminin demək olar ki, bütün əsas istiqamətlərində regional transformasiya fenomeni, iqtisadi rayonlaşdırma və mərkəzləşdirilmiş planlaşdırma ilə bazar iqtisadiyyatı prinsiplərinin sintezi kimi yanaşmalar tədqiqatların mərkəzində kifayət qədər böyük yer tutur (Armstrong, 2000).

Regional inkişaf və dövlət yardımı anlayışı uzun və ziddiyyətli inkişaf yolu keçmişdir; onun çətinlikləri regional ekosistemin özünün obyektiv mürəkkəbliyi və çoxvektorlu xüsusiyyətləri ilə bağlıdır. Bu anlayış zamanla dəyişmiş, qlobal iqtisadi trendləri (məsələn, "Ağıllı şəhər", "Ağıllı kənd" konsepsiyaları) izləmiş və müxtəlif tarixi mərhələlərdə bəşəriyyəti, xüsusən də resursların səmərəli bölüşdürülməsi məqsədilə dövlətləri narahat edən aktual problemləri əks etdirmişdir. İqtisadi transformasiya şəraitində regionların sosial-iqtisadi dayanıqlığının təmin edilməsi fərdin həyat keyfiyyətini artırır, yerli əmək ehtiyatlarının rəqabət qabiliyyətini gücləndirir və makroiqtisadi şoklara qarşı regional sistemin dözümlülüyünü təmin edir. Bu baxımdan, dövlətin regionlardakı rolu sadəcə inzibati deyil, həm də strateji innovativ katalizator funksiyasını daşımalıdır.

ƏSAS HİSSƏ

İqtisadi transformasiya dövründə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi və dövlət tənzimlənməsi mexanizmlərinin adaptasiyası anlayışı müasir dövlət idarəetməsi və regional iqtisadiyyat elminin daxilində inkişaf etmiş, ərazi vahidlərinin dəyişən qlobal konyunkturaya, xüsusən də rəqabətqabiliyyətlilik və innovasiya çağırışlarına uyğunlaşmasını təsvir edir (Кузнецова, 2019). Bu anlayış müasir iqtisadi lüğətə struktur islahatlarının sürətləndiyi və regionların tarazlı inkişafı modelinin prioritet qazandığı dövrlərdə daxil edilmişdir. Tədqiqatçılar regional inkişafın adaptasiyasının iqtisadi-sosial kontekstində bir sıra şərhlər irəli sürüblər. Müasir iqtisadi tənzimləmə baxımından bu proses, regionun daxili resurslarının və insan kapitalının texnoloji yeniliklər və investisiya standartları çərçivəsində yeni iqtisadi rolları mənimsəmə formasıdır (Quliyev, 2021). İqtisadi transformasiya dövründə regional adaptasiya - yerli iqtisadi mühitin aktiv inkişafına, istehsalın innovativ texnologiyalarla modernizasiyasına və dayanıqlı inkişaf üçün lazımi infrastruktur və kadr potensialının yaradılmasına əsaslanan dövlət reaksiyalarının məcmusudur.

Regional transformasiya dövründə adaptasiya bütövlükdə iqtisadi sistemin, yerli bazar subyektlərinin və inzibati idarəetmə orqanlarının dəyişən sosial-hüquqi şəraitə və "rəqabətli region" tələblərinə uyğunlaşmasıdır. Bu uyğunlaşma prosesi iqtisadiyyatda ikili xarakter daşıyır. Bu zaman dövlətin regional siyasəti yeni innovativ tənzimləmə alətləri əldə edir və eyni zamanda yerli iqtisadi ehtiyatlar keyfiyyətcə yenilənir. Regional fəaliyyətin effektivliyinin qorunması məhz bu keçid dövrünə institusional hazırlıq sayəsində mümkün olur. Adaptasiya təkcə dəyişən bazar şəraitinə alışmaqda deyil, həm də regional disproporsiyalar, struktur işsizliyi və yerli rəqabət qabiliyyətinin itirilməsi kimi müxtəlif makroiqtisadi çətinlikləri aradan qaldırmağa imkan verən strateji mexanizmlərin inkişafında özünü göstərir (Гранберг,2021).

Qeyd etmək lazımdır ki, regionların sosial-iqtisadi inkişafı prosesi sırf dövlətin tənzimləmə amilləri və proqramlı yanaşması əsasında müəyyən edilir. Beləliklə, bu, ikitərəfli prosesdir və təkcə iqtisadiyyatın regional tələblərə uyğunlaşmasını deyil, həm də cəmiyyətin sosial ehtiyaclarına uyğun olaraq ərazi idarəetmə strukturunun dəyişməsini əks etdirir. Regional inkişaf siyasətinin mahiyyətini daha aydın təsvir etmək üçün aşağıdakı müqayisəli təhlilə diqqət yetirmək zəruridir:

Cədvəl 1

Regional transformasiya şəraitində dövlət siyasətinin strateji istiqamətlərinin müqayisəli xarakteristikası

Göstəricilər	Ənənəvi regional siyasət	Müasir regional transformasiya siyasəti
Prioritet sahə	Mərkəzləşdirilmiş sənaye və kənd təsərrüfatı	İnnovativ sənaye parkları, rəqəmsal hablar və turizm
İnsan kapitalı	Dar ixtisaslaşma, kütləvi işçi qüvvəsi	Multi-disiplinar, texnoloji və menecment bacarıqları
Dövlət dəstəyi	Birbaşa büdcə dotasiyaları	Vergi güzəştləri, investisiya təşviqi və qrantlar
Adaptasiya növü	Regional krizislərə gecikmiş reaksiya	İnnovasiyalara əsaslanan proaktiv regional adaptasiya
İnkişaf standartları	Ümumi iqtisadi səmərəlilik mərkəzli	ESG (Ekoloji, Sosial və İdarəetmə) və İnklüzivlik mərkəzli

Mənbə: *Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin hesabatları və "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Regional inkişaf siyasəti elə bir iqtisadi-təşkilati prosesdir ki, ərazi vahidləri ilə dayanıqlı inkişaf hədəflərinin qarşılıqlı əlaqəsi yerli iqtisadiyyatı yeni qlobal şərtlərə hazırlayır. Bu prosesin ən vacib komponenti regional subyektin (yerli sahibkarın və əhalinin) öz fəaliyyət strategiyalarını, karyera iddialarını və gözləntilərini yeni regional reallıqlar və investisiya mühitinin tələbləri ilə əlaqələndirməsidir. İqtisadi intellekt və strateji planlaşdırma bu adaptasiyanın əsas mexanizmləri olan kadrların yenidən hazırlama və yerli resursların optimallaşdırılması proseslərdir.

Akkomodasiya prosesi regionda yeni iqtisadi tələblərə uyğun olaraq fəaliyyət sxemlərinin və idarəetmə standartlarının dəyişdirilməsi, assimilyasiya isə yeni regional problemlərin mövcud sosial-iqtisadi bazaya inteqrasiya edilməsi kimi başa düşülür. Akkomodasiya zamanı regionun iqtisadi davranışı və ixtisaslaşması müasir bazar standartlarına uyğunlaşır, assimilyasiya zamanı isə dövlət tərəfindən yaradılan iqtisadi mühit regionun mövcud potensialına uyğun şəkildə tənzimlənir (Əliyev,2020). Beləliklə, dövlət tənzimlənməsi bu iki proses arasında balans yaradıb, faktiki regional baza ilə gələcək strateji hədəflər arasındakı fərqi aradan qaldırmağa xidmət edir.

Adaptasiya subyektin fəaliyyətində və regional mühitdə baş verən köklü struktur dəyişiklikləri dövrləri ilə birbaşa əlaqəlidir. Obyektiv bir uyğunlaşma göstəricisi olaraq, regiondakı məhsuldarlıq və əməyin səmərəliliyi meyar kimi seçilir. Regional inkişaf konsepsiyalarında uyğunlaşma ərazinin iqtisadi simasının formalaşması anı, yeni texnoloji normaların və rəqəmsal bacarıqların mənimsənilməsi mərhələsi kimi qəbul edilir. Bu mərhələnin keçməsi regionun gələcək investisiya xarakterini və dayanıqlı inkişaf prinsiplərinə sadiqliyini müəyyənləşdirir.

İqtisadi transformasiya şəraitində "regional adaptasiya mexanizmi", mürəkkəb və sürətlə dəyişən şəraitə uyğunlaşmaq üçün ölkənin insan kapitalı və təbii resurslarının mobilizasiyasını təmin edir. Bu, makroiqtisadi stress faktorlarına qarşı regional müqaviməti artırmaq məqsədilə bütün strateji

ehtiyatların səfərbər edilməsini əhatə edir. Bazar təzyiqlərinin (məsələn, ənənəvi sənaye sahələrinin rəqabətə davam gətirməməsi və ya kütləvi urbanizasiya) təsiri altında regional sistem özünün yeni tarazlıq nöqtəsini tapmalıdır. Adaptasiya, dövlət və yerli subyektlərin birgə fəaliyyətinin nəticəsi olaraq regionun daxili imkanları ilə xarici iqtisadi mühit arasında optimal uyğunluğun yaradılması prosesidir.

Peşəkar adaptasiya regionlarda yeni istehsalat texnologiyalarına etibarlı şəkildə yiyələnməni ifadə edir. Belə hallarda, dəyişən şəraitdə regional işçi qüvvəsi uzun müddət öz məhsuldarlığını qoruyur. Adaptasiya sürəti konkret regionun kadr potensialından, intellektual hazırlığından və rəqəmsal infrastruktur səviyyəsindən asılıdır (World Bank, 2022). "Region-İqtisadi mühit" sisteminin tarazlaşdırılması yalnız daxili reaksiyalarla deyil, həm də dövlətin regiona aktiv investisiya intervensiyası ilə baş verir. Peşəkar və sosial adaptasiyanın uğuru həm də regionlarda tətbiq olunan ömürboyu təhsil və innovasiya mərkəzlərinin əlçatanlığından asılıdır (OECD, 2021).

Sosial-iqtisadi adaptasiya müxtəlif ölkələrin inkişaf modelindən asılı olaraq fərqli şəkildə həyata keçirilir. Azərbaycanda bu proses dövlətin birbaşa himayəsi altında, xüsusən də "Azərbaycan 2030" Milli Prioritetləri və müvafiq Dövlət Proqramları çərçivəsində reallaşır. İnkişaf etmiş regional iqtisadiyyatlarda fərd və sahibkar şüurlu şəkildə yeni bazar qaydalarını və texnoloji standartları qəbul edir.

Regionların sosial-iqtisadi inkişafı artıq konkret iqtisadi rayonlar, sənaye parkları və aqroparklar üzrə özünü göstərməkdədir. Azərbaycanın regional transformasiya strategiyası çərçivəsində formalaşan yeni iqtisadi istiqamətlər aşağıdakı cədvəldə sistemləşdirilmişdir:

Cədvəl 2

Azərbaycanda regionların inkişafı üzrə konkret dövlət təşəbbüsləri və tətbiq sahələri

Layihə / İstiqamət	Dövlətin rolu və alətləri	Regional təsir sahəsi
Sənaye Parkları (Sumqayıt, Pirallahı və.s)	Vergi və gömrük güzəştləri, infrastruktur təminatı	Yüksək texnologiyalı istehsalın artımı
"Ağıllı kənd" (Ağalı kəndi)	Rəqəmsal infrastrukturun qurulması, innovativ idarəetmə	Qayıdış prosesi və müasir kənd təsərrüfatı
Aqroparklar və Fermer Təsərrüfatları	Subsidiyalaşdırma və texniki dəstək	Ərzaq təhlükəsizliyi və ixrac potensialı
İşğaldan azad edilmiş ərazilərin bərpası	Böyük Qayıdış Dövlət Proqramı, dövlət investisiyaları	Yeni iqtisadi mərkəzlərin formalaşması
Regionlarda Turizm Klasterləri	Brendləşmə və nəqliyyat loqistikasının yaxşılaşdırılması	Xidmət sektorunun və məşğulluğun şaxələndirilməsi

Mənbə: *Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası və regionların inkişafı üzrə Dövlət Proqramları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Qeyd olunan bu istiqamətlər "Azərbaycan 2030" Milli Prioritetlərində əksini tapan rəqabətli insan kapitalının formalaşdırılması və "təmiz ətraf mühit" hədəfləri ilə tam sinxronluq təşkil edir. Bu, ölkədə regional inkişaf siyasətinin sadəcə kəmiyyət (büdcə xərcləri) deyil, həm də keyfiyyət və innovativ səmərəlilik baxımından transformasiya olunduğunu təsdiqləyir.

Yekun iqtisadi təhlil göstərir ki, regionların sosial-iqtisadi inkişafında dövlətin rolu yalnız maliyyə dəstəyi ilə məhdudlaşmır, həm də regionun qlobal iqtisadi çağırışlara qarşı sistemli dayanıqlılığının memarı rolunu oynayır. Adaptasiyanın hər bir mərhələsi — istər yerli sahibkarlıq səviyyəsində, istərsə də dövlətin makro tənzimləmə alətləri səviyyəsində — ölkənin beynəlxalq rəqabət qabiliyyətini və vətəndaşların həyat keyfiyyətini birbaşa müəyyən edir. Strategiyanın uğuru, texnoloji tərəqqi ilə regional resursların adaptasiya sürəti arasındakı sinxronluğun təmin edilməsindən asılıdır.

NƏTİCƏ

Aparılan tədqiqatlar və elmi-nəzəri təhlillər göstərir ki, regional adaptasiya müasir iqtisadi sistemlərdə ərazi vahidlərinin yeni və ya köklü şəkildə dəyişən iqtisadi-sosial mühitə uyğunlaşma prosesidir (Quliyev,2021). Bu proses, regional iqtisadi subyektlərin dəyişən bazar şəraitinə, investisiya meyillərinə və "dayanıqlı inkişaf" tələblərinə daha yaxşı inteqrasiya olunmalarına, eləcə də yerli resurslardan daha effektiv şəkildə istifadə edərək regionun rəqabət qabiliyyətini qorumasına xidmət edir (Гранберг, 2021).

İqtisadi transformasiya şəraitində regional inkişaf prosesi çərçivəsində yerli idarəetmə orqanları və iqtisadi subyektlər yeni regional siyasətin normalarını, müasir istehsal texnologiyalarının fəaliyyət üsullarını və innovativ idarəetmə vasitələrini dərindən mənimsəyir. Lakin vurğulamaq lazımdır ki, regionun özünü müasir iqtisadi sistemdə tamhüquqlu və rəqabətli bir mərkəz kimi göstərmək istəyi yalnız dövlət tərəfindən qəbul edilmiş proqramların passiv icrası ilə məhdudlaşmır. Əsl adaptasiya regionun bu institusional və iqtisadi normaları mənimsəyərək onları yerli xüsusiyyətlər çərçivəsində yaradıcı və səmərəli şəkildə tətbiq etməsi ilə tamamlanır.

Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi kontekstində regional sistemlərin adaptasiya olunmasının əsas meyarı onun mərkəzi iqtisadiyyatla, yəni innovativ və rəqəmsal ekosistemlə inteqrasiyasının dərinlik səviyyəsi kimi qəbul edilir. Bu inteqrasiya nə qədər yüksək olarsa, regional disproporsiyalar bir o qədər aşağı, ümumi iqtisadi artım isə bir o qədər dayanıqlı olar. Adaptasiya prosesində regional subyektlər sistemli və ciddi səy göstərərsə, yerli sənaye və xidmət sahələri yeni texnoloji standartlara daha sürətlə uyğunlaşa bilər. Burada dövlətin tənzimləyici rolu - vergi güzəştləri, infrastruktur layihələri və subvensiya mexanizmləri vasitəsilə bu inkişaf prosesini stimullaşdırmaqdan ibarətdir. Regional inkişafın daha təsirli və uzunmüddətli nəticəsi regionun daxili strukturunda strateji uyğunlaşma aspektlərinin, yəni qlobal iqtisadi dəyişikliklərə çevik reaksiya vermə qabiliyyətinin (regional agility) formalaşmasıdır.

Həyat fəaliyyətinin yeni regional iqtisadi mühitinə ərazinin və əhalinin uyğunlaşması prosesi regionun investisiya cəlbediciliyini, insan kapitalının keyfiyyətini və innovasiya potensialını yenidən müəyyən edir. Bu isə öz növbəsində regional iqtisadiyyatın dövlətin makroiqtisadi hədəfləri ilə uzlaşmasının vacibliyini təmin edir. Məqalədə qeyd olunan elmi yanaşmalar təsdiqləyir ki, iqtisadi transformasiya yalnız yeni yolların və zavodların tikilməsi deyil, ilk növbədə həmin infrastrukturun regional inkişafın keyfiyyət faktoruna çevrilməsidir. Əgər dövlətin tənzimləmə mexanizmləri düzgün qurulmazsa, regional islahatlar resurs israfı və iqtisadi durğunluqla üzləşə bilər.

Azərbaycanın müasir iqtisadi inkişaf strategiyası və "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində əksini tapan hədəflər regionların sosial-iqtisadi transformasiyasını qaçılmaz edir ("Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"; Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası). Xüsusən də işğaldan azad edilmiş ərazilərin "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında yenidən qurulması, regional inkişafda dövlətin rolunu mərkəzi məsələyə çevirir (Məmmədov, 2023) Bu baxımdan, tədqiqatın nəticəsi olaraq aşağıdakı iqtisadi təkliflər irəli sürülə bilər:

1. Regional Monitorinq Sistemi Təkmilləşdirilməlidir: Regionların iqtisadi potensialının qiymətləndirilməsi üçün "İnnovativ İnkişaf İndeksi" hazırlanmalı və dövlət dəstəyi bu göstəricilərə əsasən diferensiallaşdırılmalıdır.

2. "Təhsil-Elm-İstehsalat" Klasterləri Yaradılmalıdır: Regionlarda fəaliyyət göstərən ali təhsil müəssisələri ilə yerli sənaye parkları arasında birbaşa inteqrasiya təmin edilməli, kadr hazırlığı regionun spesifik iqtisadi tələblərinə uyğunlaşdırılmalıdır.

3. Regional İnvestisiya Təşviqi Mexanizmləri Diversifikasiya Olunmalıdır: Struktur dəyişikliklərdən zərər çəkən və ya zəif inkişaf etmiş rayonlar üçün xüsusi "Regional Adaptasiya Paketləri" (güzəştli kreditlər, subsidiyalar) tətbiq edilməlidir.

Yekun olaraq qeyd etmək olar ki, regional inkişaf dövründə dövlət siyasəti statik bir inzibatçılıq aləti deyil, dinamik bir adaptasiya menecmentidir. Regionun iqtisadi mühitlə qarşılıqlı əlaqəsi ikitərəfli xarakter daşıdığı üçün, dövlət həm regionu qlobal bazara hazırlamalı, həm de iqtisadi mühiti regionun potensialına uyğun şəkildə liberallaşdırmalıdır. Yalnız bu harmonik uyğunlaşma sayəsində regionlarda yüksək rifah və makroiqtisadi tarazlıq əldə edilə bilər. Bu tədqiqat regional inkişafın dövlət tənzimlənməsindəki yerini müəyyən etməklə, gələcək islahatlar üçün nəzəri və praktiki baza rolunu oynayır.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Bakı, 2019.

2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.

3. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı, 2022.

4. Əliyev Ş.T. (2020). "Regional iqtisadiyyat". Dərslik. Bakı: ADNSU nəşriyyatı, 340 s.

5. Quliyev E.A. (2021). "Regionların sosial-iqtisadi inkişafının dövlət tənzimlən-məsi". Bakı: "Elm və təhsil", 280 s.

6. Məmmədov E.H. (2023). "İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı və regionların tarazlı inkişafı" // İqtisadiyyat və idarəetmə jurnalı, № 2, s. 15-22.

7. World Bank. "Azerbaijan: Regional Development and Infrastructure Modernization". Washington, DC, 2022.

8. OECD. "Regional Development Policy: Tools and Strategic Frameworks". Paris: OECD Publishing, 2021.

9. Armstrong H., Taylor J. (2000). "Regional Economics and Policy". 4th Edition. Wiley-Blackwell, 448 p.

10. Гранберг А.Г. (2021). "Основы региональной экономики". Учебник для вузов. Москва: ГУ ВШЭ, 495 с.

11. Кузнецова О.В. (2019). "Экономическое развитие регионов: теоретичес-кие и практические аспекты государственного регулирования". Москва: Книжный дом «ЛИБРОКОМ», 304 с.

12. https://stat.gov.az - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet portalı

T.A.Tagiyeva
PhD, Azerbaijan State Oil and Industry University
ORCID 0000-0003-3982-1319
F.A.Azizova
master student, Azerbaijan State Oil and Industry University

The role of the state in ensuring the socio-economic development of regions

Abstract

The presented article comprehensively examines the essence, content of the balanced regional development process and the trends of regional transformation in the modern economic system. For the modern global economic system, the socially and economically sustainable development of regions and the integration of local resources into "green growth" models are among the most relevant strategic topics. Regional transformation is the process of adapting local infrastructure to global economic challenges, technological innovations, and the requirements of a competitive economy. The most important component of this process is the effective correlation, through state regulation, of the region's human capital - its professional skills and social expectations - with new regional realities and the investment environment. The article explores the innovative, social, and structural directions of regional policy, emphasizing that the creation of new jobs in regions is a process requiring institutional adaptation. The structural characteristics of disparities in the context of transformation and the implementation of new state programs are the main directions analyzed in the article. An effective and scientifically based regional development policy increases the quality of life of an individual, strengthens the competitiveness of local labor resources, and ensures systemic resilience against macroeconomic changes.

Keywords: *regional development, state regulation, economic transformation, sustainable development, investment environment, human capital, structural reforms.*

https://doi.org/10.58225/tim.2026-2-145-151

H.B.Cakir
professor, Gazi University
ORCID 0000-0001-9424-2323
hcakir2000@ gmail.com
G.A.S.Mammadli
master student, Azerbaijan State University of Economics
ORCID 0009-0005-5785-1732
mammadliglnr15@gmail.com

Məqalə redaksiyaya daxil olub 17.02.2026
The article was received by editorial board on 17.02.2026
Статья принята к печати 17.02.2026

A BIBLIOMETRIC ANALYSIS OF DATA-DRIVEN APPROACHES IN EDUCATION MANAGEMENT AND PERFORMANCE EVALUATION

Abstract

This study presents a bibliometric analysis of research on data-driven approaches in education management and performance evaluation from 2013 to 2024. Using publications indexed in Web of Science and Scopus 1,872 relevant records were analyzed by temporal trends, document type, research area, educational level, country output, and citations. Findings show a significant increase in publications after 2018, particularly during the COVID-19 pandemic, highlighting the role of digital data infrastructures and learning analytics in educational governance. Journal articles predominate, with major domains including educational management, learning analytics, and higher education. The United States, United Kingdom, Spain, China, and Australia are leading contributors. The study emphasizes ethical data governance, improved data literacy, and inclusive management models.

Keywords: *data-driven decision-making, educational management, learning analytics, performance evaluation.*

INTRODUCTION

The rapid expansion of digital technologies and information systems has transformed how educational institutions are managed, how performance is assessed, and how strategic decisions are made. Learning management systems, institutional dashboards and large-scale data repositories have created an environment where managers and policymakers increasingly depend on data analytics to guide planning, evaluation and accountability. Within this context, data-driven education management represents a systematic effort to integrate data collection, analysis and interpretation into governance and performance improvement processes.

Beyond monitoring efficiency, data-driven methods underpin the design of evaluation frameworks, the identification of at-risk learners, and the development of evidence-based policies addressing complex educational and social needs. Learning analytics and educational data mining connect micro-level student data with macro-level governance objectives, shaping the interaction between pedagogy, management and policy. The COVID-19 pandemic accelerated this shift by generating vast amounts of digital learning data and heightening the need for robust, adaptable performance models.

Despite rapid growth, the literature on data-driven education remains fragmented across multiple disciplines, making comprehensive understanding difficult. Bibliometric analysis provides a methodological framework to map the evolution of this field and identify its conceptual structure, dominant themes and leading contributors. This study conducts a bibliometric analysis of research published between 2013 and 2024 to trace temporal trends, document types, research areas, languages, educational levels, country contributions and citation structures. It aims to clarify the intellectual landscape of data-driven education management and inform future research and policy in evidence-based educational governance.

LITERATURE REVIEW

This study adopts a bibliometric research design combining descriptive statistical analysis with network-based visualization to examine the development of data-driven approaches in education management and performance evaluation between 2013 and 2024. Bibliometric methods enable the systematic mapping of publication trends, thematic structures, collaboration patterns and citation relationships across large bodies of scholarly literature. Data were collected from three major academic databases: Web of Science (WoS), Scopus. Two structured search queries were applied to titles, abstracts and keywords: (1) “data-driven” AND “education management” and (2) “data-driven” AND “performance evaluation” AND “education.” Initial searches yielded 2,112 records. After removing duplicates and applying inclusion criteria -publication year (2013–2024), scientific document type and explicit thematic relevance - a final dataset of 1,872 unique publications was obtained. Bibliographic data, including authorship, source, keywords, research area, language and country affiliation, were extracted and coded into harmonized analytical categories. Descriptive statistics were used to identify temporal and structural trends. Citation and co-citation analyses were conducted using the WoS subset, and network visualizations were generated with VOSviewer 1.6.20 to reveal thematic clusters and collaboration patterns.The analysis of the annual distribution of publications reveals a progressive and accelerated growth in research on data-driven approaches in education management and performance evaluation between 2013 and 2024. In 2013, only 27 documents meeting the inclusion criteria were identified, while by 2024 the annual number of publications reached 289, representing more than a tenfold increase over the period. Table 1 presents the year-by-year distribution of academic publications across the three databases.

Table 1

Annual distribution of academic publications on data-driven approaches in education management and performance evaluation, 2013–2024

Publication Year	WoS	Scopus	Total
2024	41	228	269
2023	36	196	232
2022	32	171	203
2021	27	148	175
2020	23	132	155
2019	19	115	134
2018	17	101	118
2017	14	83	97
2016	11	69	80
2015	9	54	63
2014	8	42	50
2013	6	19	25
Total	243	1,358	1,601

Source: *Author’s calculations based on WoS and Scopus data.*

The temporal distribution of publications reveals three distinct developmental phases. The first phase (2013–2016) is marked by relatively low but steadily increasing output, reflecting the early diffusion of data-driven methodologies and learning analytics into education management research. During this period, studies were largely exploratory, focusing on conceptual clarification and pilot applications within institutional contexts.The second phase (2017–2019) demonstrates accelerated growth, associated with the consolidation of learning analytics as a recognized research domain. The emergence of specialized journals, conferences and professional networks contributed to greater theoretical refinement and methodological sophistication. Simultaneously, education policy agendas increasingly incorporated data-based performance indicators and accountability frameworks.

The third phase (2020–2024) shows a pronounced surge in publications, coinciding with the shift to online and hybrid learning during the COVID-19 pandemic. Research priorities expanded toward system-level dashboards, predictive analytics and integrated evaluation models. Of the total output, 1,124 studies focused on education management and 748 on performance evaluation, with the latter growing rapidly after 2019, signaling a transition toward institutionalized, metric-driven governance. The distribution of document types reflects the modes of knowledge production in this research area. Table 2 summarizes the classification of academic publications by type across the three databases.

Table 2

Distribution of academic publications by document type

Publication Type	WoS	Scopus	Total
Journal Articles	143	712	855
Conference Papers	61	416	477
Review Articles	11	63	74
Book Chapters	9	129	138
Books	2	27	29
Reports – Research	0	0	0
Reports – Descriptive	0	0	0
Information Analyses	0	0	0
Early Access	10	0	10
Other	7	15	22
Total	243	1,362	1,605

Source: *Author's calculations based on WoS and Scopus data.*

Journal articles account for slightly over half of all publications, signalling a consolidated and peer-reviewed core where theoretical models, empirical findings and methodological innovations are systematically articulated. Conference papers represent approximately one quarter of the dataset and function as a laboratory for emerging techniques, exploratory case studies and prototype systems in learning analytics and data-driven management. The presence of a substantial number of book chapters and books indicates that the field has achieved a level of conceptual stability that supports the production of edited collections, handbooks and monographs on data-informed leadership and performance evaluation.

The classification of publications by research area reveals the interdisciplinary nature of data-driven approaches in education management. Table 3 presents the distribution of documents across aggregated research categories.

Table 3

Distribution of academic publications by research area

Research Areas	WoS	Scopus	Total

Educational Management and Leadership	71	264	335
Learning Analytics and Educational Data Mining	48	312	360
Educational Policy, Governance and Accountability	43	181	224
Computer Science and Information Systems	52	286	338
Assessment, Evaluation and Measurement	32	167	199
Higher Education and Social Sciences	21	118	139
E-Learning and Distance Education	0	132	132
Teacher Education and Professional Development	0	62	62
Social and Behavioural Sciences	8	42	50
Other	8	58	66
Total	283	1,622	1,905

Source: *Author's calculations based on WoS and Scopus data.*

Learning analytics and educational data mining constitute the largest cluster, followed closely by educational management and leadership, demonstrating the tight coupling between methodological innovation in data analysis and managerial applications in institutional governance. Publications in computer science and information systems provide the technical foundation for data collection, storage, processing and visualization, while assessment and evaluation studies link data infrastructures to measurement theories and psychometric models.

The strong representation of educational policy, governance and accountability indicates that data-driven approaches increasingly shape regulatory structures, funding mechanisms and performance-based incentives at system level. The presence of research areas such as e-learning, teacher education and social and behavioural sciences highlights the extension of data-driven frameworks into pedagogical practice, professional development and studies of user behaviour, motivation and engagement. This multi-layered disciplinary structure mirrors the broad thematic spread observed in bibliometric analyses of digital accessibility and related fields.

The linguistic distribution of publications provides insight into the global reach and inclusivity of research on data-driven education management. Table 4 summarizes the distribution of documents by language.

Table 4

Distribution of publications by language

Publication Language	WoS	Scopus	Total
English	229	1,312	1,541
Spanish	6	32	38
Portuguese	3	21	24
Chinese	2	16	18
Russian	1	9	10
Turkish	1	7	8
German	0	6	6
Other Languages	1	9	10
Total	243	1,412	1,655

Source: *Author's calculations based on WoS and Scopus data.*

English dominates overwhelmingly and functions as the lingua franca of scholarly communication in data-driven education management, which facilitates international collaboration and cross-context comparison but concurrently limits the visibility of research conducted in other languages. Spanish, Portuguese and Chinese form secondary clusters that reflect regional scholarly communities in Europe, Latin America and East Asia which adapt data - driven management para-

digms to specific institutional and policy environments. The presence of publications in Russian, Turkish, German and other languages, though comparatively limited, indicates the diffusion of data-based management concepts beyond Anglophone contexts and the potential for greater multilingual integration in future research.

The distribution of publications by educational level shows how data-driven approaches and performance evaluation models are deployed across different segments of education systems. Table 5 presents the classification of documents according to the primary educational level under consideration.

Table 5

Distribution of publications by educational level

Educational Level	WoS	Scopus	Total
Higher Education	76	418	494
Secondary Education	18	132	150
Primary Education	9	64	73
Adult and Lifelong Learning	11	53	64
Mixed or System-Level	42	171	213
Teacher Education	8	49	57
Other / Not Specified	13	78	91
Total	177	965	1,142

Source: *Author's calculations based on WoS and Scopus data.*

Higher education clearly dominates as the principal setting for research on data-driven management and performance evaluation, which corresponds to the concentration of digital infrastructures, institutional research units and accountability requirements in universities and colleges. System-level and mixed-context studies occupy the second position and include analyses of national and regional data platforms, performance-based funding schemes and policy frameworks that apply across multiple educational levels.

The smaller, yet significant, number of studies in primary and secondary education addresses the use of data dashboards for school leadership, early warning systems for dropout prevention and performance monitoring in accountability regimes, often in connection with standardized assessment systems. Adult and lifelong learning contexts receive less attention, although the rapid expansion of online platforms and corporate learning environments indicates a growing potential for data-driven management in these segments as well.

Country-level analysis reveals the geographical distribution of scientific production in data-driven education management and performance evaluation. Table 6 summarizes the contributions of the most productive countries, based on the affiliation of the first author.

Table 6

Distribution of publications by country and region

Country / Region	WoS	Scopus	Total
USA	21	236	257
UK (England)	19	112	131
Spain	14	87	101
China	11	81	92
Australia	9	63	72
Canada	7	51	58
Germany	8	47	55
Netherlands	6	39	45

Brazil	7	35	42
Italy	5	33	38
Portugal	4	29	33
Norway	4	24	28
Turkey	3	22	25
India	3	21	24
Other Countries	26	207	233
Total	147	1,087	1,234

Source: *Author's calculations based on WoS and Scopus data.*

The United States occupies the leading position in terms of publication volume, reflecting the strong presence of learning analytics communities, institutional research offices and policy-driven accountability regimes that rely on quantitative performance indicators. The United Kingdom and Spain follow, supported by active research centers and networks in educational technology, leadership and assessment. China and Australia form additional hubs, with substantial investments in digital education infrastructures and analytics capacity that encourage the application of data-driven management practices. European and Latin American countries such as Germany, the Netherlands, Portugal and Brazil contribute to the diversification of perspectives, including critical examinations of data governance, equity implications and organizational change processes. The presence of Turkey, India and a heterogeneous group of "other countries" demonstrates the gradual globalization of data-driven management paradigms, although publication volumes and citation visibility remain uneven across regions, similar to patterns identified in digital accessibility research.

Citation Relationships among Documents in the Web of Science Database

Citation analysis of the Web of Science subset reveals the intellectual architecture of the field and highlights key publications that serve as foundational references for later studies. The most influential documents focus on learning analytics frameworks, evidence-based leadership models, educational data infrastructures and performance measurement systems. Within the dataset, leading works receive between 65 and 142 citations and demonstrate strong co-citation linkages, indicating dense scholarly interconnections. These studies typically integrate solid theoretical grounding with rigorous methodology and practical relevance, which explains their sustained influence. The citation pattern is highly skewed: a limited number of publications accumulate a substantial proportion of total citations, while numerous specialized studies form a long tail. Network mapping identifies thematic clusters around predictive analytics, institutional dashboards, data-driven leadership, funding models and ethical issues, with performance evaluation research acting as a conceptual bridge between analytics and policy-oriented scholarship.

CONCLUSION

The analysis of author citation relationships in the Web of Science database demonstrates a stratified intellectual structure shaped by a limited group of highly influential scholars. These central authors exhibit strong citation counts and dense co-citation linkages, reflecting their active participation in international collaborations and cross-institutional research networks. Their contributions combine advanced data analytics with educational leadership and governance perspectives, resulting in widely adopted frameworks for performance evaluation and evidence-based management. At the same time, many researchers contribute context-specific or nationally focused studies that enhance thematic diversity but remain more peripheral within the global citation network.

At the country level, the United States and the United Kingdom function as primary hubs of citation and collaboration. Spain, the Netherlands, Australia, Canada, and China also occupy significant positions within the network. The findings confirm that data-driven education management has developed into a mature and expanding interdisciplinary field. The post-2018 period, particularly during the COVID-19 pandemic, accelerated methodological innovation and publication growth. Future research should strengthen comparative perspectives, promote inclusive global participation, develop multi-level performance indicators, and address ethical challenges related to data governance in education systems.

References:

1.Coe, R., Kime, S., Neubig, T. & Ashworth, M. (2020). Great Teaching Toolkit: Evidence Review. Durham: Evidence Based Education, 80 p.

2.Cope, B. & Kalantzis, M. (Eds.) (2016). Big Data and Learning Analytics in Higher Education: Current Theory and Practice. New York: Routledge, 352 p.

3.Datnow, A. & Park, V. (2014).Data-Driven Leadership.San Francisco: Jossey-Bass, 192 p.

4.Earl, L. & Katz, S. (2006). Leading Schools in a Data-Rich World: Harnessing Data for School Improvement. Thousand Oaks: Corwin Press, 184 p.

5.Khalil, M. & Ebner, M. (2016). Learning analytics: Principles and constraints. In: Proceedings of the World Conference on Educational Media and Technology. Association for the Advancement of Computing in Education (AACE), pp. 1325–1336.

6.Lang, C., Siemens, G., Wise, A.F. & Gasevic, D. (Eds.) (2017). Handbook of Learning Analytics. Beaumont: Society for Learning Analytics Research (SoLAR), 356 p.

7.Mandinach, E.B. & Gummer, E.S. (2016). Data Literacy for Educators: Making It Count in Teacher Preparation and Practice. New York: Teachers College Press, 160 p.

8.Papamitsiou, Z. & Economides, A. A. (2014). Learning analytics and educational data mining in practice: A systematic literature review of empirical evidence. Educational Technology & Society, 17(4), pp. 49–64.

9.Schildkamp, K., Lai, M.K. & Earl, L. (2013). Data-Based Decision Making in Education: Challenges and Opportunities. Dordrecht: Springer, 216 p.

10. Slade, S. & Prinsloo, P. (2013). Learning analytics: Ethical issues and dilemmas. American Behavioral Scientist, 57(10), pp. 1510–1529.

11. Wayman, J.C., Jimerson, J.B. & Cho, V. (2012). Organizational considerations in establishing the data-informed district. School Effectiveness and School Improvement, 23(2), pp. 159–178.

H.B.Çakır
professor, Gazi Universiteti
ORCID 0000-0001-9424-2323
G.A.S.Məmmədli
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
ORCID 0009-0005-5785-1732

Təhsilin idarə edilməsi və fəaliyyətin qiymətləndirilməsində məlumatlara əsaslanan yanaşmaların bibliometrik təhlili

Xülasə

Bu tədqiqat, 2013-cü ildən 2024-cü ilə qədər təhsilin idarə olunması və fəaliyyətinin qiymətləndirilməsində məlumatlara əsaslanan yanaşmalar üzrə tədqiqatların bibliometrik təhlilini təqdim edir. Web of Science və Scopus indekslənmiş nəşrlərdən istifadə edərək, 1872 müvafiq qeyd zaman trendləri, sənəd növü, tədqiqat sahəsi, təhsil səviyyəsi, ölkə məhsuldarlığı və istinadlar üzrə təhlil edilmişdir. Nəticələr, 2018-ci ildən sonra, xüsusən də COVID-19 pandemiyası dövründə nəşrlərdə əhəmiyyətli bir artım olduğunu göstərir və təhsil idarəçiliyində rəqəmsal məlumat infrastrukturlarının və təlim analitikasının rolunu vurğulayır. Jurnal məqalələri üstünlük təşkil edir və əsas sahələr təhsil idarəçiliyi, təlim analitikası və ali təhsildir. Amerika Birləşmiş Ştatları, Birləşmiş Krallıq, İspaniya, Çin və Avstraliya aparıcı töhfəçilərdir. Tədqiqat etik məlumatların idarəçiliyini, təkmilləşdirilmiş məlumat savadlılığını və inklüziv idarəetmə modellərini vurğulayır.

Açar sözlər: *məlumatlara əsaslanan qərar qəbuletmə, təhsilin idarə edilməsi, təlim analitikası, performansın qiymətləndirilməsi.*

https://doi.org/10.58225/tim.2026-2-152-161

N.Y.Mikayılova
i.f.d, dosent, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
nurengiz.mikayilova@aesma.edu.az
H.M.Heybətov
magistrant, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
hemidheybatov@gmail.com

Məqalə redaksiyaya daxil olub 11.03.2026
The article was received by editorial board on 11.03.2026
Статья принята к печати 11.03.2026

MƏŞĞULLUĞUN ARTIMININ ƏHALİ RİFAHI VƏ GƏLİR BƏRABƏRLİYİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə məşğulluğun artımının əhali rifahının yüksəldilməsi və gəlir bərabərliyinin təmin olunmasına təsiri kompleks iqtisadi yanaşma əsasında qiymətləndirilmişdir. Tədqiqatın əsas məqsədi əmək bazarında məşğulluq səviyyəsinin yüksəlməsinin əhalinin sosial-iqtisadi vəziyyətinə, gəlir bölgüsünə və rifah göstəricilərinə təsir mexanizmlərinin müəyyən edilməsidir. Araşdırma zamanı məşğulluğun artmasının yalnız iqtisadi aktivliyin genişlənməsi ilə məhdudlaşmadığı, eyni zamanda yoxsulluğun azaldılması, sosial inklüzivliyin gücləndirilməsi və gəlir fərqlərinin optimallaşdırılması baxımından mühüm rol oynadığı əsaslandırılmışdır. Məqalədə məşğulluq göstəriciləri ilə əhali gəlirlərinin dinamikası, əməkhaqqı səviyyəsi, sosial müdafiə imkanları və həyat keyfiyyəti arasında qarşılıqlı əlaqələr statistik və müqayisəli təhlil metodları vasitəsilə araşdırılmışdır. Təhlil nəticələri göstərir ki, dayanıqlı məşğulluq imkanlarının yaradılması əhalinin real gəlirlərinin artmasına, sosial rifahın yüksəlməsinə və iqtisadi bərabərsizliyin azalmasına birbaşa təsir göstərir. Xüsusilə formal məşğulluğun genişlənməsi vergi daxilolmalarının artmasına, sosial təminat sisteminin güclənməsinə və dövlətin yenidən bölüşdürmə siyasətinin effektivliyinin yüksəlməsinə şərait yaradır. Tədqiqat çərçivəsində həmçinin aktiv məşğulluq siyasətlərinin, peşə hazırlığı proqramlarının, sahibkarlığın təşviqi mexanizmlərinin və regional məşğulluq imkanlarının genişləndirilməsinin gəlir bərabərliyinin təmin edilməsində mühüm əhəmiyyətə malik olduğu müəyyən edilmişdir. Nəticə etibarilə müəyyən olunmuşdur ki, məşğulluğun davamlı artımı iqtisadi inkişafla sosial rifah arasında balansın formalaşmasına xidmət etməklə inklüziv iqtisadi artımın əsas şərtlərindən biri kimi çıxış edir. Aparılmış qiymətləndirmə nəticəsində məşğulluğun artırılmasına yönəlmiş institusional və iqtisadi tədbirlərin gücləndirilməsi, əmək bazarının çevikliyinin artırılması və insan kapitalına investisiyaların genişləndirilməsi əhali rifahının yüksəldilməsi və gəlir bərabərliyinin təmin olunması baxımından prioritet istiqamətlər kimi əsaslandırılmışdır.

Açar sözlər: *məşğulluq, əhali rifahı, gəlir bərabərliyi, əmək bazarı, sosial-iqtisadi inkişaf, inklüziv iqtisadi artım.*

GİRİŞ

Müasir iqtisadi inkişaf şəraitində məşğulluq səviyyəsi ölkələrin sosial-iqtisadi sabitliyini və əhalinin rifah göstəricilərini müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Əmək bazarında baş verən dəyişikliklər yalnız iqtisadi artım tempinə deyil, eyni zamanda əhalinin gəlir səviyyəsinə, sosial təminat imkanlarına və ümumi həyat keyfiyyətinə birbaşa təsir göstərir. Bu baxımdan məşğulluğun

artırılması məsələsi dövlətlərin iqtisadi siyasətində prioritet istiqamətlərdən biri hesab olunur. Çünki davamlı məşğulluq imkanlarının yaradılması iqtisadi resurslardan səmərəli istifadəni təmin etməklə yanaşı, sosial bərabərliyin möhkəmləndirilməsinə və rifah səviyyəsinin yüksəldilməsinə şərait yaradır. Qloballaşma, rəqəmsallaşma və əmək bazarının struktur dəyişiklikləri fonunda məşğulluğun xarakteri əhəmiyyətli dərəcədə transformasiyaya məruz qalır. Yeni iqtisadi münasibətlər şəraitində iş yerlərinin keyfiyyəti, əmək məhsuldarlığı və insan kapitalının inkişaf səviyyəsi əhalinin gəlirlərinin formalaşmasında həlledici rol oynayır. Məşğulluğun artması yalnız işsizliyin azalması demək deyil, həm də əhalinin stabil gəlir mənbələrinə çıxış imkanlarının genişlənməsi, sosial risklərin azalması və yoxsulluq səviyyəsinin aşağı düşməsi ilə müşayiət olunur. Bu proses nəticəsində iqtisadi fəallığın genişlənməsi və gəlirlərin daha balanslı bölgüsü təmin olunur. Əhalinin rifah səviyyəsi ilə məşğulluq arasında qarşılıqlı əlaqə iqtisadi inkişafın inklüziv xarakter almasını şərtləndirən mühüm amillərdən biridir. Əmək bazarında iştirak səviyyəsinin yüksəlməsi fərdi gəlirlərin artmasına, istehlak imkanlarının genişlənməsinə və sosial müdafiə sistemlərinin dayanıqlığının güclənməsinə səbəb olur. Eyni zamanda məşğulluğun genişlənməsi dövlət büdcəsinin gəlir bazasının möhkəmlənməsinə və sosial proqramların maliyyələşdirilməsi imkanlarının artmasına şərait yaradır ki, bu da gəlir bərabərliyinin təmin edilməsində mühüm rol oynayır.

Müasir dövrdə iqtisadi artımın yalnız ümumi makroiqtisadi göstəricilərlə deyil, əhalinin rifah səviyyəsi və gəlir bölgüsünün ədalətliliyi ilə qiymətləndirilməsi daha aktyal xarakter daşıyır. Bu baxımdan məşğulluğun artımının əhali rifahına və gəlir bərabərliyinə təsirinin qiymətləndirilməsi elmi və praktik əhəmiyyət kəsb edir. Aparılan tədqiqat məşğulluq proseslərinin sosial-iqtisadi nəticələrinin müəyyən edilməsinə, əmək bazarı siyasətlərinin effektivliyinin qiymətləndirilməsinə və inklüziv inkişafın təmin olunmasına yönəlmişdir.

Tədqiqatın aktuallığı ondan irəli gəlir ki, dayanıqlı məşğulluğun təmin edilməsi iqtisadi inkişafın sosial yönümlülüyünü gücləndirən əsas mexanizmlərdən biri hesab olunur və bu istiqamətdə aparılan elmi araşdırmalar gələcək iqtisadi siyasətin formalaşdırılması üçün mühüm nəzəri və praktiki baza yaradır.

Məşğulluğun sosial-iqtisadi inkişaf və əhali rifahının formalaşmasında rolu

Müasir iqtisadi sistemdə məşğulluq səviyyəsi ölkənin sosial-iqtisadi inkişafını müəyyən edən əsas makroiqtisadi göstəricilərdən biri hesab olunur. Əmək qabiliyyətli əhalinin iqtisadi fəaliyyətə cəlb olunması yalnız istehsal prosesinin genişlənməsini təmin etmir, eyni zamanda cəmiyyətin rifah səviyyəsinin yüksəlməsinə, sosial sabitliyin möhkəmlənməsinə və iqtisadi resurslardan səmərəli istifadəyə şərait yaradır. Məşğulluq iqtisadi artım ilə sosial inkişaf arasında əlaqələndirici mexanizm kimi çıxış edərək gəlirlərin formalaşması, istehlak imkanlarının genişlənməsi və həyat keyfiyyətinin yüksəlməsi prosesində mühüm rol oynayır. [7, 25]

Əhalinin məşğulluq səviyyəsinin artması ilk növbədə fərdi gəlirlərin stabil mənbələr hesabına formalaşmasına səbəb olur. Daimi işlə təmin olunan şəxslər əməkhaqqı gəlirləri vasitəsilə öz sosial və iqtisadi tələbatlarını daha səmərəli şəkildə ödəyə bilir, bu isə ev təsərrüfatlarının maliyyə dayanıqlığını gücləndirir. Stabil gəlir imkanları əhalinin istehlak xərclərinin artmasına, daxili bazarda tələbin genişlənməsinə və nəticə etibarilə iqtisadi dövriyyənin aktivləşməsinə gətirib çıxarır. Bu proses iqtisadi inkişafın davamlı xarakter almasına və istehsal-subyektləri arasında qarşılıqlı iqtisadi əlaqələrin güclənməsinə səbəb olur.

Məşğulluğun artımı sosial rifahın yüksəlməsinin əsas şərtlərindən biri kimi çıxış edir. İşlə təmin olunma səviyyəsinin yüksəlməsi yoxsulluq riskini azaldır, sosial asılılığı minimuma endirir və əhalinin dövlət sosial yardımlarından asılılığını zəiflədir. Əmək fəaliyyətində iştirak edən şəxslər yalnız gəlir əldə etmir, eyni zamanda sosial müdafiə sisteminə inteqrasiya olunur, pensiya və sosial sığorta hüquqları qazanır. Bu isə uzunmüddətli perspektivdə sosial təminat sisteminin maliyyə dayanıqlığını artırır və cəmiyyət daxilində sosial bərabərliyin möhkəmlənməsinə xidmət edir.

Sosial-iqtisadi inkişaf baxımından məşğulluq insan kapitalının formalaşması və inkişafı ilə sıx bağlıdır. Əmək bazarında fəal iştirak peşə bacarıqlarının təkmilləşdirilməsinə, bilik və təcrübənin artırılmasına, innovativ düşüncə tərzinin inkişafına şərait yaradır. İş mühitində əldə edilən təcrübə əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur ki, bu da milli iqtisadiyyatın rəqabət qabiliyyətini artıran əsas amillərdən biri hesab olunur. İnsan kapitalına əsaslanan iqtisadi inkişaf modeli isə uzunmüddətli iqtisadi sabitliyin təmin edilməsində mühüm rol oynayır. Məşğulluğun genişlənməsi regional inkişaf proseslərinə də əhəmiyyətli təsir göstərir. Yeni iş yerlərinin yaradılması regionlararası sosial-iqtisadi fərqlərin azalmasına, daxili miqrasiyanın tənzimlənməsinə və əhalinin yaşayış səviyyəsinin balanslı şəkildə yüksəlməsinə imkan verir. Regionlarda məşğulluq imkanlarının artması yerli iqtisadi fəallığın güclənməsinə, kiçik və orta sahibkarlığın inkişafına və yerli resurslardan daha səmərəli istifadə olunmasına şərait yaradır. Bu isə ölkə üzrə iqtisadi inkişafın daha inklüziv və davamlı xarakter almasına səbəb olur. [6, 45]

Məşğulluq səviyyəsinin yüksəlməsi dövlət maliyyə sisteminə də müsbət təsir göstərir. İşləyən əhalinin sayının artması vergi və sosial sığorta daxilolmalarının genişlənməsinə gətirib çıxarır, nəticədə dövlət büdcəsinin gəlir bazası möhkəmlənir. Büdcə gəlirlərinin artması isə təhsil, səhiyyə, sosial müdafiə və infrastruktur layihələrinin maliyyələşdirilməsi imkanlarını genişləndirir. Beləliklə, məşğulluq iqtisadi artımın sosial nəticələrinin reallaşdırılmasını təmin edən əsas mexanizmlərdən birinə çevrilir. Müasir dövrdə rəqəmsallaşma və texnoloji inkişaf məşğulluğun strukturunda yeni dəyişikliklər formalaşdırır. Yeni iqtisadi fəaliyyət sahələrinin yaranması əmək bazarında çevikliyin artmasına, innovativ peşələrin meydana çıxmasına və qeyri-neft sektorunun inkişafına şərait yaradır. Bu dəyişikliklər əhalinin daha yüksək gəlir əldə etməsinə və əmək bazarında rəqabət qabiliyyətinin yüksəlməsinə imkan verir. Eyni zamanda keyfiyyətli məşğulluğun formalaşması sosial rifah göstəricilərinin yalnız kəmiyyət deyil, həm də keyfiyyət baxımından yaxşılaşmasına səbəb olur.

Məşğulluq sosial inteqrasiyanın gücləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. İş fəaliyyəti insanların cəmiyyətə iqtisadi və sosial inteqrasiyasını təmin edir, sosial təcrid riskini azaldır və ictimai iştirakçılığı artırır. Xüsusilə gənclərin, qadınların və həssas sosial qrupların əmək bazarına cəlb olunması sosial ədalətin təmin olunmasına və inklüziv inkişaf modelinin formalaşmasına xidmət edir. Məşğulluğun artımı iqtisadi inkişafın sosial yönümlülüyünü gücləndirən, əhali rifahını yüksəldən və gəlirlərin daha sabit şəkildə formalaşmasını təmin edən əsas amillərdən biri kimi çıxış edir. Dayanıqlı və keyfiyyətli məşğulluğun təmin edilməsi iqtisadi artımın real sosial nəticələrə çevrilməsinə imkan yaradır və cəmiyyətin uzunmüddətli sosial-iqtisadi inkişafının fundamental əsasını formalaşdırır. [3, 155]

Məşğulluq səviyyəsinin gəlir bölgüsü və iqtisadi bərabərliyə təsir mexanizmləri

Məşğulluq səviyyəsi iqtisadi sistemdə gəlirlərin formalaşması və bölüşdürülməsi prosesinə birbaşa təsir göstərən əsas amillərdən biri hesab olunur. Əmək bazarında iştirak edən əhalinin sayının artması iqtisadi resursların daha geniş kütlə arasında paylanmasına şərait yaradır və bu proses gəlir bərabərliyinin təmin edilməsində mühüm rol oynayır. İqtisadi fəaliyyətə cəlb olunan şəxslərin əmək gəlirləri əldə etməsi yalnız fərdi rifahın yüksəlməsi ilə məhdudlaşmır, eyni zamanda ümumi gəlir strukturunda balansın formalaşmasına və sosial-iqtisadi fərqlərin azalmasına səbəb olur.

Məşğulluğun artması əhalinin əsas gəlir mənbəyi olan əməkhaqqı gəlirlərinin genişlənməsinə gətirib çıxarır. Əmək gəlirləri iqtisadiyyatın ən stabil və davamlı gəlir növü hesab olunduğundan onların geniş yayılması gəlirlərin daha ədalətli bölgüsünü təmin edir. İşsizliyin yüksək olduğu şəraitdə gəlir imkanları əsasən məhdud sosial qruplar arasında cəmləşdiyi halda, məşğulluğun yüksəlməsi iqtisadi gəlirlərin daha çox insan tərəfindən əldə edilməsinə imkan yaradır. Bu isə gəlir konsentrasiyasının azalmasına və sosial təbəqələşmənin zəifləməsinə səbəb olur.

Əmək bazarında məşğulluq səviyyəsinin yüksəlməsi ev təsərrüfatlarının iqtisadi davranışına da əhəmiyyətli təsir göstərir. Stabil məşğulluq şəraiti ailə gəlirlərinin davamlılığını təmin edir, maliyyə risklərini azaldır və uzunmüddətli iqtisadi planlaşdırma imkanlarını genişləndirir. Davamlı gəlir əldə

edən əhali təhsil, səhiyyə, mənzil və digər sosial xidmətlərə daha çox investisiya edə bilir ki, bu da gələcək nəsillər arasında gəlir fərqlərinin azalmasına şərait yaradır. Beləliklə, məşğulluq yalnız cari gəlir bölgüsünü deyil, həm də gəlirlərin nəsillərarası bərabərliyini formalaşdıran mühüm iqtisadi mexanizm kimi çıxış edir. [9, 66]

Məşğulluğun genişlənməsi iqtisadi bərabərliyin təmin olunmasında sosial müdafiə sisteminin effektiv fəaliyyətinə də müsbət təsir göstərir. İşləyən əhalinin sosial sığorta və vergi sistemində iştirakı dövlətin yenidən bölüşdürmə imkanlarını artırır. Artan büdcə daxilolmaları sosial proqramların maliyyələşdirilməsini genişləndirir və aşağı gəlirli əhali qruplarının dəstəklənməsi üçün əlavə imkanlar yaradır. Bu proses nəticəsində iqtisadi artımın əldə etdiyi faydalar cəmiyyət daxilində daha balanslı şəkildə paylanır və sosial bərabərsizliyin azalması təmin olunur.

Məşğulluq səviyyəsinin gəlir bərabərliyinə təsiri əmək bazarında yaranan imkanların əlçatanlığı ilə də sıx bağlıdır. Əhalinin müxtəlif sosial qruplarının əmək fəaliyyətinə cəlb olunması gəlir fərqlərinin azalmasına mühüm təsir göstərir. İş imkanlarının genişlənməsi xüsusilə əmək bazarına daxil olmaqda çətinlik çəkən qrupların iqtisadi fəallığını artıraraq onların gəlir əldə etmək imkanlarını genişləndirir. Bu isə iqtisadi sistemdə sosial inteqrasiyanın güclənməsinə və gəlir bölgüsünün daha inklüziv xarakter almasına səbəb olur.

Məşğulluğun keyfiyyət göstəriciləri də gəlir bərabərliyinin formalaşmasında mühüm rol oynayır. Yüksək məhsuldarlığa əsaslanan iş yerlərinin yaradılması əməkhaqqı səviyyəsinin artmasına və əhalinin real gəlirlərinin yüksəlməsinə şərait yaradır. Keyfiyyətli məşğulluq əmək bazarında qeyri-sabit və aşağı gəlirli fəaliyyət növlərinin azalmasına səbəb olur, nəticədə gəlirlər arasındakı kəskin fərqlər tədricən zəifləyir. Əmək məhsuldarlığının artması isə iqtisadi artımın nəticələrinin daha geniş sosial təbəqələr arasında bölüşdürülməsinə imkan verir. İqtisadi bərabərliyin təmin olunmasında məşğulluğun regional aspekti də xüsusi əhəmiyyət daşıyır. Regionlar üzrə iş imkanlarının genişləndirilməsi iqtisadi fəaliyyətin paytaxt və iri şəhərlərdə cəmləşməsinin qarşısını alır, əhalinin müxtəlif ərazilərdə gəlir əldə etmək imkanlarını artırır və regional gəlir fərqlərinin azalmasına şərait yaradır. Bu proses ölkə daxilində sosial-iqtisadi tarazlığın formalaşmasına və inklüziv inkişafın güclənməsinə səbəb olur. [12, 91]

Məşğulluğun gəlir bölgüsünə təsiri istehlak və yığım davranışları vasitəsilə də özünü göstərir. Gəlir əldə edən əhalinin sayının artması daxili tələbin genişlənməsinə, iqtisadi aktivliyin artmasına və yeni iqtisadi imkanların yaranmasına səbəb olur. İqtisadi dövriyyənin genişlənməsi isə yeni iş yerlərinin yaradılmasını stimullaşdıraraq gəlir bölgüsündə müsbət multiplikativ effekt yaradır. Beləliklə, məşğulluq və gəlir bərabərliyi arasında qarşılıqlı gücləndirici iqtisadi əlaqə formalaşır. Müasir iqtisadi şəraitdə texnoloji inkişaf və rəqəmsal transformasiya məşğulluğun gəlir bölgüsünə təsir mexanizmlərini daha da aktuallaşdırır. Yeni iqtisadi fəaliyyət sahələrinin yaranması yüksək ixtisaslı əmək resurslarına tələbatı artırır və əmək bazarında gəlir imkanlarının genişlənməsinə səbəb olur. İnsan kapitalının inkişafı ilə müşayiət olunan məşğulluq artımı gəlir fərqlərinin struktur səbəblərinin azalmasına və iqtisadi imkanların daha geniş sosial qruplar üçün əlçatan olmasına şərait yaradır.

Cədvəl 1

Azərbaycanda məşğulluq və gəlir bərabərliyini xarakterizə edən əsas sosial-iqtisadi göstəricilər (2020–2024)

Göstəricilər	2020	2021	2022	2023	2024
İqtisadi fəal əhali (min nəfər)	5100	5170	5230	5310	5400
Məşğul əhali (min nəfər)	4800	4860	4920	5000	5100
İşsizlik səviyyəsi (%)	6.5	6.2	5.8	5.6	5.4
Orta aylıq əməkhaqqı (manat)	707	724	839	933	995
Adambaşına aylıq gəlir (manat)	660	720	820	910	970

Formal məşğul işçilərin sayı (min nəfər)	1650	1680	1710	1740	1760
Yoxsulluq səviyyəsi (%)	6.2	6.0	5.6	5.3	5.2
Cini əmsalı	0.29	0.29	0.28	0.28	0.27
Əmək gəlirlərinin ev təsərrüfatı gəlirlərində payı (%)	58	59	60	61	62

Mənbə: *[13], məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Son illərdə Azərbaycanda əmək bazarında müşahidə olunan müsbət dinamika məşğulluq səviyyəsinin yüksəlməsi ilə yanaşı əhalinin gəlir imkanlarının genişlənməsinə də şərait yaratmışdır. Statistik məlumatlara əsasən, ölkədə iqtisadi fəal əhalinin sayı 2020-ci ildə təxminən 5,1 milyon nəfər təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 5,4 milyon nəfərə yaxınlaşmışdır. Eyni dövrdə məşğul əhalinin sayı 4,8 milyon nəfərdən 5,1 milyon nəfərə qədər artmışdır ki, bu da əmək bazarında iştirak səviyyəsinin yüksəldiyini göstərir.

İşsizlik səviyyəsinin dinamikası məşğulluğun gəlir bölgüsünə təsirini aydın şəkildə nümayiş etdirir. Belə ki, ölkə üzrə işsizlik səviyyəsi 2020-ci ildə 6,5% təşkil etdiyi halda, 2024-cü ildə bu göstərici 5,4–5,5% intervalına qədər azalmışdır. İşsizliyin azalması əmək gəlirləri əldə edən əhalinin payının artmasına səbəb olmuş və nəticədə ev təsərrüfatlarının ümumi gəlirlərində əməkhaqqının xüsusi çəkisi yüksəlmişdir. Əhalinin nominal pul gəlirləri də məşğulluq artımı ilə paralel şəkildə yüksəlmişdir. Statistik göstəricilərə görə, adambaşına düşən aylıq gəlir 2019-cu ildə təxminən 635 manat olduğu halda, 2024-cü ildə 940–980 manat səviyyəsinə çatmışdır. Bu artım əmək bazarında məşğulluğun genişlənməsi və əməkhaqqı fondunun böyüməsi ilə birbaşa əlaqələndirilir. Eyni zamanda orta aylıq əməkhaqqı 2020-ci ildə 707 manat olduğu halda, 2024-cü ildə 980–1000 manat həddinə yaxınlaşmışdır.


Gəlir bərabərliyinin qiymətləndirilməsində istifadə olunan əsas göstəricilərdən biri olan Cini əmsalının dinamikası da məşğulluğun sosial təsirini əks etdirir. Azərbaycanda gəlir bərabərsizliyini ölçən bu göstərici son illərdə 0,27–0,29 intervalında sabit qalmaqla beynəlxalq müqayisədə nisbətən aşağı səviyyədə qiymətləndirilir. Bu hal əmək bazarında geniş məşğulluq imkanlarının mövcudluğu ilə əlaqələndirilir və gəlirlərin həddindən artıq konsentrasiyasının qarşısını alan mühüm faktor kimi çıxış edir. Formal məşğulluğun genişlənməsi də gəlir bölgüsünə müsbət təsir göstərmişdir. 2024-cü ilin məlumatlarına əsasən, əmək müqaviləsi ilə çalışan işçilərin sayı 1,75 milyon nəfəri keçmişdir ki, bu da sosial sığorta sisteminə daxil olan əhalinin payının artdığını göstərir. Sosial sığorta ödəyicilərinin sayının artması pensiya və sosial təminat mexanizmlərinin maliyyə dayanıqlığını gücləndirmiş və gəlir fərqlərinin azaldılmasına töhfə vermişdir.

Regionlar üzrə məşğulluq göstəricilərində də müsbət dəyişikliklər müşahidə olunur. Qeyri-neft sektorunda yaradılan yeni iş yerlərinin təxminən 60%-dən çoxu regionların payına düşür. Regional məşğulluğun genişlənməsi paytaxt və bölgələr arasında gəlir fərqlərinin azalmasına və əhali rifahının daha balanslı formalaşmasına səbəb olmuşdur. Yoxsulluq səviyyəsinin azalması məşğulluğun rifah üzərində təsirini göstərən mühüm statistik göstəricilərdən biridir. Azərbaycanda yoxsulluq səviyyəsi 2005-ci ildə 29,3% olduğu halda, son illərdə bu göstərici 5–5,5% intervalında qərarlaşmışdır. Yoxsulluğun azalmasında əmək bazarının genişlənməsi və məşğulluq imkanlarının artması əsas amillərdən biri kimi qiymətləndirilir.

Beynəlxalq müqayisələr göstərir ki, məşğulluq səviyyəsinin yüksək olduğu ölkələrdə əmək gəlirlərinin ümumi milli gəlirdə payı daha yüksək olur və gəlir bərabərsizliyi nisbətən aşağı səviyyədə qalır. Azərbaycanda da əmək gəlirlərinin ev təsərrüfatı gəlirlərində payı 60%-dən çox təşkil edir ki, bu da məşğulluğun əhali rifahının formalaşmasında dominant rol oynadığını sübut edir.

Ümumilikdə statistik göstəricilər göstərir ki, məşğulluğun artması əhalinin gəlir imkanlarının genişlənməsi, yoxsulluğun azalması, sosial müdafiə sisteminin güclənməsi və gəlir bərabərliyinin təmin olunması istiqamətində mühüm nəticələr formalaşdırır. Əmək bazarında davamlı məşğulluq artımı iqtisadi inkişafın sosial nəticələrə çevrilməsini təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir. Məşğulluq səviyyəsinin yüksəlməsi iqtisadi bərabərliyin təmin olunmasının əsas institusional və sosial mexanizmlərindən biri kimi çıxış edir. Əhalinin iqtisadi fəaliyyətə geniş şəkildə cəlb olunması

gəlirlərin daha balanslı bölgüsünü təmin edir, sosial təbəqələşməni zəiflədir və iqtisadi inkişafın nəticələrinin cəmiyyətin bütün üzvləri arasında paylaşılmasına imkan yaradır. Bu baxımdan məşğulluğun davamlı artımı yalnız iqtisadi göstəricilərin yaxşılaşması deyil, həm də sosial ədalətin və inklüziv rifah modelinin formalaşmasının əsas şərti kimi qiymətləndirilə bilər.



Mənbə: *[13], məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.*

Məşğulluğun artırılması istiqamətində siyasət mexanizmləri və rifah göstəricilərinin qiymətləndirilməsi

Müasir sosial-iqtisadi inkişaf modelində məşğulluğun artırılması dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biri kimi çıxış edir. Əmək bazarında dayanıqlı məşğulluğun təmin olunması yalnız işsizliyin azaldılmasına deyil, eyni zamanda əhalinin rifah səviyyəsinin yüksəldilməsinə, sosial müdafiə imkanlarının genişlənməsinə və iqtisadi bərabərliyin möhkəmlənməsinə xidmət edir. Bu baxımdan məşğulluq siyasəti iqtisadi artımın sosial nəticələrə çevrilməsini təmin edən əsas institusional mexanizm hesab olunur.

Azərbaycanda həyata keçirilən məşğulluq siyasəti əmək resurslarından səmərəli istifadə, yeni iş yerlərinin yaradılması və əmək bazarının çevikliyinin artırılması prinsiplərinə əsaslanır. Dövlət məşğulluq strategiyalarının əsas məqsədi işaxtaran və işsiz şəxslərin əmək bazarına inteqrasiyasını təmin etmək, onların gəlir əldə etmə imkanlarını genişləndirmək və sosial riskləri minimuma endirməkdən ibarətdir. Dövlət Məşğulluq Agentliyi əmək bazarının tənzimlənməsi, peşə hazırlığı proqramlarının təşkili, işsiz şəxslərin qeydiyyatı və məşğulluğun stimullaşdırılması tədbirlərinin həyata keçirilməsində mühüm rol oynayır. Agentlik həm işəgötürənlərə kadr seçimi üzrə dəstək göstərir, həm də işsiz və işaxtaran şəxslərin peşə hazırlığı və yenidən ixtisaslaşmasını təşkil edir .

Məşğulluğun artırılmasına yönəlmiş siyasət mexanizmlərinin mühüm istiqamətlərindən biri aktiv əmək bazarı proqramlarının tətbiqidir. Bu proqramlar vasitəsilə işsiz şəxslərin özünüməşğulluq fəaliyyətinə cəlb olunması, kiçik sahibkarlığın inkişafı və gəlir gətirən iqtisadi fəaliyyətlərin formalaşdırılması stimullaşdırılır. Özünüməşğulluq proqramları çərçivəsində vətəndaşlara biznes planların hazırlanması üzrə təlimlər keçirilir, avadanlıq və istehsal vasitələri təqdim olunur və fəaliyyətin davamlılığı dövlət tərəfindən monitorinq edilir. Bu yanaşma işsiz şəxslərin passiv sosial yardım alan statusundan çıxaraq iqtisadi fəallığa qoşulmasına imkan yaradır. [14, 85]

Son illərdə həyata keçirilən məşğulluq təşviqi tədbirləri nəticəsində ölkədə geniş miqyasda yeni iş yerləri yaradılmışdır. Statistik məlumatlara görə, son 20 il ərzində Azərbaycanda 3,3 milyondan çox yeni iş yeri yaradılmışdır ki, bu da əmək bazarının genişlənməsinə və işsizliyin azaldılmasına

əhəmiyyətli təsir göstərmişdir . Yeni iş yerlərinin yaradılması əhalinin əmək gəlirlərinin artmasına, daxili istehlakın genişlənməsinə və sosial rifah göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur.

Məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri də həssas əhali qruplarının əmək bazarına inteqrasiyasıdır. Dövlət tərəfindən tətbiq edilən kvota əsaslı iş yerləri və hədəf proqramları sosial müdafiəyə ehtiyacı olan şəxslərin məşğulluq imkanlarını artırmağa yönəldilmişdir. Bu mexanizmlər işəgötürənlərin yeni iş yerləri yaratmasını stimullaşdırmaqla sosial inklüzivliyi gücləndirir və gəlir bərabərsizliyinin azalmasına şərait yaradır. Məşğulluğun artırılması rifah göstəricilərinin yaxşılaşması ilə sıx qarşılıqlı əlaqədədir. Əmək bazarında iştirak edən əhalinin sayının artması sosial sığorta ödəyicilərinin sayını genişləndirir və sosial təminat sisteminin maliyyə dayanıqlığını gücləndirir. İşləyən əhali tərəfindən ödənilən sosial sığorta haqları pensiya və sosial müdafiə proqramlarının maliyyələşdirilməsinə imkan yaradır. Bu isə dövlətin sosial siyasətinin effektivliyini artıraraq əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.

Son dövrlərdə daşınmaz əmlak sektoru da daxil olmaqla bir çox sənayenin də sahələri rəqəmsal transformasiya dəyişikliyini gördü. Rəqəmsal texnologiya əmlakın alqı-satqısı və idarə edilməsində əməliyyatlara daha sürətli daxil olmaq, əldə etmək və idarə etmək imkanı verir. İnformasiya texnologiyaları, IoT, süni intellekt və blokçeyn sistemləri əmlaka sahiblik, əmlak ölçüləri, tarixi və digər məlumatları izləməyi asanlaşdırmaqdadır.

ƏSAS HİSSƏ

1. Daşınmaz əmlakın idarə edilməsinin ənənəvi üsulları

Ənənəvi daşınmaz əmlak idarəetmə üsulları çox vaxt sənədləşməyə əsaslanırdı. Bu üsullara bunlar daxildir: əmlakın qeydiyyatı, müqavilələrin təqdim edilməsi və vergi bəyannaməsi, əl ilə uçotun aparılması və statistik məlumatların toplanması, fərdiləşdirilmiş nəzarət və idarəetmə sistemləri. Bununla belə, bu üsulların bir sıra əhəmiyyətli çatışmazlıqları vardır. Birincisi, sənədlərin axtarışı və təsdiqlənməsi çox vaxt aparır və məlumat itkisinə səbəb olur. İkincisi, səhv qeydiyyat və ya məlumat itkisi riski yüksəkdir. Üçüncüsü, inzibatçıların və vətəndaşların lazımi məlumatlara dərhal çıxışı yoxdur, informasiyanın əlçatımlığı problemi yaranır. Nəticədə, ənənəvi idarəetmə üsulları səmərəliliyi azaldır və daşınmaz əmlak sektorunda şəffaflığı pozur.

2. Rəqəmsal texnologiyaların inkişafı və tətbiqi

Rəqəmsallaşma daşınmaz əmlak idarəçiliyinə bir neçə sahədə əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Bu daşınmaz əmlakın informasiya sistemləri və elektron qeydiyyatı misal göstərmək olar. Kadastr sistemləri daşınmaz əmlaka sahiblik və hüquqları elektron qaydada qeydiyyata almaqla yanaşı, hər bir dəyişikliyin tarixini rəqəmsal formada saxlayır, məlumatları tez və dəqiq şəkildə olmaqla bizə təqdim edir. Azərbaycan Daşınmaz Əmlak Kadastrı bu sahədə vacib rol oynayır, vətəndaşlara müxtəlif onlayn xidmətlər təklif edir.

Digər tətbiq sahəsi olaraq ağıllı binalar və Əşyaların İnterneti (IoT) texnologiyalarının istifadəsini göstərmək olar. Ağıllı binalarda enerji istehsalı, təhlükəsizlik, istilik və işıqlandırma sistemləri rəqəmsal sensorlar tərəfindən idarə olunur, IoT (Əşyaların İnterneti) texnologiyaları real vaxt rejimində hər bir bina elementinin monitorinqinə imkan verir. Rəqəmsal analitika və bazar təhlili əmlakın idarə edilməsində çox mühüm rol oynayır. Böyük məlumatların təhlili bazar araşdırmasına, qiymət meyllərini, tələb və təklifi daha tez və dəqiq təhlil etmə imkanı yaradır. Bu, investorlar və menecerlər üçün strateji qərarların qəbulunu əhəmiyyətli dərəcədə asanlaşdırır və bazarın effektiv idarə olunmasını təmin edir [4].

Daşınmaz əmlakın qeydiyyatı sahəsində yeni innovativ xidmət istifadəyə verilib. 2024-cü il fevralın 1-dən etibarən torpaq sahələrinə texniki pasportlar və meteoroloji planlar elektron qaydada veriləcək. İqtisadiyyat Nazirliyi yanında Daşınmaz Əmlak üzrə Dövlət Xidməti vətəndaş məmnuniyyətinin yaxşılaşdırılması, daşınmaz əmlakın qeydiyyatı sisteminin sadələşdirilməsi, xidmət prosedurlarının sadələşdirilməsi istiqamətində yeniliklərin tətbiqini davam etdirməkdədir. Ən son yeniliklərdən biri də torpaq sahələri üzrə texniki pasportların və meteoroloji planların elektron qaydada təqdim edilməsidir [1]. Belə ki, 2024-cü il fevralın 1-dən etibarən əvvəllər kağız formada verilmiş texniki pasportlar və torpaq sahələrinin plan və ölçülərinə dair sənədlər elektron qaydada təqdim olunacaq.

Rəqəmsal texnologiyalar, xüsusən Əşyaların İnterneti (IoT), süni intellekt və blokçeyn texnologiyaları daşınmaz əmlak sektorunda əməliyyat səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Obyektlərdə quraşdırılmış IoT-ə imkan verən sensorlar real vaxt rejimində monitorinqi təmin edir. Bu sensorlar enerji istehlakını, temperatur və rütubət səviyyələrini, təhlükəsizlik sistemlərinin işini izləyir. Nəticədə, menecerlər potensial nasazlıqlar zamanı dərhal müdaxilə edə, enerji xərclərini azalda və obyektləri daha səmərəli idarə edə bilərlər. Süni intellekt və məlumatların təhlili daşınmaz əmlak bazarında qərarların qəbulunu daha məlumatlı edir. Alqoritmlər qiymət meyllərini proqnozlaşdırmaq, müştəri davranışlarını təhlil etmək və investisiya risklərini qiymətləndirmək üçün istifadə olunur. Bu yanaşma bazar iştirakçılarına daha dəqiq strategiyalar hazırlamağa və resurslardan daha səmərəli istifadə etməyə imkan verir. Blokçeyn texnologiyası qiymətli kağızların, müqavilələrin və ödəniş əməliyyatlarının təhlükəsiz və dəyişməz saxlanmasını təmin edir. O, mərkəzləşdirilməmiş və ümumiləşdirilmiş formada məlumatların bərpası riskini minimuma endirir və əməliyyat şəffaflığını artırır. Nəticədə rəqəmsal idarəetmə modelini gücləndirir.

Kadastr və qeydiyyat sistemlərinin rəqəmsallaşdırılması daşınmaz əmlakın idarə edilməsində mühüm addımdır. Əmlakın qeydiyyatı, dövlət qeydiyyatı tarixi və bu sistemlərin digər hüquqi mexa-

nizmləri birbiri ilə bağlıdır. Bu, mərkəzləşdirilmiş yanaşmanı gücləndirir və məlumat itkisi və ya gecikmə riskini azaldır.

3. Daşınmaz əmlakın katastr və reyestr sistemlərinin rəqəmsallaşdırılması

Ölkəmizdə 2004-cü ildən daşınmaz əmlak hüquqları dövlət qeydiyyatının vahid sistemi fəaliyyət göstərir. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatını dövlət orqanı kimi Daşınmaz Əmlakın Dövlət Qeydiyyatı Xidməti həyata keçirir. Daşınmaz əmlakın, o cümlədən torpağın dövlət qeydiyyatı qeydə alınmış hüququn mövcudluğunu təsdiq edən yeganə sənəddir. Azərbaycanda daşınmaz əmlakın dövlət qeydiyyatı (reyestri) sistemi bir sıra funksiyaları yerinə yetirir. Daşınmaz əmlaka (torpaq) hüquqların dövlət qeydiyyatı sistemi mülkiyyət və digər mülkiyyət hüquqlarının hüquqi tanınması və qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sistem daşınmaz əmlaka hüquqları müəyyən edən sənədlərə hüquqi status verir, bu hüquqların uçotunu aparır, daşınmaz əmlakla bağlı müxtəlif hüquqi sənədlərin-servitut, uzufrukt, ipoteka, trest, icarə və digər yüklülüklərin qeydiyyatını təmin edir. Bu, daşınmaz əmlakla bağlı əməliyyatlarda şəffaflıq və hüquqi sabitlik yaradır [1].

Respublikamızda daşınmaz əmlaka (torpaq) hüquqların dövlət qeydiyyatına alınması üçün bir sıra hüquqi əsaslar mövcuddur. İlk növbədə, dövlət və ya bələdiyyə mülkiyyətində olan daşınmaz əmlakın özgəninkiləşdirilməsi, icarəyə verilməsi, istifadəsi və ya girov qoyulması haqqında qanunla müəyyən edilmiş qaydada icra hakimiyyəti orqanları və bələdiyyə orqanları tərəfindən qəbul edilmiş aktlar qeydiyyata alınması üçün əsasdır [1].

Bundan başqa, notariat qaydasında təsdiq edilmiş daşınmaz əmlakın alqı-satqısı müqavilələri, vərəsəlik hüququ haqqında şəhadətnamələr və qanunla nəzərdə tutulmuş digər sənədlər dövlət qeydiyyatına alınması üçün əsasdır. Qanuni qüvvəyə malik məhkəmə qərarları da daşınmaz əmlak hüquqlarının qeydiyyatı üçün hüquqi əsas rolunu oynayır.

Eyni zamanda, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək daşınmaz əmlaka hüquqları təsdiq edən müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş aktlar, şəhadətnamələr, qeydiyyat sənədləri hüquqi əsas kimi qəbul edilir. Bu sənədlər torpaq sahələrinə, fərdi yaşayış və bağ evlərinə, yeraltı sahələrə, su anbarlarına, meşələrə, çoxillik bitkilərə olan hüquqları təsdiq edə bilər.

Əlavə olaraq, qanunla nəzərdə tutulmuş digər əsaslar da daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatına alınması üçün hüquqi əsas yaradır. Belə ki, dövlət qeydiyyatı sistemi daşınmaz əmlakla bağlı əməliyyatlarda hüquqi müəyyənliyi, əmlakın mühafizəsini, təsərrüfat əməliyyatlarının təhlükəsizliyini təmin edən ilkin mexanizmlərdən biridir. Eyni zamanda elektron reyestr sistemləri mülkiyyət hüquqlarının operativ qeydiyyatını, ipoteka və yüklülüklərin izlənilməsini, hüquqi statusun real vaxt rejimində yoxlanılmasını mümkün edir. Bu isə daşınmaz əmlak bazarında riskləri azaldır və investisiya mühitini gücləndirir.

4. Rəqəmsallaşmanın üstünlükləri və perspektivləri

Hər şeyin rəqəmsallaşması pərakəndə satış sektorunda idarəetmə, optimallaşdırma, mübadilə və istehlak üsulunu əsaslı şəkildə dəyişdirəcək yeni ağıllı rəqəmsal şəbəkələr yaradır. Əşyaların İnterneti (IoT) rəqəmsal və fiziki dünyaları birləşdirir, biznes proseslərinin təhlükəsizliyini təmin etmək və avtomatlaşdırmaq üçün məlumatları toplayır, ölçür və təhlil edir. Rəqəmsal torpaq idarəetmə sistemləri məlumatların mərkəzləşdirilmiş məlumat bazasında saxlanmasını və dövlət orqanları arasında sürətli məlumat mübadiləsini təmin edir. Xüsusilə, kadastr və qeydiyyat məlumatlarının inteqrasiyası torpaq bazarında hüquqi şəffaflığın ilkin təminatına çevrilmişdir [3].

Daşınmaz əmlakın idarə edilməsində rəqəmsal texnologiyalardan istifadə bu sahədə idarəetmənin keyfiyyətini və səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaq . Müasir rəqəmsal həllər əməliyyat proseslərini sadələşdirir, resurslardan daha səmərəli istifadəni təmin edir və daha məlumatlı qərarların qəbulunu dəstəkləyir. İlk növbədə əsas üstünlüklərdən biri əməliyyatların sürətləndirilməsidir ki, bu da elektron sənəd dövriyyəsi, onlayn müraciət və qeydiyyat sistemləri, rə-

qəmsal xəritələr və kadastr məlumat bazaları fiziki yoxlamalara və kağız sənədlərə ehtiyacı azaldır. Bu, vaxt itkisini minimuma endirir və daha səmərəli xidmət göstərilməsi üçün şərait yaradır [3].

5. Gələcək perspektivlər və sektor üzərində təsiri

Rəqəmsal texnologiyalar yaxın gələcəkdə daşınmaz əmlak sektorunda daha çevik və innovativ idarəetmə modellərinin inkişafına imkan verəcək. Bu dəyişikliklər investorlar, dövlət qurumları və müştərilər üçün yeni imkanlar açacaqdır. İnvestorlar üçün üstünlüklər: Real vaxt rejimində verilənlər bazası, bazar təhlili alətləri və proqnozlaşdırma modelləri investorlara riskləri daha dəqiq qiymətləndirməyə imkan verir. Qiymət dinamikası, tələb-təklif göstəriciləri, daşınmaz əmlakın rentabelliyi haqqında müasir məlumatlar onlara daha əsaslı və etibarlı qərarlar qəbul etməyə imkan verir. Bu, investisiya mühitinin sabitliyini və cəlbediciliyini artmış olur. Dövlət idarəçiliyində üstünlükləri: Rəqəmsal reyestrlərin və kadastr sistemlərinin tətbiqi torpaq və digər daşınmaz əmlak üzərində hüquqların mərkəzləşdirilmiş və dəqiq uçotunu təmin edir. Məsələn, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yaradılmış rəqəmsal qeydiyyat sistemi vergitutma, ərazi planlaşdırılması, əmlakın idarə edilməsi proseslərinin səmərəliliyini artırır. İnteqrasiya edilmiş elektron məlumat bazaları dövlət orqanları arasında operativ məlumat mübadiləsinə imkan yaradır və inzibati prosedurları sadələşdirir.

İnvestor və müştərilər üçün üstünlükləri: Rəqəmsallaşma alqı-satqı əməliyyatlarının, icarə və digər hüquqi əməliyyatların daha sürətli və şəffaf icrasını təmin edir. Onlayn tətbiq sistemləri, elektron müqavilələr və rəqəmsal təsdiq mexanizmləri vaxt itkisini azaldır, insan səhvlərini minimuma endirir və hüquqi təhlükəsizliyi artırır [2].

Bundan əlavə, rəqəmsal texnologiyalar davamlılığın və enerji səmərəliliyinin təmin edilməsində mühüm rol oynayır. Ağıllı monitorinq sistemləri enerji və resurs istehlakını optimallaşdırır, ətraf mühitə təsiri azaldır və uzunmüddətli əməliyyat xərclərini azaldır. İstehsal proseslərinin avtomatlaşdırılması ümumi idarəetmə yükünü azaldır, sənayeni daha davamlı və rəqabətə davamlı edir.

NƏTİCƏ

Təhlil göstərir ki, rəqəmsal texnologiyalar daşınmaz əmlakın idarə edilməsində, yüksək keyfiyyətli mərhələnin yaranmasına səbəb olacaq. Elektron reyestrlər və kadastr sistemləri, məlumat bazasının yaradılması, analitik alətlər, avtomatlaşdırılmış idarəetmə mexanizmləri bu idarəetmə əməliyyatlarının sürətini artırmış, səmərəliliyini yüksəltmiş, hüquqi müdafiəni təmin edəcək.

Rəqəmsallaşma əmlakın qeydiyyatını və uçotunu sistemli və etibarlı edir ki, sənəd dövriyyəsini asanlaşdırmaqla yanaşı və insanların səhv etmə riskini azaldır. Bu, həm dövlət qurumlarına, həm də bazar iştirakçılarına inamı gücləndirir. Eyni zamanda, real vaxt məlumatlarının əldə edilməsi və təhlili daha məlumatlı idarəetmə və investisiya qərarları qəbul etməyə imkan verir. Çıxarışların electron qaydada verilməsindən sonra texniki passport və torpaq sahəsinə dair plan və ölçü sənədlərinin elektronlaşdırılması nəticəsində hazır sənədlərin əldə edilməsi üçün xidmət məntəqələrinə gəlmək aradan qaldırılıb. Bununla da vətəndaşlar vaxta qənaət etmək imkanı əldə etmiş olur.

Yenilik nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesində vətəndaş- məmur ünsiyyətini minimuma endirir, həmçinin əmlakın qeydiyyatını daha da sadələşdirməklə operativliyi artırır. Əlavə olaraq, kağız şəklində olan passport və torpaq sahələrinə dair plan və ölçü sənədlərinin itirilməsi, yararsız şəkilə düşməsi kimi problemlərin, sənədlərin saxtalaşdırılmasının və qanunsuz istifadə edilməsi kimi halların qarşısını aradan qaldırılır.

Bundan əlavə, rəqəmsal texnologiyalar enerji səmərəliliyinin artırılması, resursların idarə edilməsi və davamlı inkişaf prinsiplərinin həyata keçirilməsində də vacib rol oynayır. Ağıllı monitorinq və idarəetmə sistemləri əməliyyat xərclərini azaldır, həmçinin, daşınmaz əmlak aktivlərinin uzunmüddətli davamlılığını təmin edir.

Nəticədə, rəqəmsal transformasiya şəffaf, səmərəli və davamlı daşınmaz əmlak idarəetmə modelinin yaradılması üçün əsas sahədir. Gələcəkdə bu sahədə texnoloji innovasiyaların daha geniş tətbiqi idarəetmənin keyfiyyətinin yüksəldilməsinə, bazarın inkişafına və daha çox iqtisadi sabitliyə əhəmiyyətli dərəcədə kömək edəcəkdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Quliyev, R. (2008). Torpaq bazarı və torpaq ehtiyyatlarının idarə edilməsi. II cild. Bakı: "MBM".

2. Qasımlı, V., Talıbova, M., Quliyeva, G., Müseyibov, A., Mirzəyev, F., Qədəşov, A., Əhmədova, G. (2023). Rəqəmsal iqtisadiyyat. Bakı: Azprint Nəşriyyat.

3. Williamson, L., Enemark, S., Wallace, J., Rajabifard. (2010). Land administrarion for sustainable development. Redlands Calif: ESRİ Press Academic.

4. Ling, D.C. & Archer, W.R. (2020). Real estate principles: A value approach. Sixth edition. New York, NY: McGraw- Hill education.

M.Z.Yusifov
PhD, Associate p*rofessor, Azerbaijan University of Architecture and Construction PLE*
ORCID 0000-0002-5015-8354
G.A.Ibrahimova
master student, Azerbaijan University of Architecture and Construction PLE

The role of digital technologies in real estate management

Abstract

This article examines the effective use of digital applications in the real estate sector. In modern times, the development of technology has a huge impact on real estate transactions and makes the buying and selling and management processes faster, more transparent and more useful with the help of digital platforms. Digital tools facilitate access to important information such as the geographical location of the property, zoning status, geometric structure, title information and eliminate the need for field inspections. This is very important for both buyers and investors and allows for more informed decisions to be made.

Keywords*: real estate management, digital technologies, cadastre and registry system, digitalization, sustainable development.*

https://doi.org/10.58225/tim.2026-2-177-181

Ş.R.Quluzadə
Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0000-0001-9973-6373
shaiq-quluzade@mail.ru

Məqalə redaksiyaya daxil olub 17.03.2026
The article was received by editorial board on 17.03.2026
Статья принята к печати 17.03.2026

MONOLİT DƏMİRBETON KONSTRUKSİYALARIN İSTİSMAR DÖVRÜNDƏ ETİBARLILIĞININ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Respublikamızda monolit dəmirbeton binaların sürətlə inkişaf tendensiyası onun istismarı zamanı dayanıqlıq və etibarlıq məsələlərinidə aktual edir. Bu məqalə monolit dəmirbeton binaların konstruktiv elementlərinin istismar etibarlılığına təsir edən amillərin nəzərdən keçirilməsini özündə ehtiva edir. Bina və qurğuların həyat dövrünün əsas mərhələlərindən biri onun istismar mərhələsidir. Həmçinin məqalədə daşınmaz əmlak obyektlərinin konstruktiv elementlərinin istismar dövründə etibarlılığına təsir edən əsas amillər müəyyən edilməklə onların faiz nisbəti verilmişdir.

Acar sözlər: *monolit dəmirbeton binalar, istismar, etibarlıq, konstruktiv elementlər, etibarlılığa təsir edən əsas amillər, texniki və texnoloji həllər.*

Müasir tikinti sənayesində monolit dəmirbeton konstruksiyalar geniş tətbiq sahəsinə malik olmaqla, binaların və qurğuların dayanıqlığı və uzunömürlülüyünün təmin olunmasında mühüm rol oynayır. Son illərdə tikinti həcmlərinin artması, xüsusilə iri yaşayış və xüsusi təyinatlı obyektlərin inşasında monolit dəmirbetonun üstünlük təşkil etməsi bu konstruksiyaların istismar etibarlılığı məsələsini daha da aktuallaşdırmışdır. Binaların həyat dövrünün ən uzun mərhələsi olan istismar dövründə konstruktiv elementlərin öz funksiyalarını etibarlı şəkildə yerinə yetirməsi həm təhlükəsizlik, həm də iqtisadi baxımdan xüsusi əhəmiyyət kəsb edir.


Monolit dəmirbeton binaların istismar etibarlılığı yalnız tikinti mərhələsində deyil, həmçinin layihələndirmə və istismar prosesində qəbul olunan texniki və təşkilati qərarların düzgünlüyündən asılıdır. Bu mərhələlərdə buraxılan səhvlər və texnologiyaya əməl olunmaması sonrakı dövrlərdə konstruksiyaların dayanıqlığının zəifləməsinə, qüsurların yaranmasına və əlavə xərclərin artmasına səbəb olur. Xüsusilə tikinti-quraşdırma işləri zamanı texnoloji tələblərin pozulması və istismar mərhələsində texniki qulluq qaydalarına riayət edilməməsi etibarlılığa mənfi təsir göstərən əsas amillər sırasında yer alır.

Bu baxımdan monolit dəmirbeton konstruksiyaların istismar etibarlılığına təsir edən amillərin sistemli şəkildə araşdırılması, onların təsir dərəcəsinin müəyyən edilməsi və qarşısının alınması yollarının işlənməsi mühüm elmi-praktiki əhəmiyyət kəsb edir. Təqdim olunan məqalədə məhz bu istiqamətdə aparılan tədqiqatlar əsasında əsas amillər təhlil olunur və onların təsir xüsusiyyətləri qiymətləndirilir. Monolit dəmirbeton tikinti sənayesində geniş istifadə olunur, onun illik istifadəsi ildə yüz minlərlə kubmetrə çatır. Gələcəkdə də monolit dəmirbeton tikintidə əsas tikinti materialı olaraq qalacaqdır. Beləliklə, respublikanızda tikinti bazarının məlumatlarına görə, hazırda mənzillərin 76% -dən çoxu monolit dəmirbetondan tikilir, yeraltı tikililərin, hərbi obyektlərin və xüsusi təyinatlı obyektlərin tikintisində geniş istifadə olunur. Ümumiyyətlə, monolit dəmir-betondan

tikinti həcminin artması tendensiyası müşahidə olunur və hələ uzun müddətdə bu davam edəcəkdir. Respublikamızın işğal altında olan ərazilərinin azad edilməsi və bu ərazilərdə hlə uzun illər tikinti qurucululuq işlərinin aparılması monolit dəmirbeton işlərinin həcmini xeyli artıracaqdır.

Bu baxımdan və texniki və texnoloji həllərin perspektivləri üçün müasir tələblərə və meyarlara cavab verən ən geniş yayılmış konstruksiya materialı kimi monolit dəmir-betonun tətbiq dairəsinin daha da artmasını göstərən tendensiyaları nəzərə alaraq, onların istismarına təsir edən amillərin ətraflı öyrənilməsi və monolit dəmir-betondan hazırlanmış konstruksiyaların istismar etibarlılığının tədqiqi baxımından xüsusi əhəmiyyət kəsb edir. Monolit dəmirbeton binaların istismar davamlılığı, onun konstruktiv elementlərinin, komponentlərin və bütövlükdə binanın texniki xidmət göstərilməklə nəzərdə tutulmuş tələb olunan istismar müddəti ərzində istifadəyə yararlı qalma qabiliyyətidir [1, s.5].

Monolit dəmirbeton konstruksiyalarda keyfiyyətin təmin olunması üç əsas mərhələ üzrə həyata keçirilir (Şəkil 1): layihələndirmə, tikinti və istismar. Layihələndirmə mərhələsində konstruksiyaların və beton tərkibinin düzgün seçilməsi, tikinti mərhələsində beton qarışığının hazırlanması, daşınması, yerləşdirilməsi, sıxlaşdırılması və sonrakı qulluq işləri, istismar mərhələsində isə konstruksiyaların yoxlanması, qüsurların aradan qaldırılması, cari və əsaslı təmir işlərinin aparılması əsas rol oynayır.



Şəkil 1. Monolit dəmirbeton işlərinin yerinə yetirilməsi fazası və mərhələləri

Monolit dəmirbeton üzərində işin əsas mərhələləri dəqiq müəyyən edildikdə, bu materialdan hazırlanan konstruksiyanın istismar etibarlılığına mənfi təsir göstərən amilləri nəzərdən keçirə bilərik.

İlkin olaraq, layihələndirmə mərhələsində layihələndirilən konstruksiyalara yanlış aşağıdakı parametrlər daxil edilə bilər.

- Konstrukktiv sxemin düz seçolməməsi, yüklərin düzgün yerləşdirilməməsi.
- Memarlıq formalarının mürəkkəbliyi, nəticədə layihə sxemlərinin uyğunsuzluğu.
- Mühəndis-geoloji tədqiqatların qeyri-kafi məlumatlarından istifadə, bu da bünövrə qüsurlarının əmələ gəlməsinə səbəb olur.

• Müəyyən edilmiş tələblərə və faktiki istismar şərtlərinə cavab verməyən materiallardan istifadə etməklə tikinti elementlərinin və onların ayrı-ayrı hissələrinin layihələndirilməsi.

• Konstruktiv layihə sənədlərinin qeyri-peşəkar icrası, nəticədə işlərin keyfiyyətsiz olması.

• Layihələndirilən konstruksiyalar tikinti sahəsində faktiki texnoloji prosesləri nəzərə almır.

Betonun tərkibinin layihələndirilməsi mərhələsində istismar etibarlılığına təsir edən amillərə gəldikdə isə aşağıdakı pozuntular baş verə bilər:

• Beton qarışığının tərkibinin layihələndirilməsi üçün yanlış metodikanın seçilməsi.

• Beton qarışığının tərkib hissələrini təyin edən səhv parametrlərin istifadəsi, nəticədə sıxılma və dartılma müqaviməti, şaxtaya davamlılıq dərəcəsi, suya davamlılıq, orta sıxlıq və iş qabiliyyətinə görə sinifdə uyğunsuzluq səbəbindən betonun keyfiyyətinin azalması.[3, səh. 19].

• Sınaq mərhələsində istifadə olunan beton elementlərinin və beton qarışığının tərkibini tənzimləməsinə nəzarət etməmək.

• Beton qarışığında iştirak edən materialların münasibət tərkibinin səhv hesablanması (sement, xırda doldurucu, iri doldurucu)

Tikinti mərhələsində istismar etibarlılığına təsir edən ilkin amillər beton qarışığının yüksək keyfiyyətli istehsalına uyğun gəlməyən amillər ola bilər; bu, zavodda beton qarışığının istehsalı üçün texnoloji prosesin pozulmasıdır:

Daşınma mərhələsində beton qarışığının keyfiyyətinə aşağıdakı kimi amillər təsir edə bilər:

• icazə verilən daşınma müddətini aşmaq (1 saatdan 1,5 saata qədər);

• hazır beton üçün icazə verilən daşınma məsafəsinə (50-70 km-dən çox olmayan) riayət edilməməsi;

• hazır beton daşıyan avtomobilin düzgün seçilməməsi.

İstehsalçıdan gətirilən beton qarışığı qoyarkən, gələcək konstruksiyanın keyfiyyətinin azalması ilə nəticələnən pozuntular da baş verə bilər.

Belə amillərə aşağıdakılar daxildir:

• daşınan avtomobildən beton qarışığı tədarükü üçün düzgün icra üsulunun seçilməməsi, beton qarışığının sərbəst boşalma hündürlüyünə (2 metrdən çox olmayan) riyayət edilməməsi;

• betonun hazırlanmamış qablara boşaldılması.

Betonlama üçün əsas tələb, hər bir təbəqənin diqqətlə sıxılması ilə beton qarışığının texnoloji cəhətdən düzgün yerləşdirilməsidir. Bu mərhələdə aşağıdakı pozuntular müəyyən edilə bilər:

• Beton qarışığı 1,5 MPa-dan az möhkəmlik əldə etməmiş tikiş sahəsinə qoyulmuşdur;

• İşçi tikişin səthi hazırlanmamışdır (çirk və sement məhlulu pərdəsindən təmizlənməmiş, sıxılmış hava ilə üfürülməmiş və səthi su ilə nəmləndirilməmişdir);

• Bütöv iri həcmli müxtəlif konstruksiya betonlanarkən qoyulacaq beton qatının qalınlığı hesablanmır (adətən daxili vibratorun işçi hissəsinin uzunluğunun 125%-dən çox olmamaqla qəbul edilir);

• Müxtəlif tipli konstruksiyalarda betonun qoyulması texnologiyasına əməl olunmur;

• Beton qarışığını vibrasiya etmək üçün düzgün üsul seçilmir;

• Titrəmə qurğusunun hərəkət addımı səhv təyin edilib (1,5-1,7 təsir radiusundan çox olmayan);

• Titrəmə manipulyasiyalarının müddəti müşahidə edilmir (daxili vibratorlar üçün – 20-40 saniyə, səthi – 20-60 saniyə, xarici – 60 saniyə)

Beton döşəndikdən sonra betona qulluq və qəlibin sökülməsi mərhələsi başlayır. Bu mərhələdə aşağıdakı pozuntular baş verə bilər:

• Quruma temperatur şəraiti qorunmur;

• 15° C-dən yuxarı temperaturda betonun su ilə sistematik nəmləndirilməsi aparılmamışdır; (müxtəlif sement əsaslı betonun müxtəlif nəmlənmə müddətləri, həmçinin tezliyi var).

• İsti, günəşli havalarda konstruksiya xüsusi üzlük materialları ilə günəş radiasiyasından qorunmur;

• Beton ən azı 1,5 MPa möhkəmlik əldə edənə qədər sərtləşmə dövründə konstruksiya üzərində insanların hərəkəti, eləcə də beton səthinini hamarlayan qurğudan istifadə edildikdə;

• Qəlib qeyri-peşəkar şəkildə sökülməsi nəticəsində çat və qopmanın yaranması;

• Konstruksiyadan ölçü cihazlarının vaxtında çıxarılmaması.

Son mərhələdə konstruksiyaların səthləri işlənir. Bu mərhələdə qəlib söküldükdən sonra aşkar edilmiş qüsurlar düzəldilir.

Tikinti mərhələsindən sonra əmlakın texniki istismarı mərhələsi gəlir.


Bu mərhələ ən uzundur və obyektin ümumi həyat dövrünün təxminən 95-97%-ni təşkil edir. Binanın təyinatından asılı olaraq xidmət müddəti 15 ildən 150 ilə qədərdir.

Monolit dəmirbeton tikililər bir qayda olaraq birinci, ikinci və ya üçüncü istismar qrupuna aid edilir, bu zaman göstərilən xidmətin səviyyəsindən asılı olaraq obyektlər təxminən 100-150 il ömür sürürlər.

Daşınmaz əmlakın istismarı mərhələsində təşkilati və texnoloji cəhətdən bir-biri ilə əlaqəli olan və eyni zamanda əmlakın təhlükəsizliyini təmin etməyə yönəlmiş tədbirlər kompleksi hazırlanır. Bu tədbirlər kompleksinə əsasən binanın cari və əsaslı təmirin aparılması mərhələsi daxil edilir [2, s.142,4, s.4].

Cari təmir mərhələsində etibarlılıq texniki istismar tələblərinə uyğun təmirin aparılması, onun dövrlülüyünün düzgün müəyyən edilməsi və işlərin keyfiyyətinə nəzarətlə bağlıdır. Əsaslı təmir mərhələsində isə konstruksiyaların texniki vəziyyətinin qiymətləndirilməsi, keyfiyyətli layihə sənədlərinin hazırlanması, zədələrin aradan qaldırılması və binanın fiziki aşınmasının minimuma endirilməsi əsas rol oynayır.

Bu amillərin təhlili əsasında istismar etibarlılığına təsir edən faktorların faiz nisbətini əks etdirən diaqram tərtib edilmişdir (Şəkil 2).



Şəkil 2. Daşınmaz əmlakın etibarlılığına təsir edən amillərin faiz diaqqramı

A.Tikinti materialının keyfiyyətinin aşağı olması-4%

B. İstismar qaydalarının pozulması- 38%

V. Tikinti quraşdırma işlərinin yerinə yetirilməsi zamanı texnologiyaya düzgün riayət olunmadıqda 53%

Q. Konstruksiyaların layihələndirilməsində buraxılan səhvlər 5%

Şəkilin nəticələrinə əsasən demək lazımdır ki, tikinti mərhələsində tikinti-quraşdırma işlərinin aparılması texnologiyasına əməl edilməməsi daşınmaz əmlakın istismar etibarlılığına mənfi təsir göstərən amillərin ümumi miqdarının 53% -ni təşkil edir.

Həmçinin ümumi miqdarın 38%-i istismar mərhələsində olan amillərdir ki, burada binaya texniki qulluq üçün əsas tələblərə, habelə cari və əsaslı təmirin aparılması qaydalarına əməl edilməməsi binaların istismar etibarlılığını azaldır.

Layihələndirmə mərhələsində yarana biləcək və istismar etibarlılığına təsir edə biləcək amillər 5% təşkil edir. Bu göstərici ilk baxışdan kiçikdir, lakin birinci mərhələdə edilən səhvlər sonrakı ikisində mənfi nəticələrə gətirib çıxaracaq ki, bu da monolit dəmir betondan olan tikintinin texniki vəziyyətini pisləşdirəcək və son nəticədə istismar etibarlılığına tam cavab verə bilməyəcək.

Üç mərhələnin nəzərdən keçirilməsi nəticəsində konstruksiyaların istismar etibarlılığına mənfi təsir göstərən əsas amillər müəyyən edilmişdir. Həmçinin, yuxarıda təsvir edilmiş tədbirlər, şərtlər və tövsiyələr toplusuna əməl edilməməsi binanın etibarlılığının və dayanıqlığının azalmasına, istismar, istehlak xüsusiyyətlərinin və innovativ potensialın azalmasına, binanın ömrünün azalmasına səbəb olacaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Fərzəliyev S.A., Bələgözov Ə.M. (2019).Monolit dəmirbeton işlərinin texnologiyası., Azəri poliqrafiyası, səh-5.

2. Сервеинг: организация, экспертиза, управление. Часть третья. Управленческий модуль системы сервейинга: учебник под общ.ред. проф. П.Г. Грабового – Москва: Издательство «АСВ», ИИА «Просветитель», 2015. –552 с.

3. Чулкова И.Л., Санькова Т.А. (2009). Автоматизированное проектирование составов бетонных смесей. – Омск: СибАДИ, – 120 с.

4. Клюев К.А, Кузнецов А.А. (2017). Влияение дефектов конструкций и ошибок проектирования на этапах возведения монолитного каркасного здания // СтройМного. – №1. – с. 6.

Sh.R.Guluzade
Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0001-9973-6373

Evaluation of the reliability of monolithic reinforced concrete structures during operation

Abstract

The trend of rapid development of monolithic reinforced concrete buildings in our republic makes the issues of durability and reliability relevant during its operation. This article contains a review of factors affecting the operational reliability of structural elements of monolithic reinforced concrete buildings. One of the main stages of the life cycle of buildings and facilities is the stage of its operation. Also, in the article, the main factors affecting the reliability of structural elements of real estate objects during their operation are determined and their percentage ratio is given.

Keywords: *monolithic reinforced concrete buildings, operation, reliability, constructive elements, main factors affecting reliability, technical and technological solutions.*

https://doi.org/10.58225/tim.2026-2-182-188

H.R.İsmailov
magistrant,Azərbaycan Dövlət İqtisad Universiteti
İsmayilovh0@gmail.com

Məqalə redaksiyaya daxil olub 28.03.2026
The article was received by editorial board on 28.03.2026
Статья принята к печати 28.03.2026

TİKİNTİ LAYİHƏLƏRİNİN MALİYYƏLƏŞMƏ MƏNBƏLƏRİNİN AUDİTİNDƏ BEYNƏLXALQ AUDİT STANDARTLARININ TƏTBİQİ

Xülasə

Tikinti layihələrinin maliyyələşmə mənbələrinin auditi layihə prosesinin şəffaf və səmərəli idarə olunması üçün mühüm əhəmiyyət kəsb edir. Tikinti sahəsi kapitaltutumlu olması, çoxsaylı tərəflərin iştirakı və yüksək maliyyə riskləri ilə xarakterizə olunduğu üçün bu layihələrin maliyyələşmə mexanizmləri xüsusi audit yanaşması tələb edir. Layihələrin maliyyələşməsi daxili (şirkətin öz vəsaitləri, amortizasiya ehtiyatları, səhm kapitalı) və xarici mənbələrdən (bank kreditləri, investisiya fondları, dövlət maliyyələşməsi, PPP layihələri və beynəlxalq maliyyə institutları) formalaşır. Bu mənbələrin strukturlaşdırılması layihənin risk səviyyəsi, gəlirlilik proqnozları və tərəfdaşların maraqları ilə müəyyən edilir. Beynəlxalq Audit Standartları (ISA) tikinti layihələrinin maliyyələşmə auditində şəffaflığın və obyektivliyin təmin edilməsində əsas metodoloji baza hesab olunur. ISA 200, 315, 330, 500, 520, 540 və 700 kimi standartlar auditorun riskləri müəyyənləşdirməsi, audit sübutlarını toplaması və maliyyə hesabatlarının etibarlılığını qiymətləndirməsi üçün çərçivə yaradır. Audit prosesi planlaşdırma, risklərin qiymətləndirilməsi, prosedurların hazırlanması, audit sübutlarının toplanması və yekun qiymətləndirmə mərhələlərini əhatə edir. Nəticə olaraq, ISA standartlarının tətbiqi maliyyələşmə mənbələrinin düzgünlüyünü, vəsaitlərin təyinat üzrə istifadəsini və layihələrin dayanıqlığını təmin edir.

Açar sözlər: *tikinti layihələri, beynəlxalq audit, maliyyə mənbələri, beynəlxalq standartlar.*

GİRİŞ

Tikinti layihələri iqtisadiyyatın ən kapitaltutumlu sahələrindən biridir və bu layihələrin uğurla həyata keçirilməsi onların maliyyələşmə mənbələrinin düzgün seçilməsi və idarə olunmasından bilavasitə asılıdır. Tikinti layihələrinin maliyyələşməsi çoxşaxəli maliyyə axınları, müxtəlif investor qrupları və dövlət tənzimləmələri ilə əlaqəli olduğundan, bu proses həm maliyyə baxımından, həm də audit baxımından xüsusi yanaşma tələb edir. Maliyyələşmə mənbələrinin strukturlaşdırılması layihənin ölçüsündən, risk səviyyəsindən, investisiya gəlirlərinin proqnozundan və tərəfdaşların maraqlarından asılı olaraq dəyişir. Tikinti layihələrində maliyyə mənbələrinin müxtəlifliyi layihənin sabitliyi və davamlılığı üçün mühüm rol oynayır. Tikinti layihələrinin maliyyələşmə mənbələri ümumilikdə daxili (özəl kapital) **və** xarici (kənardan cəlb edilmiş) mənbələrdən ibarətdir. Daxili mənbələrə müəssisənin öz vəsaitləri, mənfəət ehtiyatları, amortizasiya ayırmaları və səhmdar kapitalı daxildir. Bir çox tikinti şirkətləri layihənin ilkin mərhələsində məhdud risk götürmək üçün daxili kapitaldan istifadə edirlər. Bu metod layihənin başlanğıcının maliyyələşməsi, ilkin layihələndirmə, texniki-iqtisadi əsaslandırma (TİƏ), torpaq sahəsinin alınması və icra sxeminin hazırlanması üçün daha məqsədəuyğundur. Daxili mənbələrin üstünlüyü onların bank faizləri və borc xərcləri yaratmamasıdır, lakin böyük həcm tələb edən iri layihələr üçün daxili vəsait adətən kifayət etmir. Ən

geniş yayılmış xarici maliyyə mənbəsi bank kreditləridir. Banklar layihə maliyyələşməsi müqabilində müəyyən faizlə uzunmüddətli kapital təqdim edirlər. Tikinti sahəsində kreditlərin yüksək paya malik olmasının səbəbi bu sektorun əsasən uzun müddətə yayılmış dövriyyəyə malik olmasıdır. Bank kreditlərinin üstünlüyü layihənin likvidlik ehtiyaclarını ödəməsi və ilkin mərhələdə kapital çatışmazlığını aradan qaldırmasıdır. Lakin kredit riskinin yüksəkliyi, faiz xərclərinin illik olaraq artması və kreditin qaytarılmaması halında girov mexanizmlərinin tətbiqi tikinti şirkətləri üçün əlavə risklər yaradır. Banklar kredit ayırarkən layihənin maliyyə modelini, nağd pul axınını, layihənin iqtisadi səmərəliliyini və tikinti şirkətinin reytinqini diqqətlə analiz edirlər. Bundan əlavə, tikinti layihələrinin maliyyələşməsində investisiya fondları, inkişaf fondları və özəl kapital firmaları mühüm rol oynayır. Bu tip fondlar əsasən kommersiya məqsədli tikinti layihələrinə sərmayə yatırırlar. İnvestisiya fondları layihənin gəlirliliyinə əsaslanır və layihənin gələcək icarə gəlirləri və ya satış gəlirləri hesabına öz yatırımlarını geri almağı planlaşdırırlar. Fondlar adətən layihənin müəyyən faizinə sahib olurlar və layihənin idarə edilməsində söz sahibidirlər. Bu maliyyələşmə forması layihənin risklərini investorlar arasında bölüşdürməklə daha dayanıqlı maliyyə strukturu yaradır.

ƏDƏBİYYAT İCMALI

Tikinti layihələri əsasən dövlət proqramları və dövlət-özəl tərəfdaşlıq (PPP) modeli ilə də maliyyələşdirilir. Xüsusilə infrastruktur layihələri yollar, körpülər, su təchizatı, sosial obyektlər və sənaye parkları dövlət dəstəyinə ehtiyac duyur. PPP modelində dövlət layihənin torpaq təminatını, icazələrini, zəmanətlərini və bəzən ilkin kapitalını təmin edir; özəl tərəfdaş isə layihənin tikintisi, istismarı və idarəetməsini öz öhdəsinə götürür. PPP modellərinin üstünlüyü layihənin icra risklərinin bölüşdürülməsi, maliyyə yükünün azaldılması və dövlət üçün əlavə fiskal imkanların yaradılmasıdır. Bu maliyyələşmə mexanizmləri audit baxımından daha mürəkkəbdir, çünki dövlət və özəl sektor arasında şəffaflıq tələbləri daha yüksək olur. Tikinti layihələrinin bir digər maliyyələşmə mənbəyi xarici investisiyalar və beynəlxalq maliyyə institutlarıdır (World Bank, EBRD, ADB və s.)**.** Bu qurumlar əsasən iri infrastruktur layihələrini aşağı faizlərlə maliyyələşdirirlər. Beynəlxalq maliyyənin üstünlüyü şəffaf audit standartlarının tətbiqi, risklərin ətraflı qiymətləndirilməsi və layihələrin dayanıqlılığına xüsusi önəm verilməsidir (Collings, S., 2011). Lakin beynəlxalq kreditlər ciddi hesabatlılıq, əməl edilməli standartlar və əlavə audit tələbləri yaradır. Maliyyələşmə mənbələrinin strukturlaşdırılmasınd**a** layihə maliyyə modeli xüsusi əhəmiyyət daşıyır. Bu model tikinti layihəsinin gəlir proqnozlarını, xərclərini, borc ödənişlərini, amortizasiya planını və layihənin gəlirliliyini əks etdirir. İnvestorlar və banklar maliyyələşmə qərarını maliyyə modelinin düzgünlüyünə əsaslanaraq verirlər. Bu səbəbdən maliyyə modeli audit zamanı da əsas yoxlama obyektidir. Tikinti layihələrinin maliyyələşməsi müxtəlif risklərlə müşayiət olunur. Buraya maliyyə riskləri, valyuta riskləri, tikinti gecikmələri, smetaların şişirdilməsi, podratçı ilə bağlı problemlər və korrupsiya riskləri daxildir. Maliyyələşmə mənbələrinin düzgün seçim edilməməsi layihənin dəyərinin artmasına, gecikmələrə və nəticədə maliyyə dayanıqsızlığına səbəb ola bilər. Bu səbəbdən tikinti maliyyəsinin auditində bu risklərin qiymətləndirilməsi ISA standartları əsasında aparılır.

Maliyyə mənbələrinin şəffaflığı və hesabatlılıq səviyyəsi auditin keyfiyyətinə birbaşa təsir edir. Maliyyələşmə mənbələrinin qeyri-şəffaflığı, vəsait axınlarının izlənməməsi və maliyyə öhdəliklərinin düzgün qeydə alınmaması həm auditorlar, həm də investorlar üçün risk yaradır. Buna görə də tikinti layihələrinin maliyyələşməsi yalnız maliyyə təminatı deyil, həm də ciddi nəzarət və audit tələb edən prosesdir. Tikinti layihələrinin maliyyələşməsi yüksək kompleksliyə, çoxsaylı tərəflərin iştirakına, böyük həcmli və uzunmüddətli kapital qoyuluşlarına əsaslandığı üçün bu sahədə audit aparılması xüsusi metodologiya və beynəlxalq standartlara uyğun yanaşma tələb edir. Beynəlxalq Audit Standartları (ISA) tikinti layihələrinin maliyyələşmə əməliyyatlarının düzgünlüyünü, şəffaflığını və etibarlılığını təmin etmək üçün ən etibarlı normativ çərçivə hesab olunur (Boolaky, P., Omoteso, K., 2016). ISA standartları auditorun peşəkar qərarvermə prosesini dəstəkləyir, audit sübutlarının keyfiyyətini artırır və auditor rəyinin obyektivliyini təmin edir. Tikinti

layihələrinin maliyyələşmə auditində ISA-nın tətbiqi həm investorlar, həm dövlət qurumları, həm də kredit təşkilatları üçün risklərin azaldılmasına xidmət edir.

Cədvəl 1

MHBS-nin tətbiqinə təsir edən amillər və onların maliyyə hesabatlarının keyfiyyətinə təsiri

	Alt-maddələr / Təsvir	Əlaqə
IFRS-in Tətbiqinə Təsir Edən Amillər	- Qavranılan faydalar (Perceived Benefits) - Tətbiqetmə asanlığı (Perceived Ease of Implementation) - Hüquqi tələblər (Legal Requirements) - Dövlət siyasəti (Government Policy)	Bu amillər birbaşa IFRS-in tətbiqinə təsir edir
IFRS-in Tətbiqi	Müəssisənin IFRS standartlarına keçidi, onların tətbiqi səviyyəsi və uyğunluq dərəcəsi	IFRS tətbiqi Maliyyə Hesabatlarının Keyfiyyətini artırır
Daxili Nəzarət Sistemi	Müəssisədə nəzarət mexanizmləri, risklərin monitorinqi, daxili audit, hesabatların doğruluğuna nəzarət	Daxili nəzarət sistemi IFRS → Keyfiyyət əlaqəsini moderləşdirir (gücləndirir)
Maliyyə Hesabatlarının Keyfiyyəti	IFRS tətbiqi və daxili nəzarət nəticəsində formalaşan keyfiyyət səviyyəsi	Keyfiyyət 5 əsas göstəriciyə bölünür
Maliyyə Hesabatlarının Keyfiyyəti (alt-mezarlar)	- Əlaqəlilik (Relevancy) - Dəqiqlik (Accuracy) - Anlaşıqlılıq (Understandability) - Müqayisəlilik (Comparability) - Vaxtında təqdim edilmə (Timeliness)	IFRS tətbiqi → Keyfiyyət indikatorlarının yaxşılaşması

Mənbə: *Johri, A., 2024*

Audit prosesinin ümumi prinsipləri ISA 200 – "Müstəqil auditorun ümumi məqsədləri və Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması" standartı ilə müəyyən edilir. Bu standart auditorun peşəkar şübhəçilik nümayiş etdirməsini, əhəmiyyətli səhvlərin aşkarlanması üçün lazımi səviyyədə peşəkar diqqət göstərməsini və auditin beynəlxalq tələblərə uyğun aparılmasını tələb edir. Tikinti layihələrində bu standart xüsusilə vacibdir, çünki layihə maliyyəsi çox zaman kompleks müqavilələr, çoxpilləli ödəmələr və müxtəlif maliyyə mənbələrindən ibarət olur. Auditor həm saxtakarlıq, həm də qeyri-qəsdən buraxılmış səhvlərin aşkar olunması üçün layiqli audit prosedurlarını müəyyən etməlidir. Tikinti maliyyəsinin auditində ISA 315 – "Risklərin müəyyən edilməsi və qiymətləndirilməsi" standartının rolu əvəzsizdir. Bu standart auditoru layihənin maliyyələşmə strukturu, tikinti müqavilələri, smeta sənədləri, podratçı və subpodratçı münasibətləri, maliyyə axınları, kredit müqavilələri və texniki-iqtisadi əsaslandırma üzrə risklərin qiymətləndirilməsinə yönəldir. Tikinti layihələrində risk səviyyəsi digər sektorlarla müqayisədə daha yüksək olduğundan auditor risklərin mənbələrini düzgün müəyyənləşdirməlidir. Məsələn, smeta şişirdilməsi, layihə gecikmələri, əlavə xərclərin düzgün sənədləşdirilməməsi, müqavilə öhdəliklərinə uyğun olmayan ödənişlər, dövlət investisiya proqramlarında korrupsiya riski bu sahədə geniş yayılmış risk faktorlarıdır (Mohsen, H. A., və b.,2021).

Risklər müəyyən edildikdən sonra auditor ISA 330 – "Auditorun qiymətləndirilmiş risklərə cavab tədbirləri" standartına uyğun prosedurlar hazırlayır. Tikinti layihələrinin maliyyələşməsi üzrə auditdə cavab tədbirləri adətən aşağıdakı istiqamətləri əhatə edir: ödəniş sənədlərinin detal auditoriyası, müqavilələrin bənd-bənd təhlili, faktiki xərclərlə smeta arasındakı uyğunsuzluqların

araşdırılması, kredit və investisiya vəsaitlərinin təyinat üzrə istifadə olunmasının yoxlanılması, layihə çərçivəsində verilmiş avansların əsaslandırılması və istifadə vəziyyətinin monitorinqi. Bu tədbirlər auditorun smetaların manipulyasiyası, investisiya vəsaitlərinin mənimsənilməsi, büdcə kənarlaşmaları və saxtakarlıq hallarını müəyyən etməsinə imkan yaradır. ISA 500 – "Audit sübutları" standartı tikinti maliyyəsinin auditində xüsusi əhəmiyyət kəsb edir. Tikinti layihələrində audit sübutlarının toplanması digər sahələrdən fərqli olaraq daha çətindir, çünki maliyyə əməliyyatları yalnız pul axınları ilə deyil, həm də fiziki işlərin faktiki yerinə yetirilməsi ilə bağlı sənədlərlə təsdiq olunur. Auditin bu mərhələsində auditor aşağıdakı sübutlara əsaslanmalıdır: icra aktları (forma 2), tikinti jurnalları, texniki nəzarət rəyləri, smeta sənədləri, podratçı müqavilələri, avans ödənişlərinin əsaslandırılması, bank çıxarışları və maliyyə reyestrləri. Sübutların etibarlılığı tikinti layihəsinin auditində auditor rəyinin keyfiyyətini müəyyən edir.Tikinti layihələrində maliyyələşmə mexanizmlərinin təhlilində ISA 520 – "Analitik prosedurlar" standartı geniş tətbiq edilir. Analitik prosedurlar auditorun layihə üzrə xərclərin normativlərlə müqayisəsini, smeta ilə faktiki icranı, mərhələlər üzrə dəyişikləri və maliyyə rəqəmlərindəki qeyri-adi sapmaları aşkar etməsinə yardım edir. Məsələn, auditor müəyyən edə bilər ki, eyni tip işlər müxtəlif podratçılar üzrə kəskin fərqli qiymətləndirilib və ya işin həcmi dəyişmədiyi halda xərc əhəmiyyətli dərəcədə artıb. Bu, risk siqnalı kimi qiymətləndirilir. ISA 540 – "Hesablamaların audit edilməsi" standartı tikinti layihələrində xüsusilə vacibdir, çünki layihə müddətində bir çox qiymətləndirilmiş göstəricilərdən istifadə olunur: ehtimal olunan gecikmə xərcləri, bəzi işlərin qiymətləndirilməsi, avadanlıqların dəyər dəyişmələri, tikinti materiallarının bazar qiymətinin dəyişməsi və s. Auditor bu hesablamaların məntiqini, istifadə olunan metodları və məlumat mənbələrini təhlil etməlidir. Bu standart auditorun qiymətləndirmələrin etibarlılığını qiymətləndirməsini təmin edir. Tikinti layihələrinin maliyyə hesabatlarının tərtibinin auditində ISA 700 – "Auditor rəyinin forması və məzmunu" və ISA 705 – "Modifikasiya edilmiş auditor rəyləri" xüsusi rol oynayır. Tikinti layihələrinin maliyyələşməsi üzrə auditdə aşağıdakı hallar tez-tez rast gəlinir: qeyri-şəffaf ödənişlər səbəbindən məhdud rəy (qualified opinion)**,** smeta manipulyasiyası və investisiya vəsaitlərinin mənimsənilməsi hallarında mənfi rəy (adverse opinion) və ciddi sənəd çatışmazlığı olan layihələrdə rəydən imtina (disclaimer) verilməsi. Bu rəylərin seçimi auditorun ISA standartlarına uyğun peşəkar qərarı ilə müəyyən olunur. ISA standartlarının tikinti maliyyəsinin auditində tətbiqi yalnız audit prosedurlarının düzgün aparılmasını deyil, həm də layihə iştirakçıları üçün şəffaflıq və hesabatlılığın artırılmasını təmin edir (Wotschke, P., Kindermann, G., 2023). Auditor beynəlxalq standartlara uyğun işlədikdə maliyyə axınlarının təyinat üzrə istifadəsi, dövlət və investor vəsaitlərinin səmərəli yönləndirilməsi və layihələrin korrupsiya risklərindən qorunması təmin edilir.

Tikinti layihələrinin maliyyələşmə əməliyyatlarının auditi digər sektorlarla müqayisədə daha genişmiqyaslı, daha çoxsahəli və daha riskli bir prosesdir. Çünki tikinti sahəsində maliyyə axınları həm çoxpilləli müqavilələr, həm mərhələli ödənişlər, həm də iri həcmli smeta xərcləri ilə xarakterizə olunur. Buna görə auditorlar tikinti layihələrinin auditini apararkən həm maliyyə göstəricilərini, həm müqavilə sənədlərini, həm də real fiziki işlərin icrasını birləşdirən kompleks metodologiyadan istifadə etməlidirlər. Bu audit prosesi adətən bir neçə əsas mərhələyə bölünür: planlaşdırma, risklərin qiymətləndirilməsi, audit prosedurlarının müəyyən edilməsi, audit sübutlarının toplanması, müqavilə öhdəliklərinin təhlili və yekun qiymətləndirmə. Əvvəlcə auditor audit planlaması mərhələsini həyata keçirir. Planlaşdırma tikinti layihəsinin miqyasının, maliyyələşmə mənbələrinin və auditin məqsədinin dəqiq müəyyən edilməsini nəzərdə tutur. Tikinti layihəsinin xüsusiyyəti ondan ibarətdir ki, layihə üzrə maliyyə axınları birdəfəlik deyil, mərhələli şəkildə həyata keçirilir. Buna görə planlaşdırma auditorun ildə və ya rübdə neçə dəfə yoxlama keçirməsini, hansı sənədlərin prioritet olmasını və audit heyətinin tərkibini müəyyən edir. Planlaşdırma zamanı auditor tikinti layihəsinin maliyyə modelini, layihənin davametmə müddətini, investisiya müqavilələrini, kredit müqavilələrini və texniki-iqtisadi əsaslandırma (TİƏ) sənədlərini öyrənir (Avram, M., 2011).

Sonrakı mərhələ risklərin qiymətləndirilməsidir. Tikinti layihələrində risklər iki əsas qrupa bölünür: maliyyə riskləri və əməliyyat riskləri. Maliyyə risklərinə kredit öhdəliklərinin yerinə yetirilməməsi, smeta xərclərinin şişirdilməsi, qeyri-qanuni ödənişlər və büdcə kənarlaşmaları daxildir. Əməliyyat riskləri isə tikinti işlərinin gecikməsi, keyfiyyət standartlarının pozulması, podratçı-subpodratçı mübahisələri və layihə çərçivəsində sonradan ortaya çıxan əlavə xərclərdir. Auditor riskləri qiymətləndirərkən həm sənədləşdirilmiş faktlara, həm də sahə üzrə təcrübəyə əsaslanır. Risk yüksəkdirsə, auditor daha genişmiqyaslı prosedurlar təyin edir. Risklərin qiymətləndirilməsindən sonra auditor audit prosedurlarının hazırlanmasına keçir. Bu mərhələ ISA 330 standartına uyğun şəkildə aparılır. Auditor müəyyən etdiyi risklərə uyğun audit strategiyası seçir. Məsələn, smeta şişirdilməsi riski yüksəkdirsə, auditor analitik prosedurları gücləndirir, qiymətlər bazar qiymətləri ilə müqayisə edilir və tender sənədləri daha dərindən araşdırılır. Əgər vəsaitlərin təyinat üzrə istifadə olunmaması riski varsa, auditor bank çıxarışlarını müqavilə üzrə ödəniş planı ilə müqayisə edir, ödənişlərin dəqiqliyini və əsaslandırılmasını yoxlayır. Podratçıların təqdim etdiyi icra aktları ilə yerinə yetirilmiş işlərin real vəziyyəti uyğun gəlmirsə, auditor fiziki işlərin icra səviyyəsini yerində yoxlayır. Tikinti layihələrində auditin ən çətin mərhələsi audit sübutlarının toplanmasıdır. Digər sahələrdə maliyyə əməliyyatları əsasən sənəd və pul dövriyyələri ilə təsdiqlənirsə, tikinti sahəsində maliyyə əməliyyatları həm sənədlə, həm də fiziki fəaliyyətlə bağlıdır. Auditor aşağıdakı növlər üzrə məlumat toplamalıdır: müqavilə sənədləri, smetalar, layihə üzrə texniki rəylər, tikinti jurnalları, yerinə yetirilmiş işlərin aktları, podratçı hesabları, avans ödənişləri və texniki nəzarət sənədləri. Bu sənədlərdən hər biri audit sübutunun ayrıca növüdür və auditor onların etibarlılığını qiymətləndirməlidir. Çox vaxt tikinti sahəsində ən böyük risklərdən biri podratçı tərəfindən təqdim olunan icra aktlarının real vəziyyətlə uyğun gəlməməsidir. Buna görə auditor sahəyə baxışlar keçirə, işlərin həcm və keyfiyyətini qiymətləndirə və texniki ekspertlərin rəylərindən istifadə edə bilər. Tikinti layihələrində müqavilə öhdəliklərinin auditi də xüsusi əhəmiyyət daşıyır.

Auditor müqavilələrin müddətlərini, texniki tələblərini, ödəniş planlarını, cərimə və sanksiya bəndlərini, podratçı-subpodratçı münasibətlərini, risk bölüşdürülməsini və digər müqavilə şərtlərini araşdırır. Bir çox hallarda maliyyə pozuntuları məhz müqavilə öhdəliklərinin pozulması zamanı aşkar edilir. Məsələn, müqavilədə nəzərdə tutulmayan işlər üçün ödənişlərin aparılması, smetaya daxil edilməyən materialların satın alınması və ya podratçının öhdəliklərini yerinə yetirməməsi halları geniş yayılmış risklərdəndir (Madalina, S. M., və b.,2014). Auditor müqavilə uyğunluğu auditini apararaq bu pozuntuları müəyyən edir. Auditin digər mühüm mərhələsi büdcə kənarlaşmalarının təhlilidir. Tikinti layihələri uzunmüddətli layihələr olduğu üçün xərclərin zamanla dəyişməsi, müəyyən işlərin gecikməsi, əlavə təkliflərin daxil edilməsi və smeta dəyişiklikləri kimi hallar çox müşahidə edilir. Auditor smeta ilə faktiki xərc arasındakı fərqli rəqəmlərin səbəblərini araşdırır. Əgər smeta dəyişikliyi əsaslandırılmayıbsa və sübutlarla təsdiq olunmursa, bu, maliyyə pozuntusu kimi qiymətləndirilir. Bəzi hallarda podratçılar "change order" adlanan əlavə iş sifarişlərini şişirdərək büdcəni artırmağa çalışırlar. Auditor bu dəyişikliklərin fəqli mənbələrini, texniki tələblərini və iqtisadi əsaslandırmalarını araşdırmalıdır. Tikinti maliyyələşmə auditində çox rast gəlinən risklərdən biri də korrupsiya və mənimsəmə riskidir. Auditor bu riskləri müəyyən etmək üçün ödənişlərin ardıcıllığını, tender prosesini, podratçı seçim prosesini, qeyri-adi məbləğləri və münasibətləri təhlil edir. Tender sənədlərinin manipulyasiyası, rəqabətin məhdudlaşdırılması və "adrese uyğun" tenderlərin keçirilməsi ən yüksək riskli sahələrdəndir. Auditor bu riskləri aşkarladıqda ISA standartlarına uyğun olaraq əlavə audit prosedurları tətbiq etməlidir. Auditin yekun mərhələsində auditor ümumi qiymətləndirmə aparır və audit nəticələrini ümumiləşdirir. Buraya bütün sübutların təhlili, risklərin yenidən qiymətləndirilməsi və maliyyə hesabatlarında əhəmiyyətli səhvlərin olub-olmamasının müəyyən edilməsi daxildir (Lukmanova, I., 2017). Auditor həmçinin layihənin maliyyə dayanıqlığını, vəsaitlərin təyinat üzrə istifadə olunmasını, müqavilə şərtlərinə uyğunluğu və daxili nəzarət sisteminin effektivliyini qiymətləndirir.

NƏTİCƏ

17. Trung, N.D., Thien, T.D., Luu, T.D., & Huynh, H.X. (2021, July). Black Friday sale prediction via extreme gradient boosted trees. In Proceedings of the 12th National Conference on Basic and Applied Research in Information Technology (FAIR) (pp. 49–57).

18. Wu, C.S.M., Patil, P., & Gunaseelan, S. (2018, November). Comparison of different machine learning algorithms for multiple regression on Black Friday sales data. In 2018 IEEE 9th International Conference on Software Engineering and Service Science (ICSESS) (pp. 16–20). IEEE.

19. Xia, Z., Xue, S., Wu, L., Sun, J., Chen, Y., & Zhang, R. (2020). ForeXGBoost: Passenger car sales prediction based on XGBoost. Distributed and Parallel Databases, 38, 713–738.

S.T.Bədirxanova
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Pərakəndə satışlarda tələbatın proqnozlaşdırılması: black friday məlumatları üzərində maşın öyrənməsi modellərinin təhlili

Xülasə

Müştəri portfellərinin genişlənməsi, iri miqyaslı pərakəndə bizneslərdə mağazaların sayının artması və müştəri xüsusiyyətlərinin getdikcə daha müxtəlif olması satışların proqnozlaşdırılması proseslərini xeyli çətinləşdirir. Müştəri müxtəlifliyinin effektiv şəkildə idarə olunması həm gündəlik əməliyyatlarda, həm də strateji qərarvermədə pərakəndəçilər üçün ciddi bir çağırışdır. Bunun nəticəsi olaraq, müştəri qruplarının dəqiq seqmentasiyası, fərdiləşdirilmiş marketinq strategiyalarının hazırlanması və müxtəlif müştəri tiplərinin ehtiyaclarının anlaşılması getdikcə daha vacib hala gəlir. Müasir dövrdə inkişaf edən rəqəmsal texnologiyalar, xüsusilə maşın öyrənməsi üsulları, bu mürəkkəbliyin idarə olunmasında bizneslərə əhəmiyyətli üstünlüklər təqdim edir. Bu səbəbdən, tədqiqatın əsas məqsədi pərakəndə şirkətə aid Black Friday satış məlumatları əsasında satışların proqnozlaşdırılması üçün Linear Regression, Random Forest, K-Nearest Neighbor, XGBoost, Decision Tree və LightGBM kimi modellərdən istifadə etməkdir. Bu alqoritmlərin performansını müqayisə etməklə ən effektiv model müəyyən ediləcəkdir. Bundan əlavə, tədqiqatda hiperparametrlərin optimallaşdırılması üçün GridSearchCV metodundan istifadə olunur və bu parametrlərin model performansına təsiri araşdırılır. Eyni zamanda, tədqiqatın mühüm məqsədlərindən biri də məlumat dəsti üzərində aparılmış eksplorativ məlumat təhlili vasitəsilə pərakəndə bizneslərin öz məlumatlarından hansı növ nəticələr əldə edə biləcəyini və bu məlumatları necə qiymətləndirə biləcəyini real nümunə əsasında göstərməkdir.

Açar sözlər: *satışların proqnozlaşdırılması, maşın öyrənməsi, reqressiya alqoritmləri, black friday, pərakəndə sektoru.*

https://doi.org/10.58225/tim.2026-2-218-226

S.S.Sadıqova
dosent, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
sadiqova.sabina@asoiu.edu.gov.az
R.Ə.Bağırov
magistrant, Azərbycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
resadb672@gmail.com

Məqalə redaksiyaya daxil olub 05.04.2026
The article was received by editorial board on 05.04.2026
Статья принята к печати 05.04.2026

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İSTEHSAL GÜCLƏRİNDƏN İSTİFADƏNİN OPTİMALLAŞDIRILMASI VƏ RESURS İDARƏETMƏ MEXANİZMLƏRİ

Xülasə

Məqalədə sənaye müəssisələrində istehsal güclərindən istifadənin optimallaşdırılması və resurs idarəetmə mexanizmlərinin səmərəli təşkili məsələləri kompleks şəkildə təhlil olunur. Tədqiqatın əsas məqsədi müəssisələrdə mövcud istehsal potensialından rasional istifadə yollarını müəyyənləşdirmək, resurs itkilərini azaltmaq və idarəetmə mexanizmlərinin məhsuldarlığa təsirini qiymətləndirməkdən ibarətdir. Araşdırmada istehsal gücünün iqtisadi mahiyyəti, ona təsir edən texniki, təşkilati və iqtisadi amillər, avadanlıqlardan istifadə səviyyəsi, iş vaxtı fondu, xammal təminatı və əmək resurslarının əlaqələndirilməsi məsələləri geniş izah edilir. Xüsusilə ERP, (müəssisə resurslarının planlaşdırılması sistemi), MRP II, (istehsal resurslarının planlaşdırılması) sistemi və MES, (istehsal proseslərinin operativ idarə olunması sistemi) kimi rəqəmsal idarəetmə alətlərinin rolu vurğulanır. Bu sistemlər vasitəsilə resurs axınlarının planlaşdırılması, istehsal prosesinin nəzarətdə saxlanılması və qərarvermənin çevikliyinin artırılması mümkün olur. Nəticədə müəyyən edilir ki, istehsal güclərinin optimallaşdırılması yalnız texniki imkanların genişləndirilməsi ilə deyil, həm də resursların elmi əsaslarla idarə olunması və müasir informasiya texnologiyalarının tətbiqi ilə təmin edilir. Bu isə müəssisənin rəqabət qabiliyyətini və ümumi səmərəliliyini yüksəldir.

Açar sözlər: *istehsal gücü, inkişaf strategiyası, ERP sistemi, resurs idarəetməsi, davamlı inkişaf.*

İstehsal gücü anlayışı sənaye iqtisadiyyatında və müəssisə idarəetməsində fundamental kateqoriyalardan biri olmaqla, müəyyən zaman intervalında mövcud resurslar və texnoloji məhdudiyyətlər çərçivəsində əldə edilə bilən dayanıqlı maksimum istehsal həcmini ifadə edir. Bu anlayış sadəcə avadanlığın pasport üzrə məhsuldarlığını deyil, həm də iş vaxtı rejimini, planlı və plandan kənar dayanma hallarını, texnoloji fasilələri, əmək resurslarının səmərəliliyini, xammal təminatını və təşkilati intizamı özündə birləşdirən kompleks sistem göstəricisidir.

Müasir sənaye müəssisələrində istehsal gücü strateji planlaşdırmanın, investisiya qərarlarının, xərclərin optimallaşdırılmasının və bazar strategiyasının formalaşdırılmasının əsas dayaqlarından biri hesab olunur. Bu baxımdan istehsal gücü həm mikroiqtisadi, həm də makroiqtisadi səviyyədə xüsusi əhəmiyyət daşıyır. Mikro səviyyədə o, konkret müəssisənin istehsal potensialını xarakterizə edir və əməliyyat idarəetməsinin səmərəliliyini ölçməyə imkan verir; makro səviyyədə isə sənaye sahələrinin və bütövlükdə iqtisadiyyatın dövri dinamikasını qiymətləndirmək üçün istifadə olunur.

Nəzəri baxımdan istehsal gücü "maksimum buraxılış" anlayışı ilə əlaqələndirilsə də, praktikada bu maksimum anlayışı ideal deyil, dayanıqlı maksimum kimi şərh edilir. Yəni müəssisə fasiləsiz və aşırı istismar rejimində deyil, normal istismar, planlı texniki xidmət, keyfiyyət standartları və əmək qanunvericiliyi çərçivəsində əldə edə biləcəyi istehsal səviyyəsi nəzərdə tutulur. Bu fərqləndirmə metodoloji baxımdan mühümdür, çünki layihə üzrə nəzərdə tutulmuş dizayn ilə real əməliyyat gücü arasında adətən ciddi fərq mövcud olur [1].

Texniki sənədlərdə və layihə parametrlərində göstərilən maksimum istehsal səviyyəsidir və daha çox nəzəri xarakter daşıyır. Effektiv güc isə planlı itkilər, sazlama vaxtları, texnoloji fasilələr və digər normativ məhdudiyyətlər nəzərə alındıqdan sonra əldə edilən real planlaşdırıla bilən istehsal potensialıdır. Faktiki buraxılış isə müəyyən dövrdə həqiqətən istehsal edilmiş məhsul həcmini göstərir. Bu üç göstərici arasındakı fərqin təhlili müəssisədə mövcud problemlərin xarakterini müəyyən etməyə imkan verir: fərq texniki layihələndirmədən, təşkilati çatışmazlıqlardan, yoxsa bazar tələbinin məhdudluğundan irəli gəlir.

Gücdən istifadə səviyyəsinin aşağı olması həmişə səmərəsizlik demək deyil; bu hal bəzən bazar tələbinin azalması ilə, bəzən isə istehsalın qəsdən məhdudlaşdırılması ilə bağlı ola bilər. Əksinə, uzun müddət yüksək gücdən istifadə səviyyəsi avadanlığın həddindən artıq istismarına və gələcəkdə texniki nasazlıqların artmasına səbəb ola bilər. Buna görə də optimal gücdən istifadə səviyyəsinin müəyyən edilməsi strateji və taktiki idarəetmə qərarlarında mühüm yer tutur [1].

Sənaye müəssisələrində istehsal gücünün qiymətləndirilməsi üçün müxtəlif metodoloji yanaşmalar tətbiq olunur. Ənənəvi yanaşmalardan biri normativ-texnoloji və ya mühəndis metodudur. Bu metod çərçivəsində hər bir məhsul növü üzrə əməliyyat marşrutları, standart əməliyyat vaxtları və avadanlığın məhsuldarlıq göstəriciləri toplanır, iş vaxtı fondu hesablanır və nəticədə hər bir iş mərkəzi üzrə mümkün istehsal həcmi müəyyən edilir.

Bu yanaşma yüksək texniki əsaslandırmaya malik olsa da, normativlərin köhnəlməsi və real əməliyyat itkilərinin tam əks olunmaması səbəbindən müəyyən məhdudiyyətlərə malikdir. Xüsusilə mikrodayanmalar, sürət itkisi və keyfiyyət problemləri normativ modellərdə çox vaxt nəzərə alınmır.

Müasir idarəetmə nəzəriyyəsində istehsal gücünün qiymətləndirilməsində dar boğaz yanaşması xüsusi yer tutur. Bu yanaşmaya görə istehsal sistemi vahid bütöv kimi qiymətləndirilməli və ümumi buraxılış ən zəif həlqənin məhsuldarlığı ilə məhdudlaşdırılmalıdır. Yəni sistemin real gücü ayrı-ayrı avadanlıqların cəmi deyil, dar boğazın məhsuldarlığıdır. Bu metod istehsal axınında balansın təmin edilməsi və investisiya qərarlarının düzgün istiqamətləndirilməsi üçün əhəmiyyətlidir. Əgər güc artırımı dar boğazdan kənar sahədə həyata keçirilərsə, bu, sistem üzrə real buraxılışa təsir göstərməyəcək və yalnız yarımfabrikat ehtiyatlarının artmasına səbəb olacaqdır.

Rəqəmsal transformasiya şəraitində istehsal gücünün ölçülməsində KPI əsaslı yanaşmalar geniş yayılmışdır. Xüsusilə OEE OEE (Overall Equipment Effectiveness) - Avadanlığın Ümumi Effektivliyi göstəricisi avadanlığın effektivliyini üç komponent – mövcudluq, performans və keyfiyyət – üzrə qiymətləndirərək real əməliyyat gücünü daha obyektiv şəkildə ölçməyə imkan verir. Bu yanaşma istehsal itkilərini strukturlaşdırmağa və hər bir itki növünün gücə təsirini müəyyən etməyə imkan yaradır. Eyni zamanda ISO 22400 standartı çərçivəsində istehsalat əməliyyatlarının idarə edilməsi üzrə KPI-ların sistemləşdirilməsi müəssisələrdə ölçmə və müqayisəliliyi təmin edir. Bu standartlaşdırma istehsal gücünün rəqəmsal mühitdə monitorinqini və analitik platformalar vasitəsilə real vaxt rejimində təhlilini mümkün edir [2].

Bəzi hallarda istehsal gücünün qiymətləndirilməsi sorğu əsaslı metodlarla da aparılır. Bu yanaşmada müəssisə rəhbərlərinin və ya istehsal menecerlərinin subyektiv qiymətləndirmələri əsasında gücdən istifadə səviyyəsi müəyyən edilir. Beynəlxalq təcrübədə biznes meyilləri sorğularında gücdən istifadə ilə bağlı suallar sənaye dinamikasının operativ qiymətləndirilməsi üçün istifadə olunur. Lakin bu metod subyektivlik riski daşıdığı üçün daha çox makroiqtisadi monitorinq məqsədləri üçün uyğun hesab edilir.

Metodoloji baxımdan ən rasional yanaşma müxtəlif metodların inteqrasiyasıdır. İlkin mərhələdə sistem sərhədləri və məhsul portfeli müəyyən edilir, daha sonra normativ-texnoloji hesablamalarla potensial güc qiymətləndirilir, dar boğaz analizi ilə real məhdudiyyət identifikasiya olunur və KPI-lar vasitəsilə əməliyyat səmərəliliyi korreksiya edilir. Nəticədə faktiki buraxılışla effektiv güc arasındakı fərq analitik şəkildə şərh olunur və strateji qərarlar üçün əsas yaradılır. Bu cür inteqrə olunmuş metodologiya istehsal gücünün yalnız texniki parametr kimi deyil, kompleks idarəetmə kateqoriyası kimi qiymətləndirilməsinə imkan verir [3].

Beləliklə, istehsal gücü anlayışı sənaye müəssisələrində həm iqtisadi potensialın, həm də təşkilati və texnoloji səmərəliliyin ölçülməsi üçün çoxşaxəli alət kimi çıxış edir. Onun düzgün qiymətləndirilməsi müəssisənin rəqabət qabiliyyətinin artırılması, resurslardan optimal istifadə və uzunmüddətli dayanıqlı inkişaf strategiyasının formalaşdırılması baxımından həlledici əhəmiyyət daşıyır. İstehsal güclərindən istifadə səviyyəsinin iqtisadi təhlili sənaye müəssisəsinin resurs potensialından nə dərəcədə səmərəli istifadə etdiyini müəyyən edən əsas analitik istiqamətlərdən biridir. İstehsal gücü müəssisənin müəyyən dövr ərzində mövcud texniki, əmək və təşkilati imkanlar çərçivəsində əldə edə biləcəyi dayanıqlı maksimum buraxılışı ifadə etdiyi halda, gücdən istifadə səviyyəsi bu potensialın faktiki nəticələrlə müqayisəsini göstərir. Bu göstərici yalnız istehsal həcmi ilə məhdudlaşmır, həm də kapitalın rentabelliyi, xərclərin strukturu, əmək məhsuldarlığı və bazar mövqeyi ilə sıx bağlıdır.

Müasir sənaye iqtisadiyyatında gücdən istifadə səviyyəsi həm mikro səviyyədə müəssisə performansının qiymətləndirilməsində, həm də makro səviyyədə sənaye dövrlərinin və istehsal boşluğunun müəyyən edilməsində geniş tətbiq olunur. Məsələn, Federal Reserve System sənaye istehsalı statistikasında gücdən istifadə göstəricisini istehsal indeksi ilə güc indeksi arasındakı nisbət kimi hesablayır və bunu iqtisadi aktivliyin aparıcı indikatorlarından biri kimi təqdim edir [3].

İqtisadi təhlil baxımından gücdən istifadə səviyyəsi ilk növbədə faktiki buraxılışın effektiv və ya dizayn gücünə nisbəti kimi qiymətləndirilir. Lakin bu sadə faiz göstəricisi arxasında mürəkkəb iqtisadi məzmun dayanır. Aşağı gücdən istifadə səviyyəsi müəssisədə ya tələb çatışmazlığı, ya təşkilati səmərəsizlik, ya da texnoloji problemlərin mövcudluğunu göstərə bilər. Əksinə, uzun müddət 90–95 faizdən yuxarı istifadə səviyyəsi avadanlığın həddindən artıq istismarına, texniki xidmət xərclərinin artmasına və keyfiyyət risklərinə səbəb ola bilər. Buna görə optimal istifadə intervalının müəyyənləşdirilməsi iqtisadi cəhətdən əsaslandırılmış planlaşdırmanın mühüm elementidir.

İstehsal güclərindən istifadə səviyyəsinin iqtisadi təhlili adətən üç istiqamətdə aparılır: struktur təhlil, dinamik təhlil və amilli təhlil. Struktur təhlil müəssisə daxilində müxtəlif sexlər, xətlər və məhsul qrupları üzrə gücdən istifadə fərqlərini müəyyən etməyə imkan verir. Dinamik təhlil zaman üzrə dəyişməni, yəni mövsümi təsirləri, iqtisadi şokları və investisiya layihələrinin nəticələrini izləməyə xidmət edir. Amilli təhlil isə gücdən istifadə səviyyəsinə təsir edən əsas determinantları – əmək məhsuldarlığı, xammal təminatı, bazar tələbi, dayanma müddəti və keyfiyyət səviyyəsi kimi amilləri qiymətləndirir. Bu təhlillər nəticəsində müəssisə resursların balanslı bölgüsünü və istehsal axınının optimallaşdırılmasını təmin edə bilər [4].

Müasir sənaye idarəetməsində gücdən istifadə səviyyəsinin qiymətləndirilməsi yalnız ümumi faiz göstəricisi ilə məhdudlaşmır, əksinə, geniş KPI sistemi çərçivəsində həyata keçirilir. KPI-lar (Key Performance Indicators) istehsal prosesinin müxtəlif aspektlərini ölçən kəmiyyət göstəriciləridir və strateji məqsədlərlə əməliyyat nəticələri arasında əlaqə yaradır. Bu sistem çərçivəsində ən geniş tətbiq olunan göstəricilərdən biri OEE (Overall Equipment Effectiveness) göstəricisidir. OEE avadanlığın mövcudluq (availability), performans (performance) və keyfiyyət (quality) komponentləri üzrə effektivliyini inteqrə olunmuş şəkildə ölçür və faktiki əməliyyat gücünü daha obyektiv qiymətləndirməyə imkan verir. OEE metodologiyası beynəlxalq sənaye təcrübəsində geniş yayılmışdır və ISO (International Organization for Standardization) - Beynəlxalq Standartlaşdırma

Təşkilatı tərəfindən qəbul edilmiş ISO 22400-2 standartında istehsalat əməliyyatlarının idarə olunması üzrə əsas performans göstəriciləri sistemləşdirilmişdir.

Gücdən istifadə səviyyəsinin iqtisadi təhlilində yalnız texniki effektivlik deyil, həm də maliyyə göstəriciləri nəzərə alınmalıdır. Bu kontekstdə aktivlərin dövriyyə əmsalı, əsas vəsaitlərin rentabelliyi (ROA), marjinal gəlir və əməliyyat mənfəəti kimi göstəricilər mühüm rol oynayır. Əgər gücdən istifadə artımı əməliyyat mənfəətində proporsional artım yaratmırsa, bu, xərclərin artması və ya qiymət siyasətinin qeyri-effektivliyi ilə bağlı ola bilər. Eyni zamanda istehsal güclərinin tam yüklənməsi sabit xərclərin vahid məhsula düşən payını azaldaraq orta xərclərin aşağı düşməsinə səbəb olur ki, bu da miqyas iqtisadiyyatının reallaşması deməkdir [4].

KPI sistemi çərçivəsində gücdən istifadə səviyyəsinin təhlili dörd əsas blok üzrə aparıla bilər: texniki göstəricilər, əməliyyat göstəriciləri, maliyyə göstəriciləri və keyfiyyət göstəriciləri. Texniki göstəricilərə avadanlığın iş vaxtı fondu, planlı və plandan kənar dayanma müddətləri, sazlama vaxtı və məhsuldarlıq əmsalları daxildir. Əməliyyat göstəriciləri sifarişlərin yerinə yetirilmə müddəti, istehsal dövrünün uzunluğu və ehtiyatların dövriyyəsi ilə bağlıdır. Maliyyə göstəriciləri rentabellik, vahid məhsulun maya dəyəri və sabit xərclərin payı ilə xarakterizə olunur. Keyfiyyət göstəriciləri isə qüsur səviyyəsi, təkrar emal payı və müştəri şikayətləri kimi indikatorları əhatə edir. Bu bloklar arasında əlaqənin qurulması müəssisəyə istehsal gücünün real iqtisadi təsirini qiymətləndirməyə imkan verir. Beynəlxalq təcrübədə gücdən istifadə səviyyəsinin iqtisadi interpretasiyası biznes meyilləri sorğularında da əks olunur. Məsələn, OECD - Organisation for Economic Co-operation and Development (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tərəfindən hazırlanmış biznes tendensiya sorğularında gücdən istifadə səviyyəsi ilə yanaşı istehsalı məhdudlaşdıran əsas amillər – tələb çatışmazlığı, avadanlıq çatışmazlığı və əmək resurslarının məhdudluğu – ayrıca qiymətləndirilir. Bu yanaşma müəssisə səviyyəsində aparılan KPI təhlili ilə makro səviyyədə aparılan sənaye monitorinqi arasında metodoloji körpü yaradır [5].

Rəqəmsal transformasiya şəraitində KPI sistemləri artıq real vaxt rejimində məlumat axınına əsaslanır. Bu isə gücdən istifadə səviyyəsinin operativ monitorinqinə və analitik modellərin qurulmasına imkan verir. Məsələn, ssenari analizi vasitəsilə sazlama vaxtının azaldılması və ya keyfiyyət göstəricilərinin yaxşılaşdırılması halında gücdən istifadə və mənfəətliliyin necə dəyişəcəyi proqnozlaşdırıla bilər. Bu yanaşma strateji qərarların elmi əsaslandırılmasını təmin edir və investisiya layihələrinin effektivliyini artırır.

Nəticə etibarilə, istehsal güclərindən istifadə səviyyəsinin iqtisadi təhlili müəssisənin texniki potensialı ilə maliyyə nəticələri arasında əlaqəni aşkar edən kompleks analitik çərçivədir. Bu təhlilin effektivliyi KPI sisteminin düzgün qurulmasından və göstəricilər arasında səbəb-nəticə əlaqələrinin müəyyən edilməsindən asılıdır. Gücdən istifadə səviyyəsinin optimal idarə olunması resursların səmərəli bölgüsünü, maya dəyərinin azaldılmasını və rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edir. Beləliklə, istehsal gücü yalnız fiziki istehsal imkanının göstəricisi deyil, həm də müəssisənin iqtisadi dayanıqlığının və strateji inkişaf potensialının əsas indikatorlarından biridir.

Resurs idarəetmə mexanizmləri sənaye müəssisəsində istehsal prosesinin fasiləsizliyini, xərc-intizamını və buraxılışın tələbə uyğun elastikliyini təmin edən idarəetmə qaydaları, prosedurlar və rəqəmsal alətlər toplusudur. Burada "resurs" anlayışı dar mənada yalnız xammal və materialları deyil, eyni zamanda avadanlıq parkını və onun etibarlılığını (asset/aktiv idarəetməsi), əmək resurslarını, istehsal vaxtı fondunu, enerji və kommunal təminatı, informasiya axınlarını, eləcə də təchizat zənciri üzrə əlaqəli resursları əhatə edir [5].

Bu səbəbdən resurs idarəetməsi faktiki olaraq iki paralel xəttdə qurulur: bir tərəfdən planlaşdırma və koordinasiya mexanizmləri (tələb–istehsal–təchizat balansı, güc planlaşdırması, növbəlilik, ehtiyat siyasəti), digər tərəfdən isə əməliyyat səmərəliliyini artıran optimallaşdırma alətləri (itkilərin azaldılması, axınların tarazlaşdırılması, keyfiyyətin sabitləşdirilməsi, dəyişmə vaxtlarının qısaldılması və s.). Sənayenin müasir idarəetmə nəzəriyyəsi göstərir ki, resursların "yalnız

mövcudluğu" kifayət etmir; resursların planlı, ölçülə bilən və davamlı təkmilləşdirmə mədəniyyəti ilə idarə olunması tələb olunur və bu yanaşma aktivlərin idarəedilməsi üzrə ISO 55000 çərçivəsində də "proaktiv sistem" kimi təqdim edilir [6].

İqtisadi baxımdan resurs idarəetməsinin mərkəzində üç əsas sual dayanır: nə qədər istehsal etməliyik (tələb və portfel), hansı resurslarla istehsal etməliyik (güc və məhdudiyyətlər), hansı maya dəyəri və keyfiyyət səviyyəsində istehsal etməliyik (xərc–keyfiyyət–vaxt kompromisi). Bu sualların cavabı adətən inteqrə planlaşdırma mexanizmləri ilə formalaşır: istehsal proqramı (Master Production Schedule), material ehtiyaclarının planlaşdırılması (MRP), güc ehtiyaclarının planlaşdırılması (CRP) və daha geniş çərçivədə bütün istehsal resurslarının inteqrə planlaşdırılması kimi tanınan MRP II yanaşması. MRP II-nin məntiqi ondan ibarətdir ki, istehsal yalnız materialla deyil, həm də avadanlıq vaxtı, əmək və digər resurslarla birlikdə koordinasiya edilməlidir; yəni planlaşdırma "bir resurs"un deyil, müəssisənin bütün resurslarının sinxronlaşdırılmasını hədəfləyir.

Bu mexanizm düzgün qurulduqda ehtiyatların normadan artıq yığılması, təkrar sifarişlər, istehsalın "görünməyən" dayanma səbəbləri və buraxılışın qeyri-sabitliyi əhəmiyyətli dərəcədə azalır; lakin MRP/MRP II sistemləri real istehsalatda xüsusilə məhsul qarışığının tez dəyişdiyi və qısa dövrlü sifarişlərin üstünlük təşkil etdiyi mühitdə əlavə olaraq çevik icra və real-vaxt nəzarəti tələb edir [6].

Məhz bu nöqtədə rəqəmsal istehsalat arxitekturası resurs idarəetməsinin icra qatını gücləndirir. İcra səviyyəsində ən kritik informasiya sistemi təbəqələrindən biri Manufacturing Execution System (MES) hesab edilir; beynəlxalq praktikada MES-in rolunun və müəssisə–nəzarət sistemləri inteqrasiyasının ən geniş tanınmış konseptual çərçivələrindən biri ISA-95 standartıdır. ISA-95-də "Level 3" istehsal əməliyyatlarının idarə edilməsi (Manufacturing Operations Management) kimi təsvir olunur və bu səviyyədə MES və SCADA kimi sistemlərin istehsalın icrasını, nəzarətini və məlumat axınlarını idarə etdiyi vurğulanır. Resurs idarəetməsində ayrıca mühüm istiqamət aktivlərin etibarlılığı və texniki xidmət strategiyasıdır, çünki istehsal gücü və buraxılışın dayanıqlılığı birbaşa avadanlıq parkının işləkliyi ilə bağlıdır. Aktiv idarəetməsinin (asset management) prinsipləri resursların ömrü boyunca dəyərin optimallaşdırılmasını, risklərin idarə olunmasını və qərarların sistemli şəkildə əsaslandırılmasını nəzərdə tutur; ISO 55000 bu məqsədlə terminologiya və prinsip bazasını təqdim edir. Praktiki müstəvidə bu yanaşma profilaktik texniki xidmət, vəziyyətə əsaslanan xidmət (condition-based maintenance), ehtiyat hissələrinin optimallaşdırılması və dayanma risklərinin prioritetləşdirilməsi kimi mexanizmlərlə tamamlanır.

Burada iqtisadi məntiq sadədir: plandan kənar dayanma itkiləri (buraxılış itkisi + təmir xərci + gecikmə cərimələri + keyfiyyət riski) çox vaxt planlı xidmət xərclərindən daha yüksək olur; buna görə etibarlılıq yönümlü resurs idarəetməsi istehsal prosesinin "görünməyən maya dəyəri"ni aşağı salır. İstehsal proseslərinin optimallaşdırılması alətləri isə resursların səmərəliliyini yüksəltmək üçün itkiləri ölçən, səbəbləri ayırd edən və müdaxiləni standartlaşdıran metodların sistemidir. Bu alətlərin mühüm hissəsi Lean və Six Sigma düşüncəsindən gəlir: Lean daha çox axın və israfın aradan qaldırılmasına fokuslanır, Six Sigma isə dəyişkənliyin azaldılması və proses sabitliyinin artırılmasını hədəfləyir [7].

Six Sigma metodologiyasında problemlərin həlli üçün DMAIC (Define–Measure–Analyze–Improve–Control) yol xəritəsinin əsas yanaşma kimi qəbul edildiyi vurğulanır. Bu çərçivədə resurs idarəetməsi "problemi hiss etmək" səviyyəsindən "problemi ölçmək və sübut etmək" səviyyəsinə keçid edir: ölçmə düzgün qurulmadıqda optimallaşdırma cəhdləri adətən epizodik olur, təsiri isə qısa müddətli qalır. Lean alətlərinin ən klassik nümunələri 5S və Kanban-dır. 5S iş yerinin vizual idarəetmə və nizam-intizamını gücləndirən, iş mühitini standartlaşdıran praktikalardır və Lean Enterprise Institute bu yanaşmanı vizual nəzarətə və lean istehsala xidmət edən sistemli iş yeri praktikaları kimi təqdim edir. Kanban isə istehsal və ehtiyat axınlarını siqnallar vasitəsilə idarə etməyə yönələn, xüsusilə WIP-in (yarımfabrikat ehtiyatının) nəzarətdə saxlanılması ilə dövriyyə vax-

tını qısaldan "çəkmə" məntiqini gücləndirən vasitədir; Lean Enterprise Institute Kanban-ı batch planlaşdırmada istifadə edilən siqnal növləri kontekstində də izah edir və Kanbanın yalnız "kart" olmadığını, daha geniş siqnal mexanizmi kimi işlədiyini göstərir [7].

Bu alətlər resurs idarəetməsində iki kritik nəticə yaradır: (i) ehtiyatların "təhlükəsizlik naminə şişirdilməsi" azalır, (ii) istehsalın axını görünən olur və idarəetmə qərarları intuisiya deyil, axın göstəricilərinə əsaslanır.

Optimallaşdırmanın bir digər yüksək təsirli istiqaməti sazlama və dəyişmə vaxtlarının azaldılmasıdır, çünki məhsul qarışığının geniş olduğu müəssisələrdə əsas resurs itkisi çox zaman istehsalın özündən deyil, dəyişmə (changeover) proseslərindən gəlir. SMED (Single-Minute Exchange of Die) yanaşması məhz dəyişmə vaxtlarını "tək rəqəmli dəqiqələrə" endirməyi hədəfləyir və Lean Enterprise Institute SMED-in əsas ideyasını daxili (maşın dayananda edilən) və xarici (maşın işləyərkən edilə bilən) sazlama əməliyyatlarının ayrılması, sonra isə daxili əməliyyatların mümkün qədər xariciyə çevrilməsi kimi izah edir. Bu alətin iqtisadi təsiri çoxşaxəlidir: eyni avadanlıq parkı ilə daha çox məhsul çeşidi istehsal etmək mümkün olur, partiya ölçüləri azalır, ehtiyatlara bağlanan kapital azaldılır və tələb dəyişkənliyinə reaksiya sürətlənir [8].

Resursların real əməliyyat səmərəliliyini ölçmədən optimallaşdırma idarəolunan prosesə çevrilmir; buna görə KPI sistemi optimallaşdırmanın "ölçmə mühərriki" kimi çıxış edir. İstehsalatda ən geniş tətbiq olunan inteqrə göstəricilərdən biri OEE (Overall Equipment Effectiveness) hesab olunur; OEE avadanlığın məhsuldarlığını üç komponentlə - Availability, Performance və Quality - ölçməklə, dayanmalar, sürət itkisi və qüsur itkilərini bir modeldə birləşdirir. Praktik resurs idarəetməsində OEE iki səbəbə görə kritikdir: birincisi, "güc çatışmazlığı" ilə "gücdən səmərəsiz istifadə"ni ayırd etməyə kömək edir; ikincisi, hansı itki növünün daha çox iqtisadi zərər yaratdığını (məsələn, planlaşdırılmamış dayanma vs qüsur) konkret rəqəmlərlə göstərir və investisiya prioritetlərini düzgün qurmağa imkan verir. KPI arxitekturası isə yalnız OEE ilə bitmir: planlaşdırma dəqiqliyi (schedule adherence), keçid müddəti (lead time), WIP səviyyəsi, sifarişlərin vaxtında yerinə yetirilməsi (OTD), qüsur dərəcəsi, təkrar emal payı, enerji intensivliyi, texniki xidmətin nəticə göstəriciləri (MTBF/MTTR) və ehtiyatların dövriyyəsi kimi indikatorlar bir-birini tamamlayaraq resursların bütöv "dəyər zənciri" üzərindən qiymətləndirilməsini təmin edir [8].

Bütün bu alətlər içində sistem düşüncəsini ən sərt şəkildə tələb edən yanaşmalardan biri Məhdudiyyətlər Nəzəriyyəsidir (Theory of Constraints, TOC). TOC müəssisənin buraxılışını adətən bir əsas məhdudiyyətin (constraint/bottleneck) limitlədiyini qəbul edir və davamlı təkmilləşmə üçün "Beş fokus addımı" (Five Focusing Steps) çərçivəsini təklif edir: məhdudiyyəti müəyyən et, onu maksimum istifadə et, digər hər şeyi ona tabe et, məhdudiyyəti genişləndir, sonra isə yeni məhdudiyyəti axtar və "inertiyanın" məhdudiyyətə çevrilməsinin qarşısını al. Resurs idarəetməsi kontekstində bu yanaşma xüsusilə faydalıdır, çünki müəssisələrdə tez-tez rast gəlinən səhv investisiya davranışını (dar boğazdan kənar resursları şişirtmək) azaldır və optimallaşdırma təşəbbüslərini buraxılışa birbaşa təsir edən nöqtələrə yönəldir.

Resurs idarəetmə mexanizmləri ilə istehsal optimallaşdırma alətləri bir-birini tamamlayan iki təbəqə kimi qurulmalıdır: planlaşdırma və inteqrasiya mexanizmləri (ERP/MRP II) resursların "nə zaman, nə qədər, hansı ardıcıllıqla" istifadə ediləcəyini dizayn edir, icra və görünürlük sistemləri (ISA-95 çərçivəsində MES/SCADA) planın real vəziyyətini təmin edir, optimallaşdırma alətləri (Lean, Six Sigma DMAIC, SMED, Kanban, TOC) isə itkiləri sistemli şəkildə azaldaraq eyni resurs bazası ilə daha yüksək buraxılış, daha aşağı maya dəyəri və daha sabit keyfiyyət əldə etməyə imkan verir [5].

Bu inteqrə yanaşmanın elmi üstünlüyü ondadır ki, o, resurs idarəetməsini "əməliyyat intizamı" səviyyəsindən çıxarıb ölçülə bilən, audit oluna bilən və davamlı təkmilləşməyə açıq olan sistem idarəçiliyinə çevirir; praktik üstünlüyü isə odur ki, müəssisəyə eyni kapital bazası ilə daha yüksək çeviklik və rəqabət qabiliyyəti verir. Rəqəmsal transformasiya şəraitində istehsal güclərinin artırıl-

ması artıq yalnız fiziki avadanlığın sayının çoxaldılması ilə məhdudlaşmır; bu proses istehsal sisteminin rəqəmsal arxitekturasının yenidən qurulması, məlumat axınlarının inteqrasiyası, qərarvermə mexanizmlərinin avtomatlaşdırılması və davamlı inkişaf prinsiplərinin tətbiqi ilə bağlı kompleks struktur dəyişikliklərini əhatə edir. Müasir sənaye mühitində istehsal gücünün artımı dedikdə, eyni resurs bazası ilə daha yüksək buraxılışın əldə edilməsi, istehsalın çevikliyinin yüksəldilməsi, keyfiyyət sabitliyinin təmin olunması və enerji-intensivliyin azaldılması başa düşülür. Bu isə yalnız texniki modernləşmə deyil, həm də idarəetmə fəlsəfəsinin transformasiyası deməkdir.

Sənaye 4.0 konsepsiyası çərçivəsində istehsal güclərinin artırılması istiqamətlərinin əsasını kiber-fiziki sistemlərin, böyük verilənlərin analitikası, süni intellekt, bulud texnologiyaları və sənaye interneti (IIoT) təşkil edir. World Economic Forum tərəfindən sənaye transformasiyası üzrə aparılan tədqiqatlarda rəqəmsal texnologiyaların istehsal sistemlərinə inteqrasiyasının məhsuldarlığı və gücdən istifadə səviyyəsini əhəmiyyətli dərəcədə artırdığı vurğulanır. Bu transformasiya nəticəsində avadanlıqlar real vaxt rejimində məlumat mübadiləsi aparır, sensor infrastrukturu vasitəsilə proses parametrləri izlənilir və analitik modellər əsasında proqnozlaşdırıcı qərarlar qəbul edilir [3].

Rəqəmsal transformasiyanın istehsal güclərinə təsiri ilk növbədə görünürlük və şəffaflıq amili ilə izah olunur. Ənənəvi sistemlərdə istehsalın faktiki vəziyyəti ilə plan göstəriciləri arasında zaman gecikməsi mövcud olduğu halda, rəqəmsal platformalar bu fərqi minimuma endirir. ISA-95 standart çərçivəsi istehsal idarəetməsi ilə korporativ planlaşdırma sistemləri arasında məlumat inteqrasiyasını təmin edən arxitekturanı təsvir edir və bu inteqrasiya gücün daha effektiv istifadəsinə şərait yaradır. Beləliklə, plan–icra–nəzarət dövrü qısalır və istehsal gücü real vaxt rejimində optimallaşdırılır.

İnnovativ texnologiyalar arasında süni intellekt və maşın öyrənməsi xüsusi yer tutur. Süni intellekt əsaslı proqnozlaşdırıcı modellər avadanlıq nasazlıqlarını əvvəlcədən müəyyən edərək plandan kənar dayanma müddətlərini azaldır və bununla da effektiv istehsal gücünü artırır. Eyni zamanda, tələb proqnozlaşdırılması və istehsal planlaşdırmasının avtomatlaşdırılması resursların daha balanslı bölgüsünü təmin edir. Bu istiqamətdə International Organization for Standardization tərəfindən qəbul edilmiş ISO 22400-2 standartı istehsalat əməliyyatları üzrə performans göstəricilərinin ölçülməsi və rəqəmsal monitorinqini sistemləşdirir. KPI-ların real vaxtda izlənməsi istehsal gücünün yalnız kəmiyyət deyil, keyfiyyət aspektini də gücləndirir [4].

Rəqəmsal transformasiyanın digər mühüm istiqaməti "ağıllı fabrik" modelidir. Ağıllı fabrikdə kiber-fiziki sistemlər, robotlaşdırılmış istehsal xətləri və avtomatlaşdırılmış logistik axınlar bir-biri ilə inteqrə olunmuş şəkildə fəaliyyət göstərir. Robotlaşdırma əməliyyatların təkrarlanma dəqiqliyini artırır, insan səhvlərini azaldır və istehsal sürətini yüksəldir. Bu isə eyni istehsal vaxtı fondu daxilində daha yüksək buraxılış həcminə nail olmağa imkan verir. Xüsusilə kollaborativ robotlar (cobots) insan–maşın əməkdaşlığını gücləndirərək əməyin məhsuldarlığını artırır və istehsal gücünün elastikliyini təmin edir. Böyük verilənlərin analitikası və "rəqəmsal əkiz" (digital twin) texnologiyası istehsal güclərinin optimallaşdırılmasında yeni mərhələ hesab olunur. Rəqəmsal əkiz real istehsal sisteminin virtual modelini yaradaraq müxtəlif ssenarilərin simulyasiyasına imkan verir. Bu texnologiya vasitəsilə güc artırımı, növbə sayının dəyişdirilməsi, sazlama vaxtlarının azaldılması və məhsul qarışığının optimallaşdırılması kimi qərarların nəticələri əvvəlcədən qiymətləndirilə bilir. Bu yanaşma investisiya risklərini azaldır və istehsal gücünün artırılmasına dair qərarların elmi əsaslandırılmasını təmin edir [7].

Davamlı inkişaf kontekstində istehsal güclərinin artırılması yalnız iqtisadi səmərəliliklə deyil, həm də ekoloji və sosial məsuliyyət prinsipləri ilə uzlaşdırılmalıdır. Enerji səmərəliliyinin yüksəldilməsi, tullantıların azaldılması və resursların təkrar istifadəsi istehsal gücünün "yaşıl artım" modelinə uyğun genişləndirilməsini təmin edir.

United Nations tərəfindən qəbul edilmiş Davamlı İnkişaf Məqsədləri sənaye müəssisələrində innovativ və dayanıqlı istehsal modellərinin təşviqini prioritet istiqamət kimi müəyyən edir. Bu çər-çivədə enerji monitorinq sistemləri, karbon izinin hesablanması və dövri iqtisadiyyat prinsiplərinin

tətbiqi istehsal gücünün uzunmüddətli davamlılığını təmin edir. Resurs effektivliyinin artırılması istehsal güclərinin genişləndirilməsində mühüm rol oynayır. Lean və Six Sigma yanaşmaları itkilərin azaldılması və proses dəyişkənliyinin minimuma endirilməsi vasitəsilə eyni resurs bazasında daha yüksək məhsuldarlıq əldə etməyə imkan verir. Bu metodların rəqəmsal analitika ilə inteqrasiyası optimallaşdırma prosesini daha sistemli və davamlı edir. Nəticədə istehsal gücü artımı yalnız fiziki kapi-talın genişlənməsi ilə deyil, həm də intellektual kapitalın və təşkilati biliklərin inkişafı ilə reallaşır [9].

Strateji baxımdan istehsal güclərinin artırılması üç əsas istiqamətdə formalaşır: texnoloji modernləşmə, rəqəmsal inteqrasiya və davamlılıq yönümlü transformasiya. Texnoloji modernləşmə avadanlığın yenilənməsi və avtomatlaşdırma səviyyəsinin artırılmasını, rəqəmsal inteqrasiya məlumat axınlarının vahid platformada birləşdirilməsini, davamlılıq isə enerji və resurs istifadəsinin optimallaşdırılmasını nəzərdə tutur. Bu istiqamətlərin sinerjisi nəticəsində müəssisə həm istehsal həcmini, həm də rəqabət qabiliyyətini artırır.

Beləliklə, rəqəmsal transformasiya və innovativ texnologiyalar istehsal güclərinin artırılmasını yeni mərhələyə yüksəldir və bu artım artıq yalnız kəmiyyət artımı deyil, həm də keyfiyyət və daya-nıqlılıq artımı kimi xarakterizə olunur. İnteqrə olunmuş rəqəmsal sistemlər, süni intellekt əsaslı qərarvermə və davamlı inkişaf prinsiplərinin tətbiqi istehsal gücünün effektiv və məsuliyyətli şəkildə genişləndirilməsinə imkan yaradır. Bu yanaşma sənaye müəssisələrinin uzunmüddətli strateji inkişa-fının və qlobal rəqabət mühitində mövqelərinin möhkəmləndirilməsinin əsas şərti kimi çıxış edir.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Prezidenti. (2015). Azərbaycan Respublika-sında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı.

2. Azərbaycan Respublikasının Prezidenti. (2016). Azərbaycan Respublika-sında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi.

3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2026). Sənaye istehsalı üzrə rəsmi statistik göstəricilər və operativ məlumatlar (rəsmi portal materialları).

4. Yahudov, X.M. (2009). Müəssisənin iqtisadiyyatı: dərslik. Prezident Kitabxanası kataloqu.

5. Əliyev, T., Abbasov, İ. (2014). Qeyri-neft sənayesinin iqtisa diyyatı: dərs vəsaiti. Prezident Kitabxanası kataloqu.

6. Bakı Mühəndislik Universiteti. (2023). "İstehsalın iqtisadiyyatı və menecmenti" üzrə dərs vəsaiti

7. International Organization for Standardization. (2014). ISO 22400-2: Automation systems and integration - KPIs for manufacturing operations management - Part 2: Definitions and descriptions.

8. International Society of Automation. ISA-95 Standard: Enterprise-Control System Integration (IEC 62264).

9. United Nations. Sustainable Development Goal 9: Industry, Innovation and Infrastructure.

S.S.Sadigova
associate professor, Azerbaijan State Oil and Industry University PLE
R.A.Bagirov
master student, Azerbaijan State Oil and Industry University PLE

Optimization of production capacity utilization and resource management mechanisms in industrial enterprises

Abstract

The article examines the application of normative-technological approaches, time-fund methods, the bottleneck principle, and KPI-based measurement systems in evaluating production capacities. In particular, the integration of performance indicators within the framework of OEE and ISO 22400 standards is analyzed in terms of structuring production losses and objectively assessing operational efficiency. Within the context of resource management mechanisms, the integration of MRP II, ERP, and MES systems, asset management principles, and optimization tools (Lean, Six Sigma, SMED, TOC) are presented as key directions for increasing production capacity. At the same time, the implementation of digital transformation, artificial intelligence, industrial internet, and digital twin technologies is substantiated as a means of enhancing visibility, flexibility, and decision-making speed in production systems. From the perspective of sustainable development, the role of energy efficiency, rational resource utilization, and environmental responsibility in ensuring the long-term expansion of production capacity is emphasized. Consequently, the optimization of production capacity is assessed not merely as technical modernization, but as a multidimensional transformation process enabled by integrated digital management, an effective KPI system, and a sustainable development strategy.

Keywords: *production capacity, KPI system, resource management, Lean and Six Sigma, sustainable development.*

https://doi.org/10.58225/tim.2026-2-227-234

M.C.Tağızadə
müəllim, Naxçıvan Dövlət Universiteti
meherremtagizade@ndu.edu.az

Məqalə redaksiyaya daxil olub 28.03.2026
The article was received by editorial board on 28.03.2026
Статья принята к печати 28.03.2026

İCTİMAİ XİDMƏTLƏRİN GÖSTƏRİLMƏSİNDƏ ŞƏFFAFLIĞIN TƏMİN EDİLMƏSİ MEXANİZMLƏRİ

Xülasə

*Müasir dövrdə dövlət idarəçiliyi və ictimai xidmətlərin keyfiyyəti cəmiyyətin inkişafı və vətəndaş məmnuniyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu kontekstdə şəffaflıq, yalnız korrupsiyanın qarşısının alınması üçün deyil, həm də dövlət orqanlarının effektivliyinin yüksəldilməsi və ictimai etimadın möhkəmləndirilməsi üçün strateji vasitə kimi qəbul olunur. Məqalədə ictimai xidmətlərin göstərilməsində şəffaflığın təmin edilməsi mexanizmləri sistematik şəkildə təhlil edilmişdir. Analiz zamanı dövlət qurumlarının informasiya açıqlığı, hesabatlılıq mexanizmləri, vətəndaşların qərarqəbuletmə prosesinə cəlb olunması, habelə rəqəmsal idarəetmə platformalarının rolu xüsusi diqqət mərkəzində saxlanılmışdır. Tədqiqatın nəticələri göstərir ki, dövlət xidmətlərinin şəffaflığının təmin edilməsində informasiya açıqlığı və hesabatlılıq sistemlərinin işləkliyi əsas şərt hesab olunur. Vətəndaş iştirakçılığı isə xidmətlərin keyfiyyətinə birbaşa təsir göstərərək, vətəndaş-dövlət münasibətlərinin səmərəliliyini artırır. Eyni zamanda, rəqəmsal idarəetmə texnologiyalarının tətbiqi, xüsusən elektron hökumət (e-government) platformaları vasitəsilə şəffaflıq səviyyəsinin yüksəldilməsinə imkan yaradır. Məqalədə həmçinin şəffaflığın təmin edilməsində qarşıya çıxan çətinliklər – informasiya resurslarının məhdudluğu, texnoloji infrastruktur problemləri və vətəndaş iştirakının yetərsizliyi – araşdırılmış və onların həlli yolları, o cümlədən dövlət siyasətinin təkmilləşdirilməsi və rəqəmsal transformasiya strategiyaları təklif edilmişdir. Tədqiqatın nəticələri dövlət idarəçiliyi və ictimai xidmətlərin effektivliyinin artırılması sahəsində strateji qərarların qəbuluna töhfə verə bilər və vətəndaş məmnuniyyətinin yüksəldilməsi üçün praktik tövsiyələr təq*dim edir.

Açar sözlər: *ictimai xidmətlər, şəffaflıq, hesabatlılıq, rəqəmsal idarəetmə, vətəndaş iştirakçılığı.*

1. GİRİŞ

İctimai xidmətlərin göstərilməsi müasir dövlət idarəçiliyinin əsas funksiyalarından biridir və bu xidmətlərin səmərəli, ədalətli və etibarlı şəkildə həyata keçirilməsi vətəndaş məmnuniyyəti və sosial rifah üçün həlledici rol oynayır. Bu kontekstdə şəffaflıq, dövlət idarəçiliyinin effektivliyini artıran, vətəndaş etimadını möhkəmləndirən və sosial ədalətin təmin olunmasına töhfə verən fundamental prinsiplərdən biri kimi qəbul edilir. Şəffaflıq vətəndaşların dövlət qərarları, siyasətləri və xidmətlərin icrası barədə tam və vaxtında məlumat əldə etməsini təmin etməklə, idarəetmənin hesabatlılığını gücləndirir, korrupsiyanın qarşısını alır və dövlətin ictimai etimadını artırır.

Müasir dövrdə dövlət orqanları tərəfindən şəffaflığın təmin olunması müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir. Bunlar arasında elektron hökumət (e-government) sistemləri, açıq məlumat portalları, ictimai monitorinq və hesabatlılıq platformaları, eləcə də vətəndaş forumları və iştirakçı

platformalar xüsusi əhəmiyyət daşıyır. Bu mexanizmlər vətəndaş-dövlət qarşılıqlı əlaqəsini gücləndirir, idarəetmədə məsuliyyətli yanaşmanı təmin edir və qərarqəbuletmə proseslərinin şəffaf olmasına şərait yaradır.

Son illərdə rəqəmsal transformasiya dövlət idarəçiliyində şəffaflıq prinsiplərinin tətbiqində əsas rol oynamağa başlamışdır. Elektron idarəetmə sistemləri vasitəsilə vətəndaşlara xidmətlərin keyfiyyəti, müddətləri və nəticələri barədə real vaxt rejimində məlumat təqdim olunur, bu da dövlət xidmətlərinin monitorinqini və qiymətləndirilməsini daha effektiv edir. Eyni zamanda, açıq məlumatların və vətəndaş iştirakının artırılması dövlət qərarlarının sosial cəhətdən məqbul və ədalətli olmasını təmin edir.

Məqalənin əsas məqsədi, ictimai xidmətlərin göstərilməsi prosesində şəffaflıq mexanizmlərini elmi cəhətdən araşdırmaq, onların praktik tətbiq sahələrini və üstünlüklərini müəyyən etmək, habelə qarşıya çıxan problemləri təhlil etməkdir. Tədqiqat, həmçinin şəffaflığın təmin edilməsində mövcud çətinliklərin, o cümlədən texnoloji məhdudiyyətlər, vətəndaş iştirakının yetərsizliyi və idarəetmə prosedurlarının mürəkkəbliyi kimi faktorların öyrənilməsinə və onların həlli yollarının işlənməsinə yönəldilmişdir.

Beləliklə, məqalə ictimai xidmətlərin göstərilməsində şəffaflıq mexanizmlərinin elmi əsaslı təhlilini təqdim etməklə, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, vətəndaş məmnuniyyətinin yüksəldilməsi və korrupsiyanın qarşısının alınması sahəsində praktik tövsiyələr ortaya qoyur.

2. Şəffaflığın nəzəri əsasları

Şəffaflıq anlayışı dövlət idarəçiliyində yalnız idarəetmənin açıq olmasını təmin edən texniki bir göstərici kimi deyil, həm də demokratik prinsiplərin, vətəndaş etimadının və sosial ədalətin təmin olunmasının əsas elementi kimi qəbul edilir (Bannister & Connolly, 2012). Dövlət xidmətlərinin keyfiyyətinin artırılması və korrupsiyanın qarşısının alınması üçün şəffaflıq dövlət idarəçiliyində dörd əsas prinsipə əsaslanır.

1. Məlumat açıqlığı – bu prinsip vətəndaşların dövlət qərarları, siyasətlər və ictimai xidmətlərin göstərilməsi barədə ətraflı, doğru və vaxtında məlumat əldə etməsini nəzərdə tutur. Məlumat açıqlığı vətəndaşların dövlət fəaliyyətini izləməsini və qiymətləndirməsini mümkün edir, eyni zamanda idarəetmədə məsuliyyət və etimad mühitini yaradır (Coursey & Norris, 2008).

2. Hesabatlılıq – dövlət qurumlarının fəaliyyətinin sistemli yoxlanılması və nəticələrin ictimaiyyətə açıqlanmasını əhatə edir. Hesabatlılıq mexanizmləri, o cümlədən müstəqil auditlər və performans qiymətləndirmə sistemləri, idarəetmənin düzgün işləməsini təmin edir və vətəndaşların dövlət fəaliyyətinə dair məlumatlara çıxışını təmin edir (Piotrowski, 2007).

3. İctimai iştirakçılıq – bu prinsip vətəndaşların qərarqəbuletmə və siyasətformalaşdırma proseslərinə cəlb olunmasını ifadə edir. İctimai iştirakçılıq vasitəsilə vətəndaşlar dövlət siyasətinə təsir edə bilir, təklif və şikayətlərini bildirir və xidmətlərin keyfiyyətinə birbaşa töhfə verirlər (Fung, 2006).

4. Ədalətlilik və bərabərlik – şəffaf idarəetmənin bir digər vacib komponenti bütün vətəndaşların ictimai xidmətlərə bərabər çıxış imkanına malik olmasıdır. Bu prinsip sosial ədaləti gücləndirir, vətəndaşlar arasında ayrı-seçkiliyin qarşısını alır və dövlətin obyektivliyini təmin edir (Grimmelikhuijsen et al., 2013).

Şəffaflığın nəzəri əsasları praktik tətbiqdə bir neçə müasir yanaşmaya söykənir:

- **Rəqəmsal şəffaflıq** – dövlətin elektron idarəetmə (e-government) və onlayn platformalar vasitəsilə informasiya açıqlığını artırmasıdır. Rəqəmsal şəffaflıq vətəndaşlara xidmətlər və qərarlar barədə real vaxt rejimində məlumat əldə etməyə imkan verir və idarəetmədə sürətli, effektiv monitorinqi təmin edir (Dunleavy et al., 2006).
- **Hesabatlılıq mexanizmləri** – auditlər, performans göstəriciləri və qiymətləndirmə sistemləri şəffaflığı təmin edən əsas vasitələrdir. Bu mexanizmlər dövlət qurumlarının fəaliyyətinin obyektiv

qiymətləndirilməsini təmin edir və vətəndaşların dövlət orqanlarının qərarlarını izləməsinə şərait yaradır (Bannister & Connolly, 2012).

- **Vətəndaş mərkəzli yanaşma** – vətəndaşların təklif və şikayətlərinin qəbul edilməsi, forumlar, platformalar və digər iştirakçı mexanizmlərin yaradılması idarəetmənin daha açıq və cavabdeh olmasını təmin edir (Fung, 2006). Bu yanaşma vətəndaşların dövlət fəaliyyətinə aktiv cəlb olunmasını stimullaşdırır və ictimai xidmətlərin keyfiyyətini yüksəldir.

Nəticə olaraq, şəffaflığın nəzəri əsasları dövlət idarəçiliyində və ictimai xidmətlərin göstərilməsində strateji əhəmiyyətə malikdir. Məlumat açıqlığı, hesabatlılıq, ictimai iştirakçılıq və bərabərlik prinsipləri ilə birləşərək, rəqəmsal və vətəndaş mərkəzli yanaşmalar şəffaf idarəetmənin effektiv mexanizmlərini formalaşdırır və cəmiyyət üçün sosial fayda yaradır.

3. İctimai xidmətlərin şəffaflıq mexanizmləri

Şəffaflıq dövlət idarəçiliyinin effektivliyinin artırılması və ictimai xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün strateji əhəmiyyət daşıyır. Şəffaflığın təmin olunması yalnız nəzəri prinsip deyil, həm də praktik olaraq müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir. Bu mexanizmlər vətəndaşların məlumatlılığını artırır, idarəetmənin hesabatlılığını təmin edir və dövlət xidmətlərinin səmərəliliyini yüksəldir (Heeks, 2006). Aşağıda ictimai xidmətlərin şəffaflıq mexanizmləri geniş şəkildə izah olunur.

3.1. Elektron idarəetmə və açıq məlumat portalları

Rəqəmsal idarəetmə sistemləri, xüsusən elektron hökumət platformaları və açıq məlumat portalları, dövlət xidmətlərinin və büdcə xərclərinin vətəndaşlar üçün əlçatan olmasını təmin edir. Bu mexanizmlər vətəndaşlara yalnız məlumat əldə etmək imkanı yaratmır, həm də dövlət qərarlarına təsir göstərmək və monitorinq aparmaq üçün şərait yaradır. Məsələn, Estoniya, Cənubi Koreya və Kanada kimi ölkələrdə elektron hökumət sistemləri vasitəsilə vətəndaşlar dövlət büdcəsi, layihələr və xidmətlərin icra vəziyyəti barədə real vaxt rejimində məlumat əldə edə bilirlər (OECD, 2020).

Azərbaycan kontekstində də açıq məlumat portalları və elektron xidmətlər geniş tətbiq olunur. "Açıq Hökumət Portalı" və digər elektron platformalar vasitəsilə vətəndaşlar dövlətin maliyyə və idarəetmə fəaliyyəti ilə bağlı məlumatları izləyə bilirlər, şikayət və təkliflərini təqdim edə bilirlər (Azərbaycan Respublikasının Prezidenti, 2021). Bu yanaşma dövlətin ictimai etimadını gücləndirir və korrupsiyanın qarşısının alınmasına xidmət edir.

3.2. Audit və monitorinq mexanizmləri

Dövlət orqanlarında həyata keçirilən müstəqil audit və monitorinq sistemi şəffaflığın və hesabatlılığın təmin olunmasında əsas rol oynayır. Audit mexanizmləri yalnız maliyyə hesabatlarının yoxlanılmasını deyil, eyni zamanda xidmətlərin keyfiyyət və effektivliyinin qiymətləndirilməsini də əhatə edir. Hesabatlılıq sistemləri, xüsusən performans göstəricilərinə əsaslanan monitorinq, dövlət qurumlarının fəaliyyətində səhvlərin vaxtında aşkar edilməsinə imkan verir və vətəndaşlar üçün etibarlı məlumat təmin edir (Anderson, 2009).

Azərbaycan təcrübəsində Hesablama Palatası və müstəqil audit qurumları dövlət maliyyə hesabatlarının və layihə icra mexanizmlərinin şəffaflığını təmin edir. Bu mexanizmlər, eyni zamanda, vətəndaşların dövlət fəaliyyətinə nəzarət imkanlarını artırır və korrupsiyanın qarşısının alınmasına töhfə verir (Azərbaycan Respublikasının Hesablama Palatası, 2022).

3.3. Vətəndaş iştirakçılığı

Vətəndaş iştirakçılığı şəffaflığın təmin edilməsində mühüm rol oynayır. Sosial sorğular, ictimai forumlar, elektron şikayət və təklif sistemləri, eləcə də müzakirə platformaları vətəndaşların dövlət fəaliyyətinə birbaşa təsir göstərməsinə imkan yaradır. İştirakçı yanaşmalar vətəndaşların qərarqəbuletmə prosesində fəal rol almasına şərait yaradaraq, xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və idarəetmədə məsuliyyətin artırılmasına xidmət edir (Margetts & Dunleavy, 2013).

Azərbaycan kontekstində vətəndaş iştirakçılığı sosial sorğular, onlayn müraciət portalları və yerli icra hakimiyyətlərinin təşəbbüsü ilə həyata keçirilir. Məsələn, Elektron Müraciət Sistemi vasitə-

silə vətəndaşlar öz təklif və şikayətlərini dövlət qurumlarına çatdırır, bu da idarəetmənin şəffaflıq səviyyəsini artırır (Məmmədov, 2020).

3.4. Hüquqi tənzimləmə

Şəffaflıq mexanizmləri hüquqi çərçivə ilə dəstəklənməlidir. Dövlətin məlumat açıqlığı, vətəndaşların məlumat hüquqları və dövlət qurumlarının hesabatlılığı qanunvericilik səviyyəsində tənzimlənməlidir. Bu çərçivə həm vətəndaşların hüquqlarını qoruyur, həm də dövlət orqanlarının fəaliyyətində standartları müəyyən edir. Beynəlxalq təcrübədə açıq məlumat qanunları və informasiya əldə etmə hüququ şəffaf idarəetmənin əsas mexanizmlərindən biri kimi qəbul edilir (Bertot, Jaeger, & Grimes, 2010).

Azərbaycan Respublikasında "İnformasiya əldə etmək haqqında" Qanun və əlaqədar normativ aktlar vətəndaşların məlumat hüquqlarını qoruyur və dövlət qurumlarının hesabatlılığını təmin edir (Azərbaycan Respublikasının Milli Məclisi, 2005). Hüquqi çərçivə şəffaflığın tətbiqi üçün əsas zəmindir və digər mexanizmlərlə birgə işlədikdə, dövlət idarəçiliyinin səmərəliliyini və ictimai etimadı əhəmiyyətli dərəcədə artırır.

Beləliklə, ictimai xidmətlərin şəffaflıq mexanizmləri – rəqəmsal idarəetmə, audit və monitorinq, vətəndaş iştirakçılığı və hüquqi tənzimləmə – dövlət idarəçiliyində hesabatlılığı təmin edən və vətəndaş məmnuniyyətini artıran əsas vasitələrdir. Bu mexanizmlərin birgə tətbiqi dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və korrupsiyanın qarşısının alınması baxımından strateji əhəmiyyət kəsb edir.

4. Üstünlüklər

İctimai xidmətlərdə şəffaflığın təmin olunması dövlət idarəçiliyinin əsas strateji məqsədlərindən biri kimi qiymətləndirilir. Şəffaflığın tətbiqi yalnız formal prosedurların həyata keçirilməsi deyil, həm də vətəndaş məmnuniyyətinin artırılması, korrupsiyanın azalması və sosial ədalətin təmin olunması kimi mühüm nəticələrə gətirib çıxarır (Grimmelikhuijsen, 2012).

4.1. Etimadın artması

Şəffaf idarəetmə və vətəndaşların məlumatlılığı dövlətə qarşı etimadın güclənməsinə birbaşa təsir göstərir. Vətəndaşlar dövlət qərarları və fəaliyyətləri barədə açıq, doğru və vaxtında məlumat əldə etdikdə, idarəetməyə olan inam yüksəlir və ictimai nəzarət mexanizmlərinə daha fəal qoşulurlar (Piotrowski & Van Ryzin, 2007). Məsələn, rəqəmsal açıq məlumat platformaları və onlayn müraciət sistemləri vətəndaşların dövlət fəaliyyətinə dair obyektiv təsəvvür formalaşdıraraq etimadı artırır.

4.2. Korrupsiyanın azalması

Şəffaflıq mexanizmləri, o cümlədən audit, monitorinq və vətəndaş iştirakçılığı, dövlət fəaliyyətlərinin daimi izlənilməsini təmin edir. Bu, korrupsiyanın qarşısının alınmasına və sui-istifadə hallarının minimuma endirilməsinə xidmət edir (Bertot, Jaeger, & Grimes, 2010). Şəffaflıq vasitəsilə vətəndaşlar və media dövlətin qərar və layihələrinə nəzarət edə bilir ki, bu da qanunsuz hərəkətlərin aşkarlanmasını və məsuliyyət mexanizmlərinin tətbiqini mümkün edir.

4.3. Xidmət keyfiyyətinin yüksəlməsi

Açıq və obyektiv meyarlarla xidmətlərin qiymətləndirilməsi dövlət idarəçiliyində xidmət keyfiyyətinin artırılmasına imkan yaradır. Şəffaflıq mexanizmləri vasitəsilə vətəndaş rəyinin toplanması, xidmətlərin monitorinqi və performans göstəricilərinin təhlili xidmət keyfiyyətinin yüksəldilməsini təmin edir (Meijer, 2013). Bu yanaşma yalnız prosedural şəffaflıqla kifayətlənmir, həm də vətəndaş məmnuniyyətini artıran nəticələr verir.

4.4. Sosial ədalət

Şəffaflıq dövlət xidmətlərinin bərabər və ədalətli şəkildə göstərilməsini təmin edir. Bütün vətəndaşların xidmətlərə bərabər çıxış imkanına malik olması sosial ədaləti gücləndirir və ayrı-seçkiliyin qarşısını alır (Fox, 2007). Şəffaf prosedurlar vasitəsilə resursların düzgün bölüşdürülməsi və xidmətlərin obyektiv qiymətləndirilməsi sosial bərabərliyin təmin olunmasına xidmət edir.

Nəticə etibarilə, ictimai xidmətlərdə şəffaflıq mexanizmlərinin tətbiqi yalnız idarəetmənin səmərəliliyini artırmır, həm də vətəndaş etimadını gücləndirir, korrupsiyanı azaldır, xidmət keyfiyyətini yüksəldir və sosial ədaləti təmin edir. Bu üstünlüklər dövlətin uzunmüddətli strategiyasının həyata keçirilməsi və ictimai rifahın təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir.

5. Çətinliklər və problemlər

İctimai xidmətlərin şəffaflığı yalnız üstünlüklərlə müşayiət olunmur; eyni zamanda onun tətbiqində müxtəlif çətinlik və problemlər də mövcuddur. Bu çətinliklər texniki, hüquqi və sosial-mədəni səviyyədə ortaya çıxır və şəffaflıq mexanizmlərinin effektivliyini məhdudlaşdıra bilər (Bertot, Jaeger, & Grimes, 2012).

5.1. Texniki problemlər

Rəqəmsal idarəetmə və açıq məlumat portalları şəffaflığın əsas vasitələrindən biri olsa da, texniki infrastrukturun yetərsizliyi və istifadəçilərin aşağı texniki bacarıqları bu mexanizmlərin effektivliyinə mane olur. Xüsusilə, elektron platformaların düzgün işləməməsi, məlumatların vaxtında yenilənməməsi və sistemlərin etibarlılıq səviyyəsinin aşağı olması şəffaflığın təmin edilməsində ciddi əngəl yaradır (Jaeger & Bertot, 2010).

Azərbaycan təcrübəsində bəzi bölgələrdə internetin sürətinin aşağı olması və rəqəmsal savadlılığın kifayət qədər inkişaf etməməsi vətəndaşların elektron müraciət sistemlərindən tam istifadə etməsinə mane olur. Bu isə şəffaflıq mexanizmlərinin universal tətbiqinə və ictimai iştirakçılığın genişləndirilməsinə təsir göstərir (Hüseynov, 2021).

5.2. Hüquqi və normativ çətinliklər

Şəffaflıq mexanizmlərinin tətbiqi üçün hüquqi baza mühüm rol oynayır. Lakin məlumatların açıqlanması və qorunması ilə bağlı qanunvericilik boşluqları və ya aydın olmayan normativ tənzimləmələr dövlət qurumlarının fəaliyyətini məhdudlaşdıra və vətəndaşların məlumat əldə etmə imkanlarını azalda bilər (Piotrowski & Van Ryzin, 2007).

Azərbaycan kontekstində, informasiyanın açıqlanması və şəxsi məlumatların qorunması sahəsində mövcud qanunvericilik inkişaf etdirilsə də, bəzi hallarda tətbiq mexanizmləri qeyri-kafi və ya mübahisəli olur. Bu isə dövlət orqanlarının hesabatlılığını təmin etməyi çətinləşdirir və şəffaflıq səviyyəsini aşağı salır (Azərbaycan Respublikası Milli Məclisi, 2005).

5.3. Sosial və mədəni çətinliklər

Vətəndaşların elektron sistemlərdən istifadədəki çətinlikləri və ictimai iştirakçılığın aşağı səviyyəsi şəffaflığın digər əngəlidir. Sosial və mədəni faktorlar, məsələn, rəqəmsal savadsızlıq, etimadsızlıq və ya elektron xidmətlərin vacibliyini dərk etməmə vətəndaşların iştirakını məhdudlaşdıra bilər (Bannister & Connolly, 2014).

Bu vəziyyət şəffaflıq mexanizmlərinin effektiv tətbiqinə mane olur, çünki vətəndaşların yalnız bir qismi aktiv olaraq rəqəmsal platformalarda müraciət edə və dövlət fəaliyyətini izləyə bilir. Buna görə də, ictimai iştirakın artırılması üçün rəqəmsal savadlılığın yüksəldilməsi və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi vacibdir (OECD, 2021).

Beləliklə, ictimai xidmətlərin şəffaflığı texniki, hüquqi və sosial-mədəni çətinliklərlə üzləşir. Bu problemlərin həlli üçün rəqəmsal infrastrukturun gücləndirilməsi, hüquqi tənzimləmələrin aydınlaşdırılması və vətəndaşların elektron idarəetmə platformalarına fəal cəlb edilməsi əsas istiqamətlər kimi prioritet təşkil edir.

6. Həll yolları

İctimai xidmətlərin şəffaflığının artırılması yalnız mexanizmlərin tətbiqi ilə məhdudlaşmır; çətinliklərin effektiv aradan qaldırılması üçün sistemli həll yollarının işlənməsi vacibdir. Texniki, hüquqi və sosial-mədəni problemlərin həlli şəffaflıq səviyyəsinin yüksəldilməsi və dövlət idarəçiliyinin səmərəliliyinin artırılması baxımından strateji əhəmiyyət kəsb edir (Bannister, 2007).

6.1. Rəqəmsal infrastrukturu gücləndirmək

Texniki çətinliklərin aradan qaldırılması üçün dövlətin rəqəmsal infrastrukturunu gücləndirməsi əsas prioritetlərdən biridir. Bu, serverlərin etibarlılığının artırılması, yüksək sürətli internetin təmin edilməsi və etibarlı proqram təminatının tətbiqi ilə həyata keçirilir. Güclü və dayanıqlı rəqəmsal infrastruktur yalnız elektron idarəetmə platformalarının sabitliyini təmin etmir, həm də vətəndaşların məlumat əldə etmə və müraciət imkanlarını genişləndirir (Scholl, 2007).

6.2. Kadr hazırlığı və təlimlər

Rəqəmsal xidmətlərin effektivliyini artırmaq üçün dövlət məmurları və vətəndaşların rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi vacibdir. Təlim proqramları, seminarlar və interaktiv kurslar vasitəsilə vətəndaşlar elektron müraciət sistemlərindən daha səmərəli istifadə edə bilər, dövlət məmurları isə e-xidmətlərin idarə olunmasında yüksək peşəkarlığa malik olurlar (Andersen & Henriksen, 2006). Bu yanaşma ictimai iştirakçılığı artırmaqla yanaşı, texniki problemlərin qarşısını almağa kömək edir.

6.3. Hüquqi tənzimləmə

Şəffaflığın hüquqi əsaslarının möhkəmləndirilməsi vacibdir. Elektron xidmətlərin və məlumat açıqlığının hüquqi statusunun aydın şəkildə tənzimlənməsi dövlət qurumlarının hesabatlılığını təmin edir və vətəndaşların hüquqlarını qoruyur (Bertot, Jaeger, & Grimes, 2010). Azərbaycan kontekstində mövcud normativ aktlar və qanunlar təkmilləşdirilməli, həmçinin onların tətbiqi mexanizmləri sadələşdirilməli və vahid standartlara uyğunlaşdırılmalıdır.

6.4. İctimai maarifləndirmə

Vətəndaş iştirakçılığının artırılması üçün ictimai maarifləndirmə kampaniyalarının aparılması vacibdir. Bu kampaniyalar vətəndaşları elektron müraciət sistemlərinə, açıq məlumat portallarına və digər şəffaflıq mexanizmlərinə cəlb etməklə yanaşı, onların hüquqlarını və dövlət fəaliyyətinə təsir imkanlarını izah edir (Linders, 2012). Maarifləndirmə təşəbbüsləri həm də sosial-mədəni çətinliklərin aradan qaldırılmasına və şəffaflıq səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Beləliklə, rəqəmsal infrastrukturun gücləndirilməsi, kadr hazırlığı, hüquqi tənzimləmə və ictimai maarifləndirmə – ictimai xidmətlərin şəffaflığının təmin olunmasında bir-birini tamamlayan əsas həll yollarıdır. Bu tədbirlər həm texniki, həm hüquqi, həm də sosial-mədəni çətinlikləri aradan qaldıraraq, dövlət idarəçiliyinin səmərəliliyini və vətəndaş etimadını artırır.

7. NƏTİCƏ

İctimai xidmətlərin göstərilməsində şəffaflıq mexanizmləri müasir dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasında və vətəndaş etimadının gücləndirilməsində strateji əhəmiyyət daşıyan əsas vasitələrdən biridir. Şəffaflıq, vətəndaşların dövlət qərarları və xidmətləri barədə dolğun və vaxtında məlumat əldə etməsinə şərait yaradaraq, idarəetmənin hesabatlı olmasını təmin edir və korrupsiyanın qarşısının alınmasına töhfə verir. Elektron idarəetmə sistemləri, açıq məlumat portalları, audit və monitorinq mexanizmləri, eləcə də vətəndaşların qərarqəbuletmə prosesinə birbaşa cəlb olunması şəffaflıq mexanizmlərinin ən önəmli elementlərini təşkil edir.

Elektron idarəetmə və rəqəmsal platformalar vasitəsilə dövlət xidmətlərinin və büdcə xərclərinin vətəndaşlar üçün əlçatan olması, vətəndaşların dövlət fəaliyyətini izləməsinə və qərar proseslərinə təsir göstərməsinə imkan yaradır. Bu yanaşma yalnız məlumat açıqlığını təmin etmir, həm də idarəetmədə obyektivliyi və xidmət keyfiyyətini artırır. Açıq məlumat portalları və rəqəmsal xidmətlər vətəndaşların iştirakını gücləndirir, eyni zamanda dövlətin ictimai etimadını möhkəmləndirir.

Audit və monitorinq mexanizmləri dövlət qurumlarının fəaliyyətinin müstəqil qiymətləndirilməsini təmin edir, səhvlərin və sui-istifadələrin vaxtında aşkarlanmasına imkan yaradır və hesabatlılığı artırır. Bu sistemlər həm maliyyə hesabatlarının, həm də xidmət keyfiyyətinin obyektiv qiymətləndirilməsini əhatə edir. Eyni zamanda, vətəndaş iştirakçılığı sosial sorğular, forumlar, elektron müraciət və təklif sistemləri vasitəsilə təmin olunur, bu da vətəndaşların dövlət fəaliyyətinə birbaşa təsir göstərməsini mümkün edir və ictimai iştirakçılığı genişləndirir.

Lakin şəffaflığın tam effektivliyinə nail olmaq üçün müxtəlif çətinliklərin aradan qaldırılması vacibdir. Texniki çətinliklər, məsələn, rəqəmsal infrastrukturun zəifliyi, serverlərin və proqram təminatının etibarsızlığı, həmçinin vətəndaşların aşağı texniki bacarıqları şəffaflıq mexanizmlərinin tətbiqini məhdudlaşdıra bilər. Hüquqi və normativ çətinliklər – məlumat açıqlığı və qorunması ilə bağlı qanunvericilik boşluqları və ya tətbiq mexanizmlərinin qeyri-kafi olması – dövlət qurumlarının fəaliyyətini məhdudlaşdırır və vətəndaşların məlumat əldə etmə imkanlarını azaldır. Sosial və mədəni çətinliklər isə ictimai iştirakçılığın səviyyəsini aşağı salır, vətəndaşların elektron sistemlərdən istifadəsini çətinləşdirir və şəffaflıq mexanizmlərinin təsirini zəiflədir.

Bu problemlərin həlli üçün bir neçə əsas strategiya tətbiq edilə bilər. Rəqəmsal infrastrukturun gücləndirilməsi, yüksək sürətli və etibarlı internet təminatı, serverlərin və proqram təminatının modernləşdirilməsi texniki çətinlikləri aradan qaldırır. Dövlət məmurları və vətəndaşlar üçün rəqəmsal bacarıqların artırılması məqsədilə təlimlər və seminarlar təşkil edilməli, elektron xidmətlərin istifadəsi və platformaların funksionallığı barədə maarifləndirmə tədbirləri aparılmalıdır. Hüquqi tənzimləmələrin aydınlaşdırılması və gücləndirilməsi, elektron xidmətlərin və məlumat açıqlığının hüquqi statusunun möhkəmləndirilməsi şəffaflığın davamlı tətbiqinə zəmin yaradır. Eyni zamanda, ictimai maarifləndirmə və vətəndaşların fəal iştirakını təşviq edən kampaniyalar şəffaflıq mexanizmlərinin səmərəliliyini artırır və sosial-mədəni əngəlləri minimuma endirir.

Gələcək perspektivdə şəffaflığın təmin olunması daha çox multidissiplinar yanaşma tələb edir. Hüquq, informasiya texnologiyaları, ictimai idarəetmə və sosial elmlərin sintezi şəffaflıq mexanizmlərinin inkişafı və ictimai xidmətlərin keyfiyyətinin artırılmasında əsas rol oynayacaq. Dövlət-vətəndaş əməkdaşlığı, ictimai iştirakçılığın genişləndirilməsi və rəqəmsal transformasiya şəffaf idarəetmənin dayanıqlı olmasını təmin edən strateji elementlər kimi çıxış edəcək.

Beləliklə, ictimai xidmətlərin şəffaflıq mexanizmləri yalnız idarəetmənin prosedur tələbi deyil, həm də dövlətin effektivliyinin, sosial ədalətin və vətəndaş etimadının artırılmasının əsas vasitəsidir. Onun davamlı inkişafı və tətbiqi dövlətin uzunmüddətli idarəetmə strategiyasının mərkəzində dayanmalı, müxtəlif mexanizmlərin birgə işləməsi şəffaflığın səmərəliliyini maksimuma çatdırmalıdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Anderson, J.E. (2009). Public policymaking: An introduction. Cengage Learning.

2. Andersen, K.V., & Henriksen, H.Z. (2006). E-government maturity models: Extension of the Layne and Lee model. Government Information Quarterly, 23(2), 236–248. https://doi.org/10.1016/j.giq.2005.11.008

3. Azərbaycan Respublikasının Hesablama Palatası. (2022). İllik hesabat 2022. Bakı: Hesablama Palatası.

4. Azərbaycan Respublikasının Milli Məclisi. (2005). İnformasiya əldə etmək haqqında Qanun. Bakı: Azərbaycan Respublikası Qanunvericiliyi.

5. Azərbaycan Respublikasının Prezidenti. (2021). Açıq Hökumət Portalı: İllik fəaliyyət hesabatı. Bakı: Prezident Administrasiyası.

6. Bannister, F., & Connolly, R. (2014). Forward to the past: Lessons for the future of e-government from the story so far. Information Polity, 19(1–2), 23–36. https://doi.org/10.3233/IP-130313

7. Fung, A. (2006). Varieties of participation in complex governance. Public Administration Review, 66(s1), 66–75. https://doi.org/10.1111/j.1540-6210.2006.00667.x

8. Hüseynov, E. (2021). Vətəndaş iştirakçılığı və elektron müraciət platformaları: Azərbaycan təcrübəsi. İnnovasiya və İdarəetmə Jurnalı, 7(2), 55–72.

9. Meijer, A. (2013). Understanding the complex dynamics of transparency. Public Administration Review, 73(3), 429–439. https://doi.org/10.1111/puar.12030

10. OECD. (2021). Digital government review of Estonia. Paris: OECD Publishing. https://doi.org/10.1787/9789264303851-en

M.C.Taghizade
teacher, Nakhchivan State University

Mechanisms for ensuring transparency in the provision of public services

Abstract

In the modern era, public administration and the quality of public services are of great importance in terms of societal development and increasing citizen satisfaction. In this context, transparency is regarded not only as a means of preventing corruption but also as a strategic tool for enhancing the efficiency of government institutions and strengthening public trust. This article systematically analyzes the mechanisms for ensuring transparency in the provision of public services. The analysis particularly focuses on the openness of information within state institutions, accountability mechanisms, the involvement of citizens in decision-making processes, as well as the role of digital governance platforms. The results of the study indicate that the functionality of information openness and accountability systems is a key condition for ensuring transparency in public services. Citizen participation directly influences the quality of services and increases the efficiency of citizen-government relations. At the same time, the application of digital governance technologies, especially through e-government platforms, contributes to increasing the level of transparency. The article also examines the challenges encountered in ensuring transparency - limited information resources, technological infrastructure problems, and insufficient citizen participation - and proposes solutions, including the improvement of public policy and digital transformation strategies. The findings of the study can contribute to strategic decision-making in the field of public administration and the enhancement of public service efficiency, as well as provide practical recommendations for increasing citizen satisfaction.

Keywords: *public services, transparency, accountability, digital governance, citizen participation.*

https://doi.org/10.58225/tim.2026-2-235-240

N.Y.Huseynova
master student, Azerbaijan State University of Economics (UNEC)
nargiz.huseynova2024@gmail.com

Məqalə redaksiyaya daxil olub 30.03.2026
The article was received by editorial board on 30.03.2026
Статья принята к печати 30.03.2026

CONSUMER SATISFACTION AS A CATALYST FOR LONG-TERM EXPANSION IN AZERBAIJAN'S E-COMMERCE SECTOR

Abstract

This research aims to empirically evaluate how satisfactory experiences and factors that contribute to satisfactory experiences impact E-Commerce platforms' long-term success in Azerbaijan. Digital transformation, the increasing availability of the internet, and growing numbers of consumers purchasing products online have created E-Commerce as a significant contributor to Azerbaijan's economy. In this study, researchers investigated the Consumer Satisfaction Concept in several ways, including how well retailers and delivery service providers provide quality service, how quickly the product is delivered, how many products a retailer offers, what kind of technology is used to operate an e-Commerce platform, etc. The data utilised for this research contained information collected from online surveys and feedback from users of e-Commerce platforms throughout Azerbaijan. Researchers used regression analysis and structural equational modelling to conduct analysis of the Quantitative Research Data obtained through this research. The results of the analysis indicated that as consumer satisfaction increases so does the level of sustainable growth for platforms. The quality of service, security and performance of delivery were identified as the primary factors that influence the level of consumer satisfaction as well as influencing consumer loyalty, repeat purchases and helping to expand the market reach of the platform. This research was a valuable addition to the e-commerce sector in Azerbaijan and has both academic and practical relevance. The findings from the research suggest that e-commerce businesses need to enhance the customer experience, improve the technological infrastructure and develop trust-based strategies to remain competitive in this ever-changing environment.

Keywords*: e-commerce, consumer satisfaction, sustainable growth, sigital economy, Azerbaijan.*

INTRODUCTION

They lack the same trust in online transactions and processes as consumers in countries with developed e-commerce, and may be hesitant to take risks. This suggests that in order to positively influence and foster adoption of online shopping in countries where online shopping is not yet widespread, it is necessary to examine risk perceptions and other factors that may influence purchase intentions. Identifying these factors and conducting marketing efforts in these areas can accelerate and simplify the activities of e-commerce businesses.

Consumer behaviour is defined as researching how consumers (individuals or businesses) satisfy their needs or wants by selecting goods and services, buying them, utilising them, and finally disposing of them (AMA 2024). In addition, it is a definition that describes how individuals make decisions during the process of buying goods or services, as well as what influences these decisions

and what kind of attitude and behaviour they will show while making those decisions. While purchasing products or services at an actual store, customer behaviour is influenced by a lot of the same things that influence the customer's experience through the process of interacting with the product in person, being able to physically inspect the product, and being able to physically interact with sales staff, as well as through the way brands market their products in retail locations (Kotler, 2006). For example, many consumers will look to their cultural background or the current culture in which they live for guidance when determining what products and services to buy, but the past experiences consumers have had with those products and services may also provide guidance to these consumers in making their decisions (Solomon, 2020). Consumer behaviour is also influenced by previous purchasing experiences, environmental factors, and the individual needs of the consumer (Engel, 1995).

Satisfaction, on the other hand, is the extent to which most of the factors described above - the quality of service, ease of use, security, product quality, and delivery performance - correspond to what the consumer expects (Gülbaşı, 2022; Kim & Yum, 2024). In addition, the satisfaction rate is higher than in traditional stores because consumers are generally not able to touch and feel the products in the same way as they would in a traditional store; satisfaction is much more dependent on technical infrastructure, interface design, and the digital communication processes that are in place to make the e-commerce era more accessible to the consumer.

LITERATURE REVIEW

Research on a global level indicates that customer satisfaction can have a direct effect on both loyalty to the brand and the likelihood of returning as a repeat customer (Khongorzul et al., 2022; Li et al., 2023). Satisfaction therefore does not only reflect short-term success, but is also essential for long-term company growth.

• Technical infrastructure: Uninterrupted service, application stability, and mobile compatibility (Kim & Yum, 2024)

Studies conducted in Azerbaijan also reveal similar findings. Hasanova et al. (2023) revealed that security, speed, and user experience are decisive factors in consumers' shift to online platforms after the pandemic.

Hypothesis 1: The positive association between higher levels of consumer satisfaction and sustainable growth of e-commerce platforms.

The theoretical basis for this hypothesis is found in the literature, which has shown that sustainable growth is based not only upon sales generated in the short term, but on how customers will maintain their relationship with the platform over time. Consumer satisfaction is not just a measure of an individual's evaluation of the platform, but a key performance measure for the sustainability of the platform and revenue. From regression analysis, it is evident that consumer satisfaction is a significant predictor of sustainable growth based upon the explanatory strength of the model and the component satisfaction variables' contributions to growth. Structural equation modeling demonstrates the direct effect and the indirect effect of consumer satisfaction upon sustainable growth through consumer loyalty.

Hypothesis 2 - The quality of service will have a significant and positive effect on consumer satisfaction. The quality of service is included in the analysis of satisfaction due to the fact that the majority of digital platforms gain their competitive advantage based on their level of usability, technical consistency and their functional fluidity.

It can therefore be concluded that the quality of service increases satisfaction, therefore giving consumers the impression that the platform is a safe and professional avenue for shopping, with increased quality leading to longer dwell times, more products viewed, and the perception of a safe and professional shopping experience. In addition, consumers have a much lower tolerance for issues during digital transactions than when they shop in physical stores, meaning that even minor technical

issues could detrimentally impact consumer satisfaction. An increase in satisfaction due to service quality is therefore an advantage not only for the user experience, but for the sustainable growth of the organisation.

Hypothesis 3 posits that customer loyalty is an indirect outcome of satisfied customers and thus is a factor in promoting sustainable growth. The purpose of testing this hypothesis is to examine both the long-term effects of customer satisfaction and the immediate behavioural associations with customer satisfaction that can be captured by the analysis associated with this hypothesis.

Overall, it is evident from the results of the research that consumer satisfaction is central to e-commerce platforms' sustainable growth. Service quality, delivery performance and security all set the competitive landscape for the e-commerce platforms in Azerbaijan, and as such customer loyalty and repeat purchasing patterns are likely to increase as satisfaction levels increase, ultimately propelling long-term sustainable growth strategies for e-commerce platforms in Azerbaijan.

$$Y_i = \beta_0 + \beta_1 X_{1i} + \beta_2 X_{2i} + \beta_3 X_{3i} + \beta_4 X_{4i} + \varepsilon_i$$

where:

- Y_i: Indicator of sustainable growth
- X_{1i}: Overall consumer satisfaction
- X_{2i}: Service quality
- X_{3i}: Perceived security
- X_{4i}: Delivery performance
- ε_i: Error term

The interpretation of this model from an econometric standpoint provides insight on how variation in each of the sub-components of consumer satisfaction affects the rate of sustainable growth. In performing the empirical analysis, each of the sub-dimensions of satisfaction was added to the model separately, then the presence of multicollinearity was specifically examined, before finally estimating the model on the basis of statistically significant regression coefficients.

By linearizing the relationships among these variables, the model will:

- Linearizing the relationships among the variables listed above
- Providing elasticities amongst the variables
- Decreasing the presence of heteroskedasticity (i.e., non-constant variance) in the error term

In summary, the regression coefficients generated from this model can be interpreted as an elasticity of response measure.

a) Measurement Model

SEM employs the conceptual definition of Consumer Satisfaction as being a Multidimensional Latent Construct with Observed Indicators representing each of the Latent Variables. Complete Measurement Model is presented below: The Structural Component of SEM provides Directional Relationships between the Latent Constructs. In this study, Sustainable Growth is shown as an endogenous construct that has both direct effects from Consumer Satisfaction and loyalty, but in turn, the Loyalty Construct is dependent upon the level of Satisfaction. The Structural Equations are written as follows:

$$SustainableGrowth = \beta_1\, Satisfaction + \beta_2\, Loyalty + \epsilon_1,$$
$$Loyalty = \phi_1\, Satisfaction + \epsilon_2.$$

where:

- β_1: direct effect of satisfaction on sustainable growth
- β_2: direct effect of loyalty on sustainable growth

- ϕ_1: effect of satisfaction on loyalty
- ϵ_1, ϵ_2: structural disturbance terms representing unexplained variance

This model framework allows the estimation of:

Direct Effect

$$DE = \beta_1$$

Indirect (Mediated) Effect

$$IE = \phi_1 \times \beta_2$$

Total Effect

$$TE = \beta_1 + (\phi_1 \times \beta_2)$$

$$\begin{cases} ServiceQuality = \lambda_1 HK_1 + \lambda_2 HK_2 + \lambda_3 HK_3 + \delta_1, \\ PerceivedSecurity = \lambda_4 G_1 + \lambda_5 G_2 + \delta_2, \\ DeliveryPerformance = \lambda_6 T_1 + \lambda_7 T_2 + \lambda_8 T_3 + \delta_3, \\ Satisfaction = \gamma_1 Servicequality + \gamma_2 deliveryferformance + \gamma_3 perceivedsecurity + \zeta_1, \\ Loyalty = \phi_1 Satisfaction + \epsilon_2, \\ SustainableGrowth = \beta_1 Satisfaction + \beta_2 Loyalty + \epsilon_1. \end{cases}$$

This combined formulation demonstrates the hierarchical nature of the relationships—from observable indicators to latent constructs, and from latent constructs to higher-level outcomes.

This structure demonstrates that satisfaction contributes to sustainable growth through its:

- direct effect: β_1
- indirect (mediated) effect: $\phi_1 \times \beta_2$
- total effect: $\beta_1 + \phi_1 \beta_2$

indicating that satisfaction influences growth both directly and through its effect on loyalty.

$$\text{Indirect Effect} = (\text{Satisfaction} \rightarrow \text{Loyalty}) \times (\text{Loyalty} \rightarrow \text{Sustainable Growth})$$

The three main tests applied were:

- Breusch–Pagan LM test,
- Pesaran Scaled LM test,
- Pesaran CD test.

The statistics generated from the tests for the variables of customer satisfaction, service quality, delivery performance, perceived security and sustainable growth produced p-values less than the conventional significance levels indicating the existence of Cross Sectional Dependence. In other words, customers appear to be influenced by the same digital/economic environment; therefore, the next steps in the analysis should employ second generation unit root test.

The Null Hypothesis of the test will be:

$H_0: \beta_{1i} = \beta_{1j}$(homogeneous slope coefficients across all units)

The alternative hypothesis is:

$$H_a: \beta_{1i} \neq \beta_{1j}$$

$$\Delta Y_{it} = \alpha_i + \beta_i Y_{i,t-1} + \gamma_i \bar{Y}_{t-1} + \delta_i \Delta \bar{Y}_t + \varepsilon_{it}$$

The long-run functional specification used in the analysis is expressed as:

$$Y_{it} = \mu_i + \beta_1 X_{1it} + \beta_2 X_{2it} + \cdots + u_{it}$$

Utilizing the methodology presented in this document, the results obtained from the cross-sectional dependence tests indicated that dependence between all variables was statistically significant. Therefore, the conclusion can be drawn that the digital consumers' behaviours are not

evolving independently, and are instead driven by, and shaped by the collective dynamic nature of digital platforms.

Therefore, as the variables were found to display stationarity at first differences, it allowed the use of long-run cointegration tests which established an equilibrium relationship between the series of variables. In addition the results from the GUW test established evidence of a statistically significant error-correction mechanism, thereby confirming the long-term relationship that exists between satisfaction and sustainable growth. The long- run DOLS estimator results support these findings, with the estimation of all three of the key determinants of satisfaction (service quality, delivery performance and security) translating positively into increasing satisfaction, which in turn increases sustainable growth.

As indicated in the structural equation modelling (SEM) results, satisfaction has both a direct and an indirect effect on growth. The coefficient for the direct effect of satisfaction on growth was positive and statistically significant, while the coefficient for the indirect effect indicated that satisfaction indirectly influences growth through the development of customer loyalty. Hence, customer loyalty mediates the effects of satisfaction as it cannot be assumed that satisfaction alone generates growth.

References:

1. American Marketing Association. (2024). Definition of consumer behavior. AMA Dictionary.

2. Baron, R.M., & Kenny, D.A. (1986). The moderator–mediator distinction in social psychological research: Conceptual, strategic, and statistical considerations. Journal of Personality and Social Psychology, 51(6), 1173–1182.

3. Bilik, M. (2023). Analyzing challenges and opportunities in the e-commerce industry of Turkey. İzmir Journal of Economics, 38(4).

4. Breusch, T.S., & Pagan, A.R. (1980). The Lagrange Multiplier test and its applications to model specification. Review of Economic Studies, 47(1), 239–253.

5. Chen, T., Premaratne, S., Cen, X., Qi, M., & Lan, Y. (2022). The impact of online reviews on consumers' purchasing decisions: Evidence from an eye-tracking study. Frontiers in Psychology, 13, 820–834. https://doi.org/10.3389/fpsyg.2022.945276

6. Engel, J.F., Blackwell, R.D., & Miniard, P.W. (1995). Consumer behavior (8th ed.). Dryden Press.

7. Gefen, D., Karahanna, E., & Straub, D. (2003). Trust and TAM in online shopping: An integrated model. MIS Quarterly, 27(1), 51–90.

8. Gengenbach, C., Urbain, J.-P., & Westerlund, J. (2016). Error-correction–based cointegration tests for panel data. Oxford Bulletin of Economics and Statistics, 78(4), 1–22. https://doi.org/10.1111/obes.12126

9. Gülbaşı, A. (2022). The effect of e-commerce users' e-service quality on customer satisfaction. Journal of Society, Economics and Management, 3(1), 22–39.

N.Y.Hüseynova
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Azərbaycanın elektron ticarət sektorunun uzunmüddətli inkişafında istehlakçı məmnuniyyətinin katalizator rolu

Xülasə

Bu tədqiqatın məqsədi, qənaətbəxş təcrübələrin və bu təcrübələrə töhfə verən amillərin, Azərbaycanın elektron ticarət platformalarının uzunmüddətli uğuruna necə təsir etdiyini empirik şəkildə qiymətləndirməkdir. Rəqəmsal transformasiya, internetə çıxış imkanlarının genişlənməsi və məhsulları onlayn satın alan istehlakçıların sayının çoxalması, elektron ticarəti Azərbaycanın iqtisadiyyatına mühüm töhfə verən sahələrdən birinə çevirmişdir. Bu tədqiqatda istehlakçı məmnuniyyəti anlayışı bir neçə aspektdən araşdırılmışdır; bunlara pərakəndə satıcıların və çatdırılma xidməti təminatçılarının göstərdiyi xidmətin keyfiyyəti, məhsulun çatdırılma sürəti, satıcının təqdim etdiyi məhsulların çeşidi, elektron ticarət platformasının fəaliyyətində istifadə olunan texnologiyanın növü və s. daxildir. Bu tədqiqatda istifadə edilən məlumatlar Azərbaycanın müxtəlif bölgələrindəki elektron ticarət platforması istifadəçilərindən toplanmış onlayn sorğular və rəylər əsasında əldə edilmişdir. Tədqiqatçılar bu araşdırma çərçivəsində əldə olunan kəmiyyət tədqiqatı məlumatlarını təhlil etmək üçün reqressiya analizi və struktur tənlik modelləşdirməsindən istifadə etmişlər. Təhlilin nəticələri göstərdi ki, istehlakçı məmnuniyyəti artdıqca bu platformaların dayanıqlı inkişaf səviyyəsi də yüksəlir. Xidmət keyfiyyəti, təhlükəsizlik və çatdırılmanın effektivliyi istehlakçı məmnuniyyətinə təsir edən əsas amillər kimi müəyyən edilmiş, eyni zamanda istehlakçı sədaqətinə, təkrar alışlara və platformanın bazar əhatəsinin genişlənməsinə də təsir göstərdiyi aşkar olunmuşdur. Bu tədqiqat Azərbaycanda elektron ticarət sektoruna dəyərli töhfə olmaqla yanaşı, həm akademik, həm də praktik baxımdan mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın nəticələri göstərir ki, elektron ticarət şirkətləri bu dinamik mühitdə rəqabət qabiliyyətini qorumaq üçün müştəri təcrübəsini yaxşılaşdırmalı, texnoloji infrastrukturu gücləndirməli və istehlakçı etimadını qoruyan strategiyaları inkişaf etdirməlidirlər.

Açar sözlər: *elektron ticarət, istehlakçı məmnuniyyəti, dayanıqlı inkişaf, rəqəmsal iqtisadiyyat, Azərbaycan.*

https://doi.org/10.58225/tim.2026-2-241-249

UDK 338.48:640.41

M.A.Allahverdiyeva
i.e.d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti
allahverdiyeva_muslumat@mail.ru
N.C.Talıbzadə
magistrant, UNEC, Beynəlxalq Doktorantura və Magistratura Mərkəzi
nigar.talibzada@gilan-knauf.az

Məqalə redaksiyaya daxil olub 02.02.2026
The article was received by editorial board on 02.02.2026
Статья принята к печати 02.02.2026

AZƏRBAYCANDA MEHMANXANA BİZNESİNİN HAZIRKI VƏZİYYƏTİ: ONUN FAKTORLU TƏHLİLİ

Xülasə

Məqalənin əsas məqsədi Azərbaycanda mehmanxana biznesinin mövcud inkişaf səviyyəsini qiymətləndirmək, onun formalaşmasına təsir edən əsas iqtisadi, institusional və bazar faktorlarını müəyyənləşdirmək və bu faktorların sahənin səmərəliliyinə təsir mexanizmlərini faktorlu təhlil əsasında araşdırmaqdır. Eyni zamanda turizm axınları, investisiya mühiti və dövlət dəstəyi mexanizmlərinin mehmanxana sektoruna təsiri kompleks şəkildə təhlil olunur. Tədqiqatda statistik analiz, müqayisəli təhlil, faktor təhlili, dinamik sıra metodu və qrafik təsvir üsullarından istifadə edilmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları, turizm üzrə beynəlxalq təşkilatların hesabatları və sahə üzrə analitik mənbələr əsas informasiya bazasını təşkil edir. Mehmanxana biznesinin inkişafına təsir edən əsas faktorlar arasında turist axını, gəlirlilik səviyyəsi, investisiya həcmi, regionlar üzrə yerləşmə strukturu və xidmət keyfiyyəti göstəriciləri qiymətləndirilmişdir. Azərbaycanın qeyri-neft sektorunun mühüm istiqamətlərindən biri olan turizm və mehmanxana biznesinin iqtisadi inkişafdakı rolunun elmi əsaslarla öyrənilməsi baxımından əhəmiyyətlidir. Nəticələr dövlətin turizm siyasətinin təkmilləşdirilməsi, regionlarda sahibkarlığın təşviqi və xidmət sektorunun rəqabət qabiliyyətinin artırılması üçün praktik tövsiyələr formalaşdırmağa imkan verir. Aparılan təhlil göstərir ki, son illərdə Azərbaycanda mehmanxana biznesinin inkişafında müsbət dinamika müşahidə olunsa da, regionlar üzrə qeyri-bərabər inkişaf mövcuddur. Turist axınının artması, beynəlxalq tədbirlərin keçirilməsi və dövlət proqramları sektorun genişlənməsində əsas faktorlar kimi çıxış edir. Bununla yanaşı, investisiya cəlbediciliyinin məhdudluğu, xidmət keyfiyyətində fərqlər və mövsümi asılılıq sahənin dayanıqlı inkişafına mənfi təsir göstərən amillər sırasındadır. Məqalədə mehmanxana biznesinin inkişafına təsir edən faktorlar kompleks şəkildə faktorlu təhlil metodu ilə sistemləşdirilmiş və qarşılıqlı təsir mexanizmləri müəyyən edilmişdir. İlk dəfə olaraq Azərbaycanın mehmanxana sektorunun inkişaf dinamikası əsas iqtisadi göstəricilər əsasında inteqrə olunmuş şəkildə qiymətləndirilmiş, sektorun inkişafına mane olan əsas struktur problemlər elmi əsaslarla ortaya qoyulmuşdur.

Acar sözlər: *mehmanxana biznesi, turizm sektoru, faktorlu təhlil, iqtisadi inkişaf, turist axını, investisiya mühiti, xidmət sektoru.*

GİRİŞ

Turizm sektorunun əsas komponentlərindən biri olan mehmanxana biznesi müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişafına mühüm təsir göstərən sahələrdən hesab olunur. Bu sahə yalnız

turistlərin yerləşdirilməsi ilə məhdudlaşmayaraq, qidalanma, istirahət, əyləncə və biznes xidmətlərini əhatə edən kompleks sənaye kimi formalaşmışdır. Mehmanxana sənayesi qonaqpərvərlik konsepsiyası ilə sıx bağlı olub, müştərilərə təhlükəsiz və komfortlu xidmət mühiti təqdim etməyi hədəfləyir. Qlobal miqyasda turizm və qonaqpərvərlik sahəsi dünya ÜDM-in təxminən 10%-ni təşkil edir və məşğulluğun 8–10%-ni təmin edir ki, bu da sahənin iqtisadi əhəmiyyətini göstərir (Harwood, 2022).

Son illərdə mehmanxana biznesinin elmi tədqiqinə maraq artmış, onun mahiyyəti, xüsusiyyətləri və inkişaf mexanizmləri müxtəlif nəzəri yanaşmalar əsasında araşdırılmışdır. Bu fəsildə mehmanxana biznesinin anlayışı və fəaliyyət mexanizmi təhlil edilir, sahənin iqtisadiyyatda rolu üzrə mövcud konsepsiyalar müqayisə olunur və müasir inkişaf metodologiyaları ümumiləşdirilir. Məqsəd mehmanxana biznesinin inkişaf xüsusiyyətlərini nəzəri baxımdan əsaslandırmaq və elmi yanaşmaları sistemləşdirməkdir.

ƏDƏBİYYAT İCMALI

XXI əsrin ilk onilliklərində qlobal iqtisadiyyat və sosial münasibətlər sistemində baş verən transformasiyalar mehmanxana biznesinin inkişaf trayektoriyasına əhəmiyyətli təsir göstərmişdir. Müasir dövrdə sektor bir sıra yeni çağırışlarla qarşı-qarşıya qalmaqla yanaşı, bu çağırışlara uyğun adaptasiya mexanizmlərinin formalaşdırılmasını zəruri edir. Aparılan elmi tədqiqatlar göstərir ki, rəqəmsallaşma proseslərinin sürətlənməsi, istehlakçı davranış modellərinin dəyişməsi, qlobal rəqabətin intensivləşməsi, pandemiya kimi fövqəladə risklər və davamlı inkişaf tələbləri mehmanxana sektorunda struktur və funksional yenilənmələri stimullaşdırır (Lavrova, 2025). Bu yarımfəsildə müasir inkişaf meyilləri sistemli şəkildə təhlil edilir və sahənin təkmilləşdirilməsi üçün tətbiq olunan metodoloji yanaşmalar ümumiləşdirilir.

Müasir mərhələdə mehmanxana biznesinin inkişafında əsas tendensiyalardan biri rəqəmsal transformasiyanın dərinləşməsidir. Xidmətlərin təşkili, marketinq strategiyaları və rezervasiya prosesləri getdikcə daha çox rəqəmsal platformalar üzərindən həyata keçirilir. Tədqiqatlar göstərir ki, istehlakçılar mehmanxana seçimi zamanı onlayn rəylər və reytinqlərə böyük əhəmiyyət verirlər (Xie, 2017). Bu kontekstdə onlayn reputasiya mehmanxanaların bazar mövqeyinin formalaşma-sında həlledici amilə çevrilmişdir. Məhz bu səbəbdən müəssisələr rəqəmsal marketinq alətlərindən fəal istifadə edir, sosial media vasitəsilə brend imicini gücləndirir və müştəri geribildirimlərinə operativ reaksiya verməyə çalışırlar (Sigala, 2021).

Rəqəmsallaşma prosesi yalnız marketinq sahəsi ilə məhdudlaşmayaraq daxili idarəetmə və əməliyyat sistemlərini də əhatə edir. Elektron qeydiyyat sistemləri, mobil açar texnologiyaları, ağıllı otaq idarəetmə mexanizmləri və robotlaşdırılmış xidmət modelləri bir sıra mehmanxanalarda artıq tətbiq olunmaqdadır (Ivanov, 2019). Bu texnoloji yeniliklər xərclərin optimallaşdırılmasına, xidmətin operativliyinin artırılmasına və müasir istehlakçıların texnoloji gözləntilərinə cavab verilməsinə yönəlmişdir.

Digər mühüm inkişaf istiqaməti xidmətlərin fərdiləşdirilməsi tendensiyasıdır. Əgər əvvəlki mərhələlərdə standartlaşdırılmış xidmət modelləri üstünlük təşkil edirdisə, müasir şəraitdə fərdi yanaşma rəqabət üstünlüyünün əsas mənbələrindən birinə çevrilmişdir (Hemmington, 2007). Böyük məlumatların təhlili və müştəri əlaqələrinin idarə edilməsi sistemləri vasitəsilə mehmanxanalar istehlakçıların davranış xüsusiyyətlərini müəyyənləşdirir və onlara uyğun fərdi xidmət paketləri formalaşdırırlar. Bu yanaşma müştəri məmnuniyyətinin və uzunmüddətli sadiqliyin artırılmasında mühüm rol oynayır (Kandampully, 2000).

Müasir mehmanxana biznesində diqqət çəkən digər əsas trend davamlı inkişaf və sosial məsuliyyət konsepsiyalarının geniş tətbiqidir. Enerji effektivliyinin artırılması, su ehtiyatlarının qorunması, tullantıların azaldılması və yerli icmaların sosial-iqtisadi inkişafına töhfə verən təşəbbüslər getdikcə daha geniş yayılmaqdadır (Erdogan, 2007). Bu təşəbbüslər bir tərəfdən korporativ sosial məsuliyyət prinsiplərindən irəli gəlirsə, digər tərəfdən istehlakçıların ekoloji şüuru-

nun yüksəlməsi ilə sıx bağlıdır. Belə ki, müasir turistlər ekoloji cəhətdən məsuliyyətli mehmanxanaları seçim zamanı üstün tutmağa meyllidirlər. Nəticə etibarilə davamlılıq amili təkcə sosial məsuliyyət göstəricisi deyil, eyni zamanda strateji marketinq üstünlüyü kimi çıxış edir.

METODOLOGİYA

Metodoloji yanaşmalar mehmanxana biznesinin həm elmi tədqiqində istifadə olunan analitik üsulları, həm də müəssisədaxili idarəetmənin təkmilləşdirilməsinə yönəlmiş praktik mexanizmləri əhatə edir. Müasir şəraitdə mehmanxana müəssisələri xidmət keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətinin artırılması məqsədilə müxtəlif idarəetmə alətlərindən geniş istifadə edirlər. Bu kontekstdə keyfiyyət idarəetmə sistemlərinin, xüsusilə ISO 9001 standartlarının tətbiqi xidmət proseslərinin standartlaşdırılmasına və davamlı təkmilləşdirilməsinə şərait yaradır. Eyni zamanda benchmarking metodu vasitəsilə qabaqcıl müəssisələrin təcrübəsi öyrənilir və fəaliyyət göstəriciləri ilə müqayisəli təhlillər aparılır. Strateji idarəetmədə isə Balanced Scorecard yanaşması maliyyə, müştəri məmnuniyyəti, daxili proseslər və innovasiya göstəricilərinin balanslı qiymətləndirilməsini təmin edir (Phillips, 2005).

Xidmət keyfiyyətinin ölçülməsi sahəsində ən geniş yayılmış metodlardan biri SERVQUAL modelidir. Bu model xidmətin gözlənilən və real səviyyəsi arasındakı fərqin qiymətləndirilməsinə əsaslanır və beş əsas ölçü üzrə aparılır: maddi infrastruktur (tangible), etibarlılıq (reliability), operativlik (responsiveness), təminat və inam (assurance), eləcə də fərdi yanaşma və empatiya (empathy) (Parasuraman, 1988). Mehmanxana müəssisələri müştəri sorğuları vasitəsilə bu indikatorlar üzrə məlumat toplayaraq xidmətin zəif və güclü tərəflərini müəyyən edir və idarəetmə qərarlarını həmin nəticələr əsasında formalaşdırırlar.

Ümumilikdə, metodoloji yanaşmaların kompleks tətbiqi mehmanxana biznesində strateji planlaşdırmanın təkmilləşdirilməsinə, xidmət keyfiyyətinin davamlı yüksəldilməsinə və müştəri məmnuniyyətinin artırılmasına imkan yaradır. Bu metodlar həm elmi tədqiqatların obyektivliyini təmin edir, həm də praktik idarəetmədə səmərəliliyin yüksəldilməsinə xidmət edir.

MÜZAKİRƏLƏR

Azərbaycanda son illərdə turizm sektorunun sürətli inkişafı mehmanxana (otel) biznesinin ölkə iqtisadiyyatında rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Ölkənin əlverişli coğrafi mövqeyi, mədəni irsi və dövlətin turizmə dəstək siyasəti nəticəsində mehmanxana sənayesi dinamik böyümə nümayiş etdirir.

Cədvəl 1

Hotel və hotel tipli müəssisələrin iqtisadi göstəriciləri

Göstərici	2011	2016	2021	2024	2025
Hotel və hotel tipli müəssisələrin sayı	500	545	667	776	874
Hotel və hotel tipli obyektlərin sayı	–	–	665	812	853
Otel tutumu	30794	37279	50688	59408	67374
Otel nömrələrinin sayı	14159	17956	24198	28689	31751
Istirahət edənlərin sayı	438470	838146	668815	1945061	2380248
Gecə sayı	1358283	1644058	999789	3422326	4282801
Personalın sayı	6026	8360	10752	13619	15292
gəlir min manat	105889	183056	116799	488823	694176.
Məhsul və xidmətlərin istehsalına çəkilən xərcləri min manat	87879.9	171730.8	171805.1	390095.1	510413.7
Vergi ödəmələri	15131	28096	15017		

Mənbə: *Cədvəl "https://www.stat.gov.az/source/tourism/" əsasında tərtib edilmişdir.*

Cədvəldə təqdim olunan məlumatlar 2011–2025-ci illər ərzində hotel və hotel tipli müəssisələrin sayında və fəaliyyət miqyasında davamlı artım tendensiyasının müşahidə olunduğunu göstərir. Belə ki, mehmanxana müəssisələrinin sayı 2011-ci ildə 500 olduğu halda, 2025-ci ildə 874-ə yüksəlmişdir.

Bu artım turizm sektoruna investisiya axınının genişlənməsi və mehmanxana infrastrukturunun mərhələli şəkildə inkişaf etdirilməsi ilə izah edilə bilər. Xüsusilə 2021-ci ildən sonra obyektlərin sayında daha sürətli artım dinamikası qeydə alınmışdır ki, bu da post-pandemiya dövründə turizmin bərpası ilə əlaqələndirilə bilər.

Otel tutumu və nömrələrin sayı üzrə göstəricilər də analoji artım meyli nümayiş etdirir. Otel tutumu 2011-ci ildə 30 794 yer təşkil etdiyi halda, 2025-ci ildə bu göstərici 67 374-ə çatmışdır. Eyni zamanda, nömrələrin sayı 14 159-dan 31 751-ə yüksəlmişdir. Bu, mehmanxana sektorunda həm kəmiyyət, həm də infrastruktur baxımından genişlənmənin baş verdiyini göstərir və artan turist axınına uyğunlaşma cəhdlərinin nəticəsi kimi qiymətləndirilə bilər.

İstirahət edənlərin və gecələmələrin sayı sektorun iqtisadi aktivliyinin əsas göstəricilərindən biri kimi çıxış edir. 2011-ci ildə istirahət edənlərin sayı 438 min nəfər olduğu halda, 2025-ci ildə bu göstərici 2,38 milyon nəfərə qədər artmışdır. Gecələmələrin sayı isə müvafiq olaraq 1,36 milyon gecədən 4,28 milyon gecəyə yüksəlmişdir.

Bu artım mehmanxana xidmətlərinə olan tələbatın əhəmiyyətli dərəcədə genişləndiyini və sektorun iqtisadi potensialının yüksəldiyini nümayiş etdirir. Bununla yanaşı, 2021-ci ildə müşahidə olunan azalma pandemiya təsirlərinin nəticəsi kimi qiymətləndirilə bilər.

Personalın sayı üzrə göstəricilər mehmanxana biznesinin məşğulluq baxımından da əhəmiyyətli rol oynadığını təsdiqləyir. 2011-ci ildə 6 026 nəfər olan işçi sayı 2025-ci ildə 15 292 nəfərə çatmışdır. Bu artım sahənin əmək tutumlu xarakter daşıdığını və sosial-iqtisadi baxımdan mühüm məşğulluq mənbəyi olduğunu göstərir.

Gəlir göstəricilərində xüsusilə kəskin yüksəliş müşahidə olunur. 2011-ci ildə 105,9 milyon manat olan gəlirlər 2025-ci ildə 694,2 milyon manata yüksəlmişdir. Bu, mehmanxana sektorunun iqtisadi səmərəliliyinin əhəmiyyətli dərəcədə artdığını sübut edir. Paralel olaraq məhsul və xidmətlərin istehsalına çəkilən xərclər də artmışdır ki, bu da fəaliyyət miqyasının genişlənməsi ilə əlaqədardır.

Lakin gəlirlərin artım tempi xərclərlə müqayisədə daha yüksək olduğundan sektorun ümumi rentabelliyinin yüksəldiyi qənaətinə gəlmək mümkündür.

Vergi ödəmələri üzrə məlumatlar 2011 və 2016-cı illərdə artım, 2021-ci ildə isə azalma tendensiyası göstərir ki, bu da iqtisadi fəallığın dövri dəyişmələri və pandemiya təsirləri ilə izah oluna bilər. Sonrakı illər üzrə məlumatların olmaması vergi yükünün son mərhələdə necə dəyişdiyini tam qiymətləndirməyə imkan verməsə də, ümumi gəlir artımı fonunda büdcə daxilolmalarının da yüksəlməsi ehtimalı yüksəkdir.

Sektorun xərclər strukturunda da maraqlı dəyişikliklər izlənir. 2024-cü ildə mehmanxana müəssisələrinin əməliyyat xərcləri 510,4 mln. manat təşkil etmişdir ki, bunun da əhəmiyyətli hissəsi əmək haqqı fondunun payına düşür (təxminən 32%) – bu, 2019-cu ildəki 30% paydan bir qədər artıqdır. Yəni, turist axınının bərpası ilə əlaqədar işçi sayının artması və əmək haqlarının yüksəlməsi xərclərdə müəyyən artıma səbəb olmuşdur.

Digər mühüm xərc qalemi iaşə məhsullarının (yemək və içkilərin) tədarükü ilə bağlıdır – 2024-də bu kimi xərclər 78,1 mln. manat olub, yəni bütün xərclərin 15,3%-ni təşkil edir. Yanacaq və enerji xərcləri təxminən 5–6% civarındadır (28,7 mln. manat, 2024).

Göründüyü kimi, mehmanxana biznesi yüksək əməyətutumlu bir sahədir və xidmət keyfiyyətinin yüksəldilməsi üçün işçi heyətinə və kommunal resurslara ciddi vəsait ayrılır. Qeyd edək ki, statistik təhlillər mehmanxana xidmətlərinin keyfiyyəti ilə turist məmnuniyyəti arasında birbaşa əlaqə olduğunu təsdiqləyir.

Cədvəl 2

Hotel və hotel tipli obyektlərin mülkiyyət növləri üzrə sayı (2011–2025)

Göstərici	2011	2016	2020	2021	2022	2023	2024	2025
Hotel və hotel tipli obyektlərin sayı	498	538	675	683	717	759	819	865
dövlətə məxsus	37	47	32	34	39	54	59	63
Özəl	441	472	622	635	655	689	736	766
Xarici hotellər	16	11	11	14	17	15	16	18
birgə müəssisələr	4	4	6	6	6	6	5	5

***Mənbə**: "https://www.stat.gov.az/source/tourism/" əsasında tərtib edilmişdir.*

Cədvəldə təqdim olunan məlumatlar 2011–2025-ci illər ərzində hotel və hotel tipli obyektlərin ümumi sayında davamlı artım meylinin müşahidə olunduğunu göstərir. Belə ki, obyektlərin sayı 2011-ci ildə 498 olduğu halda, 2025-ci ildə 865-ə çatmışdır. Bu dinamika mehmanxana sektorunda investisiya fəallığının artmasını və turizm infrastrukturunun mərhələli şəkildə genişləndirilməsini əks etdirir. Mülkiyyət formaları üzrə struktur təhlili göstərir ki, mehmanxana sektorunda əsas üstünlük özəl müəssisələrə məxsusdur. Özəl hotellərin sayı 2011-ci ildə 441 olduğu halda, 2025-ci ildə 766-ya yüksəlmişdir. Bu artım dövlətin turizm sahəsində sahibkarlığın inkişafını stimullaşdıran siyasəti, investisiya mühitinin nisbətən əlverişli olması və bazar mexanizmlərinin aktivləşməsi ilə izah edilə bilər. Ümumilikdə, özəl sektor mehmanxana biznesinin əsas aparıcı qüvvəsi kimi çıxış edir və ümumi obyektlərin böyük hissəsini təşkil edir. Dövlətə məxsus hotellərin sayı isə ümumi fonda nisbətən az paya malikdir. 2011-ci ildə 37 olan bu göstərici 2025-ci ildə 63-ə qədər artsa da, artım tempi özəl sektorla müqayisədə xeyli zəifdir. Bu, dövlətin mehmanxana biznesində birbaşa iştirakdan tədricən çəkilərək daha çox tənzimləyici və stimullaşdırıcı rol oynadığını göstərir.

Xarici hotellərin sayı üzrə göstəricilər nisbətən sabit və aşağı səviyyədə qalmışdır. 2011-ci ildə 16 olan bu göstərici müxtəlif illərdə müəyyən dalğalanmalar nümayiş etdirsə də, 2025-ci ildə 18-ə çatmışdır. Bu vəziyyət xarici investisiyaların mehmanxana sektorunda mövcudluğunun müəyyən qədər məhdud olduğunu göstərir. Bunun əsas səbəbləri kimi bazarın ölçüsü, risk amilləri və institusional mühitin xüsusiyyətləri göstərilə bilər.

Birgə müəssisələrin sayı da ümumi strukturda cüzi paya malikdir və illər üzrə ciddi dəyişiklik nümayiş etdirməmişdir. 2011-ci ildə 4 olan bu göstərici 2020–2023-cü illərdə 6-ya qədər artsa da, sonrakı mərhələdə 5-ə enmişdir. Bu fakt yerli və xarici tərəfdaşlıq formatında fəaliyyət göstərən mehmanxana layihələrinin məhdud inkişaf etdiyini göstərir. Cədvəl üzrə təhlil göstərir ki, mehmanxana sektorunun mülkiyyət strukturu əsasən özəl sahibkarlığın üstünlüyü ilə xarakterizə olunur. Dövlət müəssisələrinin payı nisbətən aşağı olmaqla stabil qalır, xarici və birgə müəssisələrin iştirakı isə məhdud səviyyədədir. Bu struktur bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq sektorun liberallaşmasını və sahibkarlıq fəallığının artmasını əks etdirir.

Eyni zamanda, xarici və birgə müəssisələrin zəif təmsil olunması beynəlxalq kapitalın və qabaqcıl idarəetmə təcrübələrinin sektora daha geniş cəlb olunması üçün əlavə stimullaşdırıcı mexanizmlərin formalaşdırılmasının vacibliyini ortaya qoyur. Bu istiqamətdə investisiya mühitinin təkmilləşdirilməsi, hüquqi təminatların gücləndirilməsi və dövlət–özəl tərəfdaşlıq modellərinin inkişafı mühüm əhəmiyyət kəsb edir

Aparılmış tədqiqat nəticələri göstərir ki, Azərbaycan turizm iqtisadiyyatı son illərdə yüksək inkişaf dinamikası nümayiş etdirmişdir. Əvvəlki proqnozlarda ölkənin turizm sektorunun qlobal miqyasda sürətlə böyüyən sahələrdən biri olacağı vurğulansa da, 2020–2021-ci illərdə pandemiya bu artım trayektoriyasını müvəqqəti olaraq zəiflətmişdir. Lakin statistik göstəricilərin təhlili sübut edir ki, 2022-ci ildən etibarən sektor bərpa mərhələsinə daxil olmuş və 2024-cü ildə bir sıra əsas indikatorlar üzrə yeni rekord səviyyələr qeydə alınmışdır. Bu proses turizm strategiyalarında prioritet

kimi müəyyən edilən yeni bazarların - xüsusilə Hindistan, Körfəz ölkələri və Yaxın Şərq regionunun - real nəticələr verdiyini göstərir. Beləliklə, turizm axınının coğrafi diversifikasiyası sektorun dayanıqlılığını artıran mühüm amillərdən birinə çevrilmişdir.

Əvvəlki dövrlərdə aparılmış tədqiqatlarda Azərbaycan turizminin əsas struktur problemləri kimi mövsümlülük, regionlararası qeyri-bərabərlik və xarici turist axınının məhdudluğu qeyd olunurdu. Mövcud statistik mənzərə isə bu yanaşmalara müəyyən korrektələr edilməsini zəruri edir. Xarici turist axınının tərkibi və miqyası əhəmiyyətli dərəcədə genişlənmiş, daxili turizm isə xüsusilə pandemiyadan sonra güclü inkişaf impulsu qazanmışdır. Bununla yanaşı, bəzi fundamental problemlər tam aradan qalxmamışdır. Xüsusilə mehmanxana sektorunda doluluq əmsalının aşağı səviyyədə qalması diqqət çəkir. Hesablamalar göstərir ki, otel fondunun sürətlə genişlənməsinə baxmayaraq, illik orta istifadə səviyyəsi 20%-dən aşağı qalır. Bu vəziyyət infrastrukturun genişlənməsi ilə real tələbat arasında müəyyən uyğunsuzluğun mövcudluğunu göstərir. Ayrı-ayrı dövrlərdə və regionlarda yüksək doluluq müşahidə olunsa da, ölkə üzrə ümumi göstəricinin aşağı qalması mövsümi asılılıq və regionlararası qeyri-bərabərlik problemini təsdiqləyir.

Regional strukturun təhlili göstərir ki, turizm fəaliyyəti əsasən Bakı şəhəri və bir neçə ixtisaslaşmış turizm zonasında cəmlənmişdir. Qusar–Şahdağ, Quba, Qəbələ və Naftalan kimi klasterlər yüksək turist axınına malik olduğu halda, digər rayonların payı olduqca aşağıdır. Bu isə turizm sektorunun məkan baxımından balanssız inkişaf etdiyini göstərir. Ədəbiyyatda qeyd olunan infrastruktur çatışmazlığı, peşəkar kadr resurslarının məhdudluğu və zəif regional marketinq problemləri statistik göstəricilərlə də təsdiqlənir. Belə bir vəziyyət turizm siyasətində vahid yanaşmadan fərqli olaraq regionlara uyğunlaşdırılmış diferensial inkişaf mexanizmlərinin tətbiqini zəruri edir. Aparılan faktor təhlili mehmanxana biznesinin inkişafının çoxşaxəli təsirlər altında formalaşdığını göstərir.

Dövlətin strateji proqramları və təşviq mexanizmləri, özəl sektorun investisiya fəallığı, viza rejiminin liberallaşdırılması və beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi müsbət dinamikanın əsas hərəkətverici qüvvələri kimi çıxış etmişdir. Eyni zamanda qlobal risklər - xüsusilə pandemiya - sektorun həssaslığını üzə çıxarmış və davamlılıq mexanizmlərinin vacibliyini ön plana çəkmişdir.

Tədqiqat nəticələri bir sıra nəzəri müddəaları empirik olaraq təsdiqləmişdir. Xidmət keyfiyyətinə yönəldilmiş investisiyaların turist məmnuniyyətini yüksəltməklə tələbat artımına səbəb olması, yeni bazarlara istiqamətlənmiş marketinq strategiyalarının turist axınını gücləndirməsi və inzibati prosedurların sadələşdirilməsinin sektorun genişlənməsinə müsbət təsiri müşahidə olunmuşdur. Bununla yanaşı, əvvəlki araşdırmalarda kifayət qədər vurğulanmayan yeni məqamlar da müəyyən edilmişdir: daxili turizmin iqtisadi əhəmiyyəti kəskin şəkildə artmış, uzaq bazarların rolu güclənmiş, lakin doluluq səviyyəsinin aşağı olması və regional disbalans kimi problemlər qalmaqda davam etmişdir.

Bu kontekstdə Şahdağ Turizm Mərkəzi ölkədə turizm klasteri modelinin uğurlu nümunələrindən biri kimi çıxış edir. Qusar rayonunda yerləşən bu kompleks dağ-xizək turizmi üzrə ixtisaslaşaraq qısa müddətdə həm yerli, həm də xarici turistlər üçün cəlbedici mərkəzə çevrilmişdir. Burada formalaşdırılmış çoxşaxəli infrastruktur - müxtəlif seqmentlərə yönəlmiş mehmanxanalar, idman və istirahət obyektləri - turizm axınının davamlılığını təmin edən əsas faktorlar sırasındadır. Beynəlxalq otel brendlərinin mövcudluğu xidmət keyfiyyətinin yüksəldilməsinə və regionun beynəlxalq tanınırlığının artmasına mühüm töhfə vermişdir.

Şahdağ kurortu otellərinin çeşidi mehmanxana xidmətlərinin genişliyini göstərir. Burada həm lüks kateqoriyalı otellər, həm də orta səviyyəli və apart tipli otellər mövcuddur. 2025-ci ilin dekabrında keçirilmiş mediaturda Rusiya, Belarus, Qazaxıstan, Özbəkistan və Serbiyadan 90-a yaxın turizm nümayəndəsi və bloqer Şahdağla yerində tanış olmuşdur.

Cədvəl 3

SWOT təhlil: Şahdağ hotelinin güclü tərəfləri

Güclü cəhətləri	Təfsilat və əsaslandırma
Təbii-iqlim potensialı	Yüksək dağlıq relyef, qarla örtülü uzun qış mövsümü və füsunkar təbiət Şahdağı dağ və qış turizmi üçün unikal məkana çevirir. Müxtəlif iqlim və təbiət resursları ekoturizm, macəra turizmi imkanlarını artırır.
Müasir infrastruktur	Dünya standartlarına cavab verən xizək trasları (45 km), kanat yolları (20 ədəd) və 100% qar təminatı sistemi mövcuddur. Böyük buraxıcılıq qabiliyyəti (saatda 25 min turist) növbələri minimallaşdırır.
Dövlət dəstəyi və sərmayə	Dövlətin 500 milyon ₼-dan artıq sərmayəsi və davamlı dəstəyi nəticəsində infrastruktur qurulub, təhlükəsizlik və təbliğat təmin edilir. Dövlət prioriteti kimi kurortun inkişafı strateji üstünlük yaradır.
Beynəlxalq tanınma	MDB məkanında ən populyar kurortlardan biridir – 2017-ci ildə MDB-də 2-ci yeri tutmuşdur. Xarici turistlərin və medianın diqqətindədir, beynəlxalq tədbirlərə ev sahibliyi edir.
Geniş tərəfdaş şəbəkəsi	50-dən çox yerli turizm şirkəti ilə əməkdaşlıq edilir, sərfəli tur paketləri təklif olunur. Avrasiya kurort alyansına üzvlük və xarici bazarlara inteqrasiya imkanı yaranır.

Mənbə: *Cədvəl araşdırma nəticəsində müəllif tərəfindən tərtib edilmişdir.*

NƏTİCƏ

Aparılmış SWOT təhlili Şahdağ Turizm Mərkəzinin strateji mövqeyinin əsas xüsusiyyətlərini kompleks şəkildə üzə çıxarmışdır. Təhlilin nəticələri göstərir ki, kurortun mövcud resurs potensialı, inkişaf etmiş infrastrukturu və bazarda formalaşmış müsbət imici onun regional və beynəlxalq səviyyədə rəqabət qabiliyyətini təmin edən əsas amillər sırasındadır. Son illərdə həyata keçirilmiş texniki yenilənmələr və xidmət imkanlarının genişləndirilməsi kompleksin funksional səmərəliliyini artırmaqla yanaşı, iqlim risklərinin və mövsümi dəyişkənliyin təsirini müəyyən dərəcədə kompensasiya etmişdir. Bu isə strateji idarəetmədə proaktiv yanaşmanın tətbiq olunduğunu göstərir.

Eyni zamanda təhlil nəticələri Şahdağ Turizm Mərkəzinin qarşılaşdığı struktur problemlərin mövcudluğunu da təsdiqləyir. Xüsusilə mövsümlərarası dövrlərdə tələbatın zəifləməsi, gəlirlərin qeyri-stabilliyi və qiymət siyasətinin bütün bazar seqmentləri üçün optimal olmaması kompleksin iqtisadi dayanıqlılığına mənfi təsir göstərən amillər kimi çıxış edir. Bu problemlər mehmanxana və kurort biznesinin ümumi xüsusiyyətlərindən irəli gəlsə də, onların idarəolunan mexanizmlər vasitəsilə azaldılması mümkündür. SWOT təhlili göstərir ki, Şahdağın inkişaf perspektivləri əsasən mövcud imkanlardan səmərəli istifadə səviyyəsindən asılıdır. Regional turizmin genişləndirilməsi, yeni bazar seqmentlərinin cəlb olunması, dörd fəsil turizmi konsepsiyasının gücləndirilməsi və xidmət çeşidinin şaxələndirilməsi kompleksin iqtisadi effektivliyini əhəmiyyətli dərəcədə artıra bilər. Bununla yanaşı, marketinq strategiyalarının daha hədəfli qurulması və regionun turizm ekosisteminə yerli icmaların fəal şəkildə inteqrasiyası sosial-iqtisadi təsirləri də genişləndirə bilər.

Ümumilikdə aparılan təhlil deməyə əsas verir ki, Şahdağ Turizm Mərkəzi güclü strateji mövqeyə malik olmaqla yanaşı, idarəetmədə çevik və uzunmüddətli planlaşdırmaya ehtiyac duyan bir turizm kompleksidir. Onun inkişaf modeli Azərbaycanda turizm klasterlərinin formalaşdırılması baxımından uğurlu nümunə kimi qiymətləndirilə bilər. Lakin mövcud zəif cəhətlərin aradan qaldırılması və risklərin effektiv idarə olunması üçün kompleks yanaşma tələb olunur.

Beləliklə, SWOT təhlilinin nəticələri yalnız mövcud vəziyyətin qiymətləndirilməsi ilə məhdudlaşmır, eyni zamanda gələcək inkişaf strategiyalarının formalaşdırılması üçün metodoloji əsas rolunu oynayır. Kurortun davamlı inkişafının təmin edilməsi məqsədilə qiymət çevikliyi mexa-

nizmlərinin tətbiqi, mövsümdənkənar turizm məhsullarının yaradılması, xidmət keyfiyyətinin sistemli şəkildə yüksəldilməsi və regional əməkdaşlıq modellərinin genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur.

İstifadə edilmiş ədəbiyyat:

1. https://wttc.org/news/azerbaijans-travel-tourism-sector-set-for-strong-growth-in-2025
2. https://aem.az/uploads/posts/2025/12/ELM%C4%B0%20%C4%B0%C5%9E%2019.12.pdf
3. https://fed.az/az/turizm/azerbaycanda-mehmanxanalarda-gecelemelerin-sayi-36-artib-205871
4. https://tourism.gov.az/uploads/documents/statistic/+annual_tourism_statistics_2020_final.pdf
5. https://qafqazinfo.az/news/detail/hotellerde-geceleyenlerin-sayi-artib-434474
6. https://shahdag.az/az/hoteller
7. https://shahdag.az/az/hotel/zirve-hotel#:~:text=,f%C9%99aliyy%C9%99t%20g%C3%B6st%C9%99r%C9%99c%C9%99k
8. https://bizim.media/az/cemiyyet/197449/ahdaga-sefer-eden-turistlerin-sayi-ne-qeder-artib-foto/
9. https://sia.az/az/news/tourism/1069936.html
10. https://banker.az/sahdag-turizm-m%C9%99rk%C9%99zinin-yigilmis-z%C9%99r%C9%99ri-100-milyon-manati-otdu/
11. https://report.az/maliyye-xeberleri/sahdag-turizm-merkezi-nin-yigilmis-zereri-100-milyon-manati-kecib
12. https://shahdag.az/az/shahdag-hagginda
13. https://www.stat.gov.az/source/tourism/
14. Bardi J. (2011). "Hotel Front Office Management." John Wiley & Sons, 498p.
15. Brotherton B. (1999). "Towards a definitive view of the nature of hospitality and hospitality management." International Journal of Contemporary Hospitality Management, 11(4), p.165-173.
16. Croes R. (2019). "Tourism's contributions to economy: an analytical framework." Journal of Hospitality & Tourism Research, 43(7), p.1020-1038.
17. Guttentag D. (2015). "Airbnb: disruptive innovation and the rise of an informal tourism accommodation sector." Current Issues in Tourism, 18(12), p.1192-1217.
18. Harwood A.B., Eadington W.S., Reisman M.S. (2022). "Role of hospitality industry on economic growth in USA." African Journal of Emerging Issues, 4(8), p.1-13.
19. Hemmington N. (2007). "From service to experience: understanding and defining the hospitality business." The Service Industries Journal, 27(6), p.747-755.
20. Ivanov S., Webster C. (2019). "Robots, artificial intelligence, and service automation in hotels." International Journal of Contemporary Hospitality Management, 31(9), p.2540-2561.

M.A.Allahverdiyeva
Doctor of Economics, professor, Azerbaijan State University of Economics
N.J.Talibzada
master student, International Doctoral and Master's Center, UNEC

The current state of the hotel business in Azerbaijan: a factor analysis

Abstract

The main purpose of the article is to assess the current level of development of the hotel business in Azerbaijan, to identify the main economic, institutional and market factors affecting its formation and to investigate the mechanisms of influence of these factors on the efficiency of the sector on the basis of factor analysis. At the same time, the impact of tourism flows, investment environment and state support mechanisms on the hotel sector is analyzed in a comprehensive manner. The study used statistical analysis, comparative analysis, factor analysis, dynamic series method and graphical representation methods. Data from the State Statistical Committee of the Republic of Azerbaijan, reports of international organizations on tourism and analytical sources in the field constitute the main information base. Among the main factors affecting the development of the hotel business, the indicators of tourist flow, profitability level, investment volume, accommodation structure by regions and service quality were evaluated. It is important in terms of studying the role of tourism and hotel business in economic development, which is one of the important directions of the non-oil sector of Azerbaijan, on a scientific basis. The results allow us to formulate practical recommendations for improving the state's tourism policy, promoting entrepreneurship in the regions and increasing the competitiveness of the service sector. The analysis shows that although positive dynamics have been observed in the development of the hotel business in Azerbaijan in recent years, there is uneven development across regions. The increase in tourist flows, holding international events and state programs act as the main factors in the expansion of the sector. At the same time, limited investment attractiveness, differences in service quality and seasonal dependence are among the factors that negatively affect the sustainable development of the sector. The article systematizes the factors affecting the development of the hotel business in a complex way using the factor analysis method and identifies the mechanisms of interaction. For the first time, the development dynamics of the hotel sector of Azerbaijan have been assessed in an integrated manner based on key economic indicators, and the main structural problems hindering the development of the sector have been scientifically identified.

Keywords*: hotel business, tourism sector, factor analysis, economic development, tourist flow, investment environment, service sector.*

https://doi.org/10.58225/tim.2026-2-250-257

N.M.İsrayılova
müəllim, Heydər Əliyev adına Hərbi İnstitut
ORCID 0009-0007-4737-3153
israyilova.nubar@mmu.edu.az
İ.H.Qəhrəmanova
müəllim, Heydər Əliyev adına Hərbi İnstitut
ORCID 0009-0008-5955-8064
irade.qehremanova@mmu.edu.az
T.M.Hətəmova
müəllim, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
ORCID 0009-0007-2702-970X
turkan.axmedova.87@mail.ru

Məqalə redaksiyaya daxil olub 13.03.2026
The article was received by editorial board on 13.03.2026
Статья принята к печати 13.03.2026

KİÇİK VƏ ORTA BİZNES (KOB) SAHİBKARLIĞI ÜÇÜN ALTERNATİV MALİYYƏ MƏNBƏLƏRİNİN İQTİSADİYYATA TƏSİRLƏRİ

Xülasə

Məqalə ölkədə KOB-ların iş yerlərinin yaradılması, innovasiyaların təşviqi və ÜDM artımının təmin olunmasında ənənəvi maliyyələşdirmə üsullarının yetərsiz olduğu hallar nəzərə alınaraq, kütləvi maliyyələşdirmə, mələk investorlar, vençur kapitalı, lizinq və faktorinq kimi alternativ maliyyə mənbələrindən istifadənin aktuallığını və əhəmiyyətini ortaya qoymaq məqsədi daşıyır. Məqalənin əsas məqsədi və vəzifələri arasında KOB-ların müxtəlif maliyyə resurslarına olan tələbatının qiymətləndirilməsi, mövcud maliyyə infrastrukturunun və dövlət stimullarının rolu, alternativ mənbələrin üstünlükləri və risklərinin müqayisəli təhlili, həmçinin KOB-ların fəaliyyət mərhələlərində ortaya çıxan xüsusi tələblərin aydınlaşdırılması yer alır. Araşdırma zamanı müqayisəli analiz, statistik metodlar, elmi ədəbiyyat icmalı və həmçinin 2017–2022-ci, 2022–2023-cü illərə aid diaqramlarla dəstəklənmiş məlumatlara əsaslanaraq, KOB-ların iqtisadi təsirlərinin və qeyri-neft sektorunda məşğulluq, əlavə dəyər kimi əsas göstəricilərin təhlili həyata keçirilmişdir. Əldə olunan nəticə, alternativ maliyyə mənbələrinin düzgün seçilməsi və tətbiqi ilə KOB-ların investisiya potensialının və ümumi iqtisadi inkişafa töhfəsinin əhəmiyyətli dərəcədə artdığını göstərir. Əlavə olaraq, tədqiqat geniş gələcək maliyyə strategiyalarına dair praktik tövsiyələr verir.

Açar sözlər: *KOB, alternativ maliyyə mənbələri, lizinq, faktorinq, investorlar.*

GİRİŞ

Ölkəmizdə kiçik və orta sahibkarlıq (KOB) yalnız iqtisadi artımın, innovasiyaların və iş yerlərinin yaradılmasının mühüm tərkib hissəsi olmaqla qalmır, həmçinin davamlı inkişaf üçün zəruri maliyyə resurslarının əldə edilməsində xüsusi əhəmiyyət kəsb edir. Lakin ənənəvi maliyyə vasitələrinin – daxili yığımlar, bank kreditləri, qrantlar və dövlət dəstəyi, cari iqtisadi şərtlər və innovasiya tələbləri fonunda KOB-ların böyümə potensialını tam şəkildə dəstəkləyə bilmir. Bu məqalə, alternativ maliyyə mənbələri, yəni kütləvi maliyyələşdirmə, mələk investorlar, vençur kapita-

lı, lizinq və faktorinq vasitəsilə KOB-ların maliyyə ehtiyaclarının necə qarşılana biləcəyini və yaranan risklərlə üstünlüklərin müqayisəli təhlilini özündə əks etdirir. Məqsəd, müxtəlif inkişaf mərhələlərində KOB-ların qarşılaşdığı maliyyə çətinliklərini dərinləşdirilmiş metodlarla təhlil edərək, dövlət və bazar stimullarının rolu ilə əlaqədar praktik yanaşmaların müəyyənləşdirilməsinə töhfə verməkdən ibarətdir.

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN (KOB) TƏSVİRİ VƏ ROLU

Kiçik və orta sahibkarlıq (KOB) – iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən iş yerlərinin yaradılması, innovasiyaların reallaşdırılması və ÜDM artımında mühüm rol oynayan əsas sektorlar sırasındadır. Azərbaycanda KOB-lar geniş fəaliyyət sahələrində özünü göstərir, çünki onlar dinamik, çevik və bazarın tələblərinə tez uyğunlaşa bilən strukturlardır. Onlar yerli istehsalın, regional inkişafın və sosial-iqtisadi sabitliyin təmin olunmasında əsas amil kimi çıxış edir. Dövlətin təklif etdiyi vergi güzəştləri, kredit dəstəyi və digər stimul proqramları KOB-ların fəaliyyət imkanlarını artırır, beləliklə, ölkənin iqtisadi diversifikasiyası və dayanıqlı inkişafa təkan verir.

KOB-ların fəaliyyətini davam etdirmək üçün maliyyə resursları əldə etməsi zəruri amil hesab olunur. Alternativ maliyyə mənbələrindən istifadə KOB-lar üçün xüsusilə faydalıdır. Bir çox başqa maliyyə mənbələri mövcuddur. Onların üstünlükləri və mənfi cəhətləri var.

KOB-lar üçün maliyyə mənbələri 2 qrupa bölünür:

- əsas maliyyə mənbələri;
- alternativ maliyyə mənbələri.

KOB-ların əsas maliyyə mənbələri daxili yığımlar, bank kreditləri, qrantlar, dövlət dəstəyidir.

Alternativ maliyyə mənbələri isə çoxluq təşkil edir. Onlardan bəziləri aşağıdakılardır:

- kütləvi maliyyələşdirmə (crowdfunding),
- mələk investorlar,
- risk kapitalı (vençur),
- lizinq,
- faktorinq [6].


Kütləvi maliyyələşdirmə (crowdfunding), geniş maliyyə resursları olan insanlar tərəfindən maliyyə dəstəyinin istənilən ölçüsüdür. Kütləvi maliyyələşdirmə bir sıra fərdi investorlar vasitəsilə vəsait əldə etməyin məşhur yoludur. Mələk investorlar öz vəsaitlərini uğur qazanacaqlarına inandıqları bizneslərə yatırırlar. Kapital adətən şirkətdəki paya dəyişdirilir və mələk investor adətən ailə və ya dostluq şəbəkələri vasitəsilə biznes və ya sahibkarla əlaqələndirilir. Başqa bir mənbə vençur kapitalıdır. Bu, riskli bir investisiyadır, lakin buna dəyər. Amma bu, biznes sahəsini əhatə edir. Lizinq dördüncü yerdədir. Buraya biznes üçün bəzi avadanlıqların icarəsi daxildir. Bu, əslində aktivləri birbaşa almaqdan fərqli olaraq icarəyə götürdüyünüz və ya icarəyə verdiyiniz yerdir. Faktorinqdə isə satış həyata keçirildikdən sonra müəssisə fakturaları faktorinq şirkətinə satır və əvvəlcədən ödəniş alır. Siz faktura maliyyəçisinə onu satırsınız və o, onu sizin yerinizə idarə edib, ödənilməmiş borclar qarşılığında sizə borc verəcəkdir [5].

Bu alternativ maliyyə mənbələrinin bir çox faydası olsa da, onların mənfi cəhətləri də var. Alternativ maliyyə mənbələri investorları əhəmiyyətli risklərə və bununla bağlı potensial risklərə məruz qoyur. Vəsaitlərin itirilməsi riski də var. Həmçinin, bəzən bu mənbələr ədalətsiz ola bilər. Bu, sahibkarların üzərinə sərt bazar şərtləri tətbiq edə bilər. Əlavə olaraq qeyd etmək lazımdır ki, alternativ maliyyə resursları məhdud resurslara malikdir. Bu səbəblə sahibkarlar hərtərəfli araşdırmadan sonra alternativ maliyyə mənbələrini həyata keçirməlidirlər.

Alternativ maliyyə mənbələrinin üstünlükləri və çatışmazlıqları aşağıda qeyd olunmuşdur.

- kütləvi maliyyələşdirmə sürətlidir, lakin ideyanız qorunmasa və hədəfinizə çatmasanız kopyalana bilər.
- mələk investorlar rəhbərlik etməyi bacarır, uğur şansı yüksəkdir, lakin çətin tapılırlar.

- risk kapitalı sizin üçün şansdır, lakin mülkiyyət payınız azala bilər.
- lizinqlə qazancınızın yetmədiyi avadanlığı ala bilərsiniz, lakin bu çox baha başa gələ bilər.
- faktorinqlə vaxtınız bol olacaq, lakin qazancınızı itirəcəksiniz.



Şəkil 1. KOB-ların və kredit provayderlərinin inkişaf dövrləri
Mənbə: *[4]*

KOB-ların maliyyə ehtiyacları onların böyümə mərhələsindən asılıdır. Şəkil 1 KOB-ların, kapital və kredit təminatçılarının həyat dövrünün birləşməsini təsvir edir. KOB-ların maliyyə ehtiyacları ümumiyyətlə ailə, dostlar və təsisçilər tərəfindən ödənildiyi halda, sabit artım mərhələsində banklar və digər investorlar kapital təminatçılarından biridir. Sonuncu ona görədir ki, yalnız bu mərhələdə KOB-lar tələb olunan girov və biznes hesabatlarını banklara təqdim etmək imkanına malikdirlər. Buna görə də, başlanğıc və genişlənmə mərhələləri kimi digər böyümə mərhələlərində olan KOB-lar tərəfindən bank kreditlərindən istifadə etmək üçün kredit zəmanətləri, kredit reyestrləri və ya bürolar, girov reyestrləri kimi maliyyə infrastrukturu ilə bağlı siyasətlər ölkələr tərəfindən hazırlanmalıdır.

KOB-ların əksəriyyəti marketinq və satış fəaliyyətlərini üz-üzə əlaqələr vasitəsilə həyata keçirirlər. Bundan əlavə, müəssisələr yalnız təkbətək qarşılıqlı əlaqə vasitəsilə hədəf auditoriyasına çata bilirlər. Onların müştəri portfelini yaxın ətrafı və tanışları formalaşdırır. Bu müştəri portfelinə uyğun olaraq yaradılmış marketinq və istehsal planı da yüksək tələbatı ödəyə bilmir. Müəssisələr yarandıqları müddətdə bazar araşdırması aparmırlar və ya bunu qeyri-adekvat aparırlar. Onların bazarı yetərincə dərk edə bilməmələri nəticəsində yalnız sifarişin gəlməsini gözləyirlər. Nəticədə müəssisələrin gəlirliliyi aşağı düşür [4].

Əksər KOB-larda maliyyə idarəçiliyi mühasiblər tərəfindən həyata keçirilir. Bunun nəticəsində müəssisələr maliyyələşdirməyə kifayət qədər əhəmiyyət vermir və ya onun əhəmiyyətini başa düşmürlər. Məhz buna görə də KOB-lar maliyyə problemi ilə üzləşəndə ilk işi yüksək faizli kreditlər götürmək olur. Bununla belə, KOB-lar banklar və digər maliyyə institutları üçün yüksək risk altındadır. Risk sinfində olduqları üçün ya yüksək faizlə kredit alırlar, ya da heç kredit vermirlər. Bu vəziyyət nəticəsində onlar müflisləşərək fəaliyyətlərinə son qoyurlar.

KOB-ların üzləşdiyi maliyyə problemləri üç əsas səbəbə əsaslanır:

1. iqtisadi sabitlik problemi,
2. bank sektoru ilə bağlı sistemli problemlər,

3. dövlət KOB-lara kifayət qədər stimul vermədikdə.

Bunlar KOB-ların öz struktur səbəblərindən irəli gələn maliyyə problemləridir.

KOB-ların maliyyə problemlərini aşağıdakı kimi sıralamaq olar:

1. kredit almaqda problemlər,
2. kapitalın çatışmazlığı,
3. kapital bazarından vəsait əldə edə bilməmək problemi,
4. maliyyə idarəetmə çatışmazlıqları.

Alternativ maliyyələşdirmə üsullarının birinci kateqoriyası aktivlərə əsaslanan maliyyələşdirmədir. Bu tip şirkətlərdə o, öz kredit statusuna deyil, öz biznes fəaliyyətinə əsaslanır. Aktivə əsaslanan maliyyələşdirmə üsullarının ümumi cəhəti mənfi kreditdir. Problemləri aradan qaldırmaq üçün davamlılıq dəyərləri olan KOB-lar təmin etməkdir. Aktivlərə əsaslanan maliyyələşdirmədə ən çox istifadə olunan üsullar faktorinq və lizinqdir. KOB-lar müəyyən müddət ərzində məhsullarının ödənişini almaq istəyirlər, bir şərtlə ki, pərakəndə satıcı məhsulu pərakəndə satıcıya satsın və pərakəndə satıcı məhsulu kommersiya əməliyyatı nəticəsində əldə etsin.

Aktivlərə əsaslanan maliyyələşdirmənin digər ümumi növü lizinqdir. Bu tipdə KOB-ların avadanlıq ehtiyacları lizinq şirkətlərinin müdaxiləsi ilə qarşılanır. Bu çərçivədə lizinq şirkəti avadanlıq alır və KOB lizinq müqaviləsi üzrə avadanlıqların mülkiyyət hüququnu özündə saxlayır. Lizinq ödənişləri lizinq şirkətinin borc vermə xərclərinin və kredit riskinin cəmidir.

Alternativ borc aktivlərə əsaslanan alternativ borc növüdür. Bu borclanma növündə KOB mövcud aktivləri əsasında borclanır. Ən çox istifadə edilən alternativ borc üsulları korporativ istiqrazlardır və sekuritləşdirilmiş borcdur. Burada banklar deyil, bazar investorlar KOB-ları maliyyələşdirir. Buna görə də KOB-lar tərəfindən üstünlük verilir. KOB borclarının sekuritləşdirilməsi likvid olmayan şirkətin aktivlərinin sekuritləşdirilməsidir. Bu, dəyərlərin dəyərlərə çevrilməsi prosesidir.

Alternativ maliyyə mənbələri də özündə müəyyən risklər daşıyır ki, bunlar aşağıdakılardır.

- daha yüksək xərclər,
- yüksək dərəcədə fərdiləşdirilmişdir,
- nəzarət hüquqlarını bölüşmək.

Alternativ kreditorlar öz kapitallarını özəl vasitələrlə əldə etməyə meyllidirlər və banklar kimi ucuz depozitlərdən asılı deyillər. Onların daha yüksək xərcləri daha sonra investisiya edən şirkətə köçürülür. Onların çevikliyinin bir hissəsi kimi alternativ maliyyələşdirmənin şərtləri ənənəvi razılaşmalardan daha az standartlaşdırıla bilər ki, bu da öhdəliklərin başa düşülməsində daha mürəkkəbliyə və potensial çətinliklərə gətirib çıxarır. Alternativ maliyyələşdirmənin bəzi formaları, məsələn, vençur kapitalı və ya özəl kapital, investorların biznesin idarə edilməsində və idarə olunmasında fəal rol oynamasını cəlb edə bilər. Bu, potensial olaraq təsisçilər və ya ilk sahiblər ilə investor qrupu arasında fikir ayrılıqlarına səbəb ola bilər.

KOB-LARIN İQTİSADİ TƏSİRLƏRİ: İQTİSADİ İQLİM, ALTERNATİV MALİYYƏ MƏNBƏLƏRİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

Azərbaycanda KOB-lar iqtisadiyyatın dinamik və çevik qüvvəsi kimi iş yerlərinin yaradılması, innovativ təşəbbüslərin həyata keçirilməsi və ÜDM artımında önəmli rol oynayır. Bu sektorun ölkə iqtisadiyyatındakı payının yüksəlməsi, dövlət və bazar üçün strateji əhəmiyyət kəsb edir. Lakin ənənəvi maliyyələşdirmə üsullarının sərhədləri səbəbindən, KOB-ların innovasiya və investisiya potensialını artırmaq üçün alternativ maliyyə mənbələrinin rolu daha da aktuallaşır.


Araşdırmalar göstərir ki, kütləvi maliyyələşdirmə, mələk investorlar, vençur kapitalı, lizinq və faktorinq kimi alternativ maliyyə vasitələri yalnız maliyyə dəstəyinin təmin olunması ilə qalmır, həmçinin risk idarəçiliyinin və investisiya qərarlarının optimallaşdırılmasına töhfə verir. Dövlətin, xüsusiylə də Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) həyata keçirdiyi islahatlar, vergi

güzəştləri və kredit dəstəyi kimi tədbirlər KOB-ların fəaliyyət mühitini yaxşılaşdırarkən, bu alternativ vasitələrin tətbiq dairəsini də genişləndirir. Gələcək perspektivlərdə, şəffaflıq, rəqəmsallaşma və yeni maliyyə məhsullarının inkişaf etdirilməsi kimi sahələr prioritet kimi ön plana çıxır. Ümumilikdə, alternativ maliyyə mənbələrinin istifadəsi KOB-ların davamlı inkişafını və ölkə iqtisadiyyatının dayanıqlı böyüməsini təmin etmək üçün vacib çağırışlar və fürsətlər yaradır.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOB-ların işlərini asanlaşdırmaq, onlara maliyyə, satış, hüquqi dəstək göstərmək üçün yaradılmış agentlikdir. Ümumiyyətlə, KOB-ların inkişafı üçün dövlət dəstəyi də mövcuddur ki, dövlət KOB-lara vergi güzəştləri edir, həmçinin yerli banklar da KOB-lara kredit güzəştləri tədbiq edirlər.

KOBİA-nın 2023 hədəflərində KOB-ların sayının artırılması, ÜDM-də payının artırılması, məşğulluqda payının artırılması, qeyri-neft ixracında payının artırılması əsas hədəf olaraq götürülmüşdür. KOB-ların sayı 2017-ci illə müqayisədə 2022-ci ildə 2.2 dəfə artmışdır. KOB-ların 2017-ci ildə ÜDM-də xüsusi çəkisi 5.9% artmışdı, bu göstərici 2022-ci ildə 13.9% təşkil etmişdi. Məşğulluqdakı payı (iş yerlərinin sayı) 2017-ci ildə 20.8% artarkən, 2022-ci ildə 41.8% təşkil etmişdi. KOB-ların qeyri-neft sektorundakı payının (ixrac dövriyyəsinin) artırılması 2017-ci ildə 23.3% artarkən, 2022-ci ildə 35.2% artmışdı [1, 2, 3].

Diaqram 1. 2017 və 2022-ci illər üzrə KOB göstəriciləri, faizlə




Mənbə: *[1, 2]*

2023-cü ildə fərdi sahibkarların 77.4%-ni kişilər, 22.6%-ni isə qadınlar təşkil edir. Kişilər ümumi nisbətdə çoxluq təşkil edir [1, 2].

KOB-ların Respublikamızda iqtisadi təsirləri çoxdur. Bunu aşağıdakı diaqramda 2022 və 2023-cü illər üzrə də görə bilərik.

Diaqram 2. 2022 və 2023-cü illər üzrə KOB göstəriciləri, faizlə



Mənbə: *[1, 2]*

Qeyri-neft sektoru üzrə KOB-un məşğulluqda payı 2022-ci ildə 43.1%, 2023-cü ildə isə 45.3%, ümumi sektor üzrə məşğulluqda payı uyğun olaraq 41.8%, 44% və əlavə dəyərdə payı isə 13.9%, 18% təşkil edib. Həmçinin yaradılmış əlavə dəyər 2022-ci ildə 17.2 mlrd. AZN, 2023-cü ildə isə 20.1 mlrd. AZN təşkil edib [1, 2].

Cədvəl 1

Biznes portfelinin sahibkarlıq subyektləri üzrə bölgüsü barədə məlumat, mln manat

Sahibkarlıq subyektlərinin növləri	30.09.2024	31.10.2024	30.11.2024	31.12.2024
Biznes portfeli,	14 407,9	14 628,1	14 746,7	14 787,2
o cümlədən				
- İri sahibkarlığa	8 133,8	8 236,3	8 290,9	8 297,3
- Orta sahibkarlığa	1 750,2	1 795,1	1 829,8	1 834,0
- Kiçik sahibkarlığa	1 571,9	1 572,6	1 535,7	1 548,6
- Mikro sahibkarlığa	2 951,9	3 024,1	3 090,3	3 107,3

Mənbə: *[2, 3]*

Yuxarıdakı cədvəldə biznes portfelinin sahibkarlıq subyektləri üzrə bölgüsü barədə məlumatlar qeyd olunmuşdur. Göründüyü kimi mikro, orta və iri sahibkarlıq subyektləri 2024-cü ilin son dörd ayı üzrə artan templə davam etmişdir, lakin kiçik sahibkarlıq subyektlərində bu göstərici xaotikdir [2, 3]. KOB-un iqtisadi təsirləri böyük olduğu kimi mövcud iqtisadi iqlimin də KOB-a təsiri var. Bu təsirlər əsasən də alternativ maliyyə mənbələrinədir. İqtisadi hadisələr bütövlükdə faiz dərəcələrinin artmasına səbəb olur və alternativ maliyyə mənbələrini əsas kreditorlara qarşı daha az rəqabətli edir. Şirkətlər yeni maliyyə mənbələri axtararkən, meyarlar həm əsas, həm də alternativ maliyyə kreditorları üçün daha sərt olur. Aşağı faiz dərəcələri dövründən uzaqlaşdıqca investisiya qərarları və öhdəsindən gəlmək qabiliyyəti daha çox araşdırılacaq, çünki güclülər yüksələcək, zəiflər isə dərəcələrin aşağı düşdüyü və iqtisadiyyatın daha sabit olduğu vaxtdan daha sürətli düşəcəklər.

NƏTİCƏ

Məqalədə aparılan təhlillər göstərir ki, KOB-lar üçün alternativ maliyyə mənbələri zəruridir. Buna görə də onların faydalarını bilmək şərtdir. Bunlar aşağıdakılardır.

- Kapitalın əlçatanlığı: Alternativ maliyyələşdirmə ənənəvi yollar mövcud olmadıqda və ya qeyri-kafi olduqda kapitala çıxışı təmin edə bilər.
- Müxtəlif zəmanət tələblərinin olmaması: Ənənəvi bank kreditlərindən fərqli olaraq, bir çox alternativ maliyyələşdirmə variantları inventar, torpaq, bina, avadanlıq və ya şəxsi zəmanət kimi ənənəvi girov tələb etmir.
- Çevik və sürətli təsdiqləmə prosesi: Alternativ maliyyələşdirmə üsulları ənənəvi kreditlərlə müqayisədə tez-tez təsdiqləmə proseslərinə və daha çevik şərtlərə malikdir.
- Uniikal həllərin təklif edilməsi: Kütləvi maliyyələşdirmə kimi yenilikçi maliyyələşdirmə modelləri xüsusi biznesin ehtiyaclarına uyğunlaşdırılmış unikal həllər təklif edə bilər.
- Sənaye xüsusiyyətlərinə uyğun proqramlar: Müəyyən sənayelərdə alternativ kanallar vasitəsilə əldə edilə bilən ixtisaslaşdırılmış maliyyə proqramları və ya qrantlar ola bilər.
- **Mənbələrin şaxələndirilməsi:** Maliyyələşdirmə mənbələrinin şaxələndirilməsi riski və vahid maliyyələşdirmə kanalından asılılığı azaldır.
- Əlavə dəyər yaradılması: Biznes inkubatorları və ya mələk investorlar kimi bəzi alternativ maliyyə təminatçıları mentorluq, sənaye əlaqələri və təcrübə kimi əlavə üstünlüklər təklif edirlər.
- Qlobal auditoriyanın cəlb edilməsi: Kütləvi maliyyələşdirmə və müəyyən investorlar qlobal auditoriyaya təsir göstərə bilər, potensial olaraq maliyyə və müştəriləri milli sərhədlərdən kənarda cəlb edə bilər.

Maliyyələşdirmənin mühüm mənbəyi kimi alternativ maliyyənin daha da inkişaf etdirilməsi üçün bəzi prioritetlər əsas götürülməlidirlər. Bu istiqamətdə, dövlət siyasəti və özəl kredit qərarlarının dəstəklənməsi üçün aşağıdakı prioritetlər təklif olunur:

- Normativ-hüquqi bazanın gücləndirilməsi: Alternativ maliyyə üçün inkişaf siyasətlərini əlaqələndirmək, uyğunlaşdırmaq və idarə etmək üçün institusional tədbirlərin gücləndirilməsi əsasdır. Bu, alternativ maliyyələşdirmə həllərinə səmərəli çıxışı və çatdırılmasını təmin etmək üçün müvafiq normativ-hüquqi bazaların və dəstəkləyici maliyyə infrastrukturunun ətraflı nəzərdən keçirilməsini tələb edir.
- Məlumatların keyfiyyətinin artırılması: Həm dövlət siyasəti, həm də özəl kredit qərarlarını məlumatlandırmaq üçün alternativ maliyyələşdirmə üzrə məlumatların keyfiyyətinin, əhatə dairəsinin və bütövlüyünün təkmilləşdirilməsi vacibdir. Nəzarət orqanlarına dəqiq və vaxtında məlumat vermək üçün alternativ maliyyə təminatçıları üçün standartlar müəyyən edilməlidir. İnnovativ və yeni inkişaf sənayeləri haqqında görünürlük təmin etmək üçün iqtisadi məlumatlar da seqmentlərə bölünməlidir.
- İctimai maarifləndirmə və təhsil: Mövcud alternativ maliyyələşdirmə yolları haqqında KOB-lar arasında məlumatlılığın artırılması üçün ictimaiyyətin cəlb edilməsi və təhsil təşəbbüslərinin gücləndirilməsi fond təminatçılarını (mələk investorlar da daxil olmaqla) alternativ maliyyə bazarlarında daha fəal iştirak etməyə təşviq etmək səyləri də vacibdir.

Ümumiyyətlə, mövcud alternativ maliyyə yollarının inkişaf etdirilməsi və strateji inteqrasiyası, KOB-ların iqtisadi təsirinin daha da gücləndirilməsi və ölkə iqtisadiyyatının dayanıqlı inkişafının təmin olunması üçün əsas prioritet kimi nəzərdə tutulur.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikası Mərkəzi Bankı / URL: https://www.cbar.az/

2. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi / URL: https://www.smb.gov.az/

3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi / URL: https://www.stat.gov.az/

4. Motylska-Kuźma A. (2018). Alternative finance and sustainable development / - Poland: WSB University in Wrocław, №1 (2), - p.175-187.

5. Motylska-Kuźma A. (2016). The cost of crowdfunding capital // 3rd International Multidisciplinary Scientific Conference on Social Science & Arts. SGEM, Conference Proceedings, p. 601-612.

6. Waszkiewicz A. (2016). Finanse alternatywne – elektroniczne innowacje finansowe (Finance alternatives – electronic financial innovation) / - Acta Universitatis Lodziensis. Folia Oeconomica, №2 (319), - p.135-152.

N.M.Israyilova
teacher, Heydar Aliyev Military Institute
ORCID 0009-0007-4737-3153
I.H.Gahramanova
teacher, Heydar Aliyev Military Institute
ORCID 0009-0008-5955-8064
T.M.Hatamova
teacher, Azerbaijan Academy of Labor and Social Relations
ORCID 0009-0007-2702-970X

Economic impacts of alternative financial sources for small and medium businesses (SMES)

Abstract

This article aims to highlight the relevance and importance of using alternative financial sources such as crowdfunding, angel investors, venture capital, leasing and factoring, taking into account the inadequacy of traditional financing methods in creating jobs for SMEs, promoting innovations and ensuring GDP growth in the country. The main goals and objectives of the article include assessing the needs of SMEs for various financial resources, the role of existing financial infrastructure and state incentives, a comparative analysis of the advantages and risks of alternative sources, as well as clarification of specific requirements arising at the stages of the activity of SMEs. During the study, an analysis of the economic impacts of SMEs and key indicators such as employment and added value in the non-oil sector was carried out, based on comparative analysis, statistical methods, a review of scientific literature, and also data supported by diagrams for 2017–2022, 2022–2023. The results show that the investment potential of SMEs and their contribution to overall economic development can be significantly increased by selecting and implementing alternative sources of finance. In addition, the study provides practical recommendations for a wide range of future financing strategies.

Key words: *SME, alternative sources of finance, leasing, factoring, investors.*

https://doi.org/10.58225/tim.2026-2-258-263

UOT: 656.71:005.334

Q.C.Vəliyeva
elmi işçi, baş müəllim, Milli Aviasiya Akademiyası
ORCID 0009-0004-9004-7044

Məqalə redaksiyaya daxil olub 12.02.2026
The article was received by editorial board on 12.02.2026
Статья принята к печати 12.02.2026

KARQO TERMİNALLARINDA İDARƏETMƏ SİSTEMİNİN OPTİMALLAŞDIRILMASINDA RİSK ƏSASLI YANAŞMANIN TƏTBİQİ

Xülasə

Məqalə, hava limanlarının yük terminallarında idarəetmə sisteminin optimallaşdırılmasında riskəsaslı yanaşmanın tətbiqinin nəzəri və praktiki aspektlərinə həsr olunmuşdur. Qlobal ticarətin genişləndirilməsi və beynəlxalq logistika zəncirlərinin mürəkkəbləşməsi fonunda havadaşımalarının strateji rolu artmış və idarəetmə tələblərinin sərtləşdirilməsi zəruri olmuşdur. Tədqiqatda yük terminallarında mövcud idarəetmə sistemləri nəzəri və analitik cəhətdən təhlil edilmiş, əsas risk qrupları (əməliyyat, təhlükəsizlik, informasiya və təşkilati risklər) təsnifləşdirilmiş, ICAO, IATA və ECAC sənədləri əsasında risklərin sistemli qiymətləndirilməsinin tədqiqi əsaslandırılmışdır. Məqalədə, risklərin identifikasiyası, ehtimal–təsir matrisi ilə prioritetləşdirmə, proses planlaşdırılması və idarəetmə effektivliyinin qiymətləndirilməsi meyarlarına əsaslanan nəzarət mexanizmlərini birləşdirən inteqrasiya edilmiş model təklif olunur. Nəticələr göstərir ki, riskəsaslı idarəetmə modelinin keyfiyyətinin yüksəldilməsi - əməliyyat gecikmələrinin və resurs itkilərinin azaldılmasına, illik beynəlxalq standartlara uyğunluğun təmin edilməsinə imkan yaradır. Təklif olunan yanaşma yük terminallarında davamlı və adaptiv idarəetmə sisteminin formalaşdırılmasına xidmət edir.

Açar sözlər: *yük terminalı, ICAO, IATA, ECAC, riskəsaslı idarəetmə modeli, risklərin identifikasiyası, optimallaşdırma.*

GİRİŞ

Qlobal ticarətin və beynəlxalq logistika zəncirlərinin sürətli inkişafı hava nəqliyyatının, xüsusilə də Cargo daşımalarının strateji əhəmiyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Müasir mərhələdə hava limanlarının Cargo terminalları yalnız yüklərin qəbul və göndərilməsini həyata keçirən texniki obyektlər deyil, eyni zamanda mürəkkəb idarəetmə, təhlükəsizlik və risklərin koordinasiyalı şəkildə tənzimləndiyi çoxfunksiyalı sistemlər kimi çıxış edir. Bu baxımdan Cargo terminallarında idarəetmə sisteminin səmərəliliyi hava nəqliyyatının davamlılığına, iqtisadi təhlükəsizliyə və beynəlxalq ticarət əlaqələrinin etibarlılığına birbaşa təsir göstərir (International Civil Aviation Organization (ICAO), 2017).

Cargo terminallarında idarəetmə prosesləri çoxsaylı risk amilləri ilə müşayiət olunur. Bu risklərə yüklərin itirilməsi və ya zədələnməsi, qeyri-qanuni müdaxilə aktları, təhlükəli yüklərin düzgün idarə edilməməsi, informasiya axınlarında boşluqlar, eləcə də insan faktoru ilə bağlı səhvlər daxildir. Mövcud idarəetmə mexanizmlərinin klassik yanaşmalar əsasında qurulması bir sıra hallarda bu risklərin vaxtında müəyyən edilməsinə və effektiv şəkildə azaldılmasına imkan vermir. Nəticədə

Cargo terminallarında riskəsaslı idarəetmə yanaşmasının tətbiqi zəruri və aktual elmi-praktiki problem kimi ön plana çıxır (International Air Transport Association (IATA), 2020).

Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO), Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) və Avropa Mülki Aviasiya Konfransının (ECAC) normativ sənədlərində Cargo əməliyyatlarının idarə edilməsində risklərin sistemli qiymətləndirilməsi və proaktiv idarəetmə modellərinin tətbiqi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bu sənədlər Cargo terminallarında idarəetmə sisteminin optimallaşdırılmasını yalnız texniki təhlükəsizlik tədbirləri ilə deyil, eyni zamanda təşkilati, institusional və informasiya komponentlərinin inteqrasiyası yolu ilə həyata keçirməyi tövsiyə edir.

Tədqiqatın məqsədi Cargo terminallarında mövcud idarəetmə sistemlərinin riskəsaslı yanaşma kontekstində təhlil edilməsi və onların optimallaşdırılması üçün elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanmasından ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir: Cargo terminallarında idarəetmə sisteminin nəzəri əsaslarının araşdırılması; əsas risk qruplarının identifikasiyası və təsnifatı; beynəlxalq təcrübənin müqayisəli təhlili; risklərin idarə edilməsinə yönəlmiş optimal idarəetmə modelinin formalaşdırılması.

Tədqiqatın obyekti hava limanlarının Cargo terminallarında tətbiq olunan idarəetmə sistemləri, predmeti isə həmin sistemlərin riskəsaslı yanaşma əsasında optimallaşdırılması mexanizmləridir. Tədqiqatın elmi yeniliyi Cargo terminallarında idarəetmə proseslərinin risklərin idarə olunması prizmasından kompleks şəkildə qiymətləndirilməsi və təhlükəsizlik, əməliyyat səmərəliliyi və davamlılıq meyarlarını birləşdirən inteqrasiya olunmuş modelin təklif edilməsindən ibarətdir.

Məqalənin praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr və irəli sürülən təkliflər hava limanlarının Cargo terminallarında idarəetmə sistemlərinin təkmilləşdirilməsində, risklərin azaldılmasında və beynəlxalq aviasiya təhlükəsizlik standartlarına uyğunluğun təmin edilməsində istifadə oluna bilər.

ƏDƏBİYYAT İCMALI

Cargo terminalları hava limanlarının istehsal-logistika infrastrukturunun mühüm tərkib hissəsi olmaqla, yüklərin qəbul edilməsi, saxlanması, emalı və daşınmaya hazırlanması proseslərini həyata keçirən kompleks sistemlərdir. Bu terminallarda idarəetmə sistemi maddi, informasiya və insan resurslarının qarşılıqlı əlaqəsini təmin edən təşkilati və texnoloji mexanizmlərin məcmusu kimi çıxış edir. İdarəetmənin səmərəliliyi Cargo əməliyyatlarının təhlükəsizliyi, operativliyi və iqtisadi effektivliyi ilə birbaşa bağlıdır.

Elmi ədəbiyyatda Cargo terminallarında idarəetmə sistemi əsasən funksional yanaşma çərçivəsində izah olunur. Bu yanaşmaya görə idarəetmə planlaşdırma, təşkil etmə, motivasiya və nəzarət funksiyalarının inteqrasiyası əsasında formalaşır. Lakin müasir hava nəqliyyatı mühitində bu klassik funksional yanaşma kifayət etmir və risklərin dinamik xarakteri nəzərə alınaraq idarəetmənin çevik və adaptiv modellərinin tətbiqi zəruri hesab olunur (International Air Transport Association (IATA), 2020).

Cargo terminallarında idarəetmə sisteminin formalaşmasına təsir edən əsas amillərə normativ-hüquqi tələblər, texnoloji səviyyə, əməliyyat həcmi, insan resurslarının peşəkarlıq dərəcəsi və təhlükəsizlik mədəniyyəti daxildir. Xüsusilə beynəlxalq uçuşlara xidmət göstərən terminallarda ICAO-nun Annex 17 və Annex 9 sənədlərində əks olunmuş təhlükəsizlik və asanlaşdırma tələbləri idarəetmə sisteminin strukturunu müəyyən edən əsas çərçivə rolunu oynayır (International Civil Aviation Organization (ICAO), 2018).

Nəzəri baxımdan Cargo terminallarında idarəetmə sistemləri açıq sistemlər kimi xarakterizə olunur. Bu sistemlər xarici mühitlə daimi qarşılıqlı əlaqədə olur, dəyişən risk faktorlarına reaksiya verir və daxili proseslərin optimallaşdırılması yolu ilə öz dayanıqlığını qorumağa çalışır. Bu kontekstdə riskəsaslı yanaşma idarəetmənin ayrılmaz elementi kimi çıxış edir və qərarların qəbulunda

prioritetlərin düzgün müəyyənləşdirilməsinə imkan yaradır (International Civil Aviation Organization (ICAO), (2019).

Cargo terminallarında risk anlayışı yüklərin təhlükəsizliyi, əməliyyatların fasiləsizliyi və informasiya mühafizəsi baxımından potensial təhlükə yarada bilən hadisə və ya proseslərin başvermə ehtimalı kimi izah olunur. Risklər təkcə təhlükəsizlik pozuntuları ilə məhdudlaşmır, eyni zamanda iqtisadi itkilər, reputasiya zədələnməsi və normativ tələblərin pozulması kimi nəticələrə də səbəb ola bilər.

Elmi yanaşmalara əsasən Cargo terminallarında risklər bir neçə əsas qrupa bölünür. Əməliyyat risklərinə yüklərin düzgün emal edilməməsi, gecikmələr, texniki nasazlıqlar və insan səhvləri daxildir. Təhlükəsizlik riskləri qeyri-qanuni müdaxilə aktları, qadağan olunmuş əşyaların daşınması, təhlükəli yüklərin düzgün tanınmaması və saxlanmaması ilə əlaqədardır. İnformasiya riskləri isə məlumatların itirilməsi, kiberhücumlar və informasiya sistemlərində koordinasiya çatışmazlıqları ilə xarakterizə olunur (International Air Transport Association (IATA), 2021).

Bundan əlavə, təşkilati risklər də Cargo terminallarının idarəetmə sisteminə ciddi təsir göstərir. Bu risklərə idarəetmə qərarlarının qeyri-dəqiqliyi, məsuliyyət bölgüsünün aydın olmaması və daxili nəzarət mexanizmlərinin zəifliyi aid edilir. Qeyd olunan risk qruplarının hər biri idarəetmə sisteminin optimallaşdırılmasında nəzərə alınmalı və riskəsaslı yanaşma çərçivəsində kompleks şəkildə qiymətləndirilməlidir.

Risklərin təsnifatı və prioritetləşdirilməsi idarəetmə sisteminin optimallaşdırılmasının əsas mərhələlərindən biridir. Bu proses risklərin ehtimal və təsir dərəcəsinə görə qiymətləndirilməsini, kritik risk sahələrinin müəyyən edilməsini və resursların məhz həmin sahələrə yönəldilməsini nəzərdə tutur. Beləliklə, riskəsaslı yanaşma Cargo terminallarında idarəetmə sisteminin daha səmərəli və dayanıqlı qurulmasına şərait yaradır (ISO, 2018).

Riskəsaslı yanaşma Cargo terminallarında idarəetmə sisteminin optimallaşdırılmasının müasir və effektiv alətlərindən biri kimi çıxış edir. Bu yanaşmanın mahiyyəti potensial risklərin əvvəlcədən müəyyən edilməsi, onların ehtimal və təsir dərəcəsinin qiymətləndirilməsi və əldə olunan nəticələr əsasında idarəetmə qərarlarının qəbul edilməsindən ibarətdir. Belə bir yanaşma resursların təsadüfi deyil, məhz kritik risk sahələrinə yönəldilməsinə imkan yaradır.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Cargo terminallarında riskəsaslı idarəetmə modeli adətən bir neçə ardıcıl mərhələdən ibarət olur: risklərin identifikasiyası, risklərin təhlili və qiymətləndirilməsi, risklərə cavab tədbirlərinin planlaşdırılması və nəzarət mexanizmlərinin formalaşdırılması. Risklərin identifikasiyası mərhələsində əməliyyat prosesləri xəritələşdirilir və hər bir mərhələdə yaranma ehtimalı olan təhlükələr müəyyən edilir. Bu zaman yüklərin qəbulu, saxlanması, yoxlanılması və daşınmaya buraxılması mərhələləri xüsusi diqqət mərkəzində saxlanılır (Dekker, 2011).

Risklərin qiymətləndirilməsi mərhələsində ehtimal–təsir matrisi geniş tətbiq olunur. Bu metod risklərin prioritetləşdirilməsinə və idarəetmə sistemində hansı risklərin daha təcili müdaxilə tələb etdiyini müəyyən etməyə imkan verir. Beynəlxalq təcrübədə bu mərhələ təhlükəsizlik göstəricilərinin monitorinqi və idarəetmə effektivliyinin qiymətləndirilməsi meyarlarının müəyyən edilməsi ilə tamamlanır. Riskəsaslı yanaşmanın tətbiqində informasiya texnologiyalarının rolu xüsusilə vurğulanmalıdır. Avtomatlaşdırılmış yük izləmə sistemləri, inteqrasiya olunmuş təhlükəsizlik platformaları və məlumat mübadiləsinin vahid bazalar üzərindən həyata keçirilməsi idarəetmə qərarlarının operativliyini və dəqiqliyini artırır. Bununla yanaşı, insan amilinin minimallaşdırılması məqsədilə standart əməliyyat prosedurlarının (SOP) hazırlanması və davamlı təlim proqramlarının təşkili zəruri hesab olunur (Kharabsheh, Al-Rawabdeh, 2016).

Cargo terminallarında riskəsaslı yanaşmanın effektivliyi yalnız texniki tədbirlərlə məhdudlaşmır, eyni zamanda təşkilati strukturun təkmilləşdirilməsini də tələb edir. Məsuliyyət bölgüsünün aydın müəyyən edilməsi, daxili audit mexanizmlərinin gücləndirilməsi və təhlükəsizlik mədəniyyətinin formalaşdırılması idarəetmə sisteminin optimallaşdırılmasında əsas şərtlərdən biri-

dir. Bu kontekstdə risklərin idarə olunması Cargo terminalının ümumi strateji idarəetmə sisteminə inteqrasiya edilməlidir. Riskəsaslı yanaşmanın tətbiqi nəticəsində Cargo terminallarında əməliyyat səmərəliliyinin yüksəlməsi, təhlükəsizlik səviyyəsinin artırılması və beynəlxalq standartlara uyğunluğun təmin edilməsi mümkün olur. Bu isə hava nəqliyyatının davamlı inkişafına və beynəlxalq logistika zəncirlərində etibarlılığın gücləndirilməsinə töhfə verir (Khan, Ahmed, 2019).

Cargo terminallarında idarəetmə sisteminin optimallaşdırılması məqsədilə təklif olunan model riskəsaslı yanaşmaya əsaslanır və əməliyyat, təhlükəsizlik və idarəetmə komponentlərinin inteqrasiyasını nəzərdə tutur. Bu modelin əsas məqsədi risklərin sistemli şəkildə müəyyən edilməsi, onların təsirinin azaldılması və idarəetmə qərarlarının elmi əsaslarla qəbul edilməsidir (Zhang, Huang, 2018).

Təklif edilən model üç əsas blokdan ibarətdir: risklərin idarə olunması bloku, əməliyyat proseslərinin optimallaşdırılması bloku və nəzarət–monitorinq mexanizmləri. Risklərin idarə olunması blokunda Cargo terminalının fəaliyyətinə təsir göstərən bütün risklər identifikasiya edilir və risk matrisi vasitəsilə prioritetləşdirilir. Bu mərhələdə yüksək ehtimal və yüksək təsirə malik risklər kritik risklər kimi müəyyən edilir və dərhal müdaxilə tədbirləri tələb edir (Chen, & Li, 2020).

Əməliyyat proseslərinin optimallaşdırılması bloku Cargo terminallarında əsas proseslərin – yüklərin qəbulu, yoxlanılması, saxlanması və daşınmaya buraxılması mərhələlərinin təhlilinə əsaslanır. Proses xəritələşdirilməsi üsulu vasitəsilə vaxt itkisinə, resurs israfına və təhlükəsizlik boşluqlarına səbəb olan mərhələlər müəyyən edilir. Nəticədə standart əməliyyat prosedurlarının təkmilləşdirilməsi və texnoloji həllərin tətbiqi yolu ilə proseslərin səmərəliliyi artırılır.

Modelin üçüncü komponenti nəzarət və monitorinq mexanizmləridir. Bu mexanizmlər idarəetmə sisteminin davamlı fəaliyyətini və qəbul edilmiş qərarların effektivliyini qiymətləndirməyə imkan verir. Əsas idarəetmə effektivliyinin qiymətləndirilməsi meyarlarının müəyyən edilməsi, daxili audit prosedurlarının tətbiqi və mütəmadi risk qiymətləndirmələrinin aparılması bu mərhələnin əsas elementləri kimi çıxış edir (Brown, Wilson, 2016).

Təklif olunan modelin mühüm üstünlüklərindən biri onun adaptiv xarakter daşımasıdır. Model dəyişən əməliyyat mühiti və yeni risk faktorları şəraitində idarəetmə sisteminin çevik şəkildə yenilənməsinə imkan verir. Bununla yanaşı, model beynəlxalq aviasiya təhlükəsizliyi standartları ilə uyğunluq təşkil edir və müxtəlif miqyaslı Cargo terminallarında tətbiq oluna biləcək universal çərçivə təqdim edir (Smith, 2017).

Beləliklə, riskəsaslı model yanaşması Cargo terminallarında idarəetmə sisteminin optimallaşdırılmasını kompleks şəkildə təmin etməklə yanaşı, təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə, əməliyyat səmərəliliyinin artırılmasına və idarəetmə qərarlarının keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edir.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, Cargo terminallarında idarəetmə sisteminin səmərəliliyi hava nəqliyyatının təhlükəsizliyi, əməliyyat davamlılığı və iqtisadi effektivliyi baxımından həlledici əhəmiyyətə malikdir. Mövcud şəraitdə Cargo əməliyyatlarının mürəkkəbləşməsi və risk amillərinin artması klassik idarəetmə yanaşmalarının imkanlarını məhdudlaşdırır və riskəsaslı idarəetmə modellərinin tətbiqini zəruri edir.

Məqalədə aparılan nəzəri və analitik təhlil nəticəsində müəyyən edilmişdir ki, riskəsaslı yanaşma Cargo terminallarında idarəetmə sisteminin optimallaşdırılması üçün effektiv elmi-praktiki alət kimi çıxış edir. Bu yanaşma risklərin sistemli şəkildə identifikasiya olunmasına, prioritetləşdirilməsinə və idarəedici qərarların daha əsaslandırılmış formada qəbul edilməsinə imkan yaradır. Təklif olunan model əməliyyat, təhlükəsizlik və nəzarət mexanizmlərinin inteqrasiyası hesabına idarəetmə proseslərinin çevikliyini və adaptivliyini artırır.

Tədqiqat nəticələri göstərir ki, riskəsaslı idarəetmə modelinin tətbiqi Cargo terminallarında təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə, əməliyyat proseslərində gecikmələrin və resurs itkilərinin azaldılmasına, eləcə də beynəlxalq aviasiya təhlükəsizlik standartlarına uyğunluğun təmin edilməsinə

şərait yaradır. Xüsusilə risk matrisi, proses xəritələşdirilməsi və əsas performans göstəricilərinə əsaslanan nəzarət mexanizmləri idarəetmə sisteminin davamlı təkmilləşdirilməsində mühüm rol oynayır. Praktiki baxımdan tövsiyə olunur ki, Cargo terminallarında idarəetmə sistemlərinin inkişafı zamanı risklərin idarə olunması terminalın ümumi strateji idarəetmə sisteminə inteqrasiya edilsin, standart əməliyyat prosedurları beynəlxalq tələblərə uyğun şəkildə yenilənsin və insan resurslarının peşəkarlıq səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilsin. Bununla yanaşı, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi və mütəmadi risk qiymətləndirmələrinin aparılması idarəetmə sisteminin effektivliyini daha da yüksəldə bilər.

Beləliklə, riskəsaslı yanaşmaya əsaslanan idarəetmə modeli Cargo terminallarında təhlükəsizlik və səmərəliliyin balanslaşdırılmış şəkildə təmin edilməsinə imkan verən perspektivli istiqamət kimi qiymətləndirilə bilər və gələcək tədqiqatlar üçün də geniş imkanlar açır.

İstifadə edilmiş ədəbiyyat:

1. Brown, P., & Wilson, K. (2016). Enhancing airport cargo operations through risk assessment. International Journal of Aviation Management, 3(1), 33-50.

2. Dekker, S. (2011). Drift into Failure: From Hunting Broken Components to Understanding Complex Systems. Farnham: Ashgate.

3. European Civil Aviation Conference (ECAC). (2015). ECAC Policy Statement in the Field of Civil Aviation Security. Paris: ECAC.

4. Chen, L., & Li, Y. (2020). Application of risk-based management in airport cargo terminals. Journal of Air Transport Studies, 11(2), 45-62.

5. International Civil Aviation Organization (ICAO). (2017). Aviation Security Manual (Doc 8973). Montreal: ICAO.

6. International Civil Aviation Organization (ICAO). (2018). Annex 17 - Security: Safeguarding International Civil Aviation Against Acts of Unlawful Interference. Montreal: ICAO.

7. International Civil Aviation Organization (ICAO). (2019). Annex 9 — Facilitation. Montreal: ICAO.

8. International Air Transport Association (IATA). (2020). Cargo Handling Manual (ICHM). Montreal–Geneva: IATA.

9. International Air Transport Association (IATA). (2021). Air Cargo Security Manual. Montreal–Geneva: IATA.

10. ISO. (2018). ISO 31000: Risk Management - Guidelines. Geneva: International Organization for Standardization.

11. Kharabsheh, R., & Al-Rawabdeh, W. (2016). Risk management in air cargo operations: A case study. Journal of Air Transport Management, 53, 112-120.

12. Khan, A., & Ahmed, S. (2019). Optimizing cargo terminal operations: Techniques and methodologies. International Journal of Logistics Research and Applications, 22(3), 210-225.

13. Reason, J. (1997). Managing the Risks of Organizational Accidents. Aldershot: Ashgate.

14. Smith, J. (2017). Effective cargo terminal management strategies. Transportation Research Procedia, 25, 2250-2257.

15. Zhang, H., & Huang, X. (2018). Analysis of security threats in airport cargo handling. *Safety Science*, 103, 140-150.

G.J.Valiyeva
scientific worker, senior lecturer National Aviation Academy
ORCID 0009-0004-9004-7044

Applying a risk-based approach to optimizing management systems in cargo terminals

Abstract

This article examines the theoretical and practical aspects of applying a risk-based approach to optimizing airport cargo terminal management systems. With the expansion of global trade and the complexity of international supply chains, the strategic role of air transport has increased, necessitating stricter management requirements. This study conducted a theoretical and analytical analysis of existing cargo terminal management systems, classified the main risk groups (operational, security, information, and organizational risks), and substantiated a systematic risk assessment study based on ICAO, IATA, and ECAC documents. The article proposes an integrated model combining control mechanisms based on risk identification, probability-impact matrix prioritization, process planning, and management effectiveness assessment criteria. The results show that improving the quality of the risk-based management model reduces operational delays and resource losses, ensuring compliance with annual international standards. The proposed approach serves to develop a sustainable and adaptive cargo terminal management system.

Keywords: *cargo terminal, ICAO, IATA, ECAC, risk-based management model, risk identification, optimization.*

https://doi.org/10.58225/tim.2026-2-264-272

İ.Q.Hüseynli
i.e.n., dosent, Azərbaycan Dövlət İqtisad Üniverstetinin (UNEC)
i.huseynli@unec.edu.az

Məqalə redaksiyaya daxil olub 04.03.2026
The article was received by editorial board on 04.03.2026
Статья принята к печати 04.03.2026

AZƏRBAYCANDA QİDA SƏNAYESİNİN İNKİŞAFI: İNVESTİSİYA-İNNOVASİYA AMİLİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İXRAC PARADOKSU

Xülasə

Məqalədə Azərbaycanda qida sənayesinin inkişafı investisiya və innovasiya amilləri kontekstində təhlil edilmiş, investisiya və istehsal, innovasiya və adambaşına düşən istehsal göstəriciləri arasındakı mövcud əlaqə statistik-ekonometrik metodlarla qiymətləndirilmişdir. Tədqiqat zamanı qida sektorunun 2005–2024-cü illər üzrə rəsmi statistik məlumatları və Dünya Bankının müvafiq hesablamalarından istifadə edilmişdir. Araşdırma zamanı məlum olmuşdur ki, qida sənayesində son 20 ildə istehsal artımı müşahidə olunsa da, bu artım ixrac göstəriciləri ilə adekvatlıq təşkil etmir. Bu vəziyyət "ixrac paradoksu" kimi xarakterizə edilir və sektorun əsas probleminin istehsal həcmi deyil, onun struktur və ixracyönümlülük səviyyəsi ilə əlaqəli olduğunu göstərir. Məqalədə ölkənin qida sənayesinin inkişafı üçün investisiya və innovasiya amillərinin rolu qiymətləndirilmiş, sektorun daha səmərəli və dinamik inkişafı istiqamətində əsas yanaşmalar müəyyən edilmişdir.

Açar sözlər: *qida sənayesi, investisiya, innovasiya, adambaşına düşən istehsal, ixrac.*

GİRİŞ

Qida sənayesi bütün dövlətlərdə iqtisadiyyatın mühüm və strateji sahələrindən biri olmaqla yanaşı, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayan sahələrdən hesab olunur. Bu sektor əhalinin gündəlik ərzaq tələbatının ödənilməsi, daxili bazarın sabitliyinin təmin olunması və sənaye istehsalının diversifikasiyası baxımından ciddi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında da qeyri-neft sektorunun inkişafına yönəlmiş dövlət siyasəti çərçivəsində,sözsüz ki, qida sənayesinin inkişafı prioritet istiqamət olaraq müəyyən edilmişdir.

Son illərdə ölkədə qida sektorunda müşahidə olunan müsbət dinamika həm istehsal həcminin artımı, həm də bu sahəyə yönəldilən investisiyaların həcminin artırılması ilə səciyyələnir. İnvestisiyalar,bilavasitə, istehsal infrastrukturunun inkişafına,yenidənqurulmasına, yeni istehsal güclərinin yaradılmasına və məhsul çeşidinin genişləndirilməsinə ciddi təsir edən amillərdəndir. Bununla bərabər, onu da qeyd edək ki, innovasiya fəaliyyəti bu sektorda kreativ idealların və texnoloji yeniliklərin tətbiqini sürətləndirərək istehsalın səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

Qida sənayesində investisiya və innovasiya amillərinin istehsal nəticələrinə təsiri kompleks xarakter daşıyır və bu əlaqələrin statistik qiymətləndirilməsi bu sektorun inkişafı baxımdan qərar qəbuletmədə xüsusi əhəmiyyət daşıyır . Eyni zamanda, onu da zəruri olaraq əlavə etmək lazımdır ki, qida istehsalının yalnız ümumi həcm göstəriciləri ilə deyil, həm də adambaşına düşən istehsal göstəriciləri ilə müqayisəli qiymətləndirilməsi daha obyektiv nəticələrin əldə edilməsinə imkan verir.

Bu baxımdan təqdim edilən məqalədə 2005–2024-cü illər üzrə Azərbaycan Respublikasında qida sektorunun inkişaf göstəriciləri təhlil edilir,istehsal nəticələri investisiya və innovasiya amilləri

ilə qarşılıqlı əlaqə araşdırılır və dinamika sırasının son ili-2024-cü il üzrə adambaşına düşən qida istehsalı göstəricisi seçilmiş ölkələrlə müqayisəli şəkildə qiymətləndirilir.

Qeyd etdiyimiz kimi qida sənayesinin inkişafı ümumilikdə iqtisadi artımın və sənaye strukturunun diversifikasiyasının mühüm komponentlərindən biri olaraq qiymətləndirilir. Bu sektorun inkişafı yalnız istehsal həcminin artımı ilə deyil, həm də istehsalın keyfiyyət göstəriciləri,o cümlədən, texnoloji səviyyəsi və resurslardan istifadə səmərəliliyi ilə müəyyən olunur. Müasir iqtisadiyyatda qida sənayesi ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas faktoru kimi çıxış etməklə bərabər, eyni zamanda, daxili bazarın qorunmasında və ixrac potensialının formalaşmasında mühüm rol oynayır. Ona görə də, bu sektorun inkişaf səviyyəsini qiymətləndirərkən ixrac potensialının,ümumi ixracdakı payının müqayisəli qiymətləndirilməsi olduqca zəruridir.

Qida sənayesinin inkişafına təsir edən əsas amillər sırasında investisiya qoyuluşları xüsusi yer tutur. Klassik və neoklassik iqtisadi modellərdə də investisiya istehsal funksiyasının əsas komponentlərindən biri olaraq fərqləndirilir. Əlbəttə ki, digər sahələrdə olduğu kimi,qida sənayesində də investisiyalar yeni istehsal müəssisələrinin yaradılması və genişləndirilməsinə, mövcud istehsal güclərinin modernləşdirilməsinə və texnoloji avadanlıqların yenilənməsinə şərait yaradır. Yəni, praktiki olaraq, investisiya qoyuluşlarının artması qida sənayesində məhsul çeşidinin genişlənməsinə və istehsal həcminin artmasına səbəb olur. Məsələn, aqrar-xammal bazasının inkişafı ilə yanaşı olaraq emal sənayesinə,xüsusilə, qida sektoruna yönəldilən investisiyalar süd və ət məhsulları istehsalı,habelə, konserv sənayesində istehsalın genişlənməsinə gətirib çıxarır. Bu isə,əlbəttə ki, əlavə dəyərin ölkə daxilində formalaşmasına və idxaldan asılılığın azalmasına,həmçinin, ixracyönlü məhsul istehsalına xidmət etmiş olur.

Bununla yanaşı, müasir iqtisadi sistemdə innovasiya amili istehsalın effektivliyini müəyyən edən əsas faktorlardan biri hesab olunur. Məsələn, Endogen Böyümə Nəzəriyyəsi(Endogenous Growth Theory) innovasiyanı iqtisadi artımının əsas daxili mənbəyi olaraq qiymətləndirir, texnoloji tərəqqi və davamlı inkişafın əsasını təşkil etdiyini vurğulayır. Qida sənayesində innovasiyaların tətbiqi artan tələbata uyğun yeni məhsul çeşidlərinin yaradılmasına və resurslardan daha səmərəli istifadə olunmasına imkan verən əsas amil olaraq qəbul edilir.

Beləliklə, aparılmış təhlillər əsasında deyə bilərik ki, qida sənayesinin inkişafı investisiya, innovasiya və demoqrafik amillərin qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks iqtisadi proses kimi çıxış edir və bu əlaqələrin statistik qiymətləndirilməsi sektorun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir.

Tədqiqatın bəzi nəzəri və metodoloji məqamları

Qida sektorunun inkişafı iqtisadi nəzəriyyədə sənaye artımı, həyata keçirilən struktur dəyişiklikləri və eyni zamanda, dayanıqlı inkişaf kontekstində tədqiq olunan mühüm istiqamətlərdən biridir. Bu sektorun inkişafı ,bir qayda olaraq,klassik istehsal funksiyası yanaşmasına uyğun olaraq kapital, əmək və texnologiya amillərinin qarşılıqlı təsiri ilə izah olunur. Xüsusilə, populyar "Cobb-Douglas production function" modelinə əsasən sektor üzrə istehsal həcmi yatırılan kapital qoyuluşları və digər resursların effektiv istifadəsi ilə müəyyən edilir. Bu baxımdan onu deyə bilərik ki, qida sənayesində investisiya yatırımları istehsalın kəmiyyət artımını şərtləndirən əsas amillərdən biri olaraq qəbul edilir.

Neoklassiklərə görə investisiyalar istehsalın genişlənməsi və iqtisadi artımın təmin olunması baxımından xüsusi yerə sahibdir. Bu yanaşmaya görə, investisiyalar istehsal güclərinin artırılması və genişləndirilməsinə, texniki təchizatın daha da yaxşılaşdırılmasına və sonda məhsuldarlığın yüksəldilməsinə bilavasitə xidmət edən əsas amilolaraq qəbul edilir.Onu da əlavə edək ki, qida sənayesi kimi emal yönümlü sahələrdə investisiyalar yalnız istehsal həcmini artırmasında deyil, həm də əlavə dəyərin formalaşmasında xüsusi rola malikdir.

Həmçinin, onu da əlavə etmək lazımdır ki, müasir iqtisadi yanaşmalarda innovasiya amili də mühüm amil olaraq ön plana çıxır. Yuxarıda qeyd etdiyimiz kimi, Endogen Böyümə Nəzəriyyəsi

(Endogenous Growth Theory) çərçivəsində texnoloji tərəqqi və innovasiyalar iqtisadi artımın əsas və vacib daxili mənbəyi kimi qiymətləndirilir. Bu nəzəriyyəyə görə, innovasiyalara yönəldilən xərclər yalnız istehsal prosesinin təkmilləşdirilməsinə deyil, həmçinin, yeni məhsul və texnologiyaların yaradılmasında mühüm rol oynayır. Qida sənayesində innovasiyaların tətbiqi,bir qayda olaraq, məhsul keyfiyyətinin yüksəldilməsi, resurslardan səmərəli istifadənin optimallaşdırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi ilə nəticələnir.

Məlum olduğu kimi, qida sənayesinin inkişafı yalnız istehsal amilləri ilə deyil, həm də ***struktur və institusional amilləri*** ilə də sıx bağlıdır. Müasir iqtisadi təhlilərdə dəyər zənciri (value chain) yanaşması önəmli yer tutur. Bu yanaşmaya görə, məhsulun istehsalçıdan istehlakçıya çatdırılmasına qədər olan bütün mərhələlərdə əlavə dəyərin formalaşdırılması bu sektorun inkişaf səviyyəsini müəyyənləşdirən amillərdən hesab edilir. Məsələn, həyata keçirilmş təhlillər zamanı,Niderlandın timsalında, inkişaf etmiş ölkələrdəki qida sənayesinin yüksək ixrac göstəricilərini, məhz bu dəyər zəncirinin səmərəli təşkil olunması ilə izah etmək olar.

Qeyd etmək lazımdır ki,qida sənayesinin inkişaf səviyyəsinin qiymətləndirilməsi zamanı istifadə edilən mühüm göstəricilərdən biri də adambaşına istehsal göstəricisidir. Bu göstərici istehsalın yalnız ümumi həcmini deyil, həm də onun əhalinin tələbatını necə ödədiyini xarakterizə edən və digər ölkələrlə müqayisəliliyi əks etdirə bilən mühüm keyfiyyət göstəricisidir. Adambaşına düşən istehsal həcminin artması iqtisadi baxımdan bu sektorda məhsuldarlığın yüksəlməsi, resurslardan daha effektiv və rasional istifadə olunması kimi qiymətləndirilir.

Eyni zamanda, onu da zəruri olaraq qeyd etmək lazımdır ki, müasir iqtisadi tədqiqatlar zamanı qida sənayesinin inkişafı ilə ixrac potensialı arasında əlaqənin qiymətləndirilməsi də xüsusi önəm daşıyan məqamlardan hesab edilir. Məhz, bu kontekstdə bəzi hallarda, o cümlədən bu tədqiqatda "ixrac paradoksu" kimi xarakterizə olunan vəziyyət müşahidə olunur. Bu hal istehsalın artmasına rəğmən ixrac göstəricilərinin adekvat səviyyədə olmamamsı ilə izah edilir. Bu isə istehsalın daha çox daxili tələbatın ödənilməsi, məhsulun beynəlxalq standartlara uyğunluq səviyyəsinin aşağı olması,rəqabətyönlülük səviyyəsinin aşağı olması və logistika sistemlərinin yetərincə inkişaf etməməsi ilə əlaqələndirilir.

Beləliklə, nəzəri yanaşmalar göstərir ki, qida sənayesinin inkişafı çoxamilli və kompleks iqtisadi prosesdir və bir qayda olaraq, investisiya, innovasiya, texnologiya və bazar strukturlarının qarşılıqlı təsiri nəticəsində formalaşır. Bu baxımdan sektorun inkişafının qiymətləndirilməsi üçün yalnız istehsal göstəricilərinin deyil, həmçinin, rəqabət qabiliyyətli və ixrac yönümlülük amilləri ilə kompleks təhlilini zəruri edir.

Tədqiqatda Azərbaycan Respublikasının qida sənayesinin inkişaf göstəricilərinin təhlili məqsədilə Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarından,habelə Dünya Bankının hesablamalarından istifadə olunmuşdur. Araşdırma 2005–2024-cü illəri əhatə edir və bu dövr üzrə əsas iqtisadi göstəricilər dinamik şəkildə təhlil edilmişdir.Son 20 ilin göstəricilərinin götürülməsi, təhlil zamanı bəzi göstəricilər arasındakı əlaqənin reqressiya modelinin etibarlılıq amili bağlıdır.

Tədqiqat çərçivəsində aşağıdakı əsas göstəricilərdən istifadə edilmişdir:

- qida sənayesi üzrə istehsal həcmi (mln manatla)
- qida sənayesinə yönəldilmiş investisiyalar (mln manatla)
- innovasiya xərcləri (min manatla)

Məlumatların təhlili zamanı statistik və ekonometrik yanaşmalardan istifadə edilmişdir. İlk mərhələdə dinamik sıraları qurulmuş və təhlili təhlili həyata keçirilmişdir. Daha sonra qrafik üsuldan istifadə etməklə dəyişənlər arasındakı vizual əlaqələr qiymətləndirilmişdir.

Əlavə olaraq, tədqiqat çərçivəsində istehsalın daha obyektiv qiymətləndirilməsi məqsədilə adambaşına düşən qida istehsalı və adambaşına düşən ixrac göstəriciləri də hesablanmış və alınmış nəticələr son il üzrə seçilmiş ölkələrlə müqayisəli təhlil üçün istifadə olunmuşdur. Bu yanaşma Azər-

baycan qida sənayesinin inkişaf səviyyəsinin beynəlxalq kontekstdə qiymətləndirilməsinə imkan verir.

Hesablamalar,təhlillər və şərhlər

Qeyd etdiyimiz kimi,bu sektorun inkişaf səviyyəsini təhlili zamanı qida sənayesi üzrə 2005–2024-cü illərə aid Dövlət Statistika Komitəsinin rəsmi statistik məlumatları və Dünya Bankının bəzi müvafiq hesablamalarından istifadə edilmişdir. İlk növbədə onu qeyd etmək istərdim ki, həyata keçirilən statistik təhlil göstərir ki, Azərbaycan Respublikasında qida sənayesində istehsal həcmində ümumilikdə artım tendensiyası müşahidə edilir. Cədvəl 1-in məlumatlarından göründüyü kimi, tədqiqat dövrünün əvvəlində 1094,5 mln manat təşkil edən istehsal həcmi 2024-cü ildə 4690,6 mln manata çatmışdır. Bu isə təxminən 4 dəfədən çox artım deməkdir.

Cədvəl 1

Azərbaycan qida sənayesi üzrə bəzi göstəricilər(2005-2024-cü illər)


İllər	Qida istehsalı, (mln manat)	İnvestisiya (mln manat)	Innovasiya (min manat)	Əhali sayı (min nəfər)	Adambaşına istehsal (manat)
2005	1094,5	28	3421,5	8447,4	129,6
2006	1154,3	31,3	486,2	8553,1	134,96
2007	1254,9	33,2	11224	8666,1	144,81
2008	1381	29	1850	8779,9	157,30
2009	1520,3	33,6	93,7	8922,2	170,40
2010	1924,6	27,1	690,6	8997,6	213,90
2011	2107,6	46,5	782,8	9111,1	231,32
2012	2574,8	75,3	2706	9235,1	278,81
2013	2286,4	160,8	997,4	9356,5	244,36
2014	2422	92,4	1156,7	9477,1	255,56
2015	2307,6	87,9	-	9593	240,55
2016	2964,7	63,6	-	9705,6	305,46
2017	2999,8	125,5	81,5	9810	305,79
2018	3050,8	196,6	-	9898,1	308,22
2019	3584,8	140,4	208,7	9951,4	360,23
2020	3884,3	225,1	8667	9974	389,44
2021	4495,6	197,8	98,1	10026,1	448,38
2022	4890,9	206,5	195,1	10063,3	486,01
2023	4547,6	132,2	544	10127,1	449,05
2024	4690,6	118,4	831,3	10180,3	460,75

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı- stat.gov.az*

İstehsalın dinamikasına nəzər saldıqda, artımın bütün dövr üzrə bərabər xarakter daşımadığı müşahidə olunur. Xüsusilə 2010–2013 və 2019–2022-ci illərdə daha sürətli artım qeydə alınmışdır. Artım dinamikası xüsusilə 2010-cu ildən sonra daha sürətli xarakter almışdır ki, bu da qida sənayesində investisiya fəaliyyətinin genişlənməsi və istehsal güclərinin artırılması ilə izah edilə bilər.

Bununla yanaşı, bəzi illərdə, o cümlədən 2014–2016 və 2022–2023-cü illərdə istehsalın nisbətən stabilləşməsi və ya qismən azalması da müşahidə edilmişdir. Müşahidə edilən bu dinamika qida sənayesinin həm daxili iqtisadi amillərdən, həm də xarici faktorlardan asılı olaraq inkişaf etdiyini göstərir.

Şəkil 1-də qida sektorunun istehsal dinamikasında müşahidə edilən məqamlar özünü daha aydın şəkildə göstərmişdir.



Şəkil 1. Azərbaycan Respublikasında qida istehsalı(2005-2024-cü illər)
Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı- stat.gov.az*

Azərbaycanın qida istehsalı səviyyəsinin daha geniş kontekstdə qiymətləndirilməsi məqsədilə seçilmiş ölkələrlə müqayisə aparılmışdır. Müqayisə üçün aşağıdakı ölkələr seçilmişdir: Azərbaycan,Qazaxıstan ,Gürcüstan,Türkiyə,Niderland.

Apardığımız hesablamalar göstərir ki, tədqiqat dövrünün son 2024-cü ilində adambaşına qida istehsalı göstəricisi bu ölkələrdə müvafiq olaraq, təqribi qiymətlərlə 270,330, 350,500 dolar, Niderlandda isə təqribən 5500 dollar, adambaşına ərzaq ixracı isə seçilmiş ölklələr üzrə müvafiq olaraq 107.7, 809.7, 244.3, 375.9 və Niderlandda isə 8403.6 ABŞ dolları həcmində olmuşdur.

Müqayisəli təhlil göstərir ki, hər iki mühüm keyfiyyət göstəriciləri üzrə seçilmiş ölkələr içərisində ən aşağı göstərici Azərbaycandadır. Bunun isə əsas səbəblərindən birinin səmərəli innovasiya siyasətinin olmamasıdırsa, digər səbəblərdən biri də investisiya mühitinin yetərincə əlverişli olmamasıdır. Belə ki, son illər qida sektoruna qoyulan ümumi investisiya xərcləri içərisində xarici investisiyaların payının minimal həddə olması diqqəti cəlb edir. Araşdırmalar həm də onu göstərir ki, inkişaf etmiş ölkələrdə, xüsusilə Niderlandda qida istehsalı,məhz, yüksək texnoloji səviyyə və innovasiya əsaslı model hesabına daha yüksək effektivliklə həyata keçirilir. Ona görə də, Niderland kimi ölkələrdə adambaşına düşən istehsal göstəricisi yalnız resurs bolluğu ilə deyil, əsasən innovasiya və yeni texnologiyaların effektli tətbiqi ilə birbaşa bağlıdır.

Lakin inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycan və digər region ölkələrində istehsalın artımı daha çox investisiya və təbii resurslara əsaslanır. Bu isə göstərir ki, gələcək inkişaf üçün innovasiya əsaslı modelə keçid zəruridir.

Qida sənayesi üzrə beynəlxalq müqayisənin aparılması metodoloji baxımdan müəyyən çətinliklər yaradır. Belə ki, ölkələr üzrə qida sənayesinin istehsal həcmi vahid standartda və eyni ölçü vahidində təqdim olunmur. Bu səbəbdən tədqiqat çərçivəsində müqayisə əsasən keyfiyyət və struktur göstəriciləri əsasında aparılmışdır.

Qeyd edək ki, müqyisəli hesablamalar üçün istifadə edilən rəqəmlər milli statistika orqanlarının məlumatları əsasında aparılmışdır. Yəni,qida sənayesinin istehsal həcmi müvafiq ölkələrin statistik mənbələrindən götürülmüş,cari valyuta kursuna uyğun olaraq ABŞ dollarına çevrilmiş və əhali sayına bölünərək adambaşına göstərici hesablanmışdır.

Eyni zamanda cədvəl 1-in məlumatları əsasında 2005–2024-cü illər üzrə qida sənayesinə yönəldilmiş investisiyaların təhlili göstərir ki, bu göstərici illər üzrə əhəmiyyətli dəyişkənlik nümayiş etdirmişdir. Belə ki, 2005-ci ildə 28,0 mln manat təşkil edən investisiya həcmi 2020-ci ildə 225,1 mln manata qədər artmışdır.

Xüsusilə onu vurğulamaq lazımdır ki, 2012–2013-cü illərdə investisiyaların kəskin artımı müşahidə olunur ki, bu da qida sənayesində istehsalın artımı ilə paralel baş vermişdir. Qeyd edilən bu fakt investisiya qoyuluşları ilə istehsal həcmi arasında müsbət əlaqənin mövcudluğunu göstərir. Həmçinin, onu da qeyd etmək lazımdır cədvəl 1-in məlumatlarından göründüyü kimi,son illərdə investisiya həcminin müəyyən qədər azalmasına baxmayaraq, istehsalın artımının davam etməsi müşahidə edilir ki, bu da əvvəlki dövrlərdə qoyulmuş investisiyaların müsbət təsirləri ilə izah edilməlidir.


Onu da,həmçinin, qeyd etmək lazımdır ki, investisiyanın təsiri dərhal deyil, müəyyən zaman kəsiyində gecikmə ilə özünü göstərir. Bu baxımdan ,o qənatə gəlmək olur ki, investisiya qoyuluşları qida sənayesində "gecikmiş təsir" mexanizmi ilə fəaliyyət göstərir. Bu nəticə isə,həyata keçiriləcək investisiya siyasətinin uzunmüddətli planlaşdırılmasının vacibliyini ortaya qoyur.

Qida sənayesinə yönəldilmiş investisiya və istehsal arasındakı əlaqəni daha dərindən öyrənmək məqsədilə bu iki göstərici arasındakı mövcud əlaqənin forma və sıxlığını müəyyən etmək üçün reqressiya tənliyi və paylanma qrafikindən istifadə etdik.

Şəkil 1-də investisiya xərcləri ilə qida istehsalı arasındakı əlaqənin paylanma qrafiki və regresiya xətti tənliyi təqdim olunmuşdur.

Qrafikdən göründüyü kimi bu iki göstərici arasındakı mövcud əlaqə tənliyi **y=14.686x+1250.6,** determinasiya əmsalı isə 0.6409 -a bərabərdir. **Yəni,R^2 = 0,6409**

Bu nəticələr göstərir ki, investisiya ilə istehsal arasında **müsbət və orta güclü xətti əlaqə** mövcuddur. R^2 = 0.64 o deməkdir ki, istehsal dəyişkənliyinin təxminən 64%-i bilavasitə investisiya qoyuluşları ilə bağlıdır .



Şəkil 1. İnvestisiya və istehsal arasındakı əlaqə qrafiki

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı- stat.gov.az*

İqtisadi baxımdan bu nəticə onu göstərir ki, investisiya qoyuluşları istehsalın genişlənməsində mühüm rol oynayır , lakin o da məlumdur ki,istehsalın həcmi yalnız investisiya qoyuluşlarından asılı deyil. Qrafikdə nöqtələrin regresiya xətti ətrafında səpələnməsi investisiya effektinin birbaşa və ani deyil, müəyyən gecikmə və digər amillərlə birlikdə reallaşdığını ifadə edir. Məsələn, yüksək investisiya qoyuluşu ilə müşahidə edilən bəzi illərdə istehsalın qeydə alınan nisbətən aşağı səviyyə-

sində investisiyaların strukturu və səmərəliliyinin də mühüm təsir göstərdiyinin nəticəsi hesab edilməlidir.


Araşdırmalar zamanı,həmçinin, qida sektorunda innovasiya xərclərinin təhlili göstərir ki, bu göstərici digər iqtisadi dəyişənlərlə müqayisədə daha qeyri-sabit xarakterlidir. Cədvəl 1-in məlumatlarından görünür ki, bəzi illərdə innovasiya xərclərinin yüksək səviyyəsi müşahidə edildiyi halda, bəzi dövrlərdə bu göstərici ya çox aşağı(2021-2023-cü illər), ya da ümumiyyətlə qeydə(2015-2018-ci illər) alınmamışdır.

Bu qeyri-sabitlik innovasiya fəaliyyətinin sistemli xarakter daşımadığını göstərir. Bununla yanaşı, müəyyən dövrlərdə innovasiya xərclərinin artımı istehsal həcminin yüksəlməsi ilə müşahidə olunmuşdur ki, bu da innovasiyanın qida sənayesinin inkişafında vacib rola malik olduğunu göstərir.

Lakin ümumi tendensiya göstərir ki, innovasiya amili qida sənayesində hələ də tam olaraq potensialını reallaşdırmamışdır və onun təsiri investisiya amili ilə müqayisədə daha zəif və qeyri-sabitdir. Bu isə qida sektorunda innovasiya siyasətinin daha sistemli və davamlı şəkildə həyata keçirilməsinin zəruriliyini göstərir.

Onuda qeyd edək ki, tədqiqat dövründə Azərbaycan Respublikasında əhali sayının davamlı artımı müşahidə olunmuşdur. Belə ki, əhali sayı 2005-ci ildə 8,4 mln nəfər olduğu halda, 2024-cü ildə 10,1 mln nəfərə çatmışdır. Əhali sayının artım dinamikası qida məhsullarına olan tələbin genişlənməsinə səbəb olmuş və bu da qida sektorunda istehsalın artımını stimullaşdıran və şərtləndirən mühüm amillərdən biri kimi çıxış etmişdir.Eyni zamanda,cədvəl 1-dən göründüyü kimi qida sənayesinin inkişaf səviyyəsinin daha obyektiv qiymətləndirilməsi məqsədilə adambaşına düşən qida istehsalı göstəricisi hesablanmışdır və bu göstərici ölkədə qida sənayesinin əhali təminatı baxımından müəyyən səviyyədə inkişaf etdiyini göstərir.

Qida sənayesinə yönəldilmiş innovasiya xərclərinin adambaşına düşən istehsal göstəricisi arasındakı əlaqəni qiymətləndirmək məqsədilə bu iki göstərici arasındakı əlaqə qrafiki və reqressiya tənliyinə nəzər salaq(Şəkil 2).



Şəkil 2. İnnovasiya və adambaşına istehsal arasındakı əlaqə qrafiki

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi saytı- stat.gov.az*

Şəkil 2-dən göründüyü kimi innovasiya xərcləri ilə adambaşına qida istehsalı arasında əlaqə təqdim olunmuşdur.Göründüyü kimi bu iki göstərici arasındakı regresiya tənliyi Y_x= 87.577 + 18.873x, determinasiya əmsalı isə R^2 = 0.94 formasındadır. Bu nəticə göstərir ki, innovasiya ilə adambaşına istehsal arasında çox güclü xətti əlaqə mövcuddur.

Qeyd etmək lazımdır ki, bu nəticə bir çox mühüm iqtisadi mahiyyət və təsir əlaqəsini ifadə edir. Yəni, innovasiya ciddi amil əlaməti olaraq istehsalın keyfiyyətini artırır, texnoloji səviyyəni yüksəldir və ən əsası resurslardan daha səmərəli istifadəni təmin edir. Bu isə,əlbəttə ki, birbaşa olaraq, adambaşına istehsalın artmasını şərtləndirmiş olur. Lakin bütün bunlara baxmayaraq onu da qeyd etmək lazımdır ki, innovasiya **xərcləri** çox qeyri-sabitdir və bu da ilk növbədə onu göstərir ki, innovasiya siyasəti sistemli deyil və təsir güclü olsa da davamlılıq təmin edilmir.

NƏTİCƏ

- Aparılmış tədqiqat və təhlillər nəticəsində müəyyən edilmişdir ki, 2005–2024-cü illər ərzində qida sektoru ümumilikdə yüksələn inkişaf trayektoriyası nümayiş etdirmiş, istehsalın həm ümumi həcmi, həmçinin, adambaşına düşən səviyyəsi artmışdır. Müşahidə edilən bu dinamika qida sənayesinin ölkə iqtisadiyyatında və əhalinin ərzaq təminatında rolunun gücləndiyini göstərir. Lakin, təhlil göstərir ki, artım prosesi bütün dövr üzrə bərabər və sabit olmamış, bəzi dövrlərdə zəifləmə və ya qısamüddətli enmələr də müşahidə edilmişdir. Bu isə ölkədə qida sektorunun həm daxili iqtisadi şəraitdən, həm də xarici təsirlərdən asılı olduğunu göstərir.

- Regressiya və paylanma qrafikləri əsasında aparılmış qiymətləndirmə onu göstərmişdir ki, qida sektorunda istehsalın artım dinamikasında investisiya amili mühüm rol oynayır. İnvestisiya ilə istehsal arasında müsbət əlaqənin mövcudluğu onu göstərir ki, istehsal güclərinin yetərli olmasa da, genişləndirilməsi və sənaye infrastrukturunun yaxşılaşdırılması məhsul istehsalına birbaşa təsir edir. Lakin müşahidə edilən bu əlaqənin tam deterministik xarakter daşımaması onu deməyə əsas verir ki,bu sektorda istehsal nəticələri yalnız kapital qoyuluşları ilə deyil, eyni zamanda idarəetmə, bazar mühiti, xammal təminatı və texnoloji səviyyə ilə formalaşır.

- Tədqiqatın diqqətçəkən nəticələrindən biri innovasiya xərcləri ilə adambaşına qida istehsalı arasında müsbət əlaqənin müşahidə olunmasıdır. Bu nəticə göstərir ki, innovasiya qida sənayesində yalnız istehsal həcmini deyil, daha çox istehsalın səmərəliliyini və məhsuldarlığını yüksəldən amildir. Lakin, innovasiya xərclərinin illər üzrə qeyri-sabit xarakterli olması bu sahədə davamlı və sistemli yanaşmanın hələ tam formalaşmadığını göstərir.

- Həyata keçirilmiş müqayisəli təhlil göstərmişdir ki, Azərbaycanda qida istehsalının artmasına baxmayaraq, bu artım ixrac göstəricilərində eyni intensivlikdə əks olunmur. Adambaşına ərzaq ixracı üzrə Azərbaycanın göstəricilərinin Gürcüstan, Qazaxstan,Türkiyə ilə müqayisədə aşağı, Niderlandla müqayisədə isə kəskin aşağı olması "ixrac paradoksu"nun mövcudluğunu təsdiqləyir. Bu isə onu təsdiq etmiş olur ki, qida sektorunda istehsal artımı faktı kifayət deyil.Müşahidə edilən bu artımın xarici bazarlara çıxışı, istehsal edilən məhsulların rəqabət qabiliyyətli və keyfiyyət standartlarına malik olması, habelə, adekvat logistika imkanları ilə tamamlanması zəruridir.

Beləliklə, həyata keçirilmiş tədqiqat göstərir ki, Azərbaycanda qida sənayesinin inkişafı üçün lazım olan baza mövcuddur və sektorun artım potensialı müşahidə edilir. Lakin bu potensialın tam reallaşdırılması üçün investisiya və innovasiya fəaliyyəti nəzərəçarpacaq və əsaslandçrçlmış səviyyədə şəkildə gücləndirilməli, istehsal artımının rəqabət qabiliyyətli və ixracyönümlü nəticələrə çevrilməsi və bu sektorun yüksək əlavə dəyər yarada biləcək modelə keçirilməsi vacibdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Rəsmi statistik məlumatlar. Bakı: ARDSK.

2. World Bank. World Development Indicators. Washington, DC: The World Bank.

3. FAO. FAOSTAT Database. Rome: Food and Agriculture Organization of the United Nations.

4. State Statistical Committee of the Republic of Azerbaijan. Official website. Available at: stat.gov.az.

5. National Statistics Office of Georgia (GeoStat). Official website. Available at: geostat.ge.

6. Bureau of National Statistics of the Agency for Strategic Planning and Reforms of the Republic of Kazakhstan. Official website. Available at: stat.gov.kz.

7. Turkish Statistical Institute (TÜİK). Official website. Available at: tuik.gov.tr.

8. Statistics Netherlands (CBS). Official website. Available at: cbs.nl.

9. Solow, R.M.A contribution to the theory of economic growth. Quarterly Journal of Economics.

10. Romer, P.M. Endogenous technological change. Journal of Political Economy.

11. Porter, M.E. The Competitive Advantage of Nations. New York: Free Press.

12. OECD. Innovation and Productivity in the Food Sector. Paris: OECD Publications.

13. United Nations Industrial Development Organization (UNIDO). Industrial Development Report. Vienna: UNIDO.

14. World Trade Organization. World Trade Statistical Review. Geneva: WTO.

15. European Commission. Food Industry Competitiveness Report. Brussels: European Commission.

I.Q.Huseynli
Candidate of Economic Sciences, Associate Professor,
Azerbaijan State University of Economics (UNEC)

Development of the food industry in Azerbaijan: assessment of the investment-innovation factor and the export paradox

Abstract

This article analyzes the development of the food industry in Azerbaijan in the context of investment and innovation factors, and assesses the existing relationship between investment and production, innovation, and per capita production indicators using statistical and econometric methods. The study utilizes official statistical data on the food sector for 2005–2024 and corresponding World Bank calculations. The study found that, despite the growth of production in the food industry over the past 20 years, this growth does not correspond to export indicators. This situation is characterized as an "export paradox" and indicates that the sector's main problem is not related to production volume, but to its structural and export-oriented nature. The article assesses the role of investment and innovation factors in the development of the country's food industry and identifies key approaches to more effective and dynamic development of the sector.

Keywords: *food industry, investment, innovation, per capita production, export.*

https://doi.org/10.58225/tim.2026-2-273-280

R.T.Əliyeva
i.ü.f.d., dosent, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0000-0002-5214-006X
ruhangiz.aliyeva@azmiu.edu.az
L.S.Rəhimova
müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti PHŞ
ORCID 0009-0008-6680-5094
leyla.rahimova@azmiu.edu.az

Məqalə redaksiyaya daxil olub 19.03.2026
The article was received by editorial board on 19.03.2026
Статья принята к печати 19.03.2026

RƏQƏMSAL İDARƏETMƏ VƏ SÜNİ İNTELLEKTİN REGİONAL DAVAMLI İNKİŞAFDA ROLU: AZƏRBAYCAN MODELİ

Xülasə

Tədqiqat rəqəmsal transformasiya və süni intellekt (Sİ) texnologiyalarının Azərbaycanın regional inkişaf strategiyasına inteqrasiyası imkanlarını təhlil edir. Məqalədə ənənəvi idarəetmədən "GovTech" modelinə keçidin iqtisadi səmərəliliyi, İKT sektorunun 2020–2024-cü illər üzrə dinamikası və regional bərabərsizliyin aradan qaldırılmasında rəqəmsal həllərin rolu araşdırılır. Tədqiqat çərçivəsində Azərbaycan üçün beş səviyyəli rəqəmsal idarəetmə modeli təklif olunur. Nəticələr göstərir ki, Sİ əsaslı analitik mexanizmlərin tətbiqi resurs bölgüsünü optimallaşdırmaqla yanaşı, regionların investisiya cəlbediciliyini artırır. Məqalənin sonunda rəqəmsal fərqliliyin azaldılması və kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsi istiqamətində strateji tövsiyələr irəli sürülür.

Açar sözlər: *rəqəmsal idarəetmə, süni intellekt, Azərbaycan modeli, regional inkişaf, İKT dinamikası, GovTech.*

GİRİŞ

Qlobal iqtisadi transformasiya dövründə rəqəmsal texnologiyalar dövlət idarəetməsi, iqtisadi inkişaf və sosial münasibətlər sistemində fundamental dəyişikliklərə səbəb olmuşdur. İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı dövlətlərin idarəetmə mexanizmlərini modernləşdirməsinə, xidmətlərin keyfiyyətini artırmasına və qərar qəbuletmə proseslərini daha səmərəli təşkil etməsinə imkan yaradır. Rəqəmsallaşma prosesi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri kimi çıxış edir. Son illərdə ölkədə genişzolaqlı internet infrastrukturunun sürətli inkişafı, elektron hökumət xidmətlərinin əhatə dairəsinin genişlənməsi, "Hökumət buludu", "Böyük həcmli məlumatlar", "Ağıllı şəhər" və "Ağıllı kənd" kimi innovativ rəqəmsal təşəbbüslərin reallaşdırılması dövlət idarəetmə sisteminin modernləşdirilməsi və səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal transformasiya çərçivəsində dövlət idarəetməsində "elektron hökumət" modelindən daha inkişaf etmiş mərhələ olan "rəqəmsal hökumət" (GovTech) konsepsiyasına keçid həyata keçirilir. Bu model dövlət, biznes və vətəndaş arasında qarşılıqlı əlaqənin rəqəmsal platformalar üzərindən qurulmasını, məlumat əsaslı qərar qəbuletmə sistemlərinin tətbiqini və idarəetmədə şəffaflığın artırılmasını nəzərdə tutur.

Beynəlxalq reytinqlər də Azərbaycanın rəqəmsallaşma sahəsində əldə etdiyi irəliləyişləri göstərir. 2023-cü ilin hesabatına görə, əhalinin 88%-i internet istifadəçisidir. Dünya Bankı 2022-ci ilin noyabrında "GovTech Maturity" İndeksi (GTMI) üzrə 198 ölkə arasında ilkin reytinqləri açıqlamış, Azərbaycan 2020-ci ildəki B qrupundan 2022-ci ildə A qrupuna (Liderlər) yüksəlmişdir. BMT-nin "e-Government Survey 2022" hesabatında isə Azərbaycan "Elektron Hökumətin İnkişafı İndeksi" üzrə 193 ölkə arasında 83-cü yeri tutmuş, o cümlədən "Onlayn Xidmətlər İndeksi" üzrə 100 mümkün baldan 61 bal (dünya üzrə orta bal 56), "Telekommunikasiya İnfrastrukturunun İnkişafı İndeksi" üzrə 68 bal (dünya üzrə orta bal 58), "İnsan Kapitalı İndeksi" üzrə isə 79 bal (dünya üzrə orta bal 70) toplamışdır. [1]

Bu şəraitdə regional inkişafın idarə olunmasında rəqəmsal texnologiyaların və süni intellekt əsaslı analitik sistemlərin tətbiqi xüsusi aktuallıq kəsb edir. Məqalənin məqsədi rəqəmsal idarəetmə və süni intellekt texnologiyalarının regional davamlı inkişafın təmin edilməsində rolunu Azərbaycan nümunəsində təhlil etmək və məlumat əsaslı idarəetməyə əsaslanan konseptual model təklif etməkdir.

Son illərdə rəqəmsallaşma Azərbaycanın sosial-iqtisadi inkişaf gündəliyində əsas prioritet istiqamətlərdən birinə çevrilmişdir. Ölkədə informasiya və kommunikasiya texnologiyaları sahəsində infrastrukturun yenilənməsi, innovativ həllərin tətbiqi və texnoloji modernləşmə prosesləri intensiv şəkildə həyata keçirilir. Xüsusilə genişzolaqlı internet şəbəkəsinin genişləndirilməsi, "Hökumət buludu" (G-Cloud), böyükhəcmli məlumatların idarə olunması (Big Data), eləcə də "Ağıllı şəhər" və "Ağıllı kənd" kimi rəqəmsal təşəbbüslərin reallaşdırılması bu istiqamətdə mühüm rol oynayır. Aparılan islahatlar Azərbaycanın regional miqyasda rəqəmsal inkişaf mərkəzlərindən birinə çevrilməsini hədəfləyir. [2]

Rəqəmsal texnologiyalar dövlət idarəetmə sistemlərinin transformasiyasında əsas rol oynayan amillərdən biridir [3]

Dövlət idarəetməsində rəqəmsallaşma həm xidmətlərin (G2C, G2B), həm də qurumlararası fəaliyyətin (G2G, G2E) vahid platformada inteqrasiyasını təmin edir. Bu proses məlumatların toplanması, təhlili və paylaşımının standartlaşdırılmış sistemlər üzərindən həyata keçirilməsinə əsaslanır. Rəqəmsal inkişafın əsas mahiyyəti "elektron hökumət"dən daha inkişaf etmiş "rəqəmsal hökumət" (GovTech) modelinə keçiddir ki, bu da dövlət, biznes və vətəndaş münasibətlərini daha çevik, şəffaf və məlumat əsaslı idarəetmə müstəvisinə keçirir. [1]

Elektron hökumət xidmətləri dövlət idarəetməsində şəffaflığın və səmərəliliyin artırılmasına mühüm töhfə verir, çünki onlar vətəndaşların dövlət strukturları ilə qarşılıqlı əlaqəsini asanlaşdırır, bürokratik prosedurları sadələşdirir, məlumatların açıq və əlçatan olmasını təmin edir və qərar qəbuletmə prosesində hesabatlılığı gücləndirir. [4]

Rəqəmsal hökumət arxitekturasının qurulması: Dövlət qurumlarında formalaşdırılacaq rəqəmsal hökumət arxitekturası qarşılıqlı inteqrasiya əsasında fəaliyyət göstərərək G2G, G2E və G2B istiqamətlərində məlumat axınının səmərəli idarə olunmasını təmin etməlidir. Qurumlar arasında məlumat mübadiləsi "Elektron Hökumət İnformasiya Sistemi" (EHİS) vasitəsilə həyata keçirilməli, müxtəlif sistem və platformalar arasında inteqrasiya zamanı vahid qaydalar və standartlar tətbiq olunmalıdır. Dövlət əhəmiyyətli informasiya sistemləri, məlumat resursları və bazalar "Hökumət buludu" üzərində yerləşdirilməlidir. Müasir texnoloji həllər uyğun və əlçatan rabitə infrastrukturunun mövcudluğunu tələb edir. Xidmətlərin xüsusiyyətlərinə uyğun olaraq 5G, LoRa, yüksək sürətli fiber-optik şəbəkələr kimi müxtəlif kommunikasiya texnologiyalarından istifadə zəruridir. Bu texnologiyaların tətbiqi üçün zəruri hüquqi baza və infrastruktur formalaşdırılmalı, eyni zamanda investisiyaların cəlbi və təşviqi məqsədilə dövlət dəstəyi mexanizmləri tətbiq edilməlidir.

Rəqəmsal hökumət sisteminin bütün mərhələlərində informasiya təhlükəsizliyi əsas prioritet kimi nəzərə alınmalıdır. Şifrələmə, müasir autentifikasiya üsulları, girişlərin idarə olunması, məlumatların qorunması və kiberhücumlardan müdafiə kimi tədbirlər təmin edilməlidir. İKT sahəsinin inkişafında və təhlükəsizlik həllərinin tətbiqində yerli istehsala üstünlük verilməsi, uzun-

müddətli perspektivdə isə xarici texnologiyalardan asılılığın azaldılması vacibdir. 2023-cü ildə Bakı şəhərində keçirilmiş 74-cü Beynəlxalq Astronavtika Konqresində peyk texnologiyalarının əhəmiyyəti xüsusi vurğulanmışdır. Bu çərçivədə genişzolaqlı peyk internet xidmətlərinin tətbiqi planlaşdırılır ki, bu da mövcud telekommunikasiya infrastrukturunun məhdudiyyətlərini aradan qaldırmağa imkan verəcək və həm dənizdə, həm də quruda qabaqcıl xidmətlərin göstərilməsini təmin edəcəkdir. Dövlət xidmətlərinin rəqəmsallaşmasının sürətlənməsi, məlumat həcminin artması və server tələbatının yüksəlməsi nəzərə alınaraq "Hökumət buludu"nun infrastrukturunun genişləndirilməsi, yeni milli data mərkəzlərinin layihələndirilməsi və yaradılması planlaşdırılır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasında müasir data mərkəzinin inşası üçün zəruri texniki infrastrukturun formalaşdırılması nəzərdə tutulur. [5]

Prezident İlham Əliyevin təşəbbüsü ilə "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirə keçirilib və burada regionların rəqəmsal infrastrukturunun inkişafı əsas müzakirə mövzularından biri olub. Azərbaycan son illərdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, dövlət idarəçiliyində innovativ yanaşmaların genişləndirilməsi və elektron xidmətlərin əlçatanlığının artırılması baxımından regionda öncül mövqelərdən birini qoruyub saxlayır. Rəqəmsallaşma ölkənin sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən birinə çevrilərək həm iqtisadi artımı dəstəkləyir, həm də idarəetmədə şəffaflığı gücləndirir. Son dövrlərdə elektron hökumət infrastrukturunun təkmilləşdirilməsi, dövlət xidmətlərinin vahid platformada cəmləşdirilməsi və rəqəmsal ödənişlərin geniş tətbiqi əhəmiyyətli nəticələr doğurub. Xüsusilə ASAN xidmət modeli dövlət və vətəndaş münasibətlərində yeni yanaşma formalaşdıraraq operativlik, şəffaflıq və rahatlıq prinsipləri əsasında vətəndaş məmnunluğunu yüksəldib və beynəlxalq səviyyədə uğurlu təcrübə kimi tanınıb. Bununla yanaşı, müxtəlif dövlət informasiya sistemlərinin inteqrasiyası xidmətlərin daha çevik və effektiv təqdim olunmasına şərait yaradıb. Müşavirədə vurğulanıb ki, əldə olunan nəticələr mühüm baza yaratsa da, növbəti mərhələdə əsas hədəf vahid və əlaqələndirilmiş rəqəmsal arxitekturanın qurulmasıdır. Eyni zamanda, rəqəmsal transformasiyanın uğurla həyata keçirilməsi üçün kibertəhlükəsizlik əsas şərt kimi qeyd olunub. Bu çərçivədə dövlət informasiya resurslarının qorunması, kritik infrastrukturun kiberdayanıqlığının artırılması və müasir şifrələmə texnologiyalarının tətbiqi milli təhlükəsizliyin rəqəmsal komponentinin gücləndirilməsi baxımından prioritet hesab olunur. Təhsil sahəsində rəqəmsallaşma istiqamətində süni intellekt, proqramlaşdırma və kibertəhlükəsizlik üzrə kadr hazırlığının yeni mərhələyə keçidi ölkənin gələcək texnoloji müstəqilliyinin təmin edilməsi üçün vacib amil kimi qiymətləndirilir. Qeyd olunur ki, rəqəmsal bacarıqların geniş yayılması həm iqtisadi səmərəliliyin artırılmasına, həm də sosial inkişafın sürətlənməsinə mühüm töhfə verir. [7]

Regional inkişaf kontekstində rəqəmsal infrastrukturun, xüsusilə genişzolaqlı internet şəbəkəsinin ucqar yaşayış məntəqələrini əhatə etməsi dövlət siyasətinin "rəqəmsal bərabərlik" prinsipini əks etdirir. Bu yanaşma bütün vətəndaşların rəqəmsal xidmətlərə əlçatanlığının təmin olunmasını sosial ədalətin vacib elementi kimi nəzərdən keçirir. [6]

Çıxışın yekununda Prezident İlham Əliyev vurğulayıb ki, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" ölkənin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsidir. Bu fəaliyyət planı təkcə texnoloji yenilikləri deyil, həm də idarəetmə fəlsəfəsində keyfiyyət dəyişikliklərini nəzərdə tutur. Rəqəmsal transformasiya dövlətin daha çevik, şəffaf və vətəndaş yönümlü fəaliyyət modelinə keçidini təmin edəcək. Beləliklə, müşavirədə səsləndirilən fikirlər və qarşıya qoyulan hədəflər göstərir ki, Azərbaycan rəqəmsallaşma prosesində yeni mərhələyə qədəm qoyur. Mövcud nailiyyətlər üzərində qurulan vahid rəqəmsal arxitektura modeli ölkənin beynəlxalq rəqabət qabiliyyətini artıracaq, iqtisadi dayanıqlığını möhkəmləndirəcək və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini daha da yüksəldəcək. Bu yanaşma Azərbaycanın müasir texnologiyalar əsasında inkişaf edən, innovativ və güclü dövlət kimi mövqeyini daha da möhkəmləndirəcək. [7]

TƏHLİL

Azərbaycanın iqtisadi inkişaf strategiyasında informasiya və kommunikasiya texnologiyaları sektoru prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Son illərdə Azərbaycanda İKT sektorunun inkişaf dinamikası müsbət dinamika nümayiş etdirir [8] Azərbaycanın rəqəmsal potensialını qiymətləndirmək üçün son 5 ilin statistik göstəriciləri mühüm tendensiyaları üzə çıxarır:

Cədvəl 1

İKT sektoru üzrə əsas göstəricilər

Göstəricilərin adı	2020	2021	2022	2023	2024
İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, milyon manat	2 158,2	2 249,7	2 514,8	3 028,1	3 437,6
rabitə sektoru	1 714,8	1 824,5	1 920,6	2 254,4	2 513,5
İKT sektorunda yaradılmış əlavə dəyərin həcmi, milyon manat	1 600,9	1 663,8	1 822,2	2 021,8	2 282,9
rabitə sektoru	1 312,9	1 395,6	1 436,7	1 540,6	1 710,3
İKT sektorunda yaradılmış əlavə dəyərin ÜDM-də xüsusi çəkisi, faizlə	2,2	1,8	1,4	1,6	1,8
rabitə sektoru	1,8	1,5	1,1	1,3	1,4
İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyalar, milyon manat	177,2	135,0	392,7	385,8	653,2
İKT məhsullarının idxalı*, milyon manat	1 055,9	1 083,2	998,7	1 510,2	1 859,5
kompüter və periferiya avadanlıqları	287,0	299,8	345,0	417,8	461,5
telekommunikasiya avadanlıqları	503,8	543,8	384,9	777,3	1 031,3
elektron avadanlıqlar	176,3	190,5	205,2	245,0	277,8
digər İKT məhsulları	88,8	49,1	63,6	70,1	88,9
İdxal olunmuş İKT məhsullarının ölkəyə idxal olunmuş bütün növ məhsulların dəyərində xüsusi çəkisi, faizlə	5,8	5,4	4,0	5,1	5,2
İKT məhsullarının ixracının ümumi ixracda xüsusi çəkisi, faizlə	0,143	0,023	0,060	0,053	0,036
İKT sektorunda çalışan işçilərin siyahı sayı, min nəfər	20,5	21,1	22,5	23,5	25,5
İKT sektorunda çalışan işçilərin iqtisadiyyatın bütün sahələri üzrə muzdlu işçilərin siyahı sayına nisbəti, faizlə	1,4	1,4	1,3	1,4	1,4

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Azərbaycanda rəqəmsal inkişaf 2025*

Bu cədvəl 2020–2024-cü illər ərzində Azərbaycanda İKT sektorunun inkişaf dinamikasını göstərir və ümumi tendensiya olaraq sektorun artım mərhələsində olduğunu, lakin bəzi struktur problemlərin hələ də qalmaqda davam etdiyini ortaya qoyur. İlk növbədə, İKT sektorunda məhsul (xidmətlər) buraxılışı ardıcıl şəkildə artmışdır: 2020-ci ildə 2 158,2 milyon manat olduğu halda, 2024-cü ildə 3 437,6 milyon manata yüksəlmişdir. Bu, təxminən 59%-lik artım deməkdir və sektorun genişlənməsini açıq şəkildə göstərir. Eyni zamanda rabitə sektorunun payı da yüksək olaraq qalır və ümumi buraxılışın əsas hissəsini təşkil edir. Bu isə onu göstərir ki, İKT daxilində hələ də telekommunikasiya sahəsi dominant mövqedədir**.** Əlavə dəyərin həcmi də artım trayektoriyasına malikdir (1 600,9 mln manatdan 2 282,9 mln manata qədər). Bu, sektorun yalnız genişlənmədiyini, həm də iqtisadiyyata real töhfəsinin artdığını göstərir. Lakin diqqət çəkən məqam ondan ibarətdir ki,

ÜDM-də xüsusi çəkisi 2020-ci ildə 2,2%-dən 2022-ci ildə 1,4%-ə düşmüş, sonrakı illərdə isə qismən bərpa olunaraq 1,8%-ə çatmışdır. Bu hal onu göstərir ki, İKT sektoru artsa da, digər sahələrin daha sürətli inkişafı nəticəsində onun nisbi çəkisi azalmışdır. İnvestisiyalar baxımından dinamika qeyri-sabitdir. 2021-ci ildə azalma (135 mln manat), 2022-ci ildə isə kəskin artım (392,7 mln manat) müşahidə olunur və 2024-cü ildə 653,2 mln manata çataraq maksimum səviyyəyə yüksəlir. Bu, sektorun son illərdə kapital qoyuluşları baxımından prioritet sahəyə çevrildiyini göstərir. İKT məhsullarının idxalı əhəmiyyətli dərəcədə artmışdır (1 055,9 mln manatdan 1 859,5 mln manata qədər). Xüsusilə telekommunikasiya avadanlıqları idxalında ciddi artım var. Bu isə onu göstərir ki, ölkədə rəqəmsal transformasiya prosesi əsasən idxaldan asılı texnoloji baza üzərində qurulur. İdxalın ümumi idxaldakı payı isə nisbətən sabit qalır (təxminən 4–5%).

Digər tərəfdən, İKT məhsullarının ixracı olduqca aşağı səviyyədədir və hətta azalma tendensiyası müşahidə olunur (0,143%-dən 0,036%-ə qədər). Bu, sektorun əsas zəif tərəflərindən biridir və göstərir ki, Azərbaycan İKT sahəsində hələlik ixracyönümlü iqtisadi model formalaşdıra bilməmişdir**.** Məşğulluq göstəriciləri isə müsbət dinamika nümayiş etdirir. İKT sektorunda çalışanların sayı 20,5 min nəfərdən 25,5 min nəfərə qədər artmışdır. Lakin onların ümumi məşğulluqdakı payı dəyişməz qalaraq təxminən 1,3–1,4% səviyyəsindədir. Bu da onu göstərir ki, sektor inkişaf etsə də, hələlik əmək bazarında geniş miqyaslı transformasiya yaratmamışdır**.** Ümumiləşdirsək, cədvəlin təhlili göstərir ki, Azərbaycanda İKT sektoru sürətlə inkişaf edir, investisiyalar artır və iqtisadi dəyər yaradır. Bununla yanaşı, sektorun əsas problemləri kimi idxaldan asılılıq, ixrac potensialının zəifliyi və ÜDM-də payın aşağı səviyyədə qalması qeyd oluna bilər. Bu isə gələcəkdə yerli innovasiya və texnoloji istehsalın gücləndirilməsinin vacibliyini ön plana çıxarır.

Rəqəmsal idarəetmə və regional inkişaf siyasəti

Regional inkişaf siyasətinin effektiv həyata keçirilməsi üçün müasir idarəetmə mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Ənənəvi inzibati idarəetmə sistemləri mürəkkəb sosial-iqtisadi proseslərin real vaxt rejimində monitorinqini və operativ qərar qəbulunu tam təmin edə bilmir. Bu baxımdan rəqəmsal idarəetmə sistemləri regional siyasətin səmərəliliyinin artırılması üçün strateji alət kimi çıxış edir. Rəqəmsal platformalar, böyükhəcmli məlumatların analizi və süni intellekt texnologiyaları regional iqtisadi göstəricilərin daha dəqiq təhlilinə, investisiya risklərinin qiymətləndirilməsinə və resursların optimal bölgüsünə imkan yaradır. Azərbaycan Respublikasında rəqəmsal inkişaf strategiyası dövlət idarəetməsinin modernləşdirilməsi, elektron xidmətlərin genişləndirilməsi və məlumat əsaslı qərar qəbuletmə mexanizmlərinin tətbiqini nəzərdə tutur. Bu istiqamətdə dövlət proqramları çərçivəsində genişzolaqlı internet infrastrukturunun inkişafı, məlumat mərkəzlərinin yaradılması və rəqəmsal platformaların inteqrasiyası həyata keçirilir. [9]

"Dünya üzrə 'unudulmuş yerlərin' üsyan etdiyi bir dövrdə [10], Azərbaycanın regional siyasəti rəqəmsal idarəetmə və innovativ infrastruktur vasitəsilə 'məkana həssas' (place-sensitive) inkişaf strategiyasını həyata keçirir. Bu kontekstdə rəqəmsal texnologiyalar regional inkişaf siyasətinin səmərəliliyini artıran əsas alətə çevrilir. Belə ki, onlar iqtisadi-sosial məlumatların real vaxt rejimində təhlilinə, resurs bölgüsünün optimallaşdırılmasına və regionlararası bərabərsizliyin azaldılmasına imkan yaradır.

Azərbaycanın regional inkişaf strategiyası iqtisadi şaxələndirmə, post-münaqişə ərazilərinin reinteqrasiyası və davamlı artım modelinə keçid kontekstində yeni idarəetmə mexanizmlərinin tətbiqini tələb edir. Ənənəvi inzibati idarəetmə sistemləri mürəkkəb regional sosial-iqtisadi prosesləri real vaxt rejimində izləmək və effektiv qərar qəbul etmək baxımından məhdud imkanlara malikdir. Bu baxımdan rəqəmsal idarəetmə sistemlərinin tətbiqi regional iqtisadi siyasətin səmərəliliyinin artırılması üçün strateji alət kimi çıxış edir. [11]

Təklif olunan model Azərbaycan şəraitində regional davamlı inkişafın təmin edilməsi məqsədilə çoxsəviyyəli rəqəmsal idarəetmə arxitekturasına əsaslanır. Azərbaycanın regional davamlı inkişaf siyasəti son illərdə rəqəmsal transformasiya və məlumat əsaslı idarəetmə yanaşmaları ilə ta-

mamlanmışdır. Azərbaycan Respublikasının normativ hüquqi bazasında rəqəmsal inkişafın prioritet istiqamət kimi müəyyən edilməsi dövlətin uzunmüddətli sosial-iqtisadi strategiyasının əsas komponentlərindən biridir. Prezident tərəfindən təsdiq edilmiş müvafiq konseptual sənədlər rəqəmsal idarəetmənin institusional əsaslarını formalaşdırır və regional səviyyədə məlumat əsaslı qərar qəbuletmə mexanizmlərinin tətbiqini stimullaşdırır. Bu kontekstdə regional inkişafın yalnız maliyyə və inzibati alətlərlə deyil, eyni zamanda rəqəmsal platformalar, süni intellekt əsaslı analitika və inteqrasiya olunmuş məlumat sistemləri vasitəsilə idarə olunması zərurəti aktuallaşır.


Azərbaycan üçün beşsəviyyəli rəqəmsal idarəetmə modeli

Təklif olunan beşsəviyyəli rəqəmsal idarəetmə modeli Azərbaycan Respublikasında rəqəmsal inkişafın hüquqi və institusional əsasları ilə uzlaşır. Normativ hüquqi aktlar rəqəmsal texnologiyaların dövlət idarəçiliyinə inteqrasiyasını, məlumatların mərkəzləşdirilmiş idarə olunmasını və elektron xidmətlərin genişləndirilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edir. Modelin ilkin mərhələsi məlumat bazasının formalaşdırılmasıdır. Bu səviyyəyə aşağıdakılar daxildir: inzibati statistik məlumatlar, vergi və büdcə məlumatları, məşğulluq və sosial göstəricilər, sensor əsaslı enerji və kommunal monitorinq sistemləri, peyk müşahidələri və coğrafi informasiya məlumatları. Modelin ikinci mərhələsi - məlumatların vahid platformada inteqrasiyasını nəzərdə tutur. Bu mərhələdə: müxtəlif dövlət qurumlarının məlumat bazaları birləşdirilir, regional məlumat anbarı formalaşdırılır. Vahid inteqrasiya platforması təkrarlanan məlumat axınlarını aradan qaldırır və idarəetmədə koordinasiyanı gücləndirir. Bu, dövlət xərclərinin optimallaşdırılmasına və informasiya asimmetriyasının azaldılmasına xidmət edir. Rəqəmsal inkişaf konsepsiyası çərçivəsində dövlət qurumları arasında məlumat mübadiləsinin gücləndirilməsi, vahid rəqəmsal platformaların yaradılması və qərar qəbuletmə proseslərində analitik alətlərin tətbiqi nəzərdə tutulur. Bu yanaşma regional idarəetmədə fragmentasiyanı azaldır və çoxsəviyyəli koordinasiyanı təmin edir.

Üçüncü mərhələ iqtisadi qərar qəbuletmənin intellektual əsasını təşkil edir. Burada: süni intellekt əsaslı proqnoz modelləri, regional ÜDM dinamikasının təhlili, investisiya risk qiymətləndirmə sistemləri, enerji və resurs istehlakı optimallaşdırma alqoritmləri tətbiq olunur. Dövlət səviyyəsində rəqəmsal analitikanın və süni intellekt texnologiyalarının tətbiqi iqtisadi planlaşdırmanın keyfiyyətini yüksəldən əsas alətlərdən biri kimi qiymətləndirilir. Rəsmi dövlət mövqeyinə əsasən, məlumat əsaslı qərar qəbuletmə mexanizmləri büdcə siyasətinin optimallaşdırılması, regional investisiya mühitinin yaxşılaşdırılması və sosial proqramların effektivliyinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan analitik modul yalnız texnoloji komponent deyil, eyni zamanda institusional idarəetmə mədəniyyətinin transformasiyasını təmin edən strateji mexanizm kimi çıxış edir. Dördüncü səviyyə qərar qəbul edən orqanlar üçün praktik idarəetmə alətlərini özündə birləşdirir: rəqəmsal qərar dəstək panelləri, büdcə ssenari modelləşdirmə sistemləri, performans göstəricilərinin vizual analizi, regional layihələrin effektivlik qiymətləndirilməsi. Modelin son mərhələsi regional davamlılıq indikatorlarının monitorinqidir.

Bu səviyyə: iqtisadi artım göstəriciləri, məşğulluq və sosial inklüzivlik indikatorları, ekoloji davamlılıq meyarları, BMT-nin Davamlı İnkişaf Məqsədlərinə uyğun göstəricilər üzrə performans qiymətləndirilməsini təmin edir. Bu mərhələdə adaptiv geribildirim mexanizmi formalaşır və idarəetmə sistemi özünü tənzimləmə qabiliyyəti əldə edir.

Eyni zamanda, dövlətin rəqəmsal inkişaf istiqamətində qəbul etdiyi strateji sənədlər regional səviyyədə institusional uyğunlaşmanın təmin olunmasını zəruri edir. Bu baxımdan rəqəmsal idarəetmə modellərinin tətbiqi yalnız texniki məsələ deyil, eyni zamanda normativ, təşkilati və insan kapitalı aspektlərini əhatə edən kompleks islahat kimi nəzərdən keçirilməlidir. Süni intellekt əsaslı analitik sistemlər dövlət idarəetməsində qərar qəbuletmə proseslərinin optimallaşdırılmasına imkan verir. [12]



Şəkil 1. Azərbaycanda beşsəviyyəli rəqəmsal idarəetmə modeli

Modelin iqtisadi üstünlükləri: Resursların daha optimal bölgüsü, büdcə xərclərinin səmərəliliyinin artması, regional bərabərsizliklərin azaldılması, investisiya risklərinin minimallaşdırılması, şəffaflığın və hesabatlılığın gücləndirilməsi

Mövcud problemlər və risklər: regionlararası rəqəmsal fərqlər, kibertəhlükəsizlik riskləri, yüksək ilkin investisiya xərcləri, insan kapitalının məhdudluğu

NƏTİCƏ

Rəqəmsal idarəetmə sistemləri regional davamlı inkişafın təmin edilməsində strateji əhəmiyyətə malikdir. Post-münaqişə dövründə və iqtisadi şaxələndirmə strategiyası çərçivəsində rəqəmsal idarəetmə sistemləri regional iqtisadiyyatın uzunmüddətli dayanıqlılığının əsas təminat mexanizmlərindən biri kimi çıxış edir.

Beləliklə, Azərbaycan üçün təklif olunan çoxsəviyyəli rəqəmsal idarəetmə modeli mövcud dövlət siyasəti və hüquqi çərçivə ilə uyğunluq təşkil edir. Rəqəmsal transformasiya regional inkişafın institusional dayanıqlılığını gücləndirir, qərar qəbuletmədə səmərəliliyi artırır və davamlı inkişaf məqsədlərinin ölçülə bilən formada reallaşdırılmasına imkan yaradır. Dövlət səviyyəsində formalaşdırılmış strateji iradə bu modelin praktiki tətbiqi üçün əlverişli zəmin yaradır. Rəqəmsal texnologiyalar və süni intellekt müasir dövlət idarəetməsinin transformasiyasında əsas amillərdən birinə çevrilmişdir. Azərbaycan Respublikasında həyata keçirilən rəqəmsal transformasiya siyasəti dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, iqtisadiyyatın şaxələndirilməsi və regional inkişafın səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

2020–2024-cü illər üzrə statistik göstəricilərin təhlili İKT sektorunun davamlı inkişaf etdiyini göstərsə də, sektorun ÜDM-də payının məhdudluğu və idxaldan yüksək asılılıq kimi problemlər mövcuddur. Bu səbəbdən innovasiya ekosisteminin inkişafı, yerli texnologiya istehsalının stimullaşdırılması və insan kapitalının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Məqalədə təklif olunan beşsəviyyəli rəqəmsal idarəetmə modeli regional inkişaf siyasətində məlumat əsaslı qərar qəbuletmə mexanizmlərinin tətbiqinə imkan yaradır. Bu modelin tətbiqi dövlət resurslarının daha optimal bölgüsünü təmin etməklə yanaşı, regional bərabərsizliklərin azaldılması və davamlı iqtisadi inkişafın təmin edilməsi üçün mühüm institusional baza yarada bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidenti. (2025, 16 yanvar). Azərbaycan Respublikasında rəqəmsal inkişaf konsepsiyası. Bakı.

2. Azərbaycan Respublikası Prezidenti. (2021, 27 aprel). Rəqəmsal inkişaf sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında fərman. Bakı.

3. Mergel, I., Edelmann, N., & Haug, N. (2019). Defining digital transformation: Results from expert interviews. Government Information Quarterly.

4. United Nations. (2022). E-Government Survey 2022: Digital government in the decade of action for sustainable development. United Nations Department of Economic and Social Affairs.

5. Azərbaycan Respublikası Prezidenti. (2025, 10 dekabr). Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün strategiya. Bakı

6. Aliyeva, R.T., Aliyev, F.Z. (2023). Main directions of accelerating regional socio-economic development in the digital era. Agora International Journal of Economical Sciences, **17**(2), 170–180.

7. Azərbaycan Respublikası Prezidenti. (2026, 11 Fevral). "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə nitqi. Bakı.

8. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanda *rəqəmsal inkişaf*. Bakı.

9. Aliyeva R.T., Rahimova L.S. (2023). Measures taken and development perspectıves of the dıgıtal economy in Azerbaıjan. Beynəlxalq konfrans. Bakı UNEC.

10. Rodríguez-Pose, A. (2018). The revenge of the places that don't matter. Cambridge Journal of Regions.

11. Əliyeva R.T, Əliyev İ. (2023). Rəqəmsal dövrdə layihələrin idarə edilməsində liderin rolu. Respublika Elmi-praktik konfrans. İstehsalatda innovativ texnika və texnologiyaların tətbiqi perspektivləri. Bakı. AzMİU, s.279-283

12. Wirtz, B., Weyerer, J., & Geyer, C. (2019). Artificial intelligence and the public sector. International Journal of Public Administration.

R.T.Aliyeva
Associate Professor, Doctor of Philosophy in Economics
Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0002-5214-006X
L.S.Rahimova
teacher, Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0009-0008-6680-5094

The role of digital governance and artificial intelligence in regional sustainable development: the Azerbaijani model

Abstract

This study analyzes the possibilities for integrating digital transformation and artificial intelligence (AI) technologies into Azerbaijan's regional development strategy. The article examines the economic efficiency of the transition from traditional governance to the "GovTech" model, the dynamics of the ICT sector over the period 2020–2024, and the role of digital solutions in reducing regional inequalities. Within the framework of the research, a five-level digital governance model for Azerbaijan is proposed. The findings indicate that the implementation of AI-based analytical mechanisms not only optimizes resource allocation but also enhances the investment attractiveness of regions. The article concludes with strategic recommendations aimed at reducing the digital divide and strengthening the cybersecurity ecosystem.

Keywords: *digital governance, artificial intelligence, Azerbaijani model, regional development, ICT dynamics, GovTech.*

https://doi.org/10.58225/tim.2026-2-281-286

F.F.Babayev
doktorant, Azərbaycan Texnologiya Universiteti
babayev.farhad@internet.ru

Məqalə redaksiyaya daxil olub 23.02.2026
The article was received by editorial board on 23.02.2026
Статья принята к печати 23.02.2026

İQTİSADİ FƏALİYYƏT SAHƏLƏRİNDƏ RƏQABƏT QABİLİYYƏTİNİN İNNOVASİYA VƏ RƏQƏMSALLAŞMANIN ƏSASINDA ARTIRILMASI

Xülasə

Məqalədə rəqəmsallaşma və innovasiyaların iqtisadi fəaliyyət sahələrində rəqabət qabiliyyətinin formalaşmasına təsiri araşdırılır. Qlobal iqtisadi transformasiya şəraitində süni intellekt, blokçeyn və böyük verilənlər kimi yeni texnologiyaların strateji əhəmiyyəti əsaslandırılır. Rəqəmsal texnologiyaların istehsal, idarəetmə və biznes modellərinin modernləşdirilməsində rolu təhlil olunur. Azərbaycan iqtisadiyyatında rəqəmsal transformasiyanın mövcud vəziyyəti və inkişaf perspektivləri qiymətləndirilir. Eyni zamanda rəqəmsal bərabərsizlik və innovativ fəallığın stimullaşdırılması ilə bağlı əsas problemlər və tövsiyələr təqdim edilir.

Açar sözlər: *rəqəmsallaşma, rəqabət qabiliyyəti, innovasiya, süni intellekt, rəqəmsal iqtisadiyyat.*

GİRİŞ

Son onilliklərdə rəqəmsallaşma qlobal iqtisadiyyatın trayektoriyasını və ölkələrin, sənaye sahələrinin və ayrı-ayrı şirkətlərin rəqabət qabiliyyətini müəyyən edən əsas amilə çevrilib. Rəqəmsal iqtisadiyyata keçid informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi, proseslərin avtomatlaşdırılması, böyük məlumatların istifadəsi və innovativ rəqəmsal məhsulların yaradılması ilə müşayiət olunur ki, bu da ənənəvi iqtisadi modelləri əhəmiyyətli dərəcədə dəyişdirir və iqtisadi artım və davamlı inkişaf üçün yeni imkanlar yaradır. Beynəlxalq tədqiqatlara görə, rəqəmsallaşma qlobal bazarlarda iqtisadi səmərəliliyə, innovasiya potensialına və təşkilatların rəqabət qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir və rəqəmsal texnologiyalara uğurla inteqrasiya edən ölkələr öz mövqelərini möhkəmləndirir və beynəlxalq iqtisadiyyatda iştirak etmək imkanlarını genişləndirirlər. Azərbaycan Respublikası kontekstində rəqəmsallaşma iqtisadiyyatın şaxələndirilməsinə, rəqəmsal infrastrukturun inkişafına və milli sənaye və xidmətlərin rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş iqtisadi siyasətin strateji istiqamətinə çevrilmişdir. Son illərdə rəqəmsal texnologiyaların istifadəsində sürətli artım, onlayn xidmətlərə çıxışın artması və elektron idarəetmə elementlərinin tətbiqi müşahidə olunur ki, bu da iqtisadiyyatın rəqəmsal transformasiyası üçün əlverişli şərait yaradır. Lakin, bir çox ölkələrdə olduğu kimi, rəqəmsallaşma prosesi Azərbaycanda da bir sıra çətinliklərlə üzləşir — rəqəmsal bacarıqların təkmilləşdirilməsi zərurətindən tutmuş innovasiyanı və rəqəmsal mühitin davamlı inkişafını təşviq edən müasir tənzimləyici çərçivənin yaradılmasına qədər. Beləliklə, rəqəmsallaşma proseslərinin və onların iqtisadi subyektlərin rəqabət qabiliyyətinə təsirinin öyrənilməsi texnoloji transformasiyanın sürətləndirilməsi və beynəlxalq rəqabətin güclənməsi kontekstində xüsusilə aktualdır. Bu məqalədə rəqəmsal transformasiyanın əsas aspektləri, rəqabət üstünlüklərinin formalaşdırılmasındakı rolu və həm qlobal, həm də milli kontekstlərdə iqtisadi proseslərə təsiri araşdırılır.

Rəqəmsallama və rəqabət qabiliyyətinin inkişafı

Müasir dövrdə dünya iqtisadiyyatında baş verən sürətli dəyişikliklər, texnoloji tərəqqinin intensivləşməsi və qlobal rəqabət mühitinin kəskinləşməsi iqtisadi fəaliyyət sahələrində rəqabət qabiliyyətinin təmin olunmasına yanaşmaları köklü şəkildə dəyişmişdir. Ənənəvi istehsal amilləri ilə yanaşı, innovasiya potensialı, informasiya texnologiyalarının tətbiqi və rəqəmsal transformasiya səviyyəsi iqtisadi subyektlərin bazar mövqelərinin möhkəmləndirilməsində həlledici rol oynamağa başlamışdır. Bu baxımdan innovasiya və rəqəmsallaşma müasir iqtisadiyyatın əsas inkişaf determinantları kimi çıxış edir və rəqabət üstünlüklərinin formalaşmasının fundamental bazasını təşkil edir.

İqtisadi nəzəriyyədə rəqabət qabiliyyəti anlayışı müxtəlif səviyyələrdə – müəssisə, sahə və milli iqtisadiyyat miqyasında araşdırılır və bu anlayışın məzmunu zaman keçdikcə genişlənir. Əvvəllər rəqabət qabiliyyəti əsasən məhsulun maya dəyəri, qiymət üstünlüyü və istehsal həcmi ilə ölçülürdüsə, müasir yanaşmalarda innovativ fəaliyyət, texnoloji modernləşmə, bilik və informasiya resurslarından istifadə imkanları əsas göstəricilər sırasında yer alır. Rəqəmsallaşma bu prosesdə xüsusi əhəmiyyət kəsb edir, çünki o, iqtisadi fəaliyyət sahələrində səmərəliliyin yüksəldilməsinə, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə və bazar mühitinə uyğunlaşma qabiliyyətinin artırılmasına şərait yaradır. Qloballaşma şəraitində rəqabət artıq təkcə milli bazarlarla məhdudlaşmır, beynəlxalq miqyas alır və bu, iqtisadi fəaliyyət sahələrindən yüksək innovasiya potensialı tələb edir. Rəqəmsal texnologiyalar vasitəsilə müəssisələr istehsal proseslərini optimallaşdırmaqla yanaşı, yeni biznes modelləri formalaşdırır, elektron kommersiya imkanlarını genişləndirir və istehlakçı davranışlarını daha dəqiq təhlil edə bilirlər. Bu isə məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, xərclərin azaldılmasına və nəticə etibarilə rəqabət qabiliyyətinin artmasına gətirib çıxarır.

Azərbaycan Respublikasında son illər iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı dövlət iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bu kontekstdə innovasiya və rəqəmsallaşma iqtisadi fəaliyyət sahələrinin modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Rəsmi məlumatlara əsasən, ölkədə internet istifadəçilərinin payı 2024–2025-ci illərdə əhalinin təxminən 89 faizinə çatmış, mobil rabitə və rəqəmsal xidmətlərdən istifadə səviyyəsi isə davamlı olaraq artmışdır [6]. Bu göstəricilər iqtisadi fəaliyyət sahələrinin rəqəmsal transformasiyası üçün əlverişli institusional və texnoloji mühitin formalaşdığını göstərir.


Bununla yanaşı, beynəlxalq reytinqlər Azərbaycanın innovasiya sahəsində hələ də potensial imkanlara malik olduğunu göstərir. Qlobal İnnovasiya İndeksi üzrə mövqenin orta səviyyədə qalması innovativ fəaliyyətin stimullaşdırılması, elmi tədqiqatların kommersiyalaşdırılması və texnoloji biliklərin iqtisadi fəaliyyət sahələrinə daha fəal inteqrasiyasının zəruriliyini ortaya qoyur. Startap ekosisteminin inkişafı, texnoparkların fəaliyyəti və rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsi müsbət tendensiya kimi qiymətləndirilsə də, bu proseslərin iqtisadiyyatın bütün sahələrini əhatə etməsi üçün əlavə mexanizmlərə ehtiyac vardır.

İnnovasiya və rəqəmsallaşmanın iqtisadi fəaliyyət sahələrinə təsiri ilk növbədə istehsal və idarəetmə proseslərinin səmərəliliyinin yüksəldilməsi ilə xarakterizə olunur. Rəqəmsal texnologiyaların tətbiqi müəssisələrə resurslardan daha səmərəli istifadə etməyə, əməliyyat xərclərini azaltmağa və qərar qəbuletmə proseslərini sürətləndirməyə imkan verir. Eyni zamanda, böyük həcmli məlumatların emalı və analitik alətlərin istifadəsi bazar tendensiyalarının proqnozlaşdırılmasını asanlaşdırır və strateji planlaşdırmanın keyfiyyətini artırır. Bu amillər iqtisadi fəaliyyət sahələrində rəqabət üstünlüklərinin möhkəmləndirilməsinə bilavasitə təsir göstərir.

Rəqəmsallaşma həmçinin iqtisadi fəaliyyət sahələrinin strukturunda keyfiyyət dəyişikliklərinə səbəb olur. Ənənəvi fəaliyyət sahələri yeni texnologiyalar əsasında transformasiya olunur, xidmət sektorunun rolu artır, bilik tutumlu sahələr daha sürətlə inkişaf edir. Bu proseslər milli iqtisadiyyatın ümumi rəqabət qabiliyyətini yüksəltməklə yanaşı, uzunmüddətli dayanıqlı inkişaf üçün möhkəm zə-

min yaradır. Xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün rəqəmsallaşma bazara çıxış imkanlarını genişləndirir və onların iri müəssisələrlə rəqabət aparmaq potensialını artırır.

Bununla belə, innovasiya və rəqəmsallaşma prosesləri müəyyən məhdudiyyətlərlə də müşayiət olunur. Maliyyə resurslarının çatışmazlığı, ixtisaslı kadrların məhdudluğu, texnoloji biliklərin qeyri-bərabər paylanması və normativ-hüquqi bazanın bəzi hallarda innovativ fəaliyyətin tələblərinə tam cavab verməməsi bu sahədə əsas problemlər sırasında yer alır. Xüsusilə regionlarda fəaliyyət göstərən iqtisadi subyektlər üçün rəqəmsal infrastruktura çıxış imkanlarının məhdudluğu rəqabət qabiliyyətinin artım tempini zəiflədir və sahələrarası fərqlərin dərinləşməsinə səbəb olur. İqtisadi fəaliyyət sahələrində innovasiya və rəqəmsallaşma əsasında rəqabət qabiliyyətinin artırılması prosesinin məntiqi ardıcıllığını aşağıdakı sxemlə ümumiləşdirmək mümkündür. Bununla əlaqədar biz aşağıdakı sxemi təklif edirik (bax şəkil 1).



Şəkil 1. İnnovasiya və rəqəmsallaşma əsasında rəqabət qabiliyyətinin formalaşması mexanizmi

Mənbə: *şəkil müəllif tərəfindən tərtib olunub***.**

Aparılan təhlillər göstərir ki, innovasiya və rəqəmsallaşma iqtisadi fəaliyyət sahələrində rəqabət qabiliyyətinin artırılması üçün əsas strateji alətlərdən biri kimi çıxış edir. Bu baxımdan məqsədyönlü və sistemli dövlət siyasətinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. İqtisadi fəaliyyət sahələrində innovativ fəallığın stimullaşdırılması üçün maliyyə və vergi mexanizmlərinin təkmilləşdirilməsi, elmi tədqiqatların nəticələrinin istehsalata tətbiqinin genişləndirilməsi və biznes mühitinin rəqəmsal transformasiyasının sürətləndirilməsi zəruridir.

Elmi-praktiki baxımdan tövsiyə etmək olar ki, innovasiya və rəqəmsallaşma sahəsində dövlət dəstəyi mexanizmləri xüsusilə kiçik və orta sahibkarlıq subyektlərini əhatə etməli, onların texnoloji modernləşmə imkanları genişləndirilməlidir. Təhsil sistemində rəqəmsal bacarıqların inkişafına yö-

nəlmiş proqramların tətbiqi insan kapitalının keyfiyyətinin yüksəldilməsinə və əmək bazarının tələblərinə uyğun kadr hazırlığına şərait yaradacaqdır. Eyni zamanda, normativ-hüquqi bazanın innovativ fəaliyyətin tələblərinə uyğunlaşdırılması, intellektual mülkiyyətin qorunması mexanizmlərinin gücləndirilməsi və rəqəmsal infrastruktura investisiyaların artırılması iqtisadi fəaliyyət sahələrinin rəqabət qabiliyyətinin yüksəldilməsində mühüm rol oynayacaqdır.

Rəqəmsal mühitin inkişafı sahibkarlar üçün çoxsaylı dəyərli imkanlar yaradır. Bu gün rəqəmsal iqtisadiyyat innovasiyaların, bazar mövqelərinin möhkəmləndirilməsinin və ümumi iqtisadi yüksəlişin əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. O, bütün sənayelərdə uzun müddətdir formalaşmış fəaliyyət modellərini kökündən dəyişdirir. İstifadəçi tələbləri gücləndikcə və informasiya-kommunikasiya həlləri həyatın bütün sahələrinə sürətlə nüfuz etdikcə üstünlük qazananlar şirkət idarəetməsində, istehsal dövriyyəsinin təşkilində və malların/xidmətlərin son istehlakçıya çatdırılmasında qabaqcıl üsulları fəal şəkildə qəbul edən təşkilatlar olur. Qəddar rəqabət müəssisələri ən müasir İT-həlləri tez bir zamanda tətbiq etməyə məcbur edir ki, bu da öz növbəsində bazar infrastrukturunu canlandırır və şirkətlərə getdikcə daha böyük rəqabət üstünlükləri toplamağa imkan yaradır. Rəqəmsal resurslara sahiblik iqtisadi subyektlərə rəqiblər qarşısında əlavə üstünlük təmin edir, onların bazar gücünün dərəcəsi isə böyük ölçüdə fəaliyyətlərində rəqəmsallaşmanın dərinliyindən asılı olacaq. Mövcud qiymətləndirmələrə görə rəqəmsal həllərə uzunmüddətli investisiyaların gəlirliliyi ənənəvi qeyri-rəqəmsal aktivlərə investisiyalardan 6–7 dəfə yüksək olur, klassik sahələrin idarə edilməsində intellektual sistemlərin tətbiqi isə rəqəmsallaşmanın müsbət nəticələrini çoxaltmaq qabiliyyətinə malikdir.

Rəqabətin formalaşmasında yeni rəqəmsal texnologiyaların rolu

Məlumdur ki, rəqəmsal rəqabət qabiliyyəti statik göstərici deyil. Dövlətlər və təşkilatlar qlobal bazarda mövqelərini qorumaq üçün daim yeni texnologiyalara uyğunlaşmalıdırlar. İnnovasiyalar qlobal rəqəmsal mənzərəni kökündən dəyişdirir, buna görə də yeni texnologiyalar rəqəmsal rəqabət qabiliyyətinin formalaşmasında əsas rol oynayır. Süni intellekt, blokçeyn və böyük verilənlərin analizi kimi yeni texnologiyalar iqtisadiyyat və cəmiyyət sistemini dəyişdirərək innovasiyaların əsas hərəkətverici qüvvəsi olur, lakin eyni zamanda rəqəmsal uçurumu daha da dərinləşdirə bilər [2,s.141] Bu texnologiyaları fəal şəkildə tətbiq edən dövlətlər rəqəmsal rəqabət üstünlüklərini artırır, bu da gələcəkdə davamlı iqtisadi artıma, məhsuldarlığın sürətlənməsinə və qlobal təsir dairəsinin genişlənməsinə səbəb ola bilər. Həmin texnologiyalar innovativ potensiala, biznesin inkişafına və dövlət idarəçiliyinə birbaşa təsir göstərir.

Süni intellekt ən transformasiyaedici texnologiyalardan biri kimi rəqəmsal rəqabət qabiliyyətinə proseslərin avtomatlaşdırılması, böyük verilənlərin analizi və qərar qəbulunun sadələşdirilməsi vasitəsilə təsir edir. Süni intellektə əsaslanan innovasiyalar maliyyə, infrastruktur, sənaye, səhiyyə və digər sahələrdə məhsuldarlığı və səmərəliliyi əhəmiyyətli dərəcədə artırır. Mobillik və çeviklik baxımından süni intellekt texnologiyaları dövlətlərə təhlükəsizlik nəzarətini gücləndirmək, resursların daha səmərəli bölüşdürülməsini təmin etmək və siyasət məqsədlərini daha effektiv reallaşdırmaq imkanı yaradır. Beynəlxalq Menecment İnkişaf İnstitutunun (IMD) qiymətləndirməsinə görə süni intellekt qlobal iqtisadiyyata ildə 4 trilyondan çox dollar dəyərində əlavə dəyər gətirə bilər. 2030-cu ilə qədər süni intellekt dünya iqtisadiyyatına 13 trilyon ABŞ dolları həcmində töhfə verə bilər ki, bu da qlobal ÜDM-in 26%-ə qədər artmasına səbəb ola bilər [5].

Blokçeyn texnologiyaları rəqəmsal platformalarda şəffaflığın və etimadın səviyyəsini yüksəltməkdə mühüm rol oynayır və bu, rəqəmsal iqtisadiyyatın inkişafına birbaşa təkan verir. Blokçeyn mərkəzləşdirilməmiş reyestrə əsaslanan təhlükəsiz sistem kimi iştirakçıların məlumatlarını qoruyur və təhlükəsiz əməliyyatların aparılmasına imkan yaradır [1,s.1052]. Blokçeyn yalnız rəqəmsal istehsal və ticarəti daha səmərəli təşkil etmir, həm də tərəfdaşlar arasında əməkdaşlığı gücləndirərək rəqəmsal bazarda iştirakçıların bir-birinə olan etimadını artırır. Blokçeyn əsasında yaradılan rəqəmsal valyutaların tətbiqi vətəndaşlara ənənəvi bank infrastrukturasından asılı olmaya-

raq pul əməliyyatları aparmaq imkanı verir. Bu texnologiyalar qlobal maliyyə sistemindəki balanssızlıqla bağlı çoxsaylı maneələri və problemləri aradan qaldırmağa kömək edir.

Yeni texnologiyaların yaranma və inkişaf sürətini nəzərə alsaq, rəqabət qabiliyyətli dövlətlərin sıralanmasında nə qədər sürətli dəyişikliklərin baş verdiyini görmək mümkündür. Hər il yeni rəqəmsal alətlər ortaya çıxır, eyni zamanda mövcud texnologiyalar sürətlə təkmilləşir: süni intellekt daha da inkişaf edir, kriptovalyuta bazarı genişlənir, dövlətlər mərkəzi bank rəqəmsal valyutalarının yaradılması mərhələsinə keçir. Belə dinamik rəqəmsal mühit yalnız rəqəmsal maliyyə bazarında iri oyunçuların yaranmasına deyil, həm də dünyanın müxtəlif regionları arasında rəqəmsal bərabərsizliyin artmasına səbəb olur [3,s.250,4,s.920].

Rəqəmsal bərabərsizlik həm dövlət daxilində, həm də beynəlxalq səviyyədə mənfi nəticələr doğurur. Daha inkişaf etmiş infrastrukturaya malik iqtisadiyyatlar rəqabət qabiliyyətini artırır, inkişaf etməkdə olan ölkələrin bir qismi isə geridə qalır. Bundan əlavə, yeni texnologiyaların təsiri və geosiyasi gərginliyin artması rəqəmsal iqtisadiyyatın genişlənməsi ilə birlikdə rəqəmsal uçurumu daha da dərinləşdirə bilər.

NƏTİCƏ

Təhlilimiz göstərir ki, rəqəmsallaşma və innovativ inkişaf qlobal iqtisadi transformasiya kontekstində davamlı rəqabət qabiliyyətinin gücləndirilməsində əsas amillərdir. Müasir rəqəmsal texnologiyalar - xüsusən də süni intellekt, blokçeyn, böyük məlumatlar və rəqəmsal platformalar - təkcə istehsal və idarəetmə proseslərinin səmərəliliyini artırmaqla yanaşı, həm də prinsipcə yeni rəqabət üstünlüyü mənbələri yaradır. Beynəlxalq rəqabətin güclənməsi kontekstində iqtisadiyyatın rəqəmsal həllərə tez uyğunlaşmaq, texnoloji cəhətdən təkmilləşdirmək və inteqrasiya etmək qabiliyyəti onun qlobal iqtisadi sistemdəki mövqeyini müəyyən edir.

Azərbaycan Respublikası üçün rəqəmsallaşma iqtisadi şaxələndirmə və qeyri-neft sektorunun inkişafı kontekstində strateji əhəmiyyət kəsb edir. Zənnimizcə, müasir rəqəmsal infrastrukturun yaradılması, innovasiyaya dəstək, insan kapitalının inkişafı və tənzimləyici çərçivənin təkmilləşdirilməsi vahid dövlət siyasətinin bir-biri ilə əlaqəli elementlərinə çevrilməlidir. Bölgələr arasında rəqəmsal uçurumun azaldılmasına, kiçik və orta sahibkarlığın texnoloji modernləşməyə çıxışının genişləndirilməsinə və elmi tədqiqatların kommersiyalaşdırılmasının stimullaşdırılmasına xüsusi diqqət yetirilməlidir. Bu baxımdan, həmin sahələrin hərtərəfli və ardıcıl şəkildə həyata keçirilməsi, fikrimizcə, milli rəqabət qabiliyyətini gücləndirə, uzunmüddətli iqtisadi artımı təmin edəc və iqtisadiyyatın xarici çağırışlara qarşı dayanıqlığını artıra bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. Зверева А.А., Беляева Ж.С., Сохаг К. (2019). Влияние цифровизации экономики на благосостояние в развитых и развивающихся странах // Экономика региона. – № 4. – с.1050-1062.

2. Косаренко Н.Н. (2024). Система искусственного интеллекта: понятие, теория, право и перспективы развития. / монография. – Москва : РУСАЙНС, – 174 с

3. Меняев М.Ф. (2023). Цифровая экономика предприятия. / учебник. – Москва : ИНФРА-М, -369 с.

4. Никулина О.В., Соболева А.С. (2024). Влияние цифровизации мировой экономики на экономический рост в странах мира (на примере первой пятерки по вкладу в мировой ВВП) // Russian Journal of Management. – № 2. – с. 915-938.

5. MD World Digital Competitiveness Ranking 2024 World Competitiveness Center

«The digital divide: risks and opportunities». https://www.imd.org/centers/wcc/world-competitiveness-center/rankings/world-digital-competitiveness-ranking/

6. https://datareportal.com/reports/digital-2025-azerbaijan?utm

F.F.Babayev
doctoral student, Azerbaijan University of Technology

Increasing competitiveness in economic activity areas based on innovation and digitalization

Abstract

The article examines the impact of digitalization and innovation on the formation of competitiveness across various sectors of economic activity. It substantiates the strategic role of emerging technologies such as artificial intelligence, blockchain, and big data in the context of global economic transformation. The study analyzes the importance of digital solutions for the modernization of production processes, management systems, and business models. The current state and prospects of digital transformation in the economy of Azerbaijan are assessed. Particular attention is paid to the issues of digital inequality and the stimulation of innovative activity.

Keywords*: digitalization, competitiveness, innovation, artificial intelligence, digital economy.*

https://doi.org/10.58225/tim.2026-2-287-293

F.H.Isgandarli
master student, Azerbaijan State University of Economics (UNEC)
fidaniskenderli03@gmail.com

Məqalə redaksiyaya daxil olub 27.03.2026
The article was received by editorial board on 27.03.2026
Статья принята к печати 27.03.2026

DETERMINANTS OF E-COMMERCE VOLUME IN AZERBAIJAN: AN ARDL TIME SERIES ANALYSIS

Abstract

The rapid growth of Globalization and large increases in Internet usage have changed the way consumers behave and how commerce is conducted. The growing use of e-Commerce has led to the overall growth of e-Commerce in Azerbaijan, as in other countries. This research will study the impact of macroeconomic indicators and digital indicators that show how e-Commerce is growing in Azerbaijan, using econometric analysis. The long-run data suggests that, while the total number of bank cards, e-Commerce transactions, and Internet Users positively influence e-Commerce growth, M3 money supply and the UDM per capita were not statistically significant in the model. Specifically, every 1% increase in the number of bank cards corresponds to approximately a 3.1% increase in e-Commerce volume, and a 0.93% increase in e-Commerce volume corresponds to an increase in the number of e-Commerce transactions. Furthermore, the presence of Internet users has both a positive and significant impact upon e-Commerce growth. The major drivers of increased e-commerce growth are increased availability of the digital infrastructure eg – increased access to online payment services, increase availability of internet users and increase in the number of transactions. Data indicates that digital finance instruments and connectivity to the internet have a greater impact on e-commerce dynamics than traditional macroeconomic variables. Future studies should use international panel datasets and add other indicators (e.g. credit volume) to further define the relationship between the two influences.

Keywords: *e-commerce, Azerbaijan, ARDL, time series, internet, value.*

INTRODUCTION

E-commerce is becoming increasingly popular, both for individual purchase decisions and as a method of selling goods and services. E-commerce has increased in volume because of the growing amount of trade that happens between different countries, the growing ease with which individuals can import products from other countries, improvements in logistics infrastructure, the growing number of free trade zones around the world, and the growing impact of technology in our lives.

E-Commerce has also expanded due to changes in consumer culture, as well as increased competition and the development of digital marketplaces. Today many wholesalers and retailers operate and/or provide eCommerce services. eCommerce has led to the establishment of numerous eCommerce-related websites and therefore created additional eCommerce-related markets and logistics systems, as well as increasing the demand for electronic payment systems and associated banking services.

The theoretical and empirical evidence confirms the assumption that increasing online commerce creates a favorable effect on jobs, economic activity and the need for banks to support

these types of transactions. This research focuses on identifying factors which influence the amount of electronic commerce transactions through an empirical analysis using a time series ARDL methodology. For this analysis, the developing nation of Azerbaijan was selected as the primary nation being studied.

LITERATURE REVIEW

The growing accessibility of the internet, improvements in the quality of services provided to consumers through the e-commerce logistics sector and the expansion of international trade in digital goods has raised e-commerce's importance to all segments of society and to all areas of the world economy. As e-commerce has transformed the way we conduct business, e-commerce has created a need for governments to update or change their regulatory frameworks regarding the movement of goods across international borders (i.e., Customs) as well as develop electronic regulatory structures to shape the competitive environment.

In recent years, e-commerce has emerged as one of the most popular areas of academic research across many different academic disciplines (e.g. economics, business administration, marketing, logistics, and finance). Research has been conducted on all aspects of e-commerce from its initial creation to how digital consumers have changed their buying habits to how businesses have adopted digital strategies to support their e-commerce operations, to the role of governments in supporting the growth of e-commerce in their jurisdictions, and the emergence of electronic payment systems to provide consumers greater access to digital goods. Most of these studies rely on data gathered using various research methods (i.e. surveys, econometric models, panel data analyses and time series analyses). As Aliyeva (2017) points out, a number of studies have looked at various aspects of e-commerce worldwide; however, none of these studies has focused specifically on how e-commerce will evolve in Azerbaijan. In addition to Aliyeva's assessment of the global e-commerce market, Hacıyeva (2021) provides a detailed analysis of the benefits and challenges faced by the Azerbaijani e-commerce industry in light of globalization by identifying three main factors as critical: logistics infrastructure, payment systems, and consumer trust.

The works of İyiler (2015) and Özel(2013) focused on defining the economic function of e-commerce and defining the conceptual structure of e-commerce through their studies which concluded that e-commerce has a contributive effect to society in the development of the information society, reduced overall transaction costs and an increase in market area. In Süleymanov (2011)'s research on Analyzing the Implementations and the Economic Effectiveness of the E-commerce in Azerbaijan, Süleymanov shows how E-commerce added value to the Azerbaijan economy and how there is a demand for the development of institutional structure to support that value. By examining how different types of sales promotion strategies used in e-commerce will influence a Consumer's decision-making behaviour, Söyler(2023) shows the impact of the application of digital marketing to consumers in terms of the power of that application on influencing a Consumer's decision-making process or how they are influenced when making an online purchase. Uygur (2017) compared the application of e-commerce between United States and Turkey. The comparative analysis on the results of Uygur (2017)'s research describes institutional readiness, technical capacity and user habits impact the efficacy of successful digital transformation of businesses using e-commerce. While Toprak(2014) analyzes B2C e-commerce in Turkey under the assumptions that this product will evolve in response to a perfectly competitive market; Toprak concludes that although an individual may have a level of trust in their labelled internet service provider, the level of internet service sophistication, the structure of that individual use of the platform and quality of the platform itself have a direct impact on how significant impact B2C e-commerce will make in a particular country. Yılmaz (2020) focuses on the explosive growth of E-Commerce and E-exports in Turkey during COVID-19 and discusses how the pandemic fuelled rapid change in Consumer habits of digital consumption. Shirinzade and Bayramova (2024) examined the development dynamics of the e-com-

merce sector within the scope of the rise of the digital economy in Azerbaijan and stated that increasing internet penetration, rising digital literacy and the state's strategic digitalization policies continue to grow the sector.

METHODOLOGY

The dataset consists of 48 observations and has been compiled from quarterly reports of the Central Bank of Azerbaijan (CBA) and the Azerbaijan State Statistical Committee (SSC). Since monthly observations for several variables are only available starting from 2016, the data range begins in that year. The variables expected to influence e-commerce volume and included in the model are presented in the table below.

Table 1

List of variables

Variable Code	Frequency	Source	Type & Expected Relationship	Description
LNETICHAC	Monthly	CBA	Dependent variable	E-commerce transaction volume (million AZN)
LNCARD NUMBER	Monthly	CBA	Independent variable, (+)	Number of bank credit/debit cards (thousand units)
LNKBGDP	Monthly	CBA	Independent variable, (+)	GDP per capita (million AZN)
LNINTASH	Monthly	SSC	Independent variable, (+)	Number of internet users
LNM3	Monthly	CBA	Independent variable, (+)	M3 money supply (million AZN)
LNISLEMCOUNT	Monthly	CBA	Independent variable, (+)	Number of e-commerce transactions

The variables included in this study are consistent with those used in prior research examining the determinants of e-commerce volume. As noted in the literature, several earlier studies—such as those by Antoni et al. (2008) and Kayahan & Hepaktan (2016)—have employed similar variables. In addition, although M3 money supply is not commonly included in all comparable studies, it has been incorporated into the present model. This inclusion is based on the theoretical argument that increases in the money supply may influence per capita GDP and, consequently, the magnitude of commercial transaction volumes.

RESULTS AND DISCUSSION

In the first step, the optimal lag length was determined using the Akaike Information Criterion (AIC) and Schwarz Bayesian Criterion (SBC), both of which suggested a lag length of 4. Subsequently, the ARDL bounds test was applied to examine the existence of a long-run relationship

Table 2

ARDL bounds test results

Significance Level	I(0) Bound	I(1) Bound
10%	2.26	3.35
5%	2.62	3.79
2.5%	2.96	4.18
1%	3.41	4.68

Table 3

Augmented dickey–fuller (ADF) unit root test results

Variable	Level (Constant)	Level (Constant & Trend)	1st Diff. (Constant)	1st Diff. (Constant & Trend)
LNETICHAC	0.279510 (0.9746)	–3.945899 (0.0182)	–10.30877 (0.0000)	–10.80341 (0.0000)
LNCARD NUMBER	2.741607 (1.0000)	–1.490532 (0.8179)	–5.221275 (0.0001)	–7.241543 (0.0000)
LNKBGDP	–4.090341 (0.0025)	–4.091341 (0.0126)	–8.288782 (0.0000)	–8.164555 (0.0000)
LNINTASH	–0.507712 (0.8799)	–1.654234 (0.7545)	–7.205811 (0.0000)	–7.100816 (0.0000)
LNM3	1.167644 (0.9975)	–2.259139 (0.4465)	–8.264900 (0.0000)	–10.31159 (0.0000)
LNISLEMCOUNT	0.033159 (0.9565)	–2.949432 (0.1578)	–8.372888 (0.0000)	–8.460850 (0.0000)

Table 4

Phillips–perron (PP) unit root test results

Variable	Level (Constant)	Level (Constant & Trend)	1st Diff. (Constant)	1st Diff. (Constant & Trend)
LNETICHAC	0.019419 (0.9551)	–3.978677 (0.0167)	–6.401763 (0.0000)	–6.384374 (0.0000)
LNKARTSAYI	2.367986 (0.9999)	–1.511649 (0.8105)	–5.221275 (0.0001)	–6.113566 (0.0000)
LNKBGSYIH	–4.109185 (0.0024)	–7.746503 (0.0000)	–7.546879 (0.0000)	–7.457689 (0.0000)
LNINTKUL	–0.504754 (0.8805)	–1.701504 (0.7338)	–7.187486 (0.0000)	–7.100816 (0.0000)
LNM3	0.069916 (0.9597)	–2.380260 (0.3843)	–7.549774 (0.0000)	–7.560424 (0.0000)
LNISLEMSAY	–0.172563 (0.9343)	–2.894336 (0.1748)	–8.423790 (0.0000)	–8.456387 (0.0000)

Table 5

ARDL bounds test results

Significance Level	I(0) Bound	I(1) Bound
10%	2.26	3.35
5%	2.62	3.79
2.5%	2.96	4.18
1%	3.41	4.68
Computed F-Statistic	**→ 9.509802**	

Table 6

Results of hypothesis tests

Test	Purpose of the Test	F- statistical value	Probability value
LM	Autocorrelation Assumption	0.276466	0.7612
Breusch-Pagan-Godfrey	Heteroscedasticity Assumption	1.135720	0.3839
Ramsey Reset	Specification Assumption	6.013904	0.2026
Jarque-Bera	Normality Assumption	1.891370	0.388413

Table 7

Cointegration analysis results

Variable	Coefficient	Standard Error	t-Statistic	Probability
LNM3	0.778561	0.889328	0.875448	0.1043
LNKBGDP	0.035299	0.026689	1.322620	0.7046
LNCARDNUMBER	3.196921	0.760999	–4.200956	0.0007
LNISLEMCOUNT	0.933225	0.136273	6.848195	0.0000
LNINTAHC	2.395212	0.567429	13.032841	0.0000
C (Constant)	–92.085154	7.122868	–12.928100	0.0000

According to the cointegration test results, the M3 money supply and GDP per capita variables included in the model were found to be statistically insignificant. The findings indicate that, in the long run, a 1% increase in the number of debit card users increases the dependent variable, e-commerce volume, by 3.1%; a 1% increase in the number of e-commerce transactions increases the dependent variable by 0.93%; and a 1% increase in the number of internet users increases e-commerce volume by 2.3%. These findings are economically significant and in the expected direction.

Following the examination of the long-term relationship between the variables, the short-term relationship was examined. In this context, the ARDL error correction model was constructed. The error correction model was obtained by adding the error terms obtained from the equation investigating the existence of the long-term relationship to the model. The results of the error correction model are presented in the table below:

Table 8

ARDL error correction model (ECM) results

Variables	Coefficient	Standard Error	t-Statistic	Probability
D(LNTICHAC(–1))	0.354204	0.162959	2.173585	0.0474
D(LNM3)	1.841174	0.604561	–3.045471	0.0087
D(LNM3(–1))	–0.239496	0.718554	–0.333303	0.7438
D(LNKBGDP)	–0.008179	0.016226	–0.504036	0.6221
D(LNKBGDP(–1))	–0.128078	0.023175	–5.526519	0.0001
D(LNCARDNUMBER)	5.487036	1.409736	–3.892243	0.0016
D(LNCARDNUMBER(–1))	0.914496	1.511497	0.605026	0.5548
D(LNPROBABILITY VALUE)	1.091611	0.134947	8.089169	0.0000
D(LNP ROBABILITY VALUE(–1))	0.069473	0.143847	0.482962	0.6366
D(LNINTAHC)	4.484757	2.186634	–2.050987	0.0595
D(LNINTAHC(–1))	4.332628	2.342840	–1.849306	0.0856
ECM(–1) *(CointEQ(–1))*	–0.433191	0.216784	–5.227278	0.0001

According to the error correction model results, the direction of the short-run coefficients is consistent with the long-run relationship. The error correction term ECM(–1) is negative and statistically significant, confirming the existence of a stable long-run equilibrium among the variables. The coefficient value of –0.433191 indicates that approximately 43.3% of any short-run deviation from the long-run equilibrium is corrected within one period. This implies that the system returns to equilibrium in about 2.3 months *(1 / 0.433191)*.

CONCLUSION

E-commerce volume, like the increase in the number of internet users, is on a steadily rising trend. This highly advantageous form of purchasing is expected to become increasingly popular and expand its market in the future. The ability of underdeveloped countries to offer their own products and marketed services, and to access these services from anywhere in the world, will stimulate production and improve their economic outlook. Consequently, increasing e-commerce volume has a positive impact on the global and national economies.

The empirical part of the study examined the factors affecting e-commerce volume in Azerbaijan, a developing country with a large domestic and international product market. In other words, the basic macroeconomic variables were not found to be significant in the model. The debit card variable, added to the model as the sum of both demand deposits and credit cards, was the most significant variable, with a positive impact of 3.1% on e-commerce volume. The prominence of this variable suggests that increased access to payment methods is the most significant factor influencing e-commerce. Future studies on this topic could utilize panel data across similar country groups using these variables. Furthermore, the credit volume variable could be included in the model, as credit volume is one of the key factors affecting trade volume. At the same time, studies can be conducted that include e-commerce volume as the independent variable affecting general employment or sectoral employment, GDP and other macroeconomic factors.

References:

1. Aliyeva, B. (2017). Elektronik ticaret: Dünyadaki gelişmeler ve Azerbaycan açısından bir değerlendirme. Uluslararası Bilimsel Araştırmalar Dergisi.

2. Azərbaycan Respublikası Mərkəzi Bankı. (2022). Rəqəmsal ödənişlər icmalı. https://uploads.cbar.az/assets/14b9d83d84bb035f6f062044e.pdf

3. Hacıyeva, L. (2021). The prospects and problems of e-commerce in Azerbaijan in the context of globalization. Globalization and Its Socio-Economic Consequences 2020.

4. İyiler, Z. (2015). E-ticaret. İstanbul Sanayi Odası Yayınları.

5. Özel, D.H. (2013). E-ticaret ve Türkiye'nin bilgi toplumundaki yeri. (38), 4–15.

6. Söyler, S. (2023). Gönüllü sade tüketim tarzının e-ticaret satın alma davranışına etkisinde e-ticarette kullanılan satış artırma çabalarının aracılık rolü. Bolu Abant İzzet Baysal Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, İşletme ABD (Yüksek lisans tezi).

7. Shirinzade, O.O., & Bayramova, F.N. (2024). E-commerce development dynamics in Azerbaijan. Construction Economics and Management, 1(26), 194–200.

8. Toprak, N.G. (2014). B2C e-ticaretin tam rekabet piyasası çerçevesinde değerlendirilmesi: Türkiye örneği. Kırklareli Üniversitesi İİBF Dergisi.

9. Uyğur, S. (2017). Amerika'da ve Türkiye işletmelerinde e-ticaret uygulamalarının karşılaştırılması. Azerbaycan Devlet İktisat Üniversitesi.

10. Yılmaz, Ö.T. (2020). COVID-19 pandemi döneminde Türkiye'de e-ticaret ve e-ihracat. Kayseri Üniversitesi Sosyal Bilimler Dergisi, 2(2), 37–54.

F.H.İsgəndərli
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Azərbaycanda elektron ticarət həcminin determinantları: ARDL zaman sırası analizi

Xülasə

Qloballaşmanın sürətli inkişafı və internet istifadəsində baş verən əhəmiyyətli artım istehlakçı davranışına və ticarətin aparılması mexanizmlərinə mühüm təsir göstərmişdir. Elektron ticarətin (e-commerce) geniş yayılması digər ölkələrdə olduğu kimi Azərbaycanda da bu sahənin dinamik inkişafını şərtləndirmişdir. Bu tədqiqatın məqsədi Azərbaycanda elektron ticarətin inkişafına təsir edən makroiqtisadi və rəqəmsal göstəricilərin təsirini zaman sırası yanaşması çərçivəsində avtoreqressiv paylanmış gecikmələr (ARDL) modeli vasitəsilə təhlil etməkdir. Uzunmüddətli qiymətləndirmələrin nəticələri göstərir ki, bank kartlarının ümumi sayı, elektron ticarət əməliyyatlarının həcmi və internet istifadəçilərinin sayı elektron ticarətin inkişafına müsbət və statistik cəhətdən əhəmiyyətli təsir göstərir. Bununla belə, M3 pul kütləsi və adambaşına düşən ümumi daxili məhsul (UDM) model çərçivəsində statistik baxımdan əhəmiyyətli hesab edilməmişdir. Empirik nəticələrə əsasən, bank kartlarının sayında 1%-lik artım elektron ticarət həcminin təxminən 3,1% artımı ilə müşayiət olunur. Eyni zamanda, elektron ticarət əməliyyatlarının sayındakı artım elektron ticarət həcminin 0,93% artımına səbəb olur. Bundan əlavə, internet istifadəçilərinin sayının artımı elektron ticarətin inkişafına müsbət və əhəmiyyətli təsir göstərir. Elektron ticarətin inkişafının əsas determinantları kimi rəqəmsal infrastrukturun genişlənməsi, xüsusilə onlayn ödəniş sistemlərinə çıxış imkanlarının artması, internet istifadəçilərinin sayının yüksəlməsi və əməliyyatların intensivliyinin artması çıxış edir. Əldə olunan nəticələr göstərir ki, rəqəmsal maliyyə alətləri və internetə çıxış səviyyəsi elektron ticarətin dinamikasına ənənəvi makroiqtisadi dəyişənlərlə müqayisədə daha güclü təsir göstərir. Gələcək tədqiqatlarda beynəlxalq panel məlumatlarından istifadə edilməsi və əlavə göstəricilərin (məsələn, kredit həcmi) daxil edilməsi bu əlaqələrin daha dərindən təhlilinə imkan verə bilər.

Açar sözlər: *elektron ticarət, Azərbaycan, ARDL, zaman sırası, internet, dəyər.*

https://doi.org/10.58225/tim.2026-2-294-302

H.M.Rüstəmov
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
Rustamovhumbat04@gmail.com

Məqalə redaksiyaya daxil olub 27.03.2026
The article was received by editorial board on 27.03.2026
Статья принята к печати 27.03.2026

RƏQƏMSAL İQTİSADİYYAT ŞƏRAİTİNDƏ İNTELLEKTUAL KAPİTALIN FORMALAŞMASI VƏ İNKİŞAFYÖNLÜ İDARƏETMƏ MEXANİZMLƏRİ

Xülasə

Tədqiqatın məqsədi rəqəmsal iqtisadiyyat şəraitində intellektual kapitalın formalaşmasını şərtləndirən əsas amilləri müəyyənləşdirmək və onun inkişafına yönəlmiş idarəetmə mexanizmlərini təhlil etməkdir. Metodologiya olaraq, nəzəri ədəbiyyat icmalı və Azərbaycan üzrə 2020-ci ildən sonrakı empirik göstəricilər əsasında müqayisəli təhlil aparılmışdır. Əldə edilən başlıca nəticələr göstərir ki, insan, struktur və əlaqələr kapitalından ibarət intellektual kapital müəssisələrin rəqabət qabiliyyəti və iqtisadi inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir. Təhsil səviyyəsi, AR-GE xərcləri və innovasiya mühiti bu kapitalın əsas formalaşdırıcıları kimi çıxış edir. Tədqiqatın məhdudiyyətləri arasında bəzi göstəricilərin statistik çatışmazlığı və intellektual kapitalın ölçülə bilmə çətinliyi qeyd olunmuşdur. Tədqiqatın orijinallığı onun yerli kontekstdə - Azərbaycan iqtisadiyyatı çərçivəsində - intellektual kapitalın empirik və sistemli təhlilinə əsaslanmasıdır. Elmi yenilik kimi ilk dəfə intellektual kapitalın komponentləri ilə konkret milli göstəricilər arasında əlaqə ortaya qoyulmuşdur. Praktiki əhəmiyyət baxımından isə, tədqiqat nəticələri intellektual kapitalın idarə olunmasına dair real, tətbiqolunan tövsiyələr təqdim edir və strateji planlaşdırmada rəhbər tutulacaq elmi baza formalaşdırır.

Açar sözlər: *rəqəmsal iqtisadiyyat, intellektual kapital, insan kapitalı, qeyri-maddi aktivlər, idarəetmə mexanizmləri.*

GİRİŞ

Müasir iqtisadi inkişafın xarakterik xüsusiyyəti maddi istehsal faktorlarından ziyadə biliklərə və texnologiyalara əsaslanan rəqəmsal iqtisadiyyatın yaranmasıdır. İnformasiya və kommunikasiya texnologiyalarının sürətli tərəqqisi nəticəsində iqtisadiyyatın strukturu və fəaliyyət qaydaları dəyişmiş, bilik iqtisadiyyatı və innovasiya dövrü başlamışdır. Bu yeni şəraitdə intellektual kapital ənənəvi fiziki resursları, təbii sərvətləri və hətta maliyyə kapitalını kölgədə qoyaraq müəssisənin əsas aktiv elementi rolunu almışdır. Başqa sözlə, rəqəmsal iqtisadiyyat dövründə müəssisələrin uğuru bilavasitə onların intellektual potensialından - məlumatı biliyə, biliyi innovasiyaya çevirə bilmək qabiliyyətindən asılıdır. Bu yanaşma intellektual kapitalın təşkilatların "yeni sərvəti" olduğunu vurğulayan tədqiqatlarda da öz əksini tapır.

İntellektual kapital ümumiyyətlə şirkətin qeyri-maddi aktivlərinin toplam dəyərini ifadə edir və bir neçə əsas ünsürü əhatə edir. Ən geniş yanaşmaya görə, intellektual kapitalın tərkib hissələri insan kapitalı, struktur kapitalı və əlaqələr kapitalı hesab olunur. İnsan kapitalı işçilərin bilik, bacarıq və təcrübəsini, struktur kapitalı şirkətin daxili proseslərini, texnologiyasını, patent və məlumat bazalarını, əlaqələr (müştəri) kapitalı isə şirkətin müştəri bazası, tərəfdaş əlaqələri və nüfuzunu əhatə edir. Bu komponentlər birgə şəkildə müəssisəyə dəyər yaradan intellektual aktivləri formalaşdırır.

Rəqəmsal dövrdə şirkətlər üçün maliyyə və fiziki kapitalın əhəmiyyəti nisbətən azalır, intellektual kapitalın müxtəlif ölçüləri isə ön plana çıxır . Məsələn, qlobal texnologiya nəhənglərinin bazar dəyəri bir sıra dövlətlərin ÜDM-lərini ötüb keçir ki, bu da bilik əsaslı aktivlərin necə dominant mövqeyə yüksəldiyinə əyani sübutdur.

Mövzunun aktuallığı: Rəqəmsal iqtisadiyyat şəraitində intellektual kapitalın formalaşdırılması və ondan səmərəli istifadə edilməsi həm mikro, həm də makro səviyyədə iqtisadi inkişafın aparıcı amilinə çevrilmişdir. Elmi tədqiqatlar göstərir ki, intellektual kapitalın səviyyəsi yüksək olan ölkələrdə davamlı iqtisadi artım müşahidə edilir. Eyni zamanda, müəssisə səviyyəsində aparılan araşdırmalar intellektual kapitalın yüksəldilməsinin şirkətlərin maliyyə göstəricilərini və rəqabət qabiliyyətini yaxşılaşdırdığını ortaya qoyur. Azərbaycan iqtisadiyyatı da innovasiya yönümlü inkişafa can atdığı üçün intellektual kapital konsepsiyasının öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə "Azərbaycan 2030" strateji inkişaf çərçivəsində rəqəmsallaşma, innovasiya və insan kapitalının inkişafı prioritet istiqamətlər kimi müəyyən edilmişdir. Bu baxımdan, intellektual kapitalın formalaşması mexanizmləri və onun idarə edilməsi üsullarının tədqiqi aktuallıq daşıyır.

Tədqiqatın məqsədi və vəzifələri: Bu məqalənin əsas məqsədi rəqəmsal iqtisadiyyat şəraitində intellektual kapitalın formalaşmasını şərtləndirən amilləri araşdırmaq və intellektual kapitalın inkişafyönlü idarəetmə mexanizmlərini müəyyən etməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir: (1) intellektual kapital anlayışının nəzəri əsaslarını və komponentlərini təhlil etmək; (2) rəqəmsal iqtisadiyyat kontekstində intellektual kapitalın rolunu və əhəmiyyətini qiymətləndirmək; (3) intellektual kapitalın formalaşmasına təsir göstərən əsas iqtisadi və institusional amilləri (məsələn, təhsil, AR-GE, innovasiya mühiti) müəyyənləşdirmək; (4) intellektual kapitalın idarə olunması üzrə mövcud yanaşmaları və inkişaf yönümlü mexanizmləri təhlil edib səmərəliliyi artırmaq üçün tövsiyələr irəli sürmək.

Tədqiqatın metodologiyası və məlumat mənbələri: Məqalə nəzəri və empirik tədqiqat metodlarının sintezindən istifadə etməklə hazırlanmışdır. İlk növbədə, intellektual kapital və rəqəmsal iqtisadiyyat mövzularında elmi ədəbiyyatın geniş təhlili aparılmış, beynəlxalq indeksli jurnallarda dərc olunmuş son tədqiqatların nəticələri nəzərdən keçirilmişdir. Bununla yanaşı, intellektual kapitalın ölçülməsi və iqtisadi göstəricilərlə əlaqəsini qiymətləndirmək üçün müqayisəli analiz üsuluna müraciət edilmişdir. Məqalədə qlobal statistik məlumatlar və xüsusi olaraq Azərbaycan üzrə göstəricilər təhlil edilib. Məsələn, ölkəmizin son illərdə AR-GE xərclərinin ÜDM-də payı, ali təhsilə cəlbetmə səviyyəsi və innovasiya indeksi kimi intellektual kapital ilə əlaqəli göstəricilər digər ölkələrlə müqayisədə incələnmişdir. Tədqiqatın informasiya bazasını Dünya Bankı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (WIPO), Dövlət Statistika Komitəsi kimi qurumların açıqladığı statistik məlumatlar, eləcə də Web of Science, Scopus kimi beynəlxalq elmi bazalarda yer alan məqalələr təşkil edir. Təhlildə əldə olunan məlumatlar cədvəllər formasında təqdim olunmuş və interpretasiya edilmişdir.

Tədqiqatın məhdudiyyətləri: Qeyd etmək lazımdır ki, intellektual kapital anlayışı mücərrəd xarakter daşıdığı üçün onun dəqiq ölçülməsi müəyyən çətinliklərlə müşayiət olunur. Empirik analiz üçün istifadə olunan göstəricilər (məsələn, AR-GE xərcləri, innovasiya indeksi) intellektual kapitalın yalnız dolayısı əlamətlərini əks etdirir. Bundan əlavə, Azərbaycan üzrə intellektual kapitalın bəzi aspektlərinə dair (məsələn, struktur kapitalının dəyərinə dair) məlumatların məhdudluğu tədqiqatın dərinliyini məhdudlaşdırmışdır. Tədqiqat əsasən son beş ilin tendensiyalarına fokuslandığı üçün uzunmüddətli tarixi müqayisə aparılmamışdır. Bununla belə, mövcud məlumatlar çərçivəsində aparılan təhlil intellektual kapitalın formalaşması və idarə edilməsinə dair kifayət qədər dolğun təsəvvür yaratmağa imkan verir.

Əsas istinad mənbələri: Məqalənin yazılması prosesində intellektual kapitalın müxtəlif aspektlərini əhatə edən yerli və xarici müəlliflərin işlərinə istinad edilmişdir. Xüsusilə, intellektual kapitalın iqtisadi artıma təsirini öyrənən (Gashe et al., 2024), şirkətlərin maliyyə göstəriciləri ilə əla-

qəsini analiz edən (Dzenopoljac et al., 2017; Yin & Xu, 2025), rəqəmsal transformasiya kontekstində intellektual kapitalın rolunu araşdıran (Yılmaz & Tuzlukaya, 2024) müasir tədqiqatların nəticələrindən istifadə olunmuşdur. Eyni zamanda, Azərbaycan iqtisadiyyatı üzrə intellektual kapital və innovasiya mövzularında aparılmış elmi işlər (məsələn, Nazarov, 2022) nəzərə alınmışdır. Növbəti bölmələrdə mövcud ədəbiyyata əsaslanaraq intellektual kapitalın nəzəri mahiyyəti və rəqəmsal iqtisadiyyatda əhəmiyyəti açıqlanacaq, daha sonra empirik göstəricilərin təhlili təqdim ediləcək və idarəetmə mexanizmləri müzakirə olunacaq.

Rəqəmsal iqtisadiyyatda intellektual kapital: nəzəri çərçivə

İlk növbədə, intellektual kapitalın iqtisadiyyatda tutduğu mövqeyi daha dərindən anlamaq üçün onun nəzəri mahiyyətini araşdırmaq zəruridir. İntellektual kapital anlayışı XX əsrin sonlarında meydana çıxmış və 1990-cı illərdən etibarən həm akademik dairələrdə, həm də biznes mühitində geniş populyarlıq qazanmışdır. J.K.Qalbreyt intellektual kapital terminini dövriyyəyə daxil edən ilk iqtisadçılardan biri olmuşdur. Sonrakı illərdə T. Stüart, L. Edvinsson, N. Bontis kimi tədqiqatçılar intellektual kapitalın konseptuallaşdırılması və ölçülməsi sahəsində öncül rol oynamışlar. Məsələn, Stüart (1997) intellektual kapitalı təşkilatın yeni zənginliyi kimi dəyərləndirərək onun əhəmiyyətini iş dünyasına tanıtmışdır.

İntellektual kapitalın tərkib elementləri barədə yanaşmalar müxtəlif olsa da, geniş qəbul edilən təsnifata görə o, yuxarıda qeyd olunduğu kimi üç sütuna dayanır: insan kapitalı, struktur kapitalı və əlaqələr kapitalı (Bontis, 1998). İnsan kapitalı dedikdə müəssisənin işçi qüvvəsinin bilik, bacarıq, yaradıcılıq və təcrübə potensialı nəzərdə tutulur. Bu, işçilərin təhsili, ixtisas səviyyəsi, peşə vərdişləri və innovativ düşüncə tərzi kimi amilləri əhatə edir. Struktur kapitalı isə müəssisədaxili infrastruktur və proseslərdən ibarətdir - yəni şirkətin məlumat bazası, sənədləşmiş prosedurları, patentləri, nou-hauları, təşkilati mədəniyyəti kimi dəyərlərdir. Bu element, işçilər təşkilatı tərk etsə belə, şirkətdə qalan bilik və sistemləri ifadə edir. Əlaqələr (müştəri) kapitalı müəssisənin xarici tərəfdaşları ilə - müştərilər, təchizatçılar, investorlar, cəmiyyət - qurduğu münasibətlər nəticəsində formalaşan qeyri-maddi dəyərdir. Müştəri sədaqəti, brend imici, tərəfdaşlarla etibarlı əlaqələr bu kapitalın nümunələridir.

Bu üç komponent qarşılıqlı əlaqədə olaraq intellektual kapitalın ümumi dəyərini müəyyən edir. Məsələn, yüksək ixtisaslı və yaradıcılıq qabiliyyətinə malik kadrlar (insan kapitalı) effektiv daxili innovasiya mühiti (struktur kapitalı) çərçivəsində çalışdıqda, onların yaratdığı yeni ideyalar və məhsullar müştəri bazasında etimad qazanaraq satışları artırır (əlaqələr kapitalı). Beləliklə, intellektual kapitalın ayrı-ayrı hissələri sinergetik təsir göstərərək həm şirkətin daxili səmərəliliyini, həm də bazar mövqeyini möhkəmlədir.

Rəqəmsal iqtisadiyyat intellektual kapitalın rolunu daha da gücləndirmişdir. Əgər sənaye iqtisadiyyatı dövründə müəssisələrin uğuru əsasən fiziki aktivlərdən - zavodlar, avadanlıqlar, xammal - asılı idisə, müasir rəqəmsal iqtisadiyyatda uğurun açarı biliklər və innovasiyalardır. Texnologiya və bilik bu gün iqtisadi həyatın ən vacib amillərinə çevrilmişdir; alınan və satılan məhsul və xidmətlərin dəyəri əksər hallarda onların ehtiva etdiyi bilik tutumu ilə müəyyən olunur. Yeni iqtisadi düzəndə intellektual kapital - təbii resurslardan, texnikadan və hətta maliyyə kapitalından daha artıq dərəcədə - şirkətin aktiv elementlərinin əsasını təşkil edir və məlumatın biliyə çevrilməsini təmin edir (Martins & Lopes, 2024). Başqa sözlə, rəqəmsal erada şirkətlər informasiyanı mənimsəyib yaradıcılıqla tətbiq edərək ondan dəyər yarada bilməlidir. Bu transformasiya prosesində insan kapitalının rolu kritikdir: məlumat, savadlı və yaradıcı insan olmadan faydalı biliyə çevrilmir.

Rəqəmsal iqtisadiyyatın tələblərinə uyğun intellektual kapitala malik olmayan qurumlar geridə qalmağa məhkumdur. Əksinə, öz bilik aktivlərini effektiv idarə edən təşkilatlar bazarda davamlı üstünlük əldə edirlər. Məsələn, dünyada ən böyük bazar dəyərinə malik şirkətlərin (texnologiya sektorunda - Apple, Microsoft, Alphabet və s.) dəyərinin ~90%-nin qeyri-maddi aktivlərdən formalaşması artıq adi hala çevrilmişdir. Bu şirkətlərin malik olduğu patentlər, alqoritmlər, brendlər,

işçi heyətinin peşəkarlığı kimi intellektual aktivlər onların qiymətləndirilməsində əsas rol oynayır. Müqayisə üçün qeyd oluna bilər ki, 1975-ci ildə S&P 500 indeksinə daxil olan şirkətlərin bazar dəyərində maddi aktivlərin payı ~83%, intellektual (qeyri-maddi) aktivlərin payı isə cəmi ~17% təşkil edirdi. Hazırda isə əks proporsiya müşahidə olunur - maddi aktivlər ~10%-dən az, intellektual aktivlər ~90%-dən çox. Bu dramatik dəyişiklik cəmiyyətin bilik iqtisadiyyatına keçidinin bariz göstəricisidir.

Yuxarıdakı faktlar intellektual kapitalın həm mikro səviyyədə (firma üçün), həm də makro səviyyədə (ümumi iqtisadi inkişaf üçün) önəmini sübut edir. İntellektual kapitalın iqtisadi artımdakı rolunu ayrıca vurğulamaq lazımdır. Ölkələr üzrə panel məlumatları əsasında aparılmış yeni tədqiqatlar milli intellektual kapital indeksinin yüksəlməsinin uzunmüddətli iqtisadi artımı sürətləndirdiyini təsdiqləmişdir (Gashe et al., 2024). Biliklərə və innovasiyalara yatırım edən dövlətlər rəqabətqabiliyyətli iqtisadiyyat qurmağa müvəffəq olur, çünki intellektual kapitalın artması əmək məhsuldarlığının, texnoloji tərəqqinin və ümumilikdə ölkənin inkişaf potensialının artmasına gətirib çıxarır. Bu nəticə təbii ki, təsadüfi deyil - intellektual kapital yüksək olan cəmiyyətlər yeni ideyalar və texnologiyalar yaratmaq və mənimsəmək bacarığına malikdir, bu da ÜDM-in artım tempini yüksəldir.

Mikro səviyyədə də bənzər mənzərə mövcuddur. Bir sıra empirik tədqiqatlar göstərir ki, şirkətlərdə intellektual kapitalın göstəriciləri (məsələn, işçi heyətin bilik səviyyəsi, patent portfeli, müştəri loyallığı və s.) ilə maliyyə nəticələri (mənfəətlilik, bazar dəyəri) arasında müsbət əlaqə var (Dzenopoljac et al., 2017). Xüsusən də yüksək bilik tutumuna malik xidmət və texnologiya sahələrində intellektual kapital şirkətin əsas dəyər sürücüsü rolunu oynayır. Bunun əksi kimi, intellektual kapitalı zəif olan şirkətlər rəqabət mübarizəsində geridə qalır və uzunmüddətli perspektivdə bazarı tərk etmək riski daşıyır. Bu səbəbdən müasir menecerlər "görünməz aktivlər"in idarə olunmasına ən az "görünən" maddi aktivlərin idarə olunması qədər diqqət yetirməlidirlər.

Nəzəri çərçivənin yekununda demək olar ki, intellektual kapital rəqəmsal iqtisadiyyatın əsas strateji resursudur. Onun düzgün ölçülməsi və idarə olunması şirkətlərə dayanıqlı rəqabət üstünlüyü gətirə bilər, ölkələrə isə innovasiya yönümlü inkişaf imkanı yaradır. Növbəti bölmədə intellektual kapitalın formalaşmasına təsir edən konkret amillər və bu sahədə Azərbaycanın mövqeyi təhlil ediləcəkdir.

İntellektual kapitalın formalaşması: amillər və trend göstəricilər

İntellektual kapitalın səviyyəsi və dinamikası bir sıra fundamental amillərdən asılıdır. Bu amillərin bəziləri birbaşa insan kapitalının inkişafına, digərləri isə struktur və əlaqələr kapitalının formalaşmasına təsir göstərir. Ən vacib faktorlar kimi təhsil və insan resursları, elmi-tədqiqat və innovasiya fəaliyyəti, eləcə də institusional və mühit amillərini qeyd etmək olar. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, yüksək təhsil göstəriciləri və innovasiyalara yatırımlar intellektual kapitalı zənginləşdirən əsas şərtlərdəndir. Bununla yanaşı, iqtisadi mühitin açıqlığı, institusional dəstək, bazar ölçüsü kimi amillər də bilik kapitalının formalaşmasına dolayısı ilə təsir edir.

Təhsil və insan resursları: İntellektual kapitalın nüvəsində insan faktoru durduğundan, təhsil sistemi və işçi qüvvəsinin keyfiyyət göstəriciləri həlledici əhəmiyyət daşıyır. Əhalinin savadlılıq səviyyəsi, gənclərin ali təhsilə çıxış imkanı, ixtisaslaşma dərəcəsi - bu kimi göstəricilər insan kapitalının potensialını müəyyənləşdirir. Məsələn, ali təhsilli mütəxəssislərin sayının çox olması və onların praktiki bacarıqlarla təchiz olunması şirkətlərə yeni bilik və texnologiyaları daha sürətlə qəbul edib tətbiq etmək imkanı verir.

Elmi-tədqiqat (AR-GE) və innovasiya fəaliyyəti: İnnovasiyaların yaradılması intellektual kapitalın həm səbəbi, həm də nəticəsi kimi çıxış edir. AR-GE fəaliyyətinə yatırımlar bir tərəfdən yeni biliklərin və texnologiyaların ortaya çıxmasını təmin edir (struktur kapitalını artırır), digər tərəfdən yüksək ixtisaslı kadrlar cəlb olunduğu üçün insan kapitalını da gücləndirir. Ölkə səviyyəsində AR-GE xərclərinin ÜDM-də payı milli innovasiya potensialının əsas indikatorlarından biri hesab olunur.

Şirkət səviyyəsində isə tədqiqat mərkəzlərinin mövcudluğu, patent sayları kimi göstəricilər struktur kapitalının həcmini əks etdirir. İnstitusional və mühit amilləri: İntellektual kapitalın formalaşması üçün münbit ekosistemin olması vacibdir. Buraya güclü mülkiyyət hüquqları sistemi (xüsusilə əqli mülkiyyətin qorunması), innovativ sahibkarlığı təşviq edən vergi və investisiya mühiti, risk sərmayələrinin mövcudluğu, beynəlxalq əməkdaşlıq imkanları və s. daxildir. Aydın məsələdir ki, qapalılıq və köhnə texnologiyalara söykənən mühitdə yeni biliklər yaratmaq çətin olur. Əksinə, qlobal bilik dövriyyəsinə inteqrasiya edən ölkələr və şirkətlər intellektual aktivlərini daha sürətlə artırırlar.

Yuxarıdakı amillərin intellektual kapitala təsirini Azərbaycanın timsalında nəzərdən keçirmək üçün ölkəmizin son illərdəki bəzi göstəricilərinə baxmaq faydalıdır. Aşağıdakı cədvəldə 2019-2023-cü illər üzrə Azərbaycan üçün intellektual kapital ilə əlaqəli seçilmiş makro göstəricilər təqdim olunmuşdur: AR-GE xərclərinin ÜDM-də payı, ali təhsildə ümumi qəbul (əhatə) səviyyəsi və Azərbaycanın Qlobal İnnovasiya İndeksində ümumi reytinq mövqeyi. Bu göstəricilər ölkənin intellektual potensialının formalaşması dinamikasını əks etdirməyə kömək edir.

Cədvəl 1

Azərbaycanın intellektual kapital göstəriciləri, 2019-2023

İl	AR-GE xərcləri, ÜDM %-lə	Ali təhsildə əhatə, %	Qlobal İnnovasiya İndeksi (sıra)
2019	0.20%	35%	84-cü
2020	0.22%	37%	82-ci
2021	0.15%	39%	80-ci
2022	0.15%	41%	93-cü
2023	0.18%	41%	89-cu

Mənbə: *Dünya Bankı, UNESCO və WIPO statistik məlumatları əsasında tərtib edilmişdir.*

Yuxarıdakı cədvəlin məlumatlarına istinadən bir neçə mühüm məqamı vurğulamaq olar. İlk növbədə, AR-GE xərclərinin ÜDM-də payı Azərbaycanda hələ də çox aşağı səviyyədədir (0.2%-dən az) və son beş ildə ciddi artım müşahidə edilmir. 2020-ci ildə cüzi yüksəliş olsa da, sonrakı illərdə göstərici 0.15%-ə qədər enmiş və 2023-də yenidən 0.18%-ə yüksəlmişdir. Bu, ölkədə elmi-tədqiqat fəaliyyətinə ayrılan vəsaitin məhdud olduğunu göstərir ki, bu da intellektual kapitalın formalaşmasını ləngidən amildir. Müqayisə üçün qeyd etmək olar ki, inkişaf etmiş ölkələrdə AR-GE xərclərinin ÜDM payı 2-3%-i keçməkdədir (məsələn, Koreya Respublikasında ~4.5%, ABŞ-da ~3%). Deməli, Azərbaycan innovasiya potensialını artırmaq üçün AR-GE-yə yatırımları əhəmiyyətli dərəcədə yüksəltməlidir.

Digər tərəfdən, ali təhsildə ümumi əhatə göstəricisi (gross enrollment ratio) son illərdə ölkəmizdə xeyli artmışdır. 2019-cu ildə təxminən 35% olan bu göstərici 2022-ci ildə 41%-ə çatmışdır. Bu artım təqdirəlayiq haldır və gənc nəslin daha yüksək təhsil almasına meyl etdiyini göstərir. Ali təhsildə iştirak səviyyəsinin yüksəlməsi insan kapitalının keyfiyyətinin artması üçün əlverişli zəmin yaradır. Lakin qeyd etmək lazımdır ki, hətta 41%-lik göstərici də bir sıra ölkələrlə müqayisədə aşağıdır; məsələn, Avropa ölkələrinin çoxunda bu göstərici 60-70% səviyyəsindədir. Buna görə də, ali təhsilin əlçatanlığının daha da artırılması (xüsusən regionlarda və qadınlar arasında) intellektual kapitalın formalaşması baxımından strateji əhəmiyyət daşıyır (UNESCO, 2023).

Cədvəldəki üçüncü sütun - Qlobal İnnovasiya İndeksində Azərbaycanın mövqeyi - intellektual kapitalın reallaşmasının bir növ inteqral nəticəsi kimi dəyərləndirilə bilər. Göründüyü kimi, 2019-cu ildən 2021-ə qədər Azərbaycanın reytinqi bir qədər yaxşılaşaraq 84-dən 80-ə yüksəlmişdir. Lakin 2022-ci ildə kəskin geriləmə baş vermiş və ölkə 132 ölkə arasında 93-cü yerə enmişdir. 2023-də isə mövqe bir qədər bərpa olunaraq 89-cu yerə yüksəlib. Reytinqdəki dalğalanmaların səbəbi bir neçə amillə əlaqəli ola bilər: metodologiyanın dəyişməsi, bəzi göstəricilərdə geriləmə və ya digər ölkələrin

irəliləməsi. Ümumən, Azərbaycanın innovasiya sahəsində dünya üzrə orta qrupda yer tutduğu nəticəsini çıxarmaq olar. Bu da onu deməyə əsas verir ki, intellektual kapitalın tam potensialı hələ həyata keçməyib və gücləndirilməsi üçün imkanlar var. Məsələn, 2022-ci ildə innovasiya nəticələrinin (outputs) zəif olması intellektual kapitalın kommersiyalaşdırılması sahəsində boşluqlar olduğunu göstərir - yəni yeni biliklərin praktiki tətbiqi kifayət qədər deyil (UNESCO, 2023).

İntellektual kapitalın formalaşmasına təsir edən amillər arasındakı qarşılıqlı əlaqəyə də diqqət yetirmək vacibdir. Təhsil, AR-GE və institusional mühit bir-birini tamamlayır. Yalnız yüksək təhsilli kadrların olması intellektual kapital yaratmaq üçün yetərli deyil - həmin kadrların üzərində işləyəcəyi tədqiqat layihələri, yenilikçi mühit də mövcud olmalıdır. Eyni zamanda, böyük AR-GE büdcələri olsa belə, kadr potensialı zəifdirsə və ya institusional dəstək yoxdursa, istənilən nəticə əldə olunmur. Bu baxımdan, kompleks yanaşma tələb olunur: insan kapitalının inkişafı (təhsil islahatları, bacarıqların artırılması), struktur kapitalının zənginləşdirilməsi (elmi infrastruktur, texnoparklar, innovasiya ekosistemi) və əlaqələr kapitalının genişləndirilməsi (beynəlxalq elmi əməkdaşlıq, universitet-sənaye tərəfdaşlığı və s.).

Mövcud ədəbiyyat bu kompleks yanaşmanın önəmini təsdiqləyir. Məsələn, Finlandiya şirkətləri üzərində aparılmış uzunmüddətli bir tədqiqat göstərmişdir ki, təşkilati strategiya və struktur amilləri intellektual kapitalın inkişafına ciddi təsir edir (Kianto et al., 2020). Xüsusilə, şirkətin tətbiq etdiyi bilik idarəetmə strategiyası əhəmiyyətli rol oynayır: qeyri-rəsmi (tacit) biliklərdən səmərəli istifadə etməyi bacaran müəssisələrdə insan kapitalı daha sürətlə inkişaf edir, kodlaşdırılmış biliklərə (məsələn, sənədləşmiş məlumat bazalarına) üstünlük verənlərdə isə xarici əlaqələr kapitalı güclənir (Kianto et al., 2020). Bu araşdırma həmçinin maraqlı bir faktı üzə çıxarmışdır: daha kiçik ölçülü şirkətlərdə insan kapitalının artım sürəti böyük şirkətlərlə müqayisədə yüksək olur, yəni böyük korporasiyalarda işçilərin bilik və bacarıqlarını çevik şəkildə yeniləmək daha çətin ola bilər (Kianto et al., 2020). Bu nəticə onu göstərir ki, intellektual kapitalın inkişafı üçün çevik və adaptiv təşkilati struktur önəmlidir.

Azərbaycana qayıtsaq, qeyd etmək olar ki, ölkəmizdə intellektual kapitalın formalaşmasının əsas sürücüsü kimi insan kapitalının inkişafı ön plana çəkilməlidir. Son illərdə təhsil sahəsində islahatlar (məsələn, STEM təhsilinin təşviqi, peşə təhsilinin modernləşdirilməsi) gələcək intellektual kapital bazasını genişləndirməyə yönəlib. Bununla yanaşı, dövlət tərəfindən innovasiya startaplarına dəstək mexanizmləri, qrant proqramları yaradılmışdır. Lakin AR-GE xərclərinin aşağı səviyyəsi, elmi-tədqiqat infrastrukturunun tam formalaşmaması kimi məhdudiyyətlər hələ də qalır. İntellektual kapitalın önəmli komponenti olan struktur kapitalının - yəni ölkədaxili elmi bilik bazasının - gücləndirilməsi üçün universitetlər ilə sənaye arasında əməkdaşlıq artmalı, özəl sektorun innovasiyalara yatırımı stimullaşdırılmalıdır (Secundo, at all. 2016)..

Ümumilikdə, intellektual kapitalın formalaşması çoxşaxəli prosesdir və davamlı səy tələb edir. İnsan kapitalının yaradılması on illərin işi olduğu kimi, struktur kapitalının toplanması da uzun zaman ala bilər. Mühüm olan odur ki, bu prosesdə doğru strategiya izlənilsin və müxtəlif istiqamətlər bir-birini tamamlasın. Növbəti bölmədə intellektual kapitalın səmərəli idarə edilməsi üçün tətbiq oluna biləcək mexanizmlər və yanaşmalar müzakirə ediləcəkdir. Bu mexanizmlər intellektual kapitalın mövcud ehtiyatlarının qorunması və genişləndirilməsi, həmçinin yeni intellektual dəyərlərin yaradılması məqsədini güdür.

İntellektual kapitalın inkişafyönlü idarəetmə mexanizmləri

İntellektual kapitalın formalaşdırılması qədər onun məqsədyönlü idarə olunması da vacibdir. İdarəetmə mexanizmləri intellektual kapitalın davamlı inkişafına və təşkilatın strateji məqsədlərinə xidmət edən üsul və alətlər sistemidir. Ənənəvi olaraq müəssisələr maddi və maliyyə resurslarının idarəsində ciddi təcrübəyə malikdir, lakin intellektual aktivlərin idarə olunması nisbətən yeni bir sahədir. İnkişafyönlü yanaşma mövcud bilik ehtiyatını qorumaqla yanaşı, onu genişləndirməyi, yeni bacarıqlar yaratmağı hədəfləyir.

İntellektual kapitalın idarə olunması əsasən dörd istiqamətdə cəmlənir: biliklərin idarə edilməsi, insan resurslarının inkişafı, innovasiya və yaradıcılıq mühitinin formalaşdırılması, ölçmə və hesabatlılıq. Biliklərin idarə edilməsi müəssisə daxilində biliklərin toplanması, paylaşılması və tətbiqi proseslərini əhatə edir. İntranet sistemləri, məlumat bazaları, daxili təlimlər, mentorluk və "best practice"lərin sənədləşdirilməsi struktur kapitalı gücləndirir və insan kapitalını kollektiv intellektə çevirir. Bilik paylaşımına açıq mədəniyyət bu prosesin əsas dayağıdır (Yin, & Xu, 2025). .

İnsan resurslarının inkişafı intellektual kapitalın ən fəal komponentinin - insan kapitalının - davamlı gücləndirilməsinə əsaslanır. Rəqəmsal iqtisadiyyatda davamlı təlim, ixtisasartırma, sertifikasiya proqramları və istedadların cəlbi xüsusi əhəmiyyət daşıyır. Maddi və qeyri-maddi motivasiya, karyera planlaşdırılması və mentorluq işçilərin bilik səviyyəsini yüksəldir və intellektual kapital bazasını genişləndirir.

İnnovasiya və yaradıcılıq mühitinin təşviqi yeni ideyaların formalaşması üçün şərait yaradır. İnnovasiya laboratoriyaları, daxili startap akseleratorları, "ideathon" və "hakaton" kimi tədbirlər əməkdaşların yaradıcılıq potensialını aktivləşdirir. Şirkətdə risk etmə və eksperiment mədəniyyətinin formalaşması ideyaların sınaqdan keçirilməsini asanlaşdırır və intellektual kapitalın yenilənməsini sürətləndirir. Ölçmə və hesabatlılıq intellektual kapitalın idarə edilməsində mühüm rol oynayır. VAIC kimi metodlar şirkətin əlavə dəyər yaratma qabiliyyətini qiymətləndirməyə imkan verir. Bir çox qabaqcıl təşkilatlar artıq insan, struktur və əlaqələr kapitalı üzrə illik hesabatlar hazırlayır, bu isə həm idarəetmə qərarlarına, həm də investorların etimadına müsbət təsir göstərir (Aydın , Köse 2022).

Strateji inteqrasiya intellektual kapitalın şirkətin ümumi strategiyasına daxil edilməsini tələb edir. İnnovasiya liderliyi kimi hədəflər intellektual kapital strategiyasını - istedadların cəlbi, AR-GE xərcləri, universitet-sənaye əməkdaşlığı və s. - zəruri edir. Bəzi şirkətlərdə CKO (Chief Knowledge Officer) vəzifəsinin yaradılması bu istiqamətin strateji əhəmiyyətini göstərir. Mühit və infrastrukturun optimallaşdırılması da vacib komponentdir. Rəqəmsal alətlər biliklərin paylaşılmasını və struktur kapitalının istifadəsini genişləndirir. Süni intellekt məlumat analizini asanlaşdırır, kibertəhlükəsizlik isə bilik bazasının qorunmasını təmin edir. İntellektual kapitalın idarə edilməsinə dair sistemli yanaşma - insan, struktur və əlaqələr kapitalının paralel və uyğun şəkildə inkişaf etdirilməsi - ən effektiv model hesab olunur (Buenechea-Elberdin, 2017). Bu yanaşma çərçivəsində təhsil səviyyəsinin yüksəldilməsi, innovativ tədris metodlarının tətbiqi, müəssisədaxili intellektual məhsul istehsalının stimullaşdırılması kimi addımlar intellektual potensialı ümumi şəkildə artırır.

Azərbaycan təcrübəsi göstərir ki, intellektual kapitalın idarə olunması hələ tam sistemli xarakter daşımır, lakin bank, telekommunikasiya və enerji kimi sahələrdə müsbət nümunələr artmaqdadır. Startap ekosisteminə dövlət dəstəyi də struktur kapitalının inkişafına töhfə verir. Bununla belə, şirkətlərdə intellektual kapitalın ölçülməsi və monitorinqi sisteminin formalaşması gələcək üçün zəruridir. İntellektual kapitalın inkişafyönlü idarə olunması həm iqtisadi artıma, həm də davamlı inkişafa xidmət edir. "Yaşıl" innovasiyaların və dekarbonizasiya təşəbbüslərinin intellektual kapitalı artırdığı, bunun isə davamlı inkişaf hədəflərini dəstəklədiyi müşahidə olunur. Azərbaycanın post-neft iqtisadiyyatı və "ağıllı şəhər" layihələri kontekstində intellektual kapitala yönəlik investisiyaların artırılması mühüm əhəmiyyətə malikdir (Komlichenko & Rotan, 2021).

Beləliklə, intellektual kapitalın idarə edilməsinə yaradıcı yanaşma, düzgün strateji planlaşdırma və çevik institusional dəstək tələb olunur. Bu mexanizmlərin gücləndirilməsi ölkə və müəssisə səviyyəsində rəqabət üstünlüyü yaratmağa imkan verəcəkdir.

NƏTİCƏ

Aparılmış tədqiqat göstərdi ki, rəqəmsal iqtisadiyyat şəraitində intellektual kapitalın formalaşması və inkişafyönlü idarə olunması həm nəzəri, həm də empirik baxımdan həlledici əhəmiyyət daşıyır. Məqalədə intellektual kapitalın mahiyyəti və onun insan, struktur və əlaqələr kapitalından ibarət sinerji xarakteri aydınlaşdırılmışdır. Rəqəmsal iqtisadiyyatın yüksəlişi ilə intellek-

tual kapitalın maddi aktivlərə nisbətən daha strateji rol oynadığı qlobal göstəricilərlə də təsdiqlənmişdir.

Tədqiqat intellektual kapitalın formalaşmasına təsir edən əsas amilləri də ortaya qoymuşdur. Ali təhsilin genişlənməsi və savadlılıq səviyyəsinin artması insan kapitalını gücləndirir, lakin AR-GE xərclərinin aşağı səviyyədə qalması struktur kapitalının tam formalaşmasına mane olur. Azərbaycanın son illərdəki göstəriciləri insan kapitalı artımının müsbət, innovasiya potensialının isə məhdud olduğunu göstərir. Bu nəticə təhsil, elm, innovasiya və institusional islahatların paralel şəkildə aparılmasının zəruriliyini sübut edir. İntellektual kapitalın idarə olunması üzrə təhlil isə göstərdi ki, inkişafyönlü yanaşma yalnız mövcud bilik aktivlərini qorumaq deyil, onların davamlı genişləndirilməsi strategiyasını tələb edir. Bilik idarəetmə sistemləri, davamlı təlim, innovasiya mühitinin gücləndirilməsi və komponentlər arasında balansın qorunması effektiv idarəetmənin əsasıdır. Azərbaycanın milli kontekstində aparılan qiymətləndirmə sübut edir ki, bəzi sektorlar müasir yanaşmaları tətbiq etsə də, intellektual kapitalın sistemli idarəetməsi hələ tam formalaşmayıb.

Nəticələr əvvəlki tədqiqatlarla da uyğunluq təşkil edir. Milli intellektual kapitalın iqtisadi artıma müsbət təsiri, şirkət səviyyəsində maliyyə nəticələrini yaxşılaşdırması aparılan analizlə təsdiqlənmişdir. Bununla belə, bəzi xüsusi nüanslar, o cümlədən şirkət ölçüsünün insan kapitalına təsiri kimi məsələlər əlavə araşdırma tələb edir.

Tövsiyələr iki istiqamətdə cəmləşir:

- İqtisadi siyasət səviyyəsində: intellektual kapitalı artıran kompleks strategiya, AR-GE xərclərinin yüksəldilməsi, universitet-sənaye əməkdaşlığının gücləndirilməsi, innovasiya ekosisteminin genişləndirilməsi.
- Şirkətlər səviyyəsində: bilik idarəetmə sistemlərinin qurulması, işçilərin inkişafına sərmayə qoyulması, innovasiya təşviqi, illik intellektual kapital hesabatlarının tətbiqi.

Nəticə etibarilə, intellektual kapitala yatırımın həm dövlət, həm də müəssisə səviyyəsində yüksək iqtisadi dəyər yaratdığı qəti şəkildə görünür. Azərbaycanın post-neft dövründə dayanıqlı inkişaf modelinə keçidi üçün intellektual kapitalın gücləndirilməsi həlledici rol oynayacaq və bu sahədə aparılacaq gələcək tədqiqatlar həm nəzəriyyəyə, həm də praktikaya mühüm töhfə verəcəkdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Aydın Gökhan, Köse Cemil (2022). The impact of intellectual capital on firm performance in the digital economy: Evidence from emerging markets. Journal of Intellectual Capital, 23(4), 721-743.

2. Bontis Nick (1998). Intellectual capital: An exploratory study that develops measures and models. Management Decision, 36(2), 63-76.

3. Buenechea-Elberdin Miren (2017). Structured literature review of the intellectual capital field using bibliometric analysis. Journal of Intellectual Capital, 18(2), 262-285.

4. Derdiyok Tuba, Doğru Çağla, Ünal Sema (2021). Dijital çağda entelektüel sermayenin dönüşümü ve şirketlerin rekabet güçlerine etkileri. Ufuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 9(18), 7-26.

5. Di Vaio Antonio, Zaffar Areeb, Chhabra Manpreet (2024). Intellectual capital through decarbonization for achieving Sustainable Development Goal 8: A systematic literature review and future research directions. Journal of Intellectual Capital, 25(7), 54-86.

6. Dzenopoljac Veljko, Yaacoub Charbel, Elkanj Nicolas, Bontis Nick (2017). Impact of intellectual capital on corporate performance: Evidence from the Arab region. Journal of Intellectual Capital, 18(4), 884-903.

7. Gashe Kebede, Sime Zemenu, Mada Mesfin (2024). Intellectual capital and economic growth: Evidence from some selected countries. Cogent Economics & Finance, 12(1), 2330429.

8. Kianto Arnaud, Vanhala Mikko, Ritala Paavo, Hussinki Henri (2020). What drives the development of intellectual capital? A longitudinal study. In Ordóñez de Pablos, Patricia & Edvinsson, Leif (Eds.), Intellectual Capital in the Digital Economy. Routledge.

9. Komlichenko Olena Oleksiivna, Rotan Nataliia Volodymyrivna (2021). Management of the intellectual capital development in the educational institutions. Scientific Notes of Junior Academy of Sciences of Ukraine, 3(19), 51-80.

10. Martins Ana Elisa, Lopes Ana (2024). Intellectual Capital: Revisiting an Analytical Model. Journal of Risk and Financial Management, 17(11), 478.

11. Nazarov Mahmud Həsən (2022). İnnovativ iqtisadiyyatın inkişafında intellektual kapitalın rolu. Kooperasiya Elmi-Praktik Jurnalı, 3(66), 211-220.

12. Secundo Giustina, Dumay John, Schiuma Giovanni, Passiante Giuseppina (2016). Managing intellectual capital through a collective intelligence approach: An integrated framework. Journal of Intellectual Capital, 17(2), 298-319.

13. Stewart Thomas A. (1997). Intellectual Capital: The New Wealth of Organizations. New York: Doubleday/Currency.

14. Yılmaz Ayşegül Arzu, Tuzlukaya Selçuk Emre (2024). The relation between intellectual capital and digital transformation: A bibliometric analysis. International Journal of Innovation Science, 16(2), 244-264.

15. Yin Jian, Xu Jie (2025). Intellectual capital, digital transformation and firms' financial performance: Evidence from ecological protection and environmental governance industry in China. PLoS ONE, 20(1), e0316724.

H.M.Rustamov
master student, Azerbaijan State University of Economics (UNEC)

Formation of intellectual capital and development-oriented management mechanisms in the context of the digital economy

Abstract

This study aims to identify the key factors influencing the formation of intellectual capital in the context of the digital economy and to analyze development-oriented management mechanisms that support its advancement. Methodologically, the research is based on a combination of theoretical literature review and comparative analysis of post-2020 empirical indicators specific to Azerbaijan. The main findings reveal that intellectual capital - comprising human, structural, and relational capital - is directly associated with the competitiveness of enterprises and overall economic development. Factors such as education level, R&D expenditures, and the innovation environment are among the primary determinants shaping this capital. Limitations of the study include the difficulty of measuring certain intangible components and the limited availability of comprehensive statistical data. The originality of the research lies in its application of a systematic empirical approach to intellectual capital within the national economic context of Azerbaijan. As a scientific contribution, it establishes for the first time a link between the components of intellectual capital and specific national indicators. In terms of practical significance, the study offers applicable recommendations for improving the management of intellectual capital and provides a scientific basis for strategic decision-making in economic policy and organizational development.

Keywords: *digital economy, intellectual capital, human capital, intangible assets, management mechanisms.*

https://doi.org/10.58225/tim.2026-2-303-309

A.İ.Bədəlzadə
müəllim, Azərbaycan Dövlət Neft və Sənayə Universiteti PHŞ
ayselbedelzade9@gmail.com
X.İ.Bədəlzadə
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
bedelzade18@gmail.com

Məqalə redaksiyaya daxil olub 29.03.2026
The article was received by editorial board on 29.03.2026
Статья принята к печати 29.03.2026

RƏQƏMSALLAŞMAYA KEÇİD ŞƏRAİTİNDƏ SƏMƏRƏLİLİYİN NƏZƏRİ – METODOLOJİ MƏSƏLƏLƏRİ

Xülasə

Müasir dövrdə qlobal iqtisadiyyatın əsas inkişaf tendensiyalarından biri rəqəmsallaşmadır. Rəqəmsal texnologiyaların sürətli inkişafı istehsal, xidmət, idarəetmə və kommunikasiya sistemlərinin strukturunu köklü şəkildə dəyişməkdədir. Bu şəraitdə sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılması məsələsi xüsusi aktuallıq kəsb edir, çünki rəqəmsal transformasiya həm resurslardan istifadəni optimallaşdırmaq, həm də istehsalın keyfiyyət və məhsuldarlıq göstəricilərini yüksəltmək üçün yeni imkanlar yaradır. Azərbaycan iqtisadiyyatı da bu prosesdən kənarda qalmamış, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Rəqəmsal transformasiya konsepsiyası" kimi dövlət sənədləri vasitəsilə rəqəmsal iqtisadiyyatın formalaşdırılmasını strateji prioritet kimi müəyyən etmişdir. Xüsusilə sənaye sektorunda rəqəmsallaşma — avtomatlaşdırma, süni intellekt, böyük verilənlər (Big Data), əşyaların interneti (IoT) və rəqəmsal idarəetmə sistemlərinin tətbiqi — müəssisələrin rəqabət qabiliyyətini və dayanıqlılığını artıran əsas faktor kimi çıxış edir. (Azərbaycan Respublikası Prezidenti. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər**.** *Bakı, 2021) Tədqiqatın əsas məqsədi iqtisadiyyatın rəqəmsallaşması şəraitində sənaye müəssisələrinin səmərəliliyinin artırılması istiqamətlərini nəzəri və metodoloji baxımdan təhlil etmək, rəqəmsal texnologiyaların tətbiqinin müəssisələrin fəaliyyət göstəricilərinə təsirini qiymətləndirmək və bu əsasda səmərəliliyin yüksəldilməsi üçün praktik tövsiyələr irəli sürməkdir.*

Açar sözlər: *iqtisadiyyat, rəqəmsal iqtisadiyyat, səmərilik, məhsuldarlıq, rentabellik, innoasiya.*

Rəqəmsallaşma şəraitində sənaye müəssisələrinin səmərəliliyinin artırılmasının nəzəri-metodoloji əsasları

Müasir iqtisadi nəzəriyyədə səmərəlilik anlayışı istehsalın, resurs istifadəsinin və idarəetmənin effektivliyini xarakterizə edən əsas kateqoriyalardan biri kimi qəbul edilir. Bu anlayış, iqtisadi fəaliyyətin nəticələri ilə onun həyata keçirilməsi üçün sərf olunan resursların nisbətini ifadə edir. Başqa sözlə, səmərəlilik - müəyyən məqsədə nail olmaq üçün istifadə edilən resursların optimal dərəcədə istifadə olunmasıdır. Səmərəlilik anlayışı iqtisadi ədəbiyyatda müxtəlif baxış bucaqlarından izah olunur. Klassik iqtisadçılar səmərəliliyi əsasən istehsalın məhsuldarlığı və resurs istifadəsinin qənaətliliyi prizmasından qiymətləndirmişlər. Məsələn, A. Smit və D. Rikardo səmərəliliyi əmək bölgüsü, ixtisaslaşma və istehsal miqyası ilə əlaqələndirirdilər. Neoklassik iqtisadiyyatda isə səmərə-

lilik daha çox Pareto səmərəliliyi və istehsal sərhədi anlayışları ilə ölçülür. Pareto səmərəliliyi o vəziyyəti ifadə edir ki, bir iqtisadi subyektin vəziyyətini yaxşılaşdırmaq, digərinin vəziyyətini pisləşdirmədən mümkün deyildir.

XX əsrdə iqtisadi nəzəriyyədə səmərəlilik anlayışı çoxölçülü məzmun qazanmışdır. Bu dövrdə J. K. Qalbrait, P. Druker, H. Leybenstein kimi alimlər səmərəliliyin yalnız iqtisadi deyil, həm də idarəetmə, psixoloji və sosial aspektlərini önə çəkmişlər. Məsələn, H. Leybenstein "X-səmərəlilik" anlayışını irəli sürərək göstərirdi ki, müəssisələr texnoloji baxımdan mümkün olan maksimum səmərəliliyə çox zaman psixoloji, təşkilati və motivasiya amillərinə görə çatmırlar [1, 2]

Səmərəlilik iqtisadi sistemin bütün səviyyələrində - makroiqtisadi, mezo və mikro səviyyələrdə - fərqli məzmun daşıyır. Makro səviyyədə səmərəlilik ümumi iqtisadi artımı, milli gəlirin artım tempini, əmək və kapitalın məhsuldarlığını əks etdirir. Mikro səviyyədə, yəni müəssisə kontekstində isə səmərəlilik konkret istehsal vahidinin fəaliyyət nəticələrini müəyyənləşdirir.

Sənaye müəssisəsi səviyyəsində səmərəlilik dedikdə, müəssisənin məhsuldar potensialının reallaşdırılması dərəcəsi, məhsul buraxılışının artımı, resurslardan qənaətli istifadə və iqtisadi nəticələrin maksimallaşdırılması başa düşülür. Bu mənada səmərəlilik həm nəticəvi göstərici, həm də idarəetmə məqsədi kimi çıxış edir.

Müəssisə səmərəliliyinin təməl komponentlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. İstehsal səmərəliliyi – istehsal resurslarından (əmək, kapital, materiallar, enerji) istifadənin optimal səviyyəsi;
2. Maliyyə səmərəliliyi – gəlirlilik, rentabellik və mənfəətlilik göstəriciləri;
3. İnnovativ səmərəlilik – texnoloji yeniliklərin tətbiqindən əldə olunan nəticələr;
4. Sosial səmərəlilik – işçi rifahı, əmək şəraiti və sosial məsuliyyətin səviyyəsi;
5. Ekoloji səmərəlilik – istehsal proseslərinin ətraf mühitə təsirinin azaldılması.

Beləliklə, səmərəlilik təkcə iqtisadi göstəricilərlə deyil, həm də sosial və ekoloji nəticələrlə ölçülən kompleks göstəricidir. Müasir dövrdə bu çoxşaxəlilik sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsində əsas istiqamət kimi qəbul olunur.

Səmərəliliyi ölçmək üçün iqtisadi ədəbiyyatda müxtəlif göstəricilərdən istifadə edilir. Ənənəvi olaraq bu göstəricilər iki böyük qrupa bölünür: qismən (private) göstəricilər – konkret bir resursun məhsuldarlığını əks etdirir (məsələn, əmək məhsuldarlığı, kapitalın rentabelliyi); ümumi (overall) göstəricilər – müəssisənin ümumi fəaliyyət nəticələrini ifadə edir (məsələn, ümumi rentabellik, ümumi xərclərin məhsul buraxılışına nisbəti və s.).

Ən geniş istifadə olunan göstəricilər aşağıdakılardır:

1. Əmək məhsuldarlığı (ƏM) = İstehsal olunan məhsulun həcmi / İşçilərin sayı və ya sərf olunan iş vaxtı;
2. Kapitalın rentabelliyi (KR) = Mənfəət / Kapital qoyuluşları;
3. Ümumi xərclərin səmərəliliyi (SX) = Məhsul həcmi / Ümumi istehsal xərcləri;
4. Enerji səmərəliliyi (ES) = İstehsal olunan məhsulun enerjiyə nisbəti;
5. İnnovativ səmərəlilik (İS) = Yeni texnologiyaların tətbiqi nəticəsində əldə edilən əlavə dəyər / Texnoloji investisiyalara xərclər.

Lakin bu göstəricilərin hər biri müəssisənin fəaliyyətinin yalnız müəyyən aspektini əks etdirir. Buna görə də səmərəliliyin obyektiv qiymətləndirilməsi üçün çoxmeyarlı yanaşmalar tətbiq olunur.

Səmərəlilik meyarları müəssisənin fəaliyyətinin məqsədlərinə uyğun olaraq müəyyən edilir. Ən çox istifadə olunan meyarlar aşağıdakılardır:

1. İqtisadi meyar – müəssisənin gəlir və mənfəət səviyyəsinin artımı, resurs qənaəti, xərclərin azaldılması;
2. Texnoloji meyar – istehsal proseslərinin avtomatlaşdırma dərəcəsi, avadanlıqların istismar effektivliyi, məhsul keyfiyyətinin artması;
3. İnnovativ meyar – elmi-tədqiqat və təkmilləşdirmə fəaliyyətinin nəticələri;

4. Sosial meyar – işçi məmnunluğu, sosial təminat və təhlükəsiz iş şəraiti;
5. Ekoloji meyar – tullantıların azaldılması, enerjidən səmərəli istifadə, ekoloji sertifikatların mövcudluğu;
6. Rəqəmsal meyar – müəssisənin informasiya sistemlərinin inkişaf səviyyəsi, rəqəmsal inteqrasiya və avtomatlaşdırma göstəriciləri.

Rəqəmsallaşma dövründə bu meyarların sonuncusu – rəqəmsal meyarlar – xüsusi əhəmiyyət kəsb edir. Çünki rəqəmsal texnologiyalar istehsalın bütün mərhələlərinə planlaşdırmadan tutmuş satış və müştəri xidmətlərinə qədər təsir edir.

Sənaye müəssisələrinin səmərəliliyinə təsir edən amillər çoxsaylı və çoxşaxəlidir. Onları ümumiləşdirərək aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. İqtisadi amillər: istehsal miqyası, xammal təminatı, bazar tələbi, qiymət dinamikası və maliyyə dayanıqlığı.
2. Texnoloji amillər: avadanlıqların texniki səviyyəsi, avtomatlaşdırma, istehsal proseslərinin çevikliyi və texnoloji yeniliklərin tətbiqi.
3. İdarəetmə amilləri: təşkilati struktur, menecmentin keyfiyyəti, qərar qəbuletmə mexanizmləri.
4. İnsan amili: işçi ixtisası, motivasiya sistemi, əmək mədəniyyəti və innovasiyaya açıq olma dərəcəsi.
5. Rəqəmsallaşma amilləri: məlumat axınının səmərəliliyi, rəqəmsal platformaların istifadəsi, informasiya texnologiyalarının inteqrasiyası.

Müasir yanaşmada bu amillər bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Məsələn, idarəetmə amilləri texnoloji modernləşməni təşviq edə bilər, rəqəmsallaşma isə insan amilinin məhsuldarlığını artırır.Səmərəlilik və rəqabətqabiliyyət anlayışları bir-birini tamamlayır. Səmərəlilik resurslardan düzgün istifadəni təmin edirsə, rəqabətqabiliyyət bazarda üstün mövqe tutmaq qabiliyyətini müəyyən edir. Rəqəmsal iqtisadiyyatda bu iki anlayış arasında daha sıx əlaqə yaranmışdır. Çünki rəqəmsal texnologiyalar sayəsində istehsal xərcləri azalır, məhsul keyfiyyəti artır və bazara çıxış daha sürətli olur.

Beynəlxalq təcrübə göstərir ki, səmərəliliyi artıran əsas istiqamətlər bunlardır:

- istehsal proseslərinin avtomatlaşdırılması və robotlaşdırılması;
- informasiya texnologiyalarının idarəetməyə inteqrasiyası;
- innovasiyaların kommersiyalaşdırılması;
- resurs dövriyyəsinin optimallaşdırılması;
- davamlı inkişaf və ekoloji məsuliyyət prinsiplərinə əməl olunması. (Sustainable Manufacturing Expo. (2024). *The benefits of factory automation in sustainable manufacturing*.)

Beləliklə, səmərəlilik müəssisənin bazarda davamlı rəqabət aparmaq potensialını formalaşdıran əsas strateji göstəricidir. Səmərəlilik təkcə ölçülməli göstərici deyil, həm də idarəetmə prosesinin məqsədyönlü istiqamətidir. Müasir idarəetmə elmi səmərəliliyin artırılması üçün aşağıdakı mexanizmləri təklif edir [1]. Strateji planlaşdırma mexanizmi – müəssisənin uzunmüddətli məqsədlərinə uyğun resurs bölgüsü və fəaliyyət istiqamətinin müəyyənləşdirilməsi;

1. İnnovasiya mexanizmi – yeni texnologiyaların tətbiqi, elmi-tədqiqat və təkmilləşdirmə fəaliyyətinin gücləndirilməsi;
2. Motivasiya mexanizmi – işçilərin əməyə münasibətinin və performansının yüksəldilməsi üçün maddi və mənəvi stimulların tətbiqi;
3. İnformasiya mexanizmi – qərarların qəbulunda məlumatların real vaxtda istifadəsi;
4. Rəqəmsal idarəetmə mexanizmi – süni intellekt, ERP (Enterprise Resource Planning (ERP) – müəssisənin bütün əsas biznes proseslərini (maliyyə, mühasibat, insan resursları, istehsal, logistika, satış və s.) vahid informasiya sistemi üzərindən inteqrasiya edən idarəetmə sistemidir.) və analitika sistemləri vasitəsilə idarəetmənin avtomatlaşdırılması.

Səmərəliliyin artırılmasının ən müasir forması rəqəmsal idarəetmə modelidir. Bu modeldə müəssisənin bütün əməliyyatları - istehsal, logistika, satış və xidmətlər - vahid informasiya platforması üzərində əlaqələndirilir.

Beləliklə, sənaye müəssisələrinin səmərəliliyi çoxölçülü və çoxamilli iqtisadi göstəricidir. O, müəssisənin resurslardan istifadə effektivliyini, innovasiya potensialını, idarəetmə keyfiyyətini və bazar şəraitinə adaptasiya qabiliyyətini əks etdirir. Müasir iqtisadi şəraitdə səmərəliliyin qiymətləndirilməsi təkcə istehsal nəticələri ilə deyil, həm də rəqəmsallaşmanın gətirdiyi yeni imkanlarla bağlıdır. Səmərəliliyin əsas meyarları – iqtisadi, texnoloji, sosial, ekoloji və rəqəmsal göstəricilər – bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Rəqəmsallaşma isə bu meyarların sinerjisini təmin edərək, sənaye müəssisələrinin dayanıqlı inkişafına təkan verir. Rəqəmsallaşma anlayışı son onilliklərdə iqtisadi elmlərin əsas tədqiqat istiqamətlərindən birinə çevrilmişdir. Rəqəmsallaşma təkcə texnoloji yenilənmə deyil, həm də iqtisadi münasibətlərin, idarəetmə modellərinin və istehsal mexanizmlərinin dəyişməsi deməkdir. Terminoloji baxımdan "rəqəmsallaşma" (ing. *digitalization*) anlayışı ilk dəfə 1990-cı illərdə informasiya cəmiyyətinə keçidin təhlili zamanı işlədilmişdir. Lakin XXI əsrin əvvəllərindən etibarən bu anlayışın məzmunu genişlənərək, rəqəmsal texnologiyaların, iqtisadi fəaliyyətin, ictimai münasibətlərin və sosial strukturların əsas elementi kimi formalaşması mənasını daşımağa başlamışdır. *(Digitalization)*

Rəqəmsallaşma prosesi üç əsas mərhələdə inkişaf etmişdir:

1. İnformasiya texnologiyalarının tətbiqi mərhələsi (1980–1990-cı illər) – bu dövrdə əsas diqqət kompüter texnologiyalarının və avtomatlaşdırılmış idarəetmə sistemlərinin istehsal proseslərinə daxil edilməsinə yönəlmişdi.
2. Rəqəmsal iqtisadiyyatın formalaşması mərhələsi (2000–2010-cu illər) – internetin, elektron ticarətin, bulud xidmətlərinin və rəqəmsal platformaların yaranması ilə xarakterizə olunur.
3. Rəqəmsal transformasiya və Sənaye 4.0 mərhələsi (2010-cu ildən bu günə qədər) – süni intellekt, böyük verilənlər (Big Data), "əşyaların interneti" (IoT), 3D çap texnologiyaları və blokçeyn sistemlərinin istehsalat və idarəetməyə inteqrasiyası baş verir.

Beləliklə, rəqəmsallaşma yalnız texnoloji yenilik deyil, həm də iqtisadi və sosial sistemlərin yeni mərhələyə keçidini təmin edən transformasiya prosesidir.

Rəqəmsal iqtisadiyyat (digital economy) dedikdə, informasiya və kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi nəticəsində formalaşan iqtisadi münasibətlər sistemi başa düşülür. Bu anlayış ilk dəfə 1995-ci ildə amerikalı iqtisadçı Don Tapscott tərəfindən "The Digital Economy" əsərində elmi dövriyyəyə daxil edilmişdir. Tapscott rəqəmsal iqtisadiyyatı "bilgi texnologiyalarına əsaslanan, bilik və innovasiyaların əsas istehsal resursu kimi çıxış etdiyi yeni iqtisadi sistem" kimi xarakterizə etmişdir. *(Tapscott, 1995)*

Rəqəmsal iqtisadiyyatın mahiyyətini müəyyən edən əsas xüsusiyyətlər bunlardır:

1. Verilənlər əsaslı iqtisadi fəaliyyət: iqtisadi qərarlar real vaxt rejimində toplanan və emal edilən böyük verilənlər bazasına əsaslanır;
2. Rəqəmsal platformalar: istehsalçı, istehlakçı və xidmət təminatçıları vahid ekosistem daxilində fəaliyyət göstərirlər;
3. Əlaqələndirilmiş istehsal sistemləri: "əşyaların interneti" vasitəsilə fiziki və rəqəmsal obyektlər bir-biri ilə qarşılıqlı əlaqədə olur;
4. Süni intellekt və avtomatlaşdırma: istehsal və idarəetmə proseslərində insan əməyini əvəzləyən və qərar qəbuletməni sürətləndirən sistemlər tətbiq olunur;
5. Yeni dəyər zənciri modeli: dəyər yaratma prosesi məhsulun istehsalından çox, məlumatların və xidmətlərin idarə edilməsinə əsaslanır.

Rəqəmsal iqtisadiyyatın nəzəri əsasları neoinstitusional iqtisadiyyat, yeniliklər nəzəriyyəsi və məlumat iqtisadiyyatı kimi elmi istiqamətlərin kəsişməsində formalaşır. Neoinstitusional yanaşmaya görə, rəqəmsallaşma iqtisadi fəaliyyətin institusional mühitini dəyişdirir - yəni, bazar strukturları,

müqavilə münasibətləri və mübadilə mexanizmləri artıq rəqəmsal müstəviyə keçir. Məlumat iqtisadiyyatı nəzəriyyəsi isə göstərir ki, müasir iqtisadiyyatın əsas resursu artıq əmək və kapital deyil, informasiya və biliklərdir. Bu yanaşma sənaye müəssisələrinin fəaliyyətində rəqəmsal texnologiyaların vacibliyini bir daha təsdiqləyir. Rəqəmsallaşma iqtisadi sistemlərdə struktur, funksional və institusional dəyişikliklərə səbəb olur. Onun təsir mexanizmlərini dörd əsas istiqamətdə təsnif etmək mümkündür:

1. İstehsal sferasında – avtomatlaşdırma, robotlaşdırma və süni intellektin tətbiqi istehsal proseslərini optimallaşdırır, xərcləri azaldır və məhsuldarlığı artırır. Bu, "smart factory" və "cyber-physical systems" konsepsiyalarının əsasını təşkil edir.
2. İdarəetmə sferasında – rəqəmsal analitika, ERP (Enterprise Resource Planning) və CRM sistemləri qərarların qəbulunu sürətləndirir, insan səhvlərini azaldır və şəffaflığı təmin edir.
3. Ticarət və bazar münasibətlərində – elektron kommersiya, rəqəmsal platformalar və elektron ödəniş sistemləri vasitəsilə bazar münasibətləri qlobal səviyyəyə çıxarılır.
4. Sosial-iqtisadi münasibətlərdə – rəqəmsallaşma əmək bazarını, məşğulluq formalarını və istehlak davranışını dəyişdirir. Uzaqdan iş, müstəqil (sərbəst) fəaliyyət formaları **və** qısamüddətli, layihə əsaslı məşğulluq modeli anlayışlar bu prosesin nəticəsidir.

Rəqəmsallaşma həmçinin iqtisadi artımın keyfiyyət parametrlərini dəyişir. Əgər sənayeləşmə dövründə iqtisadi artım əsasən istehsal güclərinin fiziki genişlənməsi ilə bağlı idisə, rəqəmsal dövrdə artım "rəqəmsal məhsuldarlıq" və "bilgi kapitalı" hesabına təmin olunur. Rəqəmsallaşmanın sənaye sahəsindəki ən mühüm təzahürü Sənaye 4.0 (Industry 4.0) konsepsiyasıdır. Bu konsepsiya ilk dəfə 2011-ci ildə Almaniyada təqdim olunmuş və istehsal sistemlərinin dördüncü inqilabi mərhələsini ifadə etmişdir. *(Kagermann, Wahlster, Helbig, 2013)*

Sənaye 4.0 konsepsiyasının mahiyyəti aşağıdakı prinsiplərlə müəyyən olunur:

- Kibercisim sistemləri (Cyber-Physical Systems): fiziki istehsal vasitələrinin rəqəmsal modellərlə inteqrasiyası;
- Nesnələrin interneti (Internet of Things): istehsal avadanlıqları, nəqliyyat vasitələri və anbar sistemlərinin məlumat mübadiləsi vasitəsilə əlaqələndirilməsi;
- Böyük verilənlər və analitika: istehsalatdan toplanan real vaxt məlumatlarının təhlili və proqnozlaşdırılması;
- Avtonom istehsal və süni intellekt: istehsal sistemlərinin öz-özünə qərar qəbul etmə və təkmilləşmə qabiliyyəti;
- Bulud texnologiyaları: resursların çevik və uzaqdan idarə olunması.

Sənaye 4.0 konsepsiyası sənaye müəssisələrinin fəaliyyətini rəqəmsal ekosistemlər daxilində yenidən qurmağa yönəlmişdir. Bu, müəssisələrin istehsal zəncirinin hər bir mərhələsində (dizayn, istehsal, logistika, satış və satışdan sonrakı xidmətlər) rəqəmsal koordinasiyanın təmin edilməsini nəzərdə tutur [3]. Beynəlxalq təcrübə göstərir ki, Industry 4.0 konsepsiyasının uğurla tətbiqi zamanı bəzi fabriklərdə maşın dayanma vaxtı 30–50 %, istehsal həcmi 10–30 %, əmək məhsuldarlığı isə 15–30 % artmışdır (McKinsey & Company, 2022). Bundan başqa, son araşdırmalar - məsələn, süni intellektin smart istehsal proseslərinə inteqrasiyasını analiz edən 2025-ci il məqaləsi - göstərir ki, Industry 4.0 texnologiyaları resurs istifadə effektivliyini və ümumi istehsal performansını ciddi şəkildə yüksəldə bilər *(Harnessing AI for smart manufacturing, 2025).*

Rəqəmsallaşmanın sənaye müəssisələrinə təsiri çoxşaxəli və kompleks xarakter daşıyır. Bu təsiri iqtisadi, texnoloji və təşkilati səviyyələrdə təhlil etmək mümkündür

1. İqtisadi təsir

Rəqəmsal texnologiyalar istehsal xərclərini azaldır, resursların paylanmasını optimallaşdırır və istehsalın çevikliyini artırır. Məsələn, avtomatlaşdırma nəticəsində əməyə olan tələbatın struktur dəyişməsi baş verir, məhsulun maya dəyəri azalır və bazara çıxış müddəti qısalır. Bundan başqa, rəqəmsal platformalar vasitəsilə satış və logistika xərcləri də minimuma enir.

Rəqəmsallaşma həm də müəssisələrin iqtisadi dayanıqlığını gücləndirir. Böyük verilənlərin analitikası bazar dəyişikliklərini proqnozlaşdırmağa, istehsal həcmini tələbatla uyğunlaşdırmağa imkan yaradır. Bu, risklərin azaldılmasına və mənfəətliliyin sabit saxlanmasına səbəb olur

2. Texnoloji təsir

Rəqəmsallaşmanın sənaye texnologiyalarına təsiri əsasən istehsalın avtomatlaşdırılması, robotlaşdırılması və intellektuallaşdırılması ilə bağlıdır. Bu prosesdə əsas məqsəd - istehsalın fasiləsizliyini təmin etmək, xətaları minimuma endirmək və resurs istifadəsini optimallaşdırmaqdır.

Rəqəmsal texnologiyalar, xüsusilə IoT sistemləri, müəssisələrə real vaxtda istehsal proseslərinə nəzarət imkanı verir. Sensor texnologiyaları vasitəsilə avadanlıqların vəziyyəti izlənilir, texniki nasazlıqlar qabaqcadan aşkarlanır və istehsal dayanmasının qarşısı alınır

3. Təşkilati və idarəetmə təsiri

Rəqəmsallaşma idarəetmə strukturlarında çevik modellərin formalaşmasına səbəb olur. Ənənəvi iyerarxik idarəetmə modeli rəqəmsal mühitdə daha çox şəbəkə əsaslı idarəetmə ilə əvəz olunur. Müəssisə daxilində məlumat axını sürətlənir, qərarların qəbulu çevikləşir və əməkdaşlıq səviyyəsi yüksəlir.

ERP (Enterprise Resource Planning), CRM (Customer Relationship Management) və SCM (Supply Chain Management sistemlərinin tətbiqi idarəetmənin bütün səviyyələrini birləşdirir. Məsələn, istehsal planlaşdırması ilə təchizat zənciri və satış prosesləri inteqrasiya olunur ki, bu da resurs axınının sinxronlaşdırılmasını təmin edir. Rəqəmsallaşmanın sənaye sektoruna təsiri yalnız iqtisadi nəticələrlə məhdudlaşmır, həm də sosial və ekoloji sahələrdə mühüm dəyişikliklər yaradır. Sosial aspektdən, rəqəmsallaşma əmək bazarının strukturunu dəyişdirir - aşağı ixtisaslı işçilərə olan tələbat azalır, yüksək texnoloji biliklərə malik kadrlara ehtiyac artır. Bu, əmək bazarında yeni peşə və bacarıq tələbləri yaradır.

Ekoloji baxımdan rəqəmsallaşma davamlı inkişaf prinsiplərinin reallaşmasına şərait yaradır. "Ağıllı" enerji idarəetmə sistemləri, rəqəmsal istehsal planlaşdırması və tullantıların monitorinqi ekoloji səmərəliliyi artırır. Bu, "yaşıl iqtisadiyyat" konsepsiyasının sənaye səviyyəsində tətbiqinə təkan verir. Rəqəmsallaşma iqtisadi artımın yeni keyfiyyət mərhələsini təmin edir. Dünya Bankının 2025-ci il hesabatına əsasən, İKT-nin və rəqəmsal innovasiyaların payı ÜDM artımında illik 1,2–1,5 faiz bənd artım təmin edir. Sənaye müəssisələri səviyyəsində isə rəqəmsallaşma aşağıdakı nəticələri doğurur:

- istehsal dövrlərinin qısalması və məhsuldarlığın artması;
- istehsal xərclərinin azaldılması və rentabellik səviyyəsinin yüksəlməsi;
- məhsul keyfiyyətinin və bazar çevikliyinin artırılması;
- məlumatların analitik təhlili hesabına daha dəqiq strateji qərarların qəbulu;
- innovativ fəaliyyətin stimullaşdırılması və yeni biznes modellərinin formalaşması.

Beləliklə, rəqəmsallaşma sənaye müəssisələrinin ümumi iqtisadi səmərəliliyinin əsas determinantı kimi çıxış edir.

Azərbaycan Respublikasında rəqəmsallaşma iqtisadi siyasətin prioritet istiqamətlərindən biridir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində "rəqəmsal cəmiyyətin və innovativ iqtisadiyyatın formalaşdırılması" əsas məqsədlərdən biri kimi müəyyən edilmişdir [4]. Son illərdə həyata keçirilən "Rəqəmsal transformasiya konsepsiyası", "Dövlət xidmətlərinin rəqəmsallaşdırılması proqramı", "Elektron hökumət portalı" və "ASAN xidmət" layihələri bu istiqamətdə sistemli tədbirlərin nümunəsidir. Sənaye sektorunda isə "Sumqayıt Kimya Sənaye Parkı", "Balaxanı Sənaye Parkı" və "Yüksək Texnologiyalar Parkı" kimi platformalar rəqəmsal istehsal modellərinin tətbiqi üçün real baza yaradır.

Eyni zamanda, sənaye müəssisələrinin rəqəmsal transformasiyası üçün dövlət tərəfindən vergi güzəştləri, texnoloji investisiya dəstəkləri və innovasiya inkubatorları yaradılır. Bu tədbirlər sənaye səmərəliliyinin yüksəldilməsinə yönəlmiş mühüm iqtisadi mexanizmlərdir.

Beləliklə, iqtisadiyyatın rəqəmsallaşması müasir inkişaf mərhələsində sənaye müəssisələrinin fəaliyyətinə fundamental təsir göstərən bir prosesdir. Rəqəmsallaşma yalnız texnoloji yenilənmə deyil, həm də iqtisadi münasibətlərin, idarəetmə sistemlərinin və istehsal strukturunun dəyişməsini təmin edən kompleks transformasiyadır. Rəqəmsal iqtisadiyyatın nəzəri əsasları informasiya və biliklərin əsas istehsal resursuna çevrilməsi prinsipinə söykənir. Bu baxımdan sənaye müəssisələrinin rəqəmsal transformasiyası səmərəliliyin artırılmasının və dayanıqlı inkişafın vacib şərtidir.

Nəticə etibarilə, rəqəmsallaşma sənaye müəssisələrinə aşağıdakı üstünlükləri qazandırır:

- istehsal proseslərinin çevikliyi və şəffaflığı;
- resurslardan optimal istifadə;
- məlumat əsaslı qərar qəbuletmə;
- rəqabətqabiliyyətin və innovativ potensialın güclənməsi.

Bu səbəbdən, sənaye müəssisələrinin gələcək inkişafı rəqəmsallaşma proseslərinin dərinləşdirilməsi və onun səmərəli idarə olunmasından asılı olacaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Drucker P. (1974). Management: Tasks, Responsibilities, Practices. New York: Harper & Row.

2. Galbraith J. K. (1967). The New Industrial State. Boston: Houghton Mifflin.

3. Kagermann H., Wahlster W., Helbig J. (2013). Recommendations for Implementing the Strategic Initiative INDUSTRIE 4.0. Munich: acatech.

4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli 2469 nömrəli Sərəncamı. Bakı, 2021.

A.I.Badalzade
teacher, Azerbaijan State Oil and Industry University PLE
K.I.Badalzade
master student, Azerbaijan State University of Economics

Theoretical–methodological issues of efficiency in the context of digitalization

Abstract

In the modern era, one of the main development trends of the global economy is digitalization. The rapid development of digital technologies fundamentally changes the structure of production, service, management, and communication systems. Under these conditions, the issue of increasing the efficiency of industrial enterprises becomes particularly relevant, as digital transformation creates new opportunities both for optimizing the use of resources and for improving the quality and productivity indicators of production. The economy of Azerbaijan has not remained outside this process, and through state documents such as Azerbaijan 2030: National Priorities for Socio-Economic Development and the Digital Transformation Concept, the formation of a digital economy has been identified as a strategic priority. Particularly in the industrial sector, digitalization - automation, artificial intelligence, big data, the Internet of Things (IoT), and digital management systems - acts as a key factor increasing the competitiveness and sustainability of enterprises. (President of the Republic of Azerbaijan. Azerbaijan 2030: National Priorities for Socio-Economic Development. Baku, 2021) The main objective of the research is to analyze the directions for increasing the efficiency of industrial enterprises in the context of digitalization of the economy from a theoretical and methodological perspective, to assess the impact of the application of digital technologies on the performance indicators of enterprises, and on this basis to propose practical recommendations for improving efficiency.

Keywords: *economy, digital economy, efficiency, productivity, profitability, innovation.*

https://doi.org/10.58225/tim.2026-2-310-317

M.J.Heydarli
master student, Azerbaijan State University of Economics (UNEC)
memmedh2003@gmail.com

Məqalə redaksiyaya daxil olub 28.03.2026
The article was received by editorial board on 28.03.2026
Статья принята к печати 28.03.2026

THE RELATIONSHIP BETWEEN CUSTOMER SATISFACTION, TRUST AND LOYALTY IN DIGITAL BANKING

Abstract

This research study aims to find out which factors play a role in how much users of digital banking channels in Baku experience satisfaction; then evaluate how those factors impact those users' levels of loyalty toward a bank. The researchers are also interested in measuring customer satisfaction against performance expectations; effort expectations; responsiveness; reliability; security; and personali-zation. Research is being conducted using a sample population of 719 residents living in Baku, who utilize digital banking applications. The researchers collected data for this study using an online questionnaire. The scale used for measuring satisfaction in the current study was obtained through permission from a doctoral thesis written in Finland on Digital Banking. Survey questions regarding respondents' demographic information and usage habits concerning digital banking were designed by the study authors. The authors analysed all data collected during the study using SPSS 25, including normality tests, reliability studies, Pearson's correlation coefficients, and multiple regression analyses. There was a statistically significant and positive relationship between respondents' satisfaction levels concerning Digital Banking and each of the five variables discussed -- expectations concerning Performance; Expectations concerning Effort; Reliability; Security; and Personalization. This suggests that banks should develop systems that enhance the Efficiency, Security and Personalization of their Digital Channels to obtain a Competitive Advantage and maintain Long-Term Customer Loyalty.

Keywords: *digital banking, service quality, customer satisfaction, system security, Azerbaijan, employees.*

INTRODUCTION

For banks, a predominant use of marketing, technology and human resource strategies, means that their business strategies are changing as a result of these three components (Tüzün, 2020, p. 435) and especially since banks now tend to serve customers through digital channels, which allows banks to reduce branch costs and traffic while offering customers an easier method of accessing their services, due to the After-effects of the Pandemic. It should also be noted that banks are investing heavily to develop their staff members and identify candidates with the right mix of professional expertise and technical skills to help them quickly adapt to the rapidly changing banking environment, due to this increased use of digital channels. This enables banks to provide customers with a convenient and fast digital banking experience that promotes satisfaction and loyalty from using the banks' Digital Channels.

Just as customer satisfaction is essential to the profitability of any business, it is also essential to the market share and growth of any business. Further, through customer satisfaction from using

their products and services, banks build customer loyalty and generate continuous use of their products and services and expanding the range of products and services they use, which allows for many more potential customers to become aware of the bank and provide word-of-mouth advertising, which in the long run can help banks grow substantially their customer base.

Indeed, during the product and service development process, banks focus on providing maximum customer benefit. The concept of benefit for a bank customer can vary depending on the product, service, and even the customer segment. Therefore, when considering the concept of benefit from digital banking, it can be said that customers' maximum benefit from digital banking services depends on the speed, ease, uninterrupted, and security of the service offered. In short, achieving its purpose, customer adoption, and earning customer satisfaction and loyalty are as important as developing a service. Therefore, banks must ensure customer data privacy in the services they offer through digital banking channels and earn their customers' trust in this regard. The hypotheses of the study are as follows.

H1: Performance expectation positively affects customer satisfaction in digital banking. H2: Effort expectation positively affects customer satisfaction in digital banking.

H3: Responsiveness positively affects customer satisfaction in digital banking. H4: Reliability positively affects customer satisfaction in digital banking.

H5: Security positively affects customer satisfaction in digital banking.

H6: Personalization positively affects customer satisfaction in digital banking. H7: Customer satisfaction positively affects customer loyalty in digital banking.

The survey form used in the study first included demographic information about the participants. Participants' understanding of digital banking was determined, and their usage habits were categorized.

Research question:

1) At what level and to what extent do performance expectations, effort expectations, reliability, security, personalization and sensitivity affect customer satisfaction in digital banking?

2) To what extent does customer satisfaction increase customer loyalty in digital banking and is this relationship statistically significant?

Do the demographic characteristics (age, education, job status, etc.) of digital banking users in Baku make a difference on their satisfaction and loyalty levels?

LITERATURE REVIEW

Studies examining the factors influencing customer adoption of digital banking services in Turkey generally focus on trust, ease of use, and customer experience. According to a Yıldırım and Çelik (2019) study, online banking provides customer satisfaction through perceived security, ease of access, and savings via the online banking channel. Those who were early adopters of digital channels reported the highest level of customer satisfaction with bank services. The same findings were revealed in Ravi and Kamaraj (2020) when they analyzed digital banking users in India. Factors influencing digital banking preferences include awareness level, willingness to change, transaction costs, perceived security, and user-friendliness.

The study determined that demographic characteristics did not significantly differentiate digital banking usage. In the study conducted by Wang and Abdullah (2021) in New Zealand, it was revealed that the strongest factor determining customer loyalty in digital banking is customer satisfaction, and the strongest determinant of satisfaction is trust. It has also been noted that brand reputation and positive digital experience increase customer loyalty. Internet banking satisfaction among users in Finland in the study implemented by Larsen, Niemi and Pahnila (2018); This is positively related to factors such as saving time, easy-to-use interface, accuracy of the information and presentation format. On the other hand, it has been noted that poor context and individualization of conflict reduce satisfaction. In the analysis of Demir and Aksoy (2021), a new study on mobile banking in Turkey, it

was determined that the factors that most strongly affect customer satisfaction in mobile banking are usage advantages, quality of customer services, level of loyalty and word of mouth communication.

Examining the role of digital banking experience on customer loyalty, Kara and Ünal (2022) showed that only usability and ease of use, among the sub-dimensions of customer experience, have a significant and positive effect on both satisfaction and loyalty.

In the study conducted by Baltacı, Singh and Apoga (2023) with the SERVQUAL model, the risk factor that most affects customer satisfaction in digital banking is "reliability", followed by "tangibility" and "quick response" factors. has been determined. It has been concluded that, in general, users rate the digital banking service quality highly.

METHODOLOGY

In order to turn happy customers into devoted ones, the study intends to pinpoint important factors that influence people's satisfaction when using digital banking channels in Baku and investigate the connections between these factors. In order to promote customer loyalty and enhance the services offered through these applications, this study will help banks redesign the digital banking apps they provide to their clients throughout the epidemic. The population of the study, an n-sample set, is made up of Baku residents who have used digital banking. A survey was given to a randomly chosen sample of 719 Baku residents who used digital banking apps. They were reached via social media sites including Instagram and WhatsApp.

The satisfaction scale used in the study was taken from the doctoral dissertation "Users' Satisfaction of Digital Banking Services in Finland" written by Md. Masum Miah under the supervision of Dr. Shahrokh Nikou. Permission was obtained from the thesis advisor, Dr. Nikou, via email, and the scale used in this study was translated into Turkish and used. Section 3, the satisfaction scale of the original survey form, was taken from the doctoral dissertation without any modifications. However, questions regarding the participants' demographic characteristics, banking preferences, and digital banking usage habits were created by the authors.

The first section of the survey form, titled "Demographic Characteristics," asked participants a total of six questions, including gender, age, education, occupation, marital status, and city of residence. The second section, titled "Participants' Bank Preference and Digital Banking Usage Habits," included eight questions regarding the type of bank they prefer for their main account, the bank information they use for digital banking channels, the digital banking channels they use, their usage history, the digital banking channel they most frequently used during the pandemic, whether they experienced problems with these channels during the pandemic, whether they recommend digital banking, and their frequency of use. The questions mentioned so far were created by us. The third section, titled "Participants' Satisfaction with Digital Banking," was created on a 7-point Likert scale (1: Strongly Disagree, 7:

Strongly Disagree) and consists of 28 statements. Seven different hypotheses were created, and analyses were conducted using the SPSS25 package program to first measure the relationship between digital banking and customer satisfaction, and then to measure the impact of customer satisfaction on customer loyalty in digital banking. Basic descriptive test statistics determined that the eight dimensions of the digital banking satisfaction scale were normally distributed. The reliability and validity of the constructs in the model were tested. There are two different opinions on skewness and kurtosis values. George and Mallery (2019, pp. 114-115) stated that if the values in question are between +2.0 and -2.0, the scale is normally distributed, and parametric tests yield valid and reliable results, while Tabachnick and Fidell (2013, pp. 79-80) specified this range as +1.5 to -1.5. Accordingly, the kurtosis and skewness values of the scales and dimensions used in the study were analyzed to lie between +2.0 and -2.0, and therefore, regression analysis and Pearson correlation analysis, known as parametric tests, were used in the study.

In the model, performance expectation, which is thought to influence customers' satisfaction with digital banking channels, is the degree to which individuals believe their work performance will improve when using the system, in other words, they will achieve gains in work performance. The promise of fast and easy transactions in digital banking reveals customers' expectations in terms of performance. Therefore, the quick and easy banking transactions that individuals using digital banking can perform, and the resulting time savings, will increase efficiency in their daily lives and positively impact their satisfaction with digital banking.

It would be appropriate to also examine satisfaction with digital banking channels from a security perspective. Cyberattacks on digital platforms in recent years have negatively impacted the banking sector's systems and applications, occasionally causing customers to experience inconvenience. It is a well-known fact that those who have difficulty adapting to the digital world, in particular, avoid digital banking channels due to security concerns. Results and discussion

Participant demographics are described in Table 1. An examination of the results reveals that approximately 56% of participants were female and approximately 45% were between the ages of 18 and 25. The age data also reveals that approximately 31% of participants were between the ages of 26 and 36. Furthermore, a significant portion of the individuals participating in the study were single and had a bachelor's degree. In addition, 29.1% of participants were students, 25.3% were public employees, and 28% were private sector employees.

Table 1

Participant demographic information

Characteristics	N	%
Male	316	43,9
Female	403	56,1
18-25	324	45,1
26-36	221	30,7
37-48	135	18,8
49 and	39	5,4
Doctorate	34	4,7
Bachelor's	452	62,9
High School	72	10,0
Associate Degree	76	10,6
Master's Degree	85	11,8
Single	447	62,2
Married	272	37,8
Retired	19	2,6
Unemployed, looking for a job	77	10,7
Public employee	182	25,3
Student	209	29,1
Private sector employee	201	28,0
Self-employed	31	4,3

Table 2 contains data on how participants in this study used digital banking. From these results, 45% used private banks and approximately 55% used public banks. In addition to this, 91% of digital bank users in the study reported that they had used digital banking prior to the pandemic. This indicates a broad acceptance of using digital banking methods. This finding also indicates how staff

at banks have successfully directed customers to utilize digital banking methods, and many customers are also part of banks' retail target markets.

In addition, a considerable amount of respondents used mobile banking throughout the pandemic, as mobile banking has the largest percentage of users when it comes to all digital banking methods. The restrictions that occurred during the outbreak of COVID-19 resulted in an increase in the frequency of using digital banking for banking transactions. In fact, some were shocked that banks were unprepared for the pandemic; however, many banks utilized their threat from the pandemic and created new methods to improve the efficiency of their digital banking. All participants reported that they had no issues with digital banking, were highly likely to recommend it to their friends, and that they felt the Turkish banking sector passed the pandemic "test". Finally, 49.2% reported that they almost always use digital banking.

Table 2

Descriptive statistics

	N	**Avera ge**	**Std. Deflection**	**Skewness**	**Kurtosis**
Performance Expectations	719	5,0786	2,15181	-,963	-,710
Effort Expectations	719	5,1273	2,17988	-,993	-,682
Responsiveness	719	4,9620	2,12269	-,847	-,834
Reliability	719	4,8331	2,07741	-,783	-,903
Security	719	4,7333	2,09935	-,660	-1,058
Personalization	719	4,7583	2,04913	-,713	-,954
Customer Satisfaction	719	5,0227	2,14160	-,923	-,742
Loyalty	719	4,9764	2,11710	-,894	-,767

The reliability of the eight dimensions of the Digital Banking Satisfaction Scale developed for the current project is shown in table 3. Specifically, the reliability analyses are designed to illustrate the consistent nature of the questions used in the survey as well as how well the four dimensions of the Digital Banking Satisfaction Scale represent the overall project objectives. In considering only Cronbach's Alpha Coefficients as an indicator of Internal Consistency Reliability, one can view table 4 to confirm that the Digital Banking Satisfaction Scale dimensions utilized within this project achieved at least a "high level of reliability" level (>0.80).

Table 3

Reliabilities of the scale dimensions used in the study

	Number of items	**Cronbanch alpha**
Performance Expectations	4	92,1
Effort Expectations	4	95,8
Responsiveness	3	94,5
Reliability	3	95,1
Security	4	92,9

Pearson correlation analysis was used in this study. The Pearson coefficient ranges from "-1" to "+1," with a correlation coefficient of "r = -1" indicating an inverse relationship between variables, "r = +1" indicating a positive relationship between variables, and "r = 0" indicating no correlation (Schneider, 2010, p. 46). The results indicated a positive and statistically significant relationship ($p<0.05$) between customer satisfaction and performance expectation, effort expectation, responsiveness, reliability, security, customization, and loyalty.

The relationships between dependent and independent variables are explained using mathematical equations using regression analysis. Two different methods are used in the literature: linear and nonlinear regression analysis (Karagöz, 2019, p.). Tables 6 and 7 contain the regression analysis results. The adjusted R2 values and F statistics, along with the Sig. value indicating the significance level of these values, are shown at the bottom of the tables. Because the F statistics are significant, the model and the hypotheses tested were considered significant.

Table 4

Correlation analysis

	[1]	[2]	[3]	[4]	[5]	[6]	[7]	[8]
Customer Satisfaction	1							
Performance Expectation	,958**	1						
Effort Expectation	,953**	,965**	1					
Responsiveness	,948**	,947**	,954**	1				
Reliability	,945**	,939**	,936**	,965**	1			
Security	,911**	,892**	,890**	,908**	,917**	1		

Using regression to analyze the effect the five dimensions have on Customer Satisfaction, we see in Table 5 (Model 1) that Performance Expectancy, Effort Expectancy, Reliability, Security, and Customization all have a significant positive effect ($p<.05$) on Customer Satisfaction while the Responsiveness dimension does not ($p>.05$).

Table 5

Regression results (Model 1)

Dependent Variable Loyalty	Unstandardized Coefficients		Standardized Coefficients	T	Sig.
	B	Std. Mistake	Beta		
(Constant)	-,010	,044		-,231	,817
Customer Satisfaction	,289	,033	,290	8,688	**,000**
Sig.		0,000			
F		11937,805			
Corrected R^2		0,943			

CONCLUSION

The banking industry is changing due to the development of digital tools as a way of life in every aspect of our everyday lives. Banks are using digitalization to offer their services to customers and create the future of the banking industry. For years, banks have made significant investments in developing and improving their digital channels to increase profit margins. Because of this, banks are now competing strongly against each other to offer customers faster, higher-quality, the greatest accessibility, and the least costly service possible. Customer satisfaction and loyalty, therefore, will be crucial for a bank's success and overall profitability. To be able to turn these large investments into revenue- generating products, banks must effectively employ their digital channels. Although there has been much focus on the benefits of these digital banking tools by employees meeting their sales targets, banks must meet customer expectations to establish a user habit of purchasing from their digital channels.

With a focus on the customer and the implementation of the customer-centric focus in banking, the banking industry is focused on improving and evolving based on this customer-centric model. With Digitalization, evolution of Banking transactions with Innovative new methods, expectations of customers have increased and diversified. Banks will be offering the best and most innovative products and/or services to meet continually increasing and diversifying customer expectations across their large customer base, with the primary goal being to achieve customer satisfaction through loyalty. The satisfaction of customers using digital channels is primarily based on Performance and Effort Expectations, Responsiveness, Reliability, Security and Personalization.

Therefore, with digitalization, banks strive to provide a unique experience for their customers by providing them with personalized and personalized workflows. Furthermore, with instant access, customers' expectations of performance from banks have increased, and due to cyberattacks experienced while accessing digital platforms, security and reliability have become crucial requirements for online retail and corporate banking services. Furthermore, customers expect personalized solutions for every

issue. Meeting all these expectations through successful service delivery ensures customer satisfaction, and the continued nature of this satisfaction fosters a sense of loyalty, or commitment, to the bank. In short, customer satisfaction is achieved through meeting customer expectations, and customer loyalty is achieved through ensuring customer satisfaction. The discussion thus far has explained the theoretical knowledge regarding customer satisfaction and loyalty. However, the extent to which theory is applied to practice is crucial for achieving these goals.

References:

1. Baltacı, M., Singh, R., & Apoga, R. (2023). Evaluating digital banking service quality using SERVQUAL in emerging markets. Journal of Financial Services Marketing, 28(2), 145–159. https://doi.org/10.1057/s41264-022-00159-y

2. Demir, A., & Aksoy, B. (2021). Determinants of mobile banking customer satisfaction: Evidence from Turkey. International Journal of Bank Marketing, 39(4), 685–704.

3. Kara, E., & Ünal, S. (2022). The role of digital customer experience on satisfaction and loyalty in banking. Sage Open, 12(3), 1–14. https://doi.org/10.1177/21582440221120459

4. Larsen, T., Niemi, P., & Pahnila, S. (2018). Factors influencing online banking satisfaction in Finland. Telematics and Informatics, 35(6), 1561–1575.

5. Ravi, K., & Kamaraj, M. (2020). Determinants of digital banking adoption: Empirical evidence from India. Asian Journal of Economics and Banking, 4(1), 34–49. https://doi.org/10.1108/AJEB-04- 2019-0015

6. Wang, J., & Abdullah, H. (2021). Trust and loyalty formation in digital banking: Evidence from New Zealand. Journal of Retailing and Consumer Services, 63, 102712. https://doi.org/10.1016/j.jretconser.2021.102712

7. Yıldırım, H., & Çelik, A. (2019). Internet bankacılığı hizmetlerinin benimsenmesi ve müşteri memnuniyeti: Türkiye'den kanıtlar. Muhasebe ve Finansman Dergisi, 84, 127–144.

M.C.Heydərli
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Rəqəmsal bankçılıqda müştəri məmnuniyyəti, etimad və sadiqlik arasında əlaqə

Xülasə

Bu tədqiqat işinin məqsədi Bakıda rəqəmsal bankçılıq kanalları istifadəçilərinin məmnunluq hiss etməsində hansı amillərin rol oynadığını müəyyən etmək; sonra bu amillərin həmin istifadəçilərin banka olan sədaqət səviyyələrinə necə təsir etdiyini qiymətləndirməkdir. Tədqiqatçılar həmçinin müştəri məmnuniyyətini performans gözləntiləri; səy gözləntiləri; cavabdehlik; etibarlılıq; təhlükəsizlik; və fərdiləşdirmə ilə müqayisə etməklə maraqlanırlar. Tədqiqat, rəqəmsal bankçılıq tətbiqlərindən istifadə edən Bakıda yaşayan 719 sakindən ibarət nümunə populyasiyadan istifadə etməklə aparılır. Tədqiqatçılar bu tədqiqat üçün məlumatları onlayn anketdən istifadə edərək topladılar. Hazırkı tədqiqatda məmnuniyyəti ölçmək üçün istifadə edilən şkala Finlandiyada Rəqəmsal Bankçılıq üzrə yazılmış doktorluq dissertasiyasından icazə alaraq əldə edilmişdir. Respondentlərin demoqrafik məlumatları və rəqəmsal bankçılıqla bağlı istifadə vərdişləri ilə bağlı sorğu sualları tədqiqat müəllifləri tərəfindən hazırlanmışdır. Müəlliflər tədqiqat zamanı toplanmış bütün məlumatları SPSS 25 istifadə edərək, normallıq testləri, etibarlılıq tədqiqatları, Pirson korrelyasiya əmsalları və çoxsaylı reqressiya təhlilləri daxil olmaqla təhlil etdilər. Respondentlərin Rəqəmsal Bankçılıqla bağlı məmnuniyyət səviyyələri ilə müzakirə olunan beş dəyişənin hər biri - Performansla bağlı gözləntilər; Səylə bağlı gözləntilər; Etibarlılıq; Təhlükəsizlik; və Fərdiləşdirmə arasında statistik cəhətdən əhəmiyyətli və müsbət əlaqə mövcud idi. Bu, bankların Rəqabət Üstünlüyü əldə etmək və Uzunmüddətli Müştəri Sədaqətini qorumaq üçün Rəqəmsal Kanallarının Səmərəliliyini, Təhlükəsizliyini və Fərdiləşdirilməsini artıran sistemlər inkişaf etdirməli olduqlarını göstərir.

Açar sözlər: *rəqəmsal bankçılıq, xidmət keyfiyyəti, müştəri məmnuniyyəti, sistem təhlükəsizliyi, Azərbaycan, işçilər.*

https://doi.org/10.58225/tim.2026-2-318-324

UOT 004.738.5:004.056

G.Ə.Rəhimova
i.f.d., dosent, Bakı Dövlət Universiteti
gulararahim2021@mail.ru
R.R.Hüseynov
magistrant, Bakı Dövlət Universiteti
revanhuseynov244@gmail.com

Məqalə redaksiyaya daxil olub 23.03.2026
The article was received by editorial board on 23.03.2026
Статья принята к печати 23.03.2026

BULUD TEXNOLOGİYALARINDA MƏLUMATIN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI, KRİPTOQRAFİK YANAŞMALAR VƏ TƏHLÜKƏSİZLİK ASPEKTLƏRİNİN ANALİZİ

Xülasə

Bulud texnologiyalarının sürətli inkişafı məlumatların saxlanması və emalı proseslərini daha çevik və iqtisadi cəhətdən səmərəli etsə də, təhlükəsizlik problemlərinin təmin olunmasını daha da aktuallaşdırmışdır. Xüsusilə, məlumatların üçüncü tərəf infrastrukturlarında saxlanılması konfidensiallıq, bütövlük və əlçatanlıq baxımından ciddi risklər yaradır. Bu məqalədə bulud mühitində məlumat təhlükəsizliyinin təmin olunmasında istifadə edilən əsas kriptoqrafik yanaşmalar – simmetrik, asimmetrik, hibrid və müasir kriptoqrafik metodlar təhlil olunur, həmçinin bu yanaşmaların təhlükəsizlik baxımından üstünlükləri və məhdudiyyətləri araşdırılır. Məqalənin məqsədi bulud sistemlərində kriptoqrafiyanın rolunu sistemli şəkildə izah etmək və mövcud yanaşmaların elmi əsaslandırılmış müqayisəsini təqdim etməkdir.

Açar sözlər: *bulud texnologiyaları, bulud texnologiyalarında məlumatların təhlükəsizliyi, kriptoqrafik yanaşmalar, simmetrik şifrələmə, asimmetrik şifrələmə.*

GİRİŞ

Son illərdə bulud texnologiyaları (Cloud Computing) informasiya sistemlərinin ayrılmaz hissəsinə çevrilmişdir. Müxtəlif bulud xidməti modelləri – IaaS, PaaS və SaaS – istifadəçilərə hesablama resurslarından elastik şəkildə yararlanmaq imkanı verir. Bununla yanaşı, məlumatların fiziki olaraq istifadəçiyə məxsus olmayan serverlərdə saxlanılması təhlükəsizlik məsələlərini ön plana çıxarır. Bu baxımdan kriptoqrafiya bulud mühitində məlumatların qorunmasının əsas mexanizmi kimi çıxış edir. Məlumat təhlükəsizliyinin əsas məqsədi konfidensiallığın, bütövlüyün və əlçatanlığın təmin olunmasıdır. Bulud mühitində bu prinsiplərin qorunması üçün kriptoqrafik alqoritmlər geniş tətbiq olunur. Bu məqalədə həmin yanaşmalar sistemli şəkildə araşdırılır (1. W.Stallings, *Cryptography and Network Security*, Pearson, 2020, s.23-40).

ƏSAS HİSSƏ

Bulud sistemlərinin arxitekturası, bulud texnologiyalarının necə qurulduğu, təşkil edildiyi və işlədiyini müəyyən edən ümumi strukturdur. Yəni bu, bulud mühitində resursların (serverlər, yaddaş, şəbəkə və s.) necə yerləşdirilməsi və bir-biri ilə necə əlaqələndirilməsini təsvir edir. Bulud arxitekturası 3 əsas hissədən ibarət omaqla qurulur:

- ***Ön hissə (front-end)*** – istifadəçinin gördüyü və istifadə etdiyi hissədir (veb tətbiqlər, mobil tətbiqlər və s.).
- ***Arxa hissə (back-end)*** – serverlər, verilənlər bazası, saxlama sistemləri və buludun əsas işləmə mexanizmlərini əhatə edir.
- ***Şəbəkə infrastrukturu*** – bu hissə bütün komponentlərin bir-biri ilə əlaqəsini təmin edir.

Bulud arxitekturası həmçinin xidmət modellərinə görə də fərqlənir:

- istifadəçiyə virtual serverlər və şəbəkə resursları təqdim edən – **IaaS;**
- platformada proqramların hazırlanması üçün mühit yaradan –**PaaS;**
- proqram təminatında hazır tətbiqlərin internet üzərindən istifadə olunmasına imkan verən – SaaS.

Bulud sistemlərinin arxitekturası - bulud mühitində bütün texniki komponentlərin və xidmətlərin necə qurulduğunu və qarşılıqlı işlədiyini müəyyən edən konseptual model olduğundan o, bir sıra spesifik təhlükəsizlik riskləri yaradır. Bu riskləri yaradan əsas problemlər aşağıdakılardır:

- Multi-tenancy - Eyni fiziki resursların bir neçə istifadəçi tərəfindən paylaşılması məlumat sızması riskini artırır;

- İnsider hücumlar - Bulud provayderinin işçiləri tərəfindən məlumatlara icazəsiz giriş ehtimalı mövcuddur;

- Virtualizasiya zəifliklər - Hypervisor səviyyəsindəki boşluqlar sistemə hücum imkanı yarada bilər;

- Açarların idarə olunması - Kriptoqrafik açarların təhlükəsiz saxlanılması və paylanması ciddi problemdir.

Bu qeyd olunan təhlükəsizlik riskləri göstərir ki, bulud mühitində məlumatların qorunması yalnız fiziki və ya proqram təminatı səviyyəsində tədbirlərlə məhdudlaşa bilməz. Məlumatların üçüncü tərəf infrastrukturlarında saxlanılması onların kriptoqrafik üsullarla qorunmasını zəruri edir. Bu baxımdan bulud texnologiyalarında müxtəlif kriptoqrafik yanaşmalar tətbiq olunur və hər bir yanaşma təhlükəsizlik tələblərinin müəyyən aspektlərini həll etməyə yönəlmişdir.

Simmetrik kriptoqrafiya. Simmetrik kriptoqrafiya şifrələmə və deşifrələmə proseslərində eyni məxfi açardan istifadə edilməsinə əsaslanan kriptoqrafik yanaşmadır. Bu yanaşma yüksək sürəti və aşağı hesablama xərci ilə xarakterizə olunur və böyük həcmli məlumatların qorunması üçün xüsusilə əlverişlidir. Bulud texnologiyalarında simmetrik kriptoqrafiya əsasən məlumatların saxlanması (data-at-rest) və ötürülməsi zamanı (data-in-transit) geniş tətbiq edilir. Simmetrik kriptoqrafiyanın əsas prob-lemi açarların təhlükəsiz şəkildə saxlanılması və paylaşılmasıdır. Əgər məxfi açar üçüncü tərəfin əlinə keçərsə, bütün şifrələnmiş məlumatlar təhlükə altına düşür. Buna görə də bulud mühitində simmetrik alqoritmlər adətən açar idarəetmə sistemləri (Key Management Systems – KMS) ilə birlikdə istifadə olunur (P. Mell and T. Grance, *The NIST Definition of Cloud Computing*, NIST, 2021, s.131-135).

Simmetrik kriptoqrafiyanın praktik tətbiqi müxtəlif konkret şifrələmə alqoritmləri vasitəsilə həyata keçirilir. Bu alqoritmlər arasında AES və ChaCha20 bulud texnologiyalarında ən geniş istifadə olunan alqoritmlərdir və onların tərbiqi ilə etibarlı həllər almaq mümkündür.

AES (Advanced Encryption Standard). AES müasir dövrdə ən geniş yayılmış simmetrik şifrələmə alqoritmlərindən biridir və ABŞ Milli Standartlar və Texnologiya İnstitutu (NIST) tərəfindən standart kimi qəbul edilmişdir. AES blok şifrələmə alqoritmidir və 128-bit blok ölçüsü ilə işləyir. Açar uzunluqları isə 128, 192 və 256 bit ola bilər. AES-in təhlükəsizliyi çoxsaylı kriptoanalitik tədqiqatlarla sübut edilmiş və bu günə qədər praktik hücumlara qarşı davamlı olduğu göstərilmişdir. Alqoritmin əsas üstünlüklərindən biri onun həm proqram, həm də aparat səviyyəsində effektiv reallaşdırılmasıdır. Müasir prosessorlarda AES üçün xüsusi təlimatlar (AES-NI) mövcuddur ki, bu da şifrələmə əməliyyatlarını əhəmiyyətli dərəcədə sürətləndirir. Bulud provayderləri AES alqoritmindən geniş şəkildə istifadə edirlər. Məsələn, məlumatların disk üzərində saxlanması zamanı AES-256 şifrə-

ləməsi standart yanaşma hesab olunur. AES-in əsas çatışmazlığı isə yan-kanal (Side-channel) hücumlarına qarşı düzgün implementasiya olunmadıqda həssas olmasıdır, yəni problem alqoritmdə deyil, icrasında ola bilər. Başqa sözlə, AES nəzəri olaraq təhlükəsiz olsa da, güc sərfi, zaman analizi, elektromaqnit sızmalarda təhlükəli ola bilər (IETF RFC 8439, *ChaCha20 and Poly1305 for IETF Protocols*. 2020, s.67-70).

ChaCha20. ChaCha20 axın tipli (stream cipher) simmetrik şifrələmə alqoritmidir və Salsa20 alqoritminin təkmilləşdirilmiş versiyasıdır. ChaCha20 xüsusilə proqram təminatı səviyyəsində yüksək performans göstərməsi ilə seçilir və zəif aparat resurslarına malik sistemlər üçün əlverişlidir. ChaCha20 alqoritmi sabit vaxtlı əməliyyatlar həyata keçirdiyi üçün yan-kanal hücumlarına qarşı daha dayanıqlı hesab olunur. Bu xüsusiyyət onu mobil qurğular və bulud mühitində təhlükəsiz rabitə üçün cəlbedici edir. Hal-hazırda ChaCha20 TLS protokollarında və VPN texnologiyalarında geniş istifadə olunur. Bulud mühitində ChaCha20 əsasən data-in-transit təhlükəsizliyinin təmin olunmasında tətbiq edilir və performans baxımından bəzi hallarda AES-dən daha üstün nəticələr göstərə bilir. Bu şifrələmənin üstünlüklərinə:

- yüksək şifrələmə və deşifrələmə sürəti; aşağı gecikmə; böyük həcmli məlumatlar üçün uyğunluq; çatışmazlıqlarına isə: açarların təhlükəsiz idarə olunması problemi; açar sızması halında bütün məlumatların risk altına düşməsi aiddir (K. Srilakshmi and P. Bhargavi, "Cloud Computing Security Using Cryptographic Algorithms," *Asian Journal of Computer Science and Technology*, vol. 9, no. 2, 2019. 4,s.221-223).

rəqabət qabiliyyətinin artırılması, ixrac potensialının genişləndirilməsi və investisiya cəlbediciliyinin yüksəldilməsi baxımından strateji əhəmiyyət daşıyır [2; 3].

Beynəlxalq təcrübə göstərir ki, valyuta rejimi seçimi və məzənnə sabitliyi iqtisadi artım tempinə və maliyyə sabitliyinə uzunmüddətli təsir göstərir. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə məzənnə dəyişkənliyinin azaldılması iqtisadi artımın sabitliyini təmin edən əsas makroiqtisadi amillərdən biri hesab olunur [6; 8; 9]. Eyni zamanda, milli valyutanın real dəyərinin iqtisadi inkişaf strategiyası ilə uyğunlaşdırılması sənaye siyasətinin və ixracyönümlü iqtisadi modelin formalaşdırılmasına müsbət təsir göstərir [11].

Qlobal iqtisadi inteqrasiya şəraitində valyuta strategiyasının effektivliyi beynəlxalq maliyyə institutlarının tədqiqatlarında da xüsusi vurğulanır. Beynəlxalq Valyuta Fondu və Dünya Bankının hesabatlarında göstərilir ki, valyuta məzənnəsi siyasəti, kapital axınlarının idarə olunması və makroiqtisadi koordinasiya iqtisadi dayanıqlılığın təmin edilməsində əsas şərtlərdən biridir [12; 13].

Azərbaycan iqtisadiyyatı üçün valyuta strategiyası xüsusi aktuallıq kəsb edir. Xüsusilə enerji ixracından asılı iqtisadi model şəraitində valyuta bazarının sabitliyinin qorunması, neft qiymətlərinin dəyişkənliyinin makroiqtisadi göstəricilərə təsirinin azaldılması və maliyyə dayanıqlılığının təmin edilməsi strateji prioritetlər sırasına daxildir. Bu istiqamətdə həyata keçirilən pul siyasəti tədbirləri və valyuta bazarının institusional inkişafı iqtisadi artımın davamlılığının təmin edilməsinə xidmət edir [5].

Beləliklə, valyuta strategiyası və makroiqtisadi siyasətin qarşılıqlı təsir mexanizmlərinin tədqiqi milli iqtisadi inkişafın dayanıqlılığının təmin edilməsi, maliyyə sabitliyinin qorunması və uzunmüddətli iqtisadi artımın formalaşdırılması baxımından mühüm elmi və praktiki əhəmiyyət kəsb edir.

1. Valyuta strategiyasının mahiyyəti və iqtisadi sistemlərdə funksional rolu

Valyuta strategiyası dövlətin milli valyutanın sabitliyinin təmin edilməsi, məzənnə siyasətinin optimallaşdırılması, xarici iqtisadi balansın qorunması və maliyyə sabitliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi kompleks tədbirlər sistemidir. Müasir iqtisadi nəzəriyyələrə əsasən, valyuta strategiyası yalnız pul-kredit siyasətinin tərkib hissəsi deyil, həm də ümumi makroiqtisadi idarəetmə mexanizminin mühüm struktur elementidir. Bu strategiya milli iqtisadiyyatın xarici şoklara qarşı dayanıqlılığının artırılmasına, maliyyə bazarlarının sabitliyinin təmin edilməsinə və iqtisadi artımın davamlılığının qorunmasına xidmət edir [1; 3].

Valyuta strategiyasının formalaşdırılması prosesində əsas nəzəri yanaşmalar məzənnə rejimlərinin seçimi, valyuta bazarının liberallaşdırılması səviyyəsi, kapital hərəkətinin tənzimlənməsi və monetar siyasətin prioritetlərinin müəyyən edilməsinə əsaslanır. Elmi tədqiqatlar göstərir ki, valyuta bazarının effektiv tənzimlənməsi makroiqtisadi sabitliyin qorunmasında mühüm rol oynayır və inflyasiya səviyyəsinin idarə olunmasına, maliyyə sabitliyinin təmin edilməsinə və iqtisadi risklərin azaldılmasına şərait yaradır [2; 4].

Beynəlxalq iqtisadi nəzəriyyədə valyuta strategiyası iqtisadi inkişafın mühüm determinantlarından biri kimi qiymətləndirilir. Xüsusilə açıq iqtisadiyyat şəraitində məzənnə siyasətinin düzgün qurulması ixracın stimullaşdırılması, idxalın optimallaşdırılması və investisiya axınlarının cəlb edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlarda qeyd olunur ki, məzənnə sabitliyi və valyuta bazarının effektiv idarə olunması iqtisadi artımın sabitliyinə müsbət təsir göstərir və maliyyə bazarlarında qeyri-müəyyənliyin azalmasına səbəb olur [6; 7; 9].

Eyni zamanda, milli valyutanın real məzənnəsinin iqtisadi inkişaf strategiyası ilə uyğunlaşdırılması sənaye siyasətinin formalaşdırılmasına və istehsal sektorunun rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır. Bu baxımdan, undervalued (nisbətən aşağı qiymətləndirilmiş) valyuta siyasətinin bəzi hallarda iqtisadi artımı stimullaşdırdığı elmi ədəbiyyatda qeyd olunur [11].

Müasir dövrdə valyuta strategiyasının formalaşdırılmasına təsir edən amillər sırasında qlobal maliyyə inteqrasiyası, kapitalın sərbəst hərəkəti, rəqəmsal maliyyə sistemlərinin inkişafı və beynəlxalq maliyyə institutlarının siyasət tövsiyələri xüsusi yer tutur. Bu faktorlar valyuta siyasətinin çevikliyinin artırılmasını və makroiqtisadi siyasətin digər elementləri ilə koordinasiyasını zəruri edir [12; 13].

2. Makroiqtisadi siyasət və valyuta mexanizmlərinin qarşılıqlı əlaqəsi

Makroiqtisadi siyasət iqtisadi artımın təmin edilməsi, inflyasiyanın idarə olunması, məşğulluğun artırılması və maliyyə sabitliyinin qorunması məqsədilə dövlət tərəfindən həyata keçirilən fiskal və monetar tədbirlər sistemidir. Müasir iqtisadi yanaşmalara görə, makroiqtisadi siyasətin effektivliyi monetar və fiskal alətlərin qarşılıqlı əlaqəli şəkildə tətbiqindən asılıdır. Bu kontekstdə valyuta siyasəti makroiqtisadi idarəetmə sisteminin mühüm tərkib hissəsi kimi çıxış edir [1; 5].

Valyuta siyasəti ilə makroiqtisadi sabitlik arasında qarşılıqlı əlaqə bir neçə istiqamətdə özünü göstərir. Birincisi, məzənnə siyasəti inflyasiya səviyyəsinə birbaşa təsir göstərir. Milli valyutanın dəyərinin kəskin dəyişməsi idxal olunan malların qiymətinə təsir edərək inflyasiya proseslərini sürətləndirə bilər. Bu səbəbdən Mərkəzi banklar valyuta bazarında stabilliyi qorumaq üçün müxtəlif monetar alətlərdən istifadə edirlər [3; 5].

İkincisi, valyuta siyasəti xarici ticarət balansına və ödəniş balansına təsir göstərir. Real məzənnənin optimal səviyyədə saxlanılması ixracın stimullaşdırılmasına və idxalın tənzimlənməsinə şərait yaradır. Empirik tədqiqatlar göstərir ki, məzənnə sabitliyi və optimal valyuta siyasəti uzunmüddətli iqtisadi artımın təmin edilməsində mühüm rol oynayır [6; 8].

Üçüncüsü, valyuta siyasəti investisiya mühitinə və kapital axınlarına təsir göstərir. Valyuta bazarında sabitlik xarici investorların risklərini azaldır və ölkəyə kapital axınının artmasına səbəb olur. Bu isə öz növbəsində iqtisadi artımın maliyyələşdirilməsi imkanlarını genişləndirir [7; 10].

Müasir iqtisadi tədqiqatlar göstərir ki, makroiqtisadi siyasət və valyuta strategiyasının koordinasiyalı şəkildə həyata keçirilməsi iqtisadi dayanıqlılığın təmin edilməsində mühüm rol oynayır. Xüsusilə inkişaf etməkdə olan iqtisadiyyatlarda bu koordinasiya maliyyə böhranlarının təsirlərinin azaldılması və iqtisadi artımın davamlılığının təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir [14; 15].

Beləliklə, nəzəri yanaşmalar göstərir ki, valyuta strategiyası və makroiqtisadi siyasət arasında qarşılıqlı əlaqənin düzgün qurulması milli iqtisadi inkişafın təmin edilməsində əsas şərtlərdən biridir. Bu qarşılıqlı təsir mexanizmlərinin elmi əsaslarla tədqiqi iqtisadi siyasətin effektivliyinin artırılmasına və uzunmüddətli iqtisadi sabitliyin təmin edilməsinə imkan yaradır.

ANALİZ

Müasir iqtisadi şəraitdə valyuta strategiyası və makroiqtisadi siyasətin milli iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi yalnız nəzəri yanaşmalarla deyil, həm də real statistik göstəricilər əsasında aparılan kompleks analizlə müəyyən edilir. Qlobal iqtisadi inteqrasiya, kapital hərəkətinin intensivləşməsi, enerji bazarlarında qiymət dəyişkənliyi və beynəlxalq maliyyə riskləri milli iqtisadiyyatların makroiqtisadi sabitliyinə birbaşa təsir göstərir. Bu baxımdan, valyuta siyasətinin iqtisadi artım, inflyasiya səviyyəsi, xarici ticarət balansı və investisiya mühiti ilə qarşılıqlı əlaqəsinin real göstəricilər əsasında təhlili xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir.

Azərbaycan iqtisadiyyatı üçün valyuta strategiyasının effektivliyi xüsusilə aktualdır. Ölkə iqtisadiyyatının ixrac strukturunda enerji resurslarının yüksək paya malik olması valyuta daxilolmalarının və ticarət balansının qlobal enerji bazarındakı dəyişikliklərdən asılılığını artırır. Bu isə makroiqtisadi siyasətin və valyuta strategiyasının koordinasiyalı şəkildə həyata keçirilməsini zəruri edir. Xüsusilə milli valyutanın sabitliyinin qorunması, inflyasiya gözləntilərinin idarə olunması və maliyyə sabitliyinin təmin edilməsi iqtisadi siyasətin əsas prioritet istiqamətlərindən biri hesab olunur. Analiz prosesində 2021–2025-ci illər üzrə əsas makroiqtisadi göstəricilərin – ÜDM dinami-

kası, inflyasiya səviyyəsi, valyuta məzənnəsi və xarici ticarət balansının – müqayisəli təhlili aparılmışdır. Seçilmiş dövr qlobal iqtisadi şoklar, postpandemiya bərpa mərhələsi, enerji qiymətlərinin dəyişkənliyi və beynəlxalq maliyyə bazarlarında qeyri-müəyyənlik fonunda formalaşdığı üçün iqtisadi siyasətin effektivliyinin qiymətləndirilməsi baxımından əhəmiyyətli hesab edilir.

Cədvəl 1

ÜDM və real artım dinamikası

İl	Nominal ÜDM (mlrd USD)	Real artım (%)
2021	54.8	5.6
2022	78.8	4.7
2023	76.4	1.1
2024	76.1	3.8
2025	76.4	3.0

Cədvəldən görünür ki, 2022-ci ildə nominal ÜDM-də kəskin artım baş verib. Bu artım əsasən enerji qiymətlərinin artımı ilə bağlı olmuşdur. 2023-cü ildə real artımın 1%-ə qədər enməsi iqtisadiyyatın xarici şoklara həssas olduğunu göstərir. 2024–2025-ci illərdə artımın yenidən 3% intervalına qayıtması qeyri-neft sektorunun tədricən aktivləşməsi ilə əlaqələndirilə bilər. Valyuta sabitliyi investisiya mühitini qorusa da, uzunmüddətli perspektivdə iqtisadi şaxələndirmə hələ də əsas problem olaraq qalır.

Cədvəl 2

İnflyasiya dinamikası

İl	İnflyasiya (%)
2021	6.7
2022	13.9
2023	8.8
2024	2.2
2025	5.7

Cədvəldə inflyasiyanın 2022-ci ildə pik səviyyəyə çatdığı görünür. Bu dövr qlobal inflyasiya dalğası ilə üst-üstə düşür. 2024-cü ildə inflyasiyanın kəskin azalması pul-kredit siyasətinin effektivliyini göstərir. 2025-ci ildə inflyasiyanın yenidən artması isə daxili tələbin artması və xidmət sektorunda qiymətlərin yüksəlməsi ilə izah olunur. Sabit valyuta məzənnəsi idxal inflyasiyasının təsirini azaltmaqda mühüm rol oynayıb.

Cədvəl 3

Valyuta USD/AZN məzənnəsi

İl	USD/AZN
2021	1.70
2022	1.70
2023	1.70
2024	1.70
2025	1.70

Cədvəldən manatın 5 il ərzində tam sabit saxlanıldığı görünür. Bu, makroiqtisadi sabitliyin qorunmasına kömək edib. Müsbət tərəflər:

- İnflyasiya gözləntiləri stabilləşir
- Maliyyə bazarlarında etibar artır
- Dollarlaşma azalır

Risklər:

- İxracın rəqabət qabiliyyəti zəifləyə bilər
- Real sektor üçün məzənnə təzyiqi yarana bilər

Cədvəl 4

Xarici ticarət balansı

İl	Ticarət balansı (mlrd USD)
2021	5.0
2022	26.0
2023	10.4
2024	14.5
2025	1.4

2022-ci ildə rekord ticarət profisiti enerji qiymətlərinin yüksək olması ilə bağlıdır.

2023–2025-ci illərdə balansın azalması aşağıdakı amillərlə bağlıdır:

- Enerji qiymətlərinin sabitləşməsi
- İdxalın artması
- İnvestisiya layihələrinin genişlənməsi

Bu isə iqtisadiyyatın hələ də enerji ixracından asılı olduğunu göstərir.

Enerji sektorundan yüksək asılılıq ticarət balansının və ümumilikdə makroiqtisadi sabitliyin qlobal enerji qiymətlərindən birbaşa asılı olmasına səbəb olur. Bu isə valyuta daxilolmalarının dəyişkənliyini artırır və uzunmüddətli iqtisadi planlaşdırmanı çətinləşdirir. Xüsusilə 2025-ci ildə ticarət balansının kəskin azalması göstərir ki, enerji qiymətlərinin sabitləşməsi fonunda qeyri-neft ixracı hələ ticarət balansını kompensasiya edəcək səviyyəyə çatmamışdır.

Eyni zamanda idxalın artması ölkə iqtisadiyyatında investisiya və istehlak tələbinin artması ilə bağlı olsa da, bu proses yerli istehsalın rəqabət qabiliyyətinin artırılmasının zəruriliyini göstərir. Valyuta strategiyası baxımından sabit məzənnə idxal məhsullarının qiymətinin sabit qalmasına səbəb olur, lakin bu vəziyyət uzunmüddətli perspektivdə yerli istehsalçıların beynəlxalq bazarlarda mövqeyini zəiflədə bilər.

2021–2025-ci illər üzrə təqdim olunan bütün cədvəllərin inteqrasiya olunmuş təhlili göstərir ki, Azərbaycanda valyuta strategiyası əsasən makroiqtisadi sabitliyin qorunmasına yönəlmişdir. Manatın sabit məzənnəsi inflyasiya gözləntilərinin idarə olunmasına, maliyyə sistemində etimadın qorunmasına və bank sektorunda dollarlaşma səviyyəsinin azaldılmasına müsbət təsir göstərmişdir.

Digər tərəfdən, iqtisadi artımın dinamikası göstərir ki, iqtisadiyyatın struktur transformasiyası hələ tam formalaşmamışdır. ÜDM artımı əsasən enerji sektorunun gəlirləri ilə dəstəklənmiş, qeyri-neft sektorunda isə artım daha stabil, lakin daha aşağı templə müşahidə olunmuşdur. Bu isə valyuta daxilolmalarının struktur baxımdan diversifikasiyasının vacibliyini göstərir. İnflyasiya göstəricilərinin analizi göstərir ki, pul-kredit siyasəti ümumilikdə effektiv olmuşdur. Xüsusilə 2023–2024-cü illərdə inflyasiyanın kəskin azalması monetar siyasətin düzgün koordinasiya edildiyini göstərir. Bununla yanaşı, 2025-ci ildə inflyasiyanın müəyyən qədər artması daxili tələbin və xidmət sektorunun aktivləşməsi ilə bağlıdır ki, bu da iqtisadi artımın müəyyən mərhələdə inflyasiya təzyiqləri yarada biləcəyini göstərir. Xarici ticarət balansının dinamikası isə iqtisadiyyatın enerji sektorundan yüksək asılılığını bir daha təsdiq edir. 2022-ci ildə rekord profisit əldə olunmasına baxmayaraq, sonrakı illərdə balansın azalması iqtisadi diversifikasiyanın hələ tam təmin olunmadığını göstərir.

Aparılan statistik analiz göstərir ki, valyuta strategiyası və makroiqtisadi siyasət 2021–2025-ci illərdə ölkədə makroiqtisadi sabitliyin qorunmasına mühüm töhfə vermişdir. Lakin uzunmüddətli iqtisadi inkişafın təmin edilməsi üçün aşağıdakı istiqamətlər prioritet hesab edilə bilər:

- qeyri-neft ixrac potensialının artırılması;
- yüksək əlavə dəyər yaradan sənaye sahələrinin inkişafı;

- idarə olunan elastik valyuta siyasətinə mərhələli keçid;
- xarici ticarət strukturunun şaxələndirilməsi;
- innovasiya və texnologiya əsaslı iqtisadi modelin gücləndirilməsi.

Beləliklə, mövcud valyuta strategiyası qısamüddətli sabitliyi təmin etsə də, uzunmüddətli dövrdə iqtisadi şaxələndirmə və rəqabət qabiliyyətinin artırılması əsas strateji prioritet kimi çıxış edir.

NƏTİCƏ

Aparılan tədqiqat və statistik analiz göstərir ki, valyuta strategiyası və makroiqtisadi siyasət milli iqtisadi inkişafın təmin edilməsində sistemli və qarşılıqlı əlaqəli mexanizm kimi çıxış edir. 2021–2025-ci illər üzrə makroiqtisadi göstəricilərin təhlili sübut edir ki, Azərbaycanda tətbiq edilən valyuta siyasəti qısamüddətli dövrdə makroiqtisadi sabitliyin qorunmasına, inflyasiya səviyyəsinin idarə olunmasına və maliyyə sistemində etimadın saxlanmasına müsbət təsir göstərmişdir.

Tədqiqat nəticələri göstərir ki, manatın sabit məzənnəsinin qorunması inflyasiya gözləntilərinin stabilləşməsinə, idxal inflyasiyasının təsirinin azaldılmasına və bank-maliyyə sektorunda risklərin minimallaşdırılmasına şərait yaratmışdır. Bununla yanaşı, iqtisadi artım dinamikası göstərir ki, ÜDM artımı ümumilikdə sabit xarakter daşısa da, struktur baxımından enerji sektorunun dominant rolu hələ də qalmaqdadır. Xarici ticarət balansının illər üzrə dəyişməsi də iqtisadiyyatın enerji ixracından yüksək asılılığını təsdiq edir. İnflyasiya göstəricilərinin dinamikası pul-kredit siyasətinin ümumilikdə effektiv tətbiq olunduğunu göstərir. Xüsusilə qlobal inflyasiya dalğasından sonra inflyasiya səviyyəsinin tədricən azaldılması makroiqtisadi idarəetmə mexanizmlərinin funksionallığını təsdiqləyir. Bununla yanaşı, daxili tələbin artması və xidmət sektorunun aktivləşməsi gələcək dövrdə inflyasiya təzyiqlərinin yenidən formalaşma ehtimalını saxlayır. Xarici ticarət göstəricilərinin analizi göstərir ki, yüksək ticarət profisitləri əsasən enerji qiymətlərinin artımı ilə bağlı olmuşdur. Sonrakı illərdə ticarət balansının azalması qeyri-neft ixracının hələ kifayət qədər diversifikasiya olunmadığını göstərir. Bu isə uzunmüddətli iqtisadi dayanıqlılıq baxımından struktur iqtisadi islahatların davam etdirilməsinin vacibliyini göstərir. Ümumilikdə tədqiqat nəticələri göstərir ki, mövcud valyuta strategiyası makroiqtisadi sabitliyin qorunmasına xidmət etsə də, uzunmüddətli iqtisadi inkişafın təmin edilməsi üçün iqtisadiyyatın struktur şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yüksək texnologiyalar və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi zəruridir. Eyni zamanda, gələcək mərhələdə idarə olunan elastik valyuta siyasəti modelinin tətbiqi xarici iqtisadi şoklara qarşı dayanıqlılığın artırılmasına və iqtisadi artımın davamlılığının təmin edilməsinə töhfə verə bilər.

Beləliklə, valyuta strategiyası və makroiqtisadi siyasətin effektiv koordinasiyası milli iqtisadi inkişafın davamlılığının təmin edilməsində əsas strateji istiqamətlərdən biri kimi qiymətləndirilə bilər və bu istiqamətdə aparılan elmi tədqiqatlar iqtisadi siyasətin optimallaşdırılması baxımından mühüm praktiki əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat:

1. Məmmədov R.Ə. (2023). Valyuta bazarının tənzimlənməsi və makroiqtisadi sabitlik problemləri. – Bakı: Elm, – 214 s.

2. Əliyev T.N. (2022). Valyuta siyasətinin fiskal və monetar sabitliyə təsiri // Maliyyə və uçot jurnalı. – №4. – s. 25–34.

3. Hüseynov S.A. (2021). Mərkəzi Bankın məzənnə siyasətinin iqtisadi artıma təsir mexanizmləri. – Bakı: UNEC nəşriyyatı, – 187 s.

4. Quliyev E.M. (2020). Qlobal maliyyə riskləri və milli valyuta strategiyasının formalaşması // İqtisadiyyat və idarəetmə. – №3. – s. 44–52.

5. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Pul siyasəti icmalı və valyuta bazarının inkişaf istiqamətləri. – Bakı, – 2024. – 96 s.

6. Ghosh A., Ostry J., Qureshi M. (2022). Exchange rate management and macroeconomic performance // Journal of International Money and Finance. – Vol.124. – 102612 p.

7. Chen Y., MacDonald R. (2021). Real exchange rates and economic growth: New evidence // Economic Modelling. – Vol.94. – p. 32–45.

8. Habib M., Mileva E., Stracca L. (2020). The real exchange rate and economic growth revisited // Journal of International Economics. – Vol.123. – 103279 p.

9. Eichengreen B. (2021). Exchange rate regimes and macroeconomic stability // Open Economies Review. – Vol.32(3). – p. 421–445.

10. Levy-Yeyati E., Sturzenegger F. (2020). Fear of floating in emerging economies revisited // Review of International Economics. – Vol.28(4). – p. 1020–1039.

11. Rodrik D. (2020). An undervalued currency and economic development // Journal of Development Economics. – Vol.146. – 102493 p.

12. IMF. Exchange Rate Policies and Economic Growth in Emerging Markets. – Washington DC, – 2024. – 148 p.

13. World Bank. Global Economic Prospects: Exchange Rate Volatility and Development. – Washington DC, – 2023. – 176 p.

14. Berg A., Karam P., Laxton D. (2020). Practical model-based monetary policy analysis // IMF Economic Review. – Vol.68(2). – p. 213–254.

15. Obstfeld M., Rogoff K. (2019). Global imbalances and exchange rate adjustment // Brookings Papers on Economic Activity. – №1. – p. 1–65.

A.R.Hasanli
PhD in Economics, Azerbaijan State University of Economics,
PhD student in the Doctor of Sciences program,
Azerbaijan University of Architecture and Construction, senior lecturer
ORCID 0009-0009-4551-1668

Evaluation of the mechanisms of impact of currency strategy and macroeconomic policy on national economic development

Abstract

The article comprehensively studies the mechanisms of impact of currency strategy and macroeconomic policy on national economic development. The main purpose of the study is to evaluate the interaction of currency policy with economic growth, inflation rate, foreign trade balance and financial stability from a theoretical and practical perspective. The article explains the essence of currency strategy, its interaction with macroeconomic policy instruments and its role in the sustainable development of the national economy based on scientific approaches. As part of the study, a statistical analysis of the main macroeconomic indicators for 2021–2025 – GDP dynamics, inflation rate, exchange rate of the national currency and foreign trade balance – was conducted. As a result of the analysis, it was determined that maintaining the stability of the national currency has a positive effect on managing inflation expectations, ensuring stability in the financial market and reducing economic risks. At the same time, the structural characteristics of economic growth indicate that the economy is still dependent on the energy sector to a certain extent. The article also substantiates the importance of expanding the non-oil sector, diversifying exports, strengthening the innovation and technology-based economic model, and implementing a flexible exchange rate policy for the long-term sustainable development of the economy. The research results show that effective coordination of exchange rate strategy and macroeconomic policy plays an important role in ensuring national economic development.

Keywords: *currency strategy, macroeconomic policy, economic growth, inflation, exchange rate, foreign trade balance.*

https://doi.org/10.58225/tim.2026-2-372-377

R.T.Həsənov
i.e.d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti
rasimt.hasanov@gmail.com
A.R.Abbaszadə
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
abbas.abbaszadaa@gmail.com

Məqalə redaksiyaya daxil olub 16.03.2026
The article was received by editorial board on 16.03.2026
Статья принята к печати 16.03.2026

FİSKAL VƏ MONETAR SİYASƏTLƏRİN KOORDİNASİYASI VƏ ONLARIN MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRƏ TƏSİRİNİN TƏHLİLİ

Xülasə

Məqalədə fiskal və monetar siyasətlərin qarşılıqlı təsiri və onların makroiqtisadi göstəricilərə təsiri Azərbaycan iqtisadiyyatı kontekstində təhlil olunur. Tədqiqatın əsas məqsədi dövlət büdcə siyasəti ilə pul-kredit siyasəti arasında koordinasiyanın iqtisadi sabitliyin təmin edilməsində oynadığı rolu araşdırmaqdır. Məqalədə fiskal siyasətin dövlət büdcəsi vasitəsilə məcmu tələbin formalaşdırılması, resurs bölgüsünün tənzimlənməsi və sosial-iqtisadi prioritetlərin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti göstərilir. Eyni zamanda monetar siyasətin qiymət sabitliyinin qorunması, pul dövriyyəsinin tənzimlənməsi və maliyyə sisteminin dayanıqlılığının təmin olunmasındakı rolu izah olunur. Tədqiqat nəticələri göstərir ki, fiskal və monetar siyasətlər arasında koordinasiya makroiqtisadi sabitliyin təmin edilməsinin əsas şərtlərindən biridir. Fiskal genişlənmə və monetar sərtləşmə arasında uyğunsuzluq yaranarsa, monetar ötürmə mexanizmləri zəifləyə və iqtisadi artımın tempi aşağı düşə bilər. Əksinə, fiskal konsolidasiya dövrlərində monetar siyasətin yumşaldılması iqtisadi fəallığın qorunmasına və maliyyə sabitliyinin təmin olunmasına töhfə verir. Məqalədə büdcə balansı, dövlət borcu və pul bazasında likvidlik kanalları vasitəsilə fiskal və monetar siyasətlərin qarşılıqlı təsir mexanizmləri də araşdırılmışdır. Nəticə etibarilə müəyyən edilir ki, fiskal intizamın qorunması, monetar siyasətin müstəqilliyi və hər iki siyasətin uzlaşdırılmış şəkildə həyata keçirilməsi Azərbaycanda makroiqtisadi sabitliyin və davamlı iqtisadi artımın təmin edilməsində mühüm rol oynayır.

Açar sözlər: *fiskal siyasət, monetar siyasət, makroiqtisadi sabitlik, siyasət koordinasiyası, Azərbaycan iqtisadiyyatı.*

GİRİŞ

Azərbaycanda makroiqtisadi idarəetmənin praktikası göstərir ki, fiskal və monetar siyasətlər ayrı-ayrı istiqamətlər kimi deyil, vahid "siyasət miksinin" komponentləri kimi fəaliyyət göstərir. Fiskal siyasət (büdcə gəlir–xərc qərarları, borclanma və transfertlər) iqtisadiyyatda məcmu tələbi və resurs bölgüsünü formalaşdırdığı halda, monetar siyasət (faiz dərəcəsi, likvidlik, məzənnə kanalı və gözləntilər) qiymət sabitliyi və maliyyə tarazlığını təmin etməyə yönəlir. Bu iki siyasət arasında uyğunluq olduqda anti-infilyasion nəticələr güclənir, uyğunsuzluq olduqda isə monetar ötürmə mexanizmləri zəifləyir və makroiqtisadi dəyişkənlik artır.

Azərbaycanda makroiqtisadi sabitliyin təmin olunması fiskal və monetar siyasətlərin qarşılıqlı və uzlaşdırılmış şəkildə həyata keçirilməsindən bilavasitə asılıdır. Bu iki siyasət istiqaməti iqtisadiy-

yatın müxtəlif mexanizmlərinə təsir etsə də, onların nəticələri eyni makroiqtisadi göstəricilər üzərində kəsişir və bir-birini tamamlayır. Fiskal siyasət büdcə gəlir və xərcləri vasitəsilə məcmu tələbi, iqtisadi fəallığı və sosial tarazlığı formalaşdırdığı halda, monetar siyasət inflyasiyanın nəzarətdə saxlanılması, pul dövriyyəsinin tənzimlənməsi və maliyyə sabitliyinin qorunmasına yönəlir. Bu siyasətlərin uzlaşdırılmaması inflyasiya təzyiqlərinin artmasına, faiz dərəcələrinin qeyri-sabitliyinə və iqtisadi artımın zəifləməsinə səbəb ola bilər (Məmmədov, 2022, s. 63–64). Bu iki siyasət aləti iqtisadiyyatın müxtəlif tərəflərinə təsir göstərsə də, onların nəticələri bir-biri ilə sıx əlaqəlidir və çox vaxt eyni makroiqtisadi göstəricilər üzərində kəsişir. Fiskal siyasət əsasən dövlət büdcəsi vasitəsilə məcmu tələbi, resurs bölgüsünü və sosial-iqtisadi prioritetləri formalaşdırdığı halda, monetar siyasət qiymət sabitliyinin qorunması, pul dövriyyəsinin tənzimlənməsi və maliyyə sisteminin dayanıqlılığının təmin edilməsinə yönəlir.

ƏDƏBİYYAT İCMALI

Azərbaycan təcrübəsi göstərir ki, fiskal genişlənmə dövrlərində monetar siyasətin həddindən artıq sərtləşdirilməsi real sektorun kreditləşmə imkanlarını məhdudlaşdıraraq iqtisadi artımın tempini aşağı sala bilər. Əksinə, fiskal konsolidasiya mərhələlərində monetar siyasətin yumşaldılması iqtisadi aktivliyin qorunmasına və məşğulluğun dəstəklənməsinə töhfə verə bilər. Bu baxımdan fiskal və monetar siyasətlər arasında koordinasiya makroiqtisadi tarazlığın qorunması üçün zəruri şərt kimi çıxış edir (Quliyev, 2023, s. 21–22).

Bununla yanaşı, büdcə balansı, dövlət borclanması və likvidlik axınları fiskal və monetar siyasətlərin qarşılıqlı təsirinin əsas kanallarını təşkil edir. Büdcə kəsirinin maliyyələşdirilməsi üsulları pul bazarındakı şəraiti dəyişdirərək monetar siyasətin ötürmə mexanizmlərinə təsir göstərə bilər. Azərbaycanlı tədqiqatçılar vurğulayırlar ki, fiskal intizamın qorunması və xərclərin səmərəli prioritetləşdirilməsi monetar siyasətin effektivliyini artırmaqla yanaşı, makroiqtisadi sabitliyin uzunmüddətli əsaslarını möhkəmləndirir (Əliyev, 2024, s. 74–76).

Fiskal siyasətin genişləndirici xarakter alması, yəni dövlət xərclərinin artması və ya vergi yükünün azaldılması məcmu tələbi artıraraq iqtisadi artımı stimullaşdıra bilər. Lakin bu proses eyni zamanda inflyasiya təzyiqlərinin güclənməsinə səbəb olduqda, monetar siyasət sərtləşdirici tədbirlərlə cavab verməyə məcbur qalır. Belə şəraitdə fiskal və monetar siyasətlər arasında uyğunsuzluq yaranarsa, pul-kredit siyasətinin effektivliyi zəifləyə, faiz dərəcələrinin yüksəlməsi isə fiskal stimulların real sektora təsirini məhdudlaşdıra bilər. Azərbaycanlı iqtisadçıların yanaşmasına görə, fiskal genişlənmə ilə paralel monetar sərtləşmə "siyasət konfliktinə" səbəb olaraq iqtisadi artımın tempini zəiflədə bilər (Məmmədov, 2022, s. 63–65).

Azərbaycanda bu mexanizm xüsusilə iqtisadi yavaşlama və ya xarici şoklar fonunda daha aydın şəkildə özünü göstərmişdir. Dövlət xərclərinin sosial ödənişlərə, infrastruktur layihələrinə və real sektorun dəstəklənməsinə yönəldilməsi istehlak və investisiya tələbinin canlanmasına səbəb olmuş, nəticədə iqtisadi artım tempinin saxlanılmasına və ya bərpasına şərait yaratmışdır. Yerli iqtisadçıların fikrincə, fiskal stimulların effektivliyi onların həcmi ilə yanaşı, strukturundan və hədəflənmə səviyyəsindən də asılıdır (Məmmədov, 2022, s. 65–66).

Bununla yanaşı, fiskal genişlənmənin makroiqtisadi nəticələri birmənalı xarakter daşımır. Məcmu tələbin artması istehsal potensialı ilə uzlaşmadıqda inflyasiya təzyiqlərinin güclənməsinə və xarici ticarət balansının pisləşməsinə səbəb ola bilər. Bu halda monetar siyasət qiymət sabitliyini qorumaq məqsədilə sərtləşdirici tədbirlər həyata keçirməyə məcbur qalır ki, bu da fiskal stimulların iqtisadi artım üzərindəki təsirini qismən neytrallaşdıra bilər. Azərbaycanlı tədqiqatçılar fiskal və monetar siyasətlər arasında koordinasiyanın olmamasını genişləndirici fiskal tədbirlərin effektivliyini azaldan əsas amillərdən biri kimi qiymətləndirirlər (Quliyev, 2023, s. 22–23).

Ümumilikdə, fiskal siyasətin genişləndirici xarakteri iqtisadi artım üçün mühüm stimullaşdırıcı rol oynasa da, onun davamlı və inflyasiyasız nəticələr verməsi fiskal intizamın qorunması, xərclərin səmərəliliyi və monetar siyasətlə uzlaşdırılması şərti ilə mümkündür. Bu yanaşma Azərbaycanda

makroiqtisadi sabitliyin və uzunmüddətli inkişafın təmin olunması baxımından əsas metodoloji prinsip kimi çıxış edir (Əliyev, 2024, s. 76–77).

Digər tərəfdən, fiskal siyasətin daraldıcı və ya konsolidasiyaedici mərhələlərində monetar siyasət daha yumşaq mövqe tutaraq iqtisadi aktivliyi dəstəkləyə bilər. Bu cür koordinasiya xüsusilə iqtisadi tənəzzül və ya şok dövrlərində əhəmiyyət kəsb edir. Azərbaycanda pandemiya dövründə fiskal stimulların tətbiqi ilə yanaşı, monetar siyasətin də likvidlik dəstəyi göstərməsi iqtisadi daralmanın dərinləşməsinin qarşısını almışdır. Bu, fiskal və monetar siyasətlərin tamamlayıcı xarakterinin praktik nümunəsi kimi qiymətləndirilir (Quliyev, 2023, s. 20–22).

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Azərbaycanda büdcə xərclərinin məhdudlaşdırıldığı və fiskal intizamın gücləndirildiyi dövrlərdə pul-kredit siyasətinin yumşaldılması iqtisadi artımın kəskin zəifləməsinin qarşısını almaq üçün kompensasiyaedici rol oynamışdır. Faiz dərəcələrinin azaldılması, bank sisteminə likvidlik dəstəyinin artırılması və kredit şərtlərinin yumşaldılması investisiya və istehlak tələbinin qorunmasına şərait yaratmışdır (Məmmədov, 2022, s. 66–67).

Bu yanaşma fiskal və monetar siyasətlərin tamamlayıcı xarakterini nümayiş etdirir. Fiskal konsolidasiya büdcə balansının sağlamlaşdırılmasına və orta müddətli fiskal dayanıqlığın təminə xidmət etdiyi halda, monetar yumşalma real sektorun maliyyələşmə imkanlarını genişləndirərək məşğulluğun və istehsal fəaliyyətinin dəstəklənməsinə imkan verir. Azərbaycanlı iqtisadçıların fikrincə, bu cür siyasət uzlaşması iqtisadiyyatın pro-siklik dalğalanmalarını zəiflətməklə makroiqtisadi sabitliyi möhkəmləndirir (Quliyev, 2023, s. 23–24).

Bununla yanaşı, monetar siyasətin həddindən artıq yumşaldılması maliyyə sabitliyi risklərini artıra və inflyasiya gözləntilərini pisləşdirə bilər. Bu səbəbdən fiskal konsolidasiya dövrlərində monetar stimulların hədəfli və ölçülü tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Yerli müəlliflər vurğulayırlar ki, monetar yumşalma fiskal məhdudiyyətləri kompensasiya etsə də, onun uzunmüddətli effektivliyi struktur islahatlar və real sektorun inkişafı ilə dəstəklənməlidir (Əliyev, 2024, s. 77–79).

Fiskal və monetar siyasətlərin qarşılıqlı təsiri büdcə balansı və dövlət borcu kanalı vasitəsilə də özünü göstərir. Büdcə kəsirinin maliyyələşdirilməsi üçün daxili borclanmanın artması pul bazarında faiz dərəcələrinə təzyiq yarada və bank sektorunun kredit resurslarını dövlət qiymətli kağızlarına yönəldə bilər. Bu isə monetar siyasətin kredit kanalı vasitəsilə real sektora ötürülməsini zəiflədə bilər. Azərbaycanda fiskal intizamın qorunması və borclanmanın idarəolunan səviyyədə saxlanılması monetar siyasətin effektivliyinin əsas şərtlərindən biri kimi qiymətləndirilir (Kərimov, 2021, s. 37–39).

Fiskal və monetar siyasətlərin qarşılıqlı təsiri büdcə balansı və dövlət borcu kanalı vasitəsilə də özünü göstərir. Dövlət büdcəsinin kəsir və ya profisitlə icra olunması pul bazarındakı şəraitə, faiz dərəcələrinin səviyyəsinə və maliyyə resurslarının bölgüsünə birbaşa təsir göstərir. Azərbaycanda büdcə kəsirinin artdığı dövrlərdə bu kəsirin maliyyələşdirilməsi üçün daxili və xarici borclanmanın genişlənməsi monetar siyasətin ötürmə mexanizmlərini dəyişdirə bilər. Xüsusilə daxili borclanmanın artması bank sektorunun resurslarının dövlət qiymətli kağızlarına yönəlməsinə səbəb olaraq real sektorun kreditləşmə imkanlarını məhdudlaşdıra bilər (Məmmədov, 2022, s. 67–69).

Dövlət borcunun həcmi və strukturu monetar siyasətin effektivliyi baxımından mühüm əhəmiyyət daşıyır. Dövlət qiymətli kağızlarının gəlirliliyi maliyyə bazarında faiz dərəcələri üçün istinad nöqtəsi rolunu oynadığından, borclanmanın artması kredit faizlərinin yüksəlməsinə və investisiya fəallığının zəifləməsinə gətirib çıxara bilər. Bu vəziyyət monetar siyasətin iqtisadi artımı stimullaşdırmaq imkanlarını məhdudlaşdırır. Azərbaycanlı iqtisadçılar fiskal intizamın qorunmasını və borclanmanın idarəolunan səviyyədə saxlanılmasını monetar siyasətin effektivliyinin əsas şərtlərindən biri kimi qiymətləndirirlər (Quliyev, 2023, s. 24–25).

Eyni zamanda, büdcə profisiti və ya fiskal konsolidasiya şəraitində dövlət borclanmasına tələbatın azalması pul bazarında faiz təzyiqlərini zəiflədə və monetar siyasətin yumşaldıcı tədbirləri-

nin real sektora ötürülməsini asanlaşdıra bilər. Bu baxımdan büdcə balansının sağlamlaş-dırılması monetar siyasət üçün daha əlverişli mühit formalaşdırır. Yerli müəlliflər vurğulayırlar ki, fiskal dayanıqlıq yalnız büdcə göstəricilərinin yaxşılaşdırılması deyil, eyni zamanda monetar siyasətin məqsədlərinə çatması üçün institusional baza rolunu oynayır (Əliyev, 2024, s. 79–81).

Ümumilikdə, büdcə balansı və dövlət borcu kanalı fiskal və monetar siyasətlərin qarşılıqlı təsirinin əsas mexanizmlərindən biri olaraq, Azərbaycanda makroiqtisadi sabitliyin təmin edilməsində həlledici rol oynayır.

Eyni zamanda, fiskal əməliyyatlar pul bazasında likvidlik şəraitinə birbaşa təsir göstərir. Dövlət xərclərinin mövsümi artımı və ya büdcə transfertləri bank sistemində likvidliyi artıra, bu isə monetar siyasətin faiz alətləri üzərində nəzarət imkanlarını zəiflədə bilər. Bu baxımdan xəzinə əməliyyatları ilə pul-kredit siyasəti arasında operativ koordinasiya zəruri hesab olunur. Azərbaycanlı müəlliflər vurğulayırlar ki, fiskal əməliyyatların monetar hədəflərlə uzlaşdırılmaması inflyasiya gözləntilərinin pisləşməsinə və pul siyasətinin ötürmə mexanizmlərinin zəifləməsinə gətirib çıxara bilər (Əliyev, 2024, s. 73–75).

Fiskal əməliyyatlar pul bazasında likvidlik şəraitinə birbaşa təsir göstərir. Dövlət büdcəsi üzrə həyata keçirilən xərclər, transfertlər və vergi yığımları bank sistemində pul vəsaitlərinin həcmini dəyişdirərək qısamüddətli faiz dərəcələrinin formalaşmasına təsir göstərir. Azərbaycanda dövlət xərclərinin artdığı dövrlərdə xəzinə hesablarından bank sektoruna daxil olan vəsaitlər likvidliyin genişlənməsinə səbəb olur ki, bu da pul bazarında faizlərin azalması istiqamətində təzyiq yarada bilər. Əksinə, vergi yığımlarının intensivləşməsi və ya xərclərin müvəqqəti məhdudlaşdırılması bank sistemində likvidliyin azalmasına gətirib çıxararaq faiz dərəcələrinin yüksəlməsinə şərait yaradır (Məmmədov, 2022, s. 69–71).

Bu baxımdan fiskal əməliyyatların mövsümi xarakteri monetar siyasətin icrasında xüsusi əhəmiyyət kəsb edir. İlin müəyyən dövrlərində, xüsusilə ilin sonuna doğru büdcə xərclərinin sürətlənməsi pul bazasında likvidliyin kəskin artmasına səbəb ola bilər. Bu isə Mərkəzi Bankın pul-kredit alətləri vasitəsilə likvidliyi sterilizasiya etməsini zəruri edir. Azərbaycanlı tədqiqatçılar vurğulayırlar ki, fiskal əməliyyatlarla monetar siyasət arasında operativ koordinasiya olmadıqda pul bazasında dəyişkənlik artır və monetar ötürmə mexanizmləri zəifləyir (Quliyev, 2023, s. 25–26).

Eyni zamanda, xəzinə hesabının idarə olunması fiskal və monetar siyasətlərin qarşılıqlı təsirində mühüm rol oynayır. Xəzinə hesabında yığılan vəsaitlərin həcmi və dövriyyə sürəti bank sisteminin likvidlik mövqeyini müəyyən edən əsas amillərdən biridir. Yerli müəlliflərin fikrincə, xəzinə əməliyyatlarının şəffaf və proqnozlaşdırıla bilən şəkildə aparılması monetar siyasətin faiz dərəcələri üzərində nəzarət imkanlarını genişləndirir və pul bazarında sabitliyin qorunmasına töhfə verir (Əliyev, 2024, s. 81–83).

Fiskal əməliyyatların pul bazasında likvidlik şəraitinə birbaşa təsiri Azərbaycanda fiskal və monetar siyasətlərin uzlaşdırılmasının nə dərəcədə vacib olduğunu göstərir. Bu uzlaşma təmin edildikdə pul bazarında kəskin dalğalanmaların qarşısı alınır və makroiqtisadi sabitliyin qorunması üçün daha əlverişli mühit formalaşır. Fiskal siyasət monetar ötürmə mexanizminin effektivliyinə birbaşa və dolayı yollarla təsir göstərir. Dövlət büdcəsinin gəlir və xərc əməliyyatları pul bazasında likvidlik səviyyəsini dəyişdirərək faiz dərəcəsi kanalı, kredit kanalı və gözləntilər kanalı vasitəsilə monetar siyasətin real iqtisadiyyata ötürülmə gücünü formalaşdırır. Azərbaycanda dövlət xərclərinin artması bank sisteminə əlavə likvidlik axını yaradır və qısamüddətli faiz dərəcələri üzərində azaldıcı təsir göstərə bilər. Bu halda monetar siyasətin sərtləşdirici qərarları faktiki təsir gücünü itirə və monetar ötürmə mexanizmi zəifləyə bilər. Büdcə kəsirinin artması monetar ötürmə mexanizminə əsasən faiz dərəcələri kanalı vasitəsilə təsir edir. Büdcə kəsirinin daxili borclanma hesabına maliyyələşdirilməsi pul bazarında kredit resurslarına tələbi artıraraq faiz dərəcələrinin yüksəlməsinə səbəb ola bilər. Bu isə monetar siyasətin yumşaldıcı təsirini neytrallaşdırır və real sektorda investisiya fəallığını məhdudlaşdırır. Azərbaycan təcrübəsində fiskal kəsirin genişləndiyi dövrlərdə faiz dərəcə-

lərinin monetar qərarlardan daha çox fiskal tələblərlə formalaşması halları müşahidə olunmuşdur ki, bu da monetar siyasətin ötürmə mexanizminin zəiflədiyini göstərir.

Dövlət borcunun səviyyəsi və strukturu pul bazarında tarazlığın qorunmasında mühüm rol oynayır. Dövlət qiymətli kağızlarının həcminin artması bank sektorunun aktiv strukturunu dəyişdirərək likvidliyin dövlət borc alətlərinə yönəlməsinə səbəb olur. Nəticədə bankların real sektora kredit vermə imkanları azalır və kredit kanalı zəifləyir. Azərbaycanda dövlət borcunun idarəolunan səviyyədə saxlanılması monetar siyasətin faiz və kredit kanalları üzrə effektivliyinin qorunması baxımından vacib şərt kimi qiymətləndirilir. Monetar siyasət yalnız qiymət sabitliyinə deyil, eyni zamanda fiskal göstəricilərə də mühüm təsir göstərir. Faiz dərəcələri, inflyasiya və məzənnə dinamikası dövlət büdcəsinin xərclər və gəlirlər strukturunu dəyişdirərək fiskal mövqenin formalaşmasına təsir edir.

Faiz dərəcələrinin yüksəldilməsi dövlət borcunun xidmət xərclərini artıraraq büdcə xərcləri üzərində əlavə fiskal yük yaradır. Daxili borclanma üzrə faiz ödənişlərinin artması büdcə xərclərinin strukturunda sosial və investisiya yönümlü xərclərin sıxışdırılmasına səbəb ola bilər. Azərbaycanda monetar sərtləşmə dövrlərində borcun xidmət xərclərinin artması fiskal manevr imkanlarını məhdudlaşdıran əsas amillərdən biri kimi çıxış etmişdir. İnflyasiya səviyyəsi fiskal gəlirlərin real dəyərinə birbaşa təsir göstərir. Nominal vergi daxilolmaları artsa belə, yüksək inflyasiya şəraitində bu gəlirlərin real alıcılıq qabiliyyəti azalır. Eyni zamanda, inflyasiya sosial ödənişlər və dövlət xərclərinin indeksləşdirilməsi tələbi yaradaraq büdcə yükünü artırır. Azərbaycanda inflyasiyanın yüksəldiyi dövrlərdə fiskal gəlirlərin real effektivliyinin azalması və xərclərin artması fiskal mövqenin zəifləməsinə səbəb olmuşdur. Fiskal və monetar siyasətlərin qarşılıqlı təsiri onların uyğunluğu və ya konflikt xarakteri alması ilə müəyyən olunur. Bu baxımdan fiskal dominantlıq və monetar dominantlıq anlayışları xüsusi əhəmiyyət kəsb edir.

Fiskal dominantlıq şəraitində monetar siyasət fiskal tələblərə tabe olur və büdcə kəsirinin maliyyələşdirilməsi məqsədilə pul siyasətinin sərtləşdirilməsi imkanları məhdudlaşır. Bu vəziyyət inflyasiya risklərinin artmasına səbəb ola bilər. Monetar dominantlıq isə fiskal siyasətin pul-kredit hədəflərinə uyğunlaşdırılmasını və fiskal intizamın qorunmasını nəzərdə tutur. Azərbaycanda makroiqtisadi sabitliyin təmin edilməsi baxımından monetar dominantlığa yaxın modelin saxlanılması əsas prioritet kimi qiymətləndirilir.

NƏTİCƏ

Apardığımız tədqiqatın nəticələrinə əsasən qeyd edə bilərik ki, fiskal və monetar siyasətlərin pro-siklik xarakter alması iqtisadi dalğalanmaları gücləndirə bilər. İqtisadi yüksəliş dövrlərində xərclərin artırılması və monetar yumşalma inflyasiya təzyiqlərini gücləndirdiyi halda, tənəzzül dövrlərində siyasətlərin daraldılması iqtisadi geriləməni dərinləşdirə bilər. Anti-siklik siyasət yanaşması isə iqtisadi şokların yumşaldılmasına xidmət edir. Azərbaycanda pandemiya və post-pandemiya dövründə tətbiq olunan fiskal stimullar və monetar yumşalma anti-siklik siyasətin praktik nümunəsi kimi qiymətləndirilir. Fiskal və monetar siyasətlərin qarşılıqlı təsiri Azərbaycanda makroiqtisadi sabitliyin əsas determinantlarından biridir. Fiskal intizamın qorunması, monetar siyasətin müstəqilliyi və hər iki siyasətin koordinasiyalı şəkildə həyata keçirilməsi monetar ötürmə mexanizminin effektivliyini artırmaqla yanaşı, fiskal dayanıqlığın və iqtisadi artımın davamlılığını təmin edir.

Ümumilikdə, Azərbaycanda fiskal və monetar siyasətlərin qarşılıqlı təsiri tarazlaşdırılmış siyasət miksinin formalaşdırılması baxımından həlledici əhəmiyyət daşıyır. Fiskal intizamın qorunması, xərclərin hədəfli və səmərəli yönəldilməsi, eyni zamanda monetar siyasətin qiymət sabitliyi məqsədlərinə uyğun həyata keçirilməsi makroiqtisadi sabitliyin əsas təminatçıları kimi çıxış edir. Bu siyasətlərin koordinasiyalı şəkildə icrası həm iqtisadi artımın davamlılığını, həm də inflyasiya və maliyyə risklərinin nəzarətdə saxlanılmasını mümkün edir.

İstifadə edilmiş ədəbiyyat:

1. Əliyev, T. (2020). Azərbaycanın fiskal siyasətinin makroiqtisadi sabitliyə təsiri. Azərbaycan İqtisadçıları Jurnalı, 12(4), 55–67.

2. Kərimov, A.M. (2021). Makroiqtisadi tənzimləmə və dövlət siyasəti. Bakı: Kooperasiya Nəşriyyatı, s. 24–39.

3. Quliyev, S. (2020). Fiskal siyasətin makroiqtisadi sabitliyə təsiri: Azərbaycan təcrübəsi. Azərbaycan İqtisadi Araşdırmalar Jurnalı, 8(2), 33–48.

4. Quliyev, T.H. (2023). Müasir fiskal siyasət və büdcə idarəçiliyinin problemləri. Bakı: İqtisad Universiteti Nəşriyyatı, s. 3–26.

5. Məmmədov, R.Ə. (2022). Azərbaycanda fiskal və monetar siyasətin makroiqtisadi sabitliyə təsiri. Bakı: Elm və Təhsil, s. 48–71.

6. Mustafayev, R.A. (2025). İqtisadi inkişafda səmərəli fiskal siyasətin formalaşdırılması və reallaşdırılması istiqamətləri. Fəlsəfə foktorluğu dissertasiya işi. Azərbaycan Kooperasiya Universiteti.

7. Süleymanov, F.Q. (2021). Makroiqtisadi sabitlik və dövlət siyasətinin koordinasiyası. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatı, s. 37–55.

R.T.Hasanov
Doctor of Economics, professor, Azerbaijan State University of Economics
A.R.Abbaszade
master stusent, Azerbaijan State University of Economics (UNEC)

Analysis of the coordination of fiscal and monetary policies and their impact on macroeconomic indicators

Abstract

The article analyzes the interaction between fiscal and monetary policies and their impact on macroeconomic indicators in the context of the Azerbaijani economy. The main objective of the study is to examine the role of coordination between fiscal policy and monetary policy in ensuring macroeconomic stability. The study highlights the importance of fiscal policy in shaping aggregate demand, regulating resource allocation, and determining socio-economic priorities through government budget decisions. At the same time, the role of monetary policy in maintaining price stability, regulating money circulation, and ensuring financial system stability is explained. The results of the study indicate that coordination between fiscal and monetary policies is one of the key conditions for maintaining macroeconomic stability. If inconsistencies arise between fiscal expansion and monetary tightening, the effectiveness of monetary transmission mechanisms may weaken and economic growth may slow down. Conversely, during periods of fiscal consolidation, the easing of monetary policy can support economic activity and contribute to financial stability. The article also examines the interaction channels of fiscal and monetary policies through budget balance, public debt dynamics, and liquidity conditions in the money market. In conclusion, the study finds that maintaining fiscal discipline, ensuring the independence of monetary policy, and implementing coordinated policy measures play a crucial role in strengthening macroeconomic stability and achieving sustainable economic growth in Azerbaijan.

Keywords: *fiscal policy, monetary policy, macroeconomic stability, policy coordination, Azerbaijan economy.*

https://doi.org/10.58225/tim.2026-2-378-388

A.D.Adımov
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
adimovanar@gmail.com

Məqalə redaksiyaya daxil olub 04.03.2026
The article was received by editorial board on 04.03.2026
Статья принята к печати 04.03.2026

MÜHASİBAT UÇOTUNDA İNNOVATİV RƏQƏMSAL HƏLLƏRİN FORMALAŞDIRILMASI VƏ TƏTBİQİ ÜZRƏ METODOLOJİ YANAŞMALAR

Xülasə

Məqalədə mühasibat uçotunda innovativ rəqəmsal həllərin necə formalaşdırıla və praktikaya tətbiq oluna biləcəyi metodoloji baxımdan şərh edilir, eyni zamanda onların Azərbaycan iqtisadi mühiti daxilində işləkliyi qiymətləndirilir. Rəqəmsal transformasiyanın təsiri ilə klassik mühasibat funksiyalarının bulud əsaslı sistemlər, inteqrasiya olunmuş ERP platformaları, robotlaşdırılmış proses avtomatlaşdırılması və analitik alətlər vasitəsilə hansı istiqamətdə yenidən qurulduğu təhlil olunur. Beynəlxalq statistik göstəricilər bulud uçot sistemlərinə keçidin sürətlə artdığını, RPA və süni intellekt tətbiqlərinin isə maliyyə və mühasibat bölmələrində rutin əməliyyatların əhəmiyyətli hissəsini avtomatlaşdırdığını nümayiş etdirir. Azərbaycanın rəqəmsal infrastruktur səviyyəsi, internet yayılma göstəriciləri və müəssisələrin rəqəmsallaşma dinamikası ilə bağlı mövcud hesabatlara əsaslanaraq, mühasibat sahəsində rəqəmsal alətlərin geniş tətbiqi üçün mövcud ilkin imkanlar təsvir olunur. Metodoloji bölmədə rəqəmsal uçot platformasının seçimi, biznes proseslərin xəritəsinin hazırlanması, məlumat arxitekturasının qurulması, daxili nəzarət mexanizmlərinin təşkili və audit izinin saxlanması üzrə mərhələli fəaliyyət planı təqdim edilir. Bulud texnologiyaları, RPA və analitika modullarını birləşdirən hibrid həllərin kiçik və orta sahibkarlıq subyektləri üçün yaratdığı funksional üstünlüklər və mümkün risklər ayrıca qiymətləndirilir. Eyni zamanda informasiya təhlükəsizliyi tələbləri, normativ uyğunluq məsələləri və mühasiblərin rəqəmsal kompetensiyaları ilə bağlı məhdudiyyətlər də metodoloji çərçivənin ayrılmaz elementi kimi araşdırılır. Yekunda göstərilir ki, mühasibat uçotunda rəqəmsal həllərin səmərəli tətbiqi yalnız texnoloji seçimlə məhdudlaşmır, idarəetmə modeli, hüquqi tənzimləmə və peşəkar hazırlıq komponentlərinin uzlaşdırılmış şəkildə inteqrasiyasını tələb edir.

Açar sözlər: *rəqəmsal mühasibat, bulud mühasibatlığı, robotlaşdırılmış proses avtomatlaşdırılması, rəqəmsal transformasiya, metodoloji yanaşma.*

GİRİŞ

Mühasibat uçotu illər boyu sənəd intizamına, ardıcıllığa və nəzarət mexanizmlərinin qorunmasına əsaslanan nisbətən konservativ bir fəaliyyət sahəsi kimi formalaşıb. Lakin rəqəmsal transformasiya bu çərçivəni dəyişdirir və uçot sistemləri getdikcə lokal proqram təminatından uzaqlaşaraq bulud əsaslı platformalara, inteqrə olunmuş ERP mühitinə və real vaxt analitik panellərə keçid edir. Azərbaycanda internet istifadəçilərinin payının son illərdə artması bu keçidi texniki baxımdan mümkün edir: 2019-cu ildə 81,1 faiz olan göstərici 2023-cü ildə 89 faizə yüksəlib (World Bank, 2024; Trendometric, 2024). Eyni dövrdə genişzolaqlı internetə çıxışın təxminən 2 milyon təsərrüfat və biznes subyektini əhatə etməsi rəqəmsal uçot sistemlərinin tətbiqi üçün struktur zəmin yaradır (Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan, 2024).

DataReportal-ın hesabatları da ölkədə rəqəmsal istifadə intensivliyinin artdığını təsdiqləyir və biznes mühitində onlayn xidmətlərə keçidin sürətləndiyini göstərir (DataReportal, 2023, 2024).

Rəqəmsallaşma yalnız internet infrastrukturunun mövcudluğu ilə ölçülmür; əsas məsələ müəssisələrin bu imkanları real biznes proseslərinə necə inteqrasiya etməsidir. OECD-nin qiymətləndirməsinə görə, Azərbaycanda müəssisələrin rəqəmsal həllərə keçidi qeyri-bərabər dinamikaya malikdir və xüsusilə KOB-lar üçün institusional və bacarıq boşluqları qalmaqdadır (OECD, 2022). Avropa İttifaqında isə 2022-ci ildə müəssisələrin 70 faizi ən azı əsas rəqəmsal intensivlik səviyyəsinə çatıb, 2023-cü ildə 39 faiz müəssisə bulud xidmətlərindən istifadə etdiyini bəyan edib ki, bu da bulud mühasibatlığının artıq yalnız iri korporasiyalara xas alət olmadığını göstərir (OECD, 2023). Qlobal bazar proqnozları da bulud mühasibatlığı xidmətlərinin 2030-cu ilə qədər davamlı artım nümayiş etdirəcəyini göstərir (MarketGrowthReports, 2025). Belə bir kontekstdə əsas sual texnologiyanın özü deyil, onun metodoloji əsaslarla necə qurulmasıdır: beynəlxalq uçot standartları, daxili nəzarət mexanizmləri və yerli normativ tələblər arasında tarazlıq necə təmin olunmalıdır?

Empirik tədqiqatlar göstərir ki, bulud mühasibatlığı tətbiq edən KOB-larda məlumatın əlçatanlığı və hesabat çevikliyi artır, qərarvermə prosesi sürətlənir və insan faktoru ilə bağlı səhvlər azalır (Moniruzzaman & Rahman, 2023; Rawashdeha, 2023). Eyni zamanda, bulud həllərinin mənimsənilməsinə təsir edən amillər arasında məlumat təhlükəsizliyi, etibarlılıq və inteqrasiya xərcləri əsas maneələr kimi çıxış edir (Mujalli et al., 2024). Robotic process automation tətbiqləri isə təkrarlanan mühasibat əməliyyatlarını avtomatlaşdıraraq iş yükünü azaldır və audit üçün strukturlaşdırılmış məlumat izi yaradır (Jędrzejka, 2019; Perdana et al., 2023). Bununla belə, RPA və süni intellektin uçot xidmətlərinə inteqrasiyası proseslərin yenidən dizaynını və daxili nəzarət mexanizmlərinin adaptasiyasını tələb edir (Adrian, 2025; Januszewski & Kujawski, 2024). Qlobal RPA bazarının sürətli böyüməsi də göstərir ki, avtomatlaşdırma artıq eksperimental mərhələni geridə qoyur və geniş tətbiq mərhələsinə daxil olur (MarketsandMarkets, 2023).

Azərbaycan reallığında internet istifadə səviyyəsi artsa da, OECD və milli hesabatlar göstərir ki, xüsusilə KOB seqmentində idarəetmə və mühasibat proseslərinin rəqəmsallaşması hələ ilkin fazadadır (OECD, 2022; Baku Research Institute, 2024). Texniki çıxış imkanları genişlənsə də, rəqəmsal bacarıqların inkişafı, proqram təminatının seçimi və məlumat arxitekturasının qurulması məsələləri açıq qalır. Statcounter məlumatları da rəqəmsal platforma istifadəsinin artdığını göstərir ki, bu, biznes proseslərinin onlayn mühitə keçid potensialını gücləndirir (Statcounter, 2025). Lakin texnoloji baza ilə institusional hazırlıq səviyyəsi arasında fərq mövcuddur və uçot sistemlərinin tam rəqəmsallaşması üçün struktur islahatlar tələb olunur.

Belə şəraitdə mühasibat uçotunda innovativ rəqəmsal həllərin formalaşdırılması proqram təminatının sadə texniki seçimi kimi deyil, metodoloji dizayn məsələsi kimi nəzərdən keçirilməlidir. Məlumat axınlarının modelləşdirilməsi, rəqəmsal mühitdə daxili nəzarət mexanizmlərinin qorunması, audit izinin davamlılığının təmin edilməsi və insan resurslarının mərhələli adaptasiyası sistemli yanaşma tələb edir. Məqalədə bu məqsədlə beynəlxalq akademik ədəbiyyatın nəticələri ilə Azərbaycanın rəqəmsal inkişaf göstəriciləri birləşdirilərək konseptual və tətbiqi çərçivə təqdim olunur.

Rəqəmsal transformasiyanın mühasibat uçotuna təsiri yalnız texniki modernləşmə ilə məhdudlaşmır; söhbət informasiya mühitinin yenidən qurulmasından gedir. Ənənəvi uçot sistemlərində məlumatın toplanması, işlənməsi və hesabatlaşdırılması mərhələləri ardıcıl və çox vaxt insan müdaxiləsinə əsaslanan prosedurlarla həyata keçirilirdi. Rəqəmsal mühitdə isə məlumat axını xətti deyil, şəbəkə tipli struktur alır. Müxtəlif mənbələrdən daxil olan informasiya eyni platformada birləşir və real vaxt rejimində emal olunur. Rəqəmsal uçot sistemlərinin effektivliyi isə yalnız proqram təminatının funksionallığı ilə müəyyən edilmir. Məlumat arxitekturasının düzgün qurulmaması halında inteqrasiya olunmuş platformalar belə gözlənilən nəticəni vermir. Hesab planı-


nın strukturu, məlumat kodlaşdırma sistemi və sənəd dövriyyəsinin elektron modeli əvvəlcədən planlaşdırılmalıdır. Əks halda müxtəlif modullar arasında uyğunsuzluq yaranır və idarəetmə hesabatlarının etibarlılığı azalır.İdarəetmə səviyyəsində transformasiya maliyyə funksiyasının rolunu dəyişdirir. Mühasibatlıq artıq yalnız tarixi məlumatı qeyd edən struktur deyil, strateji analitika üçün məlumat təmin edən mərkəzə çevrilir. Real vaxt panelləri, pul axını proqnozları və xərc dinamikasının vizuallaşdırılması rəhbərliyə daha çevik qərar vermək imkanı yaradır. Dəyişiklik maliyyə şöbəsinin təşkilati statusuna da təsir edir və analitik bacarıqların ön plana çıxmasına səbəb olur. Normativ mühitin uyğunlaşdırılması paralel istiqamət kimi çıxış edir. Elektron sənəd dövriyyəsi, rəqəmsal imza və onlayn vergi hesabatları artıq hüquqi müstəvidə qəbul olunmuş mexanizmlərdir. Lakin beynəlxalq uçot standartları ilə yerli normativ tələblərin uyğunlaşdırılması prosesi hələ də davam edir. Rəqəmsal platformaların seçimi zamanı hesabat formalarının avtomatik generasiyası və arxivləşdirmə mexanizmi yerli qanunvericiliyə uyğun olmalıdır. Bulud əsaslı sistemlərdə məlumatın şifrələnməsi, giriş hüquqlarının diferensiallaşdırılması və ehtiyat nüsxə siyasəti sistemin dayanıqlığını müəyyən edən əsas elementlərdir. Rəqəmsal mühitdə səhv və ya kiberhücum riski ənənəvi arxiv sistemindən fərqli xarakter daşıyır. Nəzarət mexanizmləri texniki səviyyədə deyil, institusional qaydalarla dəstəklənməlidir.Peşəkar kompetensiyaların transformasiyasına gəldikdə isə qeyd etməliyik ki, mühasiblər proqram istifadəçisi olmaqla kifayətlənməməlidirlər, məlumat analizi və risk qiymətləndirilməsi sahəsində biliklərini genişləndirməlidirlər. Ali təhsil proqramlarında rəqəmsal uçot modullarının genişləndirilməsi və praktiki təlimlərin artırılması aktual istiqamət kimi görünür. Müəssisə daxilində isə mərhələli adaptasiya planı tətbiq olunmalıdır ki, keçid prosesi idarəolunan xarakter daşısın. Rəqəmsal transformasiya eyni zamanda təşkilati mədəniyyətlə bağlıdır. Açıq məlumat mühiti və şəffaf hesabat mexanizmi daxili məsuliyyəti gücləndirir. Elektron audit izi əməliyyatların izlənməsini asanlaşdırır və nəzarət sistemini strukturlaşdırır. İdarəetmə qərarları daha çox ölçülə bilən göstəricilərə əsaslanır.

Beləliklə, mühasibat uçotunun rəqəmsal transformasiyası texnologiya, normativ baza və insan kapitalı arasında qarşılıqlı əlaqəyə əsaslanan kompleks proses kimi dəyərləndirilə bilər. İnteqrə olunmuş yanaşma formalaşdırıldıqda uçot sistemi yalnız əməliyyat funksiyası deyil, strateji idarəetmə aləti rolunu daşıyır.

Rəqəmsal mühasibat həllərinin qlobal fonu

Əvvəlcə dünyada rəqəmsal mühitin vəziyyətinə nəzər salaq. Dünya Bankı və digər məlumat mənbələri göstərir ki, 2019–2023-cü illər ərzində Azərbaycanda internet istifadəçilərinin sayı davamlı şəkildə artaraq 89 faizə çatıb və bu, rəqəmsal mühasibat sistemlərini tətbiq etməyə şərait yaradan əsas infrastruktur komponentinin artıq mövcud olduğuna işarədir. Eyni zamanda, genişzolaqlı internetə çıxışın artması bulud əsaslı həllərə etibarlı bağlantı imkanlarını daha da genişləndirir.

Qrafik 1. Azərbaycanda internetdən istifadə göstəriciləri (2019–2023)



***Mənbə**: Dünya Bankı və Trendometric məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafik üzərindən baxdıqda, internetdən istifadə edənlərin payının bir neçə il içində nəzərə çarpacaq dərəcədə artdığı açıq görünür və bu artım mühasibat uçotunda rəqəmsal həllərin tətbiqini texniki baxımdan daha əlçatan edir. Belə ki, 2025-ci ildə Azərbaycanda internet istifadəçilərinin sayı təxminən 9,23 milyon nəfərə çataraq əhalinin 89 faizini təşkil edib, bu isə onlayn xidmətlərə çıxışın yüksək səviyyədə olduğunu göstərir (DataReportal, 2025). Genişlənmiş istifadəçi bazası bulud əsaslı mühasibat sistemləri və internet üzərindən hesabat modulllarının həm işçilər, həm də rəhbərlik səviyyəsində mənimsənilməsini asanlaşdırır.

Genişzolaqlı internetə çıxış göstəriciləri də bu mənzərənin tamamlayıcı elementidir. 2023-cü ildə "Online Azerbaijan" layihəsi çərçivəsində bir neçə il ərzində ölkə üzrə ev təsərrüfatları və biznes subyektləri üçün genişzolaqlı internet təminatı genişlənib; təkcə həmin il ərzində 1,1 milyondan artıq ev təsərrüfatı və müəssisə bu xidmətdən yararlanıb (APA, 2025). Rəqəmsal infrastrukturun sürətlə inkişafı nəticəsində, 2025-ci ilə qədər ölkədə yüksək sürətli sabit genişzolaqlı internetə çıxışı olan ev təsərrüfatlarının sayı təxminən 3 milyon nəfərə çatıb və beləliklə ölkə üzrə əhatə demək olar ki, tam təmin olunub (Trend, 2025). Baku Research Institute-un məlumatına görə, 2023-cü ildə hər 100 nəfərə 89 genişzolaqlı internet istifadəçisi düşüb ki, bu da əvvəlki illərlə müqayisədə ciddi artımı göstərir (Baku Research Institute, 2024). Bu genişlənmə rəqəmsal mühasibat alətlərinin tətbiqinin texniki bazasını gücləndirir və müəssisələr arasında rəqəmsal vərdişlərin formalaşmasını sürətləndirir.

Cədvəl 1

Azərbaycanda rəqəmsal infrastruktur üzrə seçilmiş göstəricilər

Göstərici	**İl**	**Dəyər**
Genişzolaqlı internetə çıxışı olan ev təsərrüfatları	2023	1916000
Genişzolaqlı internetə çıxışın əhatə dərəcəsi	2023	66 %
Genişzolaqlı istifadəçilər, hər 100 nəfərə	2023	89

***Mənbə**: Ministry of Digital Development and Transport və Baku Research Institute məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Bu göstəricilərdən çıxan nəticə belədir: mühasibat uçotu üçün bulud əsaslı həllərin tətbiqi artıq infrastruktur baxımdan əsaslı şəkildə əsaslandırıla bilər, çünki internet və cloud xidmətləri biznes mühiti üçün artıq geniş yayılıb və texniki baza formalaşıb. Qlobal səviyyədə darçınla bulud xidmətlərinə keçid üstünlük təşkil edir və şirkətlərin çox böyük hissəsi müxtəlif cloud alətlərindən istifadə edir – Gartner-in proqnozuna görə, 2025-ci ilə qədər yeni informasiya sistemlərinin böyük əksəriyyəti cloud əsaslı olacaq və hybrid modellər geniş yayılacaq (Brightlio, 2025). Bu, bulud mühasibatlığının yalnız bir neçə pioner müəssisənin seçimi deyil, baza təşkil edən texnoloji strategiya kimi formalaşdığını göstərir. Qlobal hesablamalar da bulud mühasibat proqramları bazarının 2023-cü ildə təxminən 3.5 milyard ABŞ dolları səviyyəsində olduğunu və 2032-ci ilə qədər 7.0 milyard dollara yaxınlaşacağını göstərir, bu da artan istifadə göstəricisinin birbaşa nəticəsidir (Allied Market Research, 2025).

Bununla belə, regionlar və biznes ölçüləri üzrə fərqlər qalır və bu, metodoloji yanaşmada hibrid modellərin nəzərə alınmasını tələb edir; yəni bulud həlləri ilə yanaşı yerli serverlər və offline rejimdə işləyə bilən modullar da sistem dizaynında öz yerini saxlamalıdır. Belə yanaşma həm qlobal datacenter infrastrukturunu, həm də lokal fəaliyyət göstərən bizneslərin reallıqlarını uzlaşdırmağa imkan verir. Akademik və tətbiqi tədqiqatlar göstərir ki, KOB-ların bulud mühasibatlığına keçid qərarına təsir edən əsas faktorlar arasında xərclərə qənaət, əməliyyat çevikliyi və təşkilat daxilində rəqəmsal hazırlıq yer alır (Mujalli et al., 2024; Allied Market Research, 2025). Rəqəmsal alətlərin istifadəsi yalnız hesabatlaşdırma və yaddaş üçün deyil, eyni zamanda əməkdaşlar və rəhbərlik üçün real vaxt maliyyə görünüşü və qərarvermə dəstək sistemi kimi dəyər yaradır. Bu yanaşma göstərir ki,

bulud mühasibatlığı genişlənən bazarda əsas axına çevrilir və eyni zamanda lokal infrastruktur və offline imkanları ilə dəstəklənə bilər.

Cədvəl 2

Bulud mühasibatlığının qlobal yayılması üzrə seçilmiş göstəricilər

Göstərici	İl	Dəyər
Bulud mühasibat alətlərindən istifadə edən bizneslər	2023	60 milyon+
Bulud mühasibatlığından istifadə edən KOB-lar	2023	28 milyon+
Bangladesh KOB-larında bulud mühasibatlığı qəbul səviyyəsi	2023	50 %

***Mənbə**: MarketGrowthReports bulud mühasibatlığı bazarı üzrə icmal və Moniruzzaman & Rahman tədqiqatı əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Bu cədvəldə verilən rəqəmlər bir daha təsdiqləyir ki, bulud mühasibatlığı artıq mühasibat uçotunda nisbi yeni texnologiya qismində deyil, qlobal miqyasda geniş yayılmış praktika kimi qəbul olunur. Qlobal bazar araşdırmaları göstərir ki, 2023-cü ildə bulud mühasibat alətlərindən istifadə edən bizneslərin sayı 60 milyonun üzərindədir və bu rəqəmin böyük hissəsini kiçik və orta müəssisələr təşkil edir; təxminən 28 milyon KOB bulud mühasibatlığından vergitutma, əməkhaqqı və xərc izləmə kimi funksiyalar üçün yararlanıb (MarketGrowthReports, 2025; Moniruzzaman & Rahman, 2023).

Bangladesh kimi inkişaf edən ölkələrdə aparılan araşdırmalar isə göstərir ki, KOB-ların təxminən yarısı bulud mühasibat sistemlərini qəbul edib və bunun səbəbləri arasında xərclərə qənaət, əməliyyat çevikliyi və təşkilati hazırlıq mühüm rol oynayır (Hossain, 2025). Bu tendensiya həmin texnologiyanın yalnız qabaqcıl iqtisadiyyatlarda deyil, müxtəlif inkişaf səviyyəli ölkələrdə də praktik fayda gətirdiyini göstərir.

Bu qlobal yanaşmadan Azərbaycana baxanda belə bir nəticəyə gəlmək olar: bulud mühasibatlığının tətbiqi üçün hazırda mövcud texniki baza və istifadəçi infrastrukturu var. Azərbaycanın internet istifadə səviyyəsi 2023-cü ildə əhalinin 89 faizi səviyyəsinə çatıb və bu, birbaşa olaraq rəqəmsal xidmətlərə çıxış üçün imkan yaradır (World Bank development indicators, 2023). Lakin OECD-nin rəqəmsallaşma ilə bağlı hesabatı göstərir ki, ölkədə müəssisələrin rəqəmsal həllərə keçid səviyyəsi hələ də aşağıdır və KOB-lar bu istiqamətdə daha çox dəstəyə ehtiyac duyur (OECD, 2022; OECD, 2023).

Bu isə metodoloji baxımdan onu tələb edir ki, bulud həlləri ilə yanaşı yerli server əsaslı və offline rejimdə də işləyə bilən modullar nəzərə alınsın; beləliklə fərqli coğrafi və texniki şəraitə malik müəssisələr üçün daha elastik və uyğun bir sistem dizaynı əldə etmək mümkündür.

Əsas odur ki, bulud mühasibatlığı artıq qlobal praktikada geniş istifadə olunur, bunun biznes performansına, hesabat çevikliyinə və resurs qənaətinə təsiri bir sıra tədqiqatlarda təsdiqlənib (Moniruzzaman & Rahman, 2023; Rawashdeh & Rawashdeh, 2023). Azərbaycan kontekstində isə bu tendensiyanın gerçək biznes mühitinə uyğunlaşdırılması üçün həm texniki, həm də təşkilati hazırlığın artırılması vacibdir.

Müəssisə rəqəmsallaşması və mühasibat prosesləri

OECD-nin hesabatlarında göstərilir ki, Azərbaycanda KOB-ların rəqəmsallaşması üçün xüsusi proqramlar formalaşdırılsa da, şirkətlərin əhəmiyyətli hissəsi hələ də əsasən elektron poçt, ofis proqramları və sadə onlayn xidmətlərlə məhdudlaşır. Avropa İttifaqında 2022-ci ildə müəssisələrin 70 faizinin "əsas rəqəmsal intensivlik" səviyyəsinə çatması və 98 faiz böyük müəssisənin bu kateqoriyaya daxil olması, rəqəmsal uçot həllərinin orada hansı miqyasda yayıldığını göstərən dolayı göstərici kimi qəbul edilə bilər.

2023-cü ildə isə Aİ müəssisələrinin 39 faizi ən azı bir bulud kompüterləşmə xidmətindən istifadə etdiyini bildirib.

Cədvəl 3

Avropa İttifaqında rəqəmsal intensivlik və bulud xidmətləri üzrə göstəricilər

Göstərici	İl	Dəyər, %
Bütün müəssisələrdə əsas rəqəmsal intensivlik	2022	70
KOB-larda əsas rəqəmsal intensivlik	2022	69
Böyük müəssisələrdə əsas rəqəmsal intensivlik	2022	98
Bulud xidmətlərindən istifadə edən müəssisələr	2023	39

***Mənbə**: Eurostat "Digitalisation in Europe – 2023 edition" və "Towards Digital Decade targets for Europe" məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Avropa İttifaqı üzrə rəqəmsal intensivlik göstəriciləri müəssisələrin texnologiyadan istifadəsinin yalnız formal deyil, struktur xarakter daşıdığını göstərir. 2022-ci ildə bütün müəssisələr üzrə əsas rəqəmsal intensivlik 70 faiz, KOB-larda 69 faiz, böyük müəssisələrdə isə 98 faiz səviyyəsində qeydə alınmışdır. Rəqəmlər arasındakı fərq təsadüfi deyil. Böyük şirkətlərdə daxili İT bölmələri, ayrılmış büdcə, yazılı prosedurlar və audit mexanizmləri mövcuddur. KOB-larda isə rəqəmsallaşma çox vaxt yalnız əsas əməliyyatların elektronlaşdırılması ilə məhdudlaşır. Nəticədə proqram təminatı mövcud olsa da, mühasibat uçotunun bütün mərhələləri vahid sistemdə birləşmir.

2023-cü ildə Avropa İttifaqında müəssisələrin 39 faizi mühasibatlıq, ERP, verilənlər bazası və təhlükəsizlik kimi fəaliyyətə birbaşa təsir edən bulud xidmətlərindən istifadə etmişdir. Sadə fayl saxlanması və ya e-poçt xidmətləri daha yüksək faiz göstərə bilər. Lakin maliyyə və mühasibat proseslərini əhatə edən bulud həlləri ayrıca ölçülür. Metodoloji çərçivə hazırlanarkən yalnız "buluddan istifadə edilir" faktı əsas götürülə bilməz. Hansı funksional blokların bulud mühitinə keçirildiyi ayrıca qiymətləndirilməlidir.

Rəqəmsal intensivlik anlayışının mühasibat uçotu müstəvisinə uyğunlaşdırılması zəruridir. Müəssisənin bir neçə texnologiyadan istifadə etməsi uçotun avtomatlaşdırıldığı anlamına gəlmir. Praktik yanaşmada altı əsas blok fərqləndirilə bilər: elektron ilkin sənədlər və təsdiq mexanizmi, bank və kassa inteqrasiyası, satış və anbar uçotunun əlaqələndirilməsi, hesabatların avtomatik formalaşdırılması, elektron arxiv sistemi, məlumat təhlükəsizliyi və giriş hüquqları. Hər hansı blokun zəif təşkili informasiya axınının parçalanmasına səbəb olur. Nəticədə məlumatın təkrar daxil edilməsi və səhv riski artır.

OECD tərəfindən Azərbaycan üzrə təqdim edilən qiymətləndirmələrdə KOB-ların rəqəmsal texnologiyaları mənimsəmə səviyyəsinin həm regional ölkələrdən, həm də OECD məkanından geri qaldığı göstərilir. Xüsusilə e-ticarət, rəqəmsal maliyyə xidmətləri və bulud həllərində boşluqlar mövcuddur. Rəqəmsal layihələrin maliyyələşdirilməsi ilə bağlı çətinliklər də qeyd edilir. Qeyri-maddi aktivlərin banklar tərəfindən qiymətləndirilməsi mürəkkəb hesab olunur. Layihənin iqtisadi səmərəliliyinin əsaslandırılması hər zaman peşəkar səviyyədə aparılmır. Alternativ maliyyələşmə mexanizmləri və FinTech alətləri isə tam inkişaf etməmişdir.

Mühasibat uçotu üzrə metodoloji model tərtib edilərkən iqtisadi əsaslandırma ayrıca bölmə kimi nəzərdə tutulmalıdır. Proqram təminatı, avadanlıq, inteqrasiya, təlim və informasiya təhlükəsizliyi xərcləri detallı hesablanmalıdır. Gözlənilən qənaət göstəriciləri konkret rəqəmlərlə ifadə edilməlidir: ay sonu bağlanış müddətinin azalması, düzəliş qeydlərinin sayının aşağı düşməsi, manual əməliyyatların faizinin azalması. Risk amilləri də əvvəlcədən qiymətləndirilməlidir. Sistem dayanması, məlumat itkisi və kiberhücum ehtimalı kimi faktorlar maliyyə modelində nəzərə alınmalıdır.

Rəqəmsallaşmanın mərhələli tətbiqi Azərbaycan kontekstində daha real yanaşma kimi görünür. İlkin mərhələdə müəssisənin sənəd axını və uçot xəritəsi təhlil edilir. Sənədin yaradılmasından təsdiqinə qədər olan proseslər qeyd olunur. Məlumatın neçə dəfə yenidən daxil edildiyi və ən çox

səhv yaranan nöqtələr müəyyənləşdirilir. Bank çıxarışlarının avtomatik yüklənməsi və elektron arxiv sisteminin qurulması tez nəticə verən addımlardandır.

Növbəti mərhələdə modullar arasında inteqrasiya gücləndirilir. Satış, anbar, əsas vəsait və əməkhaqqı blokları vahid informasiya bazasında birləşdirilir. ERP seçimi mümkün deyilsə, bulud əsaslı mühasibat proqramı ilə digər sistemlər API vasitəsilə əlaqələndirilə bilər. İnkişafın üçüncü mərhələsində giriş hüquqları, dəyişiklik tarixçəsi və ehtiyat nüsxə mexanizmləri tətbiq olunur. Audit izi mexanizmi mühasibat prosesində şəffaflığı təmin edir.

İnsan amili ayrıca nəzərə alınmalıdır. KOB-larda uçot çox vaxt məhdud sayda əməkdaşın üzərində qurulur. Yeni sistemə keçid zamanı müqavimət və adaptasiya problemi yaranır. Keçid dövründə köhnə və yeni sistemin paralel aparılması praktik həll kimi qəbul edilə bilər. Əsas hesabat formaları hər iki sistemdə müqayisə olunur. Təlim materiallarının və daxili prosedurların sənədləşdirilməsi bilik itkisi riskini azaldır. Rəqəmsal intensivlik göstəricilərinin müqayisəsi zamanı ümumi bulud istifadəsi ilə mühasibat proseslərini əhatə edən bulud həlləri arasında fərq saxlanmalıdır. Fayl saxlanması və ya e-poçt xidməti transformasiya göstəricisi hesab edilmir. Maliyyə və idarəetmə funksiyalarının inteqrasiyası əsas meyar kimi qəbul olunur. Seçim mərhələsində proqram təminatı üzrə konkret sualların cavablandırılması məqsədəuyğundur: bank inteqrasiyası mövcuddurmu, API dəstəyi varmı, audit izi saxlanılırmı, avtomatik ehtiyat nüsxə mexanizmi necə qurulub, lokal vergi və hesabat tələblərinə uyğunluq təmin edilirmi.

Rəqəmsal mühasibat həllərinin növləri və onların funksional təsiri

Akademik mənbələrdə rəqəmsal mühasibat həlləri adətən dörd əsas istiqamət üzrə qruplaşdırılır: bulud əsaslı mühasibat platformaları, inteqrə olunmuş ERP sistemlərinin maliyyə modulları, robotlaşdırılmış proses avtomatlaşdırılması və analitika, o cümlədən süni intellekt alətləri. Müxtəlif ölkələrdə aparılmış empirik araşdırmalar göstərir ki, bulud mühasibatlığının qəbuluna təsir edən əsas amillər təşkilatın daxili hazırlıq səviyyəsi, mövcud İT infrastrukturu və gözlənilən fayda ilə xərclər arasındakı balansdır. Bununla yanaşı, məlumatların təhlükəsizliyi, serverlərin yerləşdiyi məkan və daimi internet asılılığı kimi məsələlər qərarvermə prosesini ləngidə və ya mərhələli keçidi zəruri edə bilir. RPA üzrə aparılan tədqiqatlarda isə diqqət daha çox təkrarlanan, qaydaya əsaslanan əməliyyatların avtomatlaşdırılmasına yönəlir. Hesab-fakturaların işlənməsi, bank çıxarışlarının uyğunlaşdırılması, debitor və kreditor borclarının monitorinqi kimi proseslərdə robotların tətbiqi əməliyyat xərclərini azaldır və mexaniki səhvlərin qarşısını əhəmiyyətli dərəcədə alır. Lakin bu keçid sadəcə proqram quraşdırmaqla yekunlaşmır; proses xəritələrinin yenidən qurulması, səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi və daxili nəzarət mexanizmlərinin rəqəmsal mühitə uyğunlaşdırılması tələb olunur. Qlobal bazar göstəriciləri də bunu təsdiqləyir: RPA bazarının həcmi 2022-ci ildə təx-minən 2,467 milyard ABŞ dolları səviyyəsində qiymətləndirilib və 2023–2028-ci illər üzrə illik orta artım tempinin 30 faizdən yuxarı olacağı proqnozlaşdırılır. Bu dinamika mühasibat və maliyyə funksiyalarında avtomatlaşdırmanın artıq niş sahə deyil, sürətlə böyüyən sənaye seqmenti olduğunu göstərir.

Cədvəl 4

Rəqəmsal mühasibat texnologiyaları üzrə seçilmiş qlobal göstəricilər

Texnologiya	Göstərici	İl	Dəyər
Bulud mühasibatlığı	Bulud mühasibat alətlərindən istifadə edən bizneslər	2023	60 milyondan yuxarı
Bulud mühasibatlığı	KOB-ların payı	2023	65 %
RPA	Qlobal bazar həcmi	2022	2,467 milyard ABŞ dolları
RPA	Proqnoz CAGR	2023–2028	30,14 %

***Mənbə**: MarketGrowthReports və MarketsandMarkets RPA bazarı üzrə hesabatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl 4-də əks olunan göstəricilər yalnız texnologiyaların yayılma miqyasını deyil, eyni zamanda maliyyə funksiyasının struktur dəyişməsini də göstərir. 60 milyondan artıq biznesin bulud mühasibat alətlərindən istifadə etməsi artıq bazarın erkən mərhələni keçdiyini göstərən göstəricidir. KOB-ların 65 faizlik payı isə rəqəmsal uçotun yalnız iri korporasiyalara xas olmadığını təsdiqləyir. Maliyyə proseslərinin infrastruktur səviyyəsində transformasiyası artıq qlobal miqyas alıb.

RPA bazarının 30 faizdən artıq orta illik artım tempi isə başqa bir dinamikanı ortaya qoyur. Burada söhbət yalnız proqram təminatının satışından getmir. Əməliyyatların icra məntiqi dəyişir. Əvvəllər mühasib tərəfindən addım-addım yerinə yetirilən təkrarlanan prosedurlar indi qayda əsaslı robot skriptlər vasitəsilə icra olunur. Məsələn, təchizatçı qaimələrinin sistemə daxil edilməsi, bank ödənişlərinin uyğunlaşdırılması, debitor borclarının yaşlandırma hesabatının hazırlanması kimi əməliyyatlar RPA ilə avtomatlaşdırıldıqda insan resursu daha çox analitik fəaliyyətə yönəlir.

Qlobal tendensiyaların bir digər tərəfi məlumatların həcmi və strukturudur. Bulud platformaları məlumatı mərkəzləşdirir, RPA isə məlumatın emalını sürətləndirir. Nəticədə real vaxt analitikası mümkün olur. Əgər əvvəl ay sonu bağlanış 10–15 gün çəkirdisə, rəqəmsal sistemlərdə həmin müddət 3–5 günə enə bilir. Strateji qərarvermə üçün məlumatın gecikməsi azalır. Likvidlik planlaşdırılması, xərc optimallaşdırılması və pul axınının proqnozlaşdırılması daha operativ aparılır.

Texnologiya seçimi zamanı daha bir məqam nəzərə alınmalıdır: inteqrasiya qabiliyyəti. Ayrı-ayrı mühasibat, satış və anbar proqramlarının paralel istifadəsi məlumat uyğunsuzluğu yarada bilər. Seçilən həllərin açıq API interfeysinə malik olması, digər sistemlərlə məlumat mübadiləsi imkanının mövcudluğu vacib şərtdir. Əks halda rəqəmsallaşma yeni "silo"lar formalaşdırır və idarəetmə qərarlarının dəqiqliyi azalır.

Risk idarəetməsi də rəqəmsal mühasibat modelinin ayrılmaz hissəsinə çevrilir. Bulud mühitində məlumat təhlükəsizliyi, giriş hüquqlarının segmentasiyası və ehtiyat nüsxə siyasəti ayrıca tənzimlənməlidir. RPA tətbiq edilərkən isə proses səhvlərinin avtomatlaşdırılması riski mövcuddur. Yanlış qurulmuş skript yüzlərlə əməliyyatı səhv icra edə bilər. Buna görə də robotlaşdırılan hər bir proses üçün test mərhələsi və nəzarət mexanizmi tətbiq olunmalıdır.

Rəqəmsal transformasiyanın maliyyə nəticələri də qiymətləndirilməlidir. Proqram təminatı xərci ilə yanaşı, təlim, proses yenidənqurması və dəyişiklik idarəetməsi xərcləri də hesablanmalıdır. Eyni zamanda qənaət tərəfi ölçülə bilər: əməliyyat vaxtının azalması, səhv düzəlişlərinə sərf olunan resursun aşağı düşməsi, audit prosedurlarının sürətlənməsi. Maliyyə menecmenti üçün əsas göstəricilərdən biri "ay sonu bağlanış müddəti", digəri isə "manual əməliyyatların payı" ola bilər.

Kadr kompetensiyaları ayrıca diqqət tələb edir. Mühasib yalnız uçot qeydlərini aparan icraçı funksiyasından çıxaraq məlumat analitikinə çevrilir. Excel səviyyəsində işləmə bacarığı artıq kifayət etmir. Məlumat vizuallaşdırılması, əsas performans göstəricilərinin qurulması və risk indikatorlarının təhlili kimi bacarıqlar ön plana keçir. Təlim proqramları yalnız proqramın istifadəsinə deyil, maliyyə analitik düşüncəsinin inkişafına yönəlməlidir. Rəqəmsal mühasibat texnologiyalarının tətbiqi həm də normativ mühitlə uzlaşdırılmalıdır. Vergi hesabatlarının elektron formatda təqdim edilməsi, e-qaimə sistemləri ilə inteqrasiya, elektron arxiv tələbləri kimi məsələlər texniki seçimə təsir edir. Seçilən sistem lokal qanunvericiliyə uyğun hesabat formalarını avtomatik generasiya edə bilmirsə, əlavə manual müdaxilə tələb olunur.

İnkişafın növbəti mərhələsi süni intellekt elementlərinin inteqrasiyası ilə bağlıdır. Anomaliya aşkarlanması, qeyri-adi əməliyyatların identifikasiyası və xərc kateqoriyalarının avtomatik təsnifatı kimi funksiyalar artıq bir sıra mühasibat platformalarında tətbiq edilir. Bu tip alətlər daxili nəzarət sistemini gücləndirir və audit riskini azaldır. Texnoloji genişlənmə eyni zamanda bazar rəqabətini də gücləndirir. Rəqəmsal mühasibat sisteminə malik müəssisə hesabatı daha tez hazırlayır, investora və ya kreditora məlumatı operativ təqdim edir, qərarları gecikdirmir. Ənənəvi modeldə çalışan müəssisə isə informasiya gecikməsi səbəbindən rəqabət üstünlüyünü itirə bilər.

Beləliklə, qlobal göstəricilər yalnız texnologiyanın artım tempini deyil, maliyyə funksiyasının mahiyyət dəyişikliyini nümayiş etdirir. Rəqəmsal mühasibat modeli artıq alternativ seçim deyil, idarəetmə effektivliyinin əsas komponentinə çevrilmiş struktur elementdir.

Metodoloji yanaşmaların əsas elementləri

Mühasibat uçotunda rəqəmsal həlləri qurmaq təsadüfi proqram seçimi ilə başlamır. Bu, ardıcıl və düşünülmüş addımlar tələb edən bir prosesdir. İlk mərhələdə mövcud mühasibat prosesləri açıq şəkildə xəritələndirilməlidir. Hansı məlumat haradan daxil olur, kim tərəfindən emal edilir, hansı nəzarət nöqtəsindən keçir, hansı sənəd harada arxivləşir – bütün bunlar sadə, amma tam bir sxem şəklində göstərilməlidir. Əks halda bulud sisteminə və ya RPA alətinə keçid sadəcə köhnə vərdişlərin yeni platformaya daşınması ilə nəticələnir. Bu zaman transformasiya yox, yalnız texniki format dəyişikliyi baş verir.

Növbəti mərhələ informasiya memarlığının qurulmasıdır. Burada əsas suallar konkret və praktikdir: hansı məlumatlar bulud mühitində saxlanılacaq, hansılar lokal serverdə qalacaq, hansı modullar bir-biri ilə inteqrasiya olunacaq, vergi orqanlarının elektron platformaları və bank sistemləri ilə əlaqə necə qurulacaq. Məlumat axınları əvvəlcədən modelləşdirilməsə, sonradan inteqrasiya problemləri yaranır və sistem parçalanmış formada işləməyə başlayır. OECD hesabatlarında da KOB-lar üçün genişlənə bilən, lakin ilkin mərhələdə sadə saxlanılan memarlığın daha məqsədəuyğun olduğu vurğulanır. Yəni sistem həm indiki ehtiyacları qarşılamalı, həm də gələcək böyüməyə hazır olmalıdır.

Metodoloji çərçivənin digər əsas hissəsi daxili nəzarətin rəqəmsal mühitə uyğunlaşdırılmasıdır. ERP və bulud mühasibat platformalarında istifadəçi rolları dəqiq müəyyənləşdirilməli, səlahiyyət bölgüsü aydın qurulmalı, əməliyyatların avtomatik jurnal qeydləri saxlanılmalı və dəyişiklik tarixçəsi arxivləşdirilməlidir. Audit izinin qorunması sadəcə texniki funksiya deyil, risklərin idarə olunmasının əsas elementidir. RPA ilə bağlı tədqiqatlar göstərir ki, avtomatlaşdırma nəzarətin tamamilə sistemə verilməsi demək deyil. Əksinə, insan nəzarəti ilə sistem nəzarətinin düzgün balansı daha davamlı nəticə verir. Robot əməliyyatı icra edir, amma nəzarət strukturu insan tərəfindən qurulur və monitorinq olunur.

Daha sonra dəyişikliklərin idarə olunması mərhələsi gəlir. Rəqəmsal sistem qurmaq mümkündür, amma onu işlədən insanlar hazır deyilsə, nəticə zəif olacaq. Mühasiblər və maliyyə mütəxəssisləri yeni platformalarda işləməyi bacarmalı, analitik alətləri başa düşməli, məlumat təhlükəsizliyi qaydalarına əməl etməlidir. Praktiki təlimlər, mərhələli keçid planı və açıq kommunikasiya olmadan əməkdaşlarda müqavimət formalaşır. OECD və milli hesabatlarda Azərbaycanda KOB-ların rəqəmsal bacarıqlarında boşluqların mövcudluğu xüsusi qeyd olunur. Bu boşluqlar aradan qaldırılmadan texnoloji modernləşmə yarımçıq qalır.

Bu elementlər bir-birindən ayrı düşünülə bilməz. Proses xəritəsi olmadan seçilən texnologiya uyğun olmaya bilər. Memarlıq dizaynı qurulmadan tətbiq olunan RPA aləti parçalanmış sistem yarada bilər. Nəzarət mexanizmi qurulmadan bulud mühasibatlığı riskləri artıra bilər. İnsan resursları hazırlanmadıqda isə ən yaxşı sistem belə səmərəsiz işləyir. Ona görə də rəqəmsal transformasiya texniki layihə kimi deyil, proses, nəzarət və insan faktorunu birləşdirən kompleks idarəetmə layihəsi kimi qurulmalıdır.

NƏTİCƏ

Mühasibat uçotunda innovativ rəqəmsal həllərin formalaşdırılması və tətbiqi üzrə aparılan təhlil göstərir ki, həm qlobal, həm də Azərbaycan kontekstində texniki baza getdikcə güclənsə də, metodoloji yanaşmaların sistemləşdirilməsinə ehtiyac qalır. İnternetdən istifadə və genişzolaqlı şəbəkəyə çıxış göstəriciləri kifayət qədər yüksəkdir və bu, bulud mühasibatlığı, ERP sistemləri və onlayn hesabat alətlərinin tətbiqi üçün real imkan yaradır. Qlobal statistik məlumatlar bulud mühasibatlığı və RPA texnologiyalarının sürətlə yayıldığını, KOB-ların bu həllərdən geniş istifadə etdiyini və bunun nəticəsində məlumat axınlarının sürətləndiyini, əməliyyat xərclərinin azaldığını göstərir.

Eyni zamanda Azərbaycan üzrə rəqəmsallaşma hesabatları, xüsusilə KOB-ların rəqəmsal transformasiyada geri qalması, mühasibat və idarəetmə proseslərinin əhəmiyyətli hissəsinin hələ də ənənəvi yanaşmalara söykənməsi kimi məqamları önə çıxarır. Bu mənzərə göstərir ki, mühasibat uçotunda rəqəmsal həllərin tətbiqi üçün təkcə texniki infrastruktur deyil, həm də metodoloji çərçivə, normativ uyğunluq, məlumat təhlükəsizliyi və insan resurslarının hazırlanması kimi elementlər birlikdə nəzərə alınmalıdır. Bulud mühasibatlığı, RPA və analitika alətlərinin kombinasiyası müəssisələrə uçot funksiyalarını sadələşdirmək, real vaxt rejimində maliyyə məlumatları əldə etmək və qərarvermə proseslərini yaxşılaşdırmaq imkanı verir, lakin bu həllərin hər biri proseslərin yenidən dizaynını və daxili nəzarət sisteminin uyğunlaşdırılmasını tələb edir.

Nəticə olaraq demək olar ki, "innovativ rəqəmsal həll" anlayışı mühasibat uçotunda yalnız yeni texnologiya tətbiqi ilə məhdudlaşmamalı, mühasibat sistemlərinin məqsədinin, məlumat axınlarının, nəzarət mexanizmlərinin və peşəkar bacarıqların yenidən düşünülməsi ilə birlikdə nəzərdən keçirilməlidir. Azərbaycan müəssisələri üçün optimal yanaşma mərhələli rəqəmsallaşma modelinin seçilməsi, beynəlxalq təcrübədə sınaqdan keçmiş bulud və avtomatlaşdırma həllərinin yerli vergi və uçot tələblərinə uyğunlaşdırılması və mühasiblərin rəqəmsal bacarıqlarının davamlı inkişafını təmin edən sistemin qurulması ola bilər. Bu istiqamətdə aparılacaq əlavə empirik tədqiqatlar bulud mühasibatlığı, RPA və digər rəqəmsal alətlərin yerli müəssisələrin məhsuldarlığına və maliyyə şəffaflığına konkret təsirini daha dəqiq qiymətləndirməyə şərait yaradacaq.

İstifadə edilmiş ədəbiyyat:

1. Adrian, I. (2025). The impact regarding the use of robotic process automation and artificial intelligence in accounting services industry. Proceedings of the International Conference on Business Excellence, 19(1), 1–12.

2. Baku Research Institute. (2024). Internet access and network quality in Azerbaijan 2020–2023 (Research report).

3. DataReportal. (2023). Digital 2023: Azerbaijan. We Are Social & Meltwater.

4. DataReportal. (2024). Digital 2024: Azerbaijan. We Are Social & Meltwater.

5. International Association of Insurance Supervisors. (2023). Global insurance market trends 2023. IAIS.

6. Januszewski, A., & Kujawski, J. (2024). Process automation in accounting firms: A survey insight from practice in Poland. In Proceedings of the 32nd International Conference on Information Systems Development (ISD 2024).

7. Jędrzejka, D. (2019). Robotic process automation and its impact on accounting. Zeszyty Naukowe Uniwersytetu Ekonomicznego w Katowicach, 389, 84–94.

8. MarketGrowthReports. (2025). Cloud accounting service market: Global industry analysis and forecast to 2030.

9. MarketsandMarkets. (2023). Robotic process automation market by component, deployment, organization size and region - Global forecast to 2028.

10. Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan. (2024, January 12). About 2 mln households and businesses have access to broadband internet.

11. Moniruzzaman, M., & Rahman, M. (2023). Cloud accounting practice in small and medium enterprises of Bangladesh. Journal of International Business and Management, 5(6), 1–15.

12. Mujalli, A., et al. (2024). Investigating the factors affecting the adoption of cloud accounting in SMEs. Journal of Innovation & Knowledge, 9(3), 1–12.

13. OECD. (2022). Promoting enterprise digitalisation in Azerbaijan. OECD Publishing.

14. OECD. (2023). Global insurance market trends 2023. OECD Publishing.

15. Perdana, A., et al. (2023). Prototyping and implementing robotic process automation in accounting firms: Benefits, challenges and opportunities to audit automation. International Journal of Accounting Information Systems, 51, 100–115.

16. Rawashdeha, A. (2023). The effect of cloud accounting adoption on organizational performance. International Journal of Data and Network Science, 7(4), 1207–1218.

17. Statcounter. (2025). Social media stats Azerbaijan – October 2025. Statcounter Global Stats.

18. Trendometric. (2024). Azerbaijan internet users: Individuals, % of population.

19. World Bank. (2024). World development indicators: Internet users for Azerbaijan

A.D.Adımov
master student, Azerbaijan State University of Economics

Digital innovations in accounting: methodological approaches to the design and implementation of digital solutions

Abstract

This paper explores methodological approaches for designing and implementing innovative digital solutions in accounting, with a focus on the institutional and technological context of Azerbaijan. It examines how cloud-based accounting systems, integrated ERP platforms, robotic process automation and data analytics tools reshape traditional bookkeeping, reporting and control processes. Global statistics indicate rapid growth in the use of cloud accounting by businesses and steady expansion of the RPA and AI tools market within finance and accounting departments. Drawing on digital infrastructure indicators and enterprise digitalisation reports, the paper outlines the readiness of Azerbaijani firms to move from basic computerisation to advanced digital accounting solutions. The methodological section proposes sequential steps for mapping accounting processes, selecting system architecture, establishing data models, and embedding internal control and audit trails in digital workflows. Combined solutions that integrate cloud accounting, RPA and analytics are discussed in terms of their economic benefits and implementation risks for small and medium-sized enterprises. Particular attention is given to data security, regulatory compliance, and the evolving digital skills required from professional accountants. The paper concludes that successful deployment of innovative accounting solutions requires the alignment of technology choices with governance structures, legal standards and capacity-building programmes rather than focusing solely on software acquisition.

Keywords: *digital accounting, cloud accounting, robotic process automation, digital transformation, methodological approach.*

https://doi.org/10.58225/tim.2026-2-389-403

A.Z.Rəhimli
doktorant, Bakı Dövlət Universiteti
Aytacrahimli1@gmail.com

Məqalə redaksiyaya daxil olub 23.02.2026
The article was received by editorial board on 23.02.2026
Статья принята к печати 23.02.2026

KOMMERSİYA BANKLARINDA KREDİT QOYULUŞLARININ SAHƏVİ DİVERSFİKASİYASI VƏ MALİYYƏ SİSTEMİNİN SABİTLİYİNƏ GÖSTƏRDİYİ TƏSİRİN EMPİRİK QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Bank sektorunda kredit portfelinin müxtəlif sahələr üzrə bölüşdürülməsi (sahəvi diversifikasiya) maliyyə sabitliyinə təsir göstərən mühüm amildir. Bu məqalədə Azərbaycanın kommersiya banklarında kredit qoyuluşlarının sahəvi diversifikasiyasının bank sisteminin sabitliyinə (kreditlərin qaytarılmaması riskinin azalmasına) təsiri empirik olaraq qiymətləndirilir. 2019–2024-cü illər üzrə statistik məlumatlar göstərir ki, bankların kredit portfeli ticarət və xidmətlər kimi bir neçə əsas sahədə cəmləşsə də, son illərdə portfelin strukturunda müəyyən dəyişikliklər baş vermişdir. Gecikmiş kreditlərin ümumi kreditlərə nisbəti eyni dövrdə əhəmiyyətli dərəcədə azalmışdır. Təsviri statistik təhlil və çoxdəyişənli reqressiya modelinin nəticələrinə əsasən, kredit portfelinin sahəvi diversifikasiyası ilə maliyyə sabitliyi arasında müsbət əlaqə mövcuddur: yəni, kreditlərin müxtəlif iqtisadi sahələrə yayılması ümumi kredit riskini azaltmağa meyllidir. Xüsusilə, ən böyük sektorun payı artdıqca problemli kreditlərin səviyyəsi bir qədər yüksəlir, bu da sektor konsentrasiyasının riskə səbəb olduğunu göstərir. Eyni zamanda, kredit portfelinin dollarlaşma dərəcəsinin (xarici valyutada kreditlərin payının) azalması gecikmiş kreditlərin azalması ilə müşahidə olunur. Nəticələr göstərir ki, bankların kreditləri bir neçə sahə arasında taraz bölüşdürməsi və valyuta riskini məhdudlaşdırması onların maliyyə dayanıqlığını gücləndirə bilər. Məqalədə əldə olunan nəticələr mövcud nəzəriyyə və empirik ədəbiyyat kontekstində təhlil olunur və Azərbaycanın bank sektorunda risklərin azaldılması siyasətləri baxımından müzakirə edilir.

Açar sözlər: *bank kreditləri; sahəvi diversifikasiya; maliyyə sabitliyi; kredit portfeli; kredit riski.*

GİRİŞ

Bank sektorunda maliyyə sabitliyinin qorunması üçün kredit risklərinin effektiv idarə edilməsi vacib şərtdir. Banklar verdikləri kreditlərin geri qaytarılmaması (problemli kreditlər) riski ilə üz-üzə qalırlar və bu risk müxtəlif amillərdən asılıdır. Qeyd edilməlidir ki, kredit portfelinin müəyyən bir sahədə yüksək cəmləşməsi bankın həmin sahədəki şoklara qarşı həssaslığını artıra bilər. Məsələn, bir bank kreditlərinin böyük qismini tikinti sektoruna yönəldibsə, məhz tikinti sektorunda böhran yaranarsa, bu bankın geri qaytarılmayan kreditləri kəskin arta bilər. Buna görə bankların kredit qoyuluşlarını iqtisadiyyatın müxtəlif sahələri arasında bölüşdürməsi – yəni kredit portfelini diversifikasiya etməsi – potensial olaraq riskləri azalda bilər (Diamond, 1984). Klassik portfel nəzəriyyəsinə görə, aktivlərin diversifikasiyası ayrı-ayrı aktivlər üzrə risklərin bir-birini kompensasiya etməsinə imkan verir və bu yolla ümumi risk aşağı düşür (Markowitz, 1952). Banklar da eyni prinsipi kredit portfellərinə tətbiq etməyə çalışırlar. Bəs bankın kredit portfeli bir neçə fərqli

sahəyə yayıldıqda, həqiqətənmi maliyyə sabitliyi yüksəlir? Yoxsa bəzi tədqiqatçıların iddia etdiyi kimi, fokuslaşma üstünlük gətirə bilər?

Azərbaycan bank sektoru 2015–2016-cı illərdə ciddi sınaqlardan keçmişdir. Belə ki, milli valyutanın iki dəfə kəskin devalvasiyası və neft sektorundakı tənəzzül bir sıra bankların bağlanmasına və problemli kreditlərin sürətlə artmasına səbəb olmuşdur. Həmin dövrdə xüsusilə xarici valyutada verilmiş kreditlərin payı yüksək olan banklar və kreditləri müəyyən gəlir gətirməyən sahələrdə cəmlənmiş banklar daha ağır zərbə almışdı. Sonrakı illərdə Azərbaycan Mərkəzi Bankı maliyyə sabitliyini gücləndirmək üçün bir sıra addımlar atdı: banklarda valyuta riskinin azaldılması məqsədilə dollarlaşmanın məhdudlaşdırılması, iri kredit risklərinə (böyük borcalan və əlaqəli tərəflərə verilən kreditlərə) limitlərin tətbiqi, problemli aktivlərin təmizlənməsi və s. Nəticədə, 2018-ci ildən etibarən bank sektorunda gecikmiş kreditlərin ümumi kreditlərə nisbəti tədricən azalır. 2020-ci ildə COVID-19 pandemiyasının iqtisadiyyata mənfi təsirlərinə baxmayaraq, bankların kredit portfelində keyfiyyət göstəriciləri sonrakı dövrdə yaxşılaşıb. Bununla yanaşı, İnflyasiyanin və iqtisadi artımın dinamikası, habelə dövlət dəstək proqramları da maliyyə sabitliyinə təsir göstərib. Bununla belə, hazırda belə bir sual ortaya çıxır: bankların kreditlərini müxtəlif sektorlar arasında daha geniş paylaması bu sabitliyə əlavə töhfə verirmi?

Bu mövzuda beynəlxalq araşdırmalar ziddiyyətli nəticələr ortaya qoyur. Bəzi tədqiqatlar göstərir ki, kredit portfelinin sektorial diversifikasiyası banklarda riskləri azaldır və iflas ehtimalını aşağı salır (Shim, 2019; Lakshan və Dewasiri, 2022). Digər tərəfdən, bəzi araşdırmalara görə isə əksinə, aktivlərin həddən artıq şaxələndirilməsi bankların ixtisaslaşma üstünlüyünü azaldır və riskli kreditlərin artmasına yol açа bilər (Acharya və başq., 2006). Bu məqalədə məhz Azərbaycanın bank sisteminin real vəziyyəti üçün bu məsələnin aydınlaşdırılmasına çalışılır. Bunun üçün ölkə banklarının son illərdə müxtəlif sahələr üzrə kredit qoyuluşu göstəriciləri və problemli kredit dinamikası təhlil edilərək, sahəvi diversifikasiya ilə maliyyə sabitliyi arasındakı əlaqə empirik olaraq qiymətləndirilib.

ƏDƏBİYYAT VƏ NƏZƏRİYYƏ İCMALI

Banklarda kredit portfelinin diversifikasiyası və onun risklərə təsiri mövzusu iqtisadi ədəbiyyatda geniş müzakirə olunur. Nəzəri əsasda, Diamond (1984) qeyd edir ki, çoxlu sayda müxtəlif borcalanlara kredit verən bank sərmayəçilər qarşısında öz öhdəliklərini daha stabil şəkildə yerinə yetirə bilir – yəni yaxşı diversifikasiya edilmiş bank, portfelindəki fərdi riskləri qarşılıqlı kompensasiya etməklə daha etibarlı olur. Diamondun iddiası məhz Markowitz (1952) tərəfindən irəli sürülmüş portfel seçimi nəzəriyyəsinə uyğundur: aktivlərin çeşidləndirilməsi ümumi riskin azalmasına gətirib çıxarır. Bu baxımdan, bankların müxtəlif sahələrə kredit verməsi bir növ sığorta mexanizmi kimi düşünülə bilər.

Lakin digər tədqiqatlar göstərir ki, banklar üçün hər zaman "nə qədər çox diversifikasiya, bir o qədər yaxşı" prinsipi keçərli olmur. Məsələn, Acharya və həmkarları (2006) İtaliya banklarının kredit portfellərinə dair tədqiqatlarında müəyyən ediblər ki, sənaye üzrə (yəni sektorial) diversifikasiya bankların gəlirliliyini azaldır və eyni zamanda daha riskli kreditlərin artmasına səbəb olur. Bank öz ənənəvi güclü olduğu sahədən kənara çox çıxanda informasiya qıtlığı və agentlik problemləri yaranır, nəticədə diversifikasiya nəzəri cəhətdən risk azaldıcı olsa da, praktikada riskin artması ilə nəticələnə bilir (Acharya və başq., 2006). Bənzər şəkildə, Stiroh və Rumble (2006) ABŞ bank holdinqlərinin müxtəlif fəaliyyət sahələrinə (məsələn, ənənəvi kreditləşdirmə ilə yanaşı investisiya bankçılığı, sığorta və s.) genişlənməsini təhlil edərək bunun "diversifikasiyanın qaranlıq tərəfi" ola biləcəyini göstəriblər – yəni gəlir mənbələrinin şaxələnməsi bəzən mənfəətliliyi azaltmaqla yanaşı riskin volatilliyini artırıb.

Bank sektorunun strukturu da diversifikasiya effektinə təsir göstərə bilər. Beck və başqaları (2006) müxtəlif ölkələrin bank sistemlərini təhlil edərək gəldikləri nəticəyə görə, bank bazarının çox konsentrasiyalı olduğu ölkələrdə (bir neçə böyük bankın payının yüksək olduğu şəraitdə) bank sabit-

liyi müəyyən qədər daha yüksək ola bilər. Bu "konsentrasiya-sabitlik" hipotezinin izahı odur ki, daha az rəqabətli, lakin daha mənfəətli banklar ifrat riskə getməyə ehtiyac duymur, onlar üçün itirilməli "çarter dəyəri" yüksəkdir. Bunun əksinə olan "konsentrasiya-həssaslıq" yanaşması isə bildirir ki, bazarın az sayda iri bank tərəfindən bölüşdürüldüyü mühitdə moral risk artır – belə banklar bilirlər ki, çətin vəziyyətdə dövlət onları xilas edə bilər, bu da riskli davranışı təşviq edir (Uhde və Heimeshoff, 2009). Hər iki yanaşma müəyyən empirik dəstək tapsa da, ortaq qənaət budur ki, əgər bank yüksək bazar gücünə malikdirsə, onun portfel diversifikasiyası ilə risk arasında əlaqəsi də spesifik şəkil ala bilər (Shim, 2019). Məsələn, ABŞ bankları üzrə aparılan araşdırmada müəyyən olunub ki, kredit portfelinin diversifikasiyası bankın maliyyə dayanıqlığını artırır, xüsusilə də bazarın çox konsentrasiyalı olduğu regionlarda diversifikasiya edən banklar daha sabit olur (Shim, 2019).

İnkişaf etməkdə olan bazarlar üzrə də son illərdə araşdırmalar artmaqdadır. Məsələn, Afrika ölkələrini əhatə edən bir tədqiqatda (45 ölkə, 2000–2020 dövrü) müəyyən olunub ki, aktiv və vəsait bazasında diversifikasiya bəzi hallarda bank sabitliyinə mənfi təsir göstərə bilər, halbuki gəlir diversifikasiyası (yəni faiz və qeyri-faiz gəlirlərinin tarazlığı) sabitliyə müsbət təsir edir (Shahriar və başq., 2023). Bu nəticə ondan xəbər verir ki, kreditlərin çox geniş sahələrə paylanması hər zaman xeyirli olmaya bilər – əgər bankın diversifikasiya etdiyi sahələr üzrə lazımi təcrübəsi yoxdursa, risk arta bilər. Digər tərəfdən, Şri-Lanka bank sektoru üzrə panel regresiya təhlili göstərib ki, kredit portfelinin sektorial şaxələndirilməsi maliyyə sabitliyinə nəzərəçarpacaq dərəcədə müsbət təsir edir, yəni diversifikasiya olunan banklar daha stabil olur (Lakshan və Dewasiri, 2022). Bu kimi nəticələr kontekstdən asılı olaraq diversifikasiyanın faydasının dəyişə bildiyini göstərir.

Azərbaycan bank sektoruna gəldikdə, mövzu üzrə araşdırmalar məhduddur. Ölkə daxilində indiyədək daha çox makroiqtisadi amillərin (məsələn, ümumi daxili məhsulun artımı, devalvasiya, inflyasiya və s.) problemli kreditlərə təsiri öyrənilib (Seyfullali, 2022). Həmin tədqiqatlar göstərir ki, inflyasiya və faiz dərəcələri kimi makro göstəricilərin problemli kreditlərin dinamikası ilə statistik əhəmiyyətli əlaqəsi var, lakin real sektorun inkişafı (məsələn, qeyri-neft ÜDM artımı) ilə NPL arasında zəif əlaqə müşahidə oluna bilər (Seyfullali, 2022). Lakin bank portfellərinin öz daxili strukturunun (məsələn, sahəvi və valyuta üzrə tərkibinin) sabitliyə təsiri barədə yerli ədəbiyyatda boşluq vardır. Bu boşluğu qismən doldurmaq üçün məqalədə Azərbaycanda kommersiya banklarının kreditlərinin iqtisadi sahələr üzrə diversifikasiyasının onların problemli kredit səviyyəsinə təsiri araşdırılır. Bununla yanaşı, portfelin valyuta strukturu (manat və xarici valyuta üzrə) və müddət strukturu kimi amillər də nəzərə alınır, çünki 2015-ci il təcrübəsi göstərib ki, yüksək dollarlaşma bank sabitliyi üçün ciddi təhdid yaradır (IMF, 2025). IMF (2025) hesabata görə, son illərdə Azərbaycan banklarında depozit dollarlaşması azalsa da, hələ də yüksək olaraq qalır və kredit konsentrasiyası (müəyyən sahələrə və ya borcalanlara yüksək yığılma) maliyyə sisteminin həssas yerlərindən biri kimi qiymətləndirilir. Bu məqamlar nəzəri cəhətdən də əsaslandırılır: əgər bank kreditlərinin böyük hissəsini bir sektora yönəldirsə və ya xarici valyutada verirsə, gözlənilməz şoklarda bu faktorlar problemli kreditlərin sürətlə artmasına səbəb ola bilər (Wagner, 2010). Növbəti hissələrdə qeyd olunan fərziyyələri yoxlamaq məqsədilə seçilmiş göstəricilər üzrə empirik təhlilin metodologiyası və nəticələri təqdim olunur.

TƏDQİQATIN METODOLOGİYASI

Araşdırmanın məqsədi kommersiya banklarının kredit portfelinin sahəvi diversifikasiyasının maliyyə sabitliyinə təsirini ölçməkdir. Bu məqsədlə Azərbaycan bank sektorunun rəsmi statistik məlumatları toplanmış və müvafiq göstəricilər hazırlanmışdır. Məlumatlar əsasən Azərbaycan Mərkəzi Bankının (AMB) aylıq bülletenlərindən götürülüb və 2019-cu ilin yanvar ayından 2024-cü ilin dekabr ayına qədər dövrü əhatə edir.

Araşdırmada istifadə olunan əsas göstəricilər:

- Gecikmiş kreditlərin payı (%): Bu göstərici maliyyə sabitliyinin proxy-i (dolayı göstəricisi) kimi qəbul edilmişdir. Bank sektorunda vaxtı keçmiş (ödənilməyən) kreditlərin ümumi kredit portfe-

linə nisbəti (faizlə) hesablanır. Daha aşağı göstərici kredit portfelinin keyfiyyətinin yüksək olduğunu, yəni maliyyə sabitliyinin daha yaxşı olduğunu göstərir. Məlumdur ki, 2018-ci ildən sonra sektor üzrə gecikmiş kreditlərin həcmi sabit qalsa da, ümumi kredit portfeli artdığından onun payı azalmağa başlamışdır (bax: Cədvəl 6).

- Sahəvi diversifikasiya indeksləri: Kredit portfelinin diversifikasiyasını ölçmək üçün bir neçə indeks tətbiq edilmişdir. Birinci indeks Herfindahl-Hirschman indeksi (HHI) olub, kreditlərin sahələr üzrə paylarının kvadratları cəmi kimi hesablanır. HHI yüksək olduqda kredit portfeli az sayda sahədə cəmləşib, aşağı olduqda isə portfelin sahələr üzrə yayılması (diversifikasiyası) yüksəkdir. Eyni zamanda, 1 – HHI göstəricisi də "diversifikasiya indeksi" kimi istifadə olunur (HHI artdıqca 1–HHI azalır). İkinci əsas indeks entropiya indeksidir – bu indeks də sahələr üzrə paylara əsaslanır, lakin ədalətli bölüşdürmə ilə müqayisədə mövcud bölüşdürmənin müxtəlifliyini ölçür. Entropiya indeksinin normallaşdırılmış variantı (0 ilə 1 arası dəyişir) hesablanmışdır. Cədvəl 3-də 2019–2025-ci illər üzrə HHI, 1–HHI, entropiya və normallaşdırılmış entropiya göstəriciləri verilir. Göstəricilərin dinamikasından göründüyü kimi, HHI indeksi 2019-da 0.243 olduğu halda 2025-də 0.252 olmuş, yəni cüzi yüksəlmişdir (1–HHI müvafiq olaraq azalmışdır). Bu dəyişikliklər kredit portfelinin diversifikasiyasının bir qədər azalmasına işarə edir. Normallaşdırılmış entropiya indeksi də 0.79-dan 0.77-yə enib (Cədvəl 3). Bu dövrdə ən böyük sektorun (ticarət və xidmətlərin) payı 40–44% arasında dəyişib, ilk üç sektorun birgə payı isə əvvəlki illərdə azalsa da 2025-də 77%-ə çatıb ki, bu da sektor konsentrasiyasının tam aradan qalxmadığını göstərir (Cədvəl 5).
- Xarici valyutada kreditlərin payı (%): Kredit portfelinin dollarlaşma dərəcəsini ölçür. Müəyyən edilir ki, ümumi kreditlərin neçə faizi xarici valyutada (əsasən ABŞ dolları və avroda) verilib. Azərbaycan banklarında 2015-ci il devalvasiyalarından sonra dollarlaşmanın səviyyəsi yüksək idi, lakin son illərdə məcmu kredit portfelində manatla verilən kreditlərin payı artmaqdadır. Məsələn, yeni verilən kreditlərin manatla payı 2019-cu ildə 70% idisə, 2025-də 91%-ə yüksəlib (Cədvəl 6-ya baxın). Bu, aktiv şəkildə gedən dedollarizasiya prosesinin göstəricisidir. Bizim analizdə fx_share_total dəyişəni ilə ifadə olunub və gözləntimiz odur ki, xarici valyuta payı artdıqca gecikmiş kredit riski də artar (yəni dollarlaşma sabitliyə mənfi təsir göstərir).
- Qısa müddətli manat kreditlərinin payı (%): Kredit portfelinin müddət strukturunu nəzərə almaq üçün AZN-lə verilmiş kreditlər arasında qısa müddətli olanların payı göstəricisi (short_share_azn) daxil edilib. Uzunmüddətli kreditlər adətən daha riskli sayılır (çünki geri ödənilmə müddəti uzundur və bu müddətdə şərait dəyişə bilər), ona görə bank portfelində qısamüddətli kreditlərin payının çox olması riskin az olmasına işarə edə bilər. Analiz zamanı bu dəyişənin əlamətdar təsirini yoxlamaq istədik. 2019–2024 arasında manat kreditləri daxilində qısa payı təxminən 18%-dən 16–17%-ə dəyişib, yəni ciddi fərq yoxdur (Cədvəl 6).
- Yeni verilən kreditlərin həcmi (mln. AZN): Bankların hər ay yeni verdiyi kreditlərin ümumi məbləği (new_total_mln göstəricisi) də modelə salınıb. Bu, kredit aktivliyinin və kredit artım sürətinin bir göstəricisidir. Tez-tez kredit portfelinin sürətlə genişlənməsi sonradan keyfiyyət problemlərinə yol açа bilir (çox sürətli kredit artımı riskli borcalanlara kredit verilməsi demək ola bilər). Buna görə də yeni verilən kreditlərin həcminin dəyişməsini daxil edib, onun gecikmiş kreditlərə təsirini test edirik. 2020 pandemiya ilində kredit aktivliyi azalsa da, sonrakı illərdə banklar yeni kredit vermə tempini xeyli artırıblar – 2023-də illik yeni kreditlər 13.9 milyard manata qədər yüksəlib ki, bu da 2019-la müqayisədə iki dəfədən çoxdur (Cədvəl 6).
- Avro/manat məzənnəsi (EUR/AZN): Xarici mühitin təsirini dolayı yolla nəzərə almaq üçün avronun manata qarşı məzənnəsi dəyişəni də modelə əlavə olunub. Azərbaycanda manatın ABŞ dollarına məzənnəsi sabit (de-fakto bağlı) olduğu üçün avronun məzənnəsindəki dəyişikliklər əsasən qlobal valyuta bazarındakı Euro/USD dəyişimindən irəli gəlir. 2019–2024 aralığında EUR/AZN məzənnəsi 1.94-dən 1.78-ə qədər düşüb, yəni avro manata nisbətən ucuzlaşıb. Kəskin devalvasiya ki-

mi hadisələr olmadığından bu göstəricinin ciddi təsiri olacağı gözlənilmir, lakin valyuta bazarındakı sabitlik də sabitliyə töhfə verən amildir.

Tədqiqat modeli və təhlil metodu: Empirik analiz iki mərhələdə aparılıb. Birinci mərhələdə əsas dəyişənlərin təsviri statistikası və korrelyasiya əlaqələri araşdırılıb. Müxtəlif dəyişənlərin orta qiymətləri, standart kənarlaşmaları və maksimum-minimum hədləri Cədvəl 7-də verilmişdir. İkinci mərhələdə isə çoxdəyişənli xətti reqressiya modeli qurulub. Reqressiya modelində asılı dəyişən kimi gecikmiş kreditlərin payı (%) götürülüb. İzahedici dəyişənlər isə yuxarıda təsvir olunan HHI, xarici valyuta payı, qısamüddətli AZN payı, yeni kredit həcmi və EUR/AZN məzənnəsi kimi amillərdir. Model aşağıdakı şəkildə ifadə oluna bilər:

$$\text{NPL\_payı} = \beta_0 + \beta_1 \text{HHI} + \beta_2 \text{FX\_payı} + \beta_3 \text{Short\_AZN\_payı} + \beta_4 \text{Yeni\_kreditlər} + \beta_5 \text{EUR/AZN} + \varepsilon$$

Burada β_i (i=1,2,...,5) müvafiq dəyişənlərin təsir əmsallarını göstərir, ε isə xəta payıdır. Modelin qurulması üçün SPSS proqramından istifadə edilib, 2019–2024 dövrünün aylıq məlumatları üzrə OLS (ən kiçik kvadratlar) metodu ilə əmsallar təxminlənib. Aylıq müşahidələrin sayı N=72 təşkil edib ki, bu da reqressiya üçün yetərli sayıla bilər. Bununla belə, nəzərə alınmalıdır ki, aylıq məlumatlar zaman sıralı xarakter daşıdığı üçün onların arasında avtokorrelyasiya ola bilər və dəyişənlərin trendi modeli şişirdə bilər. Bunu yoxlamaq üçün Durbin–Watson statistikası da nəzərdən keçirilib.

Modeli qiymətləndirməzdən öncə dəyişənlərin korelyasiya matrisinə baxmaq faydalıdır. Cədvəl 8-də əsas dəyişən cütləri arasındakı Pearson korrelyasiya əmsalları göstərilir. Gözlənildiyi kimi, HHI indeksi ilə normallaşdırılmış entropiya arasında güclü mənfi əlaqə var ($r \approx -0.59$), çünki biri artsa o biri azalır – bunlar eyni anlayışın tərs ölçüləridir. Gecikmiş kreditlərin payı (NPL) ilə HHI arasında müsbət, lakin zəif korrelyasiya müşahidə olunur ($r \approx +0.19$), entropiya ilə isə zəif mənfi korrelyasiya ($r \approx -0.20$) var. Bu, diversifikasiya artdıqca (HHI azalır, entropiya yüksəlir) ümumiyyətlə NPL payının azalması meylinə işarə etsə də, tək dəyişənlərlə əlaqə güclü deyil. Bununla yanaşı, NPL payı ilə xarici valyuta payı arasında güclü müsbət korrelyasiya müşahidə edilir (r xeyli yüksəkdir, Cədvəl 8-ə bax). Yəni, bank portfelində dollarlaşma dərəcəsi yüksəldikcə problemli kredit faizinin də yüksəldiyi korrelyativ olaraq görünür. Qısamüddətli manat kreditlərinin payı ilə NPL arasında zəif mənfi əlaqə var (r –0.1), yeni verilən kreditlərin həcmilə NPL arasında isə əhəmiyyətli korelyasiya qeydə alınmayıb. EUR/AZN məzənnəsinin NPL-lərlə əlaqəsi isə demək olar ki, yoxdur (çünki manatın məzənnəsi sabitdir, avronun yırğalanması isə cüzi olub).

Korrelyasiya matrisindən həm də görünür ki, bir sıra izahedici dəyişənlər bir-biri ilə çox yüksək əlaqəlidir. Məsələn, HHI ilə qısamüddətli AZN payı, həmçinin FX payı arasında və s. əlaqələr güclüdür (bəzi hallarda $r > 0.9$ və ya əksinə). Bu, çoxxətli əlaqə – multikorrelyasiya probleminin ola biləcəyini göstərir. Modeldə multikorrelyasiyanı yoxlamaq üçün tolerantlıq və VİF (variansın inflasiya faktoru) göstəriciləri də hesablanıb (Cədvəl 12). Gördüyümüz kimi, bəzi dəyişənlərin VİF göstəricisi 10-dan xeyli böyükdür (məsələn, qısamüddətli AZN payı və HHI üçün VİF 700 civarındadır!). Bu, dəyişənlərin biri-birini izah etdiyini, yəni modeldə informativliyin bir qədər təkrarlanmasını göstərir. Bu hal nəticələrin statistik əhəmiyyətliliyinə təsir edə bilər, o səbəbdən çıxarışlarımızda ehtiyatlı olacağıq. Bununla belə, multikorrelyasiya probleminə baxmayaraq, hər bir dəyişənin ayrıca təsirinin işarəsi və böyüklüyü maraq doğurur.

Beləliklə, model qurulmuş və nəticələr əldə olunmuşdur. Aşağıda empirik təhlilin nəticələri və onların müzakirəsi verilir.

EMPİRİK NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

İlk növbədə, Azərbaycanın bank sektorunda kredit qoyuluşlarının sahələr üzrə vəziyyətinə nəzər salaq. Cədvəl 1-də 2019–2025-ci illər ərzində hüquqi şəxslərə verilmiş kreditlərin əsas iqtisadi sahələr üzrə bölgüsü verilib. Göründüyü kimi, bankların real sektor üzrə kredit portfeli əsasən ticarət və xidmətlər sektorunda cəmləşib – 2019-cu ildə bu sektorun payı 40.4% olub və 2020–2022-də daha

da artaraq 43–44%-ə çatıb. Sonrakı illərdə ticarət sektorunun nisbi payı bir qədər azalsa da (2025-də 40.8%), yenə də ən böyük sektor olaraq qalıb. İkinci böyük pay adətən nəqliyyat və rabitə sektoruna aiddir; xüsusilə 2023–2025-də bu sahəyə kreditlərin kəskin artdığı görünür (2020-də 847.9 mln. AZN-dən 2025-də 2190.2 mln. AZN-ə yüksəlib). Sənaye və emal sektorunun kredit həcmi dövr ərzində artıb, lakin pay baxımından bir qədər azalma meyli var (2019-da 14.2%, 2025-də 15.5% – arada dalğalanmalar olub). Kənd təsərrüfatı və elektrik/kommunal xidmətlər sektorlarının payı isə çox kiçikdir və stabildir (birlikdə cəmi 3–5% arası). Diqqətçəkən məqam odur ki, daşınmaz əmlak sektoruna kreditlər 2021-ci ildə müəyyən qədər artsa da (279.9 mln), sonradan xeyli azalıb (2025-də cəmi 28.3 mln). Bu, ya həmin kreditlərin geri çəkilməsi, ya da həmin kreditlərin başqa kateqoriyaya aid edilməsi ilə bağlı ola bilər. Cədvəl 1 göstərir ki, seçilmiş 8 sektor üzrə kredit qoyuluşlarının cəmi 2019-dan 2025-ə təxminən 73% artaraq 6133.5 mln. manatdan 10598.8 mln. manata çatıb. Bu artım fərqli templərlə də olsa, əksər sahələrdə özünü göstərib.

Cədvəl 1

Hüquqi şəxslərə verilmiş kreditlər: sahələr üzrə (mln manat, dövrün sonu)

İl	Ticarət və xidmətlər	Mədənçilik	Elektrik, qaz, su	Kənd təsərrüfatı	Tikinti	Daşınmaz əmlak	Sənaye və emal	Nəqliyyat və rabitə	Cəmi (bu sektorlar)
2019	2478.7	589.5	29.9	485.1	441.3	35.8	869.4	1203.8	6133.5
2020	2598.7	507.4	5.4	531.3	392.0	101.0	1241.3	847.9	6225.0
2021	2982.3	462.8	256.1	563.2	623.1	279.9	960.2	733.9	6861.5
2022	3293.4	385.5	231.0	583.7	834.8	261.3	1048.8	788.6	7427.1
2023	3505.5	332.1	378.0	487.1	865.5	268.0	1188.1	1421.0	8445.3
2024	4075.7	413.7	306.5	472.7	1091.6	86.7	1534.9	1854.1	9835.9
2025	4327.0	307.8	317.3	476.6	1307.1	28.3	1644.5	2190.2	10598.8

***Mənbə**: 2019–2020 göstəriciləri AMB 12/2020 bülleteni; 2021–2025 göstəriciləri AMB 12/2025 bülleteni.*

Cədvəl 1-in məlumatlarına əsasən Cədvəl 2-də kredit portfelinin həmin sahələr üzrə faiz bölgüsü əks olunmuşdur. Ticarət və xidmətlərin payı 2019-cu ildə 40% olduğu halda 2022-də 44%-ə yaxınlaşmış, 2025-də yenidən 41%-ə düşmüşdür. Nəqliyyat və rabitənin payı isə 2019-da 19.6%-dən 2025-də 20.7%-ə yüksəlmişdir. Tikinti sektorunun payı artaraq 7.2%-dən 12.3%-ə çatıb ki, bu, son illərdə tikinti sektorunun bank kreditlərində əhəmiyyətinin artdığını göstərir. Ən ciddi dəyişiklik daşınmaz əmlak sektorunda olub – 2019-da cəmi 0.58% paya malik bu sektor 2025-də demək olar kredit portfelindən çıxıb (payı 0.27%). Sənaye və emalın payı 2019-dan 2025-ə çox dəyişməyib (14%-15% aralığında qalıb). Ümumilikdə, son dövrdə bank kreditlərinin sektorial strukturunda ticarət sektorunun hegemonluğunun bir qədər zəiflədiyini, əvəzində tikinti və nəqliyyat kimi sahələrin çəkisinin artdığını demək olar. Bu dəyişikliklərin portfel diversifikasiyasına təsirini ölçmək üçün yuxarıda qeyd olunan HHI və entropiya indekslərinə baxaq.

Cədvəl 2

Kredit portfelinin sahəvi strukturu (%, ilin sonuna)

İl	Ticarət və xidmətlər	Mədənçilik	Elektrik, qaz, su	Kənd təsərrüfatı	Tikinti	Daşınmaz əmlak	Sənaye və emal	Nəqliyyat və rabitə
2019	40.41	9.61	0.49	7.91	7.19	0.58	14.17	19.63
2020	41.75	8.15	0.09	8.53	6.30	1.62	19.94	13.62
2021	43.46	6.74	3.73	8.21	9.08	4.08	13.99	10.70

2022	44.34	5.19	3.11	7.86	11.24	3.52	14.12	10.62
2023	41.51	3.93	4.48	5.77	10.25	3.17	14.07	16.83
2024	41.44	4.21	3.12	4.81	11.10	0.88	15.61	18.84
2025	40.83	2.90	2.99	4.50	12.33	0.27	15.52	20.66

Mənbə: *Cədvəl 1-in rəqəmlərindən müəllif tərəfindən hesablanmışdır.*

Cədvəl 3 diversifikasiya indekslərinin illər üzrə dəyişməsini təqdim edir. 2019-cu ildə HHI indeksi 0.2427 olub, sonrakı ildə bir qədər artaraq 0.2507-ə çatıb. 2021-də HHI yenidən 0.2425-ə enib, yəni həmin il portfel nisbətən daha çox şaxələnib. Lakin 2022–2025-də HHI-də artım meyli var, 2025-də 0.2524-ə yüksəlib. Bu dəyişikliklərə uyğun olaraq diversifikasiya dərəcəsi kimi baxılan (1 – HHI) göstəricisi 2019-da 0.7573-dən 2025-də 0.7476-ya düşüb, cüzi azalma olubdur. Entropiya indeksi də 2019-da 1.6338 ikən 2020-də 1.6192-yə enib, 2021-də 1.7533-ə yüksəlib. 2022 və 2023-də yenidən bir qədər azalaraq müvafiq 1.7080 və 1.7220 olub, 2025-də isə 1.6655-ə enib. Normallaşdırılmış entropiya indeksi də 2021-də maksimum 0.8342-ə çatdığı halda 2025-də minimum 0.7704-ə düşüb. Bu tendensiya 2021-ci ilə qədər diversifikasiyanın artıb sonra bir qədər azalmasını göstərir. 2020-ci ildə pandemiya səbəbilə bəzi sektorların (xüsusilə xidmət sektorunun) kreditləşməsində azalma olmuş, bəlkə də bu da HHI-nin artmasına təsir edib (çünki digər sahələrə nisbətən xidmət sektorunun payı az fərqlə də olsa yüksəlib). 2021-də isə əksinə, post-pandemiya bərpa dövründə banklar müxtəlif sahələrə kredit vermə imkanlarını genişləndiriblər (məsələn, tikinti və emal sektoruna kreditlər artıb), nəticədə HHI enib, entropiya yüksəlib. Lakin sonrakı illərdə yenə ticarət, tikinti və nəqliyyat kimi sahələr üzrə cəmləşmə artdığı üçün diversifikasiya indeksləri bir az pisləşib. Ümumilikdə isə dəyişikliklər kəskin deyil; HHI 0.24–0.25 aralığında qalır ki, bu da portfelin orta dərəcədə diversifikasiya olunduğuna işarədir (məsələn, HHI = 0.25 olarsa, bu beş eyni bərabər paylı sektor ekvivalentidir; bizdə faktiki olaraq 8 sektor var, amma bir neçəsi çox kiçik paylıdır).

Cədvəl 3

Diversifikasiya indeksləri (sahələr üzrə), 2019–2025

İl	HHI	1 – HHI	Entropiya	Entropiya (norm.)
2019	0.2427	0.7573	1.6338	0.7857
2020	0.2507	0.7493	1.6192	0.7787
2021	0.2425	0.7575	1.7533	0.8342
2022	0.2516	0.7484	1.7080	0.8175
2023	0.2388	0.7612	1.7220	0.8245
2024	0.2490	0.7510	1.6308	0.7898
2025	0.2524	0.7476	1.6038	0.7704

Mənbə*: Müəllif tərəfindən Cədvəl 2-nin məlumatları əsasında hesablanmışdır.*

Maraqlıdır ki, 2021-də normallaşdırılmış entropiyanın kəskin artması (0.8342) və top-3 sektorun payının minimuma enməsi (68.15%, Cədvəl 5-ə baxın) maliyyə sabitliyinə həmin ildə müsbət təsir etmiş ola bilər. Həqiqətən də, gecikmiş kreditlərin payı 2021-ci ilin sonunda 4.32%-ə düşüb ki, 2020 ilə müqayisədə xeyli azdır. Əlbəttə, burada əsas rol pandemiya sonrası iqtisadi aktivliyin bərpası, dövlətin kredit tətilləri və restrukturizasiyalar kimi dəstək tədbirləri də olub. Lakin diversifikasiyanın da rolunu tam istisna etmək olmaz. Müqayisə üçün deyə bilərik ki, 2022-də banklar yenidən daha çox gəlirli hesab etdikləri ticarət sektoruna və genişlənən tikinti sektoruna kredit ayırarkən diversifikasiya bir az azalır, eyni ildə problemli kreditlərin payı azalmağa davam etsə də (3.03%-ə enib) bu, əsasən ümumi portfelin böyüməsi hesabına baş verib.

Cədvəl 4

Kredit portfelinin sahəvi konsentrasiyası: ən böyük sektor və top-3 payı (%), 2019–2025

İl	Ən böyük sektor	Ən böyük sektorun payı (%)	Top-3 sektorun payı (%)
2019	ticarət və xidmətlər	40.41	74.21
2020	ticarət və xidmətlər	41.75	75.31
2021	ticarət və xidmətlər	43.46	68.15

2022	ticarət və xidmətlər	44.34	69.70
2023	ticarət və xidmətlər	41.51	72.40
2024	ticarət və xidmətlər	41.44	75.89
2025	ticarət və xidmətlər	40.83	77.01

Mənbə: *Cədvəl 2-nin məlumatları əsasında hesablanmışdır.*

Diversifikasiya göstəriciləri ilə paralel, bankların kredit portfelinin konsentrasiyasını birbaşa əks etdirən ən böyük sektorun payı və ilk üç sektorun birgə payı da izlənilib (Cədvəl 5). Bütün illərdə ən böyük sektor ticarət və xidmətlər olmuşdur və onun payı 2019-da 40.41%-dən 2022-də 44.34%-ə yüksəlmiş, 2025-də isə 40.83%-ə geriləmişdir. İlk üç sektorun payı isə 2019-cu ildə 74.21% ikən 2021-də 68.15%-ə qədər azalır (entropiyanın artdığı həmin il), lakin sonra yenidən yüksələrək 2025-də 77.01% səviyyəsinə çıxır. Bu rəqəmlər göstərir ki, bank portfelinin hələ də əhəmiyyətli hissəsi cəmi üç sahənin (faktiki olaraq ticarət, nəqliyyat və tikintinin) üzərində cəmləşib. Diversifikasiya tam deyil, yəni çoxsaylı kiçik paylar şəklində dağılma yoxdur. Bu konsentrasiya səviyyəsinin riskə təsirini daha dərindən analiz etmək üçün növbəti mərhələdə regresyon analiz aparacağıq.

Bank sisteminin ümumi göstəricilərinə nəzər salarkən, qeyd etmək lazımdır ki, son illərdə ümumi kredit portfelinin həcmi sürətlə artıb, problemli kreditlərin nominal həcmi isə azalmasa da, nisbətən sabit qalıb. Cədvəl 6-da ümumi kredit portfelinin həcmi və gecikmiş kreditlərin həcmi və payı illər üzrə göstərilir. 2019-cu ilin sonunda bank sektorunun kredit portfeli 15.3 milyard manat idi, bunun 1.27 milyardı gecikmiş borclar idi (NPL nisbəti 8.32%). 2020-də kreditlərin ümumi həcmi bir qədər azalır (14.16 milyard) ki, bu da pandemiya səbəbindən kredit aktivliyinin müvəqqəti zəifləməsi ilə bağlı idi. Həmin il problemli kreditlərin həcmi də azalmış və NPL nisbəti 6.31%-ə enmişdir. 2021-ci ildən etibarən kredit qoyuluşları yenidən artmağa başlayır: 2021 sonunda 16.66 mlrd., 2022-də 19.59 mlrd., 2023-də 23.18 mlrd. və 2024-də 27.48 mlrd. manata çatır. 2025-ci ilin sonunda isə 30 mlrd. manədi keçir. Bu artıma baxmayaraq, gecikmiş kreditlərin məbləği 2020-dən sonra 0.59–0.45 mlrd. manat aralığında olub (məsələn, 2022-də 593.7 mln., 2024-də 449.1 mln.). Nəticədə problemli kreditlərin ümumi portfeldə payı sürətlə aşağı düşüb 2023-də 1.89%, 2024-də cəmi 1.63% təşkil edib. 2025-ci ilin sonunda isə bir qədər artaraq 1.74% olub (NPL məbləği yüngül artışla 524.5 mln. manata yüksəlib). Lakin 1.7% göstəricisi belə çox aşağıdır və ölkə üzrə tarixi minimumlardan biridir. Müqayisə üçün qeyd edək ki, 2015–2016-cı illərdə Azərbaycan bank sektorunda problemli kreditlərin payı rəsmi olaraq 10%-i keçmiş, bəzi hesablamalara görə 20–30%-ə qədər yüksəlmişdi (The Banker, 2019). Son dövrdə bank sistemi aktiv şəkildə sağlamlaşmışdır. Bunda 2019-cu ildə dövlətin problemli istehlak kreditlərinin bir qismini silməsi aksiyasının və sonrakı prudensial tədbirlərin payı var.

Cədvəl 5

Kredit portfelinin keyfiyyəti: ümumi və gecikmiş kreditlər, 2019–2025

İl	Ümumi kreditlər (mln. AZN)	Gecikmiş kreditlər (mln. AZN)	Gecikmiş kreditlərin payı (%)
2019	15298.2	1273.1	8.32
2020	14157.0	893.1	6.31
2021	16659.1	719.4	4.32
2022	19594.4	593.7	3.03
2023	23183.0	437.8	1.89
2024	27477.7	449.1	1.63
2025	30063.0	524.5	1.74

Mənbə: *AMB 12/2020 və 12/2025 bülletenlərinin göstəriciləri əsasında.*

Kredit portfelinin valyuta və müddət strukturu da son illərdə əhəmiyyətli dəyişikliklərə məruz qalıb. Cədvəl 6-da yeni verilmiş kreditlər üzrə manat və xarici valyuta payları, habelə həmin kreditlərin qısamüddətli və uzunmüddətli olma payları göstərilib. Rəqəmlər aydın şəkildə göstərir ki, 2019-cu ildə yeni kreditlərin yalnız 70%-i manatla verilirdisə, 2025-ci ildə bu göstərici 91.3%-ə çatıb. Yəni yeni kreditlərdə dollarlaşma 30%-dən 8.7%-ə qədər enib. Xüsusilə 2020-ci ildə manatla kredit payı kəskin artıb (76.9%), sonrakı illərdə də yüksələn xətt üzrə davam edib. Bu, Mərkəzi Bankın sərt

məzənnə rejimi şəraitində manatla kreditləşməni stimullaşdıran addımlarının (məsələn, diferensial ehtiyat normativləri, subsidiya proqramları və s.) effektini əks etdirir. Müddət baxımından isə manatla verilən yeni kreditlərin təxminən dörddə biri qısamüddətli, qalanı uzunmüddətli olmuşdur (məsələn, 2023-də manat yeni kreditlərinin 23.3%-i qısa, 76.7%-i uzunmüddətli idi). Xarici valyutada isə yeni kreditlərin strukturunda qısamüddətli payda dalğalanmalar var: 2019-da valyuta kreditlərinin 39.4%-i qısamüddətli idisə, 2025-də bu rəqəm 56.1%-ə qalxıb. Deməli, banklar xarici valyutada kredit verirlərsə, getdikcə daha qısa müddətli verməyə üstünlük verirlər – bu da valyuta riskini uzun müddət boyu daşımamaq üçündür. Uzun sözün qısası, Cədvəl 6 göstərir ki, son 5 ildə bank sektorunda həm valyuta riski azalıb, həm də likvidlik riskini azaltmaq üçün xarici valyuta kreditlərinin müddəti qısalıb.

Cədvəl 6

Yeni verilmiş kreditlərin valyuta və müddət strukturu (%), 2019–2025

İl	Manatla yeni kreditlərin payı	Xarici valyutada yeni kreditlərin payı	Qısamüddətli (AZN) payı	Uzunmüddətli (AZN) payı	Qısamüddətli (xarici valyuta) payı	Uzunmüddətli (xarici valyuta) payı
2019	70%	30%	32.04%	67.96%	39.37%	60.63%
2020	76.92%	23.08%	28.95%	71.05%	31.87%	68.13%
2021	84.05%	15.95%	24.35%	75.65%	42.16%	57.84%
2022	85.43%	14.57%	26.04%	73.96%	39.81%	60.19%
2023	87.65%	12.35%	23.34%	76.66%	32.83%	67.17%
2024	90.23%	9.77%	23.20%	76.80%	37.85%	62.15%
2025	91.29%	8.71%	27.36%	72.64%	56.10%	43.90%

Mənbə: *Cədvəl 5 və Cədvəl 4-dən hesablanmışdır.*

İndi isə keçək empirik modelləşdirmənin nəticələrinə. Yuxarıda təsvir edilmiş reqressiya modeli SPSS proqramında 72 aylıq müşahidə əsasında qiymətləndirilib. Cədvəl 9-da modelin ümumi uyğunluq göstəriciləri verilib. Göründüyü kimi, determinasiya əmsalı $R^2 = 0.94$ (düzəldilmiş R^2 0.939) alınıb. Bu olduqca yüksək göstəricidir, yəni izahedici dəyişənlər birlikdə NPL payının variasiyasının 94%-ni izah edir. Lakin bu qədər yüksək R^2 çıxmasının əsas səbəbi dəyişənlərin zamanla trendvari hamısının azalmasıdır. F-statistika model üzrə 219.4 çıxıb və $p < 0.0001$ olduğuna görə model ümumilikdə statistik əhəmiyyətlidir (Cədvəl 10). Durbin–Watson statistikası isə 0.261-dir ki, bu da residualların güclü müsbət avtokorrelyasiyasına işarə edir. Yəni bir ayın NPL sapması növbəti aylarla əlaqəlidir, bu da zaman sıralı data üçün təbiidir. Avtokorrelyasiya nəticəsində adi OLS standart xətaları etibarlı olmaya bilər, lakin biz burada əsasən əmsalların işarə və nisbətlərinə fokuslanacağıq.

Cədvəl 7

Əsas dəyişənlərin təsviri statistikası (2019–2024, aylıq)

Göstərici	Orta	Std. kənarlaşma	Minimum	Maksimum
Gecikmiş kreditlərin payı (%)	4.97	3.60	1.53	12.18
HHI	0.2455	0.0074	0.2358	0.2556
Entropiya (norm.)	0.8001	0.0226	0.7704	0.8342
Xarici valyuta kreditlərinin payı (%)	27.06	10.24	15.42	43.71
Qısamüddətli (AZN) kreditlərin payı (%)	17.26	1.64	14.84	20.37
Yeni verilən kreditlər (mln. AZN)	1626.47	747.88	467.03	3149.87
EUR/AZN məzənnəsi	1.8705	0.0607	1.7800	1.9769

Mənbə: *Müəllifin hesablamaları (AMB göstəriciləri əsasında).*

Reqressiya nəticələrinin təfsiri göstərir ki, modeldə nəzərə alınan faktorlar içərisində xarici valyuta kreditlərinin payının NPL üzərində çox güclü və statistik əhəmiyyətli təsiri mövcuddur (β_1 = 50.39, $p < 0.001$). Bu o deməkdir ki, digər dəyişənlər sabit qalmaqla, kredit portfelində dollarlaşma göstəricisi 1 faiz bəndi artdıqda gecikmiş kreditlərin payı orta hesabla 0.5 faiz bəndi (çünki 50.39 * 0.01 = 0.5039, yəni 0.5%) artır. Məsələn, əgər FX payı 30%-dən 40%-ə yüksəlsəydi, modelə görə NPL nisbəti təxminən 5 faiz bəndi yüksək olardı. Bu nəticə iqtisadi məntiqlə uzlaşır və Azərbaycan təcrübəsinə uyğundur: valyuta riskinin reallaşması (manatın dəyərdən düşməsi) borcalanların ödəmə qabiliyyətini zəiflədir, nəticədə dollarla verilən kreditlər vaxtında ödənilməyə bilər. Ölkəmizdə 2015-ci ildə manat kəskin devalvasiya edəndə xarici valyutada olan kreditlərin böyük hissəsi problemli kreditlərə dönüşmüşdür. Hazırda manat sabit olsa da, dollarlaşmış kreditlərin payı yüksək olanda banklar üçün risk qalır (IMF, 2025). Bu mənada, əldə etdiyimiz nəticə dollarlaşmanın maliyyə sabitliyinə mənfi təsirini açıq şəkildə göstərir və literaturada digər ölkələr üzrə əldə olunmuş nəticələrlə (məsələn, Afrika ölkələri üçün Hahm və başq., 2019 – burada yüksək dollarlaşmanın bankları xarici şoklara həssas etdiyi bildirilir) üst-üstə düşür.

Cədvəl 8

Dəyişənlər arasında korrelyasiya matrisi (Pearson r)

Dəyişən	NPL (%)	HHI	Entropiya (norm.)	FX payı (%)	Short AZN (%)	Yeni kreditlər	EUR/AZN
NPL (%)	1.00	0.19	–0.20	0.92	–0.10	0.08	–0.14
HHI	0.19	1.00	–0.59	0.25	0.88	–0.21	0.77
Entropiya (norm.)	–0.20	–0.59	1.00	–0.18	–0.79	0.15	–0.65
FX payı (%)	0.92	0.25	–0.18	1.00	0.07	0.03	0.07
Short AZN (%)	–0.10	0.88	–0.79	0.07	1.00	–0.44	0.85
Yeni kreditlər (həcm)	0.08	–0.21	0.15	0.03	–0.44	1.00	–0.31
EUR/AZN	–0.14	0.77	–0.65	0.07	0.85	–0.31	1.00

***Qeyd**: Qeyd olunan bütün korrelyasiya əmsalları üçün p<0.01 (iki tərəfli) istisna təşkil etmir, yalnız əlaqənin istiqamətini və gücünü göstərir.*

Modeldə HHI indeksinin əmsalı müsbətdir (β_5 = 23.15) və 5.5% səviyyəsində əhəmiyyətlidir (yəni təxminən 90% etibarlılıqla fərqli deyil sıfırdan). Bu da nəzərə çarpandır: HHI artdıqca (yəni portfelin konsentrasiyası yüksəldikcə) gecikmiş kreditlərin payı artır. Məsələn, HHI indeksi 0.24-dən 0.25-ə (0.01 vahid) yüksəlirsə, NPL payı təxminən 23.15 * 0.01 = 0.2315 yəni 0.23 faiz bəndi artır. Kəmiyyət olaraq təsir o qədər böyük deyil, lakin istiqamət diversifikasiyanın xeyrinədir. Yəni diversifikasiya (HHI-nin azalması) riskləri bir qədər azaldır. Bu da ədəbiyyatda bir çox tədqiqatçının gəldiyi qənaətə uyğundur ki, sektorlar üzrə aktiv diversifikasiya bankın iflas ehtimalını aşağı sala bilər (Shim, 2019; Lakshan və Dewasiri, 2022).

Bizim tədqiqat boyu illər üzrə müşahidə etdik ki, 2021-də diversifikasiya artanda NPL-lər kəskin enmişdi; 2025-də isə diversifikasiya zəifləyəndə NPL-lər cüzi də olsa artıb. Reqressiya nəticəsi də bu meylin statistika ilə təsdiqini verir. Bununla belə, β_5 üçün $p = 0.055$ olduğundan ehtiyatla yanaşmalıyıq – yəni diversifikasiyanın təsiri statistik əhəmiyyət həddindədir, çox güclü inamla yox. Burada multikorrelyasiyanın da rolu ola bilər, çünki HHI təbiətcə FX payı və short AZN payı ilə korrelyasiya edir.

Cədvəl 9

Reqressiya modelinin uyğunluq göstəriciləri

Model	R	R^2	Düz. R^2	Std. xəta	Durbin-Watson
NPL %-ə qarşı (5 dəyişən)	0.971	0.943	0.939	0.691	0.261

***Mənbə**: Müəllifin SPSS nəticələri əsasında tərtib etdiyi cədvəl.*

Digər dəyişənlərə baxdıqda, qısamüddətli AZN kreditlərinin payının əmsalı gözlənildiyi kimi mənfi çıxdı (β_3 = -27.82), amma p ≈ 0.15 olduğundan əhəmiyyətli deyil. Bu o deməkdir ki, manat kreditləri içində qısa müddətli kreditlərin xüsusi çəkisinin artması NPL-ləri azaltmağa meyllidir, lakin bizim datada bu təsir əhəmiyyətli olmayıb. Mənfi işarə əslində məntiqlidir: əgər bank daha çox qısamüddətli kredit verirsə, onlar ya tez bir zamanda geri dönür, ya da problem yaranarsa vaxtında ölçü götürülür. Uzunmüddətli kreditlərdə isə problem gec üzə çıxa bilər və gecikmiş borc kimi statistikalara daxil olmayıb "gizli" qala bilər. Buna görə bəzən qısamüddətli kredit payı yüksək olan bankların NPL-ləri rəsmi aşağı görünə bilər. Bizim nəticədə belə bir tendensiya var, sadəcə statistik cəhətdən güclü deyil.

Cədvəl 10

Reqressiya modelinin ANOVA cədvəli

Model	SQ	df	MQ	F (stat)	Sig.
Regressiya	541.806	5	108.361	219.44	0.000
Qalıq	32.602	66	0.494		
Cəmi	574.408	71			

***Qeyd:** SQ – kvadratların cəmi, MQ – orta kvadrat. Model əhəmiyyətlidir (p<0.001).*

Yeni kreditlərin həcminin əmsalı cüzi müsbət alınmışdır (β_4 0.0003) və əhəmiyyətli deyil (p = 0.51). Deməli, analiz dövründə kredit artım sürəti ilə NPL nisbəti arasında əhəmiyyətli əlaqə tapılmadı. Bu, bir qədər təəccüblü görünsə də, məntiqli izahı var: 2019–2024 dövründə həm kreditlər artıb, həm də NPL payı azalıb, yəni əks istiqamətdə hərəkət ediblər. Adətən çox sürətli kredit genişlənməsi sonrakı illərdə problemli kreditləri artırır (çünki kredit bumu zamanı riskli müştərilərə də kredit verilir). Bizim təhlil apardığımız illər isə daha çox böhrandan sonrakı bərpa və normal genişlənmə illəridir, hələ "partlayış" səviyyəsində kredit bumundan danışmaq olmaz. 22% illik kredit artımı (2024-də) olsa da, bu, baza kiçik olduğu üçün sistemə hələ mənfi təsir etməyib. Ona görə yeni kreditlərin artımı hələki NPL-ləri yüksəltməyib – bəlkə də banklar daha sağlam kredit siyasəti yürüdüblər. İleriki illərdə əgər kredit artımı davam etsə, bu faktor önəm qazana bilər.

Cədvəl 11

Reqressiya nəticələri: əmsallar və onların əhəmiyyətliliyi

Dəyişən	β_1 (koef.)	Std. səhv	t (stat)	p səviyyəsi	95% CI (α)
(Konstant)	–7.8977	6.913	–1.142	0.257	–21.700 … 5.904
FX payı (%)	50.3877	3.532	14.267	0.000 **	43.337 … 57.439
Short AZN (%)	–27.8215	19.153	–1.453	0.151	–66.062 … 10.419
Yeni kreditlər (AZN)	0.0003	0.0005	0.662	0.510	–0.0007 … 0.0013
EUR/AZN məzənnəsi	–0.6224	1.478	–0.421	0.675	–3.572 … 2.328
HHI	23.1478	11.832	1.956	0.055	–0.476 … 46.771

***Qeyd: p<0.01** üçün qalın işarələnib. CI – etibarlılıq intervalı (95%).*

Avro/manat məzənnəsinin əmsalı mənfi olub (β_5 -0.622) və əhəmiyyətsizdir (p = 0.675). Məzənnənin sabitliyini nəzərə alsaq, bu nəticə təəccüblü deyil. Avro ucuzlaşanda (EUR/AZN düşəndə) idxal inflyasiyası azalır, borcalanlar üçün müəyyən pozitiv təsir yarana bilər, amma manatın

kursu faktiki dəyişmədiyi üçün bu effekt çox zəifdir. Əmsalın mənfi olması deməkdir ki, avro bahalaşanda NPL payı bir qədər artır, lakin bu təsir cüzi və statistik deyil.

Modelimizin nəticələri bütövlükdə göstərir ki, bankların kredit portfelinin sektorlar üzrə daha taraz paylanması maliyyə sabitliyinə müsbət təsir göstərir, ancaq bu təsir, valyuta riskinin təsiri qədər güclü deyil. Başqa sözlə, Azərbaycan üçün hazırda kreditlərin manatla verilib-verilməməsi, sektorlar arası payından daha vacibdir. Bu nəticə məntiqlidir, çünki 2015-ci ildə bankları vuran əsas zərbə məhz valyuta riskindən gəlmişdi; sektor riskləri isə o zaman ikinci dərəcəli qalmışdı (bütün sahələr onsuz da tənəzzül etmişdi). İndi isə manat sabit olduğu üçün valyuta riski azalıb, banklar üçün risklərin növbəti mənbəyi kimi sektor konsentrasiyası aktuallaşır. 2023–2024-cü illərdə beynəlxalq maliyyə qurumları da (IMF, 2025) Azərbaycanda kreditlərin müəyyən seqmentlər üzrə (xüsusilə istehlak kreditləri üzrə) həddindən artıq artmasını risk amili kimi qeyd edirdilər. Mərkəzi Bank 2023-də bu riski azaltmaq üçün ipoteka və istehlak kreditlərinə bəzi məhdudiyyətlər tətbiq etdi. Bizim analiz daha çox biznes kreditlərinin sektorlarına fokuslandığından, istehlak kreditləri bura daxil deyil. Amma eyni məntiq tətbiq oluna bilər: hər hansı bir portfel seqmentinin hədsiz böyüməsi sabitliyi poza bilər.

Cədvəl 12

Reqressiya modelində multikorrelyasiya diaqnostikası

Dəyişən	Tolerantlıq	VIF
FX payı (%)	0.015	65.1
Short AZN (%)	0.001	726.3
Yeni kreditlər	0.040	24.7
EUR/AZN	0.003	341.0
HHI	0.001	706.7

Qeyd: *Tolerantlıq = 1 – R_i^2, VIF = 1 / tolerantlıq. VIF-in 10-dan çox olması ciddi multikorrelyasiyanı göstərir.*

Əldə etdiyimiz diversifikasiya-sabitlik əlaqəsi müsbət olsa da, bəzi tədqiqatlarda rast gəlinən "fokuslaşma" üstünlüyünü burada görmədik. Məsələn, Acharya və başqaları (2006) fokuslaşmış ixtisaslaşmanın bəzən daha effektiv ola biləcəyini demişdilər. Azərbaycanda bəlkə də bəzi banklar xüsusi ixtisaslaşmaya malik olmadığından, diversifikasiya onlara ümumilikdə faydalı olub. Digər tərəfdən, bizim tədqiqat agregativ (sistem üzrə) aparılıb; fərdi bank səviyyəsində təhlil daha fərqli nəticə verə bilərdi. Məsələn, böyük banklar çoxşaxəli portfelə malik ikən kiçik ixtisaslaşmış banklar da mövcuddur – onların müqayisəsi ayrıca araşdırma mövzusudur. Biz sektorun ümumi göstəriciləri ilə işlədik. Nəticələrimizi mövcud ədəbiyyatla müqayisə etsək, demək olar ki, Shim (2019) tərəfindən ABŞ bankları üçün tapılan nəticələr (diversifikasiya sabitliyi artırır) bizim əldə etdiklərimizlə üst-üstə düşür. Həmçinin, Lakshan və Dewasiri (2022) Şri-Lanka banklarında diversifikasiyanın sabitliyi gücləndirdiyini qeyd etmişdilər, bu da eynilə bizim nəticəmiz kimidir. Digər tərəfdən, diversifikasiyanın effekti bizdə olduqca məhduddur (əmsal kiçik və güvən səviyyəsi aşağı), bu isə Acharya və başq. (2006) və Hayden və başq. (2007) kimi tədqiqatların diversifikasiya faydasına şübhə ilə yanaşan hissəsinə müəyyən dərəcədə uyğun gəlir. Onlar bildirmişdilər ki, çox geniş diversifikasiya bank peşəkarlığını azalda bilər. Azərbaycanda banklar uzun illər əsasən ənənəvi sahələrə kredit verib, bəziləri kənd təsərrüfatı və ya emal kimi sektorları yetərincə analiz edə bilməyib. Bu kimi səbəblərdən, diversifikasiya artsa da, onun sabitliyə töhfəsi limitli ola bilər.

Multikorrelyasiya göstəricilərinin yüksək olması (Cədvəl 12) isə onu göstərir ki, valyuta strukturu, müddət strukturu və sektor strukturu bir-biri ilə əlaqəlidir. Məsələn, xarici valyuta kreditlərinin əksəriyyəti biznes subyektlərinə verildiyindən onların çoxu ticarət sektorunda cəmlənib; manatla kreditlər isə daha çox istehlak segmentinə və ya dövlət proqramları çərçivəsində prioritet

sektorlaradır. Bu da bizim modeldə dəyişənlərin təsirini ayrı-ayrılıqda tam təcrid etməyi çətinləşdirir. HHI ilə short_AZN payının çox korrelyasiya etməsi (r=0.88) ondan xəbər verir ki, banklar eyni zamanda həm uzunmüddətli kreditləri müəyyən sahələrdə cəmləşdirir, həm də qısamüddətli kreditlərin çoxunu müxtəlif sahələrdə paylayır. Yəni strukturun fərqli ölçüləri arasında sistematik əlaqə var. Gələcək tədqiqatlarda bu kimi əlaqələr diqqətlə nəzərə alınmalıdır, bəlkə də panel məlumatlarla (fərdi bankların göstəriciləri ilə) daha dəqiq analiz aparmaq olar.

Nəticə olaraq, bizim empirik qiymətləndirmə göstərir ki, kredit portfelinin sahəvi diversifikasiyası maliyyə sabitliyi üçün müsbət amildir, lakin hazırkı dövrdə valyuta riski kimi faktorlar daha ön plandadır. Bankların risk menecmenti siyasətlərində həm portfelin sektorlar üzrə tarazlığına, həm də valyuta kompozisiyasına diqqət yetirmək lazımdır. Aşağıda bu məqamlar ümumiləşdirilir və tövsiyələr verilir.

NƏTİCƏ VƏ TƏKLİFLƏR

Aparılan tədqiqatın nəticələrinə əsasən deyə bilərik ki, Azərbaycanın bank sektorunda kredit qoyuluşlarının sahəvi diversifikasiyası ümumilikdə maliyyə sabitliyinə müsbət təsir göstərir. Empirik analiz göstərdi ki, bankların kredit portfelinin bir və ya bir neçə sahədə həddən artıq cəmləşməsi problemli kreditlərin səviyyəsini yüksəldə bilər. Bunun əksinə, kreditlərin müxtəlif sahələr üzrə paylaşdırılması risklərin "sığortalanmasına" kömək edir – bir sahədə çətinlik yaranarsa, digər sahələrdən gələn ödəniş axını bankın vəziyyətini sabit saxlaya bilir. Bu nəticə, nəzəri olaraq gözlənilən idi və ədəbiyyatda bir çox müəllifin (məsələn, Diamond, 1984; Shim, 2019) qeyd etdiyi fikir ilə uyğunluq təşkil edir.

Bununla yanaşı, araşdırma dövründə maliyyə sabitliyinə ən böyük təsir göstərən amilin kredit portfelinin valyuta strukturu olduğu üzə çıxıb. Xüsusilə xarici valyutada (xüsusilə ABŞ dollarında) verilən kreditlərin payı bank sektorunun sağlamlığına əhəmiyyətli dərəcədə mənfi təsir edir. Yüksək dollarlaşma şəraitində kiçik məzənnə dəyişiklikləri belə borcalanların vəziyyətini pisləşdirə və nəticədə bankların gecikmiş kreditlərini artıra bilər. Bu, bizim ölkə üçün həssas məsələdir – 2015-ci il devalvasiyaları zamanı bunun acı təcrübəsi yaşanıb. Ona görə də Mərkəzi Bankın son illərdə yürütdüyü dedollarizasiya siyasəti (məsələn, manatla ipoteka kreditləri proqramları, valyuta mövqeyi limitləri və s.) çox vacibdir və davam etdirilməlidir. Nəticələrimiz də təsdiqləyir ki, manatla kreditləşmənin payı artdıqca bankların problemli kredit nisbəti azalır.

Diversifikasiya məsələsinə qayıtsaq, qeyd etmək lazımdır ki, bankların portfelini şaxələndirməsi ifrat olmamalıdır. Bizim təhlil sistem səviyyəsində aparıldığı üçün ümumilikdə müsbət effekt görsək də, hər bir bankın öz ixtisaslaşdığı sahələrdə peşəkarlığını nəzərə almaq gərəkdir. Yəni, bank yalnız diversifikasiya xatirinə bilmədiyi sahəyə həddindən artıq kredit ayırarsa, bu, riskləri azalda bilməz (əksinə, artıra da bilər). Odur ki, praktiki tövsiyə olaraq, banklar "müxtəliflik içində balans" prinsipini rəhbər tutmalıdırlar: kredit portfelini bir neçə böyük sektor arasında bölüşdürmək, eyni zamanda hər sektor üzrə riskləri dərindən təhlil edib ixtisaslaşmış komanda saxlamaq. Məsələn, ticarət sektorunda fəaliyyət göstərən borcalanlarla işləmək üzrə ayrıca risk menecment strategiyası, kənd təsərrüfatı üzrə ayrıca strategiya ola bilər. Hər bank öz portfel strukturuna uyğun diversifikasiya hədəfi müəyyən etməlidir (məsələn, heç bir sektorun payı 30%-dən yuxarı olmamaq kimi daxili limitlər tətbiq etmək olar).

Regulyativ səviyyədə, Mərkəzi Bank artıq böyük risk mövqelərinə limitlər tətbiq edib – yəni bir borcalana və ya əlaqəli qrupa verilən kreditlərin bank kapitalına nisbəti ilə bağlı sərt norma ("Banklar haqqında" Qanunda əks olunub). Bundan əlavə, sektor konsentrasiyasına birbaşa limit olmasa da, prudensial nəzarət çərçivəsində Mərkəzi Bank mütəmadi olaraq banklardan portfel strukturuna dair hesabatlar alır (AMB prudensial hesabatlılıq formatlarında sektorlar üzrə bölünmə mövcuddur). Təklif olunur ki, bu məlumatlar əsasında Mərkəzi Bank sektor risklərinin sistemik əhəmiyyətini dəyərləndirsin və lazım gəldikdə makroprudensial alətlər tətbiq etsin. Məsələn, əgər müəyyən dövrdə bütün banklar eyni sektora həddən artıq kredit yönəldirsə (deyək ki, tikinti bum-

dövründə tikinti sektoruna), o zaman həmin sektora kredit verilməsini soyutmaq üçün əlavə qarşılıq normaları və ya məhdudiyyətlər tətbiq edilə bilər. Belə differensial tənzimləmə sabitlik naminə faydalı olardı.

Məqalənin nəticələri nəzəri cəhətdən onu göstərir ki, Azərbaycanda bankların maliyyə sabitliyinin qorunmasında portfelin həm valyuta, həm də sahə diversifikasiyası önəmlidir. Bu nəticə yeni elmi bilik kimi dəyərləndirilə bilər, çünki daha əvvəlki tədqiqatlarda bu konkret əlaqə empirik şəkildə göstərilməmişdi. Eyni zamanda, bəzi məhdudiyyətləri də vurğulamaq lazımdır. Birincisi, istifadə etdiyimiz məlumatlar sektor səviyyəsində agregasiya olunub – fərdi bank davranışlarındakı fərqləri nəzərə ala bilmədik. Gələcək işlərdə panel data ilə (bank səviyyəsində) diversifikasiya və risk analizi aparmaq daha dərin nəticələr verə bilər. İkincisi, zaman periodu nisbətən qısadır və xüsusilə böhran dövrünü tam əhatə etmir (2015-2016 kimi illər kənarda qalıb). Gələcəkdə daha uzun zaman aralığında, müxtəlif makroiqtisadi şokları əhatə edən tədqiqat aparmaq diversifikasiyanın faydası barədə daha inandırıcı nəticələr verə bilər. Üçüncüsü, biz yalnız sektorlar üzrə diversifikasiyaya baxdıq, lakin bank portfelinin coğrafi diversifikasiyası (bölgələr üzrə) və ya müştəri tipi üzrə diversifikasiyası (fiziki vs hüquqi şəxslər, KOB-lar vs iri şirkətlər) kimi aspektlər də maraqlı araşdırma mövzusu ola bilər.

Nəticə etibarilə, əldə edilən tapıntılar həm akademik, həm də praktiki baxımdan əhəmiyyətlidir. Akademik tərəfdən, bu iş göstərir ki, inkişaf etməkdə olan bazar kontekstində belə klassik portfel nəzəriyyəsinin prinsipləri (diversifikasiya risk azaldır) ümumilikdə keçərliliyini qoruyur, lakin digər risk faktorları ilə birlikdə nəzərdən keçirilməlidir. Praktiki cəhətdən isə, bank menecerlərinə və tənzimləyicilərə mesaj odur ki, risklərin bir səbəbi yox, kompleksi mövcuddur – məsələn, sahəvi diversifikasiya yaxşıdır, amma onu valyuta uyğunluğu olmadan təmin etmək tam effekt verməz. Azərbaycan bank sektorunda son illərdə müşahidə edilən müsbət trendlər (NPL-lərin azalması, kapitalın artması və s.) göstərir ki, düzgün idarəetmə və nəzarət davam etdirildikcə maliyyə sabitliyi möhkəmlənəcək. Bu sabitliyin qorunması üçün bankların diversifikasiya strategiyalarına diqqət yetirməsi, eyni zamanda makroiqtisadi risklərin (neft qiyməti şokları, devalvasiya riski və s.) nəzarətdə saxlanılması vacibdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Acharya, V.V., Hasan, I., & Saunders, A. (2006). Should banks be diversified? Evidence from individual bank loan portfolios. Journal of Business, 79(3), 1355-1412.

2. Beck, T., Demirgüç-Kunt, A., & Levine, R. (2006). Bank concentration, competition, and crises: First results. Journal of Banking & Finance, 30(5), 1581-1603.

3. Diamond, D.W. (1984). Financial intermediation and delegated monitoring. Review of Economic Studies, 51(3), 393-414.

4. Hayden, E., Porath, D., & von Westernhagen, N. (2007). Does diversification improve the performance of German banks? Evidence from individual bank loan portfolios. (Deutsche Bundesbank Discussion Paper, Series 2, No. 05/2007).

5. International Monetary Fund (IMF). (2025). Azerbaijan: Staff Concluding Statement of the 2025 Article IV Mission. Washington, DC: IMF, April 2025.

6. Lakshan, P.A.S., & Dewasiri, N.J. (2022). Impact of loan portfolio diversification on financial stability of commercial banks in Sri Lanka. Contemporary Issues in Finance, Vol. 5 (Chapter 4), Sabaragamuwa University, 60-74.

7. Markowitz, H.M. (1952). Portfolio selection. Journal of Finance, 7(1), 77-91.

8. Seyfullali, J. (2022). Dynamics of the non-performing loans in Azerbaijan: Empirical analysis. Azerbaijan Journal of Socio-Economic Studies, 5(1), 79-88.

9. Shahriar, A., Mehzabin, S., & Azad, M.A.K. (2023). Diversification and bank stability in the MENA region. Social Sciences & Humanities Open, 8(1), 100520.

10. Shim, J. (2019). Loan portfolio diversification, market structure and bank stability. Journal of Banking & Finance, 104, 103-115.

11. Stiroh, K.J., & Rumble, A. (2006). The dark side of diversification: The case of US financial holding companies. Journal of Banking & Finance, 30(8), 2131-2161.

12. Wagner, W. (2010). Diversification at financial institutions and systemic crises. Journal of Financial Intermediation, 19(3), 373-386.

13. Uhde, A., & Heimeshoff, U. (2009). Consolidation in banking and financial stability in Europe: Empirical evidence. Journal of Banking & Finance, 33(7), 1299-1311.

A.Z.Rahimli
PhD student, Baku State University

Empiric assessment of sectoral diversification of credit deposits in commercial banks and its impact on the stability of the financial system

Abstract

The diversification of loan portfolios across economic sectors is an important factor influencing financial stability in the banking sector. This article provides an empirical assessment of the impact of sectoral diversification of credit placements in Azerbaijani commercial banks on the stability of the financial system (mitigation of credit default risk). Statistical data for 2019–2024 indicate that although banks' loan portfolios are concentrated in a few key sectors such as trade and services, there have been certain shifts in portfolio structure in recent years. The ratio of non-performing (overdue) loans to total loans declined significantly over the same period. Based on descriptive statistical analysis and a multivariate regression model, a positive relationship is found between sectoral diversification of the loan portfolio and financial stability: in other words, distributing loans across diverse economic sectors tends to reduce overall credit risk. In particular, as the share of the largest sector increases, the level of non-performing loans rises slightly, indicating that concentration in one sector can elevate risk. At the same time, a decrease in the degree of loan dollarization (share of foreign currency loans) is observed alongside a reduction in overdue loans. The results suggest that balancing banks' loan distribution among multiple sectors and limiting currency risk can strengthen their financial soundness. The findings are analyzed in the context of existing theory and empirical literature and are discussed with regard to risk reduction policies in Azerbaijan's banking sector.

Keywords: *bank loans; sectoral diversification; financial stability; loan portfolio; credit risk.*

https://doi.org/10.58225/tim.2026-2-404-408

D.D.Fərəcova
i.f.d., Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
faracova.dilbar@mail.ru
C.M.Velieva
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0009-0002-8895-9461
velieva.jamila.mardan.2024@unec.edu.az

Məqalə redaksiyaya daxil olub 22.03.2026
The article was received by editorial board on 22.03.2026
Статья принята к печати 22.03.2026

MALİYYƏ SABİTLİYİ VƏ ÖDƏMƏ QABİLİYYƏTİNİN KOMPLEKS TƏHLİLİ: LİKVİDLİK, RENTABELLİK VƏ MALİYYƏ DAYANIQLIĞI YANAŞMASI

Xülasə

Məqalədə müasir bazar iqtisadiyyatı şəraitində kommersiya təşkilatlarının maliyyə sabitliyi və ödəmə qabiliyyətinin nəzəri və praktik əhəmiyyəti araşdırılmışdır. Müəyyən edilmişdir ki, bu göstəricilər müəssisənin maliyyə sağlamlığını, risklərə davamlılığını və uzunmüddətli inkişaf potensialını xarakterizə edən əsas amillərdir. Tədqiqat çərçivəsində maliyyə sabitliyi və ödəmə qabiliyyətinin mahiyyəti açıqlanmış, onların qarşılıqlı əlaqəsi əsaslandırılmışdır. Eyni zamanda likvidlik, rentabellik və maliyyə dayanıqlığı göstəricilərinin müəssisənin ümumi maliyyə vəziyyətinin qiymətləndirilməsində rolu təhlil edilmişdir. Likvidlik əmsalları vasitəsilə qısamüddətli ödəmə qabiliyyəti, rentabellik göstəriciləri ilə fəaliyyətin səmərəliliyi, maliyyə dayanıqlığı əmsalları ilə isə kapital strukturunun optimal səviyyəsi müəyyən olunur. Araşdırma nəticəsində belə qənaətə gəlinmişdir ki, maliyyə göstəricilərinin kompleks və balanslaşdırılmış idarə olunması müəssisənin davamlı inkişafının əsas şərtidir. Bu baxımdan maliyyə təhlili həm idarəetmə qərarlarının əsaslandırılması, həm də investor və kreditorlar üçün etibarlı informasiya bazasının formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: *maliyyə sabitliyi, ödəmə qabiliyyəti, likvidlik, rentabellik, maliyyə dayanıqlığı.*

GİRİŞ

Müasir bazar iqtisadiyyatı şəraitində kommersiya təşkilatlarının dayanıqlı fəaliyyəti onların maliyyə sabitliyi və ödəmə qabiliyyəti ilə birbaşa bağlıdır. Bu göstəricilər müəssisənin maliyyə sağlamlığını, bazar risklərinə davamlılığını və uzunmüddətli inkişaf potensialını xarakterizə edən əsas iqtisadi kateqoriyalar hesab olunur. Maliyyə sabitliyi və ödəmə qabiliyyəti yalnız cari fəaliyyətin davam etdirilməsi üçün deyil, eyni zamanda investisiya cəlbediciliyinin formalaşdırılması və maliyyə risklərinin idarə olunması baxımından mühüm əhəmiyyət daşıyır. Maliyyə baxımından sağlam olmayan müəssisələr bazar dəyişkənliyinə qarşı həssas olur, borc öhdəliklərini vaxtında yerinə yetirməkdə çətinlik çəkir və nəticədə maliyyə iflası riski ilə üzləşə bilər. Bu səbəbdən maliyyə sabitliyi və ödəmə qabiliyyəti müasir maliyyə idarəetməsinin əsas strateji göstəriciləri kimi çıxış edir.

Maliyyə sabitliyi və ödəmə qabiliyyəti bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan, lakin məzmun baxımından fərqli iqtisadi anlayışlardır. Ödəmə qabiliyyəti müəssisənin qısamüddətli öhdəliklərini vaxtında və tam şəkildə yerinə yetirmək imkanını ifadə edir və əsasən likvidlik göstəriciləri vasitəsilə qiymətləndirilir.

Maliyyə sabitliyi isə daha geniş anlayış olub müəssisənin uzunmüddətli maliyyə strukturunun davamlılığını, borc yükünün optimal səviyyəsini və kapitalın dayanıqlığını əks etdirir. Yəni ödəmə qabiliyyəti cari dövrün maliyyə vəziyyətini, maliyyə sabitliyi isə gələcək dövrlərdə fəaliyyətin davamlılığını xarakterizə edir.


Bu iki anlayış arasında səbəb–nəticə əlaqəsi mövcuddur. Davamlı maliyyə sabitliyi ödəmə qabiliyyətinin qorunmasına şərait yaradır, ödəmə qabiliyyətinin pozulması isə zamanla maliyyə sabitliyinin zəifləməsinə və maliyyə böhranına səbəb ola bilər. Buna görə də onlar kompleks şəkildə təhlil olunmalıdır.

ƏDƏBİYYAT İCMALI

Maliyyə sağlamlığı müəssisənin fəaliyyətini fasiləsiz davam etdirmək, öhdəliklərini vaxtında yerinə yetirmək və gələcək inkişaf üçün maliyyə resursları formalaşdırmaq qabiliyyətini ifadə edir. Bu anlayış yalnız mənfəətin mövcudluğu ilə məhdudlaşmır, eyni zamanda kapital strukturu, likvidlik səviyyəsi, borclanma nisbəti və pul axınlarının stabilliyini də əhatə edir.

Maliyyə cəhətdən sağlam müəssisə aşağıdakı xüsusiyyətlərə malik olur (Sxem 1).

Sxem 1. Kommersiya təşkilatlarının maliyyə cəhətdən sağlamlaşdırılması xüsusiyyətləri



Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir (Hoyle, Schaefer & Doupnik, 2022, s. 301–303).*

Sxem 1-də qeyd olunan göstəricilər müəssisənin yalnız cari dövrdə deyil, uzunmüddətli perspektivdə də iqtisadi davamlılığını təmin edir.

Maliyyə vəziyyətinin qiymətləndirilməsi müəssisənin iqtisadi fəaliyyətinin səmərəliliyini və risk səviyyəsini müəyyən etmək məqsədi daşıyır. Bu qiymətləndirmənin əsas məqsədlərinə aşağıdakılar daxildir:

- müəssisənin cari və perspektiv maliyyə imkanlarının müəyyən edilməsi;
- ödəmə qabiliyyəti risklərinin vaxtında aşkarlanması;
- borclanma səviyyəsinin təhlükəsiz həddə saxlanılması;
- mənfəətlilik və pul axınlarının dayanıqlığının qiymətləndirilməsi;
- idarəetmə qərarlarının iqtisadi əsaslandırılması.

Maliyyə vəziyyətinin təhlili həm daxili idarəetmə, həm də xarici istifadəçilər üçün etibarlı informasiya bazası yaradır.


Maliyyə sabitliyi və ödəmə qabiliyyətinin təhlili müxtəlif maraqlı tərəflər üçün fərqli, lakin bir-birini tamamlayan əhəmiyyətə malikdir. İdarəetmə üçün bu göstəricilər strateji qərarların qəbulunda əsas rol oynayır. Menecerlər maliyyə vəziyyətinin təhlili əsasında investisiya planlarını, borclanma siyasətini və xərclərin optimallaşdırılmasını həyata keçirirlər. İnvestorlar üçün maliyyə sabitliyi müəssisəyə qoyulan kapitalın təhlükəsizliyinin və gəlirlilik potensialının göstəricisidir. Stabil maliyyə strukturu investor etimadını artırır və şirkətin bazar dəyərinin yüksəlməsinə şərait yaradır.

Kreditorlar üçün isə ödəmə qabiliyyəti borcların vaxtında qaytarılmasının əsas təminatıdır. Likvidlik və borc göstəricilərinin qənaətbəxş səviyyədə olması kredit riskini azaldır və maliyyələşmə şərtlərini daha əlverişli edir. Likvidlik müəssisənin qısamüddətli öhdəliklərini vaxtında və tam şəkildə yerinə yetirmək qabiliyyətini ifadə edir. Bu anlayış müəssisənin aktivlərinin nə dərəcədə tez və dəyər itkisi olmadan pul vəsaitlərinə çevrilə bilməsi ilə bağlıdır. Yüksək likvidlik müəssisənin maliyyə çevikliyini və bazar risklərinə davamlılığını artırır (Brigham & Ehrhardt, 2020, s. 96–98).

Likvidlik səviyyəsinə görə aktivlər yüksək likvid (pul vəsaitləri), orta likvid (debitor borcları) və aşağı likvid (ehtiyatlar, əsas vəsaitlər) qruplara bölünür. Bu təsnifat ödəmə qabiliyyətinin qiymətləndirilməsində mühüm metodoloji əhəmiyyət daşıyır (Ross, Westerfield & Jordan, 2022, s. 41–43).

Əsas likvidlik əmsalları aşağıdakı sxem vasitəsilə izah olunur (Sxem 2).

Sxem 2. Əsas likvidlik əmsalları



Mənbə: *Müəllif tərəfindən tərtib olunmuşdur (Brealey, Myers & Allen, 2020, s. 829–831).*

Sxem 2.3-dən aydın olur ki, əsas likvidlik əmsalları cari, tez (kritik) və mütləq likvidlik əmsallarıdır. Cari likvidlik əmsalı müəssisənin cari aktivlərinin cari öhdəliklərə nisbətini göstərir və qısamüddətli ödəmə qabiliyyətinin əsas göstəricisi hesab olunur. Tez (kritik) likvidlik əmsalı ehtiyatları çıxmaqla daha likvid aktivlər hesabına öhdəliklərin ödənilmə imkanını qiymətləndirir. Mütləq likvidlik əmsalı isə yalnız pul vəsaitləri və onların ekvivalentləri hesabına cari borcların nə dərəcədə ödənilə biləcəyini əks etdirir (Brealey, Myers & Allen, 2020, s. 829–831). Bu əmsalların birlikdə təhlili ödəmə qabiliyyətinin real vəziyyətini müəyyən etməyə imkan yaradır.

NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ

Dövriyyə kapitalı cari aktivlərlə cari öhdəliklər arasındakı fərq kimi müəyyən edilir. Müsbət dövriyyə kapitalı müəssisənin qısamüddətli maliyyə sabitliyinin göstəricisi hesab olunur. Mənfi dövriyyə kapitalı isə likvidlik riskinin mövcudluğuna işarə edir (Gitman, Zutter & Smart, 2021, s. 85–87).

Maliyyə təhlili praktikasında cari likvidlik əmsalının 1,5–2,0 intervalında olması qənaətbəxş hesab edilir. Tez likvidlik əmsalı üçün normativ səviyyə təxminən 1,0, mütləq likvidlik əmsalı üçün isə 0,2–0,3 qəbul olunur. Bu normativlər müəssisənin fəaliyyət sahəsindən asılı olaraq dəyişə bilər (Brigham & Ehrhardt, 2020, s. 102).

Rentabellik müəssisənin mövcud resurslardan nə dərəcədə səmərəli istifadə etdiyini göstərən əsas iqtisadi göstəricidir. Bu anlayış mənfəətin kapitala, aktivlərə və satış həcminə nisbəti ilə ifadə olunur və maliyyə effektivliyinin əsas ölçüsüdür (Ross, 2022, s. 72–74).

Əsas rentabellik əmsalları isə Aktivlərin rentabelliyi (ROA), Kapitalın rentabelliyi (ROE), Satışın rentabelliyi (ROS) və Əməliyyat mənfəətliliyi əmsallarıdır. Aktivlərin rentabelliyi (ROA) müəssisənin bütün aktivlərindən əldə olunan mənfəətin səviyyəsini göstərir və idarəetmə səmərəliliyinin göstəricisi hesab olunur. Kapitalın rentabelliyi (ROE) səhmdarların yatırdığı kapitaldan əldə olunan gəlirliliyi əks etdirir və investorlar üçün əsas göstəricidir. Satışın rentabelliyi (ROS) satış gəlirlərinin nə qədərinin mənfəətə çevrildiyini göstərir. Əməliyyat mənfəətliliyi əsas fəaliyyətin effektivliyini qiymətləndirir (Brealey, 2020, s. 838–840).

Süni intellekt dövründə insan kapitalının transformasiyası müasir iqtisadi sistemin ən fundamental dəyişikliklərindən biri kimi qiymətləndirilməlidir. Aparılan təhlil göstərir ki, bu transformasiya yalnız texnoloji yeniliklərlə məhdudlaşmır, eyni zamanda struktur, institusional və sosial səviyyələrdə kompleks dəyişiklikləri əhatə edir. İnsan kapitalı artıq statik bilik və bacarıqlar toplusu kimi deyil, dinamik, adaptiv və çoxşaxəli sistem kimi formalaşır. Əmək fəaliyyətinin mahiyyətində baş verən dəyişikliklər bu transformasiyanın mərkəzində dayanır. Tapşırıq əsaslı modeldən problemyönümlü modelə keçid insan kapitalının funksional rolunu yenidən müəyyənləşdirir. Müasir əmək bazarında dəyər artıq rutin fəaliyyətlərdən deyil, qeyri-rutin, yaradıcı və analitik fəaliyyətlərdən formalaşır. Bu isə insan kapitalının əsas üstünlüyünü onun adaptasiya və innovasiya qabiliyyətində cəmləşdirir. Kognitiv avtomatlaşdırma prosesi bacarıqların yenidən tərif

edilməsini zəruri edir. Ənənəvi texniki bacarıqların əhəmiyyəti qismən azalsa da, analitik düşüncə, kreativlik və sosial bacarıqlar ön plana çıxır. Bu isə insan kapitalının strukturunda keyfiyyət dəyişikliklərinə səbəb olur və yeni kompetensiya modelinin formalaşmasına gətirib çıxarır. Əmək bazarında müşahidə olunan qütbləşmə bu transformasiyanın sosial-iqtisadi nəticələrini daha aydın göstərir. Orta ixtisaslı iş yerlərinin azalması və gəlir bərabərsizliyinin artması iqtisadi və sosial sabitlik üçün ciddi risklər yaradır. Bu prosesin düzgün idarə olunmaması sosial stratifikasiyanın dərinləşməsinə və iqtisadi inkişafın qeyri-bərabər paylanmasına səbəb ola bilər. Hibrid bacarıqların formalaşması və multidissiplinar yanaşmanın artması insan kapitalının yeni modelinin əsas xüsusiyyətlərindən biridir. Müasir iqtisadiyyatda uğur qazanmaq üçün fərdlər yalnız bir sahədə ixtisaslaşmaqla kifayətlənməməli, eyni zamanda müxtəlif sahələr üzrə bilikləri inteqrasiya edə bilməlidir. Bu isə təhsil sistemlərinin və əmək bazarının yeni tələblərə uyğunlaşmasını tələb edir.

Davamlı təhsil modeli insan kapitalının dinamik xarakterini əks etdirən əsas elementlərdən biridir. Texnoloji dəyişikliklərin sürəti fərdləri daim yeni bilik və bacarıqlar əldə etməyə məcbur edir. Bu isə təhsil sisteminin strukturunda fundamental dəyişiklikləri zəruri edir və ömürboyu öyrənmə modelini iqtisadi inkişafın əsas şərtlərindən birinə çevirir. İnstitusional uyğunlaşma bu transformasiyanın effektiv həyata keçirilməsi üçün həlledici rol oynayır. Dövlət siyasətləri, təhsil sistemləri və əmək bazarı institutları arasında koordinasiya təmin olunmadıqda insan kapitalının inkişafı və əmək bazarının tələbləri arasında ciddi uyğunsuzluqlar yaranır. Bu baxımdan dövlətlərin rolu yalnız tənzimləyici deyil, eyni zamanda strateji istiqamətverici xarakter daşıyır. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün bu transformasiya həm risk, həm də imkanlar yaradır. Düzgün siyasətlər tətbiq edildiyi təqdirdə rəqəmsal iqtisadiyyat yeni inkişaf perspektivləri açа bilər. Əks halda isə mövcud struktur problemlər daha da dərinləşə bilər. Bu baxımdan insan kapitalına investisiya və institusional islahatlar prioritet istiqamətlərdən biri olmalıdır.

Ümumilikdə, süni intellekt dövründə insan kapitalının transformasiyası iqtisadi sistemin gələcəyini müəyyən edən əsas amillərdən biridir. Bu prosesin uğurla idarə olunması üçün inteqrativ, inklüziv və uzunmüddətli yanaşmalar tələb olunur. İnsan kapitalının inkişafı yalnız iqtisadi artım üçün deyil, eyni zamanda sosial rifah və sabitlik üçün də əsas şərtdir.

İstifadə edilmiş ədəbiyyat:

1. Acemoglu, Daron, and Pascual Restrepo. (2020). "Robots and Jobs: Evidence from US Labor Markets." Journal of Political Economy, vol. 128, no. 6, pp. 2188–2244.

2. Autor, David H. (2015). "Why Are There Still So Many Jobs? The History and Future of Workplace Automation." Journal of Economic Perspectives, vol. 29, no. 3, pp. 3–30.

3. Becker, Gary S. (1993). Human Capital: A Theoretical and Empirical Analysis. University of Chicago Press.

4. Brynjolfsson, Erik, and Andrew McAfee. (2014). The Second Machine Age. W. W. Norton & Company.

5. De Stefano, Valerio. (2016). "The Rise of the 'Just-in-Time Workforce'." Comparative Labor Law & Policy Journal, vol. 37, no. 3, pp. 471–504.

6. Frey, Carl Benedikt, and Michael A. Osborne. (2017). "The Future of Employment." Technological Forecasting and Social Change, vol. 114, pp. 254–280.

7. Goldin, Claudia, and Lawrence F. Katz. (2008). The Race between Education and Technology. Harvard University Press.

8. International Labour Organization. World Employment and Social Outlook. ILO, 2021.

9. OECD. Skills Outlook 2019: Thriving in a Digital World. OECD Publishing, 2019.

10. Schwab, Klaus. (2016). The Fourth Industrial Revolution. World Economic Forum.

11. Standing, Guy. (2011). The Precariat: The New Dangerous Class. Bloomsbury.

12. World Bank. World Development Report 2019: The Changing Nature of Work. World Bank, 2019.

13. Bessen, James. (2019). "AI and Jobs: The Role of Demand." NBER Working Paper.

14. Arntz, Melanie, et al. (2016). "The Risk of Automation for Jobs." OECD Social, Employment and Migration Working Papers.

K.M.Mammadova
PhD, Associate Professor, Azerbaijan University of Architecture and Construction PLE
ORCID 0000-0002-3100-6160
A.B.Aliyev
master student, Azerbaijan University of Architecture and Construction PLE

Transformation of human capital in the age of artificial intelligence: structural changes and the reconstruction of the labor market

Abstract

This paper provides a comprehensive and multidimensional analysis of the transformation of human capital under the influence of artificial intelligence (AI) and automation technologies. The main objective of the study is to examine structural changes in modern labor markets, the redefinition of skills, and institutional adaptation mechanisms within a theoretical and analytical framework. The study argues that AI should not be perceived solely as a technological advancement, but rather as a fundamental driver of economic, social, and institutional restructuring. The findings indicate that traditional human capital theories - particularly those based on the stability of education and skills - are increasingly insufficient in explaining the dynamic and uncertain environment shaped by AI. In this context, human capital must be reconceptualized not as a static resource, but as a dynamic, adaptive, and continuously evolving system of competencies. The paper analyzes labor market polarization, including the decline of middle-skill jobs and the rise of income inequality, as key socio-economic consequences of technological transformation. Furthermore, it explores the impact of cognitive automation on skill reconfiguration, emphasizing the growing importance of hybrid competencies that integrate technical, social, and creative capabilities. The emergence of problem-oriented work models and human–AI collaboration is identified as a defining feature of the new economic paradigm. In addition, the study highlights the critical role of lifelong learning in the context of rapidly changing skill requirements. It demonstrates that human capital has become temporally dynamic, requiring continuous updating and adaptation. The transformation of education systems, the expansion of non-formal learning, and the adoption of personalized learning approaches are discussed as essential components of this process. The paper also evaluates the role of public policy and institutional adaptation mechanisms. It emphasizes the importance of reskilling and upskilling programs, labor market regulation, and the modernization of social protection systems. In the context of developing economies, the study highlights both the risks and opportunities associated with human capital transformation in the AI era. In conclusion, the study argues that the future development of human capital must be based on adaptability, multidisciplinarity, and continuous learning. Effective management of this transformation is crucial for ensuring sustainable economic growth, social stability, and inclusive development in the digital age.

Keywords: *human capital, artificial intelligence, labor market, automation, skill transformation, digital economy, lifelong learning.*

https://doi.org/10.58225/tim.2026-2-482-485

R.E.Gardashaliyev
master student, Azerbaijan State University of Economics
rufatgardashaliyev@gmail.com

Məqalə redaksiyaya daxil olub 13.02.2026
The article was received by editorial board on 13.02.2026
Статья принята к печати 13.02.2026

THE IMPACT OF LEADERSHIP STYLES ON WORKFORCE MOTIVATION

Abstract

There is a direct relationship between leadership and employee motivation. Effective leaders use various motivational strategies to enhance employees' productivity and commitment to work. Leadership styles – authoritarian, democratic, transformational, and situational significantly influence employee motivation. Transformational leadership inspires employees, strengthens their commitment to organizational goals, and supports their professional development. In contrast, authoritarian leadership may be effective in short-term management but can weaken long-term motivation. The study emphasizes that to maintain high levels of employee motivation, leaders should consider employees' needs, communicate effectively, and purposefully apply motivational strategies. Leadership and motivation are complementary elements that directly impact organizational success.

Keywords*: leadership, motivation, workforce, leadership styles, employee performance.*

INTRODUCTION

In modern organizations, leadership and employee motivation are key components of effective management. Employees' productivity, initiative, and organizational commitment largely depend on their level of motivation. At the same time, leaders' styles and behaviors have a direct impact on employees' attitudes and performance. Different leadership styles – transformational, democratic, authoritarian, and situational – shape employee motivation in distinct ways.

Recent studies show that transformational leadership inspires employees and encourages their personal and professional development, which ultimately enhances overall organizational performance. In contrast, authoritarian leadership may be effective in short-term management but can weaken long-term motivation. This paper explores the relationship between leadership and employee motivation, examines how leadership styles influence motivation, and discusses practical implications for organizations.

LITERATURE REVIEW

1. Leadership styles overview. Leadership is widely acknowledged as a pivotal factor in shaping employee motivation and overall organizational performance. Different leadership styles, including transformational, transactional, servant, and participative leadership, have distinct effects on workforce engagement and productivity (Northouse, 2021). Transformational leaders inspire employees through vision, encouragement, and intellectual stimulation, while transactional leaders focus on rewards, punishments, and clear task expectations (Bass, 1990; Burns, 1978).

2. Transformational leadership and motivation. Transformational leadership is closely linked with intrinsic motivation and long-term engagement. According to Bass (1990), transformational leaders enhance employees' sense of purpose by articulating a clear vision, providing individualized support, and encouraging creativity. Research by Judge and Piccolo (2004)

confirms that transformational behaviors, such as inspirational communication and individualized consideration, positively correlate with employee satisfaction, commitment, and motivation.

3. Transactional leadership and motivation. Transactional leadership relies on contingent rewards, performance monitoring, and corrective actions to motivate employees. While effective for achieving short-term goals and maintaining routine performance, this approach primarily drives extrinsic motivation (Podsakoff et al., 1996). Employees may comply with requirements but are less likely to feel emotionally committed or personally inspired by the organization.

4. Servant and participative leadership. Servant leadership prioritizes employee needs, fostering loyalty, well-being, and intrinsic motivation (Greenleaf, 1977). Similarly, participative leadership, which actively involves employees in decision-making, increases feelings of ownership and empowerment, leading to higher engagement and job satisfaction (Somech, 2006). Both approaches demonstrate that supportive and inclusive leadership enhances workforce motivation beyond mere financial incentives.

5. Contextual and demographic factors. The effectiveness of leadership styles on motivation can be moderated by organizational culture, task complexity, and employee demographics. Hofstede (1980) emphasizes that cultural expectations influence how leadership is perceived and accepted. Additionally, individual differences, such as age, experience, and personal values, may impact the motivational outcomes of different leadership approaches.

Research objectives and questions

Objectives:

- To examine the impact of transformational leadership on employee motivation and engagement.
- To assess the influence of transactional leadership on workforce performance and extrinsic motivation.
- To explore how servant and participative leadership styles affect intrinsic motivation and job satisfaction.
- To analyze the moderating effects of organizational culture, employee demographics, and job characteristics on the relationship between leadership styles and motivation.
- To provide practical recommendations for leaders and organizations to enhance workforce motivation through effective leadership strategies.

Research Questions:

1. How does transformational leadership influence employees' intrinsic motivation and engagement levels?
2. What is the effect of transactional leadership on employee performance and extrinsic motivation?
3. In what ways do servant and participative leadership styles contribute to workforce motivation and job satisfaction?
4. How do organizational culture, demographic factors, and job characteristics moderate the relationship between leadership styles and employee motivation?
5. Which leadership practices are most effective for enhancing workforce motivation in contemporary organizational settings?

METHODOLOGY

Research design

This study will employ a mixed-methods approach to comprehensively examine how different leadership styles influence workforce motivation. Quantitative methods will be used to identify general patterns and relationships between leadership styles and employee motivation levels, while qualitative insights will provide a deeper understanding of employee perceptions, experiences, and contextual factors.

Population and sampling

The population of this study will include employees from medium to large organizations across various industries, aged 20–60, who have been working under their current supervisor for at least six months. A total sample of 250 participants will be selected using stratified random sampling to ensure representation across gender, age, job level, and department.

Data collection

- Surveys: A structured online questionnaire will be distributed to participants. It will include Likert-scale items measuring perceptions of leadership styles (transformational, transactional, and laissez-faire), as well as workforce motivation indicators such as job satisfaction, engagement, and organizational commitment.
- Interviews: In-depth semi-structured interviews will be conducted with 12 selected participants to explore their experiences with different leadership approaches and how these impact their motivation, morale, and work performance.

Data analysis

Quantitative data will be analyzed using SPSS to perform descriptive statistics, correlation, and regression analyses to determine the relationship between leadership styles and workforce motivation.

Qualitative data will be analyzed using thematic analysis to identify recurring themes and insights related to leadership behaviors, employee expectations, and motivational outcomes.

Ethical considerations

Participation in this study will be voluntary, and all responses will remain anonymous. Informed consent will be obtained prior to participation, and data will be used exclusively for academic purposes. Participants will have the right to withdraw at any stage without any consequences.

Significance of the study

This study aims to provide valuable insights into how leadership styles affect employee motivation, helping organizations develop effective leadership strategies that enhance workforce engagement, productivity, and job satisfaction. The findings may also inform training programs and organizational policies for cultivating motivational leadership practices.

Limitations

Sample size and scope: The study focuses on a sample of 250 employees from selected medium to large organizations. This may limit the generalizability of the findings to all organizations, especially small businesses or different cultural contexts.

Self-reported data: Data on leadership perceptions and motivation levels will be collected through self-reported surveys and interviews. Participants may provide socially desirable responses, which could introduce response bias.

Cross-sectional design: The study uses a cross-sectional design, capturing data at a single point in time. This limits the ability to establish causal relationships between leadership styles and workforce motivation.

Subjectivity in qualitative analysis: The thematic analysis of interview data involves subjective interpretation, which could affect the consistency of identified themes. Efforts will be made to reduce bias through coding validation and peer review.

External factors: Workforce motivation may be influenced by external factors such as organizational policies, economic conditions, or personal circumstances that are beyond the scope of this study.

CONCLUSION

Leadership plays a crucial role in shaping employee motivation and organizational success. Different leadership styles affect motivation in different work environments: transformational and servant leadership increase intrinsic motivation and employee commitment, while transactional and authoritarian styles are effective for short-term performance and compliance. Effective leaders adapt

their styles to employee needs, the nature of the job, and the organizational culture, which ensures both employee motivation and the sustainable development of the organization.

References:

1. Bass, B.M. (1990). From transactional to transformational leadership: Learning to share the vision. Organizational Dynamics, 18(3), 19–31. https://doi.org/10.1016/0090-2616(90)90061-S

2. Burns, J.M. (1978). Leadership. New York, NY: Harper & Row.

3. Greenleaf, R.K. (1977). Servant leadership: A journey into the nature of legitimate power and greatness. New York, NY: Paulist Press.

4. Hofstede, G. (1980). Culture's consequences: International differences in work-related values. Beverly Hills, CA: Sage.

5. Judge, T.A., & Piccolo, R.F. (2004). Transformational and transactional leadership: A meta-analytic test of their relative validity. Journal of Applied Psychology, 89(5), 755–768. https://doi.org/10.1037/0021-9010.89.5.755

6. Northouse, P.G. (2021). Leadership: Theory and practice (9th ed.). Thousand Oaks, CA: Sage.

7. Podsakoff, P.M., MacKenzie, S.B., Moorman, R.H., & Fetter, R. (1990). Transformational leader behaviors and their effects on followers' trust in leader, satisfaction, and organizational citizenship behaviors. Leadership Quarterly, 1(2), 107–142. https://doi.org/10.1016/1048-9843(90)90009-7

8. Somech, A. (2006). The effects of leadership style and team process on performance and innovation in functionally heterogeneous teams. Journal of Management, 32(1), 132–157. https://doi.org/10.1177/0149206305277799

R.E.Qardaşəliyev
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti

Liderlik üslublarının işçi qüvvəsinin motivasiyasına təsiri

Xülasə

Liderlik və işçilərin motivasiyası arasında birbaşa əlaqə mövcuddur. Effektiv liderlər işçilərin məhsuldarlığını və işə sadiqliyini artırmaq üçün müxtəlif motivasiya strategiyalarından istifadə edirlər. Liderlik üslubları - avtoritar, demokratik, transformativ və situasiyalı - işçilərin motivasiyasına əhəmiyyətli dərəcədə təsir göstərir. Transformativ liderlik işçiləri ruhlandırır, təşkilati məqsədlərə sadiqliyini gücləndirir və peşəkar inkişaflarını dəstəkləyir. Bunun əksinə olaraq, avtoritar liderlik qısamüddətli idarəetmədə təsirli ola bilər, lakin uzunmüddətli motivasiyanı zəiflədə bilər. Tədqiqatda vurğulanır ki, işçilərin motivasiyasını yüksək səviyyədə saxlamaq üçün liderlər işçilərin ehtiyaclarını nəzərə almalı, effektiv ünsiyyət qurmalı və məqsədyönlü şəkildə motivasiya strategiyalarını tətbiq etməlidirlər. Liderlik və motivasiya təşkilati uğura birbaşa təsir edən tamamlayıcı elementlərdir.

Açar sözlər: *liderlik, motivasiya, işçi qüvvəsi, liderlik üslubları, işçilərin performansı.*

https://doi.org/10.58225/tim.2026-2-486-492

E.M.Ağayev
dissertant, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ
ORCID 0000-0002-0087-3632
e.agayev@kulane.com

Məqalə redaksiyaya daxil olub 15.03.2026
The article was received by editorial board on 15.03.2026
Статья принята к печати 15.03.2026

SOSİAL-ƏMƏK MÜNASİBƏTLƏRİNİN ƏSAS MEXANİZMLƏRİ, ƏMƏK ŞƏRAİTİ VƏ İSTEHSAL MÜHİTİ ELEMENTLƏRİ

Xülasə

Məqalədə sosial-əmək münasibətlərinin əsas mexanizmləri və istehsal mühitinin mühüm elementləri şərh olunmuş, əmək şəraiti formalaşdıran amillər, onun əsas komponentləri və qrupları səciyyələndirilmişdir. Sosial müdafiənin növləri təsnifləşdirilmiş, mexanizmləri şərh olunmuşdur. Ümumiyyətlə, sosial-əmək münasibətləri sistemində əməyin mühafizəsinin məzmun və mahiyyətinə əsaslanaraq ona xas olan funksiyalar fərqləndirilmiş, təhlükəsizlik texnikasının vəzifələri əsaslandırılmışdır.

Açar sözlər*. əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sosial müdafiə, əmək şəraiti, sistem, proses, amil.*


Əlverişsiz əmək şəraiti işgörmə qabiliyyətinə mənfi təsir göstərir, zədələr, xəstəliklər yaradır ki, bunun da nəticəsində ciddi iqtisadi və sosial problemlər yaranır. Bu problem Azərbaycan üçün xüsusilə xarakterikdir. İqtisadiyyatda əvvəllər mövcud olmuş əməyin mühafizəsinin mərkəzləşdirilmiş sistemi artıq ləğv olunmuş, dövlət və özəl bölmənin əlaqəsinə əsaslanan yeni sistem isə hələ tam formalaşmamışdır.

"Əməyin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunuda göstərilir ki, əməyin mühafizəsi həm dövlət, həm də müəssisələr vasitəsilə maliyyələşir və bu sahədə elmi-tədqiqatların maliyyələşməsi, xüsusi proqramların reallaşması və idarəetmə orqanlarının saxlanması məqsədilə istifadə edilir. Müəssisələrdə hər maliyyə il üçün əməyin şəraitindən və təhlükəsizlik vəziyyətindən, burada zədələnmə, eləcə də xəstəliklərin səviyyəsindən asılı olaraq əmək mühafizəsinə dair tədbirlər üçün tələb edilən maliyyə xərcləri ayırır. Ayrılan vəsaitin digər məqsədlər üçün xərclənməsinə icazə verilmir. Bağlanmış kollektiv müqavilədə təhlükəsiz əmək şəraitinə dair öhdəliklər nəzərdə tutulur və müəssisədə əməyin mühafizəsinə dair tədbirlərin maliyyələşdirilməsi xərcləri müəyyən olunur. Burada il ərzindəki xərclərin məbləği işçilərin əmək haqqı xərclərinin məbləğinin iki faizindən az olmasına yol verilmir.

Hər bir müəssisəyə qazandığı gəlir hesabına əməyin mühafizəsi fondu yaratmağa icazə verilir. Bu fondlar həm respublika səviyyəsində, həm də yerli səviyyələrdə təşkil edilə bilər. İşçilər tərəfindən əmək mühafizəsinə dair tədbirlərin maliyyələşdirilməsi məqsədilə xərc çəkməsinə yol verilmir. Müəssisələr tərəfindən işçilərin sağlam və təhlükəsiz iş şəraitinin yaradılması üçün xərclənən vəsaitdən vergi tutulmur. [1]

İstehsal mühiti əmək prosesində, geniş mənada, insanı əhatə edən hər şeyi - müəssisənin texnoloji təchizatı, texnologiyaların xüsusiyyətləri, bina və qurğuların vəziyyəti, sanitar-gigiyenik və estetik vəziyyət, insanların qarşılıqlı münasibətləri, peşə təhlükəsizliyi səviyyəsini özündə əks etdirir.

İstehsal mühiti elementlərinin daha uğurlu kompanovkasını və onların əmək şəraiti ilə əlaqələrini V.D.Roik vermişdir və bu aşağıdakı 1 sxemindən də görünür. [3]



Şəkil 1. İstehsal mühiti elementləri və əmək şəraiti

Əmək şəraitini formalaşdıran amillərə nəzər salsaq görərik ki, bu əsasən aşağıdakıkardan ibarətdir:

- istehsal mühiti;
- əmək prosesi;
- əməyin təşkili.

Əmək şəraitinin səciyyələndirdikdə, burada istehsal vasitələri ilə qarşılıqlı fəaliyyəti, işçilər arasında qarşılıqlı fəaliyyəti, insanın fizioloji və psixoloji enerji sərfini, işçilərin sağlamlığına və əmək qabiliyyətinə təsiri fərqləndirə bilərik. Əmək şəraitinin birinci komponenti əmək prosesində insanın yaşayış mühitidir. Bu həm də istehsal mühiti adlanır və konkret parametrlərlə - temperatur, nəmlik, səs və titrəyiş, havada bərk və qaz halında olan maddələrlə (tozlanma və qazlaşma), gözəgörünməz olan ionlaşdıran şüalanmanın mövcudluğu ilə səciyyələnir. Bütün bunlar əmək şəraitinin maddi elementləridir. Əmək şəraitinin digər komponenti özündə insan orqanizminin həyat fəaliyyətinin psixoloji və fizioloji prosesini əks etdirir və işin intensivliyi və sürətini, işçinin fiziki, zehni və ruhi yükünü səciyyələndirir.


Əmək prosesində insanın fiziki və əqli qabiliyyətləri sərf olunur. İstehsal mühitinin vəziyyətindən və əmək prosesindən asılı olaraq işçi qüvvəsi müxtəlif dərəcələrdə sərf olunur və bu amil insanın sağlamlığına, əmək qabiliyyətinə, onun bioloji mövcudluğuna müxtəlif dərəcədə təsir göstərir. Əmək şəraitinin üçüncü komponenti sosial və iqtisadi amillərlə - istehsalın və əməyin təşkili, insanların öz aralarındakı qarşılıqlı fəaliyyət formaları, əmək və istirahət rejimləri, peşə hazırlığı, əməyin mühafizəsinin təşkili, işə qəbul və əməyin ödənişi ilə bağlıdır Əmək şəraitinin hər üç komponenti insana eyni vaxtda və əlaqəli şəkildə təsir göstərir. Əmək şəraiti dedikdə, işçinin işgörmə qabiliyyəti və sağlamlığına təsir göstərən istehsal mühiti və əmək prosesi amillərinin məcmusu başa düşülür. Əmək şəraitinin aşağıdakı əsas qruplarını fərqləndirmək olar:

- xarici mühiti (mikroiqlim, səs-küy, işıqlandırma, havanın təmizliyi) müəyyən edən sanitar-gigiyenik, həmçinin istehsalatda sanitar-məişət xidməti;
- əmək fəaliyyətinin konkret məzmununu, işçinin psixikasını, əsəb sistemini; hərəkət aparatının yüklənmə səviyyəsin şərtləndirən psixofizioloji;
- təhlükəsizlik texnikası ilə bağlı vəziyyəti şərtləndirən və zədə almaq riskini səciyyələndirən təhlükəsiz əmək şəraiti;
- emocional əhval-ruhiyyə və əməyə münasibət təsiri formaıaşdıran estetik şərait;

• sosial-psixoloji şərait (kollektivdə sosial-psixoloji mühit, münaqişə və ya birlik, rəhbərlik üslubu).

Əgər "əmək şəraiti" anlayışının sosial-iqtisadi mahiyyəti özündə insanın işgörmə qabiliyyəti və sağlamlığına təsir göstərən istehsal mühiti və əmək prosesi amillərinin məcmusunu əks etdirirsə, "əməyin mühafizəsi" hüquqi, sosial-iqtisadi, təşkilati-texniki, sanitar-gigiyenik, müalicə-profilaktik tədbirlərini özündə əks etdirən əmək fəaliyyəti prosesində işçilərin sağlamlığını və təhlükəsiz həyatını təmin edən bir sistem kimi müəyyən edilir. Əməyin mühafizəsinin mühüm elementləri işçi işə başlayarkən, iş prosesində və əmək qabiliyyətini itirdikdə onları peşə risklərindən qorumaqdır.

Peşə risklərindən sosial müdafiənin növlərinin təsnifləşdirilməsinin daha real variantını В.Д.Роик vermişdir. [3]



Sosial-əmək mexanizmləri

1. İş vaxtının müddətinin tənzimlənməsini, əmək qabiliyyətli yaş həddini, əmək və istirahət rejimnii, pensiya təminatı hüququ qazanmaq üçün əmək stajının minimum həddini, işə qəbulun yolverilən minimal həddini təmin edən sosial təminatlar. Sosial-əmək təminat sisteminin hazırlanması üçün baza yanaşmaları BƏT-in konvensiya və tövsiyələridir.

2. Peşə təhsili və informasiya təminatnı – işləyənlərin peşə hazırlığı sisteminin olması,və xüsusilə peşə riskinin yüksək səviyyədə olduğu peşələr və istehsal üçün sistemin mövcudluğuna sosial təminatlar.

3. Maddi təminatı təmin edən sosial təminatlar: Təminatlı minimum əmək haqqı, əməyin ödənilməsi üzrə tarif cədvəli, ödənişli məzuniyyətlər, əmək qabiliyyətinin itirilməsi ilə bağlı müavinətlərin və pensiyaların minimum məbləği.

4. Əmək yükünün yol verilən səviyyəsinə sosial təminatlar – fiziki yük, əməyin intensivliyi və monotonluğuişin tempi, əməyin normalaşdırılması.

Sosial müdafiənin tibbi mexanizmləri

1. İlkin və dövri tibbi müayinələrin keçirilməsi, ilkin tibbi yardımın təşkili.

2. İstehsalatda xəsarət alanların müalicəsi və əmək qabiliyyətinin itirilməsi müəyyənləşdirilməsi sistemi (o cümlədən istehsalat travmatizmi və peşə xəstəliyi səbəbindən.)

Sosial müdafiənin kompensasiya-reabilitasiya mexanizmləri

1. İstehsalatda əmək qabiliyyətinin itirilməsnəi maddi kompensasiya.

2. İstehsalatda xəsarət alanlar tibbi, sosial və peşə reabilitasiyası.

3. Peşə riskinin səviyyəsi yüksək olan istehsalatlarda sağlamlığa dəyən ziyana görə kompensasiya və güzəştlər (əlavə məzuniyyət, qısaldılmış iş günü, vaxtından əvvəl pensiya).

Əməyin mühafizəsinin təşkilati mexanizmləri

1. İş yerlərində əməyin mühafizəsinin mövcud vəziyyətinin ekspertizası.

2. İstehsalatda bədbəxt hadisələrin araşdırılmasının təşkili.

Sosial müdafiənin maddi mexanizmləri özündə istehsal mühitinin maddi elementlərinin cəmini, əmək fəaliyyəti prosesində insanmın sosial müdafiəsinin müəyyən səviyyəsini formalaşdıran əməyin mühafizəsinin, gigiyenasının sosial infrastrukturunu ifadə edir.

Sosial müdafiənin bu mexanizmlər qrupunu aşagıdakı kimi strukturlaşdırmaq olar.

Sosial müdafiənin texniki mexanizmləri:

İstehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi, əsas istehsal fondlarının vəziyyəti (onların fiziki və mənəvi aşınmanı baxımından), iş yerlərinin təşkili səviyyəsinin erqonomikanın tövsiyə etdiyi əməyin təhlükəsizliyi qaydalarına uyğun olması; işləyənlərin kollektiv və fərdi mühafizə vasitələrinin mövcudluğu və əməyin mühafizəsi qaydalarına uyğunluğu.

Sosial-məişət infrastrukturu:

Sanitar-məişət infrastrukturuna aid olan binaların sanitar normalara uyğun olması (duşxana, soyunub-geyinmə otaqları, qida qəbulu otaqları və s.) İki böyük qrup üzrə elementlərinin təsnifatı (sosial-iqtisadi və maddi) onların qarşılıqlı əlaqəsi və tərkibi haqqında təsəvvür yaradır.

"Əməyin mühafizəsi haqqında" haqqında Qanunda Əməyin mühafizəsi ilə bağlı anlayışda göstərilir ki, bu, müvafiq qanunvericilik aktları əsasında fəaliyyət göstərən sosial-iqtisadi, təşkilati, texniki, sanitariya-gigiyena və müalicə-profilaktik tədbirlərin və vasitələrin elə bir sistemidir ki, əmək fəaliyyəti prosesində insanın təhlükəsizliyini, sağlamlığının və iş qabiliyyətinin qorunmasını təmin edir. (Əməyin mühafizəsi haqqında Azərbaycan Respubl. qanunu)

Əməyin mühafizəsini təşkil edən və qarşılıqlı əlaqəli olan əsas elementləri aşağıdakılardır:

- əməyin mühafizəsinin qanunvericilik və normativ bazası;
- istehsalat sanitariyası və ətraf mühitin mühafizəsi;
- təhlükəsizlik texnikası.

Əməyin mühafizəsi sosial-iqtisadi inkişafın mühüm amilidir. İşəgötürənlərin əməyin mühafizəsinin təmin olunmasına biganə münasibətinin son nəticəsi kimi istehsalat zədələnmələri və peşə xəstəliyi halları baş verir ki, bu da maddi və mənəvi itkilərə səbəb olur.

İqtisadiyyatda, bütövlükdə əmək bazarında mənfi proseslər, ümumiyyətlə, işini itirmək qorxusu və daha yüksək qazanca işləmək həvəsi insanları təhlükəli əmək şəraitində işləməyə məcbur edir. Öz növbəsində ayrı-ayrı müəssisə rəhbərləri, maksimum mənfəət əldə etməyə çalışaraq əmək şəraitinin sağlamlaşdırılması və yaxşılaşdırılması üçün kifayət qədər vəsait ayırmır, əmək məhsuldarlığının yüksəldilməsinə onun həddən artıq intensivləşdirilməsi hesabına nail olurlar. Nəticədə işçilərin iş gününün və iş həftəsinin müddəti qanunvericiliklə müəyyən olunmuş normadan çox olur.

Bütün bunlar onun avadanlığın köhnəlmə fonunda, onun əməyin təhlükəsizliyi standartlarına uyğun olmaması, texnoloji intizamının tələblərinə əməl edilməməsi fonunda baş verir.

Bu neqativ tendensiyaların nəticəsi olaraq zədələnmə səviyyəsi kifayət qədər yüksəkdir ki, bu da əməyin mühafizəsi sahəsində səmərəli dövlət tənzimlənməsi və idarəetmənin zəif olmasının nəticəsidir. Qənaətbəxş olmayan əmək şəraitinin qanunauyğun nəticəsi peşə xəstəliklərinin artmasıdır.

Normativ bazanı lokal normativ sənədlər tamamlayır. Bu sənədlər işçilər və ayrı-ayrı iş növləri üzrə müəssisənin özündə işlənib hazırlanan əməyin mühafizəsi üzrə təlimat, eləcə də müəssisədə əməyin mühafizəsi üzrə işlərin təşkili haqqında əsasnamədir.

"Təhlükəsizlik" termininin müəyyənləşdirilməsinə müvafiq yanaşma "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit edilmişdir. Burada göstərilir ki, texniki təhlükəsizlik hər bir vətəndaşın və cəmiyyət üzvlərinin mühüm həyati maraqlarının təhlükə potensialı olan obyektlərdə yarana biləcək bədbəxt hadisələrdən müdafiə olunması vəziyyətini bildirir. Təhlükəsizlik texnikası – avtomatik nəzarət və tənzimləyici cihazlar, qoruyucu qurğular, müşahidə, xəbərvermə, rabitə vasitələri və təhlükəsizliyi təmin edən digər texniki tədbirlər kompleksidir. [2]

Ümumiyyətlə, təhlükəsizlik texnikası - fəaliyyət göstərən təhlükəli istehsalat amillərinin təsirini aradan qaldıran texniki vasitələrin və üsulların təşkilati tədbirlər sistemidir. Əməyin mühafizəsi məzmun və mahiyyətinə əsaslanaraq ona xas olan bir sıra funksiyaları fərqləndirmək olar.

Qoruyucu funksiya işçilərin həyat və sağlamlığının təhlükəli istehsalat amillərinin zərərli təsirindən qorunmasını, eləcə də ətraf mühitin istehsal fəaliyyətinin nəticələrinin mənfi təsirindən qorunmasını nəzərdə tutur,

Analitik funksiya istehsal mühitinin zərərli xüsusiyyətlərinin, peşə riskləri və onların işçilərə təsirinin mümkün nəticələrinin təhlilindən ibarətdir.

Standartlaşdırma funksiyası istehsal mühiti amillərinin normativ qiymətlərinin müəyyən edilməsini, işçilərin təhlükəsizliyini təmin edən işlərin aparılması qaydaların nəzərdə tutur.

Nəzarət funksiyası əməyin mühafizəsinin norma və qaydalarına əməl olunmasından, müxtəlif səviyyəli daimi nəzarət sisteminin yaradılması və fəaliyyət göstərməsindən, onlara əməl olunmasına daimi həvəsləndirmə və sanksiyalar sistemini tətbiq etməkdən, iqtisadi, inzibati və cinayət məsuliyyəti tədbirlərini müəyyən etməkdən ibarətdir.

Profilaktik funksiya istehsalatda bədbəxt hadisələr və xəstəliklərin profilaktikası üzrə aşağıdakı tədbirləri nəzərdə tutur: Müalicə-profilaktik (tibbi müayinələr, tibbi göstəricilər üzrə peşə seçimi), təşkilati (təlimat və işçilərin təhsili), texniki (texniki müdafiə vasitələrindən istifadə, texnikanın, texnologiyaların, binalarının, qurğularının layihələşdirilməsi zamanı əməyin mühafizəsinə olan tələblərinin uçotu).

Kompensasiya və reabilitasiya funksiyası insan sağlamlığına, onun əmək qabiliyyətinə dəyən zərərin maddi kompensasiyasından, müalicə və qulluğa, yenidən peşə hazırlığına vəsaitin verilməsindən, imkan daxilində zərər çəkən insanın əmək fəaliyyətinə qaytarılmasını, yaxud əmək fəaliyyətinin tam itirildiyi halda münasib həyat səviyyəsinin təmin edilməsi üçün tədbirlər sisteminin yaradılmasından ibarətdir.

İnformasiya funksiyası işçilərə və işəgötürənlərə əmək şəraiti və əməyin mühafizəsi, mövcud peşə riskləri, zərərli və ya təhlükəli istehsalat amillərinin təsirindən müdafiə, əməyin mühafizəsinə aid hüquq və vəzifələrin qorunması məsələlərinə dair düzgün informasiya və məsləhətlərin verilməsindən ibarətdir.

Təhsil funksiyası təşkilatlarının rəhbərləri, sıravi işçilər, mütəxəssislər arasında əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə biliklərinin yayılması, eləcə də əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanmasını nəzərdə tutur.

Tədqiqat-tətbiq funksiyası əməyin mühafizəsi üzrə işləmələri, planlaşdırma və tədbirlərin tətbiqini,,işçilərin müdafiəsi üzrə tədbirlərin və vasitələri, onların səmərəliliyinin qiymətləndirilməsini təmin etməkdir.

Əməyin mühafizəsinin iqtisadi funksiyası travmatizmin və xəstələnmələrin səviyyəsinin artması, kompensasiya və cərimələrin ödənilməsi, əmək qabiliyyətinin, əmək məhsuldarlığının, işin keyfiyyətinin aşağı düşməsi ilə şərtlənən əlavə xərclərin və itkilərin xəbərdar edilməsindən ibarətdir.

İstehsalatda əməyin mühafizəsinin təmin edilməsi işlərinin gedişində onun əsasını təşkil edən bir sıra prinsipləri rəhbər tutmaq lazımdır. Onlardan başlıcası istehsalat fəaliyyətinin nəticələrinə münasibətdə işçilərin həyat və sağlamlığının üstünlüyünü qəbul etmək və bu prioriteti təmin etməkdən ibarətdir. Bu amillərin inkişafında aşağıdakı bir sıra prinsiplərin də fərqləndirilməsi zəruridir. [4, 5]

1. Əməyin təhlükəsizliyi istehsalın bütün məsələləri üzrə - layihələndirilməsi, tikintisi, istismarından son məhsulun buraxılmasına qədər bütün səviyyələrdə və mərhələlərdə qərarların qəbul edilməsi zamanı nəzərə alınmalıdır.

2. Əməyin təhlükəsizliyinin təmin olunması və iş şəraitinin yaxşılaşdırılması müəssisə rəhbərliyinin birinci dərəcəli vəzifəsidir. Yuxarı və orta səviyyəli rəhbərliyin hər bir nümayəndəsi əməyin təhlükəsizliyinə görə məsuliyyət daşımalıdır. Bu sferada hər bir rəhbərin funksional vəzifələri vəzifə təlimatlarında dəqiq əks olunmalıdır. Əməyin mühafizəsi məsələlərində rəhbərin səriştəliliyi onun peşəkarlıq səriştəliliyinə bərabər tutularaq qiymətləndirilməlidir.

3. Əməyin mühafizəsi xidməti bilavasitə rəhbərinə tabe olan əsas xidmətlərindən biri olmalıdır. Onun funksiyaları dəqiq müəyyən olunmalı və digər xidmət funksiyalarından ayrılmalıdır.

4. Müəssisənin müdiriyyəti əməyin mühafizəsi siyasətinin hazırlanmasında, profilaktik tədbirlərin planlaşdırılması və keçirilməsində işçilərlə və onların səlahiyyətli nümayəndələri ilə əməkdaşlığın inkişafına hər vasitə ilə kömək etməlidir.

5. Əməyin mühafizəsi proqramının işlənib hazırlanması yalnız baş vermiş bədbəxt hadisənin təhlilinə deyil, həm də risklərin ilkin təhlilinə və əmək şəraitinə görə iş yerlərinin attestasiyasına əsaslanmalıdır. Əməyin mühafizəsi sahəsində görülən bütün tədbirlər əlaqələndirilməli və əmək fəaliyyətinin rasionallaşması üzrə ümumi tədbirlərin sistemin bir hissəsi olmalıdır.

6. Əməyin mühafizəsi işinin təşkili və onun səmərəliliyi ilk növbədə, bütün iştirakçıların səriştəliliyindən, bütün işçilərin, mütəxəssislərin, rəhbərlərin əməyin təhlükəsizliyi ilə bağlı təlimatlandırılmasından asılı olduğuna görə peşə hazırlığı və ixtisasartırmanın ayrılmaz hissəsi olmalıdır.

7. Əməyin mühafizəsi üzrə tədbirlərin əsas məqsədi işçilərin sağlamlığının və həyatının qorunması olduğuna görə onların həyata keçirilməsinin iqtisadi səmərəliliyi bilavasitə sosial səmərəliliklə bağlıdır. Bu əməyin mühafizəsi üzrə fəaliyyət istiqamətlərində prioritetlərin seçilməsi meyarı kimi deyil, qarşıya qoyulan sosial məqsədlərin (əlverişsiz şəraitdə çalışanların sayının, xəstəlik və travmatizmin azaldılması) daha qənaətcil variantlarının seçilməsi meyarı kimi çıxış edir.

NƏTİCƏ

Beləliklə, sosial-əmək münasibətlərinin strukturunda əməyin mühafizəsinin yerinin təhlili belə nəticə etməyə imkan verir ki, əlverişli mühitin formalaşması, işçilərin sağlamlığa və təhlükəsiz əmək şəraitinə olan hüququnun qorunması sosial-əmək münasibətlərinin başlıca problemlərindəndir

"Əmək şəraiti" və "əməyin mühafizəsi" işçi qüvvəsinin bərpası, əmək fəaliyyəti prosesində insanın təhlükəsizliyinin əsas amili kimi çıxış edir. Əgər "əmək şəraiti" anlayışının sosial-iqtisadi təbiəti əmək prosesi və istehsal mühiti amillərinin məcmusunu özündə əks etdirirsə, "əməyin mühafizəsi" - işçilərin əmək fəaliyyəti prosesində həyat və sağlamlığının təhlükəsizliyinin təmin olunması sistemi kimi müəyyən edilir. Əmək fəaliyyəti prosesinə hüquqi, sosial-iqtisadi, təşkilati-texniki, sanitar-gigiyenik, лmüalicə-profilaktir, reabilitasiya tədbirləri daxildir.

İstifadə edilmiş ədəbiyyat:

1. Əməyin mühafizəsi haqqında Azərbaycan Respublikasinin Qanunu. 29 sentyabr 1992-ci il.

2. Texniki Təhlükəsizlik haqqinda Azərbaycan Respublikasının Qanunu, 2 noyabr 1999-cu il

3. Роик В.Д. (2004). Управление условиями и охраной труда: Учебное пособие. - М.: Изд-во РАГС, - с. 14-15

4. Экономика труда: Учебник /Под ред. проф. П.Э.Шлендера и проф. Ю.П.Кокина. (2002). - М.: Юрист, -С. 184-186

5. Организация охраны труда: Практические рекомендации / Сост. В.В. Хлопков, А.А.Мыслев. (2007). – Черноголовка.

E.M.Agayev
PhD candidate, Azerbaijan State Oil and Industry University PLE
ORCID 0000-0002-0087-3632

Maın mechanisms of social-labor relations, labor conditions and elements of the production environment

Abstract

The article describes the main mechanisms of social-labor relations and important elements of the production environment, characterizes the factors that form working conditions, its main components and groups. Types of social protection are classified, their mechanisms are explained. In general, based on the content and essence of labor protection in the system of social-labor relations, the functions inherent to it are distinguished, and the tasks of safety equipment are justified.

Keywords: *labor protection, safety equipment, social protection, working conditions, system, process, factor.*

https://doi.org/10.58225/tim.2026-2-493-497

S.İ.Hümbətova
i.f.d, dosent, Azərbaycan Dövlət İqtisad Universiteti
Sugra_humbatova@unec.edu.az
F.E.Səfərli
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
firidunseferli03@gmail.com

Məqalə redaksiyaya daxil olub 19.03.2026
The article was received by editorial board on 19.03.2026
Статья принята к печати 19.03.2026

MÜƏSSİSƏNİN RESURS POTENSİALININ ARTIRILMASINDA İNSAN KAPITALININ ROLU

Xülasə

Müasir iqtisadi şəraitdə müəssisələrin rəqabət qabiliyyətinin və dayanıqlı inkişafının təmin olunmasında insan kapitalı əsas strateji resurs kimi çıxış edir. Bu məqalədə müəssisənin resurs potensialının artırılmasında insan kapitalının rolu kompleks şəkildə təhlil edilir, işçi qüvvəsinin bilik, bacarıq və kompetensiyalarının əmək məhsuldarlığına, innovasiya fəaliyyətinə və ümumi iqtisadi nəticələrə təsiri araşdırılır. Eyni zamanda insan kapitalına yönəldilən investisiyaların – təhsil, peşə hazırlığı, təlim proqramları və motivasiya mexanizmlərinin – müəssisənin fəaliyyət effektivliyinə təsiri qiymətləndirilir. Araşdırma 2014-2024-cü illəri əhatə edir. Tədqiqat nəticələri göstərir ki, insan kapitalının keyfiyyətinin yüksəldilməsi müəssisələrin resurslardan istifadə səmərəliliyini artırır, innovasiya imkanlarını genişləndirir və uzunmüddətli rəqabət üstünlüyü yaradır. Statistik və müqayisəli təhlil göstərir ki, insan kapitalına investisiyanın artması əmək məhsuldarlığının və mənfəətliliyin yüksəlməsi ilə müşayiət olunur. Araşdırma əsasında müəyyən edilmişdir ki, müəssisələrdə insan resurslarının effektiv idarə olunması və davamlı inkişafına yönəlmiş strategiyaların tətbiqi resurs potensialının artırılmasının əsas şərtlərindən biridir.

Açar sözlər: *insan kapitalı, resurs potensialı, əmək məhsuldarlığı, insan resurslarının idarə olunması, rəqabət qabiliyyəti.*

GİRİŞ

Müasir dövrdə qlobal iqtisadi mühitin sürətli dəyişməsi, rəqəmsallaşma və rəqabətin kəskinləşməsi müəssisələrin fəaliyyətinə yeni tələblər irəli sürür. Bu şəraitdə müəssisələrin dayanıqlı inkişafı və bazarda mövqelərinin möhkəmləndirilməsi onların malik olduğu resurs potensialından nə dərəcədə səmərəli istifadə etməsindən birbaşa asılıdır. Ənənəvi yanaşmalarda resurs potensialı əsasən maddi, maliyyə və texnoloji resurslarla əlaqələndirilsə də, müasir iqtisadi yanaşmalar insan kapitalını bu sistemin əsas və həlledici elementi kimi ön plana çıxarır.İnsan kapitalı işçilərin bilik, bacarıq, təcrübə, yaradıcılıq qabiliyyəti və peşə kompetensiyalarının məcmusu kimi müəssisənin fəaliyyətinin effektivliyinə birbaşa təsir göstərir. Məhz insan kapitalı digər resursların düzgün istiqamətləndirilməsini və səmərəli istifadəsini təmin edir. Bu baxımdan müəssisədə yüksək ixtisaslı və motivasiyalı işçi qüvvəsinin formalaşdırılması resurs potensialının artırılmasının əsas şərtlərindən biri hesab olunur.

Son illərdə dünya təcrübəsi göstərir ki, insan kapitalına investisiyalar – təhsil, peşə hazırlığı, davamlı təlim və inkişaf proqramları – müəssisələrin məhsuldarlığını və innovasiya qabiliyyətini əhə-

miyyətli dərəcədə artırır. Bu isə öz növbəsində onların rəqabət üstünlüyünü möhkəmləndirir və uzunmüddətli inkişafını təmin edir.Azərbaycan iqtisadiyyatında da qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatlar fonunda müəssisələrin resurs potensialının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə insan kapitalının inkişafı və onun effektiv idarə olunması aktual məsələlərdən biri kimi çıxış edir.Beləliklə, təqdim olunan məqalənin məqsədi müəssisənin resurs potensialının artırılmasında insan kapitalının rolunu araşdırmaq, bu sahədə mövcud nəzəri və praktiki yanaşmaları təhlil etmək və müvafiq nəticə və tövsiyələr irəli sürməkdir.

ƏDƏBİYYAT İCMALI

İnsan kapitalı və müəssisənin resurs potensialı mövzusu üzrə aparılmış tədqiqatlar göstərir ki, əmək resurslarının keyfiyyəti ilə iqtisadi və təşkilati səmərəlilik arasında sıx və çoxşaxəli əlaqə mövcuddur. Gary Becker (1964) və T.W. Schultz (1961) kimi iqtisadçılar qeyd edirlər ki, insan kapitalına yönəldilən investisiyalar – təhsil, peşə hazırlığı və bacarıqların inkişafı – əmək məhsuldarlığını artıraraq ümumi iqtisadi nəticələrə müsbət təsir göstərir. Bu yanaşmaya görə, insan kapitalının inkişafı müəssisədə istehsalın səmərəliliyini yüksəldir, innovasiya fəaliyyətini stimullaşdırır və resurs potensialının genişlənməsinə şərait yaradır.

Lakin sonrakı tədqiqatlar göstərir ki, insan kapitalının inkişafı yalnız investisiyaların həcmi ilə deyil, həm də onların effektiv idarə olunması ilə bağlıdır. Mark Huselid (1995) qeyd edir ki, insan resurslarının idarə olunmasının düzgün təşkil edilməməsi mövcud potensialdan tam istifadə olunmamasına gətirib çıxara bilər. Bu isə müəssisələrdə məhsuldarlığın aşağı səviyyədə qalmasına və resurslardan qeyri-səmərəli istifadəyə səbəb olur. Digər tərəfdən, Paul Romer (1990) və Robert Lucas (1988) tərəfindən irəli sürülən yanaşmalar göstərir ki, insan kapitalı innovasiya və texnoloji inkişafın əsas mənbəyidir və onun inkişafı olmadan davamlı iqtisadi artım mümkün deyil.

Müasir dövrdə bu proses qlobal trendlərlə dəstəklənir. Belə ki, Dünya Bankı (2020) və OECD (2019) hesabatlarında qeyd olunduğu kimi, rəqəmsallaşan iqtisadiyyatda yeni bacarıqların mənimsənilməsi ölkələrin və müəssisələrin rəqabət qabiliyyətini müəyyən edən əsas amildir. Yerli kontekstdə Azərbaycan Dövlət Statistika Komitəsinin (2023) göstəriciləri də insan kapitalı indikatorlarının ölkə iqtisadiyyatındakı rolunu statistik baxımdan təsdiq edir. Bununla yanaşı, maliyyə sabitliyi də bu inkişafa təsir edir; S. Aliyev (2019) faiz dərəcələrinin yüksək olmasının investisiya mühitinə təsirlərini, V. Bayramov (2015) isə bank sektorundakı mövcud vəziyyətin biznesin resurs potensialına dolayısı ilə necə təsir göstərdiyini vurğulamışdır.

MÜZAKİRƏ

Müasir iqtisadi siyasət üçün əsas suallardan biri müəssisələrdə insan kapitalının inkişafını təmin etmək və onun resurs potensialına təsirini maksimumlaşdırmaq üçün hansı alətlərin daha effektiv olmasıdır. İşçilərin davamlı təlimə cəlb olunması, motivasiya sistemlərinin tətbiqi və performansın qiymətləndirilməsi insan kapitalının keyfiyyətini artıran əsas vasitələrdir. Beynəlxalq təcrübədə Almaniya, Yaponiya və Cənubi Koreya kimi ölkələrdə müəssisələr insan kapitalına sistemli şəkildə investisiya edərək yüksək məhsuldarlıq və innovasiya səviyyəsinə nail olmuşlar. Bu ölkələrdə peşə təhsili sistemləri, korporativ təlim proqramları və işçi inkişafı strategiyaları geniş tətbiq olunur.

Azərbaycanda da son illərdə insan kapitalının inkişafına xüsusi diqqət yetirilir. Dövlət səviyyəsində təhsil və peşə hazırlığı sahəsində həyata keçirilən islahatlar, eləcə də müəssisələrdə insan resurslarının idarə olunması sahəsində tətbiq edilən yeni yanaşmalar bu istiqamətdə mühüm addımlar hesab olunur. Xüsusilə son illərdə əmək bazarının tələblərinə uyğun ixtisasların hazırlanması, işçilərin peşə bacarıqlarının artırılması və korporativ təlim proqramlarının genişləndirilməsi insan kapitalının keyfiyyətinin yüksəlməsinə xidmət edir. Beləliklə, mövcud ədəbiyyat göstərir ki, insan kapitalının inkişafı müəssisənin resurs potensialının artırılmasında əsas amillərdən biridir. Effektiv idarəetmə və məqsədyönlü investisiyalar vasitəsilə insan kapitalının güc-

ləndirilməsi müəssisələrin məhsuldarlığını, innovasiya qabiliyyətini və uzunmüddətli rəqabət üstünlüyünü təmin edir.

2014–2024-cü illərdə müəssisələrdə əməkdaşların bilik, bacarıq və təcrübə səviyyəsinin dəyişimi Cədvəl 1-də təqdim edilmişdir. Bu dövrdə insan kapitalının inkişafı əvvəlcə sürətlə artmış, bəzi illərdə isə inkişaf tempində yavaşlama müşahidə olunmuşdur.

Cədvəl 1

Azərbaycanda müəssisələrdə insan kapitalının inkişaf göstəriciləri (2014–2024)

İl	Təlim və inkişaf proqramlarında iştirak edən əməkdaşların payı (%)	İşçilərin orta təcrübə səviyyəsi (il)
2014	25.0	5.2
2015	32.5	5.5
2016	28.0	5.7
2017	30.1	5.9
2018	35.0	6.1
2019	38.2	6.3
2020	40.0	6.5
2021	37.5	6.7
2022	42.0	7.0
2023	45.5	7.2
2024	48	7.5

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsi (2024).*

Cədvəl 1-dən görünür ki, 2014–2015-ci illərdə müəssisələrdə insan kapitalının inkişafı sürətlənmiş, əməkdaşların təlim proqramlarında iştirakı 25%-dən 32.5%-ə yüksəlmişdir. Bu dövrdə işçilərin orta təcrübə səviyyəsi də artmış, müəssisələrin bilik və bacarıq potensialı güclənmişdir. 2016–2017-ci illərdə isə bəzi müəssisələrdə inkişaf tempində yavaşlama müşahidə olunub, bu da resurs potensialının tam şəkildə aktivləşməsinə mane olmuşdur.

Ümumilikdə, 2014–2023-cü illər üzrə nəzərə çarpır ki, insan kapitalının inkişafının ən yüksək olduğu illər müəssisələrin ümumi məhsuldarlığında artım və strateji resursların səmərəli istifadəsi ilə müşayiət olunub. Lakin insan kapitalına təsir edən digər amilləri (məsələn, əmək bazarının keyfiyyəti, texnoloji infrastruktur, maliyyə resursları) də nəzərə almaq vacibdir.

Müəssisələrin insan kapitalı göstəricilərini beynəlxalq müstəvidə müqayisə etdikdə məlum olur ki, Azərbaycanda əməkdaşların təlim və inkişaf imkanlarının səviyyəsi bəzi inkişaf etmiş ölkələrdən xeyli aşağıdır. Cədvəl 2 bəzi seçilmiş ölkələr üzrə 2023-cü il üçün təlim və inkişaf proqramlarında iştirak edən əməkdaşların payını göstərir.

Cədvəl 2

Seçilmiş ölkələrdə müəssisələrdə təlim və inkişaf proqramlarında iştirak edən əməkdaşların payı (2024)

Ölkə	Təlim proqramlarında iştirak edən əməkdaşların payı (%)
Azərbaycan	45.5
Türkiyə	60.2
Rusiya	52.1
Almaniya	78.0
Dünya üzrə orta	~65.0

Mənbə: *Dünya Bankı, 2024.*

Cədvəl 2-dən göründüyü kimi, Azərbaycanda müəssisələrdə təlim və inkişaf proqramlarına qatılan əməkdaşların payı 45–46% civarındadır ki, bu, həm qlobal orta göstəricidən (~65%), həm də bəzi qonşu ölkələrdən (Türkiyə ~60%) aşağıdır. Bu, göstərir ki, müəssisələrin insan kapitalı hələ tam potensialını aktiv şəkildə reallaşdıra bilmir və inkişaf üçün əlavə resurs imkanları mövcuddur.

İnsan kapitalının artırılması müəssisələrin rəqabət qabiliyyətini və ümumi resurs potensialını gücləndirir. Bu məqsədlə prioritet, əməkdaşların bilik və bacarıqlarının təkmilləşdirilməsi, işçi təcrübəsinin artırılması və davamlı təlim proqramlarının həyata keçirilməsidir.

Araşdırmanın mühüm hissəsi müəssisələrdə insan kapitalı indikatorlarının resurs potensialına təsirini qiymətləndirmək idi. Cədvəl 3-də Azərbaycanda müəssisələrdə işçilərin orta təcrübə səviyyəsinin 2014–2023-cü illər üzrə dinamikası təqdim olunur.

Cədvəl 3

Azərbaycanda müəssisələrdə işçilərin orta təcrübə səviyyəsi (2014-2024-cü illər)

İl	Orta təcrübə səviyyəsi (il)
2014	5.2
2015	5.5
2016	5.7
2020	6.5
2023	7.2
2024	7.5

Mənbə: *Azərbaycan Dövlət Statistika Komitəsi (2024).*

Cədvəl 3-dən göründüyü kimi, işçilərin orta təcrübə səviyyəsi 2014-cü ildən 2023-cü ilə qədər davamlı artmışdır. Bu, müəssisələrdə bilik və təcrübə resurslarının gücləndiyini və insan kapitalının resurs potensialına müsbət təsir etdiyini göstərir.Tədqiqat göstərir ki, bundan sonrakı dövrdə müəssisələr insan kapitalının inkişafını daha strateji istiqamətlərdə yönəltməlidir. Təlim və inkişaf proqramları yalnız sayca artırılmaqla kifayətlənməməli, həm də keyfiyyət və spesifik bacarıqların gücləndirilməsinə yönəldilməlidir. Məsələn, innovasiya və texnoloji adaptasiya sahələrində təlimlər artırılarsa, əməkdaşlar həm bilik, həm də məhsuldarlıq baxımından daha effektiv olacaqlar. Həmçinin idarəetmə və liderlik bacarıqlarının inkişafı, müəssisələrdə strateji qərarların səmərəliliyini artırmaqla resurs potensialını optimallaşdırır. Bu cür tədbirlər müəssisələrin uzunmüddətli dayanıqlı inkişafını təmin edir (ILO, 2022).

NƏTİCƏ

Apardığımız tədqiqatın nəticələrinə əsasən, müəssisələrin resurs potensialının artırılmasında insan kapitalının rolu həlledici əhəmiyyətə malikdir. Azərbaycanda işçilərin bilik, bacarıq və təcrübəsinin sistemli şəkildə inkişaf etdirilməsi müəssisələrin məhsuldarlığını və rəqabət qabiliyyətini artırır. Təcrübə göstərir ki, yalnız işçi sayının çox olması deyil, həm də onların bacarıqlarının strateji istiqamətlərdə təkmilləşdirilməsi resurs potensialının tam realizasiyasına gətirib çıxarır. 2014–2023-cü illər üzrə analiz göstərir ki, insan kapitalının inkişafının sürətləndirildiyi illərdə müəssisələrin ümumi resurs potensialı və məhsuldarlığı artmışdır. Təlim və inkişaf proqramlarında iştirak edən əməkdaşların payı 25%-dən 45%-ə yüksəlmiş, işçilərin orta təcrübə səviyyəsi isə 5.2 ildən 7.2 ilə çatmışdır. Bu isə işçi potensialının davamlı artırılmasının müəssisələrin dayanıqlı inkişafına birbaşa təsir etdiyini göstərir. Eyni zamanda, tədqiqat göstərir ki, insan kapitalının yalnız sayca artırılması kifayət deyil; proqramların keyfiyyəti, bacarıqların spesifikliyi və strateji sahələrə yönəlməsi daha əhəmiyyətlidir. Məsələn, texnologiya, innovasiya və idarəetmə bacarıqlarına fokuslanmış təlimlər işçilərin həm məhsuldarlığını, həm də strateji qərarların səmərəliliyini artırır. Azərbaycanda müəssisələrin resurs potensialını artırmaq və dayanıqlı inkişafı təmin etmək üçün insan kapitalına investisiya etmək əsas prioritetdir. Bu, yalnız əməkdaşların bilik

və bacarıqlarının artırılması ilə deyil, həm də onların motivasiyası, təcrübəsi və təlim imkanlarının uzunmüddətli planlaşdırılması ilə mümkün ola bilər. İnsan kapitalına yönəlmiş strategiyalar müəssisələrin rəqabət qabiliyyətini gücləndirir, resurslardan səmərəli istifadəni təmin edir və uzunmüddətli dayanıqlı inkişafı dəstəkləyir.

İstifadə edilmiş ədəbiyyat:

1. Becker, G.S. (1964). Human Capital. University of Chicago Press. (Azərbaycanca: "İnsan Kapitalı")

2. Schultz, T.W. (1961). Investment in Human Capital. American Economic Review. (Azərbaycanca: "İnsan Kapitalına İnvestisiya")

3. Romer, P.M. (1990). Endogenous Technological Change. Journal of Political Economy. (Azərbaycanca: "Endogen Texnoloji Dəyişiklik")

4. Lucas, R.E. (1988). Economic Development. Journal of Monetary Economics. (Azərbaycanca: "İqtisadi İnkişaf")

5. Huselid, M.A. (1995). HRM Practices and Performance. Academy of Management Journal. (Azərbaycanca: "HRM Təcrübələri və Performans")

6. World Bank (2020). Human Capital Project. Washington, D.C.: World Bank. (Azərbaycanca: "İnsan Kapitalı Layihəsi")

7. Azərbaycan Dövlət Statistika Komitəsi (2023). Human Capital Indicators. Bakı: Dövlət Statistika Komitəsi. (Azərbaycanca: "İnsan Kapitalı Göstəriciləri")

8. Aliyev, S. (2019). Why Are Interest Rates High? Baku Research Institute. (Azərbaycanca: "Faizlər niyə yüksəkdir?")

9. Bayramov, V. (2015). Bank sektorunda nələr baş verir? İqtisadi və Sosial İnkişaf Mərkəzi (İSİM/CESD) təhlili.

S.I.Humbatova
Doctor of Philosophy in Economics, Associate Professor
Azerbaijan State University of Economics
F.E.Safarli
master student, Azerbaijan State University of Economics

The role of human capital in enhancing an enterprise's resource potential

Abstract

In modern economic conditions, human capital serves as a key strategic resource in ensuring the competitiveness and sustainable development of enterprises. This article provides a comprehensive analysis of the role of human capital in enhancing the resource potential of enterprises, examining the impact of employees' knowledge, skills, and competencies on labor productivity, innovation activity, and overall economic performance. At the same time, the study evaluates the effects of investments in human capital—such as education, vocational training, development programs, and motivation mechanisms—on the efficiency of enterprise operations.
The research covers the period from 2014 to 2024. The findings indicate that improving the quality of human capital increases the efficiency of resource utilization, expands innovation opportunities, and creates long-term competitive advantages for enterprises. Statistical and comparative analyses show that increased investment in human capital is accompanied by higher labor productivity and profitability. Based on the research, it has been determined that the effective management of human resources and the implementation of strategies aimed at their sustainable development are among the key conditions for enhancing the resource potential of enterprises.

Keywords: *human capital, resource potential, labor productivity, human resource management, competitiveness.*

https://doi.org/10.58225/tim.2026-2-498-504

E.Y.Məmmədov
i.e.d., professor, Odlar Yurdu Universiteti
ORCID 0000-0001-7105-395X
elshad.mammadov@oyu.edu.az
A.C.Əzimzadə
doktorant, Bakı Avrasiya Universiteti
baş müəllim, Odlar Yurdu Universiteti
ORCID 0000-0003-1441-440X
aslan.azimzadeh@oyu.edu.az
A.Ş.Müşfiqli
doktorant, Eskişehir Osmanqazi Universiteti
afarimmusfiqli@gmail.com
A.A.Allahverdiyeva
magistrant, Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
azerin.allh@gmail.com

Məqalə redaksiyaya daxil olub 20.02.2026
The article was received by editorial board on 20.02.2026
Статья принята к печати 20.02.2026

MAKROİQTİSADİ PROPORSİYALAR KONTEKSTİNDƏ İNFLYASİYA MƏZMUNUNUN DİAQNOSTİKASI: AZƏRBAYCAN VƏ TÜRKİYƏ ÜZRƏ MÜQAYİSƏLİ TƏHLİL

Xülasə

Makroiqtisadi proporsiyaların tədqiq edilməsi uzunmüddətli perspektivdə inkişaf proqramlarının preventivliliyini səciyyələndirən başlıca istiqamətlərdən biri kimi çıxış edə bilər. Məqalədə qeyd edilmiş tədqiqat sualları çərçivəsində Azərbaycan və Türkiyədəki inflyasiya məzmunun diaqnostikası məqsədilə klassik makroiqtisadi proporsional yanaşmaya əsaslanan monetizasiya indeksi ilə inflyasiya göstəriciləri arasında əlaqə müqayisəli təhlil edilmişdir. Tədqiqat işində induksiya, deduksiya, statistik və müqayisəli təhlil, korrelyasiya analizi kimi metodlardan istifadə edilmişdir. Tədqiqatın nəticəsində Azərbaycan və Türkiyədəki inflyasiyasının məzmunun monetar faktora bağlı olmaması aşkar edilmişdir. Tədqiqat işi uzunmüddətli perspektivdə bu istiqamətdə olan digər tədqiqatlar, eyni zamanda, milli iqtisadiyyatın tənzimlənməsi çərçivəsində qəbul edilən strateji planlar üçün önəmli nəzəri əsas rolunu oynaya bilər.

***Açar sözlər**: makroiqtisadi proporsiya, inflyasiya, monetizasiya indeksi, Azərbaycan, Türkiyə.*

GİRİŞ

Makroiqtisadi proporsiyaların tədqiq edilməsi yalnız cari situasiyanın analizi üçün deyil, eyni zamanda, gələcək dinamika və tendensiyanın proqnozlaşdırılması üçün də önəmli alət kimi çıxış edə bilər. Proporsiyaların balanslı saxlanılması milli təsərrüfatın genişlənmiş inkişafını səciyyələndirməkdədir [3].

Qeyd etmək lazımdır ki, klassik makroiqtisadi proporsiyalar XX əsrdən etibarən bir sıra tədqiqatçılar üçün indikativ təhlil aparatı rolunu oynamaqdadır [7], [8], [13]. Bu səbəbdən də tədqiqatda klassik makroiqtisadi proporsional indikatorlardan biri olan monetizasiya indeksi ilə inflyasiya arasındakı əlaqə deskriptiv olaraq şərh ediləcəkdir. Bu təhlilin önəmi inflyasiyanın monetar yoxsa idxal yönümlü olmasının təyin edilməsidir. M.Fridman kimi bəzi tədqiqatçılar inflyasiyanın yaranma mənşəyini yalnız pul fenomeni ilə izah edirlər [5]. Lakin, heç də hər zaman inflyasiyanın yaranma səbəbi monetar olmaqdadır [1], [10]. Zənnimizcə, inflyasiya M.Fridmanın qeyd etdiyi kimi, yalnız pul ilə bağlı deyildir və burada dəyişkən amillər nəzərə alınmalıdır. Məhz bu iki fərqli situasiyanı görmək üçün müxtəlif ölkələrin müqayisəli təhlilinin aparılması zəruridir.

Klassik makroiqtisadi proporsiya olan monetizasiya indeksi bir sıra tədqiqatlarda istifadə edilmişdir. Belə ki, P.E.Jukov öz tədqiqatında monetizasiya indeksini digər makroiqtisadi indikatorlar ilə müqayisə etmək məqsədilə istifadə etmişdir [15]. N.A.Yekimova öz tədqiqatında Rusiyada İstehlakçı Qiymətlər İndeksi ilə Monetizasiya indeksi arasında korrelyasiyanı aylıq laq intervalları ilə tədqiq etmiş və bu göstəricilər arasında zəif korrelyasiya əlaqəsinin olduğunu müşahidə etmişdir [18]. Rusiya üçün oxşar tədqiqat daha böyük müşahidə ölçüsü ilə A.İ.Bolvaçev və V.M.Savradım tərəfindən də aparılmışdır. Bu tədqiqatın nəticəsində isə inflyasiya göstəricisi ilə monetizasiya indeksi arasında mənfi, güclü korrelyasiya müşahidə edilmişdir [17]. Əslində bu tədqiqat müşahidə ölçüsünün artmasının statistik nəticənin necə dəyişə biləcəyi haqqında məlumat verməkdədir. Bu tədqiqatın başlıca məhdudiyyəti kimi məhz müşahidə ölçüsünün bir qədər kiçik olması ola bilər. Belə ki, Azərbaycan iqtisadiyyatının şokoterapiya sonrası bərpa dönəmi 2000-ci illərə təsadüf etdiyi üçün və müqayisəli təhlil kontekstində eyni müşahidə ölçüsündən istifadə olunmasının zəruriliyi səbəbindən müşahidə ölçüsü həm Azərbaycan həm də Türkiyə üçün 2000-2023-cü illəri əhatə etməkdədir.

ÜDM deflyatoruna əsaslanan inflyasiya ilə monetizasiya indeksi arasında korrelyasiya əlaqəsini şərh edən tədqiqatların müşahidə edilməməsi sözügedən sahə üzrə ədəbiyyat boşluğunun olmasını da səciyyələndirməkdədir.

Sözügedən problem ilə bağlı aşağıdakı tədqiqat sualları formalaşdırılmışdır

Tədqiqat sualı 1: Azərbaycanda monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında əhəmiyyətli əlaqə vardırmı?

Tədqiqat sualı 2: Türkiyədə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında əhəmiyyətli əlaqə vardırmı?

Tədqiqat sualı 3: Azərbaycanda monetizasiya indeksi ilə İstehlak Qiymətləri İndeksinə əsaslanan inflyasiya arasında əhəmiyyətli əlaqə vardırmı?

Tədqiqat sualı 4: Türkiyədə monetizasiya indeksi ilə İstehlak Qiymətləri İndeksinə əsaslanan inflyasiya arasında əhəmiyyətli əlaqə vardırmı?

METODOLOGİYA

Tədqiqat işinin informasiya mənbəyi Dünya Bankının iqtisadi göstəriciləridir. Tədqiqat işinin iki başlıca dəyişəni monetizasiya indeksi və istehlak qiymətlərinə əsaslanan inflyasiyadır. Klassik makroiqtisadi proporsional yanaşmaya əsaslanan monetizasiya indeksi aşağıdakı kimi hesablanmaqdadır [16].

$$\text{Monetizasiya indeksi} = \frac{M_2}{\text{ÜDM}} \times 100\ \% \quad (1)$$

Burada M_2 – pul aqreqatı

ÜDM – Ümumi Daxili Məhsuldur.

Tədqiqat işində müxtəlif növ hesablanmaların aparılması məqsədilə GRETL 2025b və IBM SPSS Statistics 27 proqram təminatlarından istifadə ediləcəkdir. Azərbaycanda və Türkiyədə monetizasiya indeksi müvafiq olaraq AZE_M və TR_M, ÜDM deflyatoruna əsaslanan inflyasiya mü-

vafiq olaraq AZE_GDP_Def və TR_GDP_Def, İstehlakçı Qiymətlər İndeksinə əsaslanan inflyasiya isə AZE_CPI və TR_CPI olaraq kodlanmışdır.

İlkin olaraq Azərbaycan və Türkiyə üzrə dəyişənlərin yəni monetizasiya indeksi və ÜDM deflyatoruna və İstehlakçı Qiymətlər İndeksinə əsaslanan inflyasiya göstəricislərinin normallıq testlərinin aparılması hansı növ korrelyasiya metodundan istifadə edəcəyimizə bizə istiqamət verəcəkdir [4].

Cədvəl 1

AZE_M və TR_M üçün normallıq testləri

AZE_M üçün test	Nəticə	p dəyəri	TR_M üçün test	Nəticə	p dəyəri
Doornik-Hansen test	4.87885	0.087211	Doornik-Hansen test	0.553733	0.758156
Shapiro-Wilk W	0.920125	0.0587818	Shapiro-Wilk W	0.940141	0.16431
Lilliefors test	0.140399	~= 0.25	Lilliefors test	0.152323	~= 0.15
Jarque-Bera test	2.09683	0.350494	Jarque-Bera test	0.106595	0.948098

Mənbə: *Müəlliflərin hesablamaları*

Nümunə ölçümüzə müvafiq olaraq Shapiro-Wilk testinə nəzər yetirilməsi daha məqsədəuyğundur [11]. Cədvəl 1-dən göründüyü kimi hər iki dəyişən üçün üçün p dəyəri 0.05-dən daha yüksəkdir. Bu isə normallığın mövcudluğunu şərtləndirməkdədir [4].

Növbəti mərhələdə sözügedən ölkələr üzrə ÜDM deflyatoruna əsaslanan inflyasiyanın normallıq testlərini aparaq.

Cədvəl 2

AZE_GDP_Def və TR_GDP_Def üçün normallıq testləri

AZE_GDP_Def üçün test	Nəticə	p dəyəri	TR_GDP_Def üçün test	Nəticə	p dəyəri
Doornik-Hansen test	0.518348	0.771689	Doornik-Hansen test	26.85	0.00000148
Shapiro-Wilk W	0.991593	0.998759	Shapiro-Wilk W	0.703	0.0000110
Lilliefors test	0.0811926	~= 1	Lilliefors test	0.291	~= 0
Jarque-Bera test	0.0485582	0.976013	Jarque-Bera test	21.80	0.0000185

Mənbə: *Müəlliflərin hesablamaları*

Cədvəl 2-dən görünür ki, Azərbaycan üzrə ÜDM deflyatoruna əsaslanan inflyasiya dəyişəninin normallığı mövcud olmaqla yanaşı, Türkiyə üzrə ÜDM deflyatoruna əsaslanan inflyasiya dəyişəninin normallığı mövcud deyildir. Bu isə Azərbaycan üzrə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında Pearson korrelyasiyasının tətbiq edilməsinin, Türkiyə üzrə isə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında Spearman rank korrelyasiyasının tətbiq edilməsinin daha doğru olmasını şərtləndirir [4].

Növbəti mərhələdə isə Azərbaycan və Türkiyə üzrə İstehlakçı Qiymətlər İndeksinə əsaslanan inflyasiya dəyişənlərinin normallıq testlərinin aparılması zəruridir.

Cədvəl 3

AZE_CPI və TR_CPI üçün normallıq testləri

AZE_CPI üçün test	Nəticə	p dəyəri	TR_CPI üçün test	Nəticə	p dəyəri
Doornik-Hansen test	8.0709	0.0176777	Doornik-Hansen test	33.1525	0.0000000632452

Shapiro-Wilk W	0.864797	0.00416707	Shapiro-Wilk W	0.688527	0.00000713013
Lilliefors test	0.212131	~= 0.01	Lilliefors test	0.285757	~= 0
Jarque-Bera test	4.27007	0.118241	Jarque-Bera test	9.25744	0.00976725

Mənbə: *Müəlliflərin hesablamaları*

Cədvəl 3-dən görünür ki, hər iki dəyişən üzrə normallıq mövcud deyildir. Bu isə sözügedən göstəricilər ilə müvafiq ölkələrin monetizasiya indeksləri arasında yalnız Spearman rank korrelyasiyasının tətbiq edilməsinin daha məqsədəuyğun olmasını səciyyələndirməkdədir [4].

İstifadə ediləcək Pearson korrelyasiyası aşağıdakı kimi hesablanmaqdadır [9].

$$r_{xy} = \frac{\sum(x_i - \bar{x})(y_i - \bar{y})}{\sqrt{\sum(x_i - \bar{x})^2 \sum(y_i - \bar{y})^2}} \quad (2)$$

İstifadə ediləcək Spearman rank korrelyasiyası isə aşağıdakı kimi hesablanmaqdadır [14].

$$r_s = 1 - \frac{6\sum d_i^2}{n(n^2 - 1)} \quad (3)$$

Qeyd etmək lazımdır ki, r_{xy} və r_s olaraq qeyd edilən korrelyasiya əmsalları -1 və 1 dəyərləri arasında dəyişməkdədir. Əksər tədqiqatçıların fikrinə müvafiq olaraq r_{xy} və r_s korrelyasiya əmsallarının 0.6-dan yüksək olması əhəmiyyətli korrelyasiya əlaqəsinin mövcudluğunu şərtləndirməkdədir [2], [6], [12]. Məhz bu metodlar vasitəsilə tədqiqat işində qarşıya qoyulmuş suallara cavab tapılmağa çalışılacaqdır.

TAPINTILAR VƏ MÜZAKİRƏ

İlkin olaraq, birinci tədqiqat sualına müvafiq olaraq Azərbaycanda monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasındakı əlaqəni Pearson korrelyasiyası ilə tədqiq edək.

Cədvəl 4

AZE_M və AZE_GDP_Def üçün Pearson korrelyasiya matrisi

		AZE_M	**AZE_GDP_Def**
AZE_M	Pearson korrelyasiyası	1	-.203
	Nümunə ölçüsü	24	24
AZE_GDP_Def	Pearson korrelyasiyası	-.203	1
	Nümunə ölçüsü	24	24

Mənbə: *Müəlliflərin hesablamaları*

Cədvəl 4-dən görünməkdədir ki, Azərbaycan üzrə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasına olduqca zəif mənfi əlaqə vardır (-0.203). Lakin, burada önəmli digər məsələ əldə olunan korrelyasiya əmsalının əminlilik dərəcəsinin test edilməsidir ki, bunun üçün də Student t-kritik testindən istifadə olunacaqdır.

Cədvəl 5

Student t-kritik testi

r_{xy}	t müşahidə	t-kritik *	t-kritik **	t-kritik ***
-0.203	-0.97240102	1.71714	2.07387	2.81876

Mənbə: *Müəlliflər tərəfindən hesablanmışdır*

Qeyd: ** - 90 faizlik əminlik dərəcəsi, ** - 95 faizlik əminlik dərəcəsi, *** - 99 faizlik əminlik dərəcəsi*

Cədvəl 5-dən məlum olmaqdadır ki, əldə olunmuş korrelyasiya əmsalı statistik baxımdan əhəmiyyətli deyildir. Yəni dəyişənlər arasında riyazi olaraq əhəmiyyətli əlaqə yoxdur. İlkin aparılan təhlilin nəticəsi onu deməyə imkan verir ki, Azərbaycanda tələb yönümlü monetar inflyasiya deyil də, təklif yönümlü inflyasiya mövcud ola bilər.

Növbəti tədqiqat sualına cavab olaraq Türkiyədə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında Spearman rank korrelyasiyasını tədqiq edək.

Cədvəl 6

TR_M və TR_GDP_Def üçün Spearman rank korrelyasiya matrisi

			TR_M	TR_GDP_Def
Spearman rank korrelyasiyası	**TR_M**	Korrelyasiya əmsalı	1.000	.035
		Nümunə ölçüsü	24	24
	TR_GDP_Def	Korrelyasiya əmsalı	.035	1.000
		Nümunə ölçüsü	24	24

Mənbə: *Müəlliflərin hesablamaları*

Cədvəl 6-dakı nəticə onu deməyə imkan verir ki, Türkiyədə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında heç bir əlaqə yoxdur. Belə ki, Spearman rank korrelyasiya əmsalı 0-a olduqca yaxın olmaqdadır (0.035). Bu isə Türkiyədə də mövcud olan inflyasiyanın bir qədər monetar meylli deyil də təklif yönümlü olmasını səciyyələndirə bilər. Qeyd etmək lazımdır ki, həm monetizasiya indeksi həm də ÜDM deflyatoruna əsaslanan inflyasiya göstəricisi özü özlüyündə makroiqtisadi proporsional indikatordur. Məhz bu indikatorlar arasında korrelyasiyanın tədqiq edilməsi inflyasiyanın xarakterinin müəyyən edilməsi aləti kimi çıxış edə bilir. Aldığımız nəticələri alternativ vasitələrlə ilə qüvvətləndirmək və üçüncü eyni zamanda, dördüncü tədqiqat suallarına cavab vermək məqsədilə hər iki ölkədə monetizasiya indeksi ilə İstehlakçı Qiymətləri İndeksinə əsaslanan inflyasiya göstəricisi arasında Spearman rank korrelya-siyasını təhlil edək.

Cədvəl 7

AZE_M və AZE_CPI üçün Spearman rank korrelyasiya matrisi

			AZE_M	AZE_CPI
Spearman rank korrelyasiyası	**AZE_M**	Korrelyasiya əmsalı	1.000	.043
		Nümunə ölçüsü	24	24
	AZE_CPI	Korrelyasiya əmsalı	.043	1.000
		Nümunə ölçüsü	24	24

Mənbə: *Müəlliflərin hesablamaları*

Cədvəl 7-də əldə olunan nəticələr Cədvəl 4-də əldə olunan nəticələr çərçivəsində ortaya irəli sürdüyümüz fikirləri bir qədər də təsdiqləməkdədir. Belə ki, Cədvəl 7-nin nəticəsində müəyyən edilmişdir ki, ÜDM-in monetaziyasiya səviyyəsi ilə İstehlakçı Qiymətlər İndeksi arasında əlaqə demək olar ki, yoxdur. Bu faktor isə Azərbaycanda mövcud olan inflyasiyanın monetar faktorlardan deyil də, qeyri-monetar faktorlardan yaranması fikrini daha da qüvvətləndirməkdədir. Bu mənzərə A.İ. Bolvaçev və V.M. Savradımın tədqiqatlarında əldə etdikləri nəticədən tamamilə fərqlənməkdədir. Belə ki, tədqiqatçılar sözügedən dəyişənlər arasında güclü bir korrelyasiyanın olması nəticəsinə gəlmişdirlər [17].

Paralel olaraq Türkiyə üçün bu amili nəzərdən keçirək.

Cədvəl 8

TR_M və TR_CPI üçün Spearman rank korrelyasiya matrisi

			TR_M	TR_CPI
Spearman rank korrelyasiyası	**TR_M**	Korrelyasiya əmsalı	1.000	-.005
		Nümunə ölçüsü	24	24
	TR_CPI	Korrelyasiya əmsalı	-.005	1.000
		Nümunə ölçüsü	24	24

Mənbə: *Müəlliflərin hesablamaları*

Cədvəl 8 isə Cədvəl 6-dakı nəticələrdən əldə olunmuş fikirləri təsdiqləməkdədir. Belə ki, Türkiyədə də monetizasiya indeksi ilə İstehlakçı Qiymətləri İndeksinə əsaslanan inflyasiya arasında heç bir əlaqənin olmaması müşahidə edilmişdir. Bu mənzərə N.A. Yekimovanın əldə etdiyi nəticəyə bir qədər bənzəməkdədir. Belə ki, N.A. Yekimova da sözügedən dəyişənlər arasında əlaqənin faktiki olmaması nəticəsinə gəlmişdir [18]. Bu nəticələr onu deməyə əsas verir ki, həm Azərbaycan da həm də Türkiyədə mövcud olan inflyasiyanın tələb yönümlü deyil də, təklif yönümlü olması daha real ola bilər.

NƏTİCƏ

Tədqiqat işində klassik makroiqtisadi proporsiya hesab edilən monetizasiya indeksindən inflyasiya göstəricisinin tələb yoxsa təklif yönümlü olmasının müəyyənləşdirilməsi üçün istifadə edilmişdir. Araşdırmada qarşıya qoyulmuş suallara müvafiq olaraq müxtəlif nəticələr əldə edilmişdir. Belə ki, müəyyən edilmişdir ki, Azərbaycanda monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya arasında statistik baxımdan əhəmiyyətli əlaqə mövcud deyildir. Eyni zamanda, Azərbaycanda monetizasiya indeksi ilə İstehlakçı Qiymətlər İndeksinə əsaslanan inflyasiya arasında da əhəmiyyətli və güclü əlaqənin olmaması nəticəsi əldə edilmişdir. Digər tərəfdən Türkiyədə monetizasiya indeksi ilə ÜDM deflyatoruna əsaslanan inflyasiya və İstehlakçı Qiymətlər İndeksinə əsaslanan inflyasiya arasında əlaqənin olmaması müəyyən edilmişdir. Bütün bu faktorlar onu deməyə imkan verir ki, Azərbaycan və Türkiyədəki mövcud inflyasiya daha çox təklif yönümlüdür və burada tələb yönümlü monetar inflyasiyanın təsiri bir qədər zəifdir. Məhz bu səbəbdən hər iki ölkədə pul kütləsinin genişlənməsinə ciddi potensial mövcud olmasını qeyd etmək olar ki, bu da uzunmüddətli perspektivdə iqtisadiyyatdakı disproporsionallığın minimuma endirilməsi kontekstində mütərəqqi idarəetmə mexanizmlərinə əsaslanan yumuşaq monetar siyasətin tətbiq edilməsinin effektiv nəticələr verə biləcəyini deməyə imkan yaratmaqdadır.

İstifadə edilmiş ədəbiyyat

1. Bokava, S.Y., Abakumova, Y.G. (2017). Monetary and non-monetary determinants of inflation volatility. Журнал Белорусского государственного университета. Экономика, (1), 51-58.

2. Borowski, P.F., & Patuk, I. (2021). Environmental, social and economic factors in sustainable development with food, energy and eco-space aspect security. Present Environment & Sustainable Development, 15(1), 153-169

3. Colacchio, G. (2005). On the origins of non-proportional economic dynamics: A note on Tugan-Baranowsky's traverse analysis. Structural Change and Economic Dynamics, 16(4), 503-521.

4. Field, A. (2013), Discovering statistics using IBM SPSS statistics. 4th edition, Sage publications limited.

5. Friedman, M. (1968). The role of monetary policy. The American economic review, 58(1), 1-17.

6. Hair, J.F., Wolfinbarger, M.F., Ortinau, D.J., Bush, R.P. (2017). Essentials of Marketing Research, 4th edition. McGraw-Hill Education, New York.

7. Keynes J.M.(1936).The General theory of Employment,Interest and Money.Edinburgh, 403.

8. Korpi, W. (2002). The great trough in unemployment: A long-term view of unemployment, inflation, strikes, and the profit/wage ratio. Politics & Society, 30(3), 365-426.

9. Qin, Y., Chin, M.Y., Hoy, Z.X., Lee, C.T., Khan, M., Woon, K.S., (2023), Pearson Correlation Analysis Between Carbon Dioxide Emissions and Socioeconomic Factors Across Nations' Income Groups. Chemical Engineering Transactions, 106, pp. 181-186.

10. Məmmədov, E.Y., Əzimzadə, A.C. (2021). Çinin maliyyə sistemi: Qabaqlayıcı iqtisadi inkişafın stimullaşdırılması. MSV nəşr. 224 s.

11. Mishra, P. Descriptive statistics and normality tests for statistical data / P. Mishra, C. M. Pandey, U. Singh [et al.] //Annals of cardiac anaesthesia. – 2019, – 22 (1), – p. 67-72.

12. Papageorgiou, S.N. (2022). On correlation coefficients and their interpretation. Journal of Orthodontics, 49(3), 359-361

13. Papanek, G.F. (1964). Industrial production and investment in Pakistan. The Pakistan Development Review, 4(3), 462-490.

14. Song, H.Y., & Park, S. (2020). An Analysis of Correlation between Personality and Visiting Place using Spearman's Rank Correlation Coefficient. KSII Transactions on Internet and Information Systems (TIIS), 14(5), 1951-1966.

15. Zhukov, P.E. (2023). Money supply, inflation and budget deficit in Russia compared to the United States. Review of Business and Economics Studies, 11(4), 72-83.

16. Бердышев, А.В., & Сопов, Д.К. (2022). Исследование динамики коэффициента монетизации экономики России и его влияния на макроэкономические показатели. Вестник университета, (9), 145-152.

17. Болвачев, А.И., & Саврадым, В.М. (2025). Монетизация экономики и инфляция: два антагонизма отечественной финансовой системы. Вестник Российского экономического университета им. ГВ Плеханова, 22(2), 140-152.

18. Екимова, Н.А. (2018). Институциональные риски: в поисках детерминант инфляции. Вестник УрФУ. Серия: Экономика и управление. - 2018. - № 5, 5(17), 732-750.

E.Y.Mammadov
doctor of Economic Sciences, professor, Odlar Yurdu University
ORCID 0000-0001-7105-395X
A.J.Azimzadeh
PhD student, Baku Eurasian University
senior lecturer, Odlar Yurdu University
ORCID 0000-0003-1441-440X
A.S.Mushfigli
Phd student, Eskişehir Osmangazi University
A.A.Allakhverdiyeva
master's student, Academy of Public Administration under the President of the Republic of Azerbaijan

Diagnosis of the nature of inflation in the context of macroeconomic proportions: a comparative analysis of Azerbaijan and Türkiye

Abstract

The study of macroeconomic proportions can serve as one of the key directions characterizing the preventive nature of development programs in the long term. Within the framework of the research questions outlined in the article, the relationship between the monetization index - based on the classical macroeconomic proportional approach - and inflation indicators in Azerbaijan and Turkey has been comparatively analyzed in order to diagnose the nature of inflation in both countries. The research employs methods such as induction, deduction, statistical and comparative analysis, and correlation analysis. The findings reveal that inflation in Azerbaijan and Turkey is not primarily driven by the monetary factor. The study may serve as an important theoretical foundation for further research in this direction, as well as for strategic plans adopted within the framework of regulating the national economy in the long term.

Keywords: *macroeconomic proportion, inflation, monetization index, Azerbaijan, Türkiye*

https://doi.org/10.58225/tim.2026-2-505-514

N.F.Abuzarov
magistrant, Azerbaycan Devlet İktisat Üniversitesi
ORCID 0009-0008-5087-8678
namiqabuzer456@gmail.com

Məqalə redaksiyaya daxil olub 28.03.2026
The article was received by editorial board on 28.03.2026
Статья принята к печати 28.03.2026

ABD-ÇİN TİCARET SAVAŞININ EKONOMİK, SEKTÖREL VE MAKROEKONOMİK ANALİZİ

Özet

Bu çalışma, 2014–2024 yılları arasında ABD ile Çin arasında yaşanan ticaret savaşının ekonomik, sektörel ve küresel etkilerini incelemektedir. Donald Trump yönetimi döneminde 2018 yılında yoğunlaşan bu ekonomik çatışma, modern ekonomik tarihinin en önemli ticaret savaşlarından biri olarak değerlendirilmektedir. Başlangıçta Çin'den yapılan ithalatı sınırlamaya yönelik seçici tarifelerle başlayan süreç, zamanla yüz milyarlarca dolarlık ticareti etkileyen geniş kapsamlı bir ekonomik mücadeleye dönüşmüştür. Araştırmanın temel amacı, ABD-Çin ticaret savaşının nedenlerini, gelişim sürecini ve dünya ticareti üzerindeki etkilerini analiz etmek; aynı zamanda bu sürecin küresel ekonomik yapı üzerindeki sonuçlarını değerlendirmektir. Araştırma bulguları, ticaret savaşının iki ülke arasındaki ticaret hacmini önemli ölçüde azalttığını, küresel tedarik zincirlerinde ciddi bozulmalara yol açtığını ve ekonomik belirsizliği artırdığını ortaya koymaktadır. Yapılan korelasyon analizi sonucunda (r = 0,2573), ABD'nin Çin'den ithalatı ile Çin'e ihracatı arasında zayıf pozitif bir ilişki olduğu belirlenmiş ve ticaret savaşının bu iki değişken üzerinde asimetrik etkiler yarattığı sonucuna ulaşılmıştır. Ayrıca tarifelerin maliyetinin büyük ölçüde Çinli üreticiler yerine ABD'deki tüketiciler ve işletmeler tarafından karşılandığı tespit edilmiştir. Sektörel analiz sonuçlarına göre, teknoloji ve imalat sektörlerinin ticaret savaşından en fazla etkilenen alanlar olduğu, hizmet sektörünün ise görece daha sınırlı etkilere maruz kaldığı görülmektedir. Bunun yanı sıra, ticaretin yön değiştirmesi sonucu Vietnam, Meksika ve Hindistan gibi üçüncü ülkeler bazı fırsatlar elde etmiş, ancak bu durum aynı zamanda yeni ekonomik ve yapısal sorunları da beraberinde getirmiştir. Makroekonomik açıdan ise ticaret savaşının küresel büyümeyi yavaşlattığı ve finansal piyasalarda dalgalanmaları artırdığı belirlenmiştir. Sonuç olarak, bu çalışma tarifelerin kısa vadeli politik hedeflere ulaşmada etkili olabileceğini, ancak uzun vadede yüksek ekonomik maliyetler yarattığını ve temel yapısal sorunları çözmede yetersiz kaldığını ortaya koymaktadır. Bu bağlamda, küresel ticaret sisteminin sürdürülebilirliği açısından çok taraflı iş birliğinin güçlendirilmesi, tedarik zincirlerinin dayanıklılığının artırılması ve uluslararası ekonomik kurumların etkinliğinin geliştirilmesi büyük önem taşımaktadır.

Anahtar kelimeler: *ticaret savaşı, ABD-Çin ilişkileri, küresel ekonomi, istatistiksel analiz, uluslararası ticaret.*

1. GİRİŞ

ABD-Çin ticaret savaşı ekonomik tarih içerisindeki en büyük ticaret savaşlarından biri olarak kabul edilmektedir, çünkü Donald Trump yönetimi altında resmileşen ABD-Çin ticaret savaşı, 2018 yılında başlatılan en güncel örneklerden biridir. Çin ithalatını seçici tarifeler yoluyla sınırlama fikriyle

başlayan süreç, zamanla yüz milyarlarca dolarlık ikili ticareti etkileyen kapsamlı bir ticaret çatışmasına dönüşmüştür [2, s. 807]. Çin de karşılık olarak "misilleme" stratejisi uygulamış ve çeşitli ABD ürünlerine %15'e kadar ek tarifeler getirmiştir. Her iki ekonomik güç de karşılıklı olarak birbirlerinin mallarına tarifeler uygulayarak ticaret, teknoloji ve jeopolitik etki alanlarında gerilimi ve stratejik rekabeti artırmıştır. Bu savaş, küresel ticaret kalıplarını ve tedarik zincirlerini köklü biçimde değiştirmiş ve etkileri yalnızca iki ülke ile sınırlı kalmayıp dünya geneline yayılmıştır.

Ticaret savaşının başlangıcında ABD'nin uzun süredir Çin'in ticaret uygulamalarına yönelik endişeleri yer almaktadır. Bu endişeler arasında fikri mülkiyet ihlalleri, zorunlu teknoloji transferi ve devlet destekli sektörlerin haksız rekabet avantajı sağlaması bulunmaktadır. Aynı zamanda Çin'in hızlı ekonomik yükselişi ve ABD'ye ekonomik anlamda meydan okuması, bu çatışmanın jeopolitik arka planını oluşturmuştur.

Bu araştırma, ABD-Çin ticaret savaşının küresel etkilerini ayrıntılı istatistiksel veriler ve analizler aracılığıyla nicel olarak değerlendirmeyi amaçlamaktadır. Çalışmada ticaret akışlarındaki bozulmalar, ekonomik büyüme üzerindeki etkiler ve bölgesel farklılıklar incelenecektir. Yoğun istatistiksel yöntemler kullanılarak, bu savaşın küresel ekonomi üzerindeki çok boyutlu etkilerine ilişkin ampirik sonuçlar ortaya konulacaktır.

2. LİTERATÜR TARAMASI

2.1 Teorik Çerçeve

Teorik açıdan ticaret savaşları, II. Dünya Savaşı sonrası dönemde dünya ekonomik gelişiminin temelini oluşturan karşılaştırmalı üstünlük ve serbest ticaret ilkelerinden bir sapma olarak değerlendirilmektedir. Son dönem ampirik çalışmalar ABD-Çin ticaret savaşının etkilerini nicel olarak incelemeye başlamıştır. Fajgelbaum ve diğerlerine (2024) göre ticaret savaşı, ikili ticaret akışlarını yaklaşık %25 oranında azaltmış ve ABD hükümetine sınırlı düzeyde gelir sağlamıştır [4, s.297]. Cavallo ve diğerleri (2021) ise tarifelerin özellikle ara mallar üzerinden tüketici fiyatlarına önemli ölçüde yansıdığını ortaya koymuştur [3, s. 21]. Handley ve diğerlerine (2020) göre ise tedarik zincirlerindeki bozulmalar önemli sonuçlar doğurmuş ve firmalar Çin dışındaki ülkelerde yeni tedarikçiler aramaya başlamıştır [5, s.21]. Bu süreç, "friend-shoring" veya "near-shoring" olarak adlandırılan yeni üretim ve tedarik eğilimlerini hızlandırmıştır.

2.2 ABD-Çin ticaret savaşının ekonomik etkileri

Ticaret savaşının ekonomik etkileri doğrudan ve dolaylı olmak üzere iki gruba ayrılabilir [4, s. 301].

Doğrudan etkiler şunları kapsamaktadır:

- Tarifelerin artmasıyla ikili ticaret hacminin azalması
- Göreli fiyat değişimleri
- Tüketici ve üretici davranışlarında değişim
- Devletin elde ettiği tarife gelirleri

Dolaylı etkiler ise daha geniş kapsamlıdır:


- Tedarik zincirlerinde bozulma
- Yatırımların yön değiştirmesi
- Makroekonomik etkiler
- İş dünyasında güven ve planlama süreçlerinin değişmesi

Doğrudan etkiler kısa vadede en kolay ölçülebilen sonuçlardır. ABD ile Çin arasındaki ticaret hacmi, 2018 yılındaki zirve seviyesinden yaklaşık %15 düşmüş ve yıllık 100 milyar dolardan fazla bir azalma yaşanmıştır [2, s. 831]. Bu düşüş sektörlere göre farklılık göstermiştir. Özellikle teknoloji ürünleri en büyük kayıpları yaşarken, tüketim mallarında kısmi toparlanmalar görülmüştür.

ABD hükümeti ticaret savaşı sonrasında yaklaşık 47 milyar dolar ek tarife geliri elde etmiştir. Buna karşılık, Hoon (2025) ABD-Çin ticaretinin dengesiz olduğunu ve ABD'nin Çin'den daha fazla ithalat yaptığını vurgulamaktadır [6]. Bu nedenle ABD'deki işletmeler ve tüketiciler, Çin mallarına

uygulanan tarifeler nedeniyle daha yüksek fiyatlarla karşılaşmaktadır. 2024 yılında ABD, Çin ile ticarette 295 milyar dolarlık mal açığı vermiş, bu açık ise 32 milyar dolarlık hizmet ticareti fazlasıyla kısmen dengelenmiştir.

Grafik 1. ABD'nin Çin ile ticareti (1985 – 2025)



Kaynak: *[10]*

Yukarıdaki grafikden de anlaşılacağı üzere, ABD'nin Çin ile olan ticareti zirve seviyesine kıyasla yaklaşık %30 oranında azalmıştır [10]. Bununla birlikte, ekonomik mantık bu maliyetlerin büyük ölçüde Çinli ihracatçılar tarafından değil, ABD'deki tüketiciler ve işletmeler tarafından karşılandığını göstermektedir. Araştırmalar, ürünlerin büyük çoğunluğunda %80 ile %90 arasında bir yansıma (pass-through) oranı olduğunu ortaya koymuştur. Bu da Çinli üreticilerin tarifelerin maliyetini doğrudan üstlenmediğini, aksine bu durumun Amerikan tüketicileri üzerinde bir vergi etkisi yarattığını göstermektedir.

Çin'in ABD'ye yaptığı ihracat belirli sektörlerde ortalama %32 oranında azalmış ve bu durum Çinli firmaları yeni pazarlar aramaya ve iş stratejilerini dönüştürmeye zorlamıştır. Bu süreçte birçok Çinli şirket iç tüketime yönelmiş, alternatif dış pazarlara açılmış ve daha yüksek katma değerli üretim sistemlerine yatırım yapmıştır. Çin hükümeti ise bir yandan ticaret baskısından etkilenen sektörleri koruyucu önlemler alırken, diğer yandan bu süreci ekonomiyi ihracata daha az bağımlı hale getirmek için bir fırsat olarak değerlendirmiştir [12, s.9].

Ticaret savaşının yan etkilerinin, doğrudan ticaret etkilerinden çok daha geniş ve çok boyutlu olduğu görülmektedir. Küresel düzeyde tedarik zincirlerinin yeniden yapılandırılması, maliyetlerin artmasına yol açmış ve şirketlerin ticaret savaşlarına karşı risklerini azaltmak amacıyla daha az verimli üretim ve dağıtım zincirleri kurmaları sonucunda yıllık yaklaşık 67 milyar dolarlık ek maliyet ortaya çıkmıştır. Bu maliyetler yeni tedarikçi bulma ve değerlendirme giderleri, fazla kapasite oluşturma maliyetleri, olası arz şoklarına karşı stok artırma giderleri ve daha karmaşık lojistik sistemler nedeniyle artan taşımacılık maliyetlerini kapsamaktadır.

Üçüncü ülkeler üzerinden ticaretin yön değiştirmesi, ticaret savaşına doğrudan taraf olmayan ülkeler için hem kazananlar hem de kaybedenler yaratmıştır [4, s. 310]. Vietnam, Meksika ve Hindis-

tan, ticaret akışlarının yön değiştirmesi sayesinde ABD ve Çin'e ihracatlarını önemli ölçüde artırarak en büyük kazananlar arasında yer almıştır. Ancak bu kazançlar, altyapı yetersizlikleri, iş gücü sıkıntısı ve maliyet baskıları gibi sorunları da beraberinde getirmiştir.

Makroekonomik yayılma etkileri ise oldukça geniş kapsamlıdır. Ticaret savaşlarının küresel GSYİH büyümesini yaklaşık %0,3 oranında düşürdüğü ve bunun yüz milyarlarca dolarlık ekonomik kayba karşılık geldiği tahmin edilmektedir. Bu durum hem ticaret hacmindeki düşüşten kaynaklanan doğrudan etkiler hem de ekonomik güvenin azalması nedeniyle yatırımların ve harcamaların düşmesi gibi dolaylı etkilerle açıklanmaktadır. Ayrıca, ticaret politikalarındaki belirsizlik nedeniyle işletmeler uzun vadeli yatırımlardan kaçınmış ve bu da uluslararası ticaretin yavaşlamasına neden olmuştur.

Finansal piyasalar da bu süreçten önemli ölçüde etkilenmiştir. Tarifeler ve ticaret politikalarına ilişkin açıklamalar, özellikle ilgili sektörlerde ve ülkelerde hisse senedi fiyatlarında yüksek oynaklığa yol açmıştır [7, s.34]. Döviz piyasalarında ise Çin yuanı ticaret gerilimleri sırasında değer kaybı baskısı altında kalmış, buna karşılık Japon yeni ve İsviçre frangı gibi güvenli liman para birimleri değer kazanmıştır.

2.2.1 Makroekonomik etkiler

Fajgelbaum ve diğerlerine (2025) göre ticaret savaşı, yalnızca ABD ile Çin arasındaki ilişkileri değil, neredeyse tüm büyük ekonomileri etkileyen geniş çaplı makroekonomik yayılma etkileri yaratmıştır. Küresel ticaretin azalması, artan belirsizlik ve tedarik zinciri şokları gibi faktörler dünya ekonomisinin verimliliğini düşürmüş ve maliyetleri artırmıştır.

Uluslararası Para Fonu'nun tahminlerine göre, ticaret gerilimleri yalnızca 2019 yılında küresel GSYİH'yı yaklaşık %0,5 oranında düşürmüş ve bu etkiler 2023 yılına kadar devam etmiştir. Bu durum hem doğrudan ticaret hacmindeki azalma hem de güven kaybı nedeniyle yatırımların ertelenmesi ve tüketici harcamalarının azalması yoluyla ortaya çıkmıştır. Ticaret politikalarındaki belirsizlik, firmaların yatırım kararlarını ertelemesine, istihdamı azaltmasına ve üretken yatırımlar yerine nakit rezervlerini artırmasına neden olmuştur.

Ticaret savaşlarının etkileri, dünya genelindeki merkez bankalarını para politikalarını değiştirmeye zorlamıştır. 2019 yılında ABD Merkez Bankası (Federal Reserve), faiz oranlarını düşürme kararını ticaret gerilimleri ile gerekçelendirmiştir. Benzer şekilde Avrupa Merkez Bankası ve diğer büyük merkez bankaları da ticaret kaynaklı deflasyonist baskılarla mücadele etmek için politikalarını uyarlamıştır [1, s.12]. Bu politikalar kısa vadede olumsuz etkileri azaltmış olsa da, gelecekteki ekonomik şoklara karşı politika alanını daraltmıştır.

Ayrıca iş gücü piyasalarında da önemli değişimler meydana gelmiştir. Ticarete bağımlı sektörlerde iş kayıpları yaşanırken, ticaretin yön değiştirdiği sektörlerde yeni istihdam alanları oluşmuştur. Ancak bu süreç genel olarak olumsuz sonuçlar doğurmuştur; çünkü yeni oluşan işler, kaybedilen işlerden farklı beceriler gerektirdiği için yapısal işsizlik sorununu artırmıştır.

2.3 ABD-Çin ticaret savaşının farklı sektörler üzerindeki etkisi

Ekonominin temel sektörlerinde gözlemlenen farklı etkiler, ticaret savaşının heterojen yapısını ortaya koymakta ve etkilenen sektörlerin seçici yapısı nedeniyle ulusal ekonomiler içinde kazananlar ve kaybedenler oluştuğunu göstermektedir. Özellikle teknoloji sektörü, yüksek tarifeler ve bu sektörün küresel tedarik zincirlerinin merkezinde yer alması nedeniyle ciddi zorluklarla karşılaşmıştır [8, s. 9]. Teknoloji ticaret hacminde yaşanan %28,4'lük düşüş, yalnızca ikili ticaretin azalmasıyla sınırlı kalmayıp, onlarca yıl içinde oluşturulmuş karmaşık küresel üretim ağlarının bozulmasının bir sonucu olarak ortaya çıkmıştır.

En karmaşık etkilerin görüldüğü alanlardan biri yarı iletken (semiconductor) sektörüdür. Tamamlanmış yarı iletken ürünlerin ticareti ciddi şekilde azalırken, yarı iletken üretim ekipmanları ve ara ürün ticareti bazı kategorilerde artış göstermiştir. Bunun nedeni, firmaların alternatif tedarik zincirleri oluşturmaya çalışmalarıdır. Bu süreç, küresel yarı iletken sektöründe kapasite kısıtlarına ve fiyat artışlarına yol açmış ve etkileri ticaret savaşına taraf olan ülkelerin ötesine geçmiştir.

İmalat sektöründe ise Çin'den ABD'ye yapılan ticaret hacminde %19,8 oranında bir düşüş yaşanmıştır. Tekstil ve montaj gibi emek yoğun üretim faaliyetleri daha kolay taşınabildiği için Vietnam ve Bangladeş gibi ülkeler bu süreçte önemli kazanımlar elde etmiştir [11, s.25]. Ancak, yüksek sermaye gerektiren ve nitelikli iş gücü isteyen üretim faaliyetlerinin taşınması daha zor olmuş, bu da tedarik zinciri kesintilerinin devam etmesine ve maliyetlerin artmasına neden olmuştur.

Tarım sektörü, ticaret savaşından en fazla etkilenen alanlardan biri olmuştur. Çin, ABD'den soya fasulyesi, mısır, domuz ürünleri, pamuk, meyve ve diğer tarım ürünlerini ithal etmektedir. Ancak ticaret savaşının etkisiyle tarımsal ticarette %21 oranında bir düşüş yaşanmış ve bu durum hem ABD hem de Çin'deki belirli bölgeleri ciddi şekilde etkilemiştir. Çinli ithalatçılar, tedarik kaynaklarını çeşitlendirerek Brezilya, Arjantin gibi ülkelere yönelmiş ve bu durum küresel tarım ticaretinde uzun vadeli yapısal değişikliklere yol açmıştır [4, s. 311].

Hizmet sektörü ise doğrudan en az etkilenen sektör olmuştur ve ABD hizmet sektöründe istihdam kaybı yalnızca %3,7 seviyesinde gerçekleşmiştir. Ancak bu genel tablo, sektör içindeki farklılıkları gizlemektedir. Finans ve danışmanlık gibi bazı hizmet alanları, artan düzenleyici baskılar ve iş güvenindeki azalma nedeniyle olumsuz etkilenmiştir. Buna karşılık, lojistik ve ticaret finansmanı gibi bazı hizmet alanları, küresel ticaret ilişkilerinin karmaşıklaşmasından fayda sağlamıştır.

İstihdam üzerindeki etkiler ise sektörlere göre dengesiz bir şekilde dağılım göstermiştir. İmalat sektörü yaklaşık 289.000 iş kaybı ile en fazla etkilenen sektör olmuştur. Ancak bu genel rakamlar, bölgesel ve beceri düzeyine bağlı önemli farklılıkları gizlemektedir. Yüksek beceri gerektiren imalat işlerinin taşınması daha zor olduğu için bu alanlarda iş kaybı daha sınırlı kalmıştır. Buna karşılık, hizmet sektörünün bazı alanlarında, özellikle lojistik, uyum (compliance) ve risk yönetimi gibi alanlarda, küresel operasyonların karmaşıklığının artması nedeniyle istihdam artışı gözlemlenmiştir.

Tablo 1

ABD-Çin ticaret savaşının ABD üzerindeki Sektörel Etki Analizi

Sektör	**Ticaret hacmi değişimi (%)**	**Fiyat etkisi (%)**	**İstihdam etkisi**
Teknoloji	-28,4	+12,7	-145.000 iş
Tarım	-22,1	+8,9	-67.000 iş
İmalat	-19,8	+7,4	-289.000 iş
Hammadde	-15,2	+5,1	-34.000 iş
Hizmetler	-3,7	+1,2	+23.000 iş

Kaynak: *[10]*

Yukarıdaki tabloya göre, teknoloji ve imalat sektörlerinin en ciddi olumsuz etkilerle karşılaştığı görülmektedir. Bu durum, söz konusu sektörlerin ticaret savaşında doğrudan hedef alınan ve stratejik öneme sahip alanlar olmasından kaynaklanmaktadır.

3. Araştırma yöntemi

Bu araştırmanın yürütülmesinde tümevarımsal (indüktif) araştırma yaklaşımı kullanılmıştır. Bu yaklaşım, önceden belirlenmiş hipotezleri test etmek yerine, elde edilen verilerden hareketle yeni teorilerin geliştirilmesine imkân tanıdığı için tercih edilmiştir.

Veri toplama sürecinde, ABD-Çin ticaret savaşına ilişkin çevrim içi (online) olarak erişilebilen veriler kullanılmıştır. Toplanan verilerin analizinde zaman serisi istatistikleri, trend analizi ve korelasyon analizi yöntemlerinden yararlanılmıştır. Ayrıca, araştırma sürecinde etik ilkelere özel önem verilmiş ve çalışmanın sunumu sırasında herhangi bir hukuki sorunla karşılaşmamak için gerekli tüm etik kurallara uyulmuştur.

4. Veri analizi

4.1 Zaman serisi istatistikleri

Tablo 2

ABD-Çin ithalat ihracatı (2014 – 2025)


Ticaret yılı	ABD'nin Çin'den ithalatı (milyar $)	ABD'nin Çin'e ihracatı (milyar $)
2014	486.29	123.67
2015	504.04	115.87
2016	481.36	115.59
2017	525.74	129.99
2018	562.7	120.28
2019	470.95	106.44
2020	456.44	124.48
2021	540.07	151.44
2022	575.71	153.83
2023	448.03	147.8
2024	462.63	143.54
2025	475.00	150.00

Kaynak: *[10]*

- **Değişken 1:** ABD'nin Çin'den ithalatı (milyar ABD doları cinsinden)
- **Değişken 2:** ABD'nin Çin'e ihracatı (milyar ABD doları cinsinden)
- **Zaman Boyutu:** 2014–2025 yılları

4.2. Trend Analysis

Grafik 2. ABD'nin Çin'den ithalatı (2014 – 2025)




Kaynak: *[10]*

Yukarıdaki grafikten de görülebileceği gibi, ABD'nin Çin'den ithalatı 2014'ten 2018'e kadar sürekli bir yükseliş trendi göstermiştir. Bu dönemde, ithalat hacimleri 2018'de en yüksek seviyesine ulaşmıştır ki bu da ticaret savaşının yoğunlaşmasından önceki döneme denk gelmektedir. 2019 ve 2020 yıllarında keskin bir düşüş gözlemlenmiştir. Bu düşüş, ABD ve Çin arasında uygulanan gümrük vergileri, ticaret kısıtlamaları ve karşılıklı ekonomik yaptırımların etkisiyle açıklanmaktadır. Bu aşama, ticaret savaşının küresel ticaret akışları üzerindeki olumsuz etkisini açıkça göstermektedir. 2021 ve 2022 yıllarında belirli bir toparlanma süreci yaşanmış ve ithalat tekrar yükseliş trendine gir-

miştir. Bu artış kısmen ekonomik aktivitenin toparlanmasına, pandemi sonrası dönemde artan talebe ve bazı ticaret ilişkilerinin istikrara kavuşmasına bağlanabilir. Ancak, 2023 yılında tekrar bir düşüş kaydedilmiştir; bu da devam eden ticaret savaşının etkileri, değişen ekonomik politikalar ve küresel piyasalardaki belirsizlikle ilgilidir. 2024 ve 2025 yılları için göreceli bir istikrar ve hafif bir büyüme gözlemlenmektedir; bu da piyasanın yeni koşullara uyum sağlama aşamasına girdiğini göstermektedir.

Grafik 3. ABD'nin Çin'den ihracatı (2014 – 2025)



Kaynak: *[10]*

Grafik 3-ten görülebileceği gibi, ABD'nin Çin'e ihracatı 2014-2025 döneminde dalgalı ancak genel olarak artan bir eğilim göstermiştir.

2014-2016 yılları arasında ihracat rakamları nispeten istikrarlı ve düşüktü. 2017'de bir miktar büyüme gözlemlenmiş olsa da, 2018'de ve özellikle 2019'da bir düşüş yaşandı. Bu düşüş, ABD-Çin ticaret savaşının, uygulanan gümrük vergilerinin ve karşılıklı ekonomik kısıtlamaların etkisine bağlanabilir.

2020'den itibaren ihracatta yeniden bir büyüme eğilimi başladı ve 2021-2022'de en yüksek seviyelerine ulaştı. Bu dönem, pandemi sonrası ekonomik toparlanma, ticaret ilişkilerinin kısmi istikrara kavuşması ve artan küresel talep ile açıklanabilir.

2023 ve 2024 yıllarında ihracatta belirli bir düşüş gözlemlenmiştir; bu da devam eden jeopolitik gerilimler, ticaret politikalarındaki değişiklikler ve küresel ekonomik belirsizliklerle ilişkilidir. 2025 yılında tekrar hafif bir artış kaydedildi; bu da piyasanın kademeli olarak istikrara doğru ilerlediğini gösteriyor.

Tablo 3

Korelasyon analizi

	ABD'nin Çin'den İthalatı (milyar $)	**ABD'nin Çin'e İhracatı (milyar $)**
ABD'nin Çin'den İthalatı (milyar $)	1	
ABD'nin Çin'e İhracatı (milyar $)	0.257322406	1

Kaynak: *Yazar tarafından SPSS yazılımı kullanılarak derlenmiştir.*

Yukarıdaki tabloya göre, korelasyon katsayısının (r) 0,2573 olduğu görülmektedir. Bu değer, 2014–2025 yılları arasında ABD'nin Çin'den ithalatı ile Çin'e ihracatı arasında zayıf pozitif bir ilişki bulunduğunu göstermektedir. Bu durum, ithalattaki değişimlerin ihracattaki değişimlerle güçlü bir şekilde bağlantılı olmadığını ifade etmektedir. Yani ithalat arttığında veya azaldığında, ihracat aynı eğilimi takip etmemektedir. Bu bulgu, ABD-Çin ticaret savaşı sırasında uygulanan politikaların, tarifelerin ve karşılıklı misillemelerin ithalat ve ihracatı asimetrik şekilde etkilediğini ortaya koymaktadır. Aynı zamanda bu düşük korelasyon, ABD'nin Çin'den ithalatının ihracatından çok da-

ha fazla olduğu gerçeğiyle de uyumludur. Yukarıdaki veri analizine dayanarak, ticaret savaşının tek taraflı ticaret politikalarının hem maliyetlerini hem de sınırlılıklarını ortaya koyduğu söylenebilir. Tarifeler kısa vadede belirli politik hedeflere ulaşmayı ve yerli sanayileri korumayı sağlayabilse de, yüksek ekonomik maliyetler yaratmakta ve yapısal sorunları çözmekte yetersiz kalmaktadır. Bu bağlamda, uluslararası kurumlar aracılığıyla yürütülen çok taraflı yaklaşımların ticaret anlaşmazlıklarının çözümünde daha etkili olabileceği anlaşılmaktadır. ABD ile Avrupa Birliği arasında teknoloji standartları ve ticaret konularında son dönemde artan iş birliği, daha sürdürülebilir bir model olarak değerlendirilebilir.

5. SONUÇ VE ÖNERİLER

5.1 Sonuç

3. European Commission. (2022). The strengthened code of practice on disinformation. URL: https://digital-strategy.ec.europa.eu/en/library/2022-strengthened-code-practice-disinformation

4. European Commission. (2025). Digital Services Act report: Landscape of systemic risks online. URL: Digital Services Act report lays out landscape of systemic risks online | Shaping Europe's digital future

5. European Parliament & Council of the European Union. (2022). Regulation (EU) 2022/2065 on a single market for digital services (Digital Services Act). Official Journal of the European Union. https://eur-lex.europa.eu/eli/reg/2022/2065/oj

6. Lazer, D. M. J., Baum, M. A., Benkler, Y., Berinsky, A. J., Greenhill, K. M., Menczer, F., Metzger, M. J., Nyhan, B., Pennycook, G., Rothschild, D., Schudson, M., Sloman, S. A., Sunstein, C. R., Thorson, E. A., Watts, D. J., & Zittrain, J. L. (2018). The science of fake news. Science, 359(6380), 1094–1096. https://doi.org/10.1126/science.aao2998, URL: https://www.science.org/doi/10.1126/science.aao2998

7. Organisation for Economic Co-operation and Development (OECD). (2022). Misinformation and disinformation: An international policy framework. OECD Publishing. https://doi.org/10.1787/b7709d4f-en

8. Organisation for Economic Co-operation and Development (OECD). (2024). Facts not fakes: Tackling disinformation, strengthening information integrity. OECD Publishing.

9. United Nations Educational, Scientific and Cultural Organization (UNESCO). (2023). Guidelines for the governance of digital platforms: Safeguarding freedom of expression and access to information. UNESCO Publishing.

10. United Nations. (2023). Information integrity on digital platforms: Report of the Secretary-General. United Nations.

11. Shao, L., & Ao, M. (2025). Thematic evolution of China's media governance policies: A tri-logic synergistic perspective. Information, 16(8), 696. https://doi.org/10.3390/info16080696

12. Su, Z., Bentley, B. L., McDonnell, D., Cheshmehzangi, A., Ahmad, J., Šegalo, S., Pereira da Veiga, C., & Xiang, Y.-T. (2023). China's algorithmic regulations: Public-facing communication is needed. Health Policy and Technology. Advance online publication. https://doi.org/10.1016/j.hlpt.2022.100719

13. Wang, J. (2025). Platform responsibility with Chinese characteristics. In B. Chakravorti & J. P. Trachtman (Eds.), Defeating disinformation: Digital platform responsibility, regulation and content moderation on the global technological commons (pp. 41–59). Cambridge University Press. https://doi.org/10.1017/9781009438636.004

14. Gupta, I. (2023). Evolving scope of intermediary liability in India. Journal of Cyber Policy. Advance online publication. https://doi.org/10.1080/13600869.2022.2164838

15. Sharma, M. (2021). Protection from malicious content or chilling free speech? A study of India's Information Technology (Intermediary Guidelines and Digital Media Ethics Code) Rules, 2021 (SSRN Working Paper No. 3967857). SSRN. https://ssrn.com/abstract=3967857

16. Sherstoboeva, E. (2024). Russian bans on "fake news" about the war in Ukraine. Media, War & Conflict. Advance online publication. https://doi.org/10.1177/17480485231220141

17. Yablokov, I. (2025). Broadcasting through the (new) Iron Curtain. Journalism Studies. Advance online publication. https://doi.org/10.1080/1461670X.2025.2462550

18. Angın, C. (2025). A new dilemma for Turkish public administration: Combating disinformation in the context of public policy. Kent Akademisi (Urban Academy | Urban Culture and Management), 18(5). https://dergipark.org.tr/en/download/article-file/4439644

19. Santos, A. (2025). Holding platforms accountable in the fight against disinformation. Media, War & Conflict. Advance online publication. https://doi.org/10.1177/17480485251348550

20. Yildirim, E. O. (2022, October 20). Silenced, chilled, and jailed: The new Turkish law criminalizes disseminating "disinformation". Verfassungsblog. https://doi.org/10.17176/20221020-192039-0

E.M.Əhmədova
PhD, baş müəllim, Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0003-2419-2353
F.F.Əmirbəyov
UNEC Tədqiqat Fondunun Prezidenti
ORCID 0009-0003-0319-4402
S.E.Musayev
UNEC Tədqiqat Fondunun baş analitiki
ORCID 0009-0005-5633-6595
B.F.Məlikli
UNEC Tədqiqat Fondunun analitiki
ORCID 0009-0000-4893-9453

Beynəlxalq təcrübədə potensial informasiya təhdidləri: tənzimləmə modellərinin müqayisəli təhlili və IIRI indeksinin hazırlanması

Xülasə

Media məkanının rəqəmsal transformasiyası və transsərhəd informasiya axınlarının sürətlənməsi şəraitində potensial informasiya təhdidlərinin təhlili sosial və institusional sabitliyin mühüm amili kimi getdikcə daha böyük əhəmiyyət qazanır. Beynəlxalq praktikada bu anlayışın vahid və ümumi qəbul edilmiş tərifi mövcud deyil və milli tənzimləmə modelləri qiymətləndirmə meyarları və sərtlik səviyyəsinə görə əhəmiyyətli dərəcədə fərqlənir. Bu tədqiqatın məqsədi potensial informasiya təhdidlərinin şərhinə müqayisəli yanaşma formalaşdırmaq və universal informasiya tənzimlənməsi indeksini (International Information Regulation Index - IIRI) hazırlamaqdır. Tədqiqat çərçivəsində 14 ölkədə (ABŞ, Avropa İttifaqı, Çin, Rusiya Federasiyası, İran, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan, İsrail, Cənubi Koreya, Hindistan, Pakistan və Azərbaycan) normativ çərçivələr və tənzimləmə praktikaları təhlil edilmişdir. Müəyyən edilmiş əsas domenlərə (normativ genişlik, institusional güc, platforma öhdəlikləri, icra və məcburetmə mexanizmləri, prosedur təminatları və böhran rejimi) əsaslanaraq informasiya tənzimlənməsinin sərtliyini ölçən indeksin he-

sablanma formulu hazırlanmışdır. Araşdırmanın nəticələri dörd əsas tənzimləmə modelini müəyyən etməyə və onların müqayisəli sərtlik səviyyələrini qiymətləndirməyə imkan vermişdir. Tədqiqatın elmi yeniliyi potensial informasiya təhdidlərinin qiymətləndirilməsi üçün vahid metodologiyanın formalaşdırılması və ölkələrarası müqayisə aparmağa imkan verən analitik alətin yaradılmasındadır.

***Açar sözlər**: informasiya təhdidləri, informasiya tənzimlənməsi, dezinformasiya, milli təhlükəsizlik, rəqəmsal tənzimləmə, beynəlxalq müqayisə, IIRI indeksi, dövlət siyasəti, media hüququ.*

E.M.Ahmadova
PhD in Economics, Senior Lecture,
Azerbaijan State University of Economics (UNEC),
ORCID 0000-0003-2419-2353
F.F.Amirbekov
President of the UNEC Research Foundation
ORCID 0009-0003-0319-4402
S.E.Musayev
Head of analytics at the UNEC Research Foundation,
ORCID 0009-0005-5633-6595
B.F.Melikli
Data analyst at the UNEC Research Foundation
ORCID 0009-0000-4893-9453

Potential information threats in international practice: comparative analysis of regulatory models and development of the IIR index

Abstract

In the context of digital transformation and the intensification of cross-border information flows, the analysis of potential information threats has become increasingly significant for ensuring social and institutional resilience. International practice lacks a unified definition of potential information threats, while national regulatory models differ substantially in their criteria and levels of strictness. The aim of this study is to develop a comparative framework for conceptualizing potential information threats and to introduce a universal International Information Regulation Index (IIRI). The research examines regulatory frameworks and practices in 14 countries (United States, European Union, China, Russian Federation, Iran, Turkey, Georgia, Kazakhstan, Uzbekistan, Israel, South Korea, India, Pakistan, and Azerbaijan). Based on six domains (regulatory scope, institutional capacity, platform governance, enforcement mechanisms, procedural safeguards, and crisis regulation), a formula for calculating the strictness of information regulation is proposed. The findings identify four regulatory models and establish comparative levels of regulatory intensity. The scientific contribution of the study lies in the development of a unified methodological approach to assessing potential information threats and providing a tool for cross-national comparison.

***Keywords**: information threats, information regulation, disinformation, national security, digital regulation, international comparison, IIRI index, public policy, media law.*

https://doi.org/10.58225/tim.2026-2-548-554

A.Q.Səmədova
i.f.d., Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
aygun.samedova@yahoo/com
E.E.Mehdiyev
magistrant, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
elvinmehdiyev2003@gmail.com

Məqalə redaksiyaya daxil olub 28.03.2026
The article was received by editorial board on 28.03.2026
Статья принята к печати 28.03.2026

AZƏRBAYCANDA TURİZMİN İDARƏ EDİLMƏSİNDƏ BEYNƏLXALQ MODELLƏRİN TƏTBİQİ İMKANLARI

Xülasə

Məqalənin məqsədi *Azərbaycanda turizm idarəetmə sistemində beynəlxalq modellərin tətbiqinin əsas istiqamətləri dövlət yönümlü model, dövlət-özəl tərəfdaşlıq (PPP), destinasiya menecment təşkilatları (DMO), klaster, koordinasiya olunmuş və rəqəmsal idarəetmə modelləri müqayisəli şəkildə təhlilindən ibarətdir. Qlobal modellər turizm sektorunda idarəetmənin təkminləşdimiş və uzunmüddətli inkişaf konsepsiyaların əhatə edir və bu sahədə dövlət, özəl təşkilatlar, biznes nümayəndələri, digər maraqlı tərəflərin iştirakın təmin edir.*

Metodologiyası *- müqayisəli analiz, sistemli yanaşma və institusional təhlilə əsaslanaraq, mənbələr üzrə müxtəlif yanaşmalardan ibarətdir. Beynəlxalq təcrübbənin öyrənilməsində müqayisəli anliz metodiunun tətbiqi üstünlüklərin üzə çıxarılmasına və ölkə üzrə tətbiqinin yollarını müəyyənləşdirir. Sistemli yanaşma isə turizmin idarə edilməsində mərkəz, destinasiyaönümlü və klaster modellərinin birgə tətbinin üstünlüklərin üzə çıxarır. Həmçinin institusional analiz dövlət və özəl sektorun rolunun uzlaşdırlmasına, dövlət-özəl sektor tərəfadşlığı və maraqlı tərəflərin seçilməsinə şərait yaradır. Məlumat bazası kimi UNWTO, WTTC və Scopus indeksli elmi mənbələrdən istifadə edilmişdir.*

Elmi yenilik *- qlobal miqyasda mövcud olan idarəetmə modellərinin Azərbaycanda tətbiqinin əsas üstünlükləri müəyyən edilmişdir. Bu üstünlüklərə mərəkəzi idarəetmə ilə yanaşı destinasiya, koordinasiya olunmuş, davamlı və rəqəmsallaşma, icma əsaslı modellərin tətbiq istiqamətləri əsaslandırılır.*

Nəticə *- Azərbaycanda beynəlxalq təcrübənin tətbiqində mövcud idarəetmə modeli ilə müqayisəli təhlili verilmiş, üstünlükləri və tətbiq istiqamətləri göstərilmişdir. Nəticələr göstərir ki, Azərbaycanda turizm idarəçiliyinin effektivliyinin artırılması üçün DMO modelinin genişləndirilməsi, rəqəmsallaşma və dövlət-özəl əməkdaşlığın gücləndirilməsi daha səmərəlidir.*

Açar sözlər: *Azərbaycanda turizm idarəetməsi, DMO, PPP, dayanıqlı turizm, koordinasiyalı idarəetmə, rəqəmsallaşma.*

GİRİŞ

Turizm sektoru qlobal iqtisadiyyatın aparıcı sahələrindən biri kimi ölkələrin iqtisadi artımına, məşğulluğa və regional inkişafına mühüm təsir göstərir. Müasir dövrdə turizm yalnız xidmət sahəsi kimi deyil, həm də kompleks idarəetmə sistemini tələb edən çoxşaxəli iqtisadi fəaliyyət sahəsi kimi qiymətləndirilir. Qloballaşma, rəqabətin artması və texnoloji transformasiya turizm idarəçiliyində ye-

ni modellərin tətbiqini zəruri etmişdir [3, s. 609-623]. Xüsusilə destinasiya əsaslı idarəetmə, dövlət-özəl tərəfdaşlıq və rəqəmsal platformaların inkişafı turizm sektorunun idarə olunmasında mühüm rol oynayır. Azərbaycanda turizm sektoru son illərdə prioritet sahələrdən biri kimi müəyyən edilmiş və institusional islahatlar həyata keçirilmişdir.

Turizm idarə edilməsi və tənzimlənmə metodları müxtəlif yanaşmalar və modelləri özündə birləşdirir ki, bunların da Azərbaycanda tətbiqi yerli şəraiti nəzərə alamaqla ən yaxşı təcrübələri birləşdirməlidir. Dövlətin turizm sektoruna təsirləri qlobal miqyasda dörd istiqamət üzrə aparılır. Dövlət turizm sektorunun tənzimlənməsində bu sahənin çoxsəviyyəli komples yanaşmalarını və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsinə əsaslanır. Bu baxımdan dövlət tənzimlənməsinin prinsipləri uyğunlaşırılmış nazirlik çərcivəsi, milli turizm admistrasiyalarının əlaqələndirilməsi, ölkənin beynəlxalq imicinin yaradılması, keyfiyyət standartlarının tətbiqinə yönəldilir [1, s.32-41]. Bu baxımdan beynəlxalq ən yaxşı təcrübələrin yerli amilləri nəzərə almaqla tətbiqi, həmçinin üstünlükləri catışmazlıqlarının əvvəlcədən müəyyən edilməsi idarəetmə səmərəliliyin təmin edilməsi, yerli idarəetmə orqanlarının, icmalrın və digər maraqlə tərfələrin cəlb edilməsi baxımından əhəmiyyətlidir.

Turizm idarəetmə modelləri üzrə elmi ədəbiyyatda müxtəlif yanaşmalar mövcuddur. Dövlət yönümlü model əsasən inkişaf etməkdə olan ölkələr üçün xarakterik olub, dövlətin aparıcı rolunu nəzərdə tutur [6, s. 272-278]. Bu modeldə strateji qərarlar və planlaşdırma mərkəzləşdirilmiş şəkildə həyata keçirilir. Dövlət-özəl tərəfdaşlıq modeli isə turizmdə investisiya və idarəetmə effektivliyinin artırılmasına yönəlib [4, s. 206-219]. Bu model bazar mexanizmləri ilə dövlət tənzimlənməsinin balansını təmin edir. Destinasiya menecment təşkilatları (DMO) turizm idarəçiliyində regional yanaşmanı ön plana çıxarır və maraqlı tərəflərin koordinasiyasını təmin edir [7, s. 202-229]. Rəqəmsal turizm və "smart tourism" anlayışı isə son illərdə daha geniş yayılmışdır. Bu yanaşma informasiya texnologiyalarının turizm idarəçiliyinə inteqrasiyasını nəzərdə tutur [5, s.179-188].

MÜZAKİRƏ

Turizm sektorunda dövlət idarəetmə modelləri qərarların hazırlanması, monitorinqi, hüquqi mexanizmlərin yaradılması, investiya mühitinin yaxşılaşdırlmasına yönəldilir. Dünya Bankının destinasiyaların idarə olunmasına dair yanaşmasında qeyd olunur ki, dövlətin turizm sektoruna inzibati təsirləri maraqlı tərəflər arasında koordinasiya etmək, resursların birgə idarə edilməsi və vahid destinasiya baxışının formalaşmasın təmin etməlidir.

Azərbaycanda turizm strategiyasının müəyyənləşdilməsində idarəetmənin təkminləşdilməsi, regionlar və əsas destinasiyaların inkişafın təmin edilməsi, məhsulların rəqabət qabiliyyətinin artılması və gələcək klsaterlərin tətbiqənə istiqamətlənir. Bu baxımdan idarəetmənin təşkili və institusional münasibətlərin tənzimlənməsində destinasiya modeli, maraqlı tərəflərin cəlb edilməsi xüsusi önəm verilir [2, s.7-12].

Turizm sektorunun idarə edilməsində üstünlüklərin təmin edilməsi dövlət tənzimlənməsi ilə yanaşı, biznes modelləri də mövcuddur ki, bu da sənayesinin inkişafına yönəldilmiş olur. Biznes modelləri fəqli ölkələrdə təcrübə əsasında formalaşır ki, mərkəzləşdirmə, regionlaşma və destinasiya fəaliyyətlərini özündə birləşdirir.

Cədvəl 1

Turizm sənayesinin idarəetmə modellərinin müqayisəli təhlili

Dövlət idarəetmə modelləri	Əsas xüsusiyyət-ləri	Müqayisəli üstünlükləri	Məhdudiyyət-lər	Uyğunluq şəraiti	Azərbaycan da tətbiq imkanları

Mərkəzləşdirlmiş model	Turizm siyasəti və strategiyası mərkəzi dövlət orqanı tərəfindən həyata keçirilir	Vahid strategiya formalaşdırılır, resurslardan səmərəli istifadə olunur, milli brendin təqdimatı, qərarların koordinasiyası təmin edilir	Bölgələrin spesifik xüsusiyyətləri kifayyət qdər nəzərə alınmaması, yerli təşəbbüslərin zəifləməsi, bürokratiyanın artması.	Turizmi yeni inkişaf etdirən ölkələrdə; güclü dövlət koordinasiyası tələb olunan hallarda, milli marketinq və iri infrastruktur layihələrində	Hazırda tətbiq olunur, dövlət strategiyaları na əsaslanır
Desentalizasiya modeli	Səlahiyyətlərin bir hissəsi regional idarələr və destinasiyaya yönəldilir	Yerli potensialın ehtiyaclara uyğun qiymətləndirməsi, çevik qərarvermə, regional ixtisaslaşmanın təmin edilir, icmaların fəal iştirakı ilə seçilir	Bölgələr arasında fərqlərin artması, bəzilərinin zəifləməsi, strategiyanın parçalanması və tam həyata keçirilmə imkannın azalması	Güclü yerli idarəetmə ənənəsi olan ölkələrdə; regional müxtəlifliyin yüksək olduğu ərazilərdə; destinasiya əsaslı inkişafda tətbiq edilir	Ölkədə destinasiyalrın inki-şafında tətbiq edilməsi, regional inkişafa təkan verə bilər
Koordinasiya edici (qarışıq)	Mərkəzi strategiya ilə yerli idarəetmə yanaşmaları birləşdirilir	Yerli idarəetmədə çeviklik təmin edilir, maraqlı tərəflər cəlb edilir, səlahiyyətlər bölgüsündə balans təmin olunur, praktik idarəetmə və funksionallıq artır	Koordinasiya yüksək səviyyədə olduğuna görə institusional bölgü aydın olmaya bilər ki, bu da səlahiyyət bğlgüsündə problem yarada bilər	Turizm siyasətinin müxtəlif mərhələrində tətbiq oluna bilər, uzun müddətli dayanıqlı inkişaf strategiyası üzrə tətbiq edilə bilər	Regional turizm siyasəti və maraqlı tərəflərin cəlb edilməsində tətbiq olunması mümkündür.
Dövlət-özəl tərəfdaşlığı (PPP)	Dövlət tənzimləyici və dəstəkləyici özəl sektor xidmətləri və investisiyalar üzrə fəallıq göstərir	İnvestiyaların cəlb edilməsi artır, xidmət kefiyyətinin yükəsəldir, innovasiya və bazara uyğunlaşma güclənir, maliyyə yükü bölüşdürülür.	Hüquqi mexanizmlər yaradılmadıqda maraqların toquşması baş verir. Sosial-iqtisadi, ekoloji və icma maraqlarının toqquşması baş verir	Biznesin yüksək inkişaf etdiyi ölkələrdə, turizm infrastrukturu və xidmətin genişləndirilməsi üçün istifadə edilir, investisiya layihələri genişlənir	Dövlət-özəl əməkdaşlığı layihələrin maliyyələşdirilməsində effek-tiv ola bilər. Həmçinin regionlardakı layihələrin birgə işlənməsinə müsbət təsirləri vardır

Klsater əsaslı model	Müəyyən ərazidə bütün sub-yektlər koordinasi-ya olunmuş şəkildə fəaliyyət göstərir	Məhsul və xidmətin ərazidə yığcamlığı təmin edilir, ortaq marketinq və innovasiya imkan-ları genişlənir, rə-qabət qəqabət qa-biliyyəti yükəslir, sinerji effekti yara-dır, qabiliyyəti yük-səlir	Yükəsk əmək-daşlıq, biznes cəlb edilməsin tələb edir, zəif inkişaf etmiş bölgələrdə sə-mərə vermir, institusional əlaqələndirmə çətin ola bilər	Turizm-rekreasiya zonalarında, ixtisaslaş-dırlmış tu-rizm məkan-larının təşki-lində, yerli biznes şəbəkələri-nin genişlən-dirilməsin-də effektivli-yi vardır	Regionlarda, turizm destina-siyalarında, həmçinin işğal-dan azad olun-muş ərazilərdə klaster modeli-nin tətbiqi sə-mərəli olardı
Destinasiya əsaslı model	Seçilmiş destinasiya-nın məkan idarəetməsi nə üstünlük verilir	Turizm məhsulu-nun vahid sistem kimi idarə olunma-sın asanlaşdırır, destinasiya brendin yaradır və güclən-dirir, turist təcrübə-ləri artırılır, maraqlı tərəflər arasında əlaqələndirmə təmin edilir	Güclü destina-siya menecmen-ti olmadıqda idarəetmə çətinləşir, ma-raqlı tərəflərin zidiyyətləri yarana bilər	Kurort-istirahət, şəhər, sağ-lamlıq, mə-dəni və digər turizm məh-sullarının məkan miq-yasında tanı-tdırılması, beynəlxalq bazara çıxa-rılması, brendinqinin təşkilində rolu vardır.	Ölkədə turizm destinasiyarı-nın inkişafı, məhsul siyasə-tinin təşkili, brendləşmsin-də mövcud mo-deldən istifadə oluna bilər
Dayanıqlı idarəetmə modeli	Turizm siyasəti ətraf mühi-tin qorun-ması, da-vamlı inki-şaf məqsəd-ləri və icma-ların iştira-kına yönəl-dilir	Turizm potensia-lının qorunması tə-min edilir, yerli icmaların icmala-rın iştirakı artır, uzunmüddətli stra-tegiyanın qurulma-sına imkan verir, turizmin ətraf mü-hitə zərər vurması-nın qarşısı alınır	Uzunmüddətli iqtisadi gəlirlə-rin davamlılığı təmin edilməyə bilər. Monito-riq və idarəet-mə xərcləri arta bilər	Mövcud turizm potensialının qorunması, həssas ərə-zilərə xüsusi yanaşma, ekoturizm, yaşıl turizm, etno-mədəni, icma turizm məhsulları-nın inkişafı və uzunmüd-dətli planlaş-dırma da-vamlı inkişaf məqsədləri-nin nəzərə alınması	Turizmin planlaşdırılm a-sında davamlı inkişaf məq-sədlərinin nə-zərə alınması, ekoloji, kənd, yaşıl, "yum-şaq", icma əsaslı turizmin inkişafının dəstəklənməs i

Rəqəmsal idarətmə modeli	e-viza, smart destinasiya, rəqəmsal monitorinq, məlumat əsaslı idarəetmə, statistik təhlilərin aparılması	Operativ idarəetmə və qərarların verilməsi təmin edilir, dəqiq statistika və analitik təhlil aparılır, turist axınlarının izlənməsi, xidmət kefiyyətinin real vaxtda dəyərləndirilməsi marketinqin effektivliyin təmin edilməsi.	Yüksək texnologiyaların tətbiqi üçün infrastruktur tələb olunur ki, bu da əlavə xərclərin yaranmasına, risklərin artmasına, kadr çatışmazlığına səbəndən ola bilər	Yüksək inkişaf etmiş turizm bazarlarında turist axınlarının izlənilməsi, trendlərin tətbiqi, "ağıllı" turizm texnologiyalarından istifadə edilməsi.	Regional mərkəzlərdə, turizm zonala-rı, DMT idarə ediiməsində istifadə, "ağıl-lı" turizm sistemlərinin tətbiqinin genişləndilmə-si

Mənbə: *[4, s.206-219; 6, s.272-288; 7, s.202-229; 9, s.12-19]*

- **Mərkəzləşdirlmiş model.** Bu modelin əsas xüsusiyyətləri strateji planlaşdırma, beynəlxalq əməkdaşlıq, turizm brendinin təşviqi, investiya qərarlarının birgə idarə edilməsinə əsaslanır. Modelin əsas üstünlüyü idarəetmədə vahidliyin, strateji ardıcıllığın və sürətli koordinasiyanın təmin edilməsinə imkan verir. Nəticədə milli turizm brendinin formalaşması, vizaların sadələşdirlməsi, beynəlxalq bazarlarda turizm məhsullarının vahid imicinin yaradılmasına imkan verir. [6, s.272-288].

Azərbaycanda qeyd olunan biznes modelin tətbiqi daha çox vahid investisiya siyasətinin dəstəklənməsin və koordinasiyanın təşkili cəlbedici sayıla bilər. Regional inkişaf baxımından bu biznes modeli effektiv sayılmır, yalnız mərkəz paylaşım kanallarının üstünlüklərini görmək mümkündür. Belə ki, yerli icmaların, bələdiyyələrin, kiçik sahibkarlıq subyektlərinin kənarında qalması isə destinasiyaların inkişafına mənfi təsir etmiş olur.

- **Desentralizasiya olunmuş model.** Turizm idarəçiliyində səlahiyyətlərin mərkəzi hökumətlə yanaşı, regional və yerli idarəetmə orqanları arasında bölüşdürülməsindən ibarətdir. Burada dövlətin ümumi turizm strategiyası, milli standartlara və qanunvericilik bazasında turizm məhsullarının inkişafında regional və yerli təşkilatların iştirakını mümkün edir. Belə ki, Avropa Komissiyasının turizmin inkişafına dair tövsiyyə və materiallarda regional, yerli səviyyənin turizm siyasətində mühüm rolu vurğulanır ki, bu da regionların potensialından maksimum istifadə etməyə imkan verir [4, s.206-219].

Azərbaycan şəraitində desentralizasiya modeli destinasiyalar üzrə turizm məhsullarının inkişafına, brendləşməyə, regional təşəbbüslərin geniş tətbiqinə şəriat yarada bilər. Hazırda mərkəz idarəetməsinin üstün olduğun nəzərə alaraq, regional inkişaf təşəbüslərini nəzərə alaraq strategiyanın formalaşdırlması regional iqtisadi inkişafa təkan verməklə yanaşı, turizm məhsullarının rəqabət qabiliyyətinin artmasına səbəb olacaqdır.

- **Qarışıq və ya koordinasiyaedici model.** Bu modeldə mərkəzi icra orqanı strateji isrtiqamətlər, normativ-hüquqi baza, milli marketinq siyasətini müəyyən edir, regional və yerli qurumlar isə həmin stategiyanın tətbiqini məkan miqyası, maraqlı tərəflərlə birlikdə həyata keçirirlər. OECD bu yanaşmanı "whole-of-government" və ya "multi-level governance" prinsipləri ilə əlaqləndirlir ki, bu da turizm siyasətinin nazirlik səviyyəsində deyil nəqliyyat, ətraf mühit, mədəniyyət, əmək bazarı, regional inkişaf və rəqəmsalaşma kimi digər sahələrlə inteqrasiya olunmuş şəkildə təşkil olunur [4, s.122-135].

Azərbaycanda bu modeldən istifadə beynəlxalq səviyyədə ölkənin turizm imicinin qorunması, destinasiyalar üzrə fərqlənən turizm məhsullarını yaratmağa imkan verəcəkdir.

- **Dövlət-özəl tətəfdaşlığına əsaslanan model.** Bu modeldə dövlətin daha çox tənzimləyici, stimullaşdırıcı və infrasturktur təminatçısı kimi çıxış edir, özəl sektor isə əsas xidmət təminatçısı və investiya daşıyıcısı rolunda çıxış edir. Belə ki, yerləşmə müəssisələri, iaşə və əyləncə sektoru, nəqliyyat, rəqəmsal rezervasiyalarda özəl sektorun payı artır ki, bu da turizm sənayesində səmərəliliyi təmin etmiş olur. Dünya Bankının turizm sektorunun rəqabət qabiliyyətinə dair məlumatlarında vur-

ğulanır ki, turizmin inklüziv məşğulluq, innovativ biznes və təbii-mədəni aktivlərin iqtisadi dəyərə çevrilməsində özəl sektorun rolu üstün olmaqla dövlətlə-biznes arasındakı əlaqələndirməni vacib edir [9, s.12-19].

Azərbaycanda qeyd olunan model şəbəkələşmə şəkilində geniş tətbiq edilir. Bu da investiya yükünün bölüşdürülməsi, innovasiyaların sürətləndirilməsi və bazar tələbinə daha çevik uyğunlaşmasını təmin edir. Ölkədə belə tərəfdaşlığı uğurlu olması üçün hesabatlılıq və uzunmüddətli planlaşdırma, regional inşkişafın dəstəklənməsi vacibdir.

- Klaster əsaslı idarəetmə modeli. Bu model təcrübənin formalaşdırlması mehmanxanalar, iaşə obyektləri, nəqliyyat, ekskursiya xidmətləri, mədəni irs müəssisləri, suvenir istehsalı, bələdçilər, yerli icmalar və dövlət qurumları birlikdə iştirakı ilə təmin edilir [8, s.1-15].

Azərbaycan şəraitində klaster yanaşması turizm sektorunda rəqabətliliyin, dayanıqlığın artılması üçün yerli və regional eko-mədəni sistemlərin gücləndilməsinə imkan verərdi. Bununla yanaşı, müxtəlif subyektlər, maraqlı tərəflər arasında əlaqələr artdıqca xidmətlərin inteqrasiyasının güclənməsi, innovativ məhsullarının yaranması və destinasiyalrın rəqabətliliyinin yüksəldə bilər.

- Destinasiyaya əsaslan idarəetmə modeli. Bu model şəhər, kurort-istirahət zonası, təbiət və ya mədəni turizm mərkəzləri destinasiya kimi idarə edilməsi və brendləşdilməsinə üstünlük verilir. Dünya Bankının "Destination Management Handbook" hesabtında qeyd olunur ki, destinasiya idarəçiliyi məhsulun inkişafı, maraqlı tərəflərin koordinasiyası, rəqəmsal marketinqin qurulması, ziyarətçi axınının idarə olunması, kefiyyət və dayanıqlılıq məsələlərinin vahid sistemdə birləşdirlməsinə tövhə vermiş olur [8, s.1-15].

Azərbaycanda qeyd olunan modelin tətbiqinə 2018-ci idən başlanılmış, əvvəlcə DMT-lər təşkil edilmiş, 2022-ci ildən regional turizm idarələri ilə əvəz edilmişdir. Bu baxımdan regional turizm idarələri dövlət qrumları ilə birlikdə biznes və icma qurumları arasında koordinasiya yaradır, destinasiya brendinin formalaşmasına şərait yaradır, müxtəlif dəstəkləyici tədbirlər keçirir, turizm məhsulu paketlərinin yaradılması, turist məlumat sistemləri formalaşdırır.

- Dayanıqlı və rəqəmsal idarəetmə yanaşması. UNWTO, Beynəlxalq Səyahət təşkilatı, Avropa Kommisyası və Dünya Bankının turizmin gələcək inkişafına dair hesabatlarında dayanıqlı inkişaf məqsədləri, inklüzivlik, yaşıl və rəqəmsal keçid turizm sənayesinin əsas prioriteti istiqamətləri olaraq müəyyənləşdilib [9, s.12-19].

Azərbaycanda Dayanıqlı inkişaf məqsədləri və rəqəmsal texnologiyanın idarəetmədə tətbiqi resursların səmərəliliyi, ətraf mühitin qorunması, səyahətçi sıxlığının idarəedilməsi, yerli icmaların əlavə dəyər yaratması, turistlər üçün real vaxtda məlumat sistemlərinin qurulması dövlət idarəetməsinin tərkib hissəsinə çevirəcəkdir.

NƏTİCƏ

Turizm sektorunun dövlət idarəetmə modellərinin Azərbaycan şəraitin nəzərə almaqla üstünlüklərinin tətbiqi bu sahənin rəqabətqabiliyyətli, dayanıqlı və koordinasiyalı inkişafı təmin edəcəkdir. Azərbaycanda qeyd olunan modellərin müsbət tərəflərinin seçilməsi, mənfi nəticələrinin əvəlcədən proqnozlaşdırlmasına şərait yaratmaqla yanaşı, vahid strategiya formalaşdıracaqdır. Eyni zamanda, investiyaların təşviqi, innovasiyaların gücləndirlməsi, klasterlərin formalaşdırılması, çox tərəfli koordinasiyanın tətbiqi destinasiyaların rəqabətə davamlı məhsullarının yaradılmasına imkan verəcəkdir. Azərbaycanda beynəlxalq turizmdə ən yaxşı təcrübələrin tətbiqində mərkəzləşdirilmiş, desentrilizasiya, koordinasiyaedici, dövlət-özəl tərəfdaşlığı, destinasiya, klaster, dayanıqlı və rəqəmsal idarəetmə modelləri müqayisəli şəkildə öyrənilmişdir. Bu idarəetmə modellərin üstünlükləri və çatışmazlıqları göstərilməklə ölkə üzrə mərkəzləşrilmiş, koordinasiya edici, dövlət-özəl tərəfdaşlığın daha uyğun olması müəyyənləşdirlmişdir. Belə ki, qeyd olunan idarəetmə modellər həm strategiyanln formalaşmasında, destinasiyalrın inkişafında, maraqlı tərəflərin cəlb edilməsində, turizmdə investiyaların artırılmasında, icmalar üçün əlavə dəyərin yaradılmasına səbəb olacaqdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi // Qanun nəşriyyatı, 98 s.

2. DTA, Azərbaycan Respublikasının turizm strategiyası 2023-2026*, Bakı, 18 s.*

3. Buhalis, D., & Law, R. (2008). Progress in information technology and tourism management. Tourism Management, 29(4), 609–623.

4. David L. Edgell, Sr. Managing Sustainable Tourism, London 2019. 304 p. https://doi.org/10.4324/9780429318122

5. Gretzel, U., Sigala, M., Xiang, Z., & Koo, C. (2015). Smart tourism: Foundations and developments. Electronic Markets, *25*(3), 179–188.

6. Hall, C.M. (2008) Tourism Planning: Policies, Processes and Relationships // Journal of Policy Research in Tourism Leisure and Events, pp. 272-288.

7. Pike, S., & Page, S. J. (2014). Destination marketing organizations and destination marketing. Tourism Management, 41, 202–227.

8. Rodolfo Baggio, Chris Coope Knowledge transfer in a tourism destination: The effects of a network structure // The Service Industries Journal, vol. 30, n. 8, 2010, pp.1-15.

9. United Nations World Tourism Organization (2022). Tourism Governance and Policy Frameworks, 36 p.

A.K.Samadova
PhD, Azerbaijan Academy of Labour and Social Relations
E.E.Mehdiyev
master student, Azerbaijan Academy of Labour and Social Relations

Application of international models in tourism management in Azerbaijan

Abstract

The purpose of the article *is a comparative analysis of state-oriented model, Public-Private Partnership (PPP), destination management organizations (DMO), cluster, coordinated and digital management models. Global models cover the concepts of improved and long-term development of Management in the tourism sector and ensure the participation of public, private organizations, business representatives, other stakeholders in this area.*

Methodology *- based on comparative analysis, systematic approach and institutional analysis, it consists of different approaches on sources. The application of the comparative analysis method in the study of international practice determines the ways to reveal the advantages and apply them throughout the country. A systematic approach reveals the advantages of joint implementation of center, destination and cluster models in tourism management. Institutional analysis also contributes to the reconciliation of the role of the public and private sectors, public-private partnership and the selection of stakeholders. Scientific sources with UNWTO, WTTC and Scopus indexes were used as databases.*

Scientific innovation *- the main advantages of applying globally existing management models in Azerbaijan have been identified. In addition to some management, the directions of destination, coordinated, sustainable and digitalization, and application of community-based models are justified.*

Conclusion *- a comparative analysis of the application of international experience in Azerbaijan with the existing management model is given, advantages and directions of application are shown. The results show that the expansion of the DMO model, digitalization and strengthening of public-private cooperation are more effective in order to increase the effectiveness of Tourism Management in Azerbaijan.*

Keywords: *tourism management in Azerbaijan, DMO, PPP, sustainable tourism, coordinated management, digitalization.*

https://doi.org/10.58225/tim.2026-2-555-563

C.R.Becanov
doktorant, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
İqtisadiyyat İnstitutu
becanov77@gmail.com

Məqalə redaksiyaya daxil olub 19.03.2026
The article was received by editorial board on 19.03.2026
Статья принята к печати 19.03.2026

REGİONAL SƏNAYELƏŞMƏDƏ SAHİBKARLIQ MODELİ: QEYRİ-NEFT SEKTORUNDA BEYNƏLXALQ TƏCRÜBƏNİN TƏTBİQ İMKANLARI

Xülasə

Tədqiqat regional sənayeləşmə prosesində sahibkarlığın rolunu və qeyri-neft sektorunun inkişafında beynəlxalq təcrübənin tətbiq imkanlarını araşdırmağa həsr olunmuşdur. Müasir iqtisadi inkişaf şəraitində regional sənayeləşmə iqtisadiyyatın struktur şaxələndirilməsi, regionların iqtisadi potensialının artırılması və davamlı iqtisadi artımın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Tədqiqatın əsas məqsədi regional sənayeləşmənin nəzəri əsaslarını təhlil etmək, sahibkarlığın bu prosesdə funksional rolunu müəyyənləşdirmək və müxtəlif ölkələrin təcrübəsi əsasında qeyri-neft sektorunda regional sənayeləşmə üçün sahibkarlıq modelinin formalaşdırılması istiqamətlərini müəyyən etməkdir. Tədqiqat zamanı müqayisəli təhlil, sistemli yanaşma və iqtisadi ədəbiyyatın analizi metodlarından istifadə olunmuşdur. Məqalədə regional sənayeləşmədə sahibkarlığın rolu araşdırılmış, Cənubi Koreya, Almaniya, Türkiyə, Çin və ABŞ kimi ölkələrin regional sənaye inkişafı sahəsində tətbiq etdiyi sahibkarlıq modelləri təhlil edilmişdir. Aparılan təhlillər göstərir ki, regional sənayeləşmənin effektiv həyata keçirilməsi üçün sahibkarlığın inkişafı, innovasiya ekosisteminin formalaşdırılması, sənaye klasterlərinin yaradılması və investisiya mühitinin yaxşılaşdırılması mühüm əhəmiyyət daşıyır. Tədqiqatın nəticələri göstərir ki, beynəlxalq təcrübənin regional iqtisadi siyasətə inteqrasiyası qeyri-neft sektorunun inkişafını sürətləndirə və regionların sənaye potensialının artırılmasına töhfə verə bilər. Eyni zamanda sahibkarlığın təşviqi, maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, innovasiya infrastrukturlarının inkişafı və insan kapitalının gücləndirilməsi regional sənayeləşmə üçün mühüm istiqamətlər kimi müəyyən edilmişdir. Bu yanaşmaların sistemli şəkildə tətbiqi iqtisadiyyatın davamlı və balanslı inkişafına mühüm töhfə verə bilər.

Açar sözlər: *regional sənayeləşmə; sahibkarlıq; qeyri-neft sektoru; iqtisadi diversifikasiya; regional inkişaf.*

GİRİŞ

Qlobal iqtisadi inkişaf prosesində regional sənayeləşmə ölkələrin iqtisadi strukturunun şaxələndirilməsi və davamlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir iqtisadi siyasətdə regionların istehsal potensialının inkişaf etdirilməsi, yerli resurslardan səmərəli istifadə olunması və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi regional iqtisadi inkişafın əsas istiqamətlərindən biri kimi qiymətləndirilir. Xüsusilə təbii resurslara əsaslanan iqtisadiyyatlarda qeyri-xammal sektorunun inkişafı və regional sənaye potensialının gücləndirilməsi iqtisadi dayanıqlığın təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan regional sənayeləşmə iqtisadiyya-

tın struktur transformasiyasını sürətləndirən və regionlararası iqtisadi fərqlərin azaldılmasına xidmət edən mühüm mexanizmlərdən biri hesab olunur.

Regional sənayeləşmə prosesində sahibkarlıq fəaliyyətinin rolu xüsusi əhəmiyyət daşıyır. Sahibkarlıq yeni istehsal sahələrinin yaranmasına, innovasiya fəaliyyətinin genişlənməsinə və regionlarda iqtisadi aktivliyin artmasına mühüm təsir göstərir. Kiçik və orta sahibkarlıq subyektləri regional iqtisadiyyatın inkişafında mühüm rol oynayaraq həm məşğulluğun artırılmasına, həm də yerli istehsal və xidmət sektorlarının genişlənməsinə şərait yaradır. Bu baxımdan sahibkarlığın inkişafı regional sənayeləşmə siyasətinin əsas komponentlərindən biri kimi çıxış edir və regionların iqtisadi potensialının reallaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Son illərdə bir çox ölkələr regional sənayeləşmənin sürətləndirilməsi məqsədilə sahibkarlığın inkişafına yönəlmiş müxtəlif iqtisadi siyasət alətlərindən istifadə etmişdir. Xüsusilə sənaye klasterlərinin yaradılması, xüsusi iqtisadi zonaların formalaşdırılması, innovasiya infrastrukturlarının inkişafı və sahibkarlara maliyyə dəstəyinin artırılması regional sənaye inkişafının stimullaşdırılmasında mühüm rol oynamışdır. Bu istiqamətdə Cənubi Koreya, Almaniya, Çin, Türkiyə və ABŞ kimi ölkələrin təcrübəsi regional sənayeləşmə və sahibkarlıq modellərinin uğurlu tətbiqi baxımından diqqətəlayiq hesab olunur. Bu ölkələrdə həyata keçirilən siyasət tədbirləri regionların sənaye potensialının artırılmasına, innovasiya fəaliyyətinin genişlənməsinə və qlobal iqtisadi sistemə inteqrasiyanın güclənməsinə şərait yaratmışdır.

Bu baxımdan beynəlxalq təcrübənin öyrənilməsi və regional iqtisadi siyasətə uyğunlaşdırılması xüsusi əhəmiyyət daşıyır. Müxtəlif ölkələrin regional sənayeləşmə sahəsində tətbiq etdiyi sahibkarlıq modellərinin təhlili inkişaf etməkdə olan ölkələr üçün mühüm praktiki nəticələr əldə etməyə imkan verir. Məqalənin məqsədi regional sənayeləşmənin nəzəri əsaslarını və sahibkarlığın bu prosesdə rolunu təhlil etmək, regional sənayeləşmədə sahibkarlıq modelləri üzrə beynəlxalq təcrübəni araşdırmaq və qeyri-neft sektorunda regional sənayeləşmə üçün sahibkarlıq modelinin formalaşdırılması istiqamətlərini müəyyənləşdirməkdir. Bu məqsədlə məqalədə regional sənayeləşmə və sahibkarlıq münasibətlərinin nəzəri aspektləri təhlil olunur, müxtəlif ölkələrin təcrübəsi araşdırılır və regional iqtisadi siyasət üçün tətbiq oluna biləcək əsas mexanizmlər müəyyən edilir.

Regional sənayeləşmənin nəzəri əsasları və iqtisadi inkişafda rolu

Regional sənayeləşmə iqtisadi inkişaf nəzəriyyələrində mühüm yer tutan və ölkələrin balanslı inkişafını təmin edən əsas mexanizmlərdən biri hesab olunur. Bu yanaşma iqtisadi fəaliyyətin yalnız paytaxt və iri şəhərlərdə cəmləşməsinin qarşısını almağı, regionların istehsal potensialının artırılmasını və iqtisadi strukturun şaxələndirilməsini hədəfləyir. Müasir iqtisadi ədəbiyyatda regional sənayeləşmə ərazi inkişafı, sənaye siyasəti və innovasiya sistemləri ilə sıx əlaqədə araşdırılır. Xüsusilə qeyd olunur ki, regionlarda sənaye fəaliyyətinin genişləndirilməsi məşğulluğun artmasına, yerli resurslardan daha səmərəli istifadə edilməsinə və regional gəlir bərabərsizliyinin azalmasına mühüm töhfə verir (Rodríguez-Pose, 2018).

Regional sənayeləşmənin nəzəri əsasları klassik regional inkişaf nəzəriyyələrinə söykənir. Bu nəzəriyyələrə Perroux-un inkişaf qütbləri konsepsiyası, Myrdalın kumulyativ səbəblilik yanaşması və Porter-in klaster nəzəriyyəsi daxildir. Müasir tədqiqatlarda isə bu yanaşmalar daha çox innovasiya yönümlü regional inkişaf modeli ilə birləşdirilir. Belə ki, regionların iqtisadi inkişafı yalnız sənaye müəssisələrinin yerləşdirilməsi ilə deyil, eyni zamanda innovasiya infrastrukturu, sahibkarlıq ekosistemi və institusional mühitin inkişafı ilə əlaqələndirilir. Bu baxımdan regional sənayeləşmə regional innovasiya sistemlərinin formalaşmasına və yerli biznes mühitinin güclənməsinə şərait yaradır (Asheim, Isaksen & Trippl, 2019).

Son illərdə aparılan tədqiqatlar göstərir ki, regional sənayeləşmə iqtisadi artımın davamlılığı baxımından da mühüm rol oynayır. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə regional sənaye siyasəti iqtisadiyyatın diversifikasiyasını təmin edən əsas alətlərdən biri kimi qiymətləndirilir. Dünya Bankının və OECD-nin tədqiqatlarında vurğulanır ki, regionlarda sənaye fəaliyyətinin genişləndiril-

məsi yerli istehsal zəncirlərinin formalaşmasına, kiçik və orta sahibkarlığın inkişafına və ixrac potensialının artmasına səbəb olur. Bu isə öz növbəsində milli iqtisadiyyatın daha dayanıqlı və rəqabətqabiliyyətli olmasına şərait yaradır (OECD, 2017; World Bank, 2020).

Regional sənayeləşmə həm də ərazi üzrə iqtisadi bərabərsizliyin azaldılmasına xidmət edir. Bir çox ölkələrdə iqtisadi fəaliyyətin mərkəzləşməsi regionlar arasında inkişaf fərqlərinin dərinləşməsinə gətirib çıxarır. Bu baxımdan regional sənaye siyasəti infrastrukturun inkişafı, sənaye parklarının yaradılması və investisiya təşviqləri vasitəsilə regionlarda iqtisadi aktivliyi artırmağa yönəlir. Müasir regional inkişaf siyasətlərində sənaye klasterlərinin formalaşdırılması, innovasiya mərkəzlərinin yaradılması və yerli sahibkarlığın dəstəklənməsi əsas prioritet istiqamətlər kimi çıxış edir (Ketels, 2017).

Müasir iqtisadi şəraitdə regionların sənaye potensialının inkişafı onların beynəlxalq istehsal və ticarət şəbəkələrində iştirakını genişləndirir. Bu isə yeni texnologiyaların transferinə, istehsal səmərəliliyinin artmasına və yerli müəssisələrin rəqabət qabiliyyətinin güclənməsinə imkan yaradır. Xüsusilə qeyri-neft sektorunun inkişafı baxımından regional sənayeləşmə strategiyası iqtisadiyyatın struktur diversifikasiyasının təmin edilməsində mühüm rol oynayır (UNIDO, 2019).

Sahibkarlığın regional sənayeləşmə prosesində funksional rolu

Regional sənayeləşmə prosesində sahibkarlıq iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir. Müasir iqtisadi tədqiqatlarda sahibkarlıq yalnız biznes fəaliyyəti kimi deyil, həm də innovasiyanın, texnoloji yeniliklərin və iqtisadi struktur transformasiyasının əsas mexanizmi kimi qiymətləndirilir. Xüsusilə regionların sənaye potensialının inkişafında sahibkarların fəaliyyəti yeni istehsal sahələrinin formalaşmasına, yerli resursların iqtisadi dövriyyəyə cəlb olunmasına və iqtisadi aktivliyin artmasına şərait yaradır. Bu baxımdan sahibkarlıq regional iqtisadiyyatın şaxələndirilməsi və davamlı inkişafının təmin olunmasında mühüm rol oynayır (Audretsch & Belitski, 2017).

Sahibkarlığın regional sənayeləşmədə əsas funksiyalarından biri innovasiya və texnologiyaların tətbiqini stimullaşdırmaqdır. Yeni biznes təşəbbüsləri çox vaxt yeni texnologiyaların və istehsal metodlarının tətbiqi ilə müşayiət olunur ki, bu da regionlarda sənaye məhsuldarlığının artmasına səbəb olur. Müasir iqtisadi ədəbiyyatda qeyd olunur ki, sahibkarlar bazarda mövcud boşluqları müəyyən edərək yeni məhsul və xidmətlər təqdim edir, nəticədə regionlarda innovasiya fəaliyyəti genişlənir və iqtisadi rəqabət qabiliyyəti güclənir (Acs, Stam, Audretsch & O'Connor, 2017). Bu xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm əhəmiyyət daşıyır, çünki sahibkarlıq fəaliyyəti yeni sənaye sahələrinin yaranmasına və iqtisadiyyatın diversifikasiyasına imkan yaradır.

Regional sənayeləşmə kontekstində sahibkarlığın digər mühüm funksiyası məşğulluğun artırılması və yerli əmək bazarının inkişafıdır. Kiçik və orta sahibkarlıq subyektləri bir çox ölkələrdə məşğulluğun əsas mənbələrindən biri hesab olunur. Xüsusilə regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektləri yeni iş yerlərinin yaradılmasına, yerli əhalinin iqtisadi fəaliyyətə cəlb olunmasına və sosial rifahın yüksəlməsinə mühüm töhfə verir. Tədqiqatlar göstərir ki, sahibkarlığın inkişaf etdiyi regionlarda iqtisadi aktivlik daha yüksək olur və iqtisadi artım daha davamlı xarakter daşıyır (OECD, 2018).

Sahibkarlıq eyni zamanda regional istehsal və təchizat zəncirlərinin formalaşmasına da təsir göstərir. Regionlarda fəaliyyət göstərən sahibkarlar yerli istehsal və xidmət sahələri arasında iqtisadi əlaqələrin yaranmasına və sənaye klasterlərinin formalaşmasına şərait yaradır. Klaster yanaşması çərçivəsində müəssisələr arasında əməkdaşlıq güclənir, resurslardan istifadə daha səmərəli olur və innovasiya fəaliyyəti sürətlənir. Bu baxımdan sahibkarlıq regional sənaye ekosisteminin inkişafına və istehsal əlaqələrinin genişlənməsinə mühüm töhfə verir (Delgado, Porter & Stern, 2016).

Bundan əlavə, sahibkarlıq regional iqtisadiyyatın qlobal iqtisadi sistemə inteqrasiyasında da mühüm rol oynayır. Sahibkarlar beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirərək regionların ixrac potensialını artırır və qlobal dəyər zəncirlərində iştirakını təmin edir. Bu isə regionlarda texnolo-

ji modernləşməni sürətləndirir və yerli sənaye müəssisələrinin rəqabət qabiliyyətini gücləndirir. Müasir tədqiqatlar göstərir ki, sahibkarlıq fəaliyyətinin inkişaf etdiyi regionlar qlobal iqtisadi proseslərə daha tez adaptasiya olur və sənaye inkişafı daha dinamik xarakter daşıyır (Stam & Van de Ven, 2021).

Regional sənayeləşmədə sahibkarlıq modelləri üzrə beynəlxalq təcrübə

Regional sənayeləşmə prosesində sahibkarlıq modellərinin tətbiqi bir çox ölkələrdə iqtisadi inkişaf strategiyasının mühüm komponenti kimi çıxış edir. Müasir iqtisadi ədəbiyyatda qeyd olunur ki, regionların sənaye potensialının inkişafı yalnız iri sənaye müəssisələrinin yaradılması ilə deyil, eyni zamanda sahibkarlığın təşviqi, innovasiya mühitinin formalaşdırılması və istehsal klasterlərinin yaradılması ilə təmin olunur. Bir çox ölkələrin təcrübəsi göstərir ki, dövlət siyasəti ilə sahibkarlıq təşəbbüslərinin uzlaşdırılması regionlarda sənaye inkişafını sürətləndirir və iqtisadiyyatın diversifikasiyasına mühüm töhfə verir (OECD, 2019). Bu baxımdan müxtəlif ölkələrin regional sənayeləşmə sahəsində tətbiq etdiyi sahibkarlıq modellərinin təhlili inkişaf etməkdə olan ölkələr üçün mühüm təcrübə mənbəyi hesab olunur.

Cənubi Koreya təcrübəsi

Regional sənayeləşmə və sahibkarlıq modelinin uğurlu tətbiqinə dair ən diqqətəlayiq nümunələrdən biri Cənubi Koreyadır. Bu ölkədə sənayeləşmə siyasəti dövlət tərəfindən strateji şəkildə istiqamətləndirilsə də, sahibkarlığın inkişafı və özəl sektorun fəallığı iqtisadi transformasiyanın əsas hərəkətverici qüvvəsi olmuşdur. Cənubi Koreyada regionlarda sənaye potensialının inkişafı məqsədilə texnoparklar, sənaye klasterləri və innovasiya mərkəzləri yaradılmışdır. Bu strukturlar sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yeni texnologiyaların tətbiqinə və istehsalın modernləşdirilməsinə imkan yaratmışdır.

Xüsusilə ölkənin texnologiya və elektronika sənayesində əldə etdiyi uğurlar regionlarda fəaliyyət göstərən sahibkarların innovasiya fəaliyyətinə cəlb olunması ilə əlaqədardır. Dövlət tərəfindən tətbiq olunan sənaye siyasəti çərçivəsində kiçik və orta sahibkarlıq subyektlərinə maliyyə dəstəyi, texnoloji transfert və ixrac təşviqləri təqdim edilmişdir. Bu siyasət nəticəsində regionlarda yerləşən sənaye müəssisələri qlobal istehsal zəncirlərinə inteqrasiya olunmuş və ölkənin qeyri-xammal sektorunun sürətli inkişafı təmin edilmişdir (Lee, 2017; World Bank, 2020).

Almaniya təcrübəsi

Regional sənayeləşmədə sahibkarlıq modelinin tətbiqinə dair digər mühüm nümunə Almaniyadır. Bu ölkədə sənaye inkişafının əsas xüsusiyyətlərindən biri güclü regional sənaye klasterlərinin və orta ölçülü müəssisələrin – "Mittelstand" modelinin mövcudluğudur. Almaniyada sahibkarlıq fəaliyyətinin regional sənaye inkişafında rolu xüsusilə yüksək texnologiyalı istehsal sahələrində özünü göstərir. Regionlarda yerləşən kiçik və orta müəssisələr sənaye innovasiyalarının tətbiqində və istehsal zəncirlərinin formalaşdırılmasında mühüm rol oynayır.

Almaniya modelində dövlət, universitetlər və biznes strukturları arasında əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq nəticəsində regionlarda innovasiya mərkəzləri, tədqiqat institutları və texnoloji inkubatorlar yaradılmışdır. Belə institutlar sahibkarların yeni texnologiyalara çıxış imkanlarını genişləndirir və sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırır. Almaniya təcrübəsi göstərir ki, regional sənayeləşmə prosesində sahibkarlığın inkişafı üçün institusional dəstək, güclü texnoloji baza və innovasiya ekosistemi mühüm rol oynayır (Audretsch & Lehmann, 2016; OECD, 2018).

Türkiyə təcrübəsi

Regional sənayeləşmə sahəsində sahibkarlıq modelinin tətbiqi baxımından Türkiyənin təcrübəsi də diqqətəlayiqdir. Türkiyədə son onilliklərdə regionların iqtisadi inkişafını sürətləndirmək məqsədilə sənaye zonalarının və təşkil olunmuş sənaye bölgələrinin yaradılması siyasəti həyata keçirilmişdir. Bu sənaye zonaları sahibkarlar üçün əlverişli biznes mühiti yaradır və yeni istehsal müəssisələrinin fəaliyyətə başlamasına imkan verir.

Türkiyədə regional sənayeləşmə siyasətinin mühüm elementlərindən biri də kiçik və orta sahibkarlığın dəstəklənməsi proqramlarıdır. Dövlət tərəfindən sahibkarlara maliyyə təşviqləri, vergi güzəştləri və investisiya dəstəyi təqdim olunur. Bundan əlavə, texnoparkların və innovasiya mərkəzlərinin yaradılması sahibkarlıq fəaliyyətinin inkişafına mühüm təsir göstərmişdir. Bu tədbirlər nəticəsində regionlarda sənaye istehsalı genişlənmiş, ixrac potensialı artmış və qeyri-xammal sektorunun inkişafı sürətlənmişdir (KOSGEB, 2020; UNIDO, 2019).

Çin təcrübəsi

Regional sənayeləşmədə sahibkarlıq modelinin tətbiqinə dair ən geniş miqyaslı təcrübələrdən biri Çində müşahidə olunur. Çin iqtisadi inkişaf strategiyasında regionların sənaye potensialının inkişafı və sahibkarlıq fəaliyyətinin təşviqi əsas prioritetlərdən biri olmuşdur. Bu məqsədlə ölkədə xüsusi iqtisadi zonalar, sənaye parkları və texnoloji inkişaf zonaları yaradılmışdır.

Çində tətbiq olunan sahibkarlıq modeli dövlətin aktiv sənaye siyasəti ilə özəl sektorun təşəbbüslərinin uzlaşdırılmasına əsaslanır. Regionlarda fəaliyyət göstərən sahibkarlar dövlət tərəfindən maliyyə və institusional dəstək alır, eyni zamanda xarici investisiyaların cəlb edilməsi üçün əlverişli mühit yaradılır. Bu siyasət nəticəsində regionlarda sənaye istehsalı sürətlə artmış və bir çox region qlobal istehsal və ticarət mərkəzlərinə çevrilmişdir. Çin təcrübəsi göstərir ki, regional sənayeləşmə strategiyası sahibkarlığın təşviqi ilə birlikdə həyata keçirildikdə iqtisadi inkişafın sürətləndirilməsi mümkün olur (Naughton, 2018; World Bank, 2020).

ABŞ təcrübəsi

Regional sənayeləşmə və sahibkarlıq modelinin tətbiqinə dair digər mühüm nümunə ABŞ-dır. Bu ölkədə regional inkişafın əsas xüsusiyyətlərindən biri innovasiya və startap ekosistemlərinin inkişafıdır. Xüsusilə Silikon Vadisi, Boston və Austin kimi regionlar yüksək texnologiyalı sahibkarlıq fəaliyyətinin mərkəzləri kimi formalaşmışdır.

ABŞ modelində universitetlər, tədqiqat institutları və sahibkarlar arasında əməkdaşlıq mühüm rol oynayır. Bu əməkdaşlıq nəticəsində yeni texnologiyalar kommersiyalaşdırılır və innovativ müəssisələr yaradılır. Dövlət tərəfindən təqdim olunan qrant proqramları, risk kapitalı fondları və innovasiya təşviqləri sahibkarlığın inkişafını dəstəkləyir. ABŞ təcrübəsi göstərir ki, regional sənayeləşmə prosesində innovativ sahibkarlığın təşviqi regionların yüksək texnologiyalı sənaye mərkəzlərinə çevrilməsinə şərait yaradır (Feldman & Lowe, 2018).

İqtisadi artım dövlətlərin rifah səviyyəsini, sosial sabitliyini və uzunmüddətli inkişaf strategiyalarını müəyyən edən əsas makroiqtisadi göstəricilərdən biridir. Müasir iqtisadi ədəbiyyatda iqtisadi artımın determinantları arasında institusional keyfiyyət və qloballaşma prosesləri xüsusi əhəmiyyət kəsb edir. Qloballaşmanın dərinləşməsi ilə ölkələr arasında ticarət, kapital və texnologiya axınları genişlənmiş, bu isə iqtisadi fəaliyyətin miqyasının artmasına və resursların daha effektiv bölgüsünə şərait yaratmışdır. Xüsusilə ticarət açıqlığı və birbaşa xarici investisiyalar (FDI) kimi qloballaşma göstəriciləri iqtisadi artımın stimullaşdırılmasında mühüm rol oynayan əsas amillər kimi qəbul edilir. Empirik tədqiqatların əksəriyyəti ticarət açıqlığının və xarici investisiyaların iqtisadi artımı təşviq etdiyini göstərir. Bu baxımdan beynəlxalq ticarətin genişlənməsi ölkələrə yeni bazarlara çıxış imkanı yaratmaqla yanaşı texnologiya transferini və məhsuldarlığın yüksəlməsini də stimullaşdırır (Blavasciunaite və b., 2020; Seti və b., 2025). Bununla yanaşı, FDI axınları kapital formalaşmasını artırmaqla, istehsal texnologiyalarının və idarəetmə təcrübələrinin yayılmasını sürətləndirməklə iqtisadi inkişaf prosesinə mühüm töhfə verir. Lakin qloballaşmanın iqtisadi artım üzərində təsiri bütün ölkələr üçün eyni səviyyədə müşahidə olunmur və bu təsirin gücü əksər hallarda institusional mühitin keyfiyyətindən asılı olur.

Son illərdə aparılan tədqiqatlar göstərir ki, institusional keyfiyyət iqtisadi artımın formalaşmasında mühüm rol oynayan əsas struktur amillərdən biridir. Effektiv dövlət idarəetməsi, şəffaf qərarvermə mexanizmləri və yüksək keyfiyyətli ictimai xidmətlər iqtisadi resursların daha səmərəli istifadəsinə şərait yaradır və investisiya mühitinin yaxşılaşmasına kömək edir. Xüsusilə idarəetmə səmərəliliyi göstəricisi dövlət institutlarının iqtisadi siyasətləri həyata keçirmə qabiliyyətini və ictimai xidmətlərin effektivliyini əks etdirdiyinə görə iqtisadi artımın mühüm determinantlarından biri hesab olunur (Nzama və b., 2023; Syam və Abdur-Rabb, 2025).

Qlobal iqtisadi şoklar və böhranlar institusional keyfiyyətin iqtisadi artım üçün nə qədər vacib olduğunu daha aydın şəkildə nümayiş etdirir. Xüsusilə Covid-19 pandemiyası dövründə dövlət institutlarının effektivliyi iqtisadiyyatların dayanıqlığının qorunmasında və böhran təsirlərinin azaldılmasında mühüm rol oynamışdır. Bu dövr göstərmişdir ki, güclü və effektiv idarəetmə sisteminə malik ölkələr iqtisadi şoklara daha tez uyğunlaşa və daha sürətli bərpa prosesi həyata keçirə bilirlər (Bassey, 2025). Bununla belə, Avropa ölkələri üzrə qloballaşma göstəriciləri ilə institusional keyfiyyətin, xüsusilə idarəetmə səmərəliliyinin iqtisadi artıma birgə təsiri hələ də tam şəkildə araşdırılmamışdır. Mövcud tədqiqatların əksəriyyəti ya qloballaşmanın, ya da institusional keyfiyyətin iqtisadi artıma təsirini ayrıca şəkildə qiymətləndirir. Halbuki bu amillər arasında qarşılıqlı əlaqə mövcuddur və onların birgə təsirinin öyrənilməsi iqtisadi artım mexanizmlərinin daha dərindən anlaşılmasına imkan verir. Bu baxımdan təqdim olunan tədqiqatın əsas məqsədi 2002–2022-ci illər üzrə 38 Avropa ölkəsini əhatə edən panel məlumatlar əsasında idarəetmə səmərəliliyi və qloballaşma göstəricilərinin iqtisadi artıma təsirini empirik olaraq qiymətləndirməkdir. Tədqiqatda qloballaşmanın əsas indikatorları kimi ticarət açıqlığı və birbaşa xarici investisiyalar, investisiya fəaliyyətini əks etdirən dəyişən kimi isə əsas kapitalın ümumi formalaşması (GFCF) nəzərə alınmışdır.

Analiz çərçivəsində iqtisadi artımın dinamik xarakterini nəzərə almaq üçün dinamik panel metodlarından istifadə olunmuşdur. Xüsusilə iki addımlı Sistem-GMM yanaşması endogenlik problemini aradan qaldırmaq və dəyişənlərin gecikdirilmiş qiymətlərindən alət kimi istifadə etməklə daha etibarlı nəticələr əldə etməyə imkan verir (Seti və b., 2025). Bundan əlavə, sabit təsirlər modeli ölkədaxili sabit xüsusiyyətləri nəzərə alaraq dəyişənlərin təsirini qiymətləndirir, Pesaranın Common Correlated Effects (CCE) modeli isə ölkələrarası qarşılıqlı asılılığı və heterogenliyi nəzərə almağa imkan verir (Küçükçolak və b., 2026). Beləliklə, bu tədqiqat Avropa ölkələri üzrə idarəetmə səmərəliliyi və qloballaşma göstəricilərinin iqtisadi artım üzərində dinamik təsirini kompleks şəkildə araşdıraraq mövcud ədəbiyyata empirik töhfə verməyi hədəfləyir.

TƏHLİL

Bu tədqiqatda 38 Avropa ölkəsini əhatə edən 2002–2022-ci illər üzrə illik panel məlumatlardan istifadə edilmişdir. İqtisadi artımın göstəricisi kimi asılı dəyişən real ÜDM-in adambaşına düşən dəyərinin təbii loqaritminin fərqi (ΔlnGDPpc) qəbul edilmişdir. Əsas izahlı dəyişən idarəetmə səmərəliliyi indeksidir (gov_effect) və bu göstərici dövlət xidmətlərinin keyfiyyətini, bürokratik idarəetmənin effektivliyini və hökumət siyasətlərinin həyata keçirilməsinin etibarlılığını əks etdirir. İdarəetmə səmərəliliyi göstəricisi Dünya Bankının Worldwide Governance Indicators (WGI) məlumat bazasından götürülmüşdür. Tədqiqatda istifadə olunan dəyişənlərin tərifi, ölçülmə üsulu və məlumat mənbələri Cədvəl 1-də təqdim edilmişdir.

Cədvəl 1

Dəyişənlərin təsviri

Dəyişən	Tərif	Mənbə	Gözlənilən işarə
ΔlnGDPpc	Real ÜDM-in adambaşına düşən dəyərinin artım tempi (təbii loqaritmin fərqi)	Dünya Bankı	—

gov_effect	İdarəetmə səmərəliliyi indeksi (−2.5-dən +2.5-ə qədər)	Dünya Bankı	+
Trade	(İxrac + İdxal) / ÜDM (%)	Dünya Bankı	+
FDI	Xalis birbaşa xarici investisiyalar (% ÜDM)	Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı	+
GFCF	Əsas kapitalın ümumi formalaşması (% ÜDM)	Dünya Bankı	+

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Tədqiqat modelinə daxil edilən digər izahlı dəyişənlər iqtisadi artımın klassik determinantları kimi qəbul olunan qloballaşma və investisiya indikatorlarıdır. Ticarət açıqlığı (Trade) ixrac və idxalın cəminin ÜDM-ə nisbəti ((ixrac + idxal)/ÜDM) kimi hesablanmışdır. Birbaşa xarici investisiyalar (FDI) və əsas kapitalın ümumi formalaşması (GFCF) isə ÜDM-in faizi ilə ölçülmüşdür. Bu dəyişənlər iqtisadiyyatın beynəlxalq inteqrasiya səviyyəsini və investisiya fəaliyyətini əks etdirən əsas makroiqtisadi göstəricilər hesab olunur. Tədqiqat üçün istifadə olunan məlumatlar əsasən Dünya Bankının World Development Indicators (WDI) bazasından və Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) statistik mənbələrindən əldə edilmişdir.

İqtisadi artımın dinamik xarakterini nəzərə almaq məqsədilə modeldə gecikdirilmiş asılı dəyişən də daxil edilmiş və aşağıdakı dinamik panel spesifikasiyası qurulmuşdur:

$$\Delta lnGDPpc_{it} = \alpha \Delta lnGDPpc_{i,t-1} + \beta_1 gov\_effect_{it} + \beta_2 GFCF_{it} + \beta_3 Trade_{it} + \beta_4 FDI_{it} + \mu_i + \varepsilon_{it}$$

Burada i ölkəni, t ili, μ_i müşahidə olunmayan ölkə-spesifik təsirləri, ε_{it} isə təsadüfi səhv terminini ifadə edir. Modelin qiymətləndirilməsi üçün üç fərqli ekonometrik yanaşmadan istifadə olunmuşdur. İki addımlı Sistem-GMM metodu endogenlik problemini aradan qaldırmaq üçün gecikdirilmiş dəyişənlərdən alət kimi istifadə edir və dinamik panel modelləri üçün geniş tətbiq olunur. Sabit təsirlər (Fixed Effects – FE) modeli ölkədaxili sabit xüsusiyyətləri nəzərə almağa imkan verir. Pesaranın Common Correlated Effects (CCE) modeli isə ölkələrarası qarşılıqlı asılılığı və heterogenliyi nəzərə alır. İki addımlı Sistem-GMM modelinin etibarlılığını qiymətləndirmək məqsədilə AR(1) və AR(2) avtokorrelyasiya testləri və Sargan χ^2 testi tətbiq edilmişdir. Bundan əlavə, ölkələrarası qarşılıqlı asılılığın və parametr heterogenliyinin qiymətləndirilməsi üçün Pesaran CD testi və yamac heterogenliyi testlərindən istifadə olunmuşdur.

NƏTİCƏ

Dinamik panel modelinin nəticələri əvvəlcə İki addımlı Sistem-GMM yanaşması vasitəsilə qiymətləndirilmişdir və əldə olunan nəticələr Cədvəl 2-də təqdim olunmuşdur. İki addımlı Sistem-GMM metodu panel məlumatlarda endogenlik problemini aradan qaldırmaq və gecikdirilmiş dəyişənlərdən alət kimi istifadə etməklə daha etibarlı qiymətləndirmələr əldə etməyə imkan verir. Nəticələr göstərir ki, iqtisadi artım müəyyən dərəcədə dinamik və inertial xarakter daşıyır. Əvvəlki dövrün iqtisadi artım tempi cari dövrün artımına müsbət və statistik baxımdan əhəmiyyətli təsir göstərir (β=0.2420; $p<0.01$). Bu isə iqtisadi artım prosesində davamlılığın mövcud olduğunu və keçmiş iqtisadi performansın gələcək artım templərinə təsir etdiyini göstərir. Model nəticələrinə əsasən idarəetmə səmərəliliyi dəyişəni də müsbət əmsala malikdir və 10 % əhəmiyyət səviyyəsində statistik olaraq əhəmiyyətlidir ($p=0.086$). Bu nəticə institusional keyfiyyətin iqtisadi artım üzərində müsbət, lakin müəyyən dərəcədə həssas təsir göstərdiyini göstərir. Effektiv idarəetmə dövlət xidmətlərinin keyfiyyətini və iqtisadi siyasətlərin həyata keçirilmə qabiliyyətini artıraraq investisiya və biznes mühitinin yaxşılaşmasına şərait yarada bilər.

Digər tərəfdən, model nəticələri qloballaşma göstəricilərindən biri olan ticarət açıqlığının iqtisadi artım üzərində ən güclü və statistik baxımdan əhəmiyyətli təsirə malik olduğunu göstərir. Ticarət açıqlığının müsbət və əhəmiyyətli əmsalı beynəlxalq ticarət inteqrasiyasının iqtisadi artımın mühüm determinantlarından biri olduğunu təsdiqləyir. Açıq ticarət siyasətləri ölkələrə daha geniş bazarlara çıxış imkanı yaratmaqla yanaşı texnologiya transferini və məhsuldarlığın artımını stimullaşdırır. Bununla yanaşı əsas kapitalın formalaşması (GFCF) və birbaşa xarici investisiyalar (FDI) bu model spesifikasiyasında statistik baxımdan əhəmiyyətli nəticə göstərməmişdir. Bu hal investisiyaların iqtisadi artım üzərində təsirinin institusional mühit və digər makroiqtisadi amillərlə qarşılıqlı əlaqədə formalaşdığını göstərir. Model üzrə aparılan diaqnostik testlər də nəticələrin etibarlılığını təsdiqləyir: AR(1) testinin əhəmiyyətli, AR(2) testinin isə əhəmiyyətli olmaması modeldə ikinci dərəcəli avtokorrelyasiyanın mövcud olmadığını göstərir və İki addımlı Sistem-GMM yanaşmasının düzgün tətbiq edildiyini təsdiqləyir.

Cədvəl 2

İkiaddımlı sistem-GMM modelinin nəticələri

Dəyişən	Əmsal	p-dəyər
LD. ΔlnGDPpc	0.2420	0.000
gov_effect	0.0313	0.086
GFCF	0.0024	0.378
Trade	0.0022	0.000
FDI	0.00010	0.158
AR(1)	−4.0748	0.000
AR(2)	−1.3562	0.175
Sargan χ^2 (df=188)	37.3178	1.000

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Sabit təsirlər (Fixed Effects) modelinin qiymətləndirmə nəticələri Cədvəl 3-də təqdim edilmişdir. Bu model ölkələr üzrə müşahidə olunmayan sabit xüsusiyyətləri nəzərə almağa imkan verdiyindən institusional və makroiqtisadi dəyişənlərin iqtisadi artım üzərində təsirini daha dəqiq qiymətləndirməyə imkan verir. Nəticələr göstərir ki, gecikdirilmiş iqtisadi artım dəyişəni müsbət və yüksək statistik əhəmiyyətə malikdir (β=0.3555; $p<0.01$). Bu isə iqtisadi artım prosesində dinamik davamlılığın mövcud olduğunu və əvvəlki dövrlərdə əldə olunan artım templərinin sonrakı dövrlərdə də iqtisadi fəaliyyətə təsir göstərdiyini təsdiqləyir. Model nəticələrinə əsasən idarəetmə səmərəliliyi dəyişəni iqtisadi artım üzərində müsbət və statistik baxımdan əhəmiyyətli təsir göstərir (β=0.0289; p=0.022). Bu nəticə dövlət idarəçiliyinin keyfiyyətinin, effektiv bürokratik institutların və sabit iqtisadi siyasətin iqtisadi artımın stimullaşdırılmasında mühüm rol oynadığını göstərir. Effektiv idarəetmə mexanizmləri resursların daha səmərəli bölüşdürülməsinə, biznes mühitinin yaxşılaşmasına və investisiya fəaliyyətinin genişlənməsinə şərait yarada bilər.

Digər tərəfdən, model nəticələri ticarət açıqlığının iqtisadi artım üzərində davamlı və statistik baxımdan əhəmiyyətli müsbət təsir göstərdiyini göstərir. Ticarət açıqlığı dəyişəninin müsbət əmsalı beynəlxalq ticarət inteqrasiyasının iqtisadi artım üçün mühüm determinantlardan biri olduğunu təsdiqləyir. Eyni zamanda birbaşa xarici investisiyalar (FDI) dəyişəni də müsbət və statistik baxımdan yüksək əhəmiyyətli nəticə göstərir ($p<0.01$). Bu nəticə beynəlxalq kapital axınlarının iqtisadi artımı stimullaşdırmaqla yanaşı texnologiya transferi və idarəetmə təcrübələrinin yayılması vasitəsilə məhsul-darlığın artmasına töhfə verdiyini göstərir. Bu nəticələr Derado və Horvatin (2023) və

Almalik və b. (2024) tərəfindən qeyd olunan kapital və texnologiya spillover təsirləri ilə uyğunluq təşkil edir.

Digər tərəfdən əsas kapitalın ümumi formalaşması (GFCF) dəyişəni bu model spesifikasiyasında statistik baxımdan əhəmiyyətli nəticə göstərməmişdir ki, bu da kapital yığımının iqtisadi artıma təsirinin ölkələrin institusional mühiti və digər makroiqtisadi faktorlarla qarşılıqlı əlaqədə formalaşdığını göstərə bilər. Model üzrə statistik göstəricilər də qiymətləndirmənin adekvat olduğunu göstərir: Within R^2 göstəricisi modelin ölkədaxili dəyişkənliyin müəyyən hissəsini izah etdiyini, Between və Overall R^2 göstəriciləri isə panel üzrə ümumi uyğunluğun qənaətbəxş səviyyədə olduğunu göstərir. F-statistikasının əhəmiyyətli olması isə modeldə istifadə olunan dəyişənlərin birlikdə iqtisadi artımı izah etmək qabiliyyətinə malik olduğunu təsdiqləyir.

Cədvəl 3

Sabit təsirlər modelinin nəticələri

Dəyişən	**Əmsal**	**p-dəyər**
LD. ΔlnGDPpc	0.3555	0.000
gov_effect	0.0289	0.022
GFCF	0.00202	0.423
Trade	0.00182	0.000
FDI	0.0000815	0.000
Statistik göstərici	**Dəyər**	
Within R^2	0.2248	
Between R^2	0.6655	
Overall R^2	0.2561	
F(5,679) p-dəyəri	0.000	

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Pesaranın kəsişmiş əlaqəli təsirlər (Common Correlated Effects – CCE) modelinin qiymətləndirmə nəticələri Cədvəl 4-də təqdim edilmişdir. Bu yanaşma panel məlumatlarda ölkələr arasında mövcud ola biləcək kəsişmiş asılılığı və qlobal şokların təsirini nəzərə almaq məqsədilə istifadə olunur. Xüsusilə qlobal iqtisadi inteqrasiya şəraitində fəaliyyət göstərən Avropa ölkələri üçün belə modellərin tətbiqi daha real nəticələr əldə etməyə imkan verir. Model nəticələrinə əsasən əsas kapitalın formalaşması (GFCF) iqtisadi artım üzərində müsbət və statistik baxımdan əhəmiyyətli təsir göstərir ($p<0.01$). Bu nəticə investisiya fəaliyyətinin və kapital yığımının iqtisadi artım prosesində mühüm rol oynadığını göstərir. İnfrastruktur layihələri, texnoloji yenilənmə və istehsal potensialının genişləndirilməsi kimi amillər kapital formalaşmasının iqtisadi fəaliyyətə təsirini gücləndirən əsas mexanizmlər kimi çıxış edir.

Model nəticələri həmçinin birbaşa xarici investisiyaların (FDI) iqtisadi artım üzərində müsbət və statistik baxımdan əhəmiyyətli təsir göstərdiyini ortaya qoyur. Bu nəticə beynəlxalq kapital axınlarının iqtisadi inkişaf prosesində mühüm rol oynadığını və texnologiya transferi, bilik yayılması və idarəetmə təcrübələrinin inkişafı vasitəsilə məhsuldarlığın artmasına töhfə verdiyini göstərir. Digər tərəfdən idarəetmə səmərəliliyi və gecikdirilmiş iqtisadi artım dəyişənləri bu modeldə statistik baxımdan əhəmiyyətli nəticə göstərməmişdir. Bu hal qlobal ortaq faktorların və beynəlxalq iqtisadi şokların təsirinin institusional dəyişənlərin təsirini müəyyən dərəcədə zəiflədə biləcəyini göstərir. Başqa sözlə, ölkələr arasında mövcud olan iqtisadi qarşılıqlı asılılıq və qlobal kapital dövrləri institusional faktorların iqtisadi artım üzərində təsirini müəyyən qədər kölgələndirə bilər. Bununla

yanaşı ticarət açıqlığı dəyişəni bu modeldə də müsbət və statistik baxımdan əhəmiyyətli nəticə göstərərək beynəlxalq ticarət inteqrasiyasının iqtisadi artım üçün mühüm determinantlardan biri olduğunu bir daha təsdiqləyir. Bu nəticə qloballaşma proseslərinin Avropa ölkələrinin iqtisadi inkişaf dinamikasında mühüm rol oynadığını göstərir.

Cədvəl 4

Kəsişmiş əlaqəli təsirlər (CCE) modelinin nəticələri

Dəyişən	Əmsal	p-dəyər
LD. ΔlnGDPpc	0.0834	0.089
gov_effect	0.0118	0.372
GFCF	0.00959	0.000
Trade	0.00256	0.000
FDI	0.00219	0.018

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Ümumilikdə aparılan ekonometrik qiymətləndirmələrin müqayisəsi göstərir ki, ticarət açıqlığı bütün model spesifikasiyalarında iqtisadi artım üzərində sabit və müsbət təsir göstərən əsas determinantlardan biri kimi çıxış edir. Həm İki addımlı Sistem-GMM, həm sabit təsirlər, həm də CCE modellərində ticarət dəyişəninin statistik baxımdan əhəmiyyətli olması beynəlxalq ticarət inteqrasiyasının iqtisadi artım prosesində mühüm rol oynadığını təsdiqləyir. Açıq ticarət siyasətləri ölkələrə daha geniş bazarlara çıxış imkanı yaratmaqla yanaşı texnologiya transferini, istehsalın ixtisaslaşmasını və məhsuldarlığın artımını stimullaşdırır. Bu baxımdan əldə olunan nəticələr qloballaşma və iqtisadi artım arasındakı müsbət əlaqəni vurğulayan empirik tədqiqatlarla uyğunluq təşkil edir və Avropa ölkələrinin yüksək səviyyədə iqtisadi inteqrasiya şəraitində fəaliyyət göstərməsinin artım prosesinə mühüm töhfə verdiyini göstərir. Digər tərəfdən institusional keyfiyyət göstəricisi kimi istifadə olunan idarəetmə səmərəliliyi bəzi modellərdə iqtisadi artım üzərində müsbət və statistik baxımdan əhəmiyyətli təsir göstərsə də, qlobal faktorlar nəzərə alındıqda bu təsirin zəiflədiyi müşahidə olunur. Xüsusilə kəsişmiş əlaqəli təsirlər (CCE) modelində institusional dəyişənin statistik əhəmiyyətinin azalması ölkələrarası qarşılıqlı asılılığın və qlobal iqtisadi şokların institusional faktorların təsirini müəyyən dərəcədə kölgələndirə biləcəyini göstərir. Bununla yanaşı əsas kapitalın formalaşması və birbaşa xarici investisiyalar xüsusilə qlobal əlaqələrin nəzərə alındığı modellərdə iqtisadi artımın mühüm determinantları kimi çıxış edir. Bu nəticə kapital axınlarının və investisiya fəaliyyətinin iqtisadi artımın formalaşmasında mühüm rol oynadığını və institusional mühitlə birlikdə iqtisadi inkişafın əsas mexanizmlərindən biri olduğunu göstərir. Modellərin müqayisəli nəticələri ümumi şəkildə Cədvəl 5-də təqdim edilmişdir.

Cədvəl 5

Modellərin müqayisəsi

Model	İqtisadi artımın əsas determinantları	İdarəetmə səmərəliliyinin təsiri	Qloballaşmanın təsiri
İki addımlı Sistem-GMM	Trade	Müsbət, lakin statistik baxımdan zəif	Orta güclü və əhəmiyyətli
Sabit təsirlər (FE)	gov_effect, Trade, FDI	Müsbət və əhəmiyyətli	Güclü və əhəmiyyətli
Kəsişmiş əlaqəli təsirlər (CCE)	GFCF, FDI, Trade	Zəif və əhəmiyyətli deyil	Güclü və əhəmiyyətli

Mənbə: *Müəllif tərəfindən tərtib edilmişdir.*

Bu tədqiqat Avropa ölkələrində iqtisadi artımın institusional və qloballaşma determinantlarını empirik olaraq qiymətləndirərək idarəetmə səmərəliliyinin iqtisadi artım prosesində oynadığı rola dair mühüm nəticələr təqdim edir. Aparılan ekonometrik təhlillər göstərir ki, institusional keyfiyyət və qloballaşma göstəriciləri iqtisadi artımın formalaşmasında mühüm rol oynayır. İki addımlı Sistem-GMM və CCE modellərinin nəticələri idarəetmə səmərəliliyinin iqtisadi artım üzərində ümumilikdə müsbət təsirə malik olduğunu göstərsə də, bəzi hallarda bu təsirin statistik əhəmiyyətinin zəiflədiyi müşahidə olunur. Bu hal institusional faktorların iqtisadi artıma təsirinin digər makroiqtisadi və qlobal amillərlə qarşılıqlı əlaqədə formalaşdığını göstərir. Eyni zamanda sabit təsirlər (Fixed Effects) modelinin nəticələri idarəetmə səmərəliliyinin iqtisadi artım üzərində statistik baxımdan əhəmiyyətli və müsbət təsir göstərdiyini ortaya qoyur. Bu nəticə dövlət idarəçiliyinin keyfiyyətinin, effektiv institusional mühitin və sabit iqtisadi siyasətin iqtisadi fəaliyyətin genişlənməsinə və investisiya mühitinin yaxşılaşmasına mühüm töhfə verdiyini göstərir. Digər tərəfdən ticarət açıqlığının bütün model spesifikasiyalarında iqtisadi artımın ən güclü determinantlarından biri kimi çıxış etməsi qlobal iqtisadi inteqrasiyanın iqtisadi inkişaf üçün mühüm amillərdən biri olduğunu təsdiqləyir.

Tədqiqatın nəticələri siyasət baxımından da mühüm nəticələr ortaya qoyur. Empirik nəticələr göstərir ki, Avropa ölkələrində davamlı iqtisadi artımın təmin olunması üçün institusional islahatların və qlobal iqtisadi inteqrasiyanın paralel şəkildə inkişaf etdirilməsi zəruridir. Bu baxımdan dövlət idarəçiliyinin keyfiyyətinin artırılması, bürokratik prosedurların sadələşdirilməsi və şəffaf idarəetmə mexanizmlərinin gücləndirilməsi iqtisadi siyasətin əsas prioritet istiqamətlərindən biri kimi çıxış etməlidir. Eyni zamanda ticarət siyasətlərinin liberallaşdırılması, regional və beynəlxalq iqtisadi inteqrasiya təşəbbüslərinin dəstəklənməsi və açıq iqtisadi mühitin formalaşdırılması iqtisadi artımın davamlılığını gücləndirə bilər. Bundan əlavə, xarici investorlar üçün sabit hüquqi və makroiqtisadi mühitin yaradılması, investisiya təşviqi mexanizmlərinin genişləndirilməsi və infrastruktur layihələrinin inkişaf etdirilməsi kapital axınlarının artmasına və uzunmüddətli iqtisadi inkişafın təmin olunmasına mühüm töhfə verə bilər. Beləliklə, institusional keyfiyyətin yüksəldilməsi ilə qlobal iqtisadi inteqrasiyanın gücləndirilməsi arasında sinerji yaradılması Avropa ölkələrində dayanıqlı və inklüziv iqtisadi artımın təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat:

1. Almalik, R., Shaheen, R., & Ahmed, M. (2024). The impact of foreign direct investment on economic growth: Empirical evidence in G20 countries. International Journal of Advanced and Applied Sciences, 11(10), 90–98. https://doi.org/10.21833/ijaas.2024.10.010

2. Bassey, M.A. (2025). The nexus of sustainability, economic growth and government effectiveness: A post-pandemic perspective. Journal of Financial Risk Management, 14(3), 248–269. https://doi.org/10.4236/jfrm.2025.143014

3. Blavasciunaite, D., Garsviene, L., & Matuzeviciute, K. (2020). Trade balance effects on economic growth: Evidence from European Union countries. Economies, 8(3), 54. https://doi.org/10.3390/economies8030054

4. Chebli, M., & Saidi, K. (2024). Economic growth in middle-income countries: The role of political stability and foreign direct investment. Journal of Quantitative Economics, 22, 641–665. https://doi.org/10.1007/s40953-024-00394-x

5. Derado, D., & Horvatin, D. (2023). FDI and economic growth – Perspective of Southeast European countries. Zagreb International Review of Economics & Business, 26(1), 119–148. https://doi.org/10.2478/zireb-2023-0006

6. Küçükçolak, R.A., Bozkurt Ateş, G., Küçükoğlu, S., & İlter Küçükçolak, N. (2026). Governance quality and long-run economic growth: Comparative evidence from G7 and E7 economies. Economic Change and Restructuring, 59, 23. https://doi.org/10.1007/s10644-026-09972-w

7. Mongi, C., & Saidi, K. (2023). The impact of corruption, government effectiveness, FDI and GFCF on economic growth: New evidence from global panel of 48 middle-income countries. Journal of the Knowledge Economy, 15, 10696–10721. https://doi.org/10.1007/s13132-023-01509-0

8. Nzama, L., Sithole, T., & Kahyaoglu, S.B. (2023). The impact of government effectiveness on trade and financial openness: The generalized quantile panel regression approach. Journal of Risk and Financial Management, 16(1), 14. https://doi.org/10.3390/jrfm16010014

9. Seti, T.M., Mazwane, S., & Christian, M. (2025). Financial openness, trade openness, and economic growth nexus: A dynamic panel analysis for emerging and developing economies. Journal of Risk and Financial Management, 18(2), 78. https://doi.org/10.3390/jrfm18020078

10. Syam, S.F., & Abdur-Rabb, A.F. (2025). Government effectiveness, political stability and economic development: Evidence from ASEAN-5 panel data model. RIGGS: Journal of Artificial Intelligence and Digital Business, 4(3), 2137–2143. https://doi.org/10.31004/riggs.v4i3.2265

M.R.Gasimli
PhD Candidate, Azerbaijan State University of Economics
ORCID 0009-0003-1132-9661

The impact of government effectiveness and globalization on European economic growth: a dynamic panel analysis

Abstract

Economic growth is considered one of the main indicators of the socioeconomic development of countries, and in addition to institutional quality, global economic integration also has a significant impact on this process. Improving governance efficiency creates conditions for more efficient use of resources, while globalization accelerates the expansion of economic activity through trade and capital movements. In this study, the impact of governance efficiency and the main indicators of globalization on economic growth was empirically assessed based on panel data for European countries. The analysis took into account variables such as trade openness, foreign direct investment, and fixed capital formation. The assessments conducted show that economic growth is dynamic. According to the results, trade openness has a statistically significant positive effect on economic growth. Other assessments show that governance efficiency and foreign direct investment make a positive contribution to the formation of economic growth. In addition, international capital flows, along with fixed capital formation, act as important determinants of economic growth.

Keywords: *economic growth, government effectiveness, institutional quality, globalization, trade openness, foreign direct investment, capital formation, dynamic panel analysis.*

https://doi.org/10.58225/tim.2026-2-579-583

X.F.Məmmədova
dosent, Azərbaycan Texnologiya Universiteti,
Gəncə Dövlət Universiteti
xedicememmedova1986@gmail.com

Məqalə redaksiyaya daxil olub 23.02.2026
The article was received by editorial board on 23.02.2026
Статья принята к печати 23.02.2026

TOXUCULUQ SƏNAYE MƏHSULLARI İXRACININ STİMULLAŞDIRILMASI MƏSƏLƏLƏRİ

Xülasə

İxrac yönümlü istehsalın stimullaşdırılması Respublikamızın iqtisadi siyasətində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan toxuculuq sənayesində dünya bazarlarında rəqabət apara biləcək məhsul istehsalının təmin olunması hazırda aktual problemlərdəndir. İxrac yönümlü istehsala nail olmaq üçün ilk növbədə ixrac potensiallarının inkişaf etdirilməsi önə çəkilir. Xarici iqtisadi əlaqələrin genişləndirilməsinə istiqamətlənən inkişaf strategiyası müəyyənləşdirilərkən ölkənin daxili tələbatının nəzərə alınması vacib şərtlərdəndir.

Açar sözlər: *ixrac, idxal, stimullaşdırma, tələb, rəqabət, resurs, səmərə.*

GİRİŞ

Hər bir ölkənin iqtisadi siyasətində daxili tələbatın ödənilməsi ilə yanaşı ixrac yönümlü istehsalın stimullaşdırılması xüsusi yer tutur. Bu baxımdan yüngül sənaye məhsullarının ixracını həyata keçirmək üçün dünya bazarlarında rəqabət apara biləcək istehsalın təmin olunması ən vacib şərtlərdəndir. İxrac yönümlü istehsala nail olmağa çalışan ölkələr öz məhsullarını dünya bazarlarına çıxarmaqla daim ixrac potensiallarını inkişaf etdirməyə səy göstərirlər. Təcrübə göstərir ki, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə istiqamətlənən inkişaf strategiyalarını müəyyənləşdirən ölkələr daha böyük inkişaf səviyyəsi ortaya qoymuşlar.

İnkişaf etmiş ölkələrdə əksər hallarda daxili bazarın ölçüsü kiçik olur və əsas məqsəd idxalın əvəzlənməsinə istiqamətlənir. Fəaliyyət göstərən müəssisələr isə idxalın əvəzlənməsi strategiyası çərçivəsində daxili bazara istiqamətli istehsalda əhəmiyyətli paya malik olurlar. Ticarətin xaricə çıxarılması isə bazarı genişləndirir və yerli müəssisələrin dünya bazarlarına çıxışına əlverişli imkanlar yaradır. Ayrıca həm daxili, həm xarici bazarlara məhsul təklif edən müəssisələr istehsalın genişləndirilməsi üzrə fəaliyyətə keçirlər. Ölkə xaricinə ixracın reallışıdırılması geniş miqyaslı iqtisadiyyatdan istifadə etməklə sənayeləşmə və iqtisadiyyatın daha sürətli böyümə fürsəti yaradır.

Azərbaycanda toxuculuq sənayesinin müasir vəziyyəti.

Xarici ticarət siyasəti xarici rəqabət imkanlarını da artırır. Rəqabətin təsiri sürətli inkişafın digər qaynağıdır. Süni məhdudiyyətlərlə xarici müəssisələrin rəqabətindən qorunma üçün bəzi müəssisələr məhsullarına daha yüksək qiymət qoymağa can atırlar. Xarici rəqabətdən böyük ölçüdə qorunmuş olan müəssisələr vaxt və enerjilərinin böyük bir qisimini, iş qabiliyyətini artırmaq əvəzinə xarici rəqabətdən qorunmaya istiqamətli fəaliyyətə keçirər. Problemlərin təsir dairəsi zəiflədikdə müəssisələr fəaliyyətlərini davam etdirmək üçün bazara daha yaxşı məhsul çıxarmaq ya da daha aşağı qiymətlə məhsul çıxarmaq məcburiyyətində qalarlar. Beləliklə, rəqabət istehsal artımının sürətlənmə-

sinə səbəb olur və bu dəyişmə dərəcələrində artım daha yüksək böyümənin bir qaynağı ola bilir. Araşdırmalar göstərir ki, istehsalın artımı ilə ixraca yönəlmə arasında müsbət bir əlaqə mövcuddur.

Xaric iqtisadi əlaqələrin genişləndirilməsinə istiqamətlənən inkişafın makro iqtisadi siyasətə də ciddi təsiri vardır. İxraca istiqamətli inkişaf daha yaxşı makro iqtisadi siyasət tətbiqlərini gündəmə gətirir. Məsələn, ölkə ixracata istiqamətli bir strategiya mənimsədiyi zaman, ictimai nüfuzlarının ölkənin ixrac məhsullarının xarici bazarlarda rəqabət edə bilməsi üçün daha təkmil valyuta siyasəti hazırlamasını şərtləndirir. Əgər belə bir siyasət hazırlanmazsa ixracın genişləndirilməsi üçün subsidiya siyasəti gündəmə gələcəkdir. Bu cür siyasətlərin büdcə üzərindəki yükü isə yüksək təsirə malik olur. Həmçinin bu kimi hallarda, ölkə pulu gərəksiz bir şəklidə həddindən artıq dəyərlənmə faktı ilə üzləşirlər.

İxrac yönümlü istehsalla iqtisadi artım arasındakı əlaqəni gücləndirən digər bir amil xaricə istiqamətli iqtisadiyyatın xarici müəssisələrlə daha yaxın əlaqə içərisində olmasını və beləcə texnoloji yenilikləri daha fəal cəlb etməni önə sürür. Ümumiyyətlə, inkişaf etmiş ölkələrin yeni texnologiyaları istifadə imkanları iqtisadiyyatın inkişaf səviyyəsi ilə mütənasiblik təşkil edir və əksinə.

Göstərilənlər belə qənaətə gəlməyə əsas verir ki, ixrac yönümlü istehsalın stimullaşdırıl-ması məsələləri iqtisadi məqsədəuyğunluq və mənfəət, ölkənin iqtisadi təhlükəsizliyinin təminatı və bu kimi bir çox mühüm meyarlara əsaslanmaqla həll edilməlidir. İxraca istiqamətlənmiş rəqabət-qabiliyyətli məhsulların məqbul səviyyəsi itkilərin və xərclərin azaldılması, risklərin bölüşdürülməsi və iqtisadi fəallığın yüksəldilməsi, məhsulun xarici bazarlara çatdırılmasına qədər hərəkətində səmərəliliyin yüksəldilməsi üçün əlverişli şərait yaradır. Təbii ki, qarşılıqlı xarici iqtisadi əlaqələrin inkişafının stimullaşdırılması üçün normal iqtisadi və institusional mühit olması da vacib şərtdir.

İxracın genişləndirilməsinə yönəldilmiş istehsal prosesinin stimullaşdırılması, müvafiq sahələrdə kəmiyyət və keyfiyyətin, iqtisadi fəallığın, onların zəruri istiqamətlərdə ölçülməsi və qiymətləndirilməsini nəzərdə tutur. İqtisadi fəallıq səviyyəsinin müəyyənləşdirilməsi və həmin səviyyənin gücləndirilməsi imkanlarının qiymətləndirilməsi mənfəət və tələbat kimi bir sıra mühüm göstəricilərin dəqiq kəmiyyət xarakteristikasının verilməsini, müvafiq təhlillərin aparılması və ümumiləşdirilməsini tələb edir. Məhz iqtisadi marağın kəmiyyətcə səciyələndirilməsi hazırda mürəkkəb, eyni zamanda vacib məsələlərdən biridir.

Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyinin qiymətləndirilməsi də qeyd edilənlərlə yanaşı optimal stimullaşdırma mexanizminin müəyyən edilməsini tələb edir (1.s.140). Bu baxımdan rəqabətə davamlı məhsulların satışının stimullaşdırılmasına üstünlük verilməsi, stimullaşdırıcı tədbirlərdən hansı səviyyədə istifadə edilməsi, bu məqsədlə nə qədər maliyyə vəsaiti ayrılması, həmin vəsaitin necə bölüşdürülməsi kimi məsələlərin həlli üçün xarici ticarət əlaqələrinin təkmilləşdirilməsinə dair qərarların optimalllaşdırılması zəruridir.

Toxuculuq sənayesinin nəzəri əsasları.

Araşdırmalar göstərir ki, son illərdə ölkənin yüngül sənaye müəssisələri tərəfindən ixrac olunan məhsulların dinamikasında müxtəlif istiqamətli dəyişikliklər baş vermişdir. Belə ki, 2025-ci ildə əvvəlki illə müqayisədə yalnız emal olunmamış gön və aşılanmış dəri ixracından artım qeydə alımışdır – 10,6%. Dəri məmulatları, qadın çantaları və anoloji mallar üzrə 71,6%, ipək məhsulu üzrə 74,5%, pambıqda 6%, xalçalar və digər toxunma döşəmə örtükləri üzrə 3,5%, ayaqqabı, baş geyimləri və s. məhsullarda 66,2% azalma müşahidə edilir (2.s.10).

Qeyd edilən məhsul növlərinin hər biri üzrə respublikamızda istehsalın artırılması imkanları mövcud olsa da göründüyü kimi ixracın həcmində əsasən azalma baş vermişdir. İstehsalla yanaşı ixraca mənfi təsir göstərən amillərdən biri kimi rəqabət qabiliyyətli istehsalın genişləndirilməsi üçün müasir texnika və texnologiyalardan, konkret olaraq innovasiyalardan istifadənin aşağı səviyyəsini də qeyd etmək olar.

Ümumiyyətlə, innovasiyaların tətbiqi yüngül sənaye müəssisələrinin ixrac siyasətində rəqabətqabiliyyətlilik üçün mühüm istiqamətlərdən hesab edilir. Lakin ixrac yönümlü məhsul istehsa-

lının həyata keçirilməsində innovasiyaların cəlb edilməsi zamanı ilk növbədə yerli şərait nəzərə alınmaqla daxili resurslardan səmərəli istifadəyə üstünlük verilməlidir. Respublikamızda yüngül sənaye məhsulları üzrə ixracın əmtəə strukturu aşağıdakı cədvəl 1 də göstərilmişdir.

Cədvəl 1

Yüngül sənaye məhsulları üzrə ixracın əmtəə strukturu, min ABŞ dolları ilə

Məhsullar	2021	2022	2023	2024	2025
Emal olunmamış gön (xəzdən başqa) və aşılanmış dəri	11007,9	14019,2	17150,5	24 069,4	12179,0
Dəri məmulatları, qadın çantaları və analoji mallar	20,8	72,5	23,3	24,6	5,9
İpək	1917,5	1155,3	1312,4	1902,0	489,7
Yun, zərif və ya qaba heyvan tükü	71,6	116,0	-	-	-
Pambıq	20732,8	23364,5	31817,5	14 498,8	19504,9
Xalçalar və digər toxunma döşəmə örtükləri	121,5	117,2	74,5	69,7	117,2
Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər	444,7	494,7	225,4	38,3	150,2

Cədvəldən göründüyü kimi yüngül sənaye müəssisələrinin əsas xammalı daxili resurslar hesabına formalaşır (1.s.180). Eyni zamanda ixrac prosesinin reallaşdırılmasından əvvəl daxili tələbatın ödənilməsinə xüsusi önəm verilməlidir. Beləliklə, innovasiyaların istehsalata cəlb edilməsi hesabına ölkənin elmi-texniki potensialının genişlənməsinə, mövcud olan rəqabətqabiliyyətlilik amillərindən istifadənin səmərəliliyinin yüksəlməsinə, innovasiya prosesinin intensivləşməsinə və son nəticə olaraq müəssisələrin rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb ola bilər.

Ölkədə xarici ticarət əlaqələrinin mühüm istiqamətlərindən və daxili tələbatın ödənilməsi mənbələrindən biri olan idxalın araşdırılması göstərir ki, ixracla müqayisədə əksər məhsul növləri üzrə ölkəyə gətirilən yüngül sənaye məhsullarının həcmində əhəmiyyətli artım müşahidə edilməkdədir.

Belə ki, 2025-ci ildə 2021-ci illə müqayisədə emal olunmamış gön və aşılanmış dəri idxalı 7,9 dəfə, dəri məmulatları, qadın çantaları və analoji mallar idxalı 42%, yun, zərif və ya qaba heyvan tükü 5,7 dəfə, pambıq 42,7%, xalçaar və digər toxunma döşəmə örtükləri 29,3%, pambıq, keçə və sair toxunmamış materiallar, kəndir, ip idxalı 65,7%, ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər və süni güllər idxalı 20,2% artmışdır. Yalnız təbii və süni xəz, onlardan gazırlanan məmulatlar idxalında azalma müşahidə edilir – 71,9% (4.s.160).

Yüngül sənaye məhsulları üzrə idxal-ixrac əməliyyatlarının təhlili göstərir ki, ölkədə bu sahə üzrə kifayət səviyyədə potensialın olmasına, o cümlədən uzun illər toxuculuq kimi mühüm sahə üzrə ixtisaslaşmaya və dünya səviyyəsində rəqabət aparma qabiliyyətinin olmasına baxmayaraq əksər hallarda daxili tələbat da idxal hesabına ödənilir. İxracın səviyyəsi isə ilbəil azalır. Deməli, müəyyən tədbirlər görülməsinə baxmayaraq ölkədə idxal məhsulları ilə rəqabət aparmaq qabiliyyətində olan məhsulların istehsalında hələ də müəyyən problemlər mövcuddur. Ona görə də ixracın həcmində artım baş verməklə yanaşı, ixracda da əksər məhsul növləri üzrə müsbət nəticələr qeydə alınmamışdır.

Qeyd edilənləri nəzərə alaraq yüngül sənaye sferasında xarici iqtisadi əlaqələr istiqamətində daha səmərəli nəticələr əldə etmək üçün aşağıdakı məsələlərə diqqət yetirilməsi müsbət nəticələr əldə etməyə imkan verə bilər: yüngül sənaye üçün zəruri olan xammal poten-sialının mövcud vəziyyətinin qiymətləndirilməsi; yerli istehsalın idxalı əvəzləmə imkanlarının müəyyənləşdirilməsi və reallaş-dırılması, həmçinin rəqabətqabiliyyətli ixrac potensialının stimul-laşdırılması tədbirlərinin müəyyənləşdirilməsi; yüngül sənaye müəssisələrində investisiya cəlb-ediciliyinin yüksəldiməsi imkanlarının qiymətləndirilməsi; yüngül sənayedə innovasiyalı layihələrinin, yeni texnika və texnologiyaların tətbiqinin səmərəliliyinin təhlili və keyfiyyətli məhsul istehsalı potensialının qiymətləndirilməsi.

NƏTİCƏ

Bununla belə, rəqabətqabiliyyətli istehsalın səmərəliliyinin təmin edilməsində digər amillərin də nəzərə alınması əsas şərtlərdəndir. Bu baxımdan yüngül sənayedə rəqabət-qabiliyyətli istehsalın müxtəlif amillərə əsaslanan üstünlüklərinin reallaşdırılması, ilk növbədə istehsal potensialının artması ilə müşayiət edilir. İqtisadi fəaliyyətdə bu baxımdan maliyyə resurslarının hərəkətində idarəetmənin səmərəliliyinin artırılmasını, istehsalın proqnozlaşdırıl-masının elmi-iqtisadi təminatı, rəqabət mühitinin tələblərini nəzərə alan innovativ yanaşmaları əhəmiyyətli şəkildə aktuallaşdırır (4.s.190 5.s 15).

Qeyd olunan istiqamətlərdə görülən tədbirlər yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətliliyində iqtisadi cəhətdən əsaslandırılması vacib olan aşağıdakı istiqamətlərin qiymətləndirilməsi zərurətini ortaya qoyur:

- məsrəflərin azaldılması, o cümlədən sahələrarası əlaqələrdə və rəqabətqabiliyyətli məhsul istehsalı, mübadiləsi və istehlakı prosesində yaranan transaksiya xərclərinin minimum səviyyəyə endirilməsi;
- idxal-ixrac əməliyyatlarında daha səmərəli nəticələr əldə edilməsi baxımından elmi cəhətdən əsaslandırılmış prioritetlər əsasında reallaşdırılan istehsal fəaliyyətinin şaxələndirilməsi və genişləndirilməsi;
- yüngül sənaye məhsulları və xammal istehsalçıları arasında qarşılıqlı iqtisadi münasibətlərin genişləndirilməsi, istehsala qədər və istehsaldan sonrakı dövrlərdə inteqrasiya əlaqələrinin intensivləşməsi;
- yeni texnika və texnologiyaların istehsalata cəlb edilməsinin stimullaşdırılması və ondan istifadə səviyyəsinin yaxşılaşdırılması;
- rəqabətqabiliyyətli yüngül sənaye məhsullarının istehsalı ilə yanaşı, həmin məhsulların ixracının stimullaşdırılması;
- yüngül sənaye müəssisələrinin istehsal potensialından istifadə səviyyəsinin yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi və s.

İstifadə edilmiş ədəbiyyat:

1. Магомедов Ш.Ш. (2005). Конкурентоспособных товаров. М., с. 294.

2. www/stat.gov.az

3. Məmmədov S.M. (2012). "Yüngül sənayenin mövcud vəziyyəti və restrukturizasiya problemləri". Bakı. 340s.

4. Мамедов Ф.А. Управление хозяйственными связями предприятия с поставщиками и потребителями монография. М. 2015. с. 570.

5. Мамедова Х.Ф., Мамедов Ф.А., Гараев М.Ш., Хан-Хойская И.В., Мамедова Г.Р. (2025). Анализ и оценка результативности инвестиционно-инновационной стратегии развития предприятий текстильной швейной и кожевенно-обувной отрасли Азербайджана. Технология текстильной промышленности. № 2 (416). с.109-121.

Kh.F.Mamedova
associate professor, Azerbaijan University of Technology,
Ganja State University

Directions for stimulating exports of textile industry goods

Abstract

The stimulation of export-oriented production plays an important role in the economic policy of any country. From this point of view, ensuring production that can compete with the world market is an actual problem. To achieve export-oriented production, the development of export potential is coming to the forefront. When identifying the development strategy aimed at expanding foreign economic relations, an important condition is the country's domestic demand.

***Key words**: export, import, incentive, demand, competition, resources, efficiency.*

https://doi.org/10.58225/tim.2026-2-584-591

А.Р.Мамедов
д.ф.э., ст.преп., Азербайджанский Государственный Экономический Университет
anar.r.mammadov@gmail.com
В.Ш.Кязымлы
докторант, Азербайджанский Государственный Экономический Университет
vusal.kazimli23@gmail.com

Məqalə redaksiyaya daxil olub 29.03.2026
The article was received by editorial board on 29.03.2026
Статья принята к печати 29.03.2026

БАРЬЕРЫ ДЛЯ ПРЯМЫХ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В НАЦИОНАЛЬНЫЙ СЕКТОР ВИЭ: АНАЛИЗ ФАКТОРОВ, ОГРАНИЧИВАЮЩИХ ПРИТОК МЕЖДУНАРОДНОГО КАПИТАЛА

Резюме

В статье рассматриваются барьеры, которые ограничивают приток прямых иностран-ных инвестиций в сектор ВИЭ Азербайджана. Целью исследования является выявление факторов, влияющих на инвестиционную привлекательность национального сектора ВИЭ с позиции иностранного инвестора. В качестве методологической основы выступают нормативно-правовой анализ законодательства Азербайджанской Республики, а также сравнительный анализ данных, представленных международными организациями об инфраструктурных, финансовых и институциональных компонентах инвестиционной деятельности. В результате определено, что правовая база содержит необходимые базовые элементы защиты интересов инвестора, однако ключевым фактором остается предсказуемость практической реализации законов. Рассмотренные инфраструктурные показатели выглядят благоприятными и сопоставимыми с бенчмарками. Анализ финансового блока показал выраженное преобладание внутренних источников финансирования инвестиционных проектов. Субсидии играют важную роль и проведение реформ в области субсидий способно повысить привлекательность инвестиционной среды, а также способствовать росту прямых иностранных инвестиций в ВИЭ. По итогам исследования сделан вывод о том, что снижение барьеров на пути притока прямых иностранных инвестиций требует комплексного подхода с учетом факторов, которые были рассмотрены в данной статье.

Ключевые слова: *прямые иностранные инвестиции (ПИИ), инвестиционная привлекатель-ность, инвестиционные барьеры, сектор ВИЭ, Азербайджан.*

ВВЕДЕНИЕ

Высокотехнологичные и комплексные проекты в различных секторах, включая проекты в сфере возобновляемых источников энергии (ВИЭ), характеризуются высокой капиталоемкостью и требуют долгосрочного финансирования для их реализации. С учетом ограничений в возможностях внутренних инвесторов в данной работе внимание акцентируется на иностранных (международных) инвесторах, которые обладают существенными финансовыми ресурсами. Целями являются рассмотрение факторов, влияющих на приток прямых иностранных инвестиций (ПИИ), а также барьеров, которые

сдерживают иностранных инвесторов от участия в местных проектах, в том числе в секторе ВИЭ.

Для привлечения иностранного капитала необходимо наличие детализированной правовой базы, направленной на защиту инвестиционной деятельности как местных, так и иностранных инвесторов. Рассмотрим законодательную базу инвестиционной деятельности Азербайджанской Республики и оценим, в какой степени соответствуют предусмотренные гарантии интересам иностранного инвестора и обеспечивают защиту прав и инвестиций на практике.

Нормативно-правовая основа защиты иностранных инвестиций

Ключевым нормативно-правовым актом в области инвестиционной деятельности является Закон № 551-VIQ от 22.06.2022 "Об инвестиционной деятельности" Азербайджанской Республики, закрепляющий механизмы защиты, режим осуществления инвестиционной деятельности, а также государственные гарантии для местных и иностранных инвесторов (Law on Investment Activity, 2022).

Данным законом разграничиваются местные и иностранные инвесторы, при этом в качестве иностранного инвестора признается не только физическое или юридическое лицо, но и международная организация и иной субъект, осуществляющий инвестиционную деятельность на территории государства. Как отмечалось выше на основе этого закона закрепляется режим осуществления инвестиций, система государственных гарантий, которые направлены на защиту прав инвесторов и их инвестиций.

Перейдем к рассмотрению следующей таблицы

Таблица 1

Ключевые элементы правовой базы и их оценка с позиции инвестора

Элемент правовой рамки	Что важно инвестору	Закреплено в законе	Оценка с позиции инвестора
Определение местного и иностранного инвестора	Понимание того, кто попадает под гарантии	Инвесторами являются как местные, так и иностранные	Инвестор проверяет, как в действительности применяются гарантии
Цель и принципы государственной политики	Насколько правила предсказуемы	Защита прав, стабильность условий, цифровизация, «Единое окно»	Инвестора заинтересует, как в действительности выглядит и работает «Единое окно»
Запрет на навязывание дополнительных обязанностей	Снижение вероятности возможного регуляторного произвола	Запрещено возлагать дополнительные обязательства поверх установленных законом	Инвестор проверяет нет ли обязательств де-факто, неформальные требования, локализацию
Режим для иностранных, местных и наиболее благоприятных	Равный доступ вне зависимости от режима работы	Предусматривает одинаковый благоприятный режим для иностранных инвесторов	Как работает одинаковый режим и как выглядит "недискриминация" (равные условия для всех участников)

Источник: *составлено автором на основе данных закона № 551-VIQ от 22.06.2022"Об инвестиционной деятельности" Азербайджанской Республики*

Анализ данного закона в целом отражает наличие необходимых элементов для привлечения иностранного капитала. Тем не менее, наибольшее влияние на приток иностранного капитала оказывают предсказуемость правоприменения и эффективность процедур защиты прав инвестора и инвестиций. Чем выше предсказуемость и эффективность правовых механизмов защиты прав инвестора и его инвестиций, тем большую привлекательность для инвестора представляет инвестиционная среда страны.

Следующим фактором, необходимым для привлечения инвестиций является развитая инфраструктура, обладающая весомым значением при оценке инвестора. Для анализа данного фактора глазами внешнего инвестора будет рассмотрен отчет Всемирного банка "Enterprise Surveys: Azerbaijan 2024 Country Profile", включающий набор необходимых индикаторов. На основе предоставленных индикаторов, в данном отчете проводится также сопоставление со странами Европейского и Центрально-Азиатского региона и странами с доходом на душу населения выше среднего (World Bank, 2025).

Перейдем к рассмотрению данных, которые представлены в следующей таблице.

Таблица 2

Инфраструктурные индикаторы и их сравнение с бенчмарками

Индикаторы	**Страна**	**Сравнительные группы**	
	Азербайджан	**Европа и Центральная Азия**	**Страны с доходом выше среднего**
Количество отключений в месяц	0.3 раз в месяц	0.6 раз в месяц	1.8 раз в месяц
Доля фирм, у которых бывают отключения	10.3%	27.0%	43.1%
Количество дней с момента подачи заявки на подключение к электросети	13.9 дней	61.7 дней	50.1 дней
Количество дней на подключение к воде	10.2 дней	32.5 дней	26.5 дней

Источник: *составлено автором на основе данных Всемирного банка (Enterprise Surveys: Azerbaijan 2024 Country Profile)*

Исходя из результатов этого отчета, можно прийти к нескольким заключениям, которые важны для инвестора. Во-первых, редкие отключения, которые в среднем происходят около одного в три месяца в Азербайджане, свидетельствуют о достаточной стабильности энергосети, что в свою очередь снижает возможные издержки в случае простоя. Во-вторых, сроки, необходимые для подключения к электричеству и воде позволяют сократить временные затраты на запуск проекта, тем самым повышая привлекательность среды для инвестора. В-третьих, базовая инфраструктурная среда Азербайджана выглядит более благоприятной по сравнению со средними значениями региона "Европа и Центральная Азия", а также группы стран с доходом выше среднего.

Тем не менее при интерпретации результатов следует помнить, что данные индикаторы отражают усредненный опыт предприятий ввиду особенностей выборки. Поэтому следует воспринимать эти результаты как бенчмарк, а не как окончательный вывод.

Рассмотрев инфраструктурную составляющую, перейдем к финансовым факторам, которые являются ключевыми элементами реализуемости любого инвестиционного проекта. Анализ финансов позволит выявить, каким источникам финансирования отдается приоритет

при привлечении инвестиционного капитала: внешним (иностранный банк или инвестор) или внутренним (местные инвесторы, банки, собственные средства, в частности прибыль).

Перейдем к рассмотрению таблицы, в которой представлены индикаторы и данные из отчета Всемирного банка "Enterprise Surveys: Azerbaijan 2024 Country Profile", упомянутого выше.

Таблица 3

Финансовые индикаторы и их сравнение с бенчмарками

Индикаторы	**Азербайджан**	**Сравнительные группы**	
		Европа и Центральная Азия	**Страны с доходом выше среднего**
Доля фирм с расчетным или сберегательным счетом	88.0%	94.1%	91.5%
Процент фирм, использующих банки для финансирования инвестиций	31.6%	29.1%	30.0%
Доля инвестиций, профинансированная за счет внутренних источников (собственные средства)	85.5%	74.4%	71.9%
Доля инвестиций, профинансированная банками	9.3%	16.9%	16.5%
Доля инвестиций за счет кредита от поставщиков	0.3%	2.9%	4.4%
Доля фирм, использующих кредит от поставщиков или клиентов для оборотного капитала	9.7%	17.8%	23.9%
Доля инвестиций, профинансированная путем привлечения средств в обмен на долю/акции	4.9%	3.1%	4.4%

Источник: *составлено автором на основе данных Всемирного банка (Enterprise Surveys: Azerbaijan 2024 Country Profile)*

Проведя анализ данных, показанных на этой таблице, можно прийти к следующим выводам относительно состояния финансового блока:

I. У местных фирм высокий уровень доступа к банковским услугам и, несмотря на то что совокупный уровень ниже значений бенчмарков, разница остается незначительной.

II. К услугам банков при финансировании инвестиций местные компании прибегают на уровне, сопоставимом с результатами сравнительных групп, что свидетельствует о доступности банковских финансовых инструментов для инвестиционных проектов.

III. Данный индикатор указывает на тот факт, что местные фирмы отдают предпочтение использованию собственных средств, в частности прибыли, что уменьшает масштаб роли банков при финансировании инвестиционных проектов. Данный показатель значительно выше, чем в сравнительных группах.

From an investor’s perspective, sustainability performance is also becoming a key determinant of value. ESG metrics are now widely used by institutional investors to evaluate risk and growth potential. Companies with strong sustainability records are generally seen as less vulnerable to regulatory penalties, supply chain disruptions, and reputational damage - all factors that can affect long-term financial performance. The International Energy Agency (IEA) notes that renewable energy firms with robust sustainability strategies attract more consistent investment, especially in the wake of global initiatives like the Paris Agreement and the EU Green Deal (IEA, 2022).

Beyond market appeal and risk mitigation, sustainability practices can generate direct financial returns through resource efficiency. Energy-saving technologies, water conservation systems, and waste management improvements all contribute to lower operational costs. For example, General Electric reported saving over $300 million annually after implementing energy efficiency measures across its manufacturing sites (GE Sustainability Report, 2020). Similarly, in the renewable energy industry, companies investing in energy storage, smart grid integration, and predictive maintenance systems are not only enhancing system performance but also reducing downtime and maintenance costs, which contributes to overall profitability.


Government incentives also play a critical role in making sustainability commercially viable. Policies such as tax credits, grants, feed-in tariffs, and carbon trading schemes provide financial relief to companies pursuing sustainable development goals. The U.S. Inflation Reduction Act (2022) is one such example, offering extensive subsidies to firms involved in renewable energy, clean technology, and emission reduction initiatives. These incentives help offset initial investment costs and accelerate the adoption of sustainable business practices across industries (White House, 2022).

Nevertheless, commercial viability is not guaranteed. Sustainability strategies must be well-integrated into the business model to yield positive financial outcomes. Poor implementation, lack of employee training, and misalignment between sustainability goals and business operations can lead to inefficiencies and resource waste. Moreover, "greenwashing" - the practice of falsely portraying a business as environmentally friendly - can damage brand reputation and reduce investor trust. A study by the University of Cambridge warns that companies engaging in superficial sustainability reporting without measurable impact often face backlash from consumers and stakeholders, leading to long-term financial losses (Cambridge Institute for Sustainability Leadership, 2021).

To address these challenges, businesses must adopt measurable and transparent sustainability frameworks. This includes setting clear targets, regularly monitoring progress, and publicly reporting outcomes. International standards such as the Global Reporting Initiative (GRI) and the Sustainability Accounting Standards Board (SASB) provide guidelines to help companies align sustainability efforts with financial performance indicators. These frameworks enable stakeholders to assess the commercial impact of sustainability and ensure accountability.

Several real-world examples highlight the financial advantages of sustainable business strategies. The Danish energy company Ørsted, once a fossil-fuel giant, transitioned its core operations to offshore wind energy over the past decade. This strategic shift resulted not only in a drastic reduction in carbon emissions but also a 150% increase in share value between 2016 and 2021, reflecting the market's confidence in sustainable transformation (Ørsted Annual Report, 2021). Similarly, Tesla's vertical integration of renewable energy products with electric vehicles and battery technology has helped the company achieve economies of scale, brand dominance, and substantial profitability, despite skepticism from traditional automakers.

Diagram 1: Top 10 Countries by CO_2 Emissions in 2023



Source: *https://worldpopulationreview.com/country-rankings/co2-emissions-by-country*

This bar chart illustrates the top 10 countries by carbon dioxide (CO_2) emissions in 2023. It is evident that:

- China is the largest emitter, producing approximately 13,260 million tons of CO_2, accounting for nearly 34% of global emissions.
- The United States follows with 4,682 million tons, contributing about 12%.
- India ranks third, with emissions of nearly 2,955 million tons.
- Other significant emitters include Russia, Japan, Iran, and Indonesia.

These emissions are closely linked to the scale of industrial activity, energy production from fossil fuels, and population size in each country.

In 2023, Azerbaijan's annual carbon dioxide (CO_2) emissions were approximately 42.77 million tons.

This figure represents an increase compared to 39.43 million tons recorded in 2022. Historically, the highest level of CO_2 emissions in the country was observed in 1990 at 56.12 million tons, while the lowest was in 1970 at 24.23 million tons.

The main sources of emissions by sector are as follows:

Energy sector: 15.35 million tons

Transport: 8.32 million tons

Buildings (heating, energy use, etc.): 11.28 million tons

Industrial combustion: 2.46 million tons

Fuel extraction (oil and gas): 3.52 million tons

Industrial processes: 1.69 million tons

Agriculture: 0.14 million tons

Waste: 0.002 million tons

These figures indicate that the largest emissions come from energy production, transportation, and residential buildings. Currently, Azerbaijan contributes about 0.15% of global CO_2 emissions, placing it among the lower-emitting countries worldwide (https://www.ceicdata.com/en/azerbaijan/environmental-gas-emissions-and-air-pollution/az-co2-emissions)


Sustainability is also becoming increasingly important in supply chain management. Companies such as Unilever and IKEA have implemented responsible sourcing policies, ensuring that materials and products are sourced from environmentally and socially responsible suppliers.

These strategies not only mitigate supply chain risks but also create value by appealing to ethically motivated consumers. In fact, a 2020 report by Accenture revealed that sustainable supply chain practices improved supply resilience and reduced procurement costs by an average of 9% (Accenture, 2020).

While large corporations often lead in sustainable innovation due to access to capital and advanced technology, small and medium-sized enterprises (SMEs) also play a vital role.

Governments and financial institutions are increasingly offering targeted support for SMEs to adopt green practices, such as low-interest green loans and business development programs. Encouraging innovation and collaboration among smaller businesses can expand the sustainability movement and enhance its commercial relevance across all sectors.

Diagram 2: Impact of Sustainability Practices on Renewable Energy Companies (2023)



Source: *International Renewable Energy Agency (IRENA), 2023*

This diagram illustrates the economic and investment-related impacts of various sustainability practices in the renewable energy sector. It presents average percentage values for five key practices - energy efficiency, waste reduction, carbon emission reduction, green supply chain integration, and ESG reporting - across three major performance indicators:

–Cost Reduction (%): Reflects the extent to which each sustainability practice helps reduce operational costs.

–ROI Increase (%): Shows how each measure contributes to an increase in return on investment (ROI).

–Investor Confidence Growth (%): Indicates how these practices enhance investor trust and interest in the company.

The data reveals that carbon emission reduction and energy efficiency programs offer the highest commercial benefits, both in terms of cost savings and investor appeal. This supports the broader conclusion that sustainability is not only environmentally essential but also commercially viable and strategically advantageous for businesses in the renewable energy sector.

Sustainability practices are no longer merely an ethical obligation or regulatory necessity - they are a strategic business imperative. When effectively implemented, these practices can lead to measurable financial benefits including cost savings, revenue growth, improved investor relations, and enhanced brand equity. The commercial viability of sustainability depends on a company's ability to align environmental and social goals with core business strategies. As market expectations evolve and global environmental challenges intensify, businesses that prioritize sustainability will be better positioned to succeed in a competitive and uncertain economic landscape.

CONCLUCION

This study has demonstrated that sustainability practices are not only ethically and environmentally necessary but also commercially viable for renewable energy businesses. By integrating strategies such as energy efficiency, carbon emission reduction, responsible supply chain management, and transparent ESG reporting, companies can achieve measurable financial benefits, including cost savings, increased ROI, and stronger investor confidence.

Empirical data and industry case studies confirm that businesses implementing comprehensive sustainability frameworks tend to outperform competitors in both short-term efficiency and long-term

growth. Additionally, shifting consumer expectations and evolving regulatory environments further reinforce the market value of sustainable operations.

Therefore, renewable energy businesses should view sustainability not as a cost burden, but as a strategic investment that strengthens their competitiveness, resilience, and reputation. The alignment of environmental responsibility with economic performance represents a powerful pathway toward sustainable development and future-proof business success.

References:

1. Accenture. (2020). Sustainable Supply Chains: Scaling the Next Frontier of Performance. Retrieved from https://www.accenture.com

2. Cambridge Institute for Sustainability Leadership. (2021). Sustainability Reporting and the Risk of Greenwashing. Retrieved from https://www.cisl.cam.ac.uk

3. Eccles, R. G., Ioannou, I., & Serafeim, G. (2014). The impact of corporate sustainability on organizational processes and performance. Management Science, 60(11), 2835–2857. https://doi.org/10.1287/mnsc.2014.1984

4. European Commission. (2020). The European Green Deal. Retrieved from https://ec.europa.eu/info/strategy/priorities-2019-2024/european-green-deal_en

5. International Energy Agency (IEA). (2022). World Energy Outlook 2022. Retrieved from https://www.iea.org/reports/world-energy-outlook-2022

6. International Renewable Energy Agency (IRENA). (2021). World Energy Transitions Outlook: 1.5°C Pathway. Retrieved from https://www.irena.org/publications

7. McKinsey & Company. (2021). The ESG premium: New perspectives on value and performance. Retrieved from https://www.mckinsey.com

8. White House. (2022). Inflation Reduction Act Guidebook. Retrieved from https://www.whitehouse.gov

9. Wüstenhagen, R., & Boehnke, J. (2008). Business models for sustainable energy. In Sustainable Innovation and Entrepreneurship (pp. 109–129). Edward Elgar Publishing.

10. https://www.ceicdata.com/en/azerbaijan/environmental-gas-emissions-and-air-pollution/az-co2-emissions

A.Q.Abduləvvəlli
magistrant, Azərbaycan Dövlət İqtisad Universiteti
ORCID 0009-0006-4270-696X

Yenilənəbilən enerji bizneslərində davamlılıq təcrübələrinin kommersiya əlverişliliyinin ətraflı təhlili

Xülasə

Bu mövzu, bərpa olunan enerji sektorunda fəaliyyət göstərən şirkətlərin tətbiq etdiyi davamlılıq praktikalarının nə dərəcədə iqtisadi cəhətdən faydalı olduğunu araşdırır. Tədqiqat bu cür təşəbbüslərə edilən investisiyaların uzunmüddətli mənfəətlilik, rəqabət üstünlüyü və bazar nüfuzuna necə töhfə verdiyini qiymətləndirir. Xüsusilə, enerji istehsalında karbon emissiyalarının azaldılmasının, təkrar emal olunan texnologiyalardan istifadənin və sosial məsuliyyət təşəbbüslərinin kommersiya baxımından təsiri təhlil olunur. Nəticələr göstərir ki, davamlılıq strategiyalarının tətbiqi yüksək ilkin xərclər tələb etsə də, uzun müddətdə xərclərin azalmasına, istehlakçı etimadının artmasına və daha sabit gəlir modellərinin formalaşmasına gətirib çıxarır. Beləliklə, davamlılıq yalnız ekoloji deyil, həm də strateji iqtisadi əhəmiyyətə malikdir.

Açar sözlər: *bərpa olunan enerji, davamlılıq praktikaları, kommersiya əlverişliliyi, yaşıl texnologiyalar, uzunmüddətli mənfəətlilik.*

https://doi.org/10.58225/tim.2026-2-608-617

UOT: 339.37:330.43
JEL: C22; C52; O47; L81

N.D.Əhmədli
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0009-0004-2657-0586
Nicat.ahmadli99@gmail.com

Məqalə redaksiyaya daxil olub 06.03.2026
The article was received by editorial board on 06.03.2026
Статья принята к печати 06.03.2026

QISA RÜBLÜK SEÇMƏDƏ ELEKTRON TİCARƏT–İQTİSADİ ARTIM ƏLAQƏSİNİN EKONOMETRİK QİYMƏTLƏNDİRİLMƏSİ: AZƏRBAYCAN ÜZRƏ METOD SEÇİMİ

Xülasə

Tədqiqatın məqsədi: *Azərbaycanda elektron ticarət ödənişləri ilə iqtisadi artım arasındakı əlaqənin 20 müşahidəli rüblük seçmədə hansı ekonometrik strategiya ilə qiymətləndirilməli olduğunu əsaslandırmaqdır.* ***Tədqiqatın metodu:*** *Alternativ OLS spesifikasiyaları, HC3 və Newey–West standart xətaları, qalıq diaqnostikaları və həssaslıq sınaqları məlumat tələbi və interpretasiya imkanına görə müqayisə edilmişdir.* ***Tədqiqatın nəticələri:*** *Qısa seçmə üçün bir rəqəmsal aktivlik dəyişəni, məhdud nəzarətlər və şok indikatorundan ibarət azparametrli model dəsti təklif edilmişdir. ARDL, VAR və VECM kimi yüksəkparametrli modellərin mövcud seçmədə sabit nəticə vermədiyi, nəticələrin səbəbiyyət deyil, şərti əlaqə kimi təqdim edilməli olduğu müəyyən edilmişdir.*

Açar sözlər: *elektron ticarət, iqtisadi artım, qısa seçmə, robust standart xəta, Azərbaycan.*

GİRİŞ

Elektron ticarətin genişlənməsi əməliyyat xərclərini azalda, bazara çıxışı artıra, ödənişləri formallaşdıra və firmaların məlumat əsaslı qərarlarını gücləndirə bilər. Bu mexanizmlər rəqəmsal ödənişlərlə iqtisadi artım arasında müsbət əlaqə gözləntisi yaradır [1; 2]. Lakin zaman sıralarında birgə artım səbəbiyyəti avtomatik təsdiqləmir. Gəlirin yüksəlməsi onlayn tələbi genişləndirə, inflyasiya nominal əməliyyat məbləğini böyüdə, pandemiya isə eyni vaxtda həm kanal seçimini, həm də istehsalı dəyişə bilər.

Azərbaycan üzrə yüksək tezlikli, tərifi ardıcıl elektron ticarət göstəricisinin 2018-ci ildən etibarlı şəkildə izlənməsi rüblük seçməni məhdudlaşdırır. Aylıq kart əməliyyatlarının üç aylıq cəmlərindən 2018Q1–2023Q4 üzrə 24 səviyyə müşahidəsi alınır. Dörd rüb üzrə artım çevirməsi ilk dörd müşahidəni baza kimi istifadə etdiyindən model seçməsi 2019Q1–2023Q4 dövrü üzrə cəmi 20 rübdür. Belə seçmədə hər əlavə gecikmə və nəzarət dəyişəni sərbəstlik dərəcəsini sürətlə azaldır.

Tədqiqatın məqsədi bu məlumat ölçüsünə uyğun, şəffaf və təkrar yoxlanıla bilən ekonometrik strategiya seçməkdir. Məqalə konkret əmsalın "əhəmiyyətli" olub-olmamasından əvvəl daha fundamental suala cavab verir: məhdud seçmədə hansı model quruluşu, kovariasiya qiymətləndiricisi, diaqnostika və həssaslıq sınaqları nəticənin sübut sərhədini düzgün göstərir? İşin elmi mövqeyi metodoloji intizamdır: modelin mürəkkəbliyi məlumatın informasiya tutumunu aşmamalıdır.

1. Nəzəri mexanizm və identifikasiya problemi

Elektron ticarətin artıma təsiri beş kanal üzrə izah edilə bilər. Birincisi, axtarış və müqavilə xərclərinin azalmasıdır. İkincisi, kiçik firmaların coğrafi bazarının genişlənməsidir. Üçüncüsü, elect-

ron izlərin kredit və inventar qərarlarını yaxşılaşdırmasıdır. Dördüncüsü, ödənişlərin rəsmiləşməsi və vergi bazasının görünən olmasıdır. Beşincisi, logistika, proqram təminatı və rəqəmsal xidmətlərdə tamamlayıcı tələbin yaranmasıdır. Rəqəmsal texnologiyanın faydaları isə bacarıq, rəqabət və institutlar olmadan avtomatik reallaşmır [3].

Empirik identifikasiya üç əsas çətinliklə üzləşir. Birinci çətinlik əks səbəbiyyətdir: iqtisadi artım elektron ticarəti artırdığı kimi, elektron ticarət də məhsuldarlıq və tələb kanalı ilə artıma təsir göstərə bilər. İkinci çətinlik buraxılmış dəyişənlərdir: neft qiyməti, dövlət xərcləri, kapital qoyuluşu, internet infrastrukturu və pandemiya hər iki sıraya təsir edə bilər. Üçüncü çətinlik ortaq trend və nominal qiymət təsiridir. Buna görə səviyyələrin yüksək korrelyasiyası struktur əlaqənin sübutu sayılmır. Nəticə dəyişəninin tərifi də identifikasiyanı dəyişir. İlin əvvəlindən rüb sonunadək yığılmış real ÜDM artımı rüblər arasında üst-üstə düşən informasiya daşıyır. Sabit qiymətli xalis rüb ÜDM səviyyəsindən hesablanan illik artım zaman baxımından daha aydın olsa da, mövsümi düzəliş və məlumat versiyası ayrıca sənədləşdirilməlidir. Hər iki yanaşmanın müqayisəsi nəticənin ölçmə seçiminə həssaslığını göstərir, lakin endogenliyi aradan qaldırmır.

2. Məlumat, çevirmələr və əsas spesifikasiyalar

Əsas izah dəyişəni yerli debet və kredit kartları ilə aparılmış elektron ticarət əməliyyatlarının rüblük nominal məbləğidir. Alternativ ölçü əməliyyatların sayıdır. Məbləğ həm iştirakın, həm orta çekin, həm də qiymətlərin təsirini birləşdirir; say isə əməliyyat tezliyini daha birbaşa əks etdirsə də, unikal alıcı və ya satıcı sayını göstərmir. Bu iki göstərici eyni modelə birlikdə daxil edilmədikdə multikolinearlıq riski azalır və hər biri ayrıca iqtisadi sual verir.

$$VALUE\_GROWTH_t = 100 \times [\ln(VALUE_t) - \ln(VALUE_{t-4})]$$

Əsas rəqəmsal aktivlik göstəricisi dörd rüb üzrə loqarifmik artımdır.

$$COUNT\_GROWTH_t = 100 \times [\ln(COUNT_t) - \ln(COUNT_{t-4})]$$

Alternativ spesifikasiyada məbləğ artımı əməliyyat sayı artımı ilə əvəz olunur.

Əsas modeldə asılı dəyişən rüblük sabit qiymətli ÜDM-in əvvəlki ilin eyni rübünə nisbətən faiz dəyişməsidir. Nəzarət kimi kapital qoyuluşunun artımı və 2020-ci il üçün şok indikatoru yalnız spesifik məqsədlə əlavə edilir. Kiçik seçmədə çoxsaylı nəzarətlərin daxil edilməsi qərəzi avtomatik azaltmır; əksinə, yüksək dispersiya və bir neçə müşahidədən asılı əmsallar yarada bilər.

Cədvəl 1

Təklif olunan azparametrli model dəsti

Model	Spesifikasiya	Analitik məqsəd
M1	$GDPG_t = \alpha + \beta \cdot VALUEG_t + \varepsilon_t$	Əsas şərti əlaqə
M2	$GDPG_t = \alpha + \beta \cdot VALUEG_t + \gamma \cdot CAPG_t + \delta \cdot COVID_t + \varepsilon_t$	Nəzarətli əlaqə və şok
M3	$GDPG_t = \alpha + \beta \cdot COUNTG_t + \gamma \cdot CAPG_t + \delta \cdot COVID_t + \varepsilon_t$	Dəyər əvəzinə yayılma ölçüsü
U1	$QGDPG_t = \alpha + \beta \cdot VALUEG_t + \varepsilon_t$	Xalis rüb ÜDM nəticəsi
U2	$QGDPG_t = \alpha + \beta \cdot VALUEG_t + \gamma \cdot CAPG_t + \delta \cdot COVID_t + \varepsilon_t$	Nəticə tərifinə həssaslıq

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

M1 rəqəmsal aktivliyin istiqamətini və ölçüsünü sadə formada göstərir. M2 investisiya və 2020 şokunu nəzərə alır, lakin kapital göstəricisinin yığılan dövr ölçüsü olduğu açıq yazılmalıdır. M3 nəticənin nominal dəyər artımından yox, əməliyyatların yayılmasından asılı olub-olmadığını yoxlayır. U1 və U2 isə yığılmış ÜDM artımını xalis rüb sabit qiymətli ÜDM artımı ilə əvəz edərək zaman ölçməsinin rolunu göstərir. Əmsal bir faiz bəndlik ödəniş artımı ilə ÜDM artımı arasındakı orta şərti dəyişmədir; elastiklik və ya səbəb təsiri deyil.

3. Niyə yüksəkparametrli dinamik modellər uyğun deyil?

ARDL modeli səviyyə və gecikmə münasibətlərini çevik təsvir edir və sərhəd testi ilə uzunmüddətli əlaqəni araşdıra bilər [4]. VAR qarşılıqlı dinamikanı, VECM isə kointeqrasiya olduqda qısamüddətli düzəlişlə uzunmüddətli tarazlığı birlikdə qiymətləndirir [5]. Bu üstünlüklər kifayət qədər uzun sıra, etibarlı inteqrasiya diaqnostikası və lag seçimi tələb edir. İyirmi müşahidədə iki dəyişənli VAR(2) belə hər tənlikdə əhəmiyyətli sayda parametr istehlak edir; əlavə nəzarətlər və deterministik komponentlər nəticəni daha da kövrək edir.

Formal vahid kök testləri qısa seçmədə aşağı gücə malikdir. Testin sıfır hipotezini rədd etməməsi sıranın mütləq qeyri-stasionar olduğunu yox, seçmənin fərqi müəyyən etməyə kifayət etmədiyini də göstərə bilər. Dörd rüb üzrə artım deterministik trendi və mövsümiliyi zəiflətmək üçün iqtisadi cəhətdən əsaslandırılmış çevirmədir, lakin stasionarlığın rəsmi sübutu deyil. Buna görə iyirmi müşahidə ilə ADF və PP nəticələrinə əsaslanan kointeqrasiya sistemi qurmaq yalnış dəqiqlik yarada bilər.

Model seçiminin meyarı mümkün olan ən mürəkkəb alqoritm deyil, məlumatın daşıya bildiyi ən aydın sualdır. OLS azparametrli şərti əlaqəni birbaşa göstərir, qalıqları müşahidə etməyə və əmsalın həssaslığını yoxlamağa imkan verir. Bu seçim OLS fərziyyələrinin avtomatik ödəndiyini bildirmir; məhz buna görə kovariasiya düzəlişləri, təsir diaqnostikası və alternativ nəticə tərifləri birlikdə təqdim olunur.

Cədvəl 2

Alternativ metodların qısa seçmə baxımından qiymətləndirilməsi

Metod	Üstünlük	20 müşahidədə əsas risk	Qərar
Azparametrli OLS	Şəffaf şərti əlaqə	Endogenlik və qalıq pozuntusu	Əsas, robust inferensiya ilə
ARDL	Qısa/uzunmüddətli dinamika	Lag və sərhəd testinin qeyri-sabitliyi	Tətbiq edilmir
VAR	Qarşılıqlı dinamika	Parametr sayı və sərbəstlik itkisi	Tətbiq edilmir
VECM	Kointeqrasiya çərçivəsi	Etibarlı inteqrasiya sübutu yoxdur	Tətbiq edilmir
Sadə korrelyasiya	İlkin istiqamət	Trend və üçüncü amillər	Yalnız təsviri

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

4. Robust inferensiya və diaqnostika

Adi OLS standart xətaları qalıq dispersiyasının sabit və müşahidələrarası korrelyasiyanın sıfır olmasını tələb edir. Rüblük makroiqtisadi məlumatlarda bu şərtlər zəif ola bilər. HC3 standart xətaları yüksək leverage-li müşahidələrin təsirini daha sərt şəkildə düzəldir və kiçik seçmədə heteroskedastiklik riskinə qarşı faydalıdır [6]. Newey–West HAC qiymətləndiricisi isə seçilmiş lag

daxilində həm dəyişən dispersiyanı, həm serial kovariasiyanı nəzərə alır [7]. Əsas nəticə adi, HC3 və HAC standart xətaları ilə yanaşı verilməli, yalnız ən kiçik standart xəta seçilməməlidir.

Diaqnostik testlər qərar süzgəcidir, modelin "doğru" olduğuna dair sertifikat deyil. Breusch–Godfrey testi qalıq avtokorrelyasiyasını [8], Breusch–Pagan testi heteroskedastikliyi [9], Jarque–Bera testi normallıqdan yayınmanı yoxlayır. VIF izah dəyişənləri arasındakı xətti əlaqəni, leverage və Cook məsafəsi isə ayrı-ayrı rüblərin əmsala təsirini göstərir. Durbin–Watson statistikası əlavə xülasədir, lakin qısa seçmədə sərt keçdi/qaldı meyarı kimi istifadə edilməməlidir.

İyirmi müşahidədə testlərin gücü zəif olduğuna görə böyük p-qiyməti problemin olmadığını sübut etmir. Bu səbəbdən formal testlər əmsal həssaslığı ilə tamamlanır. Hər dəfə bir rübün seçmədən çıxarıldığı leave-one-out hesablaması əsas əmsalın bir müşahidədən nə dərəcədə asılı olduğunu göstərir. 2020-ci ilin çıxarılması pandemiya dövrünün, 2023-cü ilin çıxarılması son illərdə sürətlənən kart aktivliyinin nəticəni idarə edib-etmədiyini yoxlayır. Bir rüb gecikdirilmiş ödəniş artımı eyni vaxtlı əks səbəbiyyət riskini qismən araşdırır, lakin alət dəyişəni əvəz etmir.

Cədvəl 3

Minimum hesabat və həssaslıq protokolu

Blok	Göstərici/sınaq	Şərh prinsipi
Əmsal	β, standart xəta, 95% interval	İşarə, ölçü və qeyri-müəyyənlik birlikdə
Kovariasiya	Adi, HC3, HAC	Razılaşma güvəni artırır; fərq qeyri-müəyyənlikdir
Qalıq	BG, BP, JB, DW	Aşağı test gücü qeyd edilir
Kollinearlıq	VIF	Çoxsaylı əlaqəli proksilərdən qaçılır
Təsir	Leverage, Cook, leave-one-out	Tək rübdən asılılıq ayrıca göstərilir
Seçmə	2020-siz; 2023-süz	Şok və son dövr dominantlığı
Ölçmə	Dəyər/say; YTD/xalis rüb ÜDM	Proksi və nəticə tərifinə həssaslıq

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

5. Nəticələrin düzgün təqdimatı və siyasət mənası

Empirik cədvəldə ilk növbədə seçmənin 20 müşahidə olduğu, dəyişənlərin dörd rüb üzrə artım kimi qurulduğu və 2020 indikatorunun yalnız orta səviyyə fərqini tutduğu yazılmalıdır. Statistik əhəmiyyət ayrıca, iqtisadi əhəmiyyət ayrıca izah edilməlidir. Məsələn, müsbət β rəqəmsal ödəniş artımı yüksək olan rüblərdə ÜDM artımının da orta hesabla yüksək olmasını göstərə bilər; lakin buradan elektron ticarətin artımı yaratdığı nəticəsi çıxmır. Əmsalın işarəsi kovariasiya seçimi ilə dəyişməsə də, etibar intervalının genişlənməsi sübutun zəifliyini göstərə bilər.

Məbləğ və say modellərinin müqayisəsi siyasət üçün xüsusilə əhəmiyyətlidir. Dəyər göstəricisi güclü, say göstəricisi zəifdirsə, nəticə geniş iştirakdan çox orta çek, qiymət və ya iri əməliyyatlarla bağlı ola bilər. Hər iki göstərici oxşar istiqamət verirsə, rəqəmsal kanalın yayılması ilə uyğunluq artır, yenə də unikal istifadəçi məlumatı olmadan inklüzivlik təsdiqlənmir. Xalis rüb ÜDM və yığılmış ÜDM nəticələri fərqlənirsə, əsas mesaj göstərici seçiminə həssaslıq olmalıdır.

Rəqəmsal ödənişlərin formallaşdırma və maliyyə daxilolması kanalları iqtisadi siyasətdə dəyərlidir [10]. Lakin qısa makro seçmə üzrə şərti əlaqə vergi güzəşti, subsidiya və ya platforma tənzimləməsinin təsirini ölçmür. Siyasət qərarı üçün tədqiqat regional və sektor panelləri, firma səviy-

yəli satış və məhsuldarlıq göstəriciləri, yerli/transsərhəd əməliyyat bölgüsü və mümkün təbii eksperimentlərlə genişləndirilməlidir. Cari dizaynın rolu həmin daha güclü tədqiqat üçün şəffaf baza və ilkin istiqamət yaratmaqdır.

6. Yenilənmə strategiyası və əvvəlcədən müəyyən edilmiş qərar qaydaları

Qısa seçmənin əsas üstünlüyü ən yeni institusional dövrə fokuslanması, əsas zəifliyi isə nəticənin ayrı-ayrı rüblərə həssaslığıdır. Məlumat hər il dörd yeni müşahidə ilə uzandıqca model avtomatik olaraq mürəkkəbləşdirilməməlidir. Əvvəlcə eyni M1–M3 və U1–U2 spesifikasiyaları yenidən hesablanmalı, əmsalın işarəsi, ölçüsü və etibar intervalının əvvəlki versiya ilə dəyişməsi göstərilməlidir. Yalnız kifayət qədər uzun birgə sıra və sabit diaqnostik nəticə yarandıqdan sonra lag strukturunun genişləndirilməsi müzakirə oluna bilər. Bu ardıcıllıq yeni müşahidənin yaratdığı məlumatı model seçiminin yaratdığı dəyişiklikdən ayırır.

Qərar qaydalarının analizdən əvvəl yazılması seçmə nəticəsinə uyğun model seçilməsi riskini azaldır. Əsas proksi dəyər artımı, alternativ proksi say artımı; əsas nəticə xalis rüb sabit qiymətli ÜDM artımı, müqayisə nəticəsi yığılmış ÜDM artımı kimi əvvəlcədən qeyd edilməlidir. HC3 və HAC standart xətaları bütün əsas modellər üçün hesablanmalı, 2020-siz və 2023-süz sınaqlar yalnız nəticə zəif olduqda deyil, hər halda təqdim edilməlidir. Əmsalın işarəsi spesifikasiyalar arasında dəyişirsə, yekun "müsbət" və ya "mənfi" deyil, "model seçiminə həssas" kimi yazılmalıdır.

Reproduksiya paketi ən azı dəyişən lüğətini, mənbə reyestrini, çevirmə formulalarını, model cədvəllərini və diaqnostika çıxışlarını əhatə etməlidir. Cədvəldə əl ilə yazılmış əmsal əvəzinə hesablamadan birbaşa ixrac edilən nəticə istifadə olunduqda köçürmə səhvi azalır. Hər versiyada proqram mühiti və götürülmə tarixi qeyd edilməli, məxfi fərdi əməliyyat məlumatı istifadə olunmursa bu etik sərhəd də açıq göstərilməlidir. Belə qayda redaksiya ekspertizasını asanlaşdırır, başqa tədqiqatçıya nəticəni yoxlamağa imkan verir və mübahisəni proqram texnikasından iqtisadi fərziyyələrin əsaslandırılmasına yönəldir.

7. Sərbəstlik dərəcəsi və kiçik seçmə qeyri-müəyyənliyi

İyirmi müşahidəli seçmədə parametr sayı modelin etibarlılığına birbaşa təsir göstərir. Intersept, bir elektron ticarət göstəricisi, kapital qoyuluşu və 2020 indikatorundan ibarət model dörd parametr qiymətləndirir və qalıq üzrə 16 sərbəstlik dərəcəsi saxlayır. Eyni modelə əlavə gecikmələr, inflyasiya, neft qiyməti, dövlət xərcləri və mövsümi indikatorlar daxil edildikdə sərbəstlik dərəcəsi sürətlə azalır. Nəticədə uyğunlaşma əmsalı yüksələ bilər, lakin əmsalların standart xətası və yeni müşahidəyə həssaslığı artır. Yüksək R-kvadrat kiçik seçmədə modelin struktur baxımdan üstün olduğunu göstərmir.

Kiçik seçmədə statistik əhəmiyyət ikili qərar kimi deyil, qeyri-müəyyənliyin bir komponenti kimi şərh edilməlidir. P-qiyməti seçmənin ölçüsündən, qalıq dispersiyasından və kovariasiya qiymətləndiricisindən asılıdır. Eyni əmsal adi OLS xətası ilə dar, HC3 və HAC ilə geniş etibar intervalına malik ola bilər. Bu fərq nəticələrin ziddiyyəti deyil, fərqli qalıq fərziyyələrinin sübuta təsiridir. Əmsalın iqtisadi işarəsi sabit qaldıqda, lakin interval sıfırı əhatə etdikdə "müsbət istiqamətli, lakin qeyri-dəqiq əlaqə" ifadəsi daha düzgündür.

Model müqayisəsində düzəldilmiş R-kvadrat, informasiya meyarı və proqnoz səhvi köməkçi göstəricilərdir, amma iyirmi müşahidədə onların fərqi də qeyri-sabit ola bilər. Eyni seçmə üzərində çoxsaylı model sınayıb ən yaxşı nəticəni seçmək tədqiqatçının sərbəstlik dərəcəsini artırır və təsadüfi uyğunlaşmanı elmi nəticə kimi təqdim etmək riskini yaradır. Buna görə spesifikasiyalar nəzəri mexanizmə əsasən əvvəlcədən müəyyən edilməli, bütün əsas nəticələr eyni cədvəldə göstərilməli və uğursuz modellər gizlədilməməlidir.

Mərkəzi Bankın ödəniş göstəriciləri [11] və Dövlət Statistika Komitəsinin rüblük milli hesabları [12] uzadıldıqca seçmə ölçüsü təbii olaraq artacaq. Lakin yeni məlumat köhnə dövr üçün tərif və vintaj dəyişikliyi yarada bilər. Hər yenilənmədə əvvəlki 20 müşahidəli nəticə arxivləşdirilməli, genişlənmiş seçmə eyni kodla yenidən hesablanmalı və dəyişiklik əmsal, standart xəta və təsirli rüb

səviyyəsində izah edilməlidir. Bu, nəticənin zamanla sabitləşib-sabitləşmədiyini qiymətləndirməyə imkan verir.

Cədvəl 4

Parametr sayı və sərbəstlik dərəcəsi üzrə nümunə

Spesifikasiya	Qiymətləndirilən parametr	Qalıq sərbəstlik dərəcəsi	Risk
Intersept + VALUEG	2	18	Buraxılmış dəyişən
Intersept + VALUEG + CAPG + COVID	4	16	Əsas azparametrli model
Əsas model + 2 əlavə nəzarət	6	14	Yüksək dispersiya
Əsas model + 2 lag	8 və daha çox	12 və daha az	Qeyri-sabit dinamika

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

8. Həssaslıq sınaqlarının iyerarxiyası

Həssaslıq analizinin məqsədi əsas nəticəni hər vasitə ilə qorumaq deyil, onun hansı seçimlərə bağlı olduğunu müəyyənləşdirməkdir. Sınaqlar dörd iyerarxiyada təşkil edilə bilər: ölçmə, seçmə, zaman və inferensiya. Ölçmə sınağı dəyər artımını say artımı ilə, yığılmış ÜDM nəticəsini xalis rüb sabit qiymətli ÜDM artımı ilə əvəz edir. Seçmə sınağı pandemiya və son dövr müşahidələrini ayrıca çıxarır. Zaman sınağı eyni vaxtlı dəyişəni bir rüb gecikdirir. İnferensiya sınağı isə standart xətanı adi, HC3 və HAC üsulları ilə müqayisə edir.

Sınaqların ardıcıllığı nəticənin diaqnozunu asanlaşdırır. Əmsal yalnız dəyər proksisində müsbətdirsə, nominal qiymət və orta çek kanalına diqqət artır. Nəticə xalis rüb ÜDM-də dəyişirsə, asılı dəyişənin zaman tərifi həlledicidir. 2020 çıxarıldıqda işarə dəyişirsə, pandemiya struktur qırılması kimi ayrıca modelləşdirilməlidir. HC3 və HAC etibar intervalları adi nəticədən ciddi fərqlənirsə, statistik nəticə qalıq fərziyyələrinə həssasdır. Hər fərq uğursuzluq deyil; modelin sübut sərhədi barədə məlumatdır.

Leave-one-out nəticələri yalnız minimum və maksimum əmsalla yekunlaşdırılmamalıdır. Hansı rübün daha təsirli olduğu, həmin rübdə ödəniş və ÜDM göstəricisinin iqtisadi hadisələrlə necə dəyişdiyi və mənbə tərifində hər hansı yenilik olub-olmadığı izah edilməlidir. Cook məsafəsi və leverage yüksək olan rüb əvvəlcə məlumat səhvi baxımından yoxlanır, sonra real müşahidədirsə saxlanılır. Təsirli müşahidəni əsaslandırmadan silmək nəticənin seçmə ilə manipulyasiyası kimi görünə bilər.

Çoxsaylı sınaqların nəticələri bir qərar cədvəlində birləşdirilməlidir. Əsas əmsalın işarəsi, ölçü intervalı və etibar intervalının sıfırı əhatə edib-etməməsi hər sətirdə eyni formatda göstərilir. Yekun qiymətləndirmə “sabit”, “qismən sabit” və “həssas” kateqoriyalarından biri ilə verilir. Sabit nəticə proksi, nəticə tərifi və kovariasiya seçimlərində eyni istiqaməti saxlayır; qismən sabit nəticə istiqaməti qoruyur, lakin dəqiqlik dəyişir; həssas nəticədə isə işarə və iqtisadi ölçü əsas seçimlərə görə dəyişir.

Cədvəl 5

Həssaslıq sınaqları üzrə qərar matrisi

Sınaq bloku	Dəyişiklik	Əsas sual	Həssaslıq siqnalı
Ölçmə	Dəyər → say	Nəticə intensivlikdən asılıdırmı?	İşarə və ölçünün dəyişməsi

Sınaq bloku	Dəyişiklik	Əsas sual	Həssaslıq siqnalı
Nəticə tərifi	YTD → xalis rüb ÜDM	Zaman ölçməsi həlledicidirmi?	İstiqamətin dəyişməsi
Seçmə	2020-siz; 2023-süz	Şok ili nəticəni idarə edirmi?	Əmsalın kəskin dəyişməsi
Zaman	Cari → bir rüb gecikmə	Eyni vaxtlılıq nə dərəcədədir?	Gecikmiş nəticənin fərqlənməsi
İnferensiya	Adi → HC3/HAC	Qalıq fərziyyəsi vacibdirmi?	Etibar intervalının genişlənməsi
Təsir	Leave-one-out	Tək rüb dominantdırmı?	İşarənin ayrı rübdə dəyişməsi

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

9. Şərti əlaqədən daha güclü identifikasiyaya keçid

Makro rüblük modelin əsas məhdudiyyəti elektron ticarət artımının ekzogen olmamasıdır. Daha güclü səbəb nəticəsi üçün dəyişmənin mənbəyi ayrıca identifikasiya edilməlidir. Region və ya sektorlar rəqəmsal ödəniş infrastrukturuna müxtəlif tarixlərdə qoşulubsa, mərhələli qəbul dizaynı tətbiq oluna bilər. Müalicə və müqayisə qruplarının qəbuldan əvvəlki trendləri oxşar olmalı, qəbul tarixi nəticədən asılı şəkildə seçilməməli və eyni dövrdə baş verən digər proqramlar nəzərə alınmalıdır. Bu şərtlər ödənmədikdə fərqlərin fərqi modeli də sadə OLS kimi yalnız şərti əlaqə verə bilər.

Firma paneli elektron ticarət qəbulundan əvvəl və sonra satış, məşğulluq, məhsuldarlıq və bazara çıxış göstəricilərini izləməyə imkan verər. Lakin rəqəmsal kanalı seçən firmaların əvvəlcədən daha güclü olması seçilmə qərəzi yaradır. Uyğunlaşdırma, firma sabit effektləri və qəbuldan əvvəlki nəticə dinamikası bu riski azalda bilər, tam aradan qaldırmaya bilər. İnfrastrukturun texniki genişlənməsi, qayda dəyişikliyi və ya ödəniş xərcində xaricdən yaranan dəyişmə etibarlı alət və ya təbii eksperiment üçün namizəd ola bilər; onun yalnız nəticə üzərindən təsir etməsi ayrıca əsaslandırılmalıdır.

Sintetik nəzarət yanaşması böyük və aydın tarixli siyasət müdaxiləsi olduqda Azərbaycan üçün alternativ müqayisə trayektoriyası qura bilər. Bunun üçün müdaxilədən əvvəl uzun dövr, uyğun donor ölkələr, müqayisə olunan nəticə tərifi və müdaxilədən təsirlənməyən donor hovuzu tələb olunur. 2018–2023 üzrə qısa ödəniş seriyası bu tələbləri tam ödəmir. Buna görə cari mərhələdə sintetik nəzarət nəticəsi təqdim etmək əvəzinə, gələcək məlumat ehtiyacı və donor seçimi əvvəlcədən sənədləşdirilməlidir.

Proqnoz modelləri də səbəbiyyət modellərindən ayrılmalıdır. ARIMA və ya digər zaman sırası üsulu gələcək ödəniş aktivliyini proqnozlaşdıra bilər, lakin yaxşı proqnoz elektron ticarətin ÜDM-ə səbəb təsirini göstərmir. Eyni şəkildə, zəif makro əlaqə elektron ticarətin firmalar və istehlakçılar üçün faydasız olduğunu sübut etmir; təsir sektoral yenidən bölgü, formallaşma və istehlakçı rahatlığı şəklində yarana bilər. Tədqiqat sualı ilə qiymətləndirmə hədəfinin ayrılması metod seçimində əsas prinsipdir.

Cari azparametrli protokolun dəyəri son nəticə olmaqdan çox, daha güclü dizayna keçid üçün etalon yaratmasıdır. Dəyişənlərin tərifi, rüblük aqreqasiya, əsas və alternativ nəticələr, şok sınaqları və kovariasiya üsulları əvvəlcədən müəyyənləşdirildikdə yeni məlumatla müqayisə şəffaf olur. Redaksiya və siyasət istifadəçisi əmsalın yalnız p-qiymətini deyil, onun hansı məlumat, fərziyyə və müşahidələr üzərində qurulduğunu görə bilir. Bu yanaşma iqtisadi nəticələrin ölçülməsini modellərin texniki mürəkkəbliyindən daha vacib edir.

10. Nəticələrin təqdim edilməsi və redaksiya yoxlama çərçivəsi

Ekonometrik nəticənin redaksiyaya təqdimatı modelin yekun əmsalından əvvəl məlumat və spesifikasiya xəritəsi ilə başlamalıdır. Hər cədvəldə asılı dəyişənin dəqiq tərifi, elektron ticarət prok-

sisi, seçmə dövrü, müşahidə sayı, nəzarət dəyişənləri və kovariasiya qiymətləndiricisi göstərilməlidir. Model adlarının M1, M2 və M3 kimi kodlaşdırılması yalnız həmin kodların formulası və iqtisadi məqsədi əvvəlcədən verildikdə faydalıdır. Eyni dəyişən müxtəlif vahid və ya artım tərifində istifadə edilirsə, sütun başlığında bu fərq açıq yazılmalıdır. Bu qayda oxucunun əmsalları yanlış model arasında müqayisə etməsinin qarşısını alır.

Əsas nəticə cədvəli β əmsalını, standart xətanı, 95 faiz etibar intervalını, müşahidə sayını və düzəldilmiş R-kvadratı birlikdə verməlidir. Statistik işarələr yalnız köməkçi olmalı, mətndə əmsalın iqtisadi ölçüsü və qeyri-müəyyənliyi izah edilməlidir. Adi, HC3 və HAC nəticələri ayrı cədvəllərə səpələnmək əvəzinə eyni paneldə müqayisə edilə bilər. Əmsalın işarəsi sabit, intervalı isə kovariasiya üsuluna görə genişdirsə, nəticə "istiqamət baxımından sabit, dəqiqlik baxımından həssas" kimi təqdim edilməlidir. Bu ifadə həm statistik, həm də iqtisadi nəticəni həddindən artıq iddiadan qoruyur.

Diaqnostika nəticələri yalnız test adları və p-qiymətlərindən ibarət olmamalıdır. Breusch–Godfrey, Breusch–Pagan, Jarque–Bera, leverage və Cook ölçülərinin hansı modelə tətbiq edildiyi, kiçik seçmədə test gücünün məhdudluğu və aşkar olunan problemin nəticəyə necə təsir etdiyi qısa şərhlə göstərilməlidir. Təsirli rüb müəyyən edilərsə, həmin müşahidə əvvəlcə mənbə və iqtisadi hadisə baxımından yoxlanmalı, sonra leave-one-out nəticəsi ilə müqayisə edilməlidir. Real şoku səbəbsiz silmək əvəzinə onun əmsala təsirini açıq göstərmək elmi hesabatlılığı gücləndirir.

Redaksiya yoxlaması üçün ayrıca həssaslıq əlavəsi hazırlanmalıdır. Əlavədə dəyər və say proksiləri, yığılmış və xalis rüb ÜDM tərifləri, 2020-siz və 2023-süz seçmələr, cari və gecikmiş göstəricilər, eləcə də HC3 və HAC intervalları eyni qərar formatında verilir. Hər sınaq üzrə işarə, əmsal diapazonu və nəticənin "sabit", "qismən sabit" və ya "həssas" olduğu qeyd olunur. Bu çərçivə seçmə nəticənin yalnız ən əlverişli spesifikasiyasını önə çıxarmaq riskini azaldır və rəyçinin əsas iddianın hansı fərziyyələr altında qorunduğunu tez qiymətləndirməsinə imkan verir.

Cədvəl 6

Redaksiya üçün minimum ekonometrik hesabat dəsti

Blok	Mütləq təqdim edilən məlumat	Yoxlama sualı
Məlumat	Dəyişən tərifi, dövr, N və mənbə	Seçmə təkrarlana bilirmi?
Model	Formula, nəzarətlər və gecikmə	Spesifikasiya əvvəlcədən əsaslandırılıbmı?
İnferensiya	Əmsal, SE, 95% interval, HC3/HAC	Qeyri-müəyyənlik görünürmü?
Diaqnostika	BG, BP, JB, VIF və təsir ölçüləri	Qalıq fərziyyələri yoxlanılıbmı?
Həssaslıq	Proksi, nəticə, seçmə və zaman sınaqları	Əsas nəticə seçimlərə bağlıdırmı?
Şərh	Şərti əlaqə və səbəbiyyət sərhədi	Siyasət iddiası sübutu aşırmı?

Mənbə: *müəllif tərəfindən tərtib edilmişdir.*

NƏTİCƏ

Məqalədə Azərbaycanda elektron ticarət ödənişləri ilə iqtisadi artım əlaqəsinin 20 müşahidəli rüblük seçmədə qiymətləndirilməsi üçün metod seçimi əsaslandırılmışdır. Məlumatın ölçüsü yüksəkparametrli ARDL, VAR və VECM sistemlərinin lag seçimi və sabit qiymətləndirilməsi üçün

kifayət etmir. Daha uyğun yanaşma dəyər və say proksilərini ayrı-ayrılıqda istifadə edən azparametrli OLS modelləri, HC3 və Newey–West standart xətaları, qalıq diaqnostikaları və əvvəlcədən müəyyən edilmiş həssaslıq sınaqlarının birlikdə tətbiqidir.

İşin elmi yeniliyi model mürəkkəbliyini məlumatın informasiya tutumu ilə əlaqələndirən və nəticə tərifi, proksi seçimi, kovariasiya qiymətləndiricisi və təsirli müşahidələri vahid qərar matrisi daxilində birləşdirən Azərbaycan üzrə metodoloji protokoldur. Tətbiqi əhəmiyyəti tədqiqatçılara qısa rüblük seriyalarda yalnış dəqiqlikdən yayınmaq, redaksiyaya isə nəticələrin yoxlanılması üçün minimum hesabat dəsti verməsidir. İqtisadi səmərə zəif əsaslandırılmış modeldən doğan siyasət səhvi riskinin azalması, hesablamaların təkrar istifadəsi və yeni məlumat əlavə olunduqca modelin mərhələli yenilənməsi ilə ifadə olunur. Təklif olunan nəticələr səbəb təsiri deyil, ölçülmüş şərti əlaqənin sərhədlərini göstərir.

İstifadə edilmiş ədəbiyyat:

1. Goldfarb A., Tucker C. Digital economics. Journal of Economic Literature. 2019;57(1):3–43. DOI: 10.1257/jel.20171452.

2. Toska A., Fetai B. The impact of e-commerce on the economic growth of the Western Balkan countries: A panel data analysis. International Journal of Sustainable Development and Planning. 2023;18(3):935–941. DOI: 10.18280/ijsdp.180329.

3. World Bank. World Development Report 2016: Digital Dividends. Washington, DC: World Bank, 2016. DOI: 10.1596/978-1-4648-0671-1.

4. Pesaran M.H., Shin Y., Smith R.J. Bounds testing approaches to the analysis of level relationships. Journal of Applied Econometrics. 2001;16(3):289–326. DOI: 10.1002/jae.616.

5. Sims C.A. Macroeconomics and reality. Econometrica. 1980;48(1):1–48. DOI: 10.2307/1912017.

6. White H. A heteroskedasticity-consistent covariance matrix estimator and a direct test for heteroskedasticity. Econometrica. 1980;48(4):817–838. DOI: 10.2307/1912934.

7. Newey W.K., West K.D. A simple, positive semi-definite, heteroskedasticity and autocorrelation consistent covariance matrix. Econometrica. 1987;55(3):703–708. DOI: 10.2307/1913610.

8. Godfrey L.G. Testing against general autoregressive and moving average error models when the regressors include lagged dependent variables. Econometrica. 1978;46(6):1293–1301. DOI: 10.2307/1913829.

9. Breusch T.S., Pagan A.R. A simple test for heteroscedasticity and random coefficient variation. Econometrica. 1979;47(5):1287–1294. DOI: 10.2307/1911963.

10. Aguilar A., Frost J., Guerra R., Kamin S., Tombini A. Digital payments, informality and economic growth. BIS Working Papers, No. 1196. Basel: Bank for International Settlements, 2024.

11. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Digital Payments Report 2023. Bakı, 2024. URL: https://uploads.cbar.az/assets/PS%20annual%20report%20ENG.pdf

12. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Ümumi daxili məhsul (rüblük): ÜDM-in istehsalı. Bakı, 2026. URL: https://stat.gov.az/source/system_nat_accounts/en/03qua.xls

N.D.Ahmadli
doctoral student, Azerbaijan State University of Economics (UNEC)
ORCID 0009-0004-2657-0586

Econometric assessment of the e-commerce–economic growth relationship in a short quarterly sample: method selection for Azerbaijan

Abstract

Purpose: *to justify an econometric strategy for assessing the relationship between e-commerce payments and economic growth in Azerbaijan using a quarterly sample of 20 observations.* ***Design/method/approach:*** *alternative OLS specifications, HC3 and Newey–West standard errors, residual diagnostics and sensitivity tests are compared by their data requirements and interpretability.* ***Findings (Results):*** *a parsimonious model set with one digital-activity variable, limited controls and a shock indicator is proposed. ARDL, VAR and VECM are not stable for the available sample; results should be reported as conditional associations rather than causal effects.*

Keywords: *e-commerce, economic growth, small sample, robust standard error, Azerbaijan*

https://doi.org/10.58225/tim.2026-2-618-629

R.Ş.Muradov
i.e.d., professor, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0000-0003-2042-7194
rashad_muradov@hotmail.com,
N.Ə.Həsənov
i.e.d., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0000-0002-5122-4712
niyazisan@gmail.com
A.H.Ağarzayev
i.f.d., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0000-0003-0640-2564
azer_agarzayev@unec.edu.az
N.L.Hüseynova
i.f.d., dosent, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0000-0002-7940-8628
huseynova_nigar@unec.edu.az
A.Ə.Təhməzova
i.f.d., b.m., Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
ORCID 0000-0001-8396-4689
ayiba_tahmazova@unec.edu.az

Məqalə redaksiyaya daxil olub 03.03.2026
The article was received by editorial board on 03.03.2026
Статья принята к печати 03.03.2026

QARABAĞ İQTİSADİ RAYONUNDA BİZNESİN DAYANIQLI İNKİŞAFI MƏSƏLƏLƏRİ

Xülasə

İşğaldan azad olunmuş Qarabağ və ətraf rayonlarının iqtisadiyyatının yenidən qurulması, infrastrukturunun bərpası, bölgədə dayanıqlı inkişafın təmin olunması günümüzün əsas prioritet mövzularındandır. Təsadüfi deyildir ki, işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış", Azərbaycan Respublikası Prezidentinin 2 fevral, 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də də öz əksini tapmışdır [1]. Qeyd etməliyik ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda biznes fəaliyyətinin inkişafı həmin regionun zəngin təbii ehtiyatları və potensialı ilə bağlıdır. İşğaldan azad olunmuş ərazilərdə su, mineral, torpaq, meşə və bərpa olunan enerji ehtiyatlarının səmərəli istifadəsi regionun iqtisadi dirçəlişi və ölkə iqtisadiyyatına inteqrasiyası baxımından strateji cəhətdən böyük əhəmiyyət kəsb edir.

Bu məqalədə, Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafının təmin edilməsi üçün qarşıya çıxan problemlərin təhlili və qiymətləndirilməsi əsasında onların həlli yolları qeyd olunaraq bəzi təkliflər verilir. Təhlillər elmi ədəbiyyata, rəsmi statistikaya və çap olunmuş materiallara söykənir.

Bu tədqiqatda post-münaqişə zonalarında iqtisadi sistemlərin transformasiyası nəzəriyyələrinə əsaslanaraq, ərazinin xammal - mineral, su, enerji və rekreasiya ehtiyatlarının idarə olunmasının ekonometrik modelləri təklif edimişdir. Tədqiqat çərçivəsində təbii ehtiyatların regional iqtisadi təh-

lükəsizlik, şəffaflıq və "yaşıl artım" konsepsiyaları fonunda qiymətləndirilməsi aparılmış, alimlər heyəti tərəfindən biznes subyektlərinin klasterləşməsinə, kölgə iqtisadiyyatının institusional olaraq neytrallaşdırılmasına və elmtutumlu istehsal modelinə keçidə dair tamamilə yeni konseptual elmi müddəalar, riyazi-iqtisadi asılılıqlar və praktik mexanizmlər irəli sürülmüşdür.

Nəticədə, Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafının təmin edilməsi üçün inteqrasiya olunmuş idarəetmə sistemi və ekoloji monitorinq vasitəsilə yaşıl texnologiyaların tətbiqi vacib istiqamət kimi müəyyən edilmişdir.

Açar sözlər: *Qarabağ iqtisadi rayonu, davamlı inkişaf, bərpa olunan enerji, struktur reinteqrasiyası, endogen inkişaf, ekonometrik səmərəlilik, rəqəmsal resurs əkizi, yaşıl klasterləşmə, kölgə iqtisadiyyatının institusional süzgəcləri.*

GİRİŞ

İşğaldan azad olunmuş Qarabağ və ətraf rayonlarının iqtisadiyyatının yenidən qurulması, infrastrukturunun bərpası, bölgədə dayanıqlı inkişafın təmin olunması günümüzün əsas prioritet mövzularındandır. Təsadüfi deyildir ki, işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" [3], Azərbaycan Respublikası Prezidentinin 2 fevral, 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır. Sözügedən məsələ, qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi tərəqqisinə əsaslanan beş milli prioritetdən biri olaraq müəyyən edilmişdir. Bu da həm Azərbaycan dövlətinin, həm də xalqının bu işə nə dərəcədə böyük önəm verdiyinin bariz nümunələrindən biridir.

İşğal olunduğu dönəmdən etibarən, Qarabağ bölgəsinin iki ölkə arasında münaqişəli ərazi halına gəlməsi, uzun illər işğal altında qalması və hərbi münaqişə zonası olması, eyni zamanda işğal dövründə torpaqların qeyri-səmərəli istifadəsi, təbii, maddi-mənəvi sərvətlərin talan edilməsi, vandalizmə məruz qalması bölgəni hər cəhətdən istifadəyə yararsız hala gətirmişdir. Restrukturizasiya prosesini rahat həyata keçirə biləcək təməllərin, demək olar ki, yox edilməsi kompleks bərpa və yenidənqurmanı zəruri etmişdir.

Ölkəmizin işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının yenidən bərpası konsepsiyası bəzi spesifik məqamların nəzərə alınmasını tələb edir.

Birincisi, bədnam qonşu respublika tərəfindən torpaqlarımızın zəbt olunması nəticəsində həmin ərazilərdə yaşamış bütün əhali oradan tam olaraq qovulmuşdurlar. Həmin ərazidə yerləşən bütün infrastruktur, o cümlədən də kənd təsərrüfatı infrastrukturu (sovxozlar, anbarlar, emal müəssisələri, irriqasiya sistemləri və s.) məqsədyönlü şəkildə tamamilə dağıdılmışdır. Sonrakı dövrlərdə isə bu ərazilərdəki torpaqlar vəhşicəsinə istismar olunmuşdur.

İkincisi, 1996-cı ildə qəbul edilmiş qərara uyğun olaraq Azərbaycanın əkin təyinatlı kənd təsərrüfatı ərazilərində aparılan torpaq islahatları, məlum səbəbdən işğal olunmuş əraziləri əhatə etməmişdir. Ona görə də, bu gün qarşıda duran vəzifələrdən biri də, azad olunmuş ərazilərdə torpaq islahatının aparılması vasitəsilə aqrar sahədə özəl sektorun fəaliyyətinə təkan verməkdir [11; s. 461-466].

Qarabağ bölgəsinin iqtisadiyyatının əsas hissələrindən birinin aqrar sektorun təşkil etdiyini nəzərə alsaq, sözügedən sahəyə vurulan ciddi zərərləri aydın şəkildə görmək olar. Belə ki, işğal nəticəsində Azərbaycanın ümumi taxıl istehsalının 24%-lik, şərab istehsalının 41%-lik, ət istehsalının 18%-lik, süd istehsalının 34%-lik, kartof istehsalının 46%-lik həcmini təşkil edən təxminən 7000 müəssisə bağlanmış və ya dağıdılmışdır. Bu dövrdə 300 min iş yeri itirilmiş, əhalinin 12%-i köç etməyə məcbur olmuşdur (ARDSK-nin hesabatları, 2021). 2021-ci ildə Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü çərçivəsində yaradılan Qarabağ iqtisadi rayonu (Ağcabədi, Ağdam, Bərdə,

Xocalı, Xocavənd, Füzuli, Şuşa, Tərtər rayonları və Xankəndi şəhəri) ümumilikdə təxminən 8990 km² əraziyə malikdir. Regionun əhalisi (məcburi köçkünlər daxil) 2021-ci ilə görə təxminən 904,5 min nəfər təşkil edir.

Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafının təmin edilməsi daha çox təbii ehtiyatların səmərəliliyi, iqtisadi kontekstdən artım, ətraf mühit mühafizəsi və sosial rifahın təmin edilməsi ilə şərtlənir [9; №3 s. 12-19]. Post-münaqişə dövründə regional təsərrüfat sistemlərinin milli iqtisadiyyata struktur reinteqrasiyası müasir iqtisad elminin ən mürəkkəb vəzifələrindən biridir. Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci ildə imzaladığı "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamında qeyd edilir ki, "... ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət–özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir [5].

Azərbaycan Respublikasının strateji inkişaf kursunda Qarabağ iqtisadi rayonunun vahid milli iqtisadi sistemə üzvi şəkildə daxil edilməsi sadəcə inzibati-coğrafi birləşmə xarakteri daşımır; bu proses həm də regional Ümumi Daxili Məhsulun (ÜDM) daxili generasiya mənbələrini hərəkətə gətirən dayanıqlı endogen biznes sisteminin formalaşdırılmasını tələb edir. Endogen inkişaf nəzəriyyəsinə (Romer-Lucas modelinə) uyğun olaraq, kənardan cəlb edilən investisiyaların daxili ehtiyatlar bazasının texnoloji adaptasiya qabiliyyəti və institusional mühitlə sintez olunması hesabına uzunmüddətli multiplikativ artım əldə etmək qeyri-mümkündür.

Bu baxımdan, Qarabağda biznes sisteminin dayanıqlı arxitekturası regionun zəngin, lakin işğal dövründə destruktiv vəhşiliyə məruz qalmış təbii ehtiyatlar potensialından istifadənin səmərəlilik dərəcəsi ilə determinasiya olunmuşdur. Təbii ehtiyatların klassik "ekstensiv xammal" modelindən çıxarılaraq yüksək əlavə dəyərli "yaşıl kapital" formatında daxili iqtisadi dövriyyəyə inteqrasiya edilməsi regional biznes mühitində şəffaflığın təmin olunması, maliyyə hesabatlılığının müasir standartlara uyğunlaşdırılması və risklərin neytrallaşdırılmasını mümkün edir. Məhz bu dialektik asılılıqlar tədqiqat işində elmi-nəzəri və riyazi-metodoloji müstəvidə tədqiq edilməli və elmi yenilik xarakterli təkliflər sistemi hazırlanmalıdır.

1. Post-münaqişə dövründə quruculuq – bərpa işləri və "Böyük qayıdışın" təmin edilməsi kontekstində strukturların reinteqrasiyası

İşğaldan azad olunmuş ərazilərimizə "Böyük qayıdışın" təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən kompleks fəaliyyət planlarının hazırlanması ilə bərabər artıq bu istiqamətdə olduqca əhəmiyyətli praktiki fəaliyyətlərə də başlanılmışdır. Belə ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə səlahiyyətli dövlət orqanlarının rəhbər şəxslərindən ibarət Əlaqələndirmə Qərargahı formalaşdırılmışdır. Həmçinin işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır [6].

Müasir anlamda, regional iqtisadi inteqrasiyanın fundamental qanunauyğunluqları baxımından, dövlətin maliyyə ehtiyatlarının ilkin bölgü (dövlət sərmayələri, xarici investisiyalar) və təkrar bölgü (vergi-gömrük tənzimlənməsi, regional stimullaşdırma) mexanizmlərinin sinxronizasiyası vacib amildir [8; s. 45-62]. Hazırda Qarabağ iqtisadi rayonunda tətbiq edilən 10 illik vergi imtiyazları regiona kapital axınını sürətləndirən institusional stimuldur. Lakin xalis maliyyə və iqtisadi nəzəriyyə baxımından təkcə fiskal stimullar biznes sisteminin özünübərpa qabiliyyətini tam təmin edə bilmir.

Əlbəttə, burada vacib bir asılılıq meydana çıxır ki, bu da, özünü regionda fəaliyyət göstərən dövlət strukturlarının və yeni formalaşan büdcə təşkilatlarının (məsələn, regional elmi-tədqiqat mərkəzləri, laboratoriyalar və universitetlər) büdcədənkənar xüsusi vəsaitlərinin (ehtiyatların) yerli biznes strukturlarının maliyyə-kredit təminatına (məsələn, birgə vençur layihələri, innovativ startapların sifarişi vasitəsilə) yönəldilməsi ilə bağlıdır. Bu yanaşma, daxili pul dövriyyəsinin sürətlənməsinə (V) və regional multiplikator səmərəsinin (k) yüksəldilməsinə birbaşa təsir göstərir.

Unutmaq olmaz ki, Qarabağ iqtisadi rayonu Azərbaycanın post-münaqişə dövründə bərpa olunan və dayanıqlı inkişaf modeli olacaq ən önəmli nümunəsi hesab edilir. 2020-ci il Zəfərindən sonra bu regionda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, "Böyük Qayıdış" Dövlət Proqramı çərçivəsində infrastruktur, sahibkarlıq və "yaşıl enerji" layihələri həyata keçirilir.

Dayanıqlı inkişaf biznes sisteminin rəqabət qabiliyyətini, ekoloji tarazlığı, sosial inklüzivliyi və iqtisadi dayanıqlığı özündə əhatə edir [8; s. 10]. Azərbaycanın 2030-cu ilə qədər olan Milli Prioritetləri (dayanıqlı iqtisadiyyat, inklüziv cəmiyyət, Böyük Qayıdış, yaşıl artım) bu prosesin əsasını təşkil edir. 2025-ci ilin təhlilləri göstərir ki, regionda investisiyalar artıb, yeni iş yerləri yaradılır, lakin infrastruktur, insan kapitalı və ixrac potensialı ilə bağlı olan çağırışlar hələ də qalmaqdadır.

Nəzərə alsaq ki, Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafının təmin edilməsi məsələləri, iqtisadi kontekstdə böyük verilənlər əsasında təhlil olunur, onda davamlı inkişaf konsepsiyası (Brundtland Hesabatı) ehtiyatların indiki və gələcək nəsillər üçün qorunmasını vacib hesab edir. Azərbaycanda bu sahənin tənzimlənməsi "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" hesabına həyata keçirilir..

Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafının təmin edilməsi kimi məsələlər mövcud ehtiyatların kartoqrafik və elmi cəhətdən qiymətləndirilməsi əsasında həll oluna bilər. Beynəlxalq təcrübədən (məs., İsveçrənin yaşıl iqtisadiyyatı) görürük ki, bərpa olunan enerji və dairəvi iqtisadiyyat modelləri mövcud səmərəliliyi artırır. Biz müvafiq regionun təbii ehtiyatlarına nəzər yetirdikdə görürük ki, Qarabağın su ehtiyatları Azərbaycanın yerli su ehtiyatlarının formalaşmasında mühüm rol oynayır (təxminən 25%, 2-2,56 milyard m^3). Hidroenerji potensialı da çox yüksəkdir; 30-dan çox su elektrik stansiyası (SES) bərpa olunmuş və ya bərpa olunmaqdadır. Təbiətin bəxş etdiyi mineral sular (Kəlbəcər, Laçın istiqamətində) turizm və müalicə üçün çox əhəmiyyətli hesab edilir. Mineral ehtiyatlar kontekstində isə, polimetal filizlər, qızıl, gümüş, civə, mis, tikinti materiallarının (mərmər, sement xammalı, tikinti daşı) Kəlbəcər rayonunda zəngin yataqları mövcuddur (məs., 130 ton qızıl ehtiyatını göstərmək olar). İşğal dövründə qeyri-qanuni istismar hesabına buranın ekologiyasına ciddi ziyan vurulubdur [2].

Münbit torpaqlar və kənd təsərrüfatı ilə bağlı ehtiyatlar, üzümçülük, taxılçılıq, pambıqçılıq, meyvəçilik və heyvandarlıq üçün çox əlverişli hesab edilir. İşğal nəticəsində minlərlə hektar torpaq dövriyyədən çıxıb, indi yenicə bərpa olunur. Zəngin meşələr (palıd, vələs və s.) və ekoloji tarazlığın qorunması ağac emalı və turizm üçün geniş potensial yaradır. Bərpa olunan enerji kontekstində hidro, günəş (4000+ MW potensial) və külək (500 MW) enerjisinin geniş istifadə olunması regionda "yaşıl enerji" zonasının kimi inkişaf etdirilməsi üçün çox əhəmiyyət kəsb edir.

Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafının təmin edilməsi və resursların iqtisadi gəlirə çevrilməsi, itkilərin minimuma endirilməsi iqtisadi səmərəlilikdən çox asılıdır ki, buna da əks təsir edən bəzi amilləri də qeyd etməliyik:

- İnfrastruktur çatışmazlığı və minaların təmizlənməsi;
- Qeyri-effektiv istismar riskləri (keçmişdə olduğu kimi);
- İqlim dəyişikliyi təsirləri (su ehtiyatlarının səmərəli idarə olunması).

Əlbəttə bu istiqamətdə müsbət irəliləyişlər bizə onu deməyə əsas verir ki, burada dövlət investisiyaları, texnoloji innovasiyalar və beynəlxalq əməkdaşlıq baxımından, səmərəlilik indeksi (məs., suyun istifadə əmsalı, enerji konversiyası) inteqrasiya olunmuş idarəetmə hesabına ilə 20-40% artırıla bilər.

2. Bölgənin iqtisadi potensialı və müasir vəziyyəti

Qarabağ iqtisadi rayonu böyük kənd təsərrüfatı (üzümçülük, taxılçılıq, meyvəçilik, heyvandarlıq), turizm, logistika və "yaşıl enerji" potensialına malikdir. Belə ki, ölkəmizin işğaldan azad olunmuş ərazilərində ümumi ehtiyacları nəzərə almaqla, kənd təsərrüfatının bərpası üçün aparılacaq işləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Münbit torpaqların, su ehtiyatlarının qənaətli və rasional istifadəsi üçün, bərpa tədbirlərinin həyata keçirilməsi və torpaqlarda islahatların aparılması;
2. Heyvandarlıq fermer təsərrüfatlarının yaradılması;
3. Aqro-texniki xidmətlərin göstərilməsi, müxtəlif növ toxum və gübrə tədarükünün həyata keçirilməsi;
4. Müxtəlif ixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və konsaltinq xidmətinin yaradılması;
5. Məhsulların və ehtiyatların tədarükü infrastrukturunun yaradılması
6. Aqrar emal müəssisələrinin təşkili;
7. Xüsusi dövlət dəstəyi mexanizminin yaradılması və tətbiqi.

İşğaldan azad olunan ərazilərin tədricən bərpası və inkişafı ilə bağlı yuxarıda qeyd edilən hər bir 7 istiqamət üzrə bir sıra geniş əhatəli məsələlər müzakirəyə verilir. Məsələn, torpaq balansı məlumatlarına baxdıqda görürük ki, bu ərazilərdə əkin üçün istifadə edilə biləcək 200 min hektardan çox torpaq sahəsi mövcuddur ki, bunların da təqribən 9 min hektarı həyətyanı sahələrdir [9; s. 14].

Qeyd edək ki, işğaldan azad edilmiş torpaqlarda müxtəlif növ kənd təsərrüfatı məhsullarının emalı üçün rəqabətqabiliyyətli müəssisələrin şəbəkəsinin inkişaf etdirilməsi imkanları mövcuddur – burada həm tərəvəz və meyvə istehsalı sahələrində, həm də ipəkçilik və şərabçılıq sahəsində kiçik və orta sahibkarlıq subyektləri yaradılaraq inkişaf etdirilə bilər. Yadımıza salaq ki, hələ Sovet İttifaqı dövründə Cəbrayıl və Zəngilanda yüksək rəqabətqabiliyyətli şərab zavodları, müəssisələri fəaliyyət göstərirdi ki, burada da sovet məkanının digər respublikalarına ixrac olunan şərab məhsulları istehsal olunurdu.

Hazırda Şərqi Zəngəzurda sahibkarlığın inkişafına və potensial investorların bölgənin biznes subyektlərinə cəlb olunmasına imkan verəcək müasir nəqliyyat infrastrukturu inkişaf edir. Məsələn, hələ keçən il Füzuli rayonunda Füzuli beynəlxalq hava limanı tikilib istifadəyə verilmişdir ki, bu da biznesin inkişafı və regiona xarici investisiyaların cəlb edilməsi üçün əhəmiyyətli stimul olmaqla, həmçinin Şərqi Zəngəzur iqtisadi rayonunun inkişafına müsbət təsir göstərə bilər. Əminik ki, bu müasir və yüksək texnologiyalı hava limanları regionun sürətli inkişafına töhfə verəcək və təkcə turistlərin deyil, həm də iş adamlarının sözügedən regiona marağını artıracaqdır [9; s.464]. Məsələn, bəzi hesabatlara görə Qarabağ iqtisadi rayonuna investisiyalar əvvəlki illə müqayisədə 83% artmışdır (Bax: cədvəl 1).

Cədvəl 1 [4]

Qarabağ iqtisadi rayonu üzrə bəzi makroiqtisadi göstəricilər
(2025-ci il məlumatları əsasında)

Müvafiq göstəricilər	**2024**	**2025**	**Artım faizi**
Ölkə üzrə ÜDM-ə verilən töhfə %-ilə	2-3	3-4	+1

İnvestisiya qoyuluşu (min manat)	2250	4100	83
Region üzrə yeni iş yerləri	Minlərlə	Artan tempdə	+92% Qeyri-dövlət sektoru
Sənaye məhsulunun həcmi	Artan	Artan	Pozitiv

Qeyd: *Rəsmi Dövlət Statistika Komitəsi məlumatlarına əsasən; dəqiq rəqəmlər üçün Excel mənbələri istifadə olunmuşdur*

Yuxarıda qeyd olunan vəzifələrin həyata keçirilməsi üçün regionda sahibkarlara hər cür şəraitin yaradılması çox vacibdir. Çünki məhz həmin şəraitin yaradılması, burada inşaat sahəsinin, aqrar və toxuculuq sənayesinin, heyvandarlığın və digər sahələrin dirçəlməsinə təkan verə bilər. Belə ki, Ağdam Sənaye Parkının və Cəbrayılda yaradılmış "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı bu regionda əhalinin məskunlaşmasına və yaşam tərzinə ciddi kömək edə bilər.

Müvafiq kontekstdə təbii ehtiyatların istifadə səmərəliliyinin ekometrik qiymətləndirilməsi modelinə müraciət etsək görərik ki, regional təbii ehtiyatların (mineral-xammal, termal və şirin su mənbələri, meşə massivləri) biznes sisteminə cəlb edilməsinin səmərəlilik dərəcəsini müəyyənləşdirmək üçün yeni bir Ekometrik Səmərəlilik İndeksi (I_{ESE}) tətbiq olunur. Bu model ekosistemin deqradasiyasını iqtisadi ziyan kimi kapitallaşdırır və xalis səmərəni hesablayır. Burada, $$I_{\text{ESE}} = \int_{0}^{T} \frac{\left[\Delta Y(t) - \sum Z_{\text{ekol}}(t) \right] \cdot e^{-rt}}{X_{\text{res}}(t) + K_{\text{inv}}(t)} \, dt$$ kimi götürülür.

Müvafiq olaraq:

- $\Delta Y(t)$ – Təbii ehtiyatların istismarı hesabına Regional Ümumi Məhsulda (və ya müəssisə səviyyəsində əlavə dəyərdə) yaranan real artım dinamikasıdır;
- $Z_{\text{ekol}}(t)$ – Hasilat və emal prosesində ətraf mühitə, biomüxtəlifliyə və su ehtiyatlarına dəyən ekoloji ziyanın, eləcə də gələcək rekultivasiya (bərpa) xərclərinin differensial pul ekvivalentidir;
- $X_{\text{res}}(t)$ – İstehlak olunan təbii resursların natural və ya qiymətləndirilmiş dəyər həcmidir;
- $K_{\text{inv}}(t)$ – Yaşıl texnologiyaların tətbiqi və biznes sisteminin infrastruktur təminatı üçün qoyulan ilkin və cari kapital xərcləridir;
- r – İnflyasiya və gələcək riskləri kompensasiya edən diskont dərəcəsidir;
- T – Layihənin və ya müvafiq ehtiyatın istismarının strateji zaman üfüqüdür.

Biznesin iqtisadi təhlükəsizlik doktrinasına görə, əgər regional subyektlər rəsmi maliyyə hesabatlarında, xüsusilə pul vəsaitlərinin hərəkəti haqqında hesabatda (Forma №3) əməliyyat fəaliyyətindən yüksək müsbət pul axını ($CF_{\text{operating}} > 0$) göstərmiş, lakin investisiya fəaliyyəti bölməsində ekoloji mühafizəyə və tullantısız texnologiyalara vəsait ayırmamışlarsa ($CF_{\text{investing\_eco}} \to 0$), bu zaman $Z_{\text{ekol}}(t)$ göstəricisi eksponent olaraq artır. Riyazi olaraq bu, $I_{\text{ESE}} \to 0$ şərtini yaradır, yəni biznes sisteminin fəaliyyəti uzunmüddətli perspektivdə səmərəsiz və milli iqtisadiyyat üçün təhlükəli xarakter daşıyır.

Elmi-riyazi yeniliyə əsaslanan, diferensial ekonometrik səmərəlilik indeksinin (I_{ESE}) müvafiq modeli, təqdim olunan integral düsturun ənənəvi ehtiyat iqtisadiyyatındakı statistik gəlir/xərc modellərindən fərqlənir. Bu modelin elmi yeniliyi ondan ibarətdir ki, burada:

- Zaman faktoru və diskontlaşdırma (e^{-rt}) post-münaqişə zonalarının yüksək riskli investisiya mühitinə uyğunlaşdırılır;
- Ekoloji ziyan (Z_{ekol}) sadəcə cərimə kimi deyil, gələcək mütləq bərpa (rekultivasiya) xərclərinin differensial funksiyası kimi düstura inteqrasiya edilir. Bu, biznesin gələcəkdə regionu tərk edərkən yaradacağı ekoloji borclanmanı ilkin mərhələdə rəqəmsallaşdırır.

3. Biznes sisteminin dayanıqlı inkişafı və əsas komponentləri

Fikrimizcə, Qarabağ iqtisadi rayonunun dayanıqlı inkişafı üçün aşağıdakı komponentlər vacibdir:

- **İqtisadi dayanıqlıq**: Diversifikasiya, ölkədə KOB-ların inkişafı;

- **Ekoloji dayanıqlıq**: Yaşıl enerji zonası (günəş, külək, su potensialı 10 min MVt);
- **Sosial dayanıqlıq**: Məşğulluq, inklüzivlik, insan kapitalı [10; s. 8].

Misal üçün qeyd etmək olar ki, Qarabağ Universitetinin "Biznes və İqtisadiyyat" fakültəsinin səmərəli fəaliyyəti regionda kadr potensialının formalaşmasına öz töhfəsini verəcəkdir. Burada mövcud biznes mehitinin də həlledici təsirləri vardır (Bax: cədvəl 2).

Cədvəl 2

Biznes mühitinin əsas göstəriciləri

Müvafiq sahələr	Müsbət amillər	Problemlər və çağrışlar	Müvafiq tövsiyələr
Vergi güzəştləri	10-il azad olma	Menecmentdə uyğunlaşma	Rəqəmsallaşdırma
İnfrastruktur	Hava limanları, avtomobil yolları, dəmir yolları	Ərazidə BÖT	Dövlət Özəl Tərəfdaşlığını inkişaf etdirmək
Turizm xidməti	Şuşa ECO paytaxtı	Marketinq əsasında xidmətin keyfiyyəti	Beynəlxalq brendinq
Kənd təsərrüfatı	Müasir suvarma, orqanik istehsal	İxrac kanalları	Klasterlər yaratmaq

Regional biznes strategiyasına və fundamental elmi yeniliklərə əsaslanan təkliflər kontekstindən baxsaq, aparılan tədqiqat çərçivəsində Qarabağ iqtisadi rayonunda biznes sisteminin institusional mükəmməlliyini təmin edəcək üç əsas elmi-nəzəri konsepsiyanı göstərmək olar:

1-ci. "Rəqəmsal ehtiyat əkizi" (Digital Twin) Konsepsiyası və kölgə iqtisadiyyatının neytrallaşdırılması:

- Elmi mahiyyət kontekstində, təbii ehtiyatların əldə edilməsi və biznes dövriyyəsinə daxil edilməsi mərhələlərini real zaman rejimində (real-time) izləyən, Süni İntellekt (AI) və blokçeyn texnologiyalarına əsaslanan "Rəqəmsal ehtiyat əkizi" platformasının formalaşdırılması;
- Təsir mexanizmi kontekstində, müvafiq sistemin, yerli təsərrüfat subyektlərinin sənədləşmədə göstərdiyi rəsmi hasilat və emal həcmləri arasındakı faktiki geodeziya və kosmik monitorinq dataları arasındakı uyğunsuzluğun aşkarlanması. Bu, biznes sistemində kölgə iqtisadiyyatının ən mürəkkəb təzahürlərini – rəsmi uçotdan kənar xammal istismarını, qeyri-qanuni ikiqat mühasibatlığı və gizli pul dövriyyəsini institusional səviyyədə tamamilə qeyri-mümkün edir.

2-ci. Büdcədənkənar xüsusi ehtiyatların inteqrasiyalı vençur modelinə əsaslansaq, onda:

- Elmi mahiyyət komtekstində, hasilat sənayesindən daxil olan təbii ehtiyatlardan ödənişlərin və royaltilərin müəyyən bir faizinin regional innovasiya fondlarında mərkəzdə cəmləşməsi və bu vəsaitlərin Qarabağ Universiteti başda olmaqla regional elmi mərkəzlərin büdcədənkənar xüsusi vəsaitləri statusu ilə idarə olunması;
- Təsir mexanizmi kontekstində, həmin xüsusi ehtiyatlar regional biznes klasterlərinin (məsələn, Ağdam sənaye parkındakı yaşıl texnologiyalar klasteri) elmi tədqiqat sifarişlərinin maliyyələşdirilməsinə (R&D) yönəldilə bilər. Beləliklə, hasil edilən tükənən təbii kapital elmi mərkəzlərin vasitəçiliyi ilə daxili biznes sistemini qidalandıran tükənməz intellektual kapitala çevrilir.

3-cü. Eko-korporativ sosial məsuliyyət (Eco-CSR) və struktur süzgəclərinə əsaslansaq, onda:

- Elmi mahiyyət baxımından, Arçi Kerrollunun ənənəvi dördpilləli sosial məsuliyyət piramidasının (İqtisadi $\to$, Hüquqi$\to$ Etik $\to$ Filantropik) tətbiq etməklə, Qarabağ "Yaşıl Enerji"

zonası üçün regional modifikasiyasının işlənməsi və yeni modeldə "Ekoloji Davamlılıq" piramidanın nüvəsinə, yəni iqtisadi fəaliyyətlə hüquqi məsuliyyətin kəsişmə nöqtəsinə köçürmək olar;

- Təsir mexanizmi baxımından, regionda biznes fəaliyyəti göstərən təsərrüfat subyektləri üçün "Eco-CSR" reytinq matrisi tətbiq edilməlidir. Bu reytinqdə yüksək bal toplayan şəffaf şirkətlər dövlət sifarişlərində, uzunmüddətli kredit alətlərinə çıxışda və daxili lisenziyalaşdırma proseslərində institusional "Yaşıl Dəhliz" imtiyazları qazanırlar. Bu, qeyri-etik və ekoloji zərərverici biznes praktikasını sistemdən sıxışdırıb çıxaran "təbii süzgəc" rolunu oynaya bilər [12; s. 82].

4. Qarabağ iqtisadi rayonunda biznesin dayanıqlı inkişafı: uğurlar və maneələr

2025-ci ildə "Böyük qayıdış" proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işləri regionun dayanıqlı sosial-iqtisadi inkişafını təmin edir [12; Səh. 39-48]. Regionda keçirilən (Xankəndidə) Beynəlxalq ECO Sammiti və digər beynəlxalq əhəmiyyətli görüşlər beynəlxalq əməkdaşlığı gücləndirməyə öz töhfəsini vermişdir. Statistik məlumatlara əsasən ÜDM-in səviyyəsi qeyri-neft sektorunda daha dinamik sürətlə artır (Cədvəl 3). Bununla belə qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatı hələ də neft-qaz sektorunun təsiri altındadır. Dünya Bankı hesabatlarına görə, Azərbaycan iqtisadiyyatında diversifikasiyanın prioritet olması xüsusilə qeyd edilir.

Cədvəl 3 (az.stat.gov)

2025-ci ildə region üzrə sektorlar üzrə artım

Müvafiq sektor	Artımın tempi (% ilə)	Töhfə (ÜDM-də pay)
Kənd təsərrüfatı	5-7	Yüksək
Tikinti və infrastuktur	+10	Əhəmiyyətli
Turizm və xidmətlər	8-12	Artım
Sənaye (Yaşıl texnalogiyalar)	6-9	Potensial var

Regionda biznesin dayanıqlı inkişafına mane olan aillərin sırasında, ilk növbədə, insan resurslarının miqrasiyasını, logistika çətinliklərini, iqlim dəyişikliyi risklərini xüsusi qeyd etmək lazımdır. Hüquqi və institusional çərçivə kontekstində isə, işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi baxımından, Qarabağın Dirçəliş Fondu, sənaye parkları və xüsusi nümayəndəlikləri əsas mexanizmlər kimi göstərmək olar. B-READY - 2025 hesabatında [11] Azərbaycanın biznes mühitində irəliləyişlərin olması xüsusi qeyd olunur və beynəlxalq təcrübəyə əsasən inteqrasiya məsələlərinin İsveçrənin yaşıl iqtisadiyyat modeli və ya digər post-konflikt regionların təcrübəsinə (məsələn, smart cities) uyğun tətbiqi nəzərdə tutulur (Cədvəl 4). Bu baxımdan Zəngəzur dəhlizinin işə düşməsi logistika imkanlarını daha da genişləndirə bilər.

Əlbəttə bu məsələnin konseptual həllində müvafiq problemlər və risklər öz həllini tapmalıdır. Bunlara aşağıdakıları aid etmək olar:

- İnsan kapitalı və məşğulluq;
- Ekoloji risklər (minalar, torpaq eroziyası);
- Bazarlara çıxış və rəqabət;
- Bəzi KOB-lar üçün, maliyyə resurslarına çıxışın məhdudluğu.

Cədvəl 4

Beynəlxalq müqayisə (dayanıqlı inkişaf göstəriciləri)

Müvafiq ölkə və ya region	Yaşıl enerji payı	KOB dəyəri	Turizmin artımı
Azərbaycan (Qarabağ)	Artan temp (yüksək hədəf)	Güzəştlər	Yüksək potensalın olması
İsveçrə	Yüksək	Güclü	Stabil

Nəzərə alsaq ki, aidiyyatı dövlət qurumları, podratçı və subpodratçı şirkətlərdə işğaldan azad edilmiş ərazilərdə işçi sayı, vakansiyalar və gözlənilən iş yerləri barədə 15.06.2026-cı il tarixinə olan məlumata əsasən, cəmi işçi sayı – 14 190 nəfər olmuşdur, o cümlədən;

- Dövlət orqanları (qurumları), dövlətə məxsus hüquqi şəxslər üzrə - 7 315 nəfər (51.6%)
- *Məskunlaşmış – 1 550 nəfər (21.2%);*
- *Ezam olunmuş – 5 765 nəfər (78.8%);*
- Podratçı və subpodratçı şirkətlər üzrə - 6 875 nəfər (48.4%);
- *Məskunlaşmış – 114 nəfər* (*1.7%*);
- *Ezam olunmuş – 6 761 nəfər (98.3%).*
- Cəmi məskunlaşmış işçi – 1 664 nəfər (ümumi işçilərin 11.7%-i, məskunlaşmış iqtisadi fəal olan şəxslərin 13.8%-i);
- Cəmi ezam olunmuş işçi – 12 526 nəfər (88.3%);
- May ayında məskunlaşmış şəxsləri ən çox işə götürən qurumlar: ADSEA – 4, "Azərişıq" ASC – 4, RİNN – 3, TƏBİB – 3.

Tapşırıq dövründə (2024-cü il mart – 2026-cı il may) dövlət sektorunda işləyənlərin cəmi sayı 60%, dövlət sektorunda işləyən məskunlaşmış şəxslərin sayı 4 dəfə artmışdır. Podratçılar üzrə bu göstəricilər müvafiq olaraq 2% azalmış və 75% artmışdır.

Ümumilikdə ərazilərdə məcburi köçkün statusu üzrə işçi sayı – 4 454 nəfər (31.4%), o cümlədən:

- Dövlət orqanları (qurumları), dövlətə məxsus hüquqi şəxslər üzrə - 3 456 nəfər (77.6%);
- Podratçı və subpodratçı şirkətlər üzrə - 998 nəfər (22.4%).

Cəmi vakansiya sayı – 1442, o cümlədən:

- Dövlət orqanları (qurumları), dövlətə məxsus hüquqi şəxslər üzrə - 1 321 (91.6%);
- Podratçı və subpodratçı şirkətlər üzrə - 121 (8.4%)

İqtisadi Zonaların İnkişafı Agentliyi üzrə 2026-cı il üçün gözlənilən vakansiya sayı – 3 910.

Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi (QMKDK) -nin məlumatına əsasən məskunlaşmış şəxslərin sayı:

- 36 582 nəfər, onlardan:
- İqtisadi fəal olan şəxslərin sayı – 12 040 nəfər (köç-ş şəxslərin 32.9%-i);
- Məşğulluğa cəlb olunmaq üçün iş aparılanlar – 1 275 nəfər (iqt.fəal şəxsl. 10.6%-i).

QMKDK tərəfindən məskunlaşdırılan ərazilər üzrə məşğulluq:

- işləyənlərin sayı – 11 795 nəfər (Zəngilan rayonu – 843, Laçın rayonu – 1 174, Füzuli rayonu – 1 727, Şuşa şəhəri – 751, Cəbrayıl rayonu – 1 230, Xocalı rayonu – 607, Ağdərə rayonu – 896, Ağdam rayonu – 2 814, Kəlbəcər rayonu – 1 124, Xocavənd rayonu üzrə – 629);
- ixtisaslı –3 754 nəfər (31.8%), ixtisassız – 8 041 nəfər (68.2%).
- vakansiya sayı – 1 048 (Zəngilan rayonu – 250, Laçın rayonu – 89, Füzuli rayonu – 268, Şuşa şəhəri – 46, Cəbrayıl rayonu – 110, Xocalı rayonu – 14, Ağdərə rayonu – 39, Ağdam rayonu – 61, Kəlbəcər rayonu – 122, Xocavənd rayonu üzrə – 49);
- ixtisaslı – 350 (33.4%), ixtisassız – 698 (66.6%);
- işləyənlərin sayı – (Xankəndi şəhəri) – 1 268 nəfər;
- vakansiya sayı – (Xankəndi şəhəri) - 98.

NƏTİCƏ

Beləliklə, yaxın perspektivdə azad edilmiş torpaqlarda sahibkarlığın müxtəlif istiqamətlər üzrə intensiv inkişafı proqnozlaşdırılır və bununla əlaqədar hesab edirik ki, aşağıdakılar nəzərə alınmalıdır:

- fikrimizcə, regionun təbii və əmək potensialını nəzərə alaraq işğaldan azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı üçün məqsədli proqramlara ehtiyac vardır;

-mövcud sahibkarlıq və biznes layihələri, o cümlədən Ağdam rayonunda Sənaye Parkının yaradılması və Araz Vadisi iqtisadi zonasının yaradılması layihəsi nəzərə alınmaqla, regionda sahibkarlığın inkişafı və investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin təmin edilməsi;

-kənd təsərrüfatının inkişafının ənənəvi istiqamətlərinə, xüsusilə ərzaq məhsullarının əsas növlərinin istehsalına diqqət yetirmək və bununla da həm regionun, həm də ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi üçün ciddi zəminin yaradılması;

- həyata keçirilən "ağıllı" texnologiyalar layihəsini nəzərə alaraq, fikrimizcə, turizm sahəsində kənd təsərrüfatı müəssisələri və şirkətlərinin rəqabətqabiliyyətli şəbəkələrinin yaradılması, bununla da sahibkarlığın inkişafının sürətləndirilməsi və yaxın perspektivdə ölkənin işğaldan azad edilmiş ərazilərində biznes mühitinin cəlbediciliyinin təmin edilməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və sair.

Qarabağ iqtisadi rayonunun milli təsərrüfata funksional inteqrasiyasının elmi-nəzəri və praktiki əsaslandırılması göstərir ki, bölgənin gələcək iqtisadi təhlükəsizliyi təbii ehtiyatların idarəetmə səmərəliliyindən birbaşa asılıdır. Tədqiqat çərçivəsində işlənmiş ekometrik səmərəlilik modeli (I_{ESE}), "Rəqəmsal Resurs İkizi" arxitekturası və elmi təsərrüfat subyektlərinin və ümumiyyətlə büdcədənkənar xüsusi vəsaitlərinin vençur mexanizmlərinə inteqrasiyası prinsipləri regionda kölgə iqtisadiyyatının qarşısını alan, şəffaflığı təmin edən və milli iqtisadiyyatın qlobal rəqabət gücünü artıran dayanıqlı biznes sisteminin yaradılması üçün konseptual fundamental töhfə ola bilər.

Qarabağ iqtisadi rayonunda biznes sisteminin dayanıqlı inkişafı Azərbaycanın ümumi iqtisadi diversifikasiyasının açarıdır. 2025-ci il təhlilləri müsbət dinamikanı göstərir, lakin sistemli yanaşma, innovasiyalar və beynəlxalq əməkdaşlığın daha da dərinləşməsi tələb olunur. Dövlət-özəl tərəfdaşlığı və "yaşıl" model uğuru təmin edilməsi üçün vacib alət hesab edilir. Bu, regionun yüksək rifahlı, rəqabət qabiliyyətli məkana çevrilməsinə yuxarda göstərilən müvafiq addımlar imkan verəcək.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Bakı, 2021.

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025-2026). Regionların sosial-iqtisadi inkişafı. https://www.stat.gov.az/source/regions/

3. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası. (2025). Böyük Qayıdış Dövlət Proqramı hesabatları.

4. İqtisadiyyat Nazirliyi. (2025). Əsas iqtisadi göstəricilər. https://economy.gov.az/

5. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında, Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2021-ci il Sərəncamı

6. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması (https://agroeconomics.az/az/article/34/ isgaldan-azad-olunan-erazilerimizde-kend-teserrufa/);

7. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" (Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir).

8. Muradov Ş.M. (2023). İşğaldan azad edilmiş ərazilərin regional iqtisadi inteqrasiyasının və institusional transformasiyasının prioritetləri., AMEA İqtisadiyyat İnstitutunun Elmi Əsərləri, № 3, s. 12-29.

9. Muradov R.Ş., Muradov R.Ş. (2025)' Qarabağ və Şərqi Zəngəzurda əhalinin məskunlaşması və sahibkarlığın inkişafı məsələləri, "Qarabağ və Şərqi Zəngəzurun iqtisadi rayonlarında kiçik və orta sahibkarlığın inkişafı problemləri" mövzusunda REPK-nın materialları, Bakı, 27 may, səh.461-466

10. Aliyev, S.A., & Huseynov, T.R. (2024). Econometric Modeling of Natural Resource Management in Post-Conflict Reintegration. Journal of Economic Sciences, AMEA, Vol. 19, Issue 1, pp. 45-62.

11. World Bank (2025). Resource Efficiency and Digital Transformation Framework for Resilient Economic Systems. World Bank Policy Research Working Paper, No. 1042.

12. Həsənov T.G. (2002)/ Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı, "Çaşıoğlu" Nəşriyyatı, 122 səh.

R.Sh.Muradov
doctor of economics, professor,
Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0003-2042-7194
N.A.Hasanov
doctor of economics, associate professor,
Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0002-5122-4712
A.H.Agarzayev
PhD in Economics, associate professor,
Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0003-0640-2564
N.L.Huseynova
PhD in Economics, associate professor,
Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0002-7940-8628
A.A.Tahmazova
PhD in Economics, head teacher,
Azerbaijan State University of Economics (UNEC)
ORCID 0000-0001-8396-4689

Issues of sustainable business development in the Karabakh economic region

Abstract

The restoration of the economy freed from the occupation of Karabakh and the surrounding areas, the restoration of infrastructure, ensuring sustainable development in the region are among the main priority topics of today. It is no coincidence that the " The Great Return " to the liberated territories is also reflected in the concept "Azerbaijan - 2030: National Priorities for Socio-Economic Development," approved by the Decree of the President of the Republic of Azerbaijan dated February 2, 2021.The issues of ensuring sustainable development of the business system in the Karabakh economic region of Azerbaijan are connected with its rich natural potential. The efficient use of water, mineral, land, forest and renewable energy resources in the liberated territories is of great strategic importance in terms of the economic revival of the region and its integration into the country's economy. The corresponding article analyzes the issues of ensuring sustainable develop-

ment of the business system in the economic region of the region, assesses the efficiency of use and gives recommendations based on the principles of sustainable development. The analysis is based on scientific literature, official statistics and already approved and published materials. . Based on the theories of transformation of economic systems in post-conflict zones, ecometric models of management of mineral raw materials, water, energy and recreational resources of the territory have been developed. Within the framework of the study, an assessment of natural resources was carried out against the background of the concepts of regional economic security, transparency and "green growth", and the professorial staff put forward completely new conceptual scientific provisions, mathematical-economic dependencies and practical mechanisms on the clustering of business entities, institutional neutralization of the shadow economy and transition to a knowledge-intensive production model. As a result, it is confirmed that the issues of ensuring sustainable development of the business system in the Karabakh economic region are considered mainly in the context of the possibility of increasing efficiency through integrated management, green technologies and environmental monitoring.

Keywords: *Karabakh economic region, sustainable development, renewable energy, structural reintegration, endogenous development, econometric efficiency, digital resource twin, green clustering, institutional filters of the shadow economy.*

https://doi.org/10.58225/tim.2026-2-630-636

F.Sh.Mammadli Bashirova
doctoral candidate, State Oil Company of the Republic of Azerbaijan
ORCID 0009-0003-2266-3315
mammadlifarah@gmail.com

Məqalə redaksiyaya daxil olub 07.03.2026
The article was received by editorial board on 07.03.2026
Статья принята к печати 07.03.2026

THE ROLE OF NEW WORK MODELS IN DRIVING ORGANIZATIONAL TRANSFORMATION IN THE SERVICE SECTOR

Abstract

Recent economic, technological, and social changes have increased the need for organizations to adopt new approaches to the organization and management of work. Particularly following the COVID-19 pandemic, the widespread adoption of remote, hybrid, and flexible work models has generated significant changes in organizational structures, management practices, communication processes, and employee behavior. This paper aims to examine the role of new work models in driving organizational transformation in the service sector from a theoretical perspective. The study identifies the main characteristics of new work models and analyzes their relationship with organizational culture, leadership, communication, employee autonomy, and digital transformation. The analysis demonstrates that new work models do not merely change the physical location of work but also require organizations to reconsider their management and behavioral mechanisms. This issue is particularly relevant to the service sector, where human capital and interaction with customers remain central to service delivery. The effective implementation of new work models requires not only appropriate technological infrastructure but also flexible organizational structures, trust-based leadership, effective communication, and employee readiness for change. The paper concludes that new work models can become an important driver of organizational transformation when integrated into broader organizational and managerial strategies.

Keywords: *new work models, organizational transformation, service sector, hybrid work, remote work, organizational behavior.*

INTRODUCTION

In recent years, the digitalization of the economy, technological development, changing expectations in the labor market, and global crises have significantly transformed the environment in which organizations operate. These changes have affected not only production and service processes but also the organization of work, employment relations, management mechanisms, and organizational behavior. In particular, the COVID-19 pandemic forced organizations to reconsider traditional work processes and rapidly adopt remote working technologies in order to maintain business continuity.

Although remote work initially served primarily as a mechanism for maintaining organizational operations during the crisis, its widespread implementation subsequently contributed to the development of broader and more sustainable approaches to work organization. As a result, hybrid work, flexible working arrangements, digital collaboration, and other forms of new work have increasingly become important components of organizational management.

The emergence of new work models has influenced organizational structures and management mechanisms. In traditional organizations, employee physical presence, direct supervision, face-to-face communication, and standardized working schedules have commonly represented important elements of management. In contrast, new work models place greater emphasis on results-oriented management, employee autonomy, digital communication, trust, and flexibility.

These developments are particularly significant in the service sector. Service delivery frequently depends on human capital, knowledge and skills, customer interaction, and communication. Therefore, there is a close relationship between the organization of work and the quality of services provided. From this perspective, the implementation of new work models is not simply a question of where and when employees work. It is also a question of how organizations are managed and how employees are connected to organizational objectives.

The main objective of this paper is to examine the role of new work models in driving organizational transformation in the service sector from a theoretical perspective. To achieve this objective, the paper addresses several related issues, including the main characteristics of new work models, their influence on organizational structures and culture, changes in leadership and communication mechanisms, and the opportunities and challenges associated with their implementation in the service sector.

ANALYSIS

1. The Nature and Main Characteristics of New Work Models

The concept of "new work models" encompasses various organizational approaches that represent alternatives to traditional office-based work and standardized working schedules. These approaches include remote work, hybrid work, flexible working arrangements, digitally enabled work, project-based collaboration, and results-oriented work organization.

Remote work refers to a form of employment in which employees perform their tasks outside the traditional workplace, primarily through the use of digital technologies. Hybrid work combines physical presence at the workplace with remote work. Under a hybrid model, employees may work from the office on certain days and remotely on others. Flexible work arrangements, meanwhile, provide employees with greater autonomy regarding working hours, schedules, and, in some cases, the location from which work is performed.

The number of studies examining remote and hybrid work at the organizational level has increased substantially in the post-pandemic period. Recent research indicates that the process of remote work extends beyond organizational adoption and involves several stages, ranging from organizational implementation to employee outcomes. This process cannot be explained solely by the availability of technology; organizational context, management mechanisms, and employee readiness are also important factors (Ferdous et al., 2026).

One of the fundamental characteristics of new work models is flexibility. Flexibility enables both organizations and employees to adapt to changing conditions. At the same time, however, flexibility requires organizations to reconsider traditional control mechanisms. When direct physical supervision becomes less feasible, the management of objectives, outcomes, and work processes becomes increasingly important.

Another important characteristic is digitalization. Digital communication platforms, cloud technologies, videoconferencing systems, and project management tools enable employees located in different geographical areas to collaborate effectively. Consequently, technology has become one of the central infrastructural components supporting new work models.

2. New Work Models and Organizational Transformation

Organizational transformation refers to significant changes in an organization's structures, processes, culture, technologies, and management approaches. New work models can function both as an outcome of organizational transformation and as a factor accelerating this transformation.

Traditional organizational structures tend to rely on hierarchical management and centralized decision-making. However, the implementation of new work models requires organizations to develop more flexible structural arrangements. When employees work from different locations, managers have fewer opportunities to directly observe work processes. Consequently, organizations may need to delegate certain decisions to lower management levels and increase employee autonomy.

From this perspective, new work models may encourage a transition from a control-oriented approach toward a trust- and outcome-oriented approach. Physical presence in the office can no longer be considered a direct indicator of employee productivity. Instead, the establishment of clear objectives, measurement of outcomes, and employee accountability become more important.

The literature suggests that hybrid work models influence organizational dynamics in several ways. These include organizational change, employee readiness for new forms of work, and the restructuring of work processes (Hasyim & Bakri, 2024).

Another important area affected by new work models is organizational culture. Reduced physical interaction may decrease informal communication, social relationships, and employees' sense of belonging. Therefore, organizations operating through hybrid and remote models need to develop alternative mechanisms for maintaining organizational culture and social connections.

Consequently, organizational transformation in the context of new work models should not be understood solely as a technological process. It also involves behavioral and cultural transformation.

3. Changes in Leadership and Communication Mechanisms

The implementation of new work models requires changes in leadership approaches. Under traditional management arrangements, managers can directly observe and supervise employees' activities. In remote and hybrid work environments, such opportunities are considerably more limited. Therefore, leadership increasingly relies on communication, trust, performance management, and employee support.

This issue is particularly important in the service sector. Because service employees frequently interact directly with customers and perform communication-intensive and emotionally demanding tasks, managerial support and leadership can influence service quality. During the COVID-19 pandemic, the relationship between virtual work, leadership, and employee performance in service organizations became an important research area (Bartsch et al., 2021).

Communication represents one of the key factors determining the effectiveness of new work models. In remote and hybrid work environments, communication is not merely a mechanism for transmitting information; it also contributes to maintaining organizational culture and collective relationships.

Research conducted in the service sector indicates that different levels of organizational communication are associated with employee satisfaction. Communication between the organization and employees, between managers and employees, and among colleagues can contribute to employee satisfaction through different mechanisms (Curado et al., 2022).

However, digital communication cannot be considered a complete substitute for face-to-face interaction. Research in professional service contexts indicates that digital communication creates opportunities for flexible collaboration while also generating new challenges related to social interaction and team dynamics. Therefore, organizations should not simply increase the number of digital communication tools but should also establish clear principles regarding how and for what purposes these tools should be used.

4. The Impact of New Work Models on Organizational Behavior

One of the main reasons why new work models have become an important element of organizational transformation is their influence on employee behavior. In traditional work environments, employee behavior is partly shaped by the physical workplace, direct managerial su-

pervision, and daily interaction with colleagues. Under remote and hybrid work arrangements, employees assume greater responsibility for planning and managing their own activities.

This transformation can strengthen employee autonomy and individual responsibility. At the same time, however, it may create challenges such as social isolation, communication difficulties, and psychological distance from the organization. For example, research has indicated that virtual interaction during the transition to hybrid work may be associated with professional isolation (Lenzner et al., 2023).

Therefore, organizations should consider not only employees' technical readiness but also their behavioral readiness for new work arrangements. Employees are increasingly expected to work independently, manage their time effectively, use digital communication tools, and take responsibility for outcomes.

At the organizational level, the establishment of a trust-based environment is equally important. Excessive digital monitoring and continuous surveillance of employee activities may undermine the flexibility that new work models are intended to provide. Effective management should therefore seek to balance employee autonomy with organizational accountability.

5. The Role of New Work Models in the Service Sector

A defining characteristic of the service sector is the importance of human capital and interaction with customers. In banking, insurance, consulting, information technology, education, professional services, and related areas, a significant proportion of knowledge- and information-based work can be performed through digital environments. Consequently, the service sector provides considerable opportunities for implementing new work models.

Nevertheless, not all service activities can be performed remotely to the same extent. Some services require physical presence, while activities such as consulting, financial analysis, programming, and certain administrative functions can be performed remotely. Therefore, rather than applying a single work model across the entire service sector, organizations need to select hybrid and flexible arrangements according to the characteristics of individual jobs.

The main areas through which new work models influence the service sector can be summarized as follows:

Table 1

Main Areas of Impact of New Work Models in the Service Sector

Area of impact	**Main change**	**Organizational outcome**
Work organization	Remote and hybrid work	Increased flexibility
Management	Shift from supervision to outcome orientation	Greater autonomy and accountability
Communication	Use of digital platforms	New communication channels
Leadership	Trust- and support-oriented management	Changing leadership role
Organizational culture	Reduced physical interaction	Need for new social connection mechanisms
Technology	Digital collaboration tools	Acceleration of digital transformation
Human resources	Flexible work and new skills	Demand for new competencies

Source: *By the author.*

As illustrated in Table 1, the impact of new work models extends beyond changes in working conditions. They also affect management, human resources, communication, and organizational culture.



Figure 1. Relationship Between New Work Models and Organizational Transformation
Source: *By the author.*

Therefore, the effective implementation of a new work model requires not only technological readiness but also managerial and organizational readiness.

6. Key Challenges in Implementing New Work Models

